AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ



# MAGİSTRANTLARIN XII REGİONAL ELMİ KONFRANSININ MATERİALLARI

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

# MAGİSTRANTLARIN XII REGİONAL ELMİ KONFRANSININ MATERİALLARI

**NAXÇIVAN-2022**

Naxçıvan Dövlət Universiteti.
Magistrantların XII Regional
Elmi Konfransının Materialları. 2022, 343 səh.

**BURAXILIŞA MƏSUL:** **ETİBAR MƏMMƏDOV**
*biologiya üzrə elmlər doktoru, professor*

© NDU-nun «Qeyrət» nəşriyyatının mətbəəsində çap olunmuşdur.

## FİZİKA-RİYAZİYYAT

**AYGÜL RZAYEVA**
*Fizika fənninin tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*aygulrzayeva1999@gmail.com*

# FİZİKADAN MƏSƏLƏ HƏLLİ TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ VASİTƏ KİMİ

Fizikadan məsələ həlli təlim prosesinin zəruri və faydalı elementlərindən biridir. Məsələ həlli fizikanın təlimində bir çox funksiyaları yerinə yetirir. Məlumdur ki, təlim prosesində müxtəlif məqsədlər (idraki, inkişafetdirici və tərbiyəedici) inkişaf etdirilərək formalaşdırılır. Məsələ həlli də göstərilən məqsədlərin reallaşdırılmasında bir vasitədir. Bir çox fənlərin tədrisində məsələ həllinə diqqətin yetirilməsinə bir o qədər ehtiyac olmasa da, fizikanın tədrisini məsələ həll etmədən düşünmək olmaz. Çünki məktəb təcrübəsi göstərir ki, məsələ həll etmədən fizikanı mənimsəmək mümkün deyildir.

Ənənəvi təlim prosesindəki kimi fizika fənninin tədrisində məsələ həlli şagirdlərin yaradıcı qabiliyyətinin inkişafına və formalaşmasına rəvac verə bilməz. Dərs zamanı nəzərdə tutulan məsələnin həlli düşünülmüş, məqsədəuyğun metodiki əsaslandırma ilə müşayiət olunarsa müəyyən funksiyaları həyata keçirmək mümkündür. Ona görə də fizikanın tədrisi prosesində standart və qeyri-standart məsələlərin həllində şagirdlə rin müstəqil yaradıcı fəaliyyətinə diqqətin yeti rilməsi bugünkü təhsil sistemində aktual problemlərdən biridir. Eyni zamanda qeyd etmək istərdik ki, təhsilin keyfiyyətinin göstəricisi şagirdlərin təlim prosesində qazandıqları informasiyaların çoxluğuna görə deyil, yaradıcı fəaliyyət hesabına məsələnin (standart və yaxud qeyri-standart) həllinin nəticəsinə görə müəyyən edilməlidir. Əsaslı əhəmiyyət kəsb etməyən məsələnin həll etdirilməsi təhsilin keyfiyyət göstəricisi ola bilməz. Təhsilin keyfiyyət göstəricisi həll olunacaq məsələnin çətinlik səviyyəsinə görə müəyyən olunması daha müvəffəq hesab oluna bilər.

Fizika fənn kurikulumunda məsələ həlli ilə bağlı şagird şəxsiyyətini formalaşdırmaq üçün məzmun xətləri üzrə müəyyən standartlar müəyyən olunmuşdur. Təhsilin keyfiyyətinin yüksəldilməsində həmin standartların tələbi öz əksini tapmalıdır. Fizikanın tədrisində məsələ həlli vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi onu həyata keçirən müəllimin peşəkarlıq səviyyəsindən əsaslı dərəcədə asılıdır. Tədrisin keyfiyyəti onu həyata keçirən müəllimin peşəkarlıq keyfiyyətindən yüksək ola bilməz. Müxtəlif standart və qeyri-standart məsələlərin həllində zəruri olan elmi metodların və qaydaların seçilməsi təlimin məqsədinə uyğun müəllimin peşəkarlıq səviyyəsindən asılıdır. Məsələ həlli vasitəsilə yüksək keyfiyyətli nəticə almaq kifayət qədər asan deyildir. Yüksək keyfiyyətli nəticə almaq üçün hər bir şagirdin marağı, meyli nəzərə alınmaqla təlim prosesində fəal iştirakı təmin olunmalıdır. Fəal iştirak üçün də şərait qurulmalıdır. Fəal iştirakı təmin edilən şagird müxtəlif: idraki, informativ, kommunikativ, sosial, inteqrativ bacarıqlar qazana bilər. Bacarıqların formalaşdırılmasına müasir dərsin metodik strukturu da imkan verir. Bu da təhsilin keyfiyyətinin məsələ həlli vasitəsilə artırmağa imkan verir. Lakin onu da qeyd etmək istərdik ki, məktəb təcrübəsi göstərir ki, məsələ həlli ilə bağlı müəyyən çətinliklər mövcuddur.

– şagirdlərin fərdi xüsusiyyətlərinin və idraki imkanlarının məsələnin həllinə cavab verməməsi;
– həll olunması nəzərdə tutulan məsələlərin şagirdlərin maraqlarına uyğunsuzluğu;
– mövcud biliklərin məsələnin həllinə tətbiq oluna bilməməsi;
– şagirdlərin təşəbbüskarlığının, yaradıcılığının və təxəyyülünün zəifliyi;
– inteqrativ biliklərin kifayətləndirici olmaması və s.

Fənni tədris edən müəllim təhsilin keyfiyyətinin yüksəldilməsindəki çətinliklərin səviyyəsini müəyyənləşdirməklə nəzərdə tutulan məqsədi həyata keçirilməsinə imkan verən strategiyalar haqqında da düşünməlidir. Məsələ həllinin təlim məqsədi, təlim vasitəsi kimi funksiyaları

mövcuddur, amma təhsilin keyfiyyətinin artmasına təsir etməsinin praktiki olaraq müəyyənləşdirilməsinə aid müxtəlif siniflər səviyyəsində bir neçə nümunəyə diqqət yetirək. Buna görə fizika fənn kurikulumunda məsələ həlli ilə əlaqədar bir sinif (6-cı sinif) səviyyəsində standartlara diqqət yetirək.

1. Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar, məzmun xətti üzrə: 1.1.2. Müxtəlif xarakterli fiziki hadisələrə dair sadə məsələlər həll edir;

2. Maddə və sahə, qarşılıqlı təsir, əlaqəli sistemlər məzmun xətti üzrə: 2.1.4. Maddələrin quruluşuna (aqreqat hallarına) dair sadə məsələlər həll edir, məzmun standartları müəyyənləşdirilmişdir.

VI sinif üçün "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xətti üzrə müəyyənləşdirilmiş 1.1.2. alt standartına "Müxtəlif xarakterli fiziki hadisələrə dair sadə məsələlər həll edir" diqqət yetirək:

Nümunə: 1. Aşağıda verilmiş mətndəki hadisələr çoxluğundan mexaniki, səs, işıq, istilik, elektrik hadisəsinə aid olanları seçin.

Göy-qurşağı, ildırım boşalması, göyün üzünün buludla örtülməsi, qarın əriməsi, göy gurultusu, günün çıxması, çaylarda suyun daşması, buludların hərəkəti, əks-səda, suyun donması, buzun əriməsi, şeh damlasının bitki yar paqlarında müşahidəsi, şeh damcısının parıltısı, qütb parıltısı və s. və yaxud VI sinif üçün "Maddə və sahə, qarşılıqlı təsir, əlaqəli sistemlər məzmun xətti üzrə: 2.1.4. Maddələrin quruluşuna (aqreqat hallarına) dair sadə məsələlər həll edir standartını reallaşdırmaq üçün istifadə etdiyimiz həyatı əhəmiyyətli keyfiyyət xarakterli məsələ nümunələrinə diqqət yetirək:

2.Nümunə 1. Nə üçün qış aylarında əlinizə hovxurduqda isti, üfürdükdə soyuqluq hiss edirsiniz? Tərəvəz məhsulu olan xiyarın temperaturunun ətraf mühitin temperaturundan 1-2 C°aşağı olmasını necə izah edərdiniz?

3.Nə üçün bir çox səhra bitkilərinin yar paqları əvəzinə tikanları olur?

4.Kənd təsərrüfatında torpaqların yumşaldılmasının onun tərkibindəki rütubətliyə təsirinə görə əhəmiyyətini necə izah etmək olar?

5.Nə üçün yağışdan sonra çiçəklərin ətri ətrafda daha çox hiss olunur?

6.Yay günlərində axşamlar suvarılan çə tirli ağacların altında oturduqda daha çox sərinlik hiss olunur? Səbəbini izah edin.

7.İş görərkən tərləyən adamın işin sonunda əlavə paltar geyinməsinin səbəbi nədir?

8.Keçmiş illərdə kənd təsərrüfatı sahələrində çalışan insanlar isti yay günlərində suya olan tələbatlarını təmin etmək üçün saxsı dolçalardan istifadə etmişlər. Səbəbini izah edin.

9.Kosmonavt kosmik gəmidən açıq kosmosa çıxdığı zaman su olan qabın ağzını açarsa nə müşahidə olunar?

10.Küləyin əsməsinin açıq havada asılmış termometrin göstərişinə təsiri varmı?

Mövzu: Mexaniki və istilik hadisələri

11.Aşağıda göstərilən fikirlərin hansı hadisələrə (fiziki, bioloji, kimyəvi) aid olduğunu qruplaşdırın. At qaçır, təyyarə uçur, gəmi üzür, su qaynayır, ağaclar yarpaqlarını tökür, elektrik lampasının spiralı közərir, bitkilər boy atır, süd turşuyur, göy guruldayır, şimşək çaxır, dəmir paslanır, meyvələr yetişəndə rəngləri dəyişir, kibrit çöpü yanır.

12.Qabın temperaturu dəyişdikdə onun tutumu da dəyişərmi?

13.Çay qoyan zaman nə üçün çayniki su ilə tam doldurmaq məsləhət deyil?

14.Yolun kənarında duran adam qarşı tərəfdəki avtobus dayanacağına keçmək istəyərkən, müəyyən məsafədə yük avtomobilinin sürətli hərəkətini müşahidə edir. Yol hərəkəti qaydalarına əsasən adamın hərəkətinə üstünlük verilməsinə baxmayaraq, yük avtomobilinin qarşısından keçmək nə üçün təhlükəli hesab olunur?

15. Nə üçün minik maşınlarının hərəkəti müddətində kəmərlərin bağlanması tələb olunur?

1. Eyni sürətlə hərəkət edən velosipedi və yaxud motosikli kəskin tormozlandıqda hansının idarə edilməsi asan olar? Yol, yerdəyişmə, məsafə, trayektoriya anlayışlarını fərqləndirin.

2. Minik avtomobilinin hərəkəti zamanı irəliləmə və fırlanma hərəkəti edən hissələrini sadalayın.
3. Mexaniki qol saatlarını axşam, yoxsa səhər zamanı doldurmaq lazımdır?
4. Nə üçün yaz və yay aylarında daş döşənmiş küçə oturacaqlarında səhərlər yox, axşamlar oturmaq məsləhətdir.
5. İldırım boşalması zamanı harada daldalanmaq, əlverişlidir, tək ağacın altında, qayanın dibində, yoxsa göl kənarındakı çimərlikdə?
6. Yaz-yay aylarında yağışdan sonra göy qurşağında rənglərin yaranması, su damlası, yoxsa günəş şüası ilə əlaqədardır?
7. Nə üçün üzüm ağaclarını orta enlikdə, binaların və daş hasarların cənub hissələrində əkməklə vegetasiya müddətini azaltmaqla məhsuldarlığı artırmaq olur.
8. Dağların zirvəsində qazanda olan suyun qaynamasına baxmayaraq, ət gec bişir. Səbəbini izah edin. Gecikməsini necə aradan qaldırmaq olar?
9. Nə üçün su buxarı, həmin temperaturda olan suya nisbətən daha intensiv yandırıcı təsir göstərir?
10. Eyni maddə bərk, maye və qaz halında olduqda onun xassələrinin müxtəlifliyinin səbəbi nədir?
11. Qabın temperaturu dəyişdikdə onun tutumu da dəyişərmi?
12. Soyuq və isti mənzillərin hansında süd daha tez turşuyar?
13. Suyu qızdırmadan qaynatmaq olarmı?
14. Maye və qazlar aşağıdan qızdırılır, bərk cisimlər üçün bu üsulun əhəmiyyəti yoxdur. Səbəbini izah edin.
15. Hansı şəraitdə civə bərk halda , hava isə maye halda ola bilər?
16. Mayelər hansı xassələrə malikdir?
17. Məktəb təcrübəsi göstərir ki, fizikanın tədrisində keyfiyyət xarakterli həyati əhəmiyyətli məsələlərdən fəal dərsin bütün mərhələlərində: motivasiya, tədqiqatın aparılması, məlumatın mübadiləsi, müzakirə, nəticənin çıxarılması, produktiv tətbiqetmə və qiymətləndirmədə istifadə etmək mümkündür. Dərsin göstərilən şəkildə qurulması fizikanın təhsil keyfiyyətinin yüksəlməsinə əsaslı dərəcədə təsiri vardır. **Problemin aktuallığı.** Fizikanın təlimində məsələ həlli vasitəsilə lazımi pedaqoji effekti psixoloji-idraki maneələri aradan qaldırmaqla həyata keçirmək olar.

**Problemin elmi yeniliyi.** Fizikanın təlimində məsələ həllindən didaktik vahid kimi istifadənin metodikasının təhsilin keyfiyyətinə təsiridir

**Problemin praktik əhəmiyyəti.** Fizikanı təlimində məsələ həlli fənnin əsaslarının dərkinə kömək etməklə bərabər idraki, kommunikativ, informativ bacarıqların inkişafına səbəb olur.

## ƏDƏBİYYAT

1.Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı: 2012.
2.Qərayev Ə.Ə. Fizika təlimində məsələ həlli bacarıqlarının formalaşdırılmasının vasitəsi kimi // ARTPİ-nin Elmi əsərləri, 2009, № 1
3.Qərayev Ə.Ə. Məsələ həllinə dair dərs sisteminin qurulmasının dövrülük prinsipi // ARTPİ-nin Elmi əsərləri, 2010, № 3
4.Тряпицина Ф.П. Компетентностный подход в педагогическом образовании // Человек и обра- зование, 2006, № 4-5
5.Ларченкова Л.А. Решение физических задач как средство диагностики и преодоления психоло- го-познавательных барьеров при обучении физики. // Физическое образование в вузах, 2012, Т.18, № 2
6.Хуторской А.В. Ключевые компетенции как компонент личностно-ориентированной пара- дигмы образование, 2003, № 2
7.Лукошик В.И. Сборник задач по физике 7 класс. М.: Просвещение, 2005.
8. Тульчинский М.Е. Качественные задачи по физике 6-7 классы. М.: Просвещение, 1976

**GÜNAY XƏLİLZADƏ**
*Fizikanın tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*khelilzadeaqalib@gmail.com*

# AĞIRLIQ QÜVVƏSİNİN TƏSİRİ ALTINDA HƏRƏKƏTİN ÖYRƏNİLMƏSİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ

Fəal (interaktiv) təlim" şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Bu təlim-tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur. Onun üçün aşağıdakı cəhətlər səciyyəvidir:

- müəllim tərəfindən şüurlu surətdə (iradi olaraq) idraki problem situasiyasının yaradılması;
- problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;
- şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Fəal (interaktiv) dərs ənənəvidən onunla fərqlənir ki, uşaqlar özləri biliyi əldə edir, onlar fəaldır, təlim prosesinə cəlb olunurlar, müəllim bələdçi rolunu oynayır, amma sinfə hakim olmur, sinifdəki iqlim uşaqların sərbəstləşməsinə səbəb olur, uşaqlar öz fikirlərini söyləməyə qorxmurlar. Baxmayaraq ki, o ənənəvi dərsdən fərqlənir, fəal (interaktiv) dərsin dəqiq strukturu var və qarşıya qoyulan məsələləri həll etməyə imkan verir, uşaqlar biliklərə yiyələnir, tədris proqramı zərər çəkmir.

Fəal (interaktiv) təlimin əsas üstünlüyü - real idrak motivasiyasının (biliklərə yiyələnmək həvəsinin) yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Real ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyatların səfərbərliyini təmin edir, idrak fəaliyyətini şövqləndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır. Bilgilər "hazır" şəkildə deyil, onların müstəqil surətdə kəşfi prosesində mənimsənilir, yəni mənimsəmə prosesi passiv deyil, fəal xarakter daşıyır.

Fəal (interaktiv) təlimin tətbiq edilməsi məktəbdə şəraiti dəyişərək şagirdlərin özünə inamını artırır, şəxsiyyətarası münasibətləri yaxşılaşdırır, məktəbə və oxumağa olan münasibəti daha müsbət edir, biliklərə müstəqil yiyələnmək və yenilərini əldə etmək, onlardan həyat məqsədlərinə çatmaq üçün istifadə etmək vərdişlərini formalaşdırır.

"İnteraktiv"termini **"**dialoq, qarşılıqlı fəaliyyət göstərmək" kimi izah olunur. Fəal-interaktiv təlim metodları və üsullarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir, onu hər bir şagird üçün daha əhəmiyyətli və maraqlı edir, dərsdə fəallığın maksimum artmasına zəmin yaradır, bununla da təlimin inkişafetdirici aspektini nəzərəçarpan dərəcədə gücləndirir. Təlim-tərbiyə prosesində interaktiv təlim metodlarının tətbiqi şagirdlərdə müstəqil düşünmək, sərbəst rəy söyləmək, başqasının fikrinə münasibət bildirmək, qərar qəbul olunmasında iştirak etmək və sair bu kimi xüsusiyyətlərin təşəkkülünə bilavasitə kömək etməklə tənqidi təfəkkürün formalaşmasına, müstəqillik və çeviklik amillərinin güclənməsinə zəmin yaradır. Bəzi interaktiv təlim metodları və üsullarının mahiyyətini nəzərə çatdırırıq:

İnteraktiv təlim zamanı müəllim üçün ən yaxşı iş formalarından biri qruplar üzrə əməkdaşlıq təlimini təşkil etməkdir. Bu zaman qrupda uşaqları ya dairəvi, ya da qrup halında yerləşdirmək lazımdır. Məşğələnin gedişində tərbiyəçi onlara necə işləmələri barədə məsləhət verə bilər. Ancaq heç vaxt tərbiyəçi uşaqlara öz iradəsini, istəyini qəbul etdirə bilməz, bu zaman uşaqlara sərbəstlik vermək lazımdır. Ancaq uşaqlar məşğələnin gedişində özləri kollektiv fəaliyyətin fərdi işdən üstünlüyünü hiss etməlidirlər. Məhz bu təlim prosesində kollektiv tərbiyə zərurəti yaranır. İnteraktiv təlim metodu tərbiyəyə öz müsbət təsirini göstərir. Uzunmüddətli fəaliyyət zamanı uşaqlar həm də mövqelərinin doğruluğunu müdafiə etməyə yiyələnirlər.

10-cu sinif fizika dərslərində yeni təlim texnologiyalarından istifadə etməklə, şagirdlərin tədqiqatçılıq fəaliyyətinin inkişaf etdirməsinə aid dərs nümunəsinə nəzər salaq.

**Mövzu:** Ağırlıq qüvvəsinin təsiri altında hərəkət.
**I mərhələ. Problemin qoyuluşu. Motivasiya:**

Üfüqə nəzərən bucaq altında atılmış cismin hərəkətinə baxaq.




Şəkildə $\upsilon_o$ başlanğıc sürəti ilə üfüqə nəzərən $\alpha$ bucağı altında atılan cismin trayektoriyası göstərilmişdir. Sürətin OXvə OY oxları boyunca iki toplananı var.

Şagirdlərə yardımçı sual verilir: bu toplananlar haqqında nə demək olar.

Sonra müəllimsürətin üfüqi və şaquli toplananları haqqında məlumat verir.

$$\upsilon_x = \upsilon_{ox} = \upsilon_0 \cos\alpha = const, \quad \upsilon_y = \upsilon_{oy} - gt = \upsilon_0 \sin\alpha - gt$$

**II mərhələ. Tədqiqat:**

Müəllim kompüterdə slaydın köməyilə sürətin üfüqi və şaquli toplananlarını göstərir. Şəklə əsasən cismin OY oxu boyunca g təcili ilə yuxarı bərabəryavaşıyan (trayektoriyanın OA hissəsində), sonra həmin təcillə aşağı bərabəryeyinləşən (trayektoriyanın AB hissəsi) olur. Cisim parabola üzrə hərəkət edir.

$$y = \upsilon_{oy} \cdot t - \frac{gt^2}{2} = \upsilon_o \sin\alpha \cdot t - \frac{gt^2}{2}$$

Müəllim şagirdləri dörd qrupa bölür. Hər qrup öz liderini seçir. Liderlər özlərini təqdim edirlər. Qruplara iş vərəqələri paylanır. Onlar iş vərəqələrində sualların cavablarını yazırlar.

| Qruplar | Şagirdlərə verilən suallar | Cavablar |
|---|---|---|
| I qrup | Üfüqə nəzərən bucaq altında atılmış cismin maksimal qalxma hündürlüyü | $h_{\max} = \frac{\upsilon_o^2 \sin^2\alpha}{2g}$ |
| II qrup | Üfüqə nəzərən bucaq altında atılmış cismin qalxma müddəti | $t_q = \frac{\upsilon_o \sin\alpha}{g}$ |
| III qrup | Üfüqə nəzərən bucaq altında atılmış cismin uçuş müddəti | $t_{uç} = 2t_q = \frac{2\upsilon_o \sin\alpha}{g}$ |

IV qrup Üfüqə nəzərən bucaq altında atılmış cismin uçuş məsafəsi $S_{uç} = \frac{\upsilon_o^2 \sin 2\alpha}{g}$

**III mərhələ. İnformasiya mübadiləsi:**

Qrup üzvləri işlərini təqdim edir. İş vərəqələri lövhədən asılır.

**IV mərhələ. İnformasiya müzakirəsi:**

Şagirdlərin təqdimatından sonra müəllim cavabları sistemləşdirir və sinfə suallar verilir.

Müzakirə sualları.

- Maksimal qalxma hündürlüyündə sürətin şaquli toplananının qiymәti nəyə bərabərdir?
- $\alpha$ bucağının hansı qiymətində uçuş məsafəsi ən böyük qiymət alır?
- bütün trayektoriya boyunca cismin təcilinin istiqaməti haqqında nə deyə bilərsiniz?

**V mərhələ. Ümumiləşdirmə və nəticə.**

Şagirdlərin diqqəti tədqiqat sualına yönəldilir. Müəllim nəticələri bütün siniflə ümumiləşdirir. O, cavabları lövhədə yazır.

## ƏDƏBİYYAT


1. V.Xəlilov. Təlim prosesində yeni texnologiyalar. Bakı: 2011.
2. Murquzov M., Abdullayev S., Abdurazaqov R., Əliyev N., Hüseynli M., Hüseynov C., Səmədov A., Süleymanov A. Fizika 10, Bakı: 2009.
3. R.Əliquliyev, S.Şabanova. Fizika kursunda təlimin informasiya texnologiyalarından istifadə yolları. AMİ-nin xəbərləri №2, Fizika-riyaziyyat, təbiət və informatika elmlərinin problemləri. 2008-ci il.
4. Z.Veysova. Fəal-interaktiv təlim. Müəllimlər üçün vəsait. Bakı: 2007.

**ŞİRZAD BABAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*babayevsirzad1@gmail.com*

# GÜNƏŞ ENERJİSİNİN TERMOEMİSSİYA ÜSULU İLƏ ELEKTRİK ENERJİSİNƏ ÇEVRİLMƏSİ

Müxtəlif üsullarla katodlardan xaricə verilən enerjinin növündən asılı olaraq, günəş enerjisinin elektrik enerjisinə çevrilməsi müasir dövrdə əsas problemlərdəndir. Bu problemin həlli aşağıda göstərilən üç üsulla aparılır.

1) Termoemissiya 2) Termoelektrik 3) Fotoelektrik

**Termoemissiya üsulu:** Məlumdur ki, sonradan katod adlandırılan elektrodu lazımi temperatura qədər qızdırdıqda onun tərkibindəki elektronların enerjiləri artır və bu miqdar enerji onların elektroddan kənara çıxmasına və onun səthini tərk etməsinə kifayət edir. Bu elektronları yaxınlıqda yerləşən digər elektrod-anod üzərində toplamaq olar. Bu ancaq o vaxt mümkündür ki, elektrodlar xarici dövrə vasitəsilə bir-biri ilə keçirici naqil ilə birləşdirilsin. Bu zaman həmin naqildən elektrik cərəyanı axmağa başlayacaq. Elektronun qızmış elektrodu tərk etməsi termoemissiya prosesi, cərəyanın alınması qurğusu isə termo-generator adlanır. Əvvəla katod yüksək temperatura qədər qızdığı vaxt ondan istilik şüalanması şəklində itkilər baş verir. Bu istilik şüalanması anoda düşərək onu da qızdırır və anod özündən elektron buraxmağa başlayır. Anoddan çıxan bu elektronların bir hissəsi belə katodun üzərinə düşərsə, onda dövrədə alınan cərəyanın qiyməti azala bilər, ona görə də anod soyudulmalı və buna da enerji sərf edilməlidir. Termoemissiya prosesində yaranan elektrik cərəyanının sıxlığı, $A/m^2$, Riçardson ifadəsilə hesablanır:

$$i = A \cdot T^2 \cdot \exp -\frac{\phi}{kT}$$

burada A-sabit əmsal, ($A \approx 1{,}2$ $A/m^2K^2$); T-mütləq temperatur, K; $\phi$ -elektronun çıxış işi (metallar üçün $\phi \approx (2 \div 5)$ eV); k-Bolsman sabitidir, qiyməti 1/11600 eV·k-ə bərabər qəbul edilir. İfadədən göründüyü kimi, termoemissiya prosesində yaranan cərəyanın sıxlığı temperaturdan asılıdır.

Təcrübələr göstərir ki, materialın çıxış işi nə qədər kiçik olarsa, onun elektron emissiyası bir o qədər güclü olur. Müasir dövrdə istifadə olunan materialların çıxış işi 1,8 EV-dan 4,5 EV arasında dəyişir.

Termoemissiya üsuluna görə enerjinin alınmasının da aşağıdakı yolları vardır:

- **Termoelektron emissiyası**

Emissiya cərəyanı sıxlığının çıxış işindən və katodun temperaturundan asılılığı Ricardson-Deşman düsturu ilə istifadə edilir.

$$A=(emk_0^2 / 2\pi^2\hbar^3)=1{,}2 \bullet 10^{-6}\ A/(M^2 \cdot K^2)$$

Səthi, çıxış işi kiçik olan maddələrlə suvanmış katodların termoelektron emissiya cərəyanının sıxlığı böyük olur. Bu cür katodlara aktivləşdirilmiş katod deyilir. Katoddan sərbəst elektronların çıxması üçün onları yüksək temperatura qədər qızdırmaq lazım gəlir, buna görə də onlar ərimə temperaturu yüksək olan volfromdan və tantaldan hazırlanır. Konstruksiyalarına görə katodlar bilavasitə və dolayı közərdilən olur.

Bilavasitə közərdilən xüsusi dayaqlarda bərkidilmiş spiral naqil şəklində hazırlanır və ondan cərəyan buraxmaqla közərdilir.Bilavasitə közərdilən katodlara dəyişən cərəyan tətbiq edildikdə emisssiya cərəyanının sıxlığında döyünmələr alınır.

Dolayı közərdilən katodlarda bu çatışmayan cəhət olmadığından müasir elektron lampalarında katod oksid təbəqəsi ilə örtülən nazik divarlı silindr şəklində nikkeldən hazırlanır. Silindrin daxilində qızdırıcı volfrom teli yerləşdirilir. Qızdırıcının verdiyi istilik katodun hər tərəfini eyni qayda ilə müntəzəm qızdıraraq onun aktiv təbəqəsinə ötrülür.

- **Fotoelektron emissiyası**

Xarici mənbənin işıq-şüa enerjisinin təsiri ilə katoddan elektronların çıxması hadisəsinə fotoelektron hadisəsi deyilir. Bu halda metal və yarımkeçiriciləri şüalandırdıqda elektronlara verilən fotonlar onların çıxış işinə bərabər və ondan çox olur. Bu hal çıxış işi nisbətən kiçik olan kalium,

serium, rubidium metallarının üzərinin işıqlanması nəticəsində yaranır. Fotoelektron emissiyasında fotokatoddan yaranan və fotocərəyanı təmsil edən elektronların sayı fotokatodun səthinə düşən işıq selindən asılıdır. Fotoelektron emissiyası elektronika sənayesində geniş tətbiq edilən fotoelementlərin iş prinsipinin əsasını təşkil edir.

**● Avto elektron emissiyası**

Katodun ətrafında güclü elektrik sahəsi yaratdıqda sərbəst elektronların onun səthini tərk etməsi hadisəsi avtoelektron emissiyası adlandırılır. Bu emissiyanın mahiyyəti xarici elektrik sahəsinin təsiri altında metalın səthindən elektronların çıxmasına əsaslanır.

**● Soyuq elektron emissiyası**

Sahə intensivliyinin təxminən 108 $V/m^2$ qiymətində mənfi elektrodun səthindən elektronların çıxma hadisəsidir.

**● İkinci elektron emissiyası**

Metalın səthinin ionlarla bombardman edilməsindən ikinci elektron emissiyası (dübarə) elektron emissiyası yaranır.

## ƏDƏBİYYAT

1.A.M.Paşayev. Yarımkeçricilər. Bakı:1970
2.H.B.Abdullayev, Z.Ə.İsgəndərzadə. Yarımkeçrici çevricilər. Bakı: Elm, 1974
3.V.Qerlax . Tristorlar. Moskva: 1985
4.В.М.Андреев, В. А.Грилихес, В. Д.Румянцев Фото-Электрическое Преобразование Солнечного Излучения с.188

**XANIM ABDULLAYEVA**
*Riyaziyyatın tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*

# YÜKSƏK DƏRƏCƏLİ TƏNLİKLƏRİN HƏLLİNDƏ YARADICI TƏFƏKKÜRÜN FORMALAŞDIRILMASI HAQQINDA

Riyaziyyatın tədrisi prosesində şagird və tələbələrə şüurlu və möhkəm mənimsənilmiş biliklərin verilməsində onların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi yaradıcı təfəkkürün formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Təfəkkür fəlsəfi nöqteyi-nəzərdən obyektiv gerçəkliyin insan beynində fəal inikasıdır [1]. Təfəkkür üç əsas formada təzahür edir:

1) Anlayış; 2) Təklif; 3)Əqli nəticə [2].

Təfəkkürün müxtəlif növləri vardır[1]:

Əyani-əməli təfəkkür, əyani-obrazlı təfəkkür, mücərrəd təfəkkür, əməli və ya praktik təfəkkür, texniki təfəkkür,bədii təfəkkür, məntiqi təfəkkür, riyazi təfəkkür və s.

İnsan təfəkkürünün ən vacib növlərindən biri yaradıcı təfəkkürdür. Yaradıcı təfəkkür sayəsində idrak fəaliyyəti prosesində subyektiv olaraq yeni cəhətlər yaradılır. Burada sadəcə olaraq hazır bilik və bacarıqların tətbiqi ilə kifayətlənilmir. Öyrənilən obyektdə yeni cəhətlər aşkar edilir. Obyektdə yeni baxış və mənalandırma yaradıcı təfəkkür üçün daha xarakterikdir.

Riyaziyyat təlimində yaradıcı təfəkkürün formalaşdırılmasına hesablanmış əməliyyat və metodlar bir tərəfdən tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir,digər tərəfdən şagird və tələbələrə öyrənmə və araşdırmanın müstəqil olaraq aparmalarına rəvac verməklə, onlarda təfəkkür fəaliyyətinin səmərəli təşkilinə ciddi təsr göstərir.

Qeyd etmək lazımdır ki, yaradıcı təfəkkürün formalaşdırılması müxtəlif riyazi məsələlərdə anlayış və tökliflərin öyrədilməsində, tənliklərin həllində, cəbri və həndəsi məsələlərin tədqiqində qurma məsələlərin həllində və bu kimi digər məsələlərdə riyazi təlimin ana xəttini təşkil edir.

Təqdim olunan bu işdə dörddərəcəli tənliklərin Ferrari üsulu ilə həllində yaradıcı təfəkkürün fəaliyyətinin səmərəli təşkili məsələsinə baxılmışdır.

Əvvəlcə dörddərəcəli tənliklərin həllinin Ferrari üsulu ilə həllinin məzmununu şərh edək. $a_0x^4+a_1x^3+a_2x^2+a_3x+a_4 = 0$ , $a_0\neq0$ (1) tənliyinə baxaq.Tənliyin hər tərəfini $a_0$-a bölək, $\frac{a_1}{a_0} = a$, $\frac{a_2}{a_0} = b$, $\frac{a_3}{a_0} = c$, $\frac{a_4}{a_0} = d$ işarələmələrini aparıb

$x^4+ax^3+bx^2+cx+d=0$ (2) çevrilmiş (normal) dörddərəcəli tənliyini alırıq. (2) tənliyində lk iki həddən başqa qalan hədləri bərabərliyin sağ tərəfinə keçirək. $x^4+ax^3=-bx^2-cx-d$ (3). Sol tərəfin tam kvadrat olmasını istəyirik.(3) - ün hər tərəfinə $\frac{a^2x^2}{4}$ əlavə edək. Onda alarıq:

$(x^2+\frac{ax}{2})^2=(\frac{a^2}{4}-b)x^2-cx-d$ (4) Köməkçi Y dəyişəni daxil edək. İstəyirik ki, (4) bərabərliyinin sol tərəfində olduğu kimi, sağ tərəfində də tam kvadrat alınsın.Bu məqsədlə (4) tənliyinin hər iki tərəfinə $(x^2+\frac{ax}{2})y+\frac{y^2}{4}$ əlavə edək.

$(x^2+\frac{ax}{2}+\frac{y}{2})^2 = (x^2+\frac{ax}{2})y+\frac{y^2}{4}+(\frac{a^2}{4}-b)x^2-cx-d$

Buradan isə $(x^2+\frac{ax}{2}+\frac{y}{2})^2 = (y+\frac{a^2}{4}-b)x^2+(\frac{ay}{2}-c)x+(\frac{y^2}{4}-d)$ (5) alınar.

Əgər $A=y+\frac{a^2}{4}-b$; $B=\frac{ay}{2}-c$; $C=\frac{y^2}{4}-d$ işarə etsək, yaza bilərik.

$(x^2+\frac{ax}{2}+\frac{y}{2})^2 = Ax^2+Bx+C$ .İstəyirik ki, y – in elə qiymətini tapaq ki, axırıncı tənlikdə sağ tərəfdəki ifadə tam kvadrat olsun.

$Ax^2+Bx+C$ fadəsinin tam kvadrat olması üçün zəruri və kafi şərt $B^2-4AC=0$ olmasıdır.A,B və C

üçün alınmış ifadələri burada yazsaq, alarıq:

$(\frac{ay}{2} - c)^2 - 4(y + \frac{a^2}{4} - b)(\frac{y^2}{4} - d) = 0$ (6)

Çevirmələr apararaq alarıq:

$Y^3 - by^2 + (ac - 4d)y - (c^2 + a^2d - 4bd) = 0$ (7)

Buradan, $-b=p$; $ac - 4d = q$; $-c^2-a^2d+4bd=s$ işarə edərək , $y^3+py^2+qy+s=0$ (8)kub tənliyini alarıq. Tutaq ki, kub tənliyin həllərindən biri $y_0$ – dır.Onda $y_0$ qiymətini (5) – də yerinə yazsaq $(x^2 + \frac{ax}{2} + \frac{y_0}{2})^2 = (mx+n)^2$ (9) şəklində tənlik alınacaqdır. Buradan isə iki kvadrat tənlik alarıq.

$x^2 + \frac{ax}{2} + \frac{y_0}{2} = mx + n$

$x^2 + \frac{ax}{2} + \frac{y_0}{2} = -mx - n$

Misal.

$x^4+2x^3-3x^2+56x-196 = 0$ tənliyini Ferrari üsulu ilə həll edək

$x^4+2x^3 = 3x^2-56x+196$

$(x^2 + x)^2 = 4x^2-56x+196$

Axırıncı bərabərlikdə sağ tərəfdə tam kvadrat olur.Onda $(x^2 + x)^2 = 4(x-7)^2$ buradan isə iki $x^2+x = 2x-14$; $x^2+x = -2x+14$ kvadrat tənliklərin alırıq.

Tələbələr görürlər ki, Ferrari üsulunda əsas məqsəd verilən tənliyi (9) şəklində tənliyə gətirməkdir. Göstərdiyimiz misalda bu məqsədə birbaşa çatırıq. Lakin çox vaxt (5) şəklində tənliyin sağ tərəfi tam kvadrat olmur. Bu zaman köməkçi y dəyişəni daxil etməklə, $Ax^2+Bx+C$ şəklində ifadənin tam kvadrat olmasının zəruri və kafi şərtindən istifadə edərək, y dəyişəninin $Ax^2+Bx+C$ üçhədlisini tam kvadrata çevirən bir qiymətini tapırıq.

Şərh prosesində tələbələr (1) və (2) tənliklərini ümumi şəkildə n dərəcəli tənlikdən asanlıqla müəyyən edirlər. Bununla bərabər bir sıra suallara cavab axtarmalıdırlar. Məsələn, (2)-dən (3)-ə keçid yeganə variantdırmı? (2)- də birinci və üçüncü hədləri sol tərəfdə saxlayıb, qalan hədləri sağ tərəfə keçirmək olarmı? Köməkçi y dəyişənini daxil edərkən (5)- in sol tərəfini $\left(x^2 + \frac{ax}{2} + y\right)^2$ şəklində ifadə etmək olarmı? Bütün bu və ya digər suallara cavab axtararkən tələbələr həm mövzunu dərindən mənimsəyir, həm də onlarda yaradıcı təfəkkürün formalaşması prosesi ugurla davam edir.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S , Əlizadə Ə.Ə , Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: " Çinar-Çap" NPM 2006, 620S.
2. Muradov R.İ., Tahirov BÖ., Namazov F.M., Əfəndi S.N., Qasımov E.A., Abdullayeva Q.Z. Məktəb riyaziyyat kursunun elmi əsasları. Dərslik. Bakı: 2007, 276 S.
3. Baxşəliyev Y.R., Əbdülkərimli L.Ş. Cəbr və ədədlər nəzəriyyəsi kursu. Bakı: Nurlan, 560 s.

**GÜLNAR ORUCOVA**
*Riyaziyyatın tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*

# MƏKTƏBDƏ RİYAZİYYATDAN SİNİFDƏNXARİC MƏŞĞƏLƏLƏRDƏ ŞAGİRDLƏRİN NƏZƏRİ BİLİKLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİNƏ DAİR

Müasir ümumtəhsil məktəbi qarşısında duran ən mühüm vəzifələrdən biri – şagirdlərin gələcək peşəyə uyğun hazırlığının və ümumi inkişafının təmin edilməsindən ibarətdir. Bu vəzifə müxtəlif yollarla və vasitələrlə həyata keçirilir.

Təlimin məqsədlərini həyata keçirmək üçün tədrisin təşkili formalarından səmərəli şəkildə istifadə edilməsi də əhəmiyyət kəsb edir.

Təlim prosesində biliyin verilməsi üçün müxtəlif metodlar, o cümlədən, müasir təlim metodları tətbiq olunur. Bu metodlarda həm də şagirddə fənnə, elmə maraq yaradan elementlər də vardır. Bunlardan əlavə, dərketməni sürətləndirmək üçün didaktik, əyani-illüstrativ materiallardan da istifadə olunur.

Məktəbdə təlim həm də sinifdənxaric məşğələlər vasitəsilə də həyata keçirilir. Bu növ məşğələlər məktəbdə riyaziyyat fənninin kütləviləşdirilməsində mühüm rol oynayır. Hazırda ümumtəhsil məktəblərində differensiasiyalı təlim metodundan daha çox istifadə olunur. Çünki V-XI siniflərdə bu təlim metodu iki məqsəd üçün nəzərdə tutulur:

1) şagirdlərin bilik səviyyələrinə görə qruplara bölünməsi;
2) fənlərə görə qruplara bölünməsi.

Hazırda hələ aşağı siniflərdən şagirdlər həvəs göstərdikləri fənlərə görə (eyni bir sinifdə) qruplara bölünür və həmin fənlərin tədrisinə xüsusi diqqət yetirilir. “Maraq dərsi” adı ilə məktəblərdə fəaliyyət göstərən təlim şagirdlərin fərdi qabiliyyətlərinə əsaslanır. Məktəbin yuxarı siniflərində şagirdlərin ixtisas fənlərinə görə qruplaşması ilə əlaqədar olaraq, aşağı siniflərdə (V-VIII) müəyyən hazırlıq işləri aparılır. Bu siniflərdə tətbiq olunan sinifdənxaric məşğələ forması şagirdlərin yaş və bilik səviyyələrinə cavab verən təlimin təşkili formasıdır. Hazırda yeni təhsil konsepsiyası məktəbdə fənlərə görə differensiasiyanın tətbiq edilməsi imkanlarına geniş yer verilir.

Orta məktəbdə işləyən qabaqcıl riyaziyyat müəllimlərin iş təcrübəsi göstərir ki, riyaziyyatdan sinifdənxaric məşğələlərdə onların ümumi riyazi hazırlığında və gələcək peşəyə istiqamətlənməsində mühüm rol oynayır. Riyaziyyatdan sinifdənxaric məşğələlər müxtəlif növlərdə olsa da, məqsəd eynidir. Ona görə də bu məşğələlərə riyaziyyata həvəsi, riyazi qabiliyyəti olan şagirdləri cəlb etmək lazımdır. İndi məktəbdə sinifdənxaric işlərin xüsusiyyətlərini nəzərdən keçirək. Riyaziyyatdan sinifdənxaric işlərin birinci xüsusiyyəti – məşğələ mövzularının seçilməsində bir qədər sərbəstliyin olmasıdır. Lakin tədris proqramının imkanları və sərhədləri nəzərə alınmalıdır.

İkinci xüsusiyyət – şagirdlərlə iş formasının müxtəlif olmasıdır.

Üçüncü xüsusiyyət – maraqlı və əyləcəli, həyati tətbiqləri aşkar görünən materialın seçilməsi imkanlarının olmasıdır.

Dördüncü xüsusiyyət – məşğələlərin vaxt büdcəsini müəllim müəyyən edir.

Sinifdənxaric məşğələlərin əlavə xüsusiyyətlərini aşağıdakı kimi xarakterizə etmək olar:
1) şagirdlərdə riyaziyyat fənninə dayanıqlı marağın kifayət qədər formalaşmaması,
2) müəllimin şəxsi fəaliyyətindən asılı olaraq, fənnə marağın forsmalaşması prosesini məhz bu mərhələdən başlayaraq intensivləşdirmək lazımdır.

Bu məqsədlə məktəbdə riyaziyyat kursu materiallarından həyati tətbiqləri aşkar olan mövzulara daha çox yer vermək lazımdır. Hələ ibtidai siniflərdə riyazi qabiliyyətli, riyaziyyata marağı olan şagirdlərə rast gəlinir. Lakin tədris prosesində bu və digər imkanlara malik şagirdləri aşkar etmək üçün kifayət qədər vaxt olmur. Gələcək riyaziyyatçıların ilkin hazırlanması mərhələsi məhz məktəbdə dərs və sinifdənxaric məşğələlərdən başlanır. Müəllim sinifdənxaric işlərə, qabiliyyəti olub, lakin maraq göstərməyən şagirdləri də cəlb etməlidir.

Ümumiyyətlə, siniflərdə riyaziyyatdan sinifdənxaric işlərə şagirdlərin sayının $\frac{1}{3}$-i qədərini cəlb etmək lazımdır. Şagirdlərin bu məşğələlərə marağını təmin etmək üçün müəllim həvəsləndirmədən istifadə etməlidir. Bu məqsədlə, müəllim riyaziyyata aid maraqlı kitabça və digər ləvazimatlarla daha fəal olanları mükafatlandıra bilər. Şagirdlərə fərdi şəkilgə məruzə hazırlamaq, divar qəzeti, bulletentlər hazırlamaq, müəyyən sxemlər çəkmək və s. kimi işlər tapşırmaq olar. Onlar böyük məsuliyyət və həvəslə həmin işləri yerinə yetirirlər. Mövzuları seçərkən, müəllim şagirdlərin maraq dairəsini və yaş xüsusiyyətlərini nəzərə almalıdır. Bu yaş həddindəki uşaqlarda romantika, fantaziya və pafos – güclü olur, müstəqil fəaliyyət göstərmək cəhdi önəmli olur.

Riyaziyyatdan sinifdənxaric işlərin təşkili formaları öz başlanğıcını sinifdə, riyaziyyat dərslərindən götürür: müəllim dərsdə mövzu ilə əlaqədar 5 dəqiqə ərzində maraqlı bir məsələ (hadisə və ya riyaziyyatçı) haqqında məlumat verir. Bu epizodik məlumat şagirdlərin marağına səbəb olur.

Sinifdənxaric məşğələ dedikdə – dərsdən kənar keçirilən və bütün şagirdlər üçün məcbur olmayan təlim prosesi başa düşülür. Əsas formaları: dərnək məşğələsi, riyazi viktorinalar, riyazi axşamlar, riyaziyyatdan divar qəzeti və s. ola bilər.

Qeyd edək ki, orta məktəbdə riyaziyyatdan sinifdənxaric məşğələlər tədris prosesinə kömək etməklə, şagirdlərin ümumi riyazi inkişafına təsir göstərən pedaqoji prosesidir (vasitədir). Bu işin düzgün təşkili, ciddi nəzarətdə olması və şagirdlərin fəaliyyətinin qiymətləndirilməsi – şagirdləri məsuliyyətli və səfərbər edir. Əks halda heç bir nəticə əldə etmək olmaz.

Sinif dərs məşğələsi ilə sinifdən xaric məşğələnin oxşar cəhəti ondan ibarətdir ki, hər ikisində müəllim şagird qrupu ilə işləyir. Lakin sinifdənxaric məşğələlərdə şagirdlərin bilik, qabiliyyət səviyyəsi yüksək olduğundan, müəllim bir qədər sərbəst hərəkət edir.

## ƏDƏBİYYAT


1. Həmidov S.S. V-VI siniflərdə riyaziyyatın tədrisi metodikası. Bakı: ADPU, 2004, 250s.
2. Əliyev Ə.M. Riyaziyyatdan sinifdənxaric işlərin təşkili və aparılması. Bakı: 1974, 35s.
3. Hüseynova S.R. Riyaziyyatdan ümumiləşdirici və inkişafetdirici məsələlər vasitəsilə nəzəri biliklərin verilməsi və möhkəmləndirilməsi metodikası, nam. dis., Bakı: ADPU, 2003, 176 s.
4. Həmidov S.S. İbtidai siniflərdə məsələ həllinin təlimi metodikası. Bakı: Nurlan, 2003, 152s.
5. Матвеева Н.А. Методические приемы обучения составлению текстовых задач, «НШ» (ж), М., 2003, №6, с.41-45

**SƏMA HƏSƏNLİ**
*Fizikanın tədrisi metodikası*
*və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*

## ELEKTRONLARIN HALLARA GÖRƏ PAYLANMA FUNKSİYASI

Bu məqalədə sərbəst yükdaşıyıcıları (elektron və ya deşiklər) kristal qəfəsin rəqsləri ilə statistik (termodinamik) tarazlıqda olan yarımkeçirici kristallara baxılıb. Termodinamik tarazlıqda sistemin halı onu bu tarazlığa gətirib çıxaran qarşılıqlı təsirin mexanizmindən asılı olmadığı üçün biz elektron və deşiklərin kristal qəfəs ilə qarşılıqlı təsirinin mexanizmi ilə tanış oluruq.

Məqalədə kristalda olan sərbəst elektronların (və ya deşiklərin) konsentrasiyasını tapmaq üçün E və E+dE enerji intervalına düşən kvant səviyyələrinin sayını və bu səviyyələrdə elektronun (və ya deşiyin) olma ehtimalı (yəni paylanma funksiyası) öyrənilib. Elektron və ya deşiklərin kvant səviyyələrində paylanmasını müfəssəl müzakirə etməzdən əvvəl yükdaşıyıcıların hallara görə paylanma funksiyası, fiziki kəmiyyətlərin orta qiyməti və kvant səviyyələrinin sıxlığı məvhumu ilə tanış oluruq.

*X,Y,Z,* koordinatları və $P_x,P_y,P_z$ impulsları fəzası faza fəzası adlanır.Faza fəzasında ($x,y,z; P_x,P_y,P_z$) koordinatları nöqtələr ətrafında quruluş həcm elementinə baxaq:

$$d\Gamma = dxdydzdp_x dp_y dp_z = d\tau_r d_p \qquad (1)$$

Aydındır ki, $d\Gamma$ həcm elementi kifayət qədər kiçikdirsə, bu həcmdəki elektronların dN sayı $d\Gamma$ həcminin ölçüləri ilə mütənasib olar. Bundan əlavə, bu say faza fəzasında $(\vec{r}, \vec{p})$ nöqtəsindən olub hər hansı $F(\vec{r}, \vec{p}, t)$ funksiyası ilə təyin olunur.

$$dN = F(\vec{r}, \vec{p}, t)d\Gamma \qquad (2)$$

Bu ifadəni bütün faza fəzası üzrə inteqrallasaq, elektronların tam N sayını alarıq:

$$N = \int_{(V_r)} F(\vec{r}, \vec{p}, t)d\Gamma \qquad (3)$$

$F(\vec{r}, \vec{p}, t)$ funksiyası faza fəzasının vahid həcmindəki elektronların sayını müəyyən edir. Onun əvəzinə ondan elektronların N sayı dəfə kiçik $f(\vec{r}, \vec{p}, t)$ funksiyasını daxil edək:

$$f(\vec{r}, \vec{p}, t) = \frac{1}{N} F(\vec{r}, \vec{p}, t) \qquad (4)$$

Onda, $f(\vec{r}, \vec{p}, t)$ funksiyası bir elektronun vahid faza fəzasında olmaz ehtimalını verər. Buna əsasən

$$\int_{(V_r)} F(\vec{r}, \vec{p}, t)d\Gamma = 1 \qquad (5)$$

bərabərliyi normalaşma şərti adlanır. İnteqrallaşma krtistalın tam V həcmi və impulsun bütün mümkün qiymətləri üzrə aparılır. Normalaşma şərti zamandan asılı deyil, paylanma funksiyası isə ümumi halda zamandan asılıdır. Paylanma funksiyasının köməyilə ilə koordinat impulsundan asılı olan ixtiyari fiziki kəmiyyətin orta qiymətini hesablamaq olar.[1] Fərz edək ki, $\alpha$ elektronun hərəkət halından asılı hansı kəmiyyətdir:

$$\alpha = \alpha(\vec{r}, \vec{p}, t).$$

Onda $d\Gamma$ faza fəzasından hər biri $\alpha(\vec{r}, \vec{p}, t).$ kəmiyyətinə malik

$$dN = Nf(\vec{r}, \vec{p}, t)dF \qquad (6)$$

sayda elektron yerləşir. *dN* sayda elektron üçün fiziki kəmiyyətlərin cəm qiyməti

$$\alpha dN = \alpha(\vec{r}, \vec{p}, t) N f(\vec{r}, \vec{p}, t) d\Gamma \qquad (7)$$

kimidir. Əgər bu kəmiyyəti bütün faza fəzası üçün inteqrallasaq, bütün elektronlar üçün $\alpha$ kəmiyyətinin cəm qiymətini almış olarıq; bu cəmi elektronların ümumi sayı N-ə bölməklə isə $\langle\alpha\rangle$ bu kəmiyyətinin cəm qiymətini alarıq:

$$\langle\alpha\rangle = \frac{1}{N}\int_{V_r} \alpha dN = \int_{V_r} \alpha(\vec{r}, \vec{p}, t) f(\vec{r}, \vec{p}, t) d\Gamma \qquad (8)$$

Əgər (7) kəmiyyətini yalnız impulsa görə inteqrallayıb, $Nd\tau_r$ -ə bölsək, onda elektronların $r$ nöqtəsi ətrafında malik olduqları $\overline{\alpha(\vec{r})^p}$ orta qiymətini almış olarıq.Praktiki cəhətdən mühüm olan bir halı nəzərdən keçirək. Fərz edək ki, paylanmanın funksiyası koordinatdan asılı deyil. Onda (5) münasibətinin koordinatlar üzrə inteqralı cismin V həcmini verir, bunun da nəticəsində paylanma funksiyasının impulslar üzrə inteqralı həcmin tərs qiymətini verməlidir. Əgər $\alpha$ kəmiyyəti də $r$ koordinatlardan asılı deyilsə, onun impuls üzrə ortalaşmış qiyməti $\overline{a^p}\frac{\langle\alpha\rangle}{V}$ verir ki, burada V cismin həcmidir.Cərəyanın sıxlığını paylanma funkisyası ilə

$$\vec{j} = en\langle\vec{v}\rangle = enV\int_{-\infty}^{+\infty} \vec{V} f(\vec{r}, \vec{p}, t) d\tau_p = en\vec{v}_d \qquad (9)$$

kimi ifadə etmək olar.

Əgər, $f(\vec{r}, \vec{p}, t) = f(\vec{r}, -\vec{p}, t)$, yəni $\vec{v}$ və $-\vec{v}$ sürətləri ilə hərəkətlər eyni ehtimalı olarsa, onda sürətin orta qiyməti $\langle\vec{v}\rangle$ , $\frac{\vec{p}}{m} f(\vec{r}, \vec{p}, t)$ funksiyası tək funksiya olduğundan, simmetrik intervalda inteqrallamada sıfra bərabər olur. Termodnamik tarazlıq halında olan metallarda elektronların hərəkəti cüt simmetrik paylanma funksiyası ilə təsvir olunur. Buradan çoxdan məlum olan bir fakt meydana çıxır: istilik hərəkəti cərəyanın yaranmasına gətirib çıxarmır. Cərəyanın meydana çıxması üçün paylanma funksiyasının simmetrikliyini pozmağa müvafiq lazımi şərait yaradılmalıdır, bu zaman sürətlərin müəyyən istiqamətdə yönəlmə ehtimalı digər istiqamətlərə nəzərən daha üstün olur. Bu elektronlar toplusunun fəzada müəyyən yerdəyişməsinə gətirib çıxarır, xaotik istilik hərəkətinə elektronların istiqamətlənmiş hərəkəti əlavə olunur ki, bu da müxtəlif səbəblərdən; elektrik sahəsi, temperaturu qradienti, qeyri-bərabər işıqlanma və s. nəticəsində baş verə bilər.Kvant statistikasına görə sistemin tarazlıq halına uyğun paylanma funksiyasının ifadəsi ($f=f_0$)

$$f_0(E,T) = \frac{1}{e^{\frac{E-F}{k_0-F}} + 1} \qquad (10)$$

kimidir. Burada E-elektronun verilmiş halını xarakterizə edən tam enerji, $T$-mütləq temperatur, $k_0$ – Bolsman sabiti, F-Fermi enerjisi (səviyyəsi)-dir [2].

$f_0$ $(E, T)$ kəmiyyəti E enerjili səviyyəsinin elektronla tutulma ehtimalıdır. $f(E,T)$ - Fermi-Dirak funksiyası adlanır. Deməli, elektronun E-enerjiyə malik səviyyədə alma ehtimalı enerjinin E qiyməti və T mütləq temperaturdan asılıdır. Bundan əlavə, (10) ifadəsindən göründüyü kimi, bu ehtimal həm də $F$-Fermi səviyyəsindən asılıdır. Bunun fiziki mənasının sonrakı sadə hallar üçün aparılacaq mühakimələrdəm asanlıqla başa düşmək olar. Fərz edək ki, $T \to 0$,

$$\lim_{T\to 0} f_0(E,T) = \begin{cases} 1 & E\langle F, \\ 0 & E\rangle F. \end{cases} \qquad (11)$$

$E=F$ qiymətində funksiya təyin olunmayıb, bundan əlavə,o kəsilməyə məruz qalır. Şəkil 1.-də $f_0(E,T)$ funksiyasının qrafiki verilmişdir. Qrafikdən göründüyü kimi, $T$=0 temperaturda enerjinin $E<F$ şərtini ödəyən qiymətlərində bütün səviyyələr elektronlar dolu, $E<F$ -ə uyğun səviyyələr isə tamamilə

boşdur.Verilmiş halda Fermi səviyyəsinin fiziki mənası çox əyani nəzərə çarpır: Fermi səviyyəsi metallarda mütləq sıfır temperaturlarda elektronların malik olduqldarı maksimum enerjidir. Fiziki məna baxımından Fermi enerjisi, F, ədədi qiymətcə, sabit həcm və temperturda sistemdə zərrəciklərin sayını mmm bir vahid artırmaq üçün görülən işə bərabərdir

İndi $T \neq 0$ olan hala baxaq. (10) ifadəsində temperaturun sıfırdan fərqli istənilən qiymət üçün E=F olduqda

$$f(E=F,T)=\frac{1}{2}=0{,}5 \qquad \text{alarıq.}$$




***Şəkil 1. Müxtəlif temperaturlarda Fermi-Dirakfunksiyası və onun enerjiyə görə törəməsi***

Ümumi halda Fermi enerjisi bir zərrəciyə düşən Gibbs termodinamik potensialdır.[3] Bu kəmiyyəti həmçinn kimyəvi potensial da adlandırırlar.

Əgər $E<<F$ olarsa, $f_0(E,T)\approx 1$, $E>>F$ olarsa isə (10) ifadəsində $e^{\frac{E-F}{k_0T}}>>1$ olduğundan, məxrəcdə vahidi ekspotensial həddə görə nəzərə almasaq, Fermi-Dirak paylanma funksiyası aşağıdakı şəklə düşər;

$$f_0(E,T)\approx e^{\frac{E-F}{k_0T}}=e^{\frac{F}{k_0T}}e^{\frac{E}{k_0T}}Ae^{\frac{E}{k_0T}} \qquad (12)$$

Deməli, enerjinin Fermi enerjisindən çox-çox böyük qiymətlərində (E>>F) elektron qazı Bolsman statistikasına tabe olur.

$f_0(E,T)$ ehtimalı E=F - Fermi səviyyəsinin $k_0$T-nin bir neçə müslinə bərabər yaxın ətrafında güclü dəyişməyə məruz qalır. Həqiqətən də, $E=F+\zeta k_0T$ əvəzlənməsini etsək, burda Fermi səviyyəsindən hesablanan, kT-nin misilləri ilə enerjini ifadə edən dəyişən kəmiyyətdir:

$$\zeta=\frac{E-F}{k_0T} \qquad (13)$$

Bunu nəzərə alsaq (10) ifadəsindən paylanma funksiyası üçün alırıq:

$$f_0(\zeta) = \frac{1}{e^{\zeta} + 1} \tag{14}$$

Cədvəl 1-də $\zeta$ -nin bir neçə qiymətinə uyğun $f_0(\zeta)$ funksiyasının aldığı qiymətlər verilmişdir.

Cədvəl 1.

| $\zeta$ | - 4 | - 3 | - 2 | - 1 | 0 | 1 | 2 | 3 | 4 |
|---|---|---|---|---|---|---|---|---|---|
| $f_0(\zeta)$ | 0,98 | 0,954 | 0,882 | 0,73 | 0,50 | 0,27 | 0,118 | 0,048 | 0,018 |

## NƏTİCƏ

1. Termodnamik tarazlıq halında olan metallarda elektronların hərəkəti cüt simmetrik paylanma funksiyası ilə təsvir olunur.

2. Deməli, elektronun E-enerjiyə malik səviyyədə alma ehtimalı enerjinin E qiyməti və T mütləq temperaturdan asılıdır.

3. Deməli, enerjinin Fermi enerjisindən çox-çox böyük qiymətlərində (E>>F) elektron qazı Bolsman statistikasına tabe olur.

## ƏDƏBİYYAT

1.Tahirov V.İ. Yarımkeçiricilər fizikasının əsasları. “ Maarif” nəşriyyatı, Bakı, 1984, 326 s.
2.Zərbəliyev M.M. Yarımkeçiricilərin elektrofiziki parametrlərini ölçmə üsulları. SDU-nun nəşriyyatı, Sumqayıt , 2004, 117 s.
3. Zərbəliyev M.M., Məmmədov E.H.,Nağıyev Ə.B. Yarımkeçiricilər fizikasından praktikum. Sumqayıt , 2006, 106 s

## YENİ İNFORMASİYA TEXNOLOGİYALARI

**AYİŞƏ ƏHMƏDOVA**
*İnformatika fənninin tədrisi metodikası*
*və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*

# MÜƏLLİM HAZIRLIĞININ BAŞLANĞIC KURSLARINDA FƏNLƏRARASI ƏLAQƏLƏR PROBLEMİ

Pedaqojiyönümlü ali təhsil müəssisələrinin başlanğıc kurslarında fənlərarası əlaqələr problemi aktualdır, belə ki, başlanğıc məktəb müəlliminin peşəkar fəaliyyətinin kompleks xarakteri tələbələrdə biliyin kompleks, inteqral tətbiqi bacarığının formalaşmasını tələb edir. Hazırlıq keyfiyyəti əhəmiyyətli dərəcədə bütün öyrənilən fənlərin tədris planları, təlimin metod, vasitə və formaları onların dialektik qarşılıqlı əlaqəsini və davamlılığının açılmasını hansı səviyyədə təmin etməsindən, həmçinin müəllimin belə qarşılıqlı əlaqələrin aşkara çıxarılması üçün tələbələrin maraqlarını daim dəstəkləmək bacarığından asılıdır.

Hər bir konkret fənni öyrənmə prosesində tələbələr tədris fənninin ayrı-ayrı elementlərinin struktur qarşılıqlı əlaqəsini nəzərdə tutan biliklər sistemini mənimsəyirlər. Müxtəlif fənlərin öyrənilməsi zamanı alınan biliklər bir-biri ilə müxtəlifyönlü xarici və daxili əlaqələrə girirlər. Bu zaman fənlərarası və fəndaxili əlaqələri fərqləndirirlər [9]. Fəndaxili əlaqələr V.A. Dalingerin [5, 6, 8], A.V. Usovun [10] və digərlərinin işlərində analiz olunmuşdur.

Ümumiyyətlə, qəbul edilir ki, kifayət qədər tam və ümumi hesab edilə bilən fənlərarası əlaqənin tərifi hazırlanmayıb. Hər bir müəllif öz tədqiqatını aparır və cari vəziyyət üçün doğru hesab etdiyi anlayışı verir.

Fənlərə nəzər salsaq görərik ki, riyaziyyatda düzgün ifadələrin qurulması qaydası və nəticələr diqiq müəyyən olunub, lakin informatikada çox vaxt onlar qeyri-ciddi, təsviri şəkildə verilir. Amma informasiyanın maşın emalı zərurəti ilə əlaqədar olaraq informatikada elə dilin yaradılması məsələsi ortaya çıxmışdır ki, daxil edilən informasiyanın “anlaşıqlığı”nı və onun emalı imkanlarını təmin etsin. Bu dilin əsasına qurulma, çevrilmə və dil ifadədələrinin interpretasiyası qaydalarını təsvir edən riyazi metodlara əsaslanan formal qrammatika nəzəriyyəsi qoyulmuşdur. Beləliklə, riyazi dil ilə informatika dili arasında çox sıx əlaqə mövcuddur.

İnformatika riyaziyyat ilə genetik bağlıdır. Onun bir çox anlayışları, ideyaları və metodları riyaziyyatdan keçmişdir. Başlanğıc kursların tələbələrinin hazırlanması nöqteyi nəzərindən bu anlayışlar ədədlər, kəmiyyətlər, alqoritm, funksiyalar, modellər və başqalarıdır.

İnformatika sahəsindəki bilik, bacarıq və vərdişlər digər fənlərin öyrədilməsində vacib amillərdən biridir. Buna görə də dərsin nəzəriyyə və praktika hissəsində tədris fənlərinin inteqrasiyasından istifadə etmək məqsədəuyğundur. Bu, xüsusilə informatika fənninin tədrisində əhəmiyyətlidir, belə ki, dərsin gedişatında fiziki, kimyəvi, bioloji, coğrafi və s. obyektlərin müxtəlif riyazi modellərinə baxıla bilər. Bu modellər əsasında isə baxılan məsələlərin həll alqoritmləri qurulmalıdır.

İnformatika və riyaziyyat fənlərinin inteqrasiya olunmuş formada tədrisi tətbiq nöqteyi-nəzərincə ən parlaq nümunələrdən biridir və şagirdlərdə hər iki fənnə maraq oyada bilər. Bu fənlərin sıx əlaqəsi biliyin ümumiləşməsinə və sistemləşməsinə kömək edər, şagirdlərin kompüterdən istifadə etməklə riyazi məsələlərin həllini tapmaq bacarığını inkişaf etdirər [4].

Başlanğıc kurslarda informatika və riyaziyyat üçün ümumi fəaliyyət növü qismində strukturlaşdırma, formallaşdırma, modelləşdirmə və alqoritmləşdirmə fəaliyyətləri çıxış edə bilər. Lakin qeyd etmək lazımdır ki, fənlərarası əlaqələr təkcə məzmun tərəfi ilə deyil, həmçinin prosessual olmalıdır, yəni bu əlaqələrin mənimsənilməsi prosesi vacibdir: o, müəllim tərəfindən hazır şəkildə

təqdim olunur, yaxud tələbə tərəfindən müstəqil təyin olunur. Başqa sözlə, mənimsəmə ya reproduktiv (idrak, şüur, qavrayış və s.) və ya yaradıcı, produktiv yollarla olur.

İ.Y. Lerner qeyd edir ki, "fənlərarası məzmunu mənimsəmə sistemliyi ancaq bu əlaqələrin reproduktiv və produktiv mənimsənilməsini təmin edən təlim metodlarının birləşməsi yolu ilə əldə oluna bilər" [7, s. 114].

Beləliklə, gələcək müəllimlərin hazırlanması zərurəti ilə əlaqədar olaraq fənlərarası əlaqələrin produktiv yolla mənimsənilməsinə diqqəti artırmaq lazımdır. Başlanğıc kursların tələbələrinin informatika üzrə bilik və bacarıqların mənimsəmə effektliyinin artırılması informatika fənninin riyaziyyat fənni ilə əsaslandırılmış fənlərarası əlaqəsi hesabına əldə oluna bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün informatika fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər). Bakı: 2013
2. Əhmədova M, Əliyev M, Qasımlı M və b. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında). Bakı: Adiloglu, 2005
3. Qədimova X. İnteraktiv təlim metodları. Bakı: 2005
4. Salmanov V.İ. İnformatika və riyaziyyat fənlərinin inteqrasiyasına dair. Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər. Videobağlantı formatında keçirilmiş Respublika elmi-praktik konfransının materialları. Naxçıvan, 21 may 2020-ci il.
5. Внутрипредметные связи в процессе обучения математике: Методичес-кие рекомендации для студентов физико-математическик факультетов /Сост. В.А. Далингер. - Омск: Изд-во ОГПИ им. М. Горького, 1988. -36 с.
6. Далингер В.А. Внутрипредметные связи как методическая основа совершенствования процесса обучения математике в школе. Автореф. дис. ... д-рапед. наук. - СПб., 1992. - 52 с.
7. Лернер И.Я. Содержание межпредметных св5вей и пути их реализации //Межпредметные связи в процессе преподавания основ наук в средней школе: Тез. докл. Всесоюз. конф., ч. 1. - М.: Изд-во НИИ ОП АПНСССР, 1973.-С.111-115.
8. Методика реализации внутрипонятийных связей в процессе обучения математике в средней школе: Рекомендации для студентов физико- математических факультетов / Сост. В.А. Далингер. - Омск: Изд-во ОШИ им. М. Горького, 1988. - 39 с.
9. Самарин Ю.А. Очерки психологии ума. - М.: Изд-во АПН РСФСР, 1962. - 504 с.
10. Усова А.В. Формирование у школьников научных понятий в процессе обучения. - М.: Педагогика, 1986. -176 с.

**AYTƏN MƏHƏRRƏMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*tnmeherremova@gmail.com*

## KOMPÜTER ŞƏBƏKƏLƏRİNİN TƏTBİQ SAHƏLƏRİ

Şəbəkə və şəbəkə proqramları zaman keçdikcə ayrı-ayrı müəssisələrdə, şəhərlərdə, ölkələrdə, dünyanın müxtəlif yerlərində yaşayan insanları birləşdirmək üçün istifadə olunur. İnsanlar olduqları yerdən asılı omayaraq informasiya texnologiyalarından istifadə edirlər. İnkişaf etmiş ölkələrin informasiya infrastrukturunun əsas komponentlərindən biri kompüter şəbəkəsidir. Kompüter şəbəkələri iki və daha çox kompüterin bir-birinə qoşulması,verilənlərin ötürülməsini təmin edir. Bu verilənlərin ötürülməsi vasitələri ilə həyata keçirilir. Kompüter şəbəkəsi informasiya mübadiləsini təmin edən proqramların birləşməsidir.

Kompüter şəbəkələri çox böyük sürətlə yayılır. Hal-hazırda kompüter şəbəkələrindən istifadə gündəlik həyatımızda ayrılmaz hissəyə çevrilib. Kompüter şəbəkəsi kompüterlər arasında inforrmasiya mübadiləsini və rabitə xətlərini təmin edən proqramların birləşməsidir. Digər tərəfdən isə kompüter şəbəkələri paylanmış hesablama sistemlərinin xüsusi halıdır. Bu zaman kompüterlər məsələləri qarşılıqlı həll edərək verilənlər mübadiləsini birgə aparırlar. Həm də kompüter şəbəkələrinə informasiyanın uzaq məsafələrə ötürülməsi kimi də baxmaq olar. Kompüterlər şəbəkələrdə müxtəlif səbəblərdən birləşə bilər:

1. İstənilən informasiyanı dünyanın istənilən yerinə anındaca çatdırmaq;
2. İstifadəçilər arasında informasiya mübadiləsini sürətləndirmək;
3. Müxtəlif formalarda istifadə olunan kompüterlər arasında əlaqə yaratmaq;
4. İstifadəçi istənilən an yerini olduğu yeri dəyişmədən istədiyi informasiyanı qəbul etmək və ya ötürmək.

Kompüter şəbəkələri ərazilər üzrə yerləşdirilməsinə görə iki sinfə bölünür: Lokal şəbəkə, Qlobal şəbəkə

**Lokal şəbəkə.** Lokal şəbəkələr (LAN-local area network-yerli sahə şəbəkəsi)- məktəb, kollec, iş binası kimi yerlərdə, yəni məsafəsi bir neçə kilometrə qədər olan coğrafi ərazilərdə yerləşən müəssisələrdə olan kompüterlər arasında informasiya mübadiləsini təmin edir. Naqilli şəbəkələrdə müxtəlif məlumatların sürətli ötürülməsi üçün burulmuş cüt kabellərdən istifadə olunur, naqilsiz lokal şəbəkələrdə isə bir ərazidə birdən çox cihazı əlaqələndirməyə kömək edən radio dalğası texnologiyası və ya infraqırmızı rabitə vasitəsilə həyata keçirilir. Lokal kompüter şəbəkələrinin əsas komponentləri aşağıdakılardır:

1. Şəbəkə interfeys kartı
2. Şəbəkə OS kabelləri
3. Marşrutizator, HUB və Switch kimi şəbəkə əlaqələndiriciləri
4. İşçi stansiyalar və printerlər kimi şəbəkə qurğuları
5. Digər kompüterlər tərəfindən daxil oluna biləcək serverlər

Lokal şəbəkə topologiyasının üç əsas növünü nəzərdən keçirək:

"Ulduz" topologiyasında hər kompüter şəbəkə adapteri vasitəsilə ayrıca kabellə mərkəzi qovşağa qoşulur. Mərkəzi qovşaq olaraq passiv birləşdirici və ya aktiv təkrarlayıcıdan istifadə edilə bilər. "Ulduz" topologiyasının mənfi cəhəti onun etibarlılığının az olmasıdır.

"Ümumşin" topologiyasında bütün kompüterlər bir kabelə qoşulur. "Ümumşin" topologiyasında informasiya kompüterlərə növbə ilə verilir. Belə hallarda uzunluğu kiçik olan kabeldən istifadə edilir. "Ümumşin" topologiyası "Ulduz" topologiyasina nəzərən daha etibarlıdır.

"Halqavarı" topologiyada bir kompüterdən digərinə verilənlər estafetdə olduğu kimi ötürülür.Əgər istənilən kompüter ona aid olmayan verilənləri qəbul edibsə o zaman həmin kompüter o verilənləri halqavari istiqamətdə digər kompüterlərə ötürəcək.

**Qlobal şəbəkələr.** Qlobal şəbəkələr lokal şəbəkələrdən fərqli olaraq, fəaliyyət dairəsi daha

genişdir. Müxtəlif binalarda, şəhərlərdə, rayonlarda və digər yerlərdə yerləşən şəbəkələri özündə birləşdirir. Qlobal şəbəkələr ardıcıl xətlərlə birləşdirilir. Bu xətlətdə də verilən ötürülmə sürəti lokal şəbəkələrə nisbətən az olur. Qlobal şəbəkələr dörd cür olur. Bunlara da şəhər, regional, milli və transmilli şəbəkələr aiddir. Demək olar ki, qlobal şəbəkələrə aşağıdakı qurğular aiddir:

1. Marşrutlaşdırmalar
2. ATM kommutatorları
3. X.25 kommutatorları və Frame Relay
4. Modemlər
5. Multipleksorlar
6. Kommutasiya serverləri

1. Marşrutlaşdırmalar lokal şəbəkələr arasında əlaqəni təmin edir və interfeys vasitəsilə qlobal şəbəkəni idarə edir.

2. ATM kommutatorları lokal və qlobal şəbəkələr arasındakı xanaların yüksək sürətli kommutasiyası üçün istifadə edilir.

3. X.25 kommutatorları və Frame Relay kommutatorları rəqəm siqnallarının göndərdiyi şəxsi və ictimai verilənlərin ötürülmə kanallarını bir-birilə əlaqələndirir.

4. Modemlər analoq siqnallarının göndərdiyi şəxsi və ictimai verilənlərin ötürülmə kanallarını bir-birilə əlaqələndirir.

5. Multipleksorlar bir fiziki kanal vasitəsilə eyni zamanda bir neçə siqnallar göndərməyə imkan verir.

6. Kommutasiya serverləri adətən zəng edən serverlər olub, uzaq məsafədə yerləşən istifadəçilərə imkan verir ki, lazımi kliyentlə əlaqə saxlaya bilsin və onun lokal şəbəkəsinə qoşulsun.

## ƏDƏBİYYAT

1. Cavanşir Zeynalov. İnformatika. Bakı: 2009
2. T.Q.Əbiyev; M.S.Ağayeva; E.M.Əliyeva . İnformatika. Bakı: 2013
3. S.Q.Kərimov, S.B.Həbibullayev, T.İ.İbrahimzadə. İnformatika. Bakı: 2009
4. Ramiz Şıxəliyev. Şəbəkə texnologiyaları

**KÖNÜL CAMALBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*
*camalbeylikonul@gmail.com*

# ƏMƏLİYYAT SİSTEMLƏRİNİN TƏYİNATI, ƏSAS FUNKSİYALARI, TİPLƏRİ VƏ PLATFORMALARI

Əməliyyat sistemi kompüterin ümumi işini və resurslarını idarə edən, tətbiqi proqramların işə salınmasını, onların xarici qurğular və digər proqramlarla qarşılıqlı əlaqəsini, həmçinin istifadəçi və kompüter arasındakı dialoqu təmin edən, bir-biri ilə əlaqəli proqramlar toplusudur. Əməliyyat sistemi kompüteri aldığımız zaman kompüterə əvvəlcədən yüklənmiş olur. Biz yüklənmiş əməliyyat sistemindən istifadə edə və ya onu başqa versiyaları ilə dəyişə bilərik.

Kompüteri işə salan zaman BİOS proqramı işə düşür və POST (Power – on self – test ) prosesini həyata keçirir. Bu zaman kompüterin hər hansı vacib qurğusunda (CPU, RAM, sistem platası və s.) nasazlıq varsa, bu haqda monitorun ekranına məlumatı xaric edir və xəta siqnalı verir əks halda, əməliyyat sistemi əməli yaddaşa (RAM) yüklənir. Əməliyyat sistemi tam şəkildə deyil sadəcə lazım olan hissə əməli yaddaşa yüklənir ki, bu hissə əməliyyat sisteminin nüvəsi adlanır.

Əməliyyat sistemini aşağıdakı əlamətlərinə görə təsnif etmək olar:

- ***Prosessorların sayına görə*** - birprosessorlu və çoxprosessorlu əməliyyat sistemləri.
- ***Prosessorların mərtəbələrinin sayına görə*** - 8 mərtəbəli, 16 mərtəbəli, 32 mərtəbəli və 64 mərtəbəli əməliyyat sistemləri
- ***Sistemdə eyni vaxtda işləyən istifadəçilərin sayına görə*** - biristifadəçili əməliyyat sistemləri (məs: MS DOS), çoxistifadəçili əməliyyat sistemləri
- ***Sistemin idarə olunması ilə eyni vaxtda yerinə yetirilən məsələlərin sayına görə*** - birməsələli və çoxməsələli əməliyyat sistemləri
- ***Resurslardan istifadənin tipinə görə*** - şəbəkə və lokal əməliyyat sistemləri
- ***İstifadəçi interfeysinin tipinə görə*** - əmrli (və ya mətni) və obyektyönlü (və ya qrafiki)
- ***İnformasiya emalı rejiminə görə*** - paket emallı, vaxt bölgülü və real vaxt miqyaslı.

Müxtəlif tip fərdi kompüterlərdə müxtəlif quruluşlu və cürbəcür imkanlara malik olan əməliyyat sistemlərindən istifadə olunur. Əməliyyat sisteminin eyni vaxtda icra edəcəyi əməliyyatların sayı prosessorun gücündən və əməli yaddaşın həcmindən asılıdır. Əməliyyat sistemləri istifadəçi interfeysinin tipinə görə ***mətni*** və ***qarfiki*** olaraq ayrılır. İlk yaradılan əməliyyat sistemində mətni interfeysdən istifadə olunurdu, yəni hər bir əmr klaviatura vasitəsi ilə əmrlər sisteminə daxil edilirdi (məs: MS DOS). Müasir əməliyyat sistemləri qrafiki interfeysə malikdir, yəni hər bir fayl, qovluq və proqramlar xüsusi işarələri ilə ekranda görünür.

Əməliyyat sistemlərini nəzərdən keçirək.

**MS DOS** – 80-ci illərdə məşhur IBM (International Business Machines) firması tərəfindən yaradılan 16 qatlı fərdi kompüterlərin geniş istehsalına başlandı. Bu kompüterlərlə eyni vaxtda (1981-ci il) həmin kompüterlər üçün “Microsoft” firması tərəfindən MS DOS (Disc Operation System) əməliyyat sistemi yaradıldı. DOS ailəsinin əməliyyat sistemləri birməsələlidir və istifadəçi tərəfindən daxil edilən əmrlərin köməyilə interfeys həyata keçirilir. Əmr prosessoru COMMAND.COM adi fayl olub,sistem diskinin istənilən yerində saxlanıla bilər. Əmr prosessoru istifadəçi tərəfindən verilmiş əmrləri təhlil edir. İki tip əmrlər mövcuddur: daxili əmrlər və xarici əmrlər.

**Daxili əmrlər**.Bu ən sadə və ən çox işlənən əmrlərdir. MS-DOS sistemində yadda saxlanılan fayllara baxarkən biz bu əmrləri görmürük. Onlar COMMAND.COM faylının əsas və böyük hissəsini təşkil edir. Daxili əmrləri istifadə edərkən onlar dərhal aktivləşir. MS-DOS əməliyyat sisteminin daxili əmrləri bunlardır:

Break Del Mkdir Set If Cls Echo Dat Copy

Exit Prompt Type Ctty For və s.

**Xarici əmrlər**. Xarici əmrlər diskdə proqram faylları kimi yerləşir. Onları həyata

keçirməzdən əvvəl onlar diskdən oxunmalıdırlar. .COM, .EXE və .BAT ilə genişləndirilmiş istənilən faylın adı xarici əmr kimi göstərilir. Məsələn: FORMAT.COM və DİSKCOPY.COM. Bütün xarici əmrlər özlərindən fayl təşkil edirlər ki, bu səbəbdən siz də öz əmrlərinizi yaradıb Ms-DOS-a daxil edə bilərsiz. Siz tərəfindən yaradılan bütün proqramlar (proqramlaşdırılmanın dilindən asılı olmayaraq). EXE genişləndirilməsi ilə olacaq. Xarici əmrlərin daxil edilməsi zamanı faylın genişləndirilməsini yazmağa ehtiyac yoxdur.

Xarici əmrlər bunlardır:

Assign Chkdsk Attrib More Backup Print Link Format

Recover Command Restore Join Share Sort Find Diskcopy və s.

İstifadəçinin verdiyi digər əmrlərin yerinə yetirilməsini təmin etmək üçün əmr prosessoru disklərdə uyğun proqramı axtarıb tapır, proqramı yaddaşa yükləyir və onu idarə edir. İş tamam olduqdan sonra əmr prosessoru həmin proqramı yaddaşdan silir və sonrakı hal üçün hazır vəziyyət alır.

MS DOS əməliyyat sistemlərinin müsbət cəhətləri bunlardır:

-  geniş imkanlı əmrlər sisteminin olması;
-  fayllarla ardıcıl qurğularla işlədiyi kimi işləməyin mümkünlüyü;
-  çoxsəviyyəli kataloqların (faylların adlarını, atributlarını və s. Özündə saxlayan yaddaş sahəsi) təşkil olunma imkanı;
-  istifadəçilər ilə dialoq müddətində digər məsələnin həllinin mümkünlüyü və s.
-  MS DOS əməliyyat sistemlərinin mənfi cəhətləri bunlardır:
-  istifadəçi interfeysinin primitiv olması;
-  qrafik rejimdə işləməyin mümkün olmaması.

**UNİX**- 1969 cu ildə Ken Tompson va Denis Ritçi tərəfindən Bell laboratoriyalarında yazılmış, eyni vaxtda bir çox iştifadəçi, ile eyni zamanda müxtəlif əməliyatları yerine yetirən bir əməliyyat istemidir. Denis Ritçinin təklifi ilə yeni əməliyyat sistemini UNICS (UNiplexed Information and ComputingSystem) adlandırılmış, sonralar UNIX adına qisaldılmışdı. UNIX çox prosesli va çox bahalı kompüterlərdən, ucuz va tek prosesli PC-lərə qədər bir çox kompüterdə işləyə bilir. UNIX əməliyyat sistemi C dilində, yazıldığından va başqa əməliyyat sistemlərinə nisbətən daha köçürüləbilən, yeni maşından daha az asılı olduğundan güclü hesab olunur.

UNIX aşağıdakıları özündə birləşdirir:

- ✓ paylanmış verilənlər bazasına müraciət;
- ✓ lokal şəbəkədə işləmək;
- ✓ uzaq məsafədə əlaqə və adi modemdən istifadə etməklə qlobal çıxış imkanı.

Bu Unix-in ən vacib komponentlərindən biridir. UNİX əməliyyat sisteminin müsbət cəhətləri:

-  müxtəlif kompüterlərdə istifadəsinin mümkünlüyü;
-  bu sistem sayı çox olmayan intuitiv aydın anlayışlara əsaslanır;
-  bu mövcud sistemlər arasında ən təhlükəsiz, etibarlı və sürətli sistemdir.

UNİX əməliyyat sisteminin mənfi cəhətləri:

-  sistemin adi istifadəçilər üçün yox proqramçılar üçün olması;
-  Unix sistemlərinin texniki xidməti həddən artıq bahadır. Ona görə də bu sistemdən yalnız imkanlı şirkətlər istifadə edir.

Unix sisteminin ən mühüm prinsipi "Hər şey fayldır" prinsipidir. Sistemdə hər şeyə, hard -diskdə yerləşən adi fayllara, kompüterin müxtəlif qurğularına, şəbəkə əlaqələrinə,- proqramlararası əlaqə vasitələrinə fayl kimi baxılır (https://sites.google.com/site/aytacqafarli-1997/melumat-sehifesi/emeliyyat-sistemleri-ve-kompueter-sebekeleri).

**MİCROSOFT WINDOWS-** Windows ailəsinin ƏS Microsoft firması tərəfindən hazırlanmışdır. Windows rahat qrafiki interfeysli, çoxməsələli əməliyyat sistemidir. Windows-un hər bir proqramı heç olmasa bir pəncərəyə malikdir. Bu pəncərə istifadəçini həmin proqram ilə işləməyə şərait yaradır. Windows sistemində manitorun ekranı işçi masa kimi təqdim olunur ki, bu masada həmin anda işləyən proqramların pəncərələri yerləşmiş olur. Proqram kiçik təsvir (düymə) şəklində

də göstərilə bilər ki, bu təsvir çox zaman “ikonka” adlanır.

***Windows 7*** – Windows 7 əməliyyat sisteminin özü də Microsoft şirkəti tərəfindən bir neçə modifikasiyada buraxılır. Windows 7 əməliyyat sisteminin aşağıdakı modifikasiyaları var:

***Windows 7 Home Basic***

Windows 7 Starter Edition-dən nisbətən təkmil versiyadır. Bu modifikasiyada İnternet Explorer brauzeri və Defender müdafiə modulu yerləşdirilmişdir. Burada da üç ölçülü interfeys yoxdur, lakin çox istifadəçili rejim mövcuddur. Hər gün etdiyiniz prosedurları sürətləndirir və asanlaşdırır. Ən çox istifadə etdiyiniz sənədlərə müraciəti asanlaşdırır, beləliklə axtarmağa daha az, prosedur etməyə daha çox vaxt ayıra bilərsiniz.

***Windows 7 Home Premium***

Bu modifikasiya genişləndirilmiş ev versiyası adlandırılır. Burada bir çox geniş imkanlar vardır. Məsələn, yüksək dəqiqlikli televiziyanı (HDTV) dəstəklyən, televerilişləri yaza bilən Windows Media Center proqramı vardır. Bu modifikasiya Fotoalboma və üç ölçülü interfeysə malikdir. Ev şəbəkəsi yaradaraq xoşladığınız şəkilləri, videoları və musiqiləri bölüşməyinizi asanlaşdırır. Daha çox əyləncə və oyun üçün yaradılıb.

***Windows 7 Professional***

- İş yerində və evdə ehtiyacınız olan hər şey üçün,
- Bir çox Windows XP verimlilik drayverini Windows XP modunda işlədə bilər və avtomatik verilərlə ev və iş yeri şəbəkənizə yenidən yükləyə bilərsiniz,
- Həmçinin, Homegroup bağlantısı ilə şirkət şəbəkələrinə qoşula bilərsiniz.

***Windows 7 Ultimate***

Bu modifikasiya ən təcrübəli və tələbkar, ciddi fərdi istifadəçilər üçün nəzərdə tutulmuşdur. 35 müxtəlif dildən istifadə imkanları da vardır. Bu versiya özündə əməliyyat sisteminin ev və biznes versiyalarını birləşdirir. Həmçinin sərt diski şifrələmək üçün proqram tipli yeni modullara da malikdir. Belə proqram tipli modullar Bitlocker və Bitlocker TO GO adlanır. Windovs 7 Ultimate ən istifadəyə rahat və ən güclü versiyadır. Home Premuimun əyləncə xüsusiyyətlərini və Professinalın Windows XP rejimində işləyə bilmək xüsusiyyətlərini özündə birləşdirir.

***Windows 7 Enterprise***

- Şirkətlər üçün nəzərdə tutulmuşdur.
- Windovs 7 Enterprise sadəcə korporativ şirkətlərə satılır və Ultimatedən daha çox funksionallığa sahibdir.

Bu modifikasiyaların hər birinin də *32 bitli* və *64 bitli* versiyaları mövcuddur.

Windows-un mənfi cəhətlərinə nəzər salaq:

1.Aparat təminatına düşən yükü çoxaltmaq lazımdır. Qrafik interfeys, miqyaslı şriftlərin əldə edilməsi, mürəkkəb məsələlərin həlli və s. güclü mikroprosessorun olmasını, əməli yaddaşın və disk sahəsinin genişləndirilməsini tələb edir. Baxmayaraq ki, Windows ilə işləmək üçün formal olaraq əməli yaddaş 2 Mbayt, sərt diskdə isə tutumu10-12 Mbayt olan 80386 mikroprosessoru kifayətdir. Həqiqətdə isə bu işi yerinə yetirmək üçün əməli yaddaşı 4 Mbaytdan, sərt diskdə yaddaşı 40 Mbaytdan az olmayan 80486 mikroprosessorundan istifadə etmək əlverişlidir. Kompüterdə Windows və Windows əlavəsi ilə rahat işləmək üçün əməli yaddaş 8 Mbayt, sərt disk yaddaşı isə 80-100 Mbayt-dan az olmayan 80486 mikroprosessorundan istifadə etmək lazımdır.

2. Windowsun digər mənfi cəhəti DOSa nisbətən istənilən məsələnin həllinə vaxtı çox sərf etməsidir. Məsələn, DOS proqramı kompüterdə mə sələni həll etmək üçün Windows dan 15-20 dəfə tez işləyir.

3. İstənilən proqramın xarici qurgularla işləməsi birbaşa Windowsda həyata keçirilir, bəzi hallarda isə xarici qurgularla intensiv işləyən proqramlar üçün bu hal qəbuledilməzdir.

Bütün göstərilən mənfi cəhətlər Windowsun qiymətini heç də aşagı salmır və onu göstərir ki, Windows heç də universal proqram deyil.

## ƏDƏBİYYAT

1. Əli Abbasov, Mətləb Əlizadə., Etibar Seyidzadə., Mahilə Salmanova – İnformatika və kompüterləşmənin əsasları. – Bakı: 2006
2. Osman Gündüz, Qorxmaz Əfəndiyev, Nazim Rüstəmov. – Kompüter İnformasiya texnologiyalarının əsasları.- Bakı: 2006
3. Mətləb Əlizadə, Etibar Seyidzadə -Microsoft Word XP- “MSV Nəşr” 2006
4. https://az.m.wikipedia.org/w/index.php?title=%C6%8Fm%C9%99liyyat_sistemi oldid=5699974
5. https://az.wikipedia.org/wiki/Linux
6. http://genderi.org/sra-say-movzular-muhazire.html?page=3
7. https://sites.google.com/site/aytacqafarli1997/melumat-sehifesi/emeliyysistemlve kompueter-sebekeleri

**CƏMALƏ BAĞIROVA**
*Naxçıvan Dövlət Universiteti*
*İdarəetmədə informasiya sistemləri*

## ELEKRTON POÇT (E-MAİL) XİDMƏTİ

Qədim zamanlardan başlayaraq, daha doğru desək insanda şüurun formalaşdığı gündən bəri insanlar bir-birləri ilə müəyyən yollarla əlaqə saxlayırlar. Qədim zamanlarda uzaq məsafədəki insanlarla əlaqə saxlamaq üçün duman və bəzi quşlardan istifadə olunurdu. Zaman ilərlədikcə poçtlar yarandı insanlar məktublar yazaraq bir-birləri ilə əlaqə saxlamağa başladı (bu üsuldan hələdə bəzən istifadə olunur). Ancaq bu üsul həddən artıq zaman alırdı, bəzən günlər, bəzən aylar, hətta bəzən göndərilən məktub gedib düzgün ünvana çatmırdı. Bunlarla yanaşı göndərilən məktubdakı məlumat başqası tərəfindən oxuna bilər , dəyişdirilə bilər və bu məktub ancaq poçtun açıq olduğu zamanda göndərilə bilərdi. İnternet yarandıqdan sonra insanlar məktublarıda internet vasitəsi ilə gondərməyə başladılar. Bunun üçün **elektron poçt (e-mail )** xidməti yaradıldı.

İlk elektron poçt 1971-ci ildə BBN firmasının mühəndisi Rey Tomlinson tərəfindən yaradılmışdır. Tomlinson istifadəçi adını domenin adından ayırmaq üçün <<**@**>> işarəsindən istifadə etmişdir, ingilis dilində bu, <<**at**>> (-da, -də şəkilçiləri) deməkdir. Başqa sözlə desek istifadəçinin hansı domendə olduğunu göstərir.

Hazırda elektron poçt ən geniş yayılmış rabitə xidmətidir. Elektron poçtla biz dünyanın müxtəlif yerlərindəki insanlarla əlaqə qura bilərik. İnsanlar bu xidmətdən ənənəvi məktub, telefon, yaxud faks əvəzi kimi istifadə edirlər. Elektron poçtdan faylların, proqramların ötürülməsi üçündə istifadə olunur. Elektron poçtun üstünlüyü də onun operativliyində və rabitənin yüksək keyfiyətindədir. Çatdırma sürəti, gecə-gündüz iş rejimi, eyni məlumatın kütləvi çəkildə göndərilməsi, alınan poçtun istifadəçinin istədiyi qədər hostkompüterdə saxlanılması və bir çox başqa cəhətlərinə görə elektron poçt adi poçtdan fərqlənir.

Elektron poçt ( e-mail ) xidmətindən bacarıqlı istifadə edilməsi aşağıdakı göstərilən fəaliyyət imkanlarının gerçəkləşməsinə səbəb olur:

- İnformasiyanın özünə məxsus elektron poçtdan göndərilməsi;
- İstifadəçi tərəfindən informasiyanın göndərilən ünvanlar üzrə - elektron poçtunda qəbul edilməsi;
- Korrespondentlərin elektron məktublarına diqqətlə yanaşılaraq , vaxtlı-vaxtında cavablandırılması;
- Yazılmış məktubların nüsxələrinin çoxaldılaraq çoxsaylı ünvanlara göndərilməsi (**spam qadağandır** , icazəlilik şərti ilə) ;
- Alınmiş məktubların nüsxələrinin dərhal lazımı adresatlara yönləndirilməsi;
- Ünvan sətrində mətiqi aliaslardan istifadə edilməsi;
- Müxtəlif tipli korrespondensiyalar üçün elektron poçt qutusunda kataloqlandırma apararaq istifadəçi qutularının (userbox) yaradılması;
- Elektron məktubların hazırlanması prossesində tələb olunan qoşma faylların bütövlükdə və ya hissə-hissə göndərilməsinin təşkil edilməsi;
- Böyük həcimli qoşma faylların və ya proqramların istifadəçiyə çatdırılması üçün **blud-“cloud”** texnologiyalarından istifadə olunması və s.

Elektron poçt (e-mail) xidmətlərindən istifadə etmək üçün kompüterlərin şəbəkəyə qoşulması vacib şərtdir. Elektron poçt xitmətlərin göstərilməsi ərəfəsində hər iki abonentin eyni zamanda, aktiv olmasına etiyac yoxdur. Bu xitmətlərin göstərilməsi zamanı , konkret olaraq hər hansı bir istifadəçi off-line rejimində işləyə bilər. Adətən elektron poçt provayderləri müəyyən ölçüdən böyük faylları qəbul etmir və göndərmirlər. Bu həcm çox halda bir neçə meqabayt olur. Lakin son dövürlərdə bu sahədə rəqabət hədsiz dərəcədə güclənib. Google-nin “Gmail” elektron poçt xidməti 2 Gb pulsuz disk sahəsi təklif edir. Güclü antispam sistemə malik xidmətdir.

Yahoo da öz pulsuz disk sahəsi 1 Gb-a çatdırıb. Göndərilən faylın həcminə qoyulan məhdudiyyət isə 10 Mb-dır.

Hotmaildə pulsuz disk sahəsi artıq 100 Mb, göndərilən faylın həcminə qoyulan məhdudiyyət 2 Mb-dır.

**Elektron poçt (e-mail )** xidmətlərindən istifadə zamanı hər bir abonentə unikal elektron poçt ( e-mail ) ünvanı aşağıdakı formada təqdim olunur.

**<istifadəçi adı>@<electron poçt serverinin adı>**

**1 2**

Burada, 1-ci hissə istifadəçinin həmin serverdəki unikal adı, 2-ci hissə şəbəkə kompüterinin adıdır. E-poçt mesajı başlıq və əsas mətn olaraq iki hissədən ibarətdir. Başlıq aşağıdakı bölmələrdən ibarətdir.

- Göndərənin ünvanı ( From – kimdən, haradan)
- Alanın ünvanı ( to – kimə, haraya)
- Göndərilmə tarixi
- Mesajın adı ( Subject)

Elektron ünvanla işləyərkən SMTP və POP3 protokollarından istifadə edilir. SMTP protokolu məktubun göndərilməsinə, POP3 protokolu isə məktubun çatdırılmasına cavabdehdir. Göndəriləcək poçt "elektron poçt qutusuna" yazılır. Bu poçt serverin daimi yaddaşında yerləşən kataloqdur və ona yalnız həmin poçt qutusunun abonenti daxil ola bilər. Abonent serverə müraciət edərkən poçtu oradan çıxarır, poçt qutusundan çıxarılan məktub serverdə saxlanılmır. Elektron məktubların ünvanı DNS sistemlərində qəbul olunmuş ünvanlardan fərqlənir.

Elektron poçt (e-mail ) xidmətlərinin adi poçt xidmətindən üstünlükləri bunlardır:

- Operativlik;
- Etibarlılıq;
- Ucuzluq və s.

Elektron poçt (e-mail ) xidmətlərinin adi poçt xidmətinə nisbətən çatışmazlıqları bunlardır:

- Ünvan sahibi tərəfindən gözlənilməyən məktubların alınması, buna bəzən spam da deyilir.
- Ünvan sahibi kompüterlərinin şəbəkədə viruslara yoluxması və s.

## ƏDƏBİYYAT

1. Osman Gündüz. İnternet ( Azərbaycan İnternet resusları) . Milli saytlar kataloqu. 2008.
2. Əbiyev T.Q., Ağayev M.S., Əliyeva E.M., İnformatika ( Bakalavr tədris pilləsi üçün) dərslik. Bakı: 2013.
3. TQDK. İnformatika vəsaiti
4. https://az.wikipedia. https://az.wikipedia.

**ELMAR VƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*elmar120299@icloud.com*

# İNFORMASİYA CƏMİYYƏTİNDƏ İNFORMASİYA MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Məlum olduğu kimi, informasiya cəmiyyətinə keçid mərhələsində strateji cəhətdən prioritet istiqamət kimi, cəmiyyətin informasiyalaşdırılması konsepsiyalarının işlənməsi və həyata keçirilməsi yaşından, cinsindən, dilindən, irqindən, əqidəsindən, dinindən, dünyagörüşündən, siyasi baxışlarından, iqtisadi vəziyyətindən, mədəni səviyyəsindən, fiziki durumundan, sağlamlığından asılı olmayaraq, hər bir vətəndaşı əhatə etməlidir.

İnformasiya cəmiyyətində yeni informasiya – telekommunikasiya texnoloqiyaları və vasitələrinin yüksək səviyyədə təmin olunmasına görə real imkanlar yaradılır. İnformasiya cəmiyyəti anlayışı informasiya cəmiyyəti dedikdə informasiyanın istehsalı və istifadəsi, informasiya resursları, informasiya cəmiyyətinin baza texnolo-giyaları və texnikası, yeni informasiya telekommunukasiya texnologiyaları və texnikası və s. başa düşülür. İnformasiya cəmiyyətinin əsas xarakterik xüsusiyyətləri bunlardır: cəmiyyətdə kütləvi şəkildə informasiya ehtiyaclarının ödənilməsi; cəmiyyətdə informasiya iqtisadiyyatı; cəmiyyət üzvlərinin yüksək səviyyədə informasiya tələbatı; cəmiyyətdə yüksək informasiya mədəniyyəti, cəmiyyət üzvləri üçün açıq informasiya şəbəkələrinin genişlənməsi; vahid informasiya mühitinin formalaşması və inkişaf etdirilməsi perspektivləri; cəmiyyət üzvləri üçün informasiya təhlükəsizliyi; qloballaşma və inteqrasiya səviyyəsi və s. Başqa sözlə, informasiya cəmiyyətinin xarakterik xüsusiyyətləri kimi cəmiyyətin bütün üzvlərinin lazımı şəkildə, kifayət qədər informasiya ilə təminatı və yüksək səviyyədə informasiya xidmətlərinin həyata keçirilməsi hallarını göstərmək olar. İnformasiya texnologiyaları hazırda ölkəmizdə hüquqi dövlət quruculuğu, güclü iqtisadiyyatın yaradılması, ölkənin müdafiə qüdrətinin yüksəldilməsi, əhalinin rifah halının yaxşılaşdırılması, inkişafının təmin edilməsində və digər məsələlərin həllində mühüm rol oynayır. Bütün bu deyilənlərdən belə nəticə çıxarmaq olar ki, informasiya cəmiyyəti sənaye cəmiyyətindən fərqli olaraq daha intelektual cəmiyyətdir və insanların yüksək təhsilli, bacarıqlı, qərarlı, hərtərəfli inkişafı üçün şərait yaradır.

Cəmiyyətin inkişafinda əsas faktorlardan biri də informasiya mədəniyyətidir. İnformasiya cəmiyyətində yaşayan insanın informasiyaya böyük tələbatı vardır.

İnsan daima ətraf mühit ilə informasiya mübadiləsində olur. İnsan ətraf mühitlə, təbiətlə münasibətdə olarkən ekoloji mədəniyyət, musiqi dünyası ilə təmasda olarkən musiqi mədəniyyəti, süfrə mədəniyyəti, ekoloji, nitq, siyasi mədəniyyət, sanitar-gigiyena mədəniyyəti və s. şəraitlərində uyğun mədəniyyətlər mühüm rol oynadığı kimi, informasiya aləmi ilə də ünsiyyətdə olarkən informasiya mədəniyyəti çox böyük əhəmiyyətə malikdir.

Belə ki, informasiya cəmiyyəti formalaşdıqca, informasiya bolluğu yarandıqca, iqtisadiyyatda informasiya əməyinin çəkisi artdıqca bu mədəniyyət forması daha da aktuallaşır.

Deməli, informasiya cəmiyyətinin meydana gəlməsi informasiya mədəniyyətinin formalaşmasını daha da aktuallaşdırır .

İnformasiya mədəniyyəti anlayışı iki fundamental anlayışa əsaslanır: informasiya və mədəniyyət. İnformasya insanın ətraf aləmdən aldığı məlumatlar və biliklərdir. Mədəniyyət insanın yaradıcı həyat fəaliyyətidir. Mədəniyyətin 5 əsas komponenti var: bilik, bacarıq, mütəşəkkillik, mənəviyyat və yaradıcılıq qabiliyyəti.

İnformasiya mədəniyyəti insanın ümumi mədəniyyətinin tərkib hissəsidir. İnformasiya mədəniyyətinin konseptual modeli: qəbul, yaddaş, emal, təqdimetmə və s. Burada iki amili nəzərə almaq lazımdır. Təbii (genetik) xüsusiyyətlər və sonradan təhsilin, cəmiyyətin, sosiumun təsirləri nəticəsində qazanılan keyfiyyətlər.

Mədənmiyyəti, mənəviyyatı zəngin, yüksək olan insan, sosial qrup, ərazi, ölkə özünün

mövcudluğu üçün zəruri, mühüm olan amilləri daha düzgün, faydalı və uğurlu şəkildə tənzimləyir. Hər bir insanın, sosial sistemin mədəniyyətinin lazımi səviyyədə olması üçün də hökmən zəruri olan amillər mövcud olmalıdır. Zəruri olan iqtisadi, demoqrafik, ekoloji, siyasi amillər müəyyən səviyyədə olmalıdır ki, insan müəyyən mədəniyyətə malik olsun.

İnformasiya mədəniyyətinə dəqiq, dolğun tərif vermək asan deyil, bəlkə də mümkün deyil. Çünki infor-masiyanı alıb, emal edib sonra isə ətrafa təqdim etmək kimi informasiya modeli insan fəaliyyətini çox geniş şəkildə əhatə edir. Başqa sözlə, istənilən peşə (şair, alim, bəstəkar, rəssam və s.) sahibi bu modelə uyğun fəaliyyət göstərir. Onda belə çıxır ki, musiqi, natiqlik, rəssamlıq, artistlik və s. bunların hamısı informasiya mədəniyyətinə aiddir.

İnformasiya mədəniyyətinin komponentləri bunlardır: hansı məlumatı seçmək, axtarışını təşkil etmək, qəbul etmək, yaddaşda saxlamaq, emal etmək və ötürmək .

Deməli, informasiya mədəniyyətinin formalaşması prosesi onun tərkib hissəsinin (qəbul, yaddaş, emal, təqdimetmə) imkanlrı ilə bilavasitə əlaqədardır.

Yüksək informasiya mədəniyyəti insana istənilən növ informasiya ilə işləmək, həm gündəlik həyatda, həm də peşəkar fəaliyyətdə bu informasiyadan səmərəli istifadə imkanı verir. Belə ki, əgər, insanda informasiya mədəniyyəti varsa, onun informasiya cəmiyyətində işlə təmin olunması üçün geniş prespektivləri də vardır .

***İnformasiya inqilabı.*** Bəşəriyyətin informasiya cəmiyyətinə gətirən yolun əsasında sivilizasiya tarixində baş verən informasiya inqilabı dayanır. I informasiya inqilabı hələ çox qədim zamanlarda insanlar arasında informasiya mübadiləsinin əsasını təşkil edən nitqin meydana gəlməsi və inkişafı ilə baş verdi. II informasiya inqilabı təxminən 5-6 min il bundan əvvəl yazının meydana gəlməsi ilə əlaqədardır. III informasiya inqilabı XV əsrin sonuna təsadüf edir. Belə ki, 1947-ci ildə alman alimi Quttenberq kitab çapı texnologiyasını ixtira etməklə bu inqilabın əsasını qoydu. IV informasiya inqilabının əsasını elektrik kəşfi nəticəsində telefon, teleqraf texnologiyasının meydana gəlməsi (1896) təşkil edir, sonralar elmi-texniki tərəqqinin inkişafı nəticəsində radio və televiziya kəşf olundu. Bu inqilabın verdiyi imkanlar hesabına informasiya bolluğu yaranmağa başladı. V informasiya inqilabının təzahürü olan kompüter və İnternet istənilən formalı informasiyaları yadda saxlamaq, qeyri-məhdud məkanda (coğrafi məkandan virtual məkana keçir) yaşamağa və gələcəyə ötürməyə imkan verir. İnformasiya əsasən, məzmun (siyasi, iqtisadi, tibbi, hüquqi və s.) forma (mətn, audio, təsvir-rəsm, foto, video), məkan və zaman kimi xüsusiyyətlər ilə xarakterizə olunur . V informasiya inqilabı (kompüter və internetdən istifadə bacarığı, şəbəkə mədəniyyəti texnoloji inqilabdır. Belə ki, kompüter savadına malik olmaq informasiya mədəniyyətinin formalaşdırılmasında bir vasitədir. Deməli, texnoloji inqilab şəxsiyyətin informasiya mədəniyyətinin formalaşmasında əsas amillərdən biridir. Bütün bu deyilənlərdən belə nəticə cıxarmaq olar ki, hər bir informasiya inqilabı baş verdikdə müvafiq informasiya mədəniyyəti formalaşır .

İnformasiya cəmiyyətinin meydana gəlməsi informasiya mədəniyyətinin formalaşdırılmasını daha da aktual edir. Hazırda ölkəmizdə də informasiya cəmiyyətinin qurulması çərcivəsində insanların bu cəmiyyətə hazırlanması, kompüterləşmənin intensivləşdirilməsi, internet infrastrukturunun yaradılması, e-vətəndaşların formalaşdırılması və s. əsas məsələlər sırasındadır.

E-vətəndaş ölkəmizin sosial-iqtisadi inkişafında, informasiya cəmiyyəti quruculuğunda mühüm rol oynayacaqdır . Bu gün müstəqil Azərbaycanda demokratik, sivil cəmiyyətin qurulması sürətlə inkişaf edir. Bütün bunlar insanların dünya görüşündə, həyat baxışlarında, sosial-iqtisadı, ictimai-siyasi proseslərə münasibətlərində ciddi dəyişikliklər yaratmış və mədəni sahələri əhatə edərək cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Belə ki, XXI əsr bilik və informasiya əsri oldugu ücün, informasiya mədəniyyətinə malik olan yeni cəmiyyətin, yeni məktəbin, yeni təhsil sisteminin və intelektual təfəkkürə malik olan gənc nəslin yetişdirilməsi zamanın tələbidir .

***E-dövlətin informasiya təhlükəsizliyi anlayişi***

İnformasiya təhlükəsizliyi kifayət qədər mürəkkəb və geniş anlayışdır, onun vahid, birmənalı elmi tərifi yoxdur. “İnfomasiya təhlükəsizliyi” anlayışı ayrı-ayrı müəlliflər tərəfindən müxtəlif cür müəyyən edilir, bu terminlər bir-biri ilə uzlaşmır və metodoloji işin nəzəri əsaslandırılması üçün yararsız olur. İnfomasiya təhlükəsizliyinin nəzəri əsaslarını tədqiq edən Q. V. İvaşşenko (Moskva Dövlət Universiteti, informasiya təhlükəsizliyi kafedrasının dosenti) öz icmalına belə yekun vurur: “Təhlükəsizlik sahəsində müasir nəşrlərin əhəmiyyətli hissəsi predmeti sistemsiz və səthi təsvir edir. Onların müəllifləri tez-tez ideallaşdırmağa, mif yaratmağa meyl edirlər və mövcud olanın izahından arzuolunanın izahına keçirlər” .

“İnformasiya təhlükəsizliyi” anlayışının “idarəetmə (menecment)” anlayışı ilə əlaqəsinin aydınlaşdırılması “edövlətin informasiya təhlükəsizliyi” anlayışının məzmununa daxil olan əsas əlamətlərin aşkarlanmasına imkan verir .

İnformasiya təhlükəsizliyi termini həmişə müəyyən şəraitdə (mühitdə) olan konkret idarəetmə obyekti ilə bağlı olur. Təhlükəzilik obyektin müəyyən vəziyyətidir və onu müvafiq keyfiyyət xüsusiyyətlərini göstərməklə müəyyən etmək olar. Təhlükəsizlik haqqında danışarkən obyektin varlığının müəyyən məqsəd funksiyası nəzərdə tutulur və təhlükəsizlik subyektin bu funksiyanı reallaşdırma qabiliyyəti kimi başa düşülür.

Beləliklə, idarəetmə nəzəriyyəsi baxımından e-dövlətin informasiya təhlükəsizliyini e-dövlətin normal fəaliyyətini pozmağa yönəlmiş məqsədyönlü daxili və xarici təsirlər şəraitində e-dövlətin normal rejimdən yolverilən kənarlaşmalar çərçivəsində dayanıqlı idarə edilməsi prosesi kimi müəyyən etmək olar.

“Virtual dövlət” termini Harvard Universitetinin siyasi elmlər üzrə professoru J.E.Fountain tərəfindən informasiya texnologiyalarının hökumətdə institusional dəyişikliklərə, daha konkret, dövlət bürokratiyasına təsirini araşdıran tədqiqatlarının nəticəsi kimi daxil edilmişdir . J.E.Fountain virtual dövləti “... daha çox virtual agentliklər, strukturu və imkanları İnternet və vebdən asılı olan agentliklərarası və dövlət-özəl şəbəkələri kimi təşkil olunmuş hökumət” kimi müəyyən edir. Bu alimə görə, verilənlərin və kommunikasiyaların rəqəmsallaşması dövlətin və onun təşkilatlarının təbiətində fundamental dəyişikliklər edir. Edövlətin əsas komponentləri e-firma, e-təşkilat və evətəndaşdır. Onların hər biri öz elektron hissəsini reallaşdırmaq üçün öz daxilində çalışırlar, onlar bir-biri ilə qarşılıqlı əlaqədə də işləyirlər və nəticədə, tədricən e-dövlət yaranır.

## ƏDƏBİYYAT

1. A.S.Əhmədova. İnformasiya cəmiyyətinin qurulmasında informasiyalaşdırmanın rolu və dövlət siyasəti // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, s.166, № 3(27) 2009

2.R.M.Əliquliyev, Ə.Q.Əliyev. İqtisadi proseslərdə informasiya texnologiyaları. Bakı: Elm, 2002, 48 səh.

3.Əlövsət Qaracaoğlu Əliyev. İnformasiya elminin tarixi, predmeti, məqsədi və onun cəmiyyətdəki rolu və vəzifələri. AMEA İnformasiya Texnologiyaları İnstitutu

**ƏFİFƏ ƏLİYEVA**
*İnformatika fənninin tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*afifapiriyeva1997@gmail.com*

## MƏTN MƏSƏLƏLƏRİNİN MODELİNİN QURULMASI

Müasir cəmiyyətin informasiyalaşdırılması məsələlərindən biri də təhsildə informasiya texnologiyalarından istifadə etməkdir. İnsan həyatının bütün sahələrinin informasiyalaşdırılması və kompüterləşdirilməsi prosesi pedaqoji fəaliyyətdə də informasiya və kompüter texnologiyalarının geniş tətbiqinə zəmin yaradır.

Bu gün kompüter texnologiyalarının tədris prosesinə tətbiqi onun ayrılmaz bir hissəsidir. Riyaziyyat dərslərində kompüter texnologiyalarından istifadə sosial, pedaqoji və texnoloji səbəblərlə əlaqəlidir. Pedaqoji səbəblər tədrisin səmərəliliyinin və keyfiyyətinin artırılması üçün yeni imkanların axtarışı zəruriliyindən irəli gəlir. İnformasiya texnologiyaları tədris informasiyasının ötürülməsi imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir, öyrənmək üçün motivasiyanı artırmağa imkan verir və şagirdləri öyrənmə prosesinə cəlb edir.

Ümumiyyətlə elmdə modelləşdirmə üsulundan çox istifadə edilir. Modelləşdirmə hər hansı hadisənin və ya obyektin tədqiqi üçün bu hadisəyə və ya obyektə oxşar obyekt seçirlər və ya başqa obyekt qururlar. Qurulmuş və ya seçilmiş obyekti öyrənirlər, sonra isə bunun köməyi ilə tədqiq edilən məsələni həll edirlər.

Yuxarıda deyilənləri nəzərə alaraq, bu məqalə də məktəb riyaziyyatına aid mətn məsələlərinin həll etmək üçün həll planının, həllin riyazi və kompyüter modellərinin qurulması yollarının öyrənilməsinə həsr edilmişdir.

Modelləşdirmə prosesində alınan ifadə, tənlik, baxılan məsələnin modeli adlanır. Məsələnin həll modelinin qurulması dörd mərhələdən keçir [1]:

1) məsələnin qoyuluşunun aydınlaşdırılması;
2) həll planının alınması;
3) planın həyata keçirilməsi;
4) həllin analizi.

Müxtəlif mərhələlərdə informasiyanın kompüter modelləşdirilməsinə çevrilməsi aşağıdakı sxemi üzrə həyata keçirilməlidir [1].

**Modelləşdirilən obyekt → Obyekt haqqında informasiya → Obyektin informasiya modeli → Kompyüter modeli.**

Məsələnin modelinin quruları həll edilməsi məsələnin yenidən ifadə edilməsidir. Bu zaman ortaya aşağıdakı suallar çıxır.

1. Məsələnin yenidən ifadə edilməsi nə deməkdir?
2. Bu zaman nə alınır?
3. Yenidən ifadə edilmə hansı vasitələrlə həyata keçirilir?

Bu suallara cavab vermək üçün nümunə məsələnin həllinə baxaq.

Məsələ 1. İki stansiya arasındakı məsafə 96 km-dir. Birinci qatar bu yolu ikincidən 40 dəqiqə tez gedir. Birinci qatarın sürəti ikinci qatarın sürətindən 12 km/saat çoxdur. Hər iki qatarın sürətini tapın.

Həlli. Məsələ mətn şəklində verilmişdir. Bu məsələni həll etmək üçün məsələ yenidən qurularaq riyazi işarələrlə ifadə edilməlidir. Yəni hər hansı tənlik qurulmalıdır ki, bu da məsələnin riyazi modelidir. Buna məsələnin modelləşdirilməsi deyilir.

Birinci qatarın sürəti $x$ km/saat olarsa, ikinci qatarın sürəti ($x$-12) km/saat olur. Onda şərtə görə məsələnin riyazi olaraq yenidən qurulması aşağıdakı tənliklə ifadə olunur:

$$\frac{96}{x-12}-\frac{96}{x}=\frac{2}{3} \Rightarrow 96\cdot 3x-96\cdot 3(x-12)=2x(x-12).$$

Buradan:

$$x^2-12x-144\cdot 12=0.$$

Göründüyü kimi məsələnin riyazi modeli kvadrat tənliklə ifadə edilmişdir. Bu tənliyi analitik üsulla həll etmək mümkündür. Ancaq məsələnin kompyüterdə həll edilməsi yollarının öyrədilməsi üçün ümumi halda kvadrat tənliyin proqramlaşdırma dillərinin birində proqramının tərtibi alqoritmi öyrədilməlidir.

```
program kvadrattənlik ;
var
  a, b, c, x1, x2, discriminant : real;
begin
  {verilənlərin daxil edilməsi}
  write('a = ');
  readln(a);
  write('b = ');
  readln(b);
  write('c = ');
  readln(c);
  {diskriminantın tapılması}
  discriminant := sqr(b) - 4 * a * c;
  if discriminant < 0 then
    writeln('kvadrat tənliyin həlli yoxdu')
  else
    begin
      if discriminant = 0 then
        begin
          {kvarat tənliyin iki bərabər kökü var}
          x1 := -b / (2 * a);
          x2 := x1;
        end
       else
         begin
           {kvadrat tənliyin iki müxtəlif kökü var}
           x1 := (-b + sqrt(discriminant)) / (2 * a);
           x2 := (-b - sqrt(discriminant)) / (2 * a);
         end;
       {köklərin çapı}
       writeln('x1 = ', x1:8:3);
       writeln('x2 = ', x2:8:3);
    end;
  readln;
end.
```

```
a = 1
b = -12
c = -1728
x1 =   48.000
x2 =  -36.000
```

Təcrübələr göstərir ki, bir çox halda mətn məsələləri üçün müxtəlif köməkçi modellər qurmaq lazımdır. Bu modellər bir tərəfdən məsələnin təhlilinin nəticəsini təsvir edir, digər tərəfdən isə belə

modellərin qurulması məsələnin detallı və dərindən təhlilini istiqamətləndirir.

Şagirdlərin riyaziyyat və kompüter modelləşdirməsinin elementləri ilə tanışlığı təkcə onlarda elmi dünyagörüşü formalaşdırmır, həm də onların təhsilini daha mənalı və məhsuldar edir.

## ƏDƏBİYYAT


1. Н.В. Василишина, Применение метода компьютерного моделирования в обучении математике, Ежеквартальный рецензируемый, реферируемый научный журнал «Вестник АГУ». Выпуск 2 (178)-2016 .
2. R.Ə. Mahmudzadə və başqaları. 9-cu sinif İnformatika dərsliyi, Bakı: 2016.
3. A.İ. Həsənov. Riyaziyyat II hissə, dərs vəsaiti. Naxçıvan: 2008.

**MƏHTƏBAN ƏLİYEVA**
*İdarəetmədə informasiya sistemləri*
*Naxçıvan Dövlət Universiteti*
*mehtapaliyeva115@gmail.com*

# NEYRON ŞƏBƏKƏLƏR NƏZƏRİYYƏSİ

Biz informasiya axınlarının günü – gündən yüksək templə artdığı bir cəmiyyətdə yaşayırıq. İnsanlar informasiya texnologiyalarından istifadə etməklə informasiya axınlarının öhdəsindən gələ bilirlər. Son zamanlar informasiya texnologiyalarının sürətli inkişafı göstərir ki, hesablama texnikası elmi – tədqiqat işlərinin aparılmasında, idarəetmə proseslərində və insan fəaliyyətinin digər sahələrində tətbiqi qərarların qəbul edilməsi məsələlərinin həlli zamanı asan, daha tez və düzgün nəticələrin əldə olunmasında çox böyük rol oynaya bilər. Bazar iqtisadiyyatı şəraitidə hər bir müəssisənin məqsədi daha çox mənfəət əldə etməkdir. Belə qərarların effektivliyinin təmin olunması məqsədi ilə müəssisələr əksər hallarda müvafiq sahə üzrə ixtisaslaşmış mütəxəssislərə müraciət etməli olurlar ki, bu da mütəmadi xarakter aldıqda, əhəmiyyətli miqdarda maliyyə vəsaiti tələb edir. Oxşar xərclərə hər müəssisədə yol verilə bilməz.

Neyron texnologiyaları mikroprosessor bazasında xüsusi neyrokomponentlərin bir-biri ilə qarşılıqlı əlaqəsində, süni intellektin yaradılmasında istifadə olunur. Süni intellekt mürəkkəb məsələlərin həllində, obrazların tanınmasında, kredit risklərinin idarə olunmasında, maliyyə proqnozlarında, tikililərin keyfiyyəti, vəziyyəti, əhatə dairəsi və mühitinin uçotu ilə əlaqədar olaraq gözlənilməz hadisələrin təyin olunmasında, çeklərin avtomatik təyin olunmasında istifadə olunur. Neyron texnologiyalarından bəhs etməmişdən öncə neyron haqqında izah verək. Neyron formal, süni olmaqla neyroşəbəkənin tərkib hissəsi kimi sadə çevirici elementdir. Neyron 3 tip elementi özündə birləşdirməklə 2 əsas funksiyanı, yerinə yetirir. Bu funksiyalar çəkili cəmləmə və qeyri-xətti çevrilmə funksiyalarıdır. Neyron bütövlükdə vektor arqumentinin skalyar funksiyasını reallaşdırır. Neyronun fəalliyyəti uyğun olaraq 2 takt üzrə həyata keçirilir: cəmləyicidə neyron vasitəsilə alınmış qıcıqlanmanın ölçüsü hesablanır; qıcıqlanma çevirici funksiyası vasitəsilə işə buraxılır və onun nəticəsində çıxış siqnalı müəyyən edilir. İnformasiya emalının neyron texnologiyası 2 komponent üzrə həyata keçirilir:

1. Neyrokompüter.
2. Neyroşəbəkə.

Bu sistemlərdə məsələlərin həlli alqoritmi "və, və ya, yox kimi elementləri rədd edən neyronların məntiqi elementlər şəbəkəsi" kimi təqdim olunur. Bunun nəticəsi
kimi ayrıca baxış predmeti olan elementlər arasında spesifik əlaqələri təqdim edir.

Süni neyronlar mükəmməl xüsusiyyətləri ilə fərqlənirlər. Onlar proqram təminatının detalına kimi işlənib hazırlanmasını tələb etmir və həll alqoritmini müəyyən edən nəzəri modelinin iştirakı olmadan məsələlərin həlli imkanını verir. Belə şəbəkələr funksionallaşdırma şərtlərinin dəyişilməsinə, əvvəlcədən baxılmamış faktorların baş verməsinə uyğunlaşmaq imkanına malikdir. Öz təbiətində neyron şəbəkələr çox yüksək paralellik dərəcəsinə malik sistemlərdir. Neyrokompüterlərdə real neyron şəbəkələrdə həyata keçirilən inormasiyanın emalı prinsipindən istifadə olunur. Neyrokompüterlərin əsasını neyron şəbəkələri təşkil edir. Neyron şəbəkələri adaptiv yeniliklər olan neyronların paralel birləşməsi sayəsində real aləmin obyektləri ilə qarşılıqlı fəaliyyətini təmin edir. Bioloji sinir sistemində olduğu kimi fəaliyyət göstərir. Neyron şəbəkə müəyyyən bir struktur ilə əlaqləndirilmiş ayrı-ayrı neyronlar toplusudur. Şəbəkənin hesablama gücü, yəni onun yerinə yetirə biləcəyi məsələlər bu əlaqələrlə müəyyənləşir. Əlaqələr bir qisim neyronların çıxışlarını digərlərinin girişləri ilə birləşdirir, onların "gücü" isə çəki əmsalları ilə (və ya sadəcə olaraq çəkilərlə) verilir. Beləliklə, bir neyronun davranışının digər neyronun davranışına təsir gücü əlaqənin uyğun çəki əmsalı ilə müəyyən olunur. Buna görə də neyron sistemlərini çox vaxt konneksionist (connection birləşmə, əlaqə sözündən) sistemlər də adlandırırlar.

**Şəbəkədə əlaqələrin düzümü.** Onun arxitekturasını 2 növə ayırmaq olar: tam əlaqəli və

iyerarxik şəbəkələr.

Qraflar nəzəriyyəsindən məlumdur ki, tam əlaqəli arxitekturada şəbəkənin bütün elementləri bir-biri ilə birləşmiş olur. Neyron şəbəkələrdə isə bu onu göstərir ki, hər bir neyronun çıxışı bütün digər neyronların girişləri ilə birləşmiş və onun girişləri qalan elementlərin çıxışları ilə bağlanmışdır.

İyerarxik arxitekturada ayrı-ayrı laylarda və ya səviyyələrdə yerləşmiş neyron qruplarını ayırmaq olar. Layın hər bir neyronu əvvəlki və sonrakı layın hər bir neyronu ilə əlaqələndirilir. Giriş və çıxış laylarını xüsusi olaraq ayırmaq lazımdır. Giriş layının neyronları siqnalları xarici mühitdən alırlar və sonrakı layın neyronları üzrə paylayırlar. Çıxış layının neyronlarının çıxışları xarici mühitə daxil olur. Girişlər və çıxışlar arasında yerləşmiş laylar aralıq və yaxud gizli laylar adlanır (onların xarici mühitlə bilavasitə əlaqəsi olmur).

Siqnalların ötürülməsi istiqamətinə görə şəbəkələri əks əlaqəsiz və ya qeyrirekurrent və əks əlaqəli və ya rekurrent şəbəkələrə ayırırlar.

Əks əlaqəsiz şəbəkələrdə bir layın neyronları, siqnalları yalnız xarici mühitdən və yaxud da əvvəlki layın neyronlarından qəbul edirlər və siqnalları ya xarici mühitə, ya da sonrakı layın neyronlarının girişinə ötürürlər.

Rekurrent şəbəkələrdə müəyyən laydakı neyronlar bundan əlavə, siqnalları özləri-özlərindən və həmin layda yerləşən digər neyronlardan qəbul edə bilərlər.

Çoxsaylı süni neyron şəbəkələri qeyri-xətti fəallaşma funksiyasından istifadə etməklə şəbəkədə layların sayının artırılması onun hesablama gücünün artırılmasına, daha mürəkkəb inikasların qurulmasına imkan verir.

Determinik neyron şəbəkələr elementlərinin fəallaşma funksiyaları determinik olan neyron şəbəkələrdir. Fəallaşma funksiyası kimi müxtəlif funksiyalardan istifadə olunur. Neyron şəbəkələrin əsas xassələrindən biri şəbəkələrdə informasiyanın paralel emalıdır. Neyronların hər biri başqa elementlərin hər hansı qrupu ilə paralel olaraq işləyən ayrıca hesablama qurğusudur. Hər bir neyron şəbəkənin çıxış siqnalları vektorunun formalaşdırılmasında öz hesablama payı ilə iştirak edir. Buna görə də paralel aparatlarda onların realizə olunması neyron hesablamaların yüksək sürətini müəyyənləşdirir.

Neyron şəbəkələrin bir sıra modelləri məlumdur və həmin modellərə aşağıdakılar aid edilə bilər:

- çoxqatlı biristiqamətli şəbəkələr;
- tam əlaqəli Hopfield şəbəkəsi (birqatlı şəbəkə);
- ikistiqamətli assosiativ yaddaş;
- özünütəşkil edən Kohonen şəbəkəsi.

Çoxqatlı biristiqamətli şəbəkənin fəaliyyəti aşağıdakı kimi həyata keçirilir: Şəbəkəyə verilən giriş siqnalları giriş qatlarının neyronlarına daxil olur, növbə ilə bütün qatlardan keçir və nəticələr çıxış qatlarının çıxış neyronlarından alınır.

Tam əlaqəli Hopfild şəbəkəsi birqatlı şəbəkə olmaqla, onun bütün neyronları bir-biri ilə əlaqəli olur və neyronun çıxış siqnalı onun öz girişinə verilə bilər.

Neyroşəbəkə bazasında qurulan neyrokompüterlər assosiativ yaddaşa malik olmaqla daxil olan surətlərin sayından asılı olmayaraq lazım olan tezliklə onları təsnifləşdirir və yeni surəti təcili olaraq yaxınlıqda mövcud olan surətlə əlaqələndirir.

Özünü təşkil edən Kohonen şəbəkəsi kartlardan və yaxud çoxölçülü çəpərlərdən ibarət olmaqla onların hər bir qovşağı ilə giriş çəki vektoru assosiasiya edilir.

## ƏDƏBİYYAT

1. Ə.M.Abbasov, Z.Z.Bayramov, H.X.Quliyev. İqtisadi informasiyanın işlənməsinin kompüter texnologiyası. Bakı: 2002.
2. S.Q.Kərimov, S.B.Həbibullayev, T.İ.İbrahimzadə. İnformatика. Baкı: 2002
3. H.X.Quliyev, R.Ə.Balayev. İqtisadi informatika və hesablama texnikası. Bakı: 1998
4. az.m.wikipedia.org
5. unec.edu.az

**GÜLLÜ RZAYEVA**
*İdarəetmədə informasiya sistemləri mühəndisliyi*
*Naxçıvan Dövlət Universiteti*
*rzayevagullu@gmail.com*

# PROQRAM VƏ PROQRAM TƏMİNATI

Dövrdən asılı olaraq, insanların texnologiyaya olan tələbatı da dəyişir. Keçən əsrin ortalarından başlayaraq informasiya texnologiyaları bizim üçün daha mühüm yer tutmağa başlamışdır. EHM - lərin nəsillərinə əsaslanaraq bunu deyə bilərik ki, bizim nəsillərimiz texnologiyadan, daha dəqiq desək, kompüterdən, telefondan demək olar ki, istifadə etməyiblər. Son illərdə nənələrimiz, babalarımız bu vasitələri görüblər, amma çoxu istifadə etməyi bilmədiyi üçün bunun əhəmiyyətini bilməyiblər. Hal – hazırda isə özümüzü gündəlik həyatda informasiya vasitələrindən istifadə etmədən təsəvvür belə edə bilmərik. Hər işimizi kompüterin, telefonların köməyilə cəmi bir neçə dəqiqə ərzində olduğumuz yeri tərk etmədən onlayn şəkildə həll edirik. Hazırda isə pandemiya səbəbi ilə nəinki bizə lazım olan işlər hətta təhsilimiz belə onlayn həyata keçirilir. Bəs bu qədər işi kompüter, telefon necə görür? Təbii ki, hər işin həlli üçün yaradılmış xüsusi proqramlar vasitəsilə. Bəs proqram nədir? Onun hansı növləri mövcuddur? Bu sualları cavablandıraq.

Təsəvvür edin ki, sizin hər hansı bir əcnəbi ölkədən gəlmiş çox qabiliyyətli, hər bir göstərişinizi icra etməyə qabil olan qulluqçunuz vardır. Amma bu qulluqçu sizin bütün əmrlərinizi deyil, yalnız özünün başa düşə bildiyi dildə və çox dəqiq deyilmiş əmrləri yerinə yetirə bilir. Kompüterlər bir növ belə qulluqçuya bənzəyir. Bildiyiniz kimi, kompüterlər informasiya üzərində əməliyyat aparan qurğudur. Öz - özlüyündə kompüterlər tətbiq edildiyi sahələrin heç birinə aid biliklərə malik deyil. O yalnız istifadəçi tərəfindən verilmiş əmrlər ardıcıllığını, yəni proqramları icra edir. Beləliklə, proqram dedikdə, kompüterin başa düşə bildiyi dildə yazılmış əmrlər ardıcıllığı nəzərdə tutulur. "Kompüter hər hansı bir hesablamanı yerinə yetirdi” deyilişi müəyyən mənada düzgün deyil. Çünki hesablamanı kompüter özü birbaşa deyil, yalnız ona verilmiş proqramlar vasitəsilə icra edir. Proqramlar olmasa, kompüter 10-15 kq ağırlığında metal və plastmas material yığımından başqa bir şey deyildir. Burada insanlarla kompüter arasında oxşarlıq yada düşür. Doğrudan da, adamı insan edən onun şüurudur. Yəni hər bir adamın ictimai dəyəri onun boy-buxunu, çəkisi ilə deyil, əqli, zəkası ilə müəyyən olunur. [1]

Müasir kompüterlərin proqram təminatına (PT) müxtəlif yönlü proqramlar daxildir ki, onları da yerinə yetirdikləri funksiyalara görə üç qrupa bölmək olar:

- sistem proqram təminatı (system software) ;
- tətbiqi proqram təminatı (application software);
- instrumental proqram təminatı – proqramlaşdırma vasitələri (software tools).

Sistem proqram təminatı (SPT) kompüterdə informasiyanın emalı prosesinin təşkili ilə yanaşı, tətbiqi proqramlar üçün normal informasiya mühitini təmin edir. SPT kompüterin aparat vasitələri ilə sıx əlaqədə olduğundan, bəzən onu kompüterin bir hissəsi də hesab edirlər. SPT – yə bunlar daxildir: baza proqram təminatı; servis proqram təminatı.

*Baza proqram təminatına ( base software )* – kompüter sisteminin işini təmin edən proqram vasitələri daxildir.

*Servis proqram təminatına* baza proqram təminatının imkanlarını genişləndirən və istifadəçinin işi üçün rahat informasiya mühiti təşkil edən proqram və proqramlar kompleksi daxildir.

Baza proqram təminatına bunlar daxildir: əməliyyat sistemləri; əməliyyat örtükləri; şəbəkə əməliyyat sistemləri.[2]

*Əməliyyat sistemi* (ingiliscə *Operation System (OS)*) – hesablama prosesini həyata keçirən texniki vasitələlərin idarə olunmasını təmin edən proqramlar toplusundan ibarətdir.

Kompüter işə salındıqda əməliyyat sistemi başqa proqramlara nəzərən ilkin olaraq əməli yaddaş qurğusuna yüklənir və o digər proqramların işləməsi üçün mühit yaradır. Əməliyyat sistemi

eyni zamanda kompüterlərdə çoxməsələli (yaddaşın və həll vaxtının bölünməsi, qırılmaların təşkili və s.) iş rejiminin təşkilini təmin edir.

Əməliyyat sistemi kompüter avadanlığının istifadəsini (avadanlıqların idarə etməsini, informasiyanın daxil edilməsini və çıxardılmasını, sənədlərin redaktəsini, başqa proqramların istifadəsini, idarə edilməsini və s.) mümkün edən proqramdır. Əməliyyat sistemi ən öncə kompüterin sabit yaddaşından əməli yaddaşa köçürülür və bütün başqa proqramlar həmin əməliyyat sistemi altında çalışır.[5]

*Əməliyyat örtükləri* – istifadəçilərin əməliyyat sistemlərinin əmrləri ilə əlaqəni asanlaşdırmaq üçün nəzərdə tutulan xüsusi proqramlardır. Daha doğrusu, əməliyyat örtükləri əməliyyat sistemləri üzərində quraşdırılaraq, istifadəçiyə keyfiyyətcə yeni interfeys təqdim edir və onu ƏS – nin əmr və əməliyyatlarını dərindən bilməsindən azad edir. Əməliyyat örtüklərinin mətnli və qrafiki interfeys variantları mövcuddur. Məsələn, MS DOS ƏS üçün mətnli interfeysi olan Norton Commander, Windows ƏS üçün isə qrafiki, həmçinin, mətnli interfeysi olan Windows Commander - i missal göstərmək olar.[2]

*Şəbəkə əməliyyat sistemləri* əksər hallarda şəbəkə üçün nəzərdə tutulmuş, olduqca güclü bir və ya daha çox kompüter-serverlərdə quraşdırılır. Digər ƏS-ləri lokal sayılır və ixtiyari kompüterdə, həmçinin şəbəkəyə işçi stansiya və ya kliyent kimi qoşulmuş kompüterlərdə də istifadə oluna bilər. Əməliyyat sistemlərini təsnif edərkən onların daşıdığı funksiyalardan, işlədiyi hesablama sisteminin və prosessorun daxili arxitekturasının xüsusiyyətlərindən doğan kriteriyalardan çıxış etmək lazımdır. [5]

*Servis proqramlar* istifadəçiyə kompüterlə işləyərkən əlavə xidmətlər göstərir və əməliyyat sisteminin imkanlarını genişləndirirlər.

Servis proqramlarının yerinə yetirdikləri əsas funksiyalar bunlardır: istifadəçi interfeysinin təkmilləşdirilməsi; verilənlərin mühafizəsi; verilənlərin bərpası; xarici yaddaşla əməli yaddaş arasındakı informasiya mübadiləsinin sürətlən-dirilməsi; arxivləşdirmək – arxivi açmaq; kompüter virusları ilə mübarizə və s. [2]

*Tətbiqi proqram təminatı* istifadəçinin hər hansı məsələni həll etmək məqsədilə yaradılır və sistem proqramlarının idarəsi altında işləyir. Tətbiqi proqram paketləri (TPP) istifadəçi tərəfindən həll edilən məsələnin avtomatlaşdırılması üçün çox güclü alətdir və praktiki olaraq, onun informasiyanın emalında kompüterin bu və ya digər funksiya və prosedurlarının necə yerinə yetirlməsini bilməkdən azad edir. Hal - hazırda, öz funksional imkanlarına və reallaşdırma üsullarına görə fərqlənən çox geniş spektrli TPP mövcuddur. TPP – müəyyən olunmuş sinif məsələləri həll üçün təyin olunmuş kompleks proqramdır. TPP – nin tərkibinə müxtəlif aşağıdakı TPP daxildir:

a) ümumi təyinatlı (universal); b) üsulyönlü; c) problemyönlü; d) qlobal kompüter şəbəkələri üçün.

*Ümumi təyinatlı TTP* – istifadəçinin funksional məsələlərinin və informasiya sistemlərini hazırlanması və istismarının avtomatlaşdırılması üçün təyin olunan universal proqram məhsuludur. Bu tip TPP – lərə bunlar aiddir: mətn redaktorları və prosessorları; elektron cədvəllər və cədvəl prosessorları; qrafiki redaktorlar; nəşriyyat sistemləri; tərcümə və lüğət proqramları; mühasibat proqramları; verilənlər bazasının idarəetmə sistemləri (VBİS); inteqrallaşdırılmış paketlər; ekspert sistemləri və s.

Üsulyönlü TPP riyazi – iqtisadi məsələlərin müəyyən üsullarla həllini reallaşdırır. Bura aşağıdakı TPP – lər aiddir: riyazi proqramlaşdırma (xətti, dinamik, statik və s.); şəbəkəli planlaşdırma və idarəetmə; kütləvi xidmət nəzəriyyəsi; riyazi statistika.

Bu paketlərə misal olaraq fərdi kompüterlərdə reallaşdırılan Math Cad, MatLab, Derive, TK Solver, Mathematica, Maple, Simplex, Stats Network proqramlarını göstərmək olar.

Tətbiqi proqram paketlərinin çox geniş sinfi problemyönlüdür. Praktiki olaraq elə tədqiq sahəsi yoxdur ki, burada heç olmasa bir TPP olmasın. Problemyönlü TPP elə proqram məhsuluna deyilir ki, burada konkret bir sahənin hər hansı bir məsələsinin həlli nəzərdə tutulur.Problemyönlü TPP sənaye, qeyri-sənaye və xüsusi sahələrdə tətbiq üçün proqram paketlərindən ibarətdir.

Qlobal şəbəkələrin TPP – nin əsas vəzifəsi istifadəçinin ərazilər üzrə paylanmış ümumi şəbəkə resuslarına, verilənlər bazasına müraciəti, məlumatların ötürülməsini və s. rahat və etibarlı təmin etməkdən ibarətdir. Elektron poçtu, telekonfrans, elektron elanlar lövhəsinin təşkili üçün, müxtəlif qlobal şəbəkələrə informasiyanın gizli ötürülməsini təmin etmək üçün standart tətbiqi proqram paketlərindən istifadə olunur. Qlobal internet şəbəkəsinin standart TPP – nə bunları misal göstərmək olar:

- naviqasiya və müraciat vasitəsi – Mozilla Firefox, Microsoft İnternet Explorer;
- Elektron poçtu (E-Mail), məsələn, Eudora, MS Outlook.

Bank fəaliyyətində verilənlərin beynəlxalq şəbəkələrə ötürülməsi üçün standart TPP geniş yayılıb. Bunlara Swift, Sprint, Reuters – i misal göstərmək olar. [4]

*İnstrumental proqramlar və ya proqramlaşdırma sistemləri* yeni proqram vasitələri (sistem və tətbiqi) yaratmaq üçün istifadə edilir. Proqramlaşdırma sistemləri maşın dilində deyil, istifadəçi üçün daha asan olan proqramlaşdırma dillərində işləməyi təmin edir.

*Maşın dilləri* çoxsaylı əmrlər ardıcıllığından ibarət kompüterin birbaşa başa düşə biləcəyi kodlarla işləyir.Təbii dilə yaxın olan daha sadə dillər *proqramlaşdırma dilləridir*. Proqramlaşdırma dilində yazılan proqramlar maşın dillərinə çevrilərək yerinə yetirilir.

*Alqoritmik dillər* yüksək səviyyəli dillər hesab edilir. Belə dillərdə tərtib olunan proqramlar istənilən kompüterdə işləyir və onlarla işləmək əlverişli və asandır. Çatışmayan cəhətləri kompüterin texniki xarakteristikalarının nəzərə alınmasının mümkün olmaması və icrasına daha çox vaxtın sərf edilməsidir.

Alqoritmik dillər aşağıdakı qruplara ayrılırlar: məntiqi məsələlərin həlli üçün; elmi-texniki və iqtisadi məsələlərin proqramlaşdırılması üçün; texnoloji proseslərin idarə olunması və modelləşdirilməsi məsələlərinin proqramlaşdırılması üçün.

Proqramlaşdırma dilində yazılan proqram yerinə yetirilmədən əvvəl *translyator* adlanan proqramlar kompleksinin köməyi ilə maşın dilinə çevrilirlər.

Translyatorlar iki üsulla təşkil oluna bilərlər: interpretasiya və kompilyasiya yolu ilə. Məhz buna görə də translyatoru uyğun olaraq interpretator və ya kompilyator adlandırırlar.

*İnterpretator* proqramın operatorlarını bir-bir təhlil edir və onu bütövlükdə yaddaşa yükləyir. Bu səbəbdən də proqramın işləmə vaxtı uzanır.

*Kompilyator* bütün proqramı maşın koduna çevirərək səhvlər haqqında məlumatları vaxtında istifadəçiyə çatdırır. Beləliklə, operatorların təhlili və maşın koduna çevrilməsi bir dəfəlik aparılır. Buna görə də kompüterin işləmə sürəti artır və proqramın icrası prosesdən asılı olmur, proqram əməli yaddaşa yüklənməsinə ehtiyac duyulmur və yaddaşdan digər məqsədlər üçün istifadə edilməsinə şərait yaranır.[3]

## ƏDƏBİYYAT


1. R. Nəcəfov. Kompüterlə üz-üzə. Bakı: 2003.
2. V.B.Müslümov, Ə.Ə.Əliyev, S.B.Həbibullayev, Y.B.Sərdarov. İnformatika. Bakı: 2015.
3. https://kayzen.az/blog/informatika/5784/proqram-təminatı.html
4. https://kayzen.az/blog/informatika/10866/tətbiqi-proqram-təminatı.html
5. https://az.wikipedia.org/wiki/Əməliyyat_sistemi

**GÜLNAR ƏLİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*eliyevagulnar929@gmail.com*

# İNTERNETİN YARANMA TARİXİ

Keçən əsrin 50-ci illərində kompüterlərdən istifadə edərək informasiyanın ötürülməsi və qəbul edilməsi laboratoriya şəraitində eksperiment kimi həyata keçirilir. 60-cı illərin sonlarında (2 yanvar 1969-cu il) isə Amerikanın Müdafiə Nazirliyi istifadə etdiyi kompüterlər arasında əlaqə şəbəkəsi yaratmaq məqsədi ilə **ARPANET** (Qabaqcıl Tədqiqatlar Bürosu-**Advanced Research Prajects Agency-ARPA**) adlı paylanmış şəbəkənin yaradılması üçün sifariş verir. Sifarişin verilməsində əsas məqsəd bir-birindən uzaq məsafələrdə yerləşən və müxtəlif ştatlarda istifadə edilən fərdi kompüterlərin arasında əlaqə yaradılmasının təmin edilməsi idi. Bu zaman əsas fikir ona yönəldilmişdi ki, əgər fərdi kompüterlərdən biri sıradan çıxarsa, onda nazirliyin bütün kompüter şəbəkəsində iş rejimi pozulsun. Belə prinsiplə işləyən şəbəkənin yaradılması Amerika Birləşmiş Ştatlarında digər aparıcı təşkilatların da həddindən artıq marağına səbəb olduğu üçün, onlar da özlərinə məxsus belə əlaqəli sistemlərin yaradılması problemini qarşılarına məqsəd qoyur və buna nail olurlar. ARPANET layihəsi çərçivəsində iş paketlərin kommutasiyası ilə şəbəkələrin yaradılmasına əsaslanır. Bu şəbəkə növündə informasiya (məsələn, xəbər) böyük olmayan paketlərə bölünür, həmin paketlər təyin olunmuş yerə çatana qədər səmərəli marşrut seçərək bir-birindən asılı olmayaraq müxtəlif şəbəkələrdə yerini dəyişir. Sonda bütün paketlər son nöqtəyə çataraq yenidən birləşərək ilkin formanı alır. Bütün kompüterlərin eyni hüquqlu olması informasiyanın konkret bir kompüterdən asılılığını aradan qaldırır. Bu texnologiya hətta müharibə vaxtı belə kommunikasiyaların işinin kəsilməməsinə təminat verirdi. Əgər kommunikasiya xəttinin bir hissəsi sıradan çıxarsa, böyük olmayan paketlər digər işləyən xətlərə ötürülə bilər.

ARPANET sistemi uzaq məsafədə olan kompüter mərkəzləri ilə əlaqələri yaradırdı. Bu sistem informasiya mübadiləsi üçün istifadə olunurdu. Sistem inkişaf edərək, 1983-cü ildə iki şəbəkəyə – ARPANET və MİLNET şəbəkələrinə bölünür. MILNET səbəkəsi hərbi məqsədlər, ARPANET şəbəkəsi isə elmi tədqiqatlar üçün nəzərdə tutulurdu. İki şəbəkə arasında informasiya mübadiləsi imkanı yaranır və bu birləşmə İnternet adı ilə tanınır. 1980-ci ildə yeni şəbəkələr meydana gəldi. Məsələn, BITNET (Because It's Time Network), CSNET (Computer Science Network) şəbəkəsi hesablama texnikası və proqramlaşdırma üzrə tədqiqatçıları birləşdirirdi. 1985-ci ildə ABŞ Elmi Fondu (NFS) tərəfindən NFSNet yaradıldı. Bu şəbəkə 5 superkompüteri əlaqələndirirdi. 1990-cı ildə ARPANET öz fəaliyyətini dayandırdı, onun funksiyalarını NSFNET yerinə yetirirdi. Praktik olaraq NSFNet şəbəkəsi bir çox şəbəkəni birləşdirərək indiki İnterneti yaratmışdır. Bununla əlaqədar olaraq İnternet-provayderlərin (ISP – İnternet Service Provider) sayı getdikcə artmağa başladı. İlk kommersiya məqsədli İnternet-provayder "The World" olmuşdur.Sonralar şəbəkəyə Avstriya, Argentina, Belçika, Braziliya, Yunanıstan, İrlandiya, Hindistan, İspaniya, Çili, İsveçrə və Cənubi Koreya və digər ölkələr qoşuldu.

İnternet – çoxlu sayda kompüterlərdən, kabellərdən, marşrutizatorlardan və şəbəkədə əlaqəni və işi təmin edən proqram təminatlarından ibarət qlobal şəbəkə sistemidir. İnternet şəbəkəsini digər şəbəkələrdən fərqləndirən əsas cəhət onun istifadə etdiyi TCP/IP şəbəkə protokollarıdır. TCP/IP ümumiyyətlə İnternetlə kompüterlər arasında qarşılıqlı əlaqə protokolları kimi başa düşülür. TCP – Transmission Control Protocol. TCP iki istiqamətdə informasiya mübadiləsini təmin edir ki, bu da informasiyanın yüksək sürətlə translyasiya olunmasına səbəb olur.IP – İnternet Protocol. IP protokolu İnternet ümumdünya şəbəkəsinin əsas protokoludur. Kompüterlər arasında əmr, mətn, qrafika və digər verilənlərin ötürülməsini və qəbul edilməsi qaydalarını təsvir edən razılaşdırılmış və təsdiq olunmuş standart şəbəkə protokolu adlanır. IP protokolu verilənlərin yalnız ötürülməsini təmin edir. Bütün prosesi isə TCP protokolu idarə edir. İnternet əsası bir-biri ilə birləşdirilmiş regional şəbəkələrdir. Hər bir belə şəbəkə İnternetə giriş nöqtəsi (Network Access Point, NAP) adlanır. Bir

qayda olaraq, bu şəbəkələri müxtəlif İnternet xidmətləri təklif edən şirkətlər idarə edir. Sıravi istifadəçi İnternetə qoşulmaq üçün adətən İnternet xidmətləri təminatçısı (Internet Service Provider, ISP) ilə müqavilə bağlamalıdır. ISP telefon xətləri ilə yüksək sürətli rabitə kanallarına malik yerli şirkətdir. İnternet istifadəçisi şəbəkədə digər kompüterlərlə "müştəri-server" modeli üzrə mübadilə aparır. İstifadəçiyə İnternet resursları – informasiya və xidmətlərini "server" adlanan host-kompüter (**host** – ingiliscə "sahib") təqdim edir.İnternet ümumdünya əlaqə sistemi olub, özündə milyonlarla fərdi kompüteri birləşdirir. Statistik hesablamalara əsaslanaraq demək olur ki, İnternet sistemi ilə ABŞ-da 20 milyon, dünyada isə 100-dən çox ölkənin 60 milyona qədər istifadəçisi bir-biri ilə sıx informasiya mübadiləsi saxlayır. Göstərici zaman keçdikcə artmaqdadır. Alınmış hesablamalardan məlum olur ki, İnternetdə hər ay istifadəçilərin sayı 2 milyona qədər çoxalır, hər dəqiqədə isə sistemə 46 yeni istifadəçi qoşulur. Hər yeni qoşulan istifadəçiyə İnternetdə yeni ünvan verilir.

Rəqəmli nömrələri yadda saxlamaq çətin olduğundan domen adlarından istifadə olunur. Məsələn, www.elm.az Burada www (world wide web) elm domen .az isə birinci səviyyəli domendir. İnternetdə altdomenlər (subdomain) də mövcuddur.Məs.:http://www.firststeps.az. Ünvanın bir şəkildən başqa şəklə çevirilməsi xüsusi Domen Adları xidməti (DNS - domain name service) tərəfindən yerinə yetirilir.

## ƏDƏBİYYAT

1. Əlövsət Qaracaoğlu. İnformatika mühazirələri. AMEA İnformasiya Texnologiyaları İnstitutu
2.İsmayıl Calallı (Sadıqov). İnformatika terminlərinin izahlı lüğəti. "Bakı" nəşriyyatı, 2017, 996 s.
3.Əliquliyev R., Şükürlü S., Kazımova S. Elmi fəaliyyətdə istifadə olunan terminlər. Bakı: "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2009, 201 s.

**GÜNAY ƏLİYEVA**
*İnformatika fənninin tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*

# İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ MÜXTƏLİF ELM SAHƏLƏRİNDƏ TƏTBİQİ

Müasir zamanda informatikanın rolu, informasiyanın emalı, ötürülmə və saxlanılması həddən artıq artmışdır. Artıq informatıkanın və hesablama texnikasının vasitələri bir çox hallarda ölkənin elmi-texniki potensialını, onun xalq təsərrüfatının inkişaf səviyyəsini, həyat tərzini və insan fəaliyyətini müəyyən edir.

Azərbaycanda informasiya kommunikasiya texnologiyaları (İKT) qədər ildən-ilə sürətlə inkişaf edən, xidmətlərindən kütləvi şəkildə istifadə edilən ikinci bir sahə yoxdur. İstehsal və xidmət sektorunun bütün bölmələrində, xüsusən əhaliyə göstərilən sosial xidmətlərdə İKT-nin tətbiqindəki dəyişikliklər aydın hiss edilir.

Təhsildə, səhiyyədə, nəqliyyatda, rabitədə, kommunal sistemdə, rəsmi dövlət qurumlarının xidmətlərində informasiya texnologiyalarından istifadə səviyyəsində hər il dəyişiklik özünü göstərir. Bunun bir səbəbi dünyada İKT-nin inkişafıdırsa, digər səbəbi Azərbaycanda müasir elektron sistemin tətbiqinin genişləndirilməsidir.

Belə bir şəraitdə, yəni ölkədə İKT-nin, o cümlədən elektron xidmətlərin (e-xidmət) tətbiqinin genişlənməsi fonunda əhalinin bu xidmətlərdən tam yararlana bilməsi üçün əhalinin İKT bilik və vərdişlərinin olması zərurəti ortaya çıxır. Azərbaycanda informasiya cəmiyyəti quruculuğunun vacib şərtlərindən biri əhalinin bütün təbəqələrinin İKT vasitələri və onların istifadəsi barədə maarifləndirilməsi, cəmiyyətin İKT savadlılığının artırılmasıdır. Elektron bilikləri artırmadan yeni texnologiyalara əsaslanan sistemin qurulmasının heç bir faydası olmayacaq.

İnformatikanın son dövrlərdəki inkişafı onu hesablama texnikasının köməyi ilə verilənlərin emalının üsul və vasitələri haqqında olan texniki bir fənndən, nəinki texniki sistemlərdə, həmçinin təbiətdə və cəmiyyətdə informasiya və informasiya prosesləri haqqında olan fundamental elmə çevirdi. İnformatika həmçinin elmlər sistemində birləşdirici funksiyasını yerinə yetirərək bir sıra yeni elmi istiqamətlərin yaranmasına və inkişafına səbəb olmuşdur. İnformatikanın çox tətbiq olunan sahələrindən biri iqtisadiyyat olduğundan və iqtisadi sahələrə aid daha çox informasiyaların emalına xüsisi ehtiyac yarandığından informatika ilə iqtisadiyatın çox cəhətli qarşılıqlı əlaqələrinin öyrənilməsi digərlərindən daha nümunəvi xarakter daşıyır. Ona görə də burada iqtisadiyyat elminin nümunəsində İnformatikanın tətbiqi məsələlərinin təhlilinə baxılır. Riyaziyyatın iqtisadiyyata tətbiqi ilə bağlı iqtisadi-riyaziyyatın, iqtisadi-riyazi üsul və modellərin inkişafı da informatikanın iqtisadiyyatda tətbiqinə geniş yol açdı və informatikanın xüsisi bölməsi kimi iqtisadi informatika formalaşdı. İnformatika və iqtisadiyyat arasında sintez prosesləri daha mürəkkəb xarakter alır. Əvvəla informatika iqtisadiyyatda tətbiq olunaraq, onun inkişafına təkan verir və iqtisadi informatika yaranır. Bundan başqa, informatika elmi və müasir informasiya texnologiyaları iqtisadiyyata o qədər nüfuz etmişdir ki, artıq iqtisadiyyat özü də bir elm olaraq dəyişmiş və yeni anlayışlar meydana gətirmişdir Nəticədə riyazi informatika, nəzəri informatika, texniki informatika, geoinformatika, tibbi informatika, kimyəvi informatika, bioinformatika, aqrar informatika, tarixi informatika, sosial informatika, hüquqi informatika, pedaqoji informatika, siyasi informatika, psixoinformatika və s. kimi elmi sahələr əmələ gəlmiş və inkişaf etmişdir. Bununla yanaşı, əks proses də baş verməkdədir. Yəni informatika müxtəlif sahələrə tətbiq olunaraq həmin sahənin yeni inkişaf xüsusiyyətlərini, problemlərini meydana çıxardığı kimi, həmin sahələr də öz növbəsində informatikanın qarşısında ona xas olan yeni problemləri yaradır. Misal üçün informatikanın cəmiyyətin bir çox sahələrində, o cümlədən hüquq-mühafizə orqanlarında, hüquqşünaslıqda, hüquqi proseslərdə geniş tətbiqi informasiya texnologiyalarının özünün hüquqi problemlərini yaratmışdır.

İKT-nin tətbiq olunduğu sahələrdən biri də səhiyyədir. Elektron-tibb dünyanın ən perspektivli sahələrindən biridir və müasir informasiya cəmiyyətinin aparıcı ölkələrinin mühüm nailiyyətləri məhz bu sahə ilə bağlıdır. Tibbi informatika və e-tibbə dair tədris materiallarının hazırlanması, tibbi personala İKT üzrə biliklərin tədrisi də xüsusi diqqət tələb edən məsələlərdəndir.

Elmi sahələrdə informasiyalaşdırma, kompüter, telekommunikasiya texnologiyalarının və müasir informasiya sistemlərinin tətbiqi yeni səviyyədə və keyfiyyətdə biliklərin alınmasını, ümumiləşdirilməsini, yaranmasını və istifadəsini təmin edir. Alim və mütəxəssislərin zəruri elmi informasiyalarla vaxtında təmin edilməməsi elmin və sənayenin inkşaf tempinin düşməsinə apara bilər. Bunun qarşısı isə yalnız ən yeni İKT-dan istifadə etməklə, informasiya fondlarını elektronlaşdırmaqla almaq olar. Hazırda Azərbaycanda ETİ-nin informasiyalaşdırılması, eletron nəşrlər, bir çox elmi-kütləvi, təhsil, mədəni-maarif və s. tipli saytlar-portallar, tədris proqramları, informasiya sistemləri, elektron dərsliklər, distant tədris texnologiyaları yaradılır və istifadə edilir. Əksər sahə və akademik elmi tədqiqat institutları, kitabxanaları, muzeyləri, arxivləri kompüterləşdirilmiş və İnternetə qoşulmuşdur.

Bununla yanaşı, bir çox məsələlərin həlli də həyata keçirməlidir: İnformasiya resuslarının elektronlaşması; Müasir informasiya resuslarından alim və mütəxəssislərin sərbəst istifadə imkanı; Rəqəm kitabxanalar şəbəkəsinin yaradılması və sərbəst istifadə edilməsi; ET-da kompüter modelləşdirmənin, statistik təhlil və s. kimi müasir tədqiqat metodlarının tətbiqi; Elmi verilənlər bazasına girişin təmini; Elmi informasiyaların ümumiləşdirilməsi, sistemləşdirilməsi vasitələrinin işlənməsi; İnformasiya mərkəzləri və fondları arasında səmərəli əlaqənin qurulması; Alim və mütəxəssislərin müəlliflik hüququnun tanınması və qorunması; Elektron kəşflərin hüquqi statusunun müəyyənləşdirilməsi və s.

## ƏDƏBİYYAT


1. İsmayıl Calallı (Sadıqov). İnformatika terminlərinin izahlı lüğəti. “Bakı” nəşriyyatı, 2017 996 s.
2. Əlövsət Qaracaoğlu. İnformatika mühazirələri. AMEA İnformasiya Texnologiyaları İnstitutu
3. M.A.Camalbəyov, R.Ə.Fərəməzov. IBM PC tipli kompüterlərin arxitekturası, sistem proqram təminatı və əməliyyat sistemləri. Bakı: H.Əliyev adına AAHM, 2009. – 307 səh.
4. Əliquliyev R.M., Salmanova P.M. İnformasiya cəmiyyəti: maraqlı xronoloji faktlar. Bakı: “İnformasiya Texnologiyaları” nəşriyyatı, 2013, 169 səh.

**ASİMAN İSMAYILOV**
*Naxçıvan Dövlət Universiteti*
*asimanismayılov@gmail.com*

## SUNİ İNTELLEKTƏ QEYRİ-SƏLİS MƏNTİQİN ROLU

Qeyri-səlis məntiq düşündüyünüz kimi, qeyri-səlis deyil və 20 ildən çoxdur etiraf olunduğundan daha çox yerdə sakitcə pərdə arxasında işləyir. Qeyri-səlis məntiq, operatorun praktik təcrübəsinə güvənə bilən, xüsusilə təcrübəli operator biliklərini əldə etmək üçün faydalı olan bir qayda əsaslı sistemdir. Qeyri-səlis məntiq süni intellekt proqramının bir növüdür; buna görə də bu, suni intelektin bir hissəsi hesab ediləcəkdir. Bir qərar vermə formasını həyata keçirdiyindən, suni intelekt proqram alət dəstinin üzvü kimi sərbəst şəkildə daxil edilə bilər. Növbəti tətbiqinizi həll etmək üçün qeyri-səlis məntiqdən istifadə etməyi düşünmək üçün bildiyiniz şey düşündüyünüz qədər qeyri-səlis deyil.

Qeyri-səlis məntiq 1960-cı illərin ortalarından bəri mövcuddur; Bununla birlikdə, yalnız 70-ci illərdə praktik bir tətbiq nümayiş etdirildi. O zamandan bəri Yaponlar ənənəvi olaraq qeyri-səlis məntiq tətbiqetmələrinin ən böyük istehsalçısıdır. Qeyri-səlis məntiq kameralarda, paltaryuyan maşınlarda və hətta stok ticarət tətbiqetmələrində ortaya çıxdı. Son on ildə ABŞ qeyri-səlis məntiqdən istifadə etməyə başladı. Qeyri-səlis məntiqdən istifadə edən, lakin istifadəsini bizə bildirməyən bir çox tətbiq var. Yəqin ki, ən böyük səbəb "qeyri-səlis məntiq" anlayışının mənfi məna kəsb etməsidir.

Qeyri-səlis məntiq, birja ticarəti tətbiqində göstərildiyi kimi mühəndis olmayan tətbiqetmələrə tətbiq edilə bilər. Tibbi diaqnoz sistemlərində və əl yazısı tanıma tətbiqetmələrində də istifadə edilmişdir. Əslində qeyri-səlis bir məntiq sistemi giriş və çıxışı olan demək olar ki, hər növ sistemə tətbiq oluna bilər.

Qeyri-səlis məntiq sistemləri qeyri-xətti sistemlərə və çoxlu girişə və çoxlu çıxışa sahib sistemlərə çox uyğundur. İstənilən ağlabatan giriş və çıxış yerləşdirilə bilər. Qeyri-səlis məntiq, sistem ənənəvi vasitələrlə asanlıqla modelləşdirilə bilmədikdə də yaxşı işləyir.

Bir çox mühəndis anlaşılmazlıq ucbatından qeyri-səlis məntiqə dalmaqdan qorxur. Qeyri-səlis məntiqi çətin anlamaq lazım deyil, baxmayaraq ki, bunun arxasındakı riyaziyyat, xüsusilə uzun illərdir riyaziyyat sinfində olmayanlarımız üçün qorxuducu ola bilər.

Bundan sonra, qeyri-səlis çoxluq əməliyyatlarının cəbrini idarə etmək üçün tam həqiqət dəyəri olmayan binalara əsaslanan insan düşüncəsi nəzərdən keçirilir. Bu sahədə bir sistem inkişaf etdirilə biləcəyini düşünsək, eyni cəbri klassik məntiq və çoxluqlar təmin etdiyi üçün qeyri-səlis çoxluqların cəbri kimi qəbul edilməlidir. Sübut ediləcəyi kimi, bu cəbr bir qəfəs deyil və nəticədə Zadə tərifləri adekvat bir ifadə vermir. Cəbrimin ikili əməliyyatları "interaktiv" tiplərdir. Mənim fikrimcə, konsepsiyanın təməlini adekvat və artıqlıq olmadan təşkil edən bir aksioma sistemi verilir. Aksiom sistemindən çıxarılan teoremlərin intuitiv gözləntilərlə uzlaşması göstərilir. Bu cəbri qane edən xüsusi bir hesab quruluşu verilmişdir və bu quruluşla ehtimal nəzəriyyəsi arasındakı əlaqə təhlil edilmişdir.

Lakin bir həqiqəti danmaq olmaz ki, məhz klassik elmi üsulların (klassik riyaziyyat, fizika, kibernetika və s.) köməyi ilə insan Aya uçub, kompüter yaradıb, astronomik cədvəllər, atom və hidrogen silahları düzəldib. Lakin bu gün o qədər vacib məsələlər var ki (gələcəkdə də olacaq), onların həllində bu klassika bir qədər ləngiyir. Bu gün artıq bəşəriyyəti daha çox invariant idarəetmə sistemlərinin nəzəriyyəsi və tətbiqi, süni intellekt üsullarının, ekspert sistemlərin yaradılması, idarəetmə proseslərinin intellektuallaşdırılması, qeyri-səlis məntiq, qeyri-səlis neyron sistemlər və s. daha çox düşündürür. Real həyatda qərar qəbuletmə və idarəetmə məsələlərini həll edərkən mövcud qeyri-müəyyənlik nəzərə alınmalıdır. Amma necə?1960-cı illərə kimi idarəetmə və qərar qəbuletmə nəzəriyyələri tam müəyyənlik şəraiti üçün yaranmışdı. Yəni insan müəyyən bir şəraitdə qərar qəbul etmək istəyirsə, o şəxsdə həmin şərait və şəraitin gələcəyi haqqında 100 faizlik məlumat olur. Və yaxud təyyarə uçan zaman ona külək təsir edir, biz o küləyin hansı qanunla, hansı sürət və istiqamətdə əsməsi barədə tam informasiyaya malik oluruq. Lakin real həyat məsələlərində tam informasiya heç

vaxt olmur. Bu və ya digər dinamik sistemə təsir edən faktorlar (həyəcanlandırıcı təsirlər) barədə informasiyamız cüzidirsə, elə idarəetmə qanunu tapmaq lazımdır ki, idarə olunan sistem həmin həyəcanlandırıcı təsirlərdən asılı olmasın, başqa sözlə, sistem invariant olsun. Mütəxəssislərin fikrincə artıq klassik idrak, klassik elmi üsullar öz əvvəlki qüdrətini itirib. Onların fikrincə, bir dildən başqa dilə tərcümə problemi, persepsiya əsasında ətraf mühitin qavranılması problemi, canlıların sərbəstlik dərəcəsinə və çevikliyinə (ilanın sərbəstlik dərəcəsi sonsuzdur) malik olan robotların yaradılması, lazımi adekvatlığa malik olan iqtisadi modellərin yaradılması və s. klassik elm, o cümlədən klassik riyaziyyat tərəfindən həllini tapa bilməzdi. Çünki klassik riyaziyyat deterministik riyaziyyatdır. Qeyri-müəyyənliyi nəzərə ala bilmir. Yeni elmi və fəlsəfi yanaşma tələb olunur. Bax, belə bir yanaşma hesablama intellekti yanaşmasıdır. Hesablama intellekti isə süni intellekt və onun daha inkişaf etmiş formasıdır.Süni intellekt (ing. Artificial intellegence)- informatikanın hesablama sistemələri və digər süni qurğuların köməyi ilə fikir və hadisələrini təminat imkanlarını öyrənən şöbəsidir. Süni intellekt dedikdə insanın proqramlaşdırılmış şəkildə, süni yollarla yaratdığı və digər köməkçi vasitələrlə üzə çıxan qeyri-ənənəvi intellekt, alışmadığımız bir idrak kateqoriyası başa düşülür. Məsələn, insan robot yaradır və onun bəşər övladına adekvatlığından bəhs edir. Robot insana çay gətirirsə və yaxud bir neçə sualın cavabını verirsə bu hələ süni intellekt deyil, bu sadəcə həmin robotun proqramlaşdırılmadan irəli gələn funksiyalarıdır. Süni intellektə malik robotsa insanın əsəbi olduğunu görüb artıq hərəkətlərə, yersiz "söhbətə" yol verməyən robotdur (hələlik belə bir süni varlıq yaradılmayıb). Və yaxud başqa bir misal. Adi kalkulyatorlar insanın imkanları xaricində olan riyazi hesablamaları bir neçə saniyədə həll edir. Lakin bu o demək deyil ki, hər hansı bir kalkulyator insandan "ağıllıdır". Sadəcə, həmin hesablamalar insan tərəfindən yaradılan proqram təminatı əsasında verilən əmrləri yerinə yetirir. Son illər dünya ölkələrində olduğu kimi, Azərbaycanda da, soft kompütinq, hesablama intellekti məsələlərinə diqqət artırılıb, bu sahədə sanballı elmi tədqiqtlar meydana gəlib.

Bu, qeyri-səlis məntiq sistemlərinin necə işlədiyinin çox sadə bir izahıdır. Həqiqi bir iş sistemində bir çox giriş və bir neçə çıxış ehtimalı olardı.

## ƏDƏBİYYAT


1. Balayev R.Ə., Əlizadə M.N., Musayev İ.K. İntellektual sistemlər və texnologiyalar. Bakı: 2016, "MSV NƏŞR" nəşriyyatı, 256 səhifə
2. Məmmədov.Ə., Qurbanov.F. Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsinin məntiqi-qnoseoloji təhlili. Bakı: 2019, "Metafizika" jurnalı, 23 səhifə

**KÖNÜL RÜSTƏMLİ**
*Naxçıvan Dövlət Universiteti*
*rstmliknl@gmail.com*

## TEXNOLOGİYANIN HƏYATIMIZDA ROLU

Yaşadığımız son dərəcə rəqəmsal həyat və texnoloji dünyamızın inkişafı yeni bir normala çevrilmişdir. Texnologiya cəmiyyətə və gündəlik həyatımıza o qədər yerləşmişdir ki, dünyanın ondan əvvəl necə olduğunu xatırlamaq çətindir. Hər gün dünyada insanlar gələcəyi daha parlaq etmək üçün yeni yollar tapırlar. Elm və texnikanın bizə kömək edə biləcəyi, həyatımızı asanlaşdıracağı və gündəlik həyatımızda keçdiyimiz yolları yenidən düşünə biləcəyi bir dövrdə yaşamaq bizi gözləyir. Onsuz da məruz qaldığımız və öyrəşdiyimiz texnologiya daha da yeniliklər açmağımıza imkan yaratdı. Və əminliklə demək mümkündür ki, mövcud və gələcək texnologiyalar siyahısının həyatımızı daha da dəyişdirmə potensialı var. Yeni texnologiyaların siyahısı hər gün artır. Robotlar, alqoritmlər və maşın-maşın əlaqələri bir sıra fərqli tapşırıqları yerinə yetirən insanlara kömək edir. Bu texnologiyalar geniş əhatəlidir və mövcud müəssisələri və şəxsi həyatı dəyişdirmək qabiliyyətinə malikdir. İnsanların həyatını asanlaşdırmaq , fərdi və iş əlaqələrini yaxşılaşdırmaq potensialına sahibdirlər. Məlumatların əvvəlkindən daha sürətli böyüməsi ilə texnologiyanın gələcəyi indi baş verənlərdən daha da maraqlıdır. Bu planetdəki hər işə və hər həyata toxunacaq bir inqilabın başlanğıcındayıq.

Texnika gündəlik həyatla əlaqəli problemləri həll edərək və müxtəlif işlərin yerinə yetirilməsini asanlaşdıraraq qədimdən bu günə qədər insan həyatına müsbət təsir etmişdir. Texnologiya yer üzündə bütün ölkələri bir-birinə təsirli bir şəkildə bağlayan, qloballaşma yaratmağa kömək edən və iqtisadiyyatların böyüməsini və şirkətlərin inkişafını asanlaşdıran bir çox şey arasında təsərrüfatı, şəhərlər qurmağı və səyahət etməyi asanlaşdırdı . Nəticədə bir mövqedən daha az problem, digər mövqedən daha çox problem yarandı.

Texnologiyanın bütövlükdə cəmiyyətə arzulanandan az təsirləri olsa da, cəmiyyətə mənfi təsirlərdən daha çox potensial olaraq müsbət təsirlər var. Bu cür təsirlər cəmiyyətin həyatını asanlaşdırdı və bir çoxuna daha yaxşı bir həyat yaşamaq üçün lazımlı qaynaqlar, təhsil və alətlər bəxş etdi. Bu cür təsirlər, dünya miqyasında cəmiyyətlər daxilində kənd təsərrüfatını, nəqliyyat, rabitə və təhsil sahələrinə çox təsir etmişdir. Qədim əkinçilik təcrübələri kənd təsərrüfatının mexanizasiyası ilə köklü bir dəyişiklik gördü. Bu cür mexanizasiya sadəcə maşınlar və texnoloji sistemlərin (robotlar daxil olmaqla) iş heyvanları və əl əməyi kimi qədim əkinçilik sistemlərini əvəz etməsi deməkdir. Bu, daha çox insan üçün daha çox qida mənbəyi istehsal edən daha avtomatlaşdırılmış, yüksək səmərəli təsərrüfat təcrübələri ilə nəticələndi. Hələ də yer üzündə əksər yerlərə piyada getmək mümkün olsa da, qatarların, avtobusların, avtomobillərin, təyyarələrin, sürət gəmilərinin və s. gəlişi insanların tələb etdikləri yerə daha az vaxtda gedib-gəlmələrini mümkün etdi. Bunlara Uber və Grab kimi ridesharing tətbiqləri əlavə olunur ki, bu da bir yerə çox tez və ucuz bir şəkildə çatmağı inanılmaz dərəcədə asanlaşdırdı. Hər bir cəmiyyətin onurğa sütunu həm telekommunikasiya, həm də nəqliyyat sistemlərini özündə birləşdirən infrastrukturdur, bu səbəbdən hər iki sistemin təkamülü müasir dünyanın formalaşmasına çox kömək etmişdir. Telekommunikasiya sistemləri hər bir inkişaf etmiş cəmiyyətin çox vacib bir hissəsidir. Quş mesajları və tüstü siqnallarından istifadə etməkdən daha sürətli, daha səmərəli, daha təsirli və daha qlobal elektron poçt sistemi, telefon danışıqları və tətbiq mesajlaşma sistemi insanların qloballaşan dünyada əlaqəli olmasına imkan verir. Skype-dan VOIP-dən qlobal telekom daşıyıcılarına qədər insanların dünyanı gəzib əlaqədə qalmaları olduqca mümkündür və hətta uzaq işçilərin və ya beynəlxalq müəssisələrin internetdən video danışıqlardan və konfrans işlərindən fasiləsiz davam etmələri üçün istifadə etmək mümkündür.

Bəzi texnologiya formaları dünyada müsbət dəyişikliklər edə bilsə də, texnologiyanın mənfi təsirləri və onun həddindən artıq istifadəsi də danılmazdır. Sosial media və mobil cihazlar göz yorğunluğu və vacib tapşırıqlarda cəmləşməkdə çətinlik kimi psixoloji və fiziki problemlərə səbəb

ola bilər. Depressiya kimi daha ciddi sağlamlıq şərtlərinə də kömək edə bilərlər. Sosial media kimi texnologiyalar, insanları bir araya gətirmək üçün hazırlanmışdır, lakin bəzi hallarda əks təsir göstərə bilər. 19-32 yaş arası gənc yetkinlərdə edilən bir 2017-ci il tədqiqatı, daha yüksək sosial media istifadə edən insanların, sosial medianı tez-tez istifadə etməyənlərə nisbətən üç qat daha çox sosial baxımdan təcrid olunduqlarını tədqiq etdi. Sosial tətbiqetmələr üçün vaxt məhdudiyyəti təyin etmək kimi sosial media istifadəsini azaltmaq üçün yollar tapmaq bəzi insanlarda təcrid hisslərini azaltmağa kömək edə bilər.

Texnoloji həllərin geniş istifadəsi, zəif sosial bacarıqlarla nəticələnə bilər. Görünüşdə, texnologiya insanları bir araya gətirən qlobal şəbəkə yaradır. Amma əslində bu, real həyatda olan ünsiyyəti əvəz edir və sosial təcridlə başa çatır. Real həyatda olan qarşılıqlı əlaqəni onlayn ünsiyyətlə əvəzlədiyimiz zaman səs tonu, üz ifadəsi, bədən dili və birbaşa ifadə kimi sosial işarələri oxumaq qabiliyyətini itiririk. Bunun üzərinə şiddətli oyunlar və videolar empatiyanı öldürür və fərdin həyatına məhv gətirir. Bildiyimiz kimi, İnternet öyrənmək üçün əla bir vasitə halına gəldi. Kitabxanada vaxt keçirtmək və ya kursda iştirak etmək əvəzinə ehtiyac duyduğunuz hər hansı bir məlumatı google ilə əldə bilərsiniz. Uşaqlar bəzən sinifdə texnologiyanı həddindən artıq istifadə edirlər ki, bu da açıq şəkildə öyrənmə prosesinə mənfi təsir göstərir. Təhlil və tənqidi düşüncə azaldıqda plagiat və aldatma artmış olur. Bu, gənc nəslin düşünmə qabiliyyətlərini təhlükə altına qoyur. Digər bir məqam smartfon inqilabı, həyatımızı asanlaşdırsa da, bizi tənbəl də etdi. Bu gün bütün dünya barmaqlarımızın ucundadır və beləliklə işləri bitirmək üçün əvvəllər etdiyimiz kimi işləmək və ya hərəkət etmək lazım deyil. Hərəkətsiz həyat tərzimiz və fiziki fəaliyyətin olmaması qismən smartfonlardan həddindən artıq asılılıqla əlaqələndirilə bilər. Bu, xüsusən daim mobil telefonlarına yapışdırılan gənc nəsil üçün daha doğrudur. Müasir dövrdə mobil telefon asılılığı həyatımıza mənfi təsir göstərir.

Texnologiyanın ən təsirli təsirlərindən biri yuxu keyfiyyətinin və miqdarının azalmasıdır. Yuxu kimyəvi melatonin ekranların davamlı parıltısından təsirlənir. Beləliklə, texnologiyadan istifadə, yuxunuza müdaxilə edəcək və ümumi vəziyyətinizi təsir edəcəkdir. Daha ciddisi isə insanların texnologiyaya aludə olmasıdır. Bu, insanın sağlamlığına və sosial həyatına zərərli təsir göstərir, sosial və ailə bağlarını məhv edir. Kompüterlərin yaratdığı digər psixi problemlər arasında Xroniki Smartphone Stress adlı yeni bir stres növüdür. Bunun səbəbi bildirişlər (və ya onların olmaması), bir mesajın və ya e-poçtun davamlı gözlənməsidir. Bir insana kifayət qədər diqqət yetirilmirsə, bu sizi stresli və ya hətta depressiyaya sala bilər. Həddindən artıq məlumat sahəsi, şişirdilmiş onlayn reallıq, internetdən həddindən artıq istifadə və sosial müqayisə bütün bunlar depresif davranışı təhrik edən amillərdir.

## ƏDƏBİYYAT

1. Aliyev R.A., Aliyev R.R Soft Computing. Bakı: Çaşıoğlu, 2004
2. R.Ə. Balayev, M.N. Əlizadə, İ.K. Musayev. İntellektual sistemlər və texnologiyalar. Bakı: 2016.
3. İ.Ələkbərova, T.Kazımov. İnformasiya müharibəsi texnologiyaları. Bakı: 2012

**TÜRKAN QASIMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*turkanqasimovaa@gmail.com*

## SOSİAL ŞƏBƏKƏLƏRDƏ İSTİFADƏÇİLƏRİ GÖZLƏYƏN TƏHLÜKƏLƏR

Bu gün virtual dünyamızda bir-birimizlə ünsiyyət qurmağın müxtəlif yolları yaranıb. Mətnlər, FaceTime və sosial media saytları insanların bir-biri ilə ünsiyyət qurmağın ən populyar üsullarından biri halına gəlib. İnformasiya cəmiyyətinin sürətlə inkişaf etməsi nəticəsində cütlər, digərləri ilə ünsiyyət qurmaq üçün sosial şəbəkə saytlarından istifadə edirlər.

Son illərdə informasiya kommunikasiya texnologiyalarının inkişafında əsas hadisə sosial şəbəkə saytlarının (“Facebook”, “Twitter”, İnstagram, “LiveJournal”, “MySpace”, “Classmates”, Snapchat və s.) populyarlığının sürətlə artmasıdır. Sosial şəbəkə saytlarının populyarlığı axtarış sistemlərindən, portallardan, e-poçt və proqram təminatı saytlarından iki dəfə sürətlə artır və onlar saytların reytinq cədvəllərində böyük üstünlüklə birinci yeri tuturlar.

Hal-hazırda sosial şəbəkələr bizim fiziki dünyamızın virtual formasıdır. Onlayn sosial şəbəkələr istifadəçilərə zaman və məkan məhdudiyyəti qoymadan bir çox imkanlar təklif edir. Son illərdə onlayn sosial şəbəkə istifadəçilərində və mövcud məlumatların sayında hədsiz artım müşahidə edilir. Sosial şəbəkələr əhalinin böyük seqmentinin həyatının daimi iştirakçısıdır və offlayn fəaliyyətlərinə də birbaşa təsir göstərir. Əlbəttə ki, bu da ciddi gizlilik və təhlükəsizlik riski yaradır.

Sosial şəbəkələrdə gizlilik və təhlükəsizlik, əsasən, istifadəçilərin fərdi məlumatlarının mühafizə edilməsi məsələlərini əhatə edir. Sosial şəbəkələrdə baş verə biləcək təhlükələri dörd qrupa ayırmaq olar. Birinci qrupa ənənəvi təhlükələr, xüsusi ilə də, şəxsi həyatın toxunulmazlığı və təhlükəsizliklə bağlı təhdidlər aiddir. Bu təhlükələr təkcə sosial şəbəkə istifadəçilərinə deyil, həmçinin sosial şəbəkədən istifadə etməyən digər İnternet istifadəçilərinə təhlükə yaradır. İkinci qrup şəxşi həyatının toxunulmazlığı və təhlükəsizliklə bağlı müasir təhdidləri əhatə edir. Bu təhlükələr, əsasən, sosial şəbəkə mühitinə xasdır və sosial şəbəkə infrastrukturundan istifadə edərək istifadəçilərin şəxsi həyatının toxunulmazlığına və təhlükəsizliyinə təhdidlər yaradır. Üçüncü qrupa müxtəlif təhlükələrin kombinasiyası daxildir, yəni müxtəlif təhlükələrin birləşməsi nəticəsində daha mürəkkəb və təhlükəli hücumlar həyata keçirilə bilər. Dördüncü qrupa sosial aspekli təhlükələr aiddir. Bu təhlükələrə misal kimi, izləmə, aldatma, şantaj, qarayaxma və s. kimi təhdidləri göstərmək olar.

Ənənəvi təhlükələr İnternet geniş istifadə edilməyə başlayandan bəri problem olaraq qalır. Bu təhlükələr sosial şəbəkələrdə yerləşdirilmiş istifadəçinin fərdi məlumatlarından istifadə edərək həm onların özlərinə, həm də “dostlarına” təhlükə yarada bilər. Məsələn, bədniyyətlilər istifadəçilərin profilindəki detallardan istifadə edərək, ilk baxışdan cəlbedici görünən spam-məlumatlar yarada və bu məlumatlara ziyanlı proqram kodu yerləşdirə bilərlər. Bu məlumatların şəxsi xarakter daşıdığını nəzərə alaraq, demək olar ki, böyük ehtimalla, hansısa istifadəçi onu açacaq və nəticədə kompüteri ziyanlı proqrama yoluxmuş olacaq. Çox zaman bu təhlükələrin hədəfi gündəlik və vacib istifadəçi resurslarıdır. Bu resurslara kredit kartların nömrələri, hesab parolları, hesablama gücü, buraxma zolağı və s. aiddir.

Yaradılan ziyanlı proqramlar istifadəçilərin “dostlarına” yoluxdurulmuş məlumatlar göndərilməsi üçün onların qeydiyyat verilənlərindən istifadə edirlər. Facebook, MySpace və Twitter kimi sosial şəbəkələrdə ilk yayılan ziyanlı proqram Koobface soxulcanı olmuşdur. Yoluxma zamanı Koobface soxulcanı istifadəçilərin qeydiyyat verilənlərini əldə etməyə və yoluxdurulmuş kompüterləri botnet şəbəkəsinə qoşmağa çalışır. Botnet şəbəkəsinə qoşulmuş kompüterlər “zombilərə” çevrilir və bundan sonra bəd niyyətlər, yəni spamların göndərilməsi, İnternetə qoşulmuş digər kompüterlərə və xidmətlərə hücum edilməsi və s. üçün istifadə edilir. Fişinq hücumları sosial mühəndislik hücumlarına aiddir və istifadəçilərin konfidensial informasiyasını və fərdi məlumatlarını əldə etmək üçün istifadə edilir. Adətən, sosial şəbəkə istifadəçiləri fişinq hücumlarına özlərinin daha çox sosiallıqlarına və sadəlövhlüklərinə görə məruz qalırlar. Buna görə də son zamanlar sosial şəbəkələrdə fişinq hücumları cəhdləri çoxalmışdır. Microsoft şirkətinin təhlükəsizliklə bağlı hesabatına əsasən İnternetdə baş verən fişinq hücumlarının 84,5%-nin hədəfi sosial şəbəkə istifadəçiləri olmuşdur. Sosial şəbəkə

spamerləri digər istifadəçilərə spam göndərmək üçün sosial şəbəkə platformasından istifadə edirlər. Bunun üçün spamerlər sosial şəbəkədə saxta profillər yaradırlar. Həmçinin spamerlər sosial şəbəkə platformasını səhifələrə şərh xarakterli məlumatları əlavə etmək üçün istifadə edə bilərlər, çünki bu səhifələrə şəbəkədə çoxlu sayda istifadəçilər baxır. Müasir sosial şəbəkə təhlükələri məhz bu mühitə xasdır. Adətən, bu təhlükələrin hədəfi sosial şəbəkə istifadəçilərinin, həmçinin onların "dostlarının" fərdi məlumatlarıdır. Məsələn, bədniyyətlilər Facebook istifadəçisinin fərdi məlumatlarına hücum etmək üçün saxta "dost" profili yaradır və ona sorğular göndərir. Əgər hədəf istifadəçi bu "dostun" sorğularını qəbul edərsə, onda onun fərdi məlumatları hücuma məruz qalır və bədniyyətlilər onları əldə edə bilirlər.

Mövcud müasir sosial şəbəkə təhlükələri müxtəlif senarilər üzrə həyata keçirilir. Məsələn, ClickJacking adlanan hücum üsulu istifadəçiləri aldadaraq, ilk baxışdan faydalı olan, lakin əslində bədniyyətli olan istinadları "çıqqıldatmağa" (click) sövq edir. ClickJacking-dən istifadə edən bədniyyətlilər istifadəçiləri manipulyasiya edərək "bəyənmələr" (like) vasitəsi ilə (bu, həmçinin likejacking adlanır) spamların yayılmasını həyata keçirə bilər. ClickJacking hücumuna misal kimi 2009-cu ildə Twitter-də baş vermiş "çıqqıldatmayın" (Don't Click) adlanan hücumu göstərmək olar. Bədniyyətlilər Twitter-də "çıqqıldatmayın" məlumatı ilə maskalanmış URL (faylın və ya resursun Web-də yerləşdiyi ünvanı və ya yeri göstərən lokator) ünvanı yerləşdirmişdilər (faktiki URL ünvanı gizlədilmişdi) və Twitter istifadəçiləri bu istinada daxil olan kimi həmin məlumat virus kimi yayılmış və istifadəçilərin hesablarında yerləşmişdi. Sosial şəbəkələrdə əksər istifadəçilər öz şəxşi həyatının toxunulmazlığını və anonimliyini təmin etmək üçün təxəllüslərdən istifadə edirlər. Bədniyyətlilər buna qarşı "şəxsləşdirmə" (deanonymization) adlanan hücumdan istifadə edirlər. Bu hücum zamanı real istifadiçələri müəyyən etmək üçün bədniyyətlilər kukilərin (cookies - xidmətlərdən yararlanmaq üçün istifadəçilərin kompüter, planşet və ya mobil telefon kimi qurğulardakı məlumatları saxlayan və bu məlumatlara daxil olan texnologiyadır), şəbəkə topologiyasının və istifadəçi qruplarının izlənilməsi üsullarından istifadə edirlər. Bununla yanaşı, sosial şəbəkə saytlarından sızan informasiyanın analizi vasitəsi ilə onları identifikasiya etmək mümkündür. "Şəxsləşdirmə" hücumunun digər bir metodu ancaq sosial şəbəkə istifadəçilərinin qruplarda üzvlüyünün analiz olunmasından ibarətdir. Bu metod Xing sosial şəbəkəsində yoxlanılmışdır və nəticədə istifadəçilərin 42%-i identifikasiya edilmişdir. Daha bir metod isə müxtəlif sosial şəbəkə istifadəçilərinin profillərinin müqayisəsinə əsaslanır. Adətən, sosial şəbəkə istifadəçiləri öz profillərində özlərinin və "dostlarının" fotoşəkillərini yerləşdirirlər. Məsələn, Facebook sosial şəbəkəsində hər gün milyonlarla fotoşəkillər yerləşdirilir. Bununla yanaşı, əksər Facebook istifadəçilərinin profilindəki şəkillər baxılması və yüklənməsi üçün açıqdır. Məsələn, Faces of Facebook veb-saytı İnternet istifadəçilərinə 1,2 milyarddan çox istifadəçinin profil şəkillərinə baxmağa imkan verir. Bu şəkillər biometrik verilənlər bazasının yaradılması və sonra isə sosial şəbəkə istifadəçilərinin razılığı olmadan onların identifikasiyası üçün istifadə edilə bilər. Saxta profillər (həmçinin "sosial botlar" adlanır) avtomatik və ya yarımavtomatik profillər olaraq insanın sosial şəbəkələrdəki davranışını təqlid edir. Çox zaman saxta profillər sosial şəbəkə istifadəçilərinin fərdi məlumatlarının toplanması üçün istifadə edilir.

Bu gün sosial şəbəkələr insanların gündəlik həyatının bir hissəsinə çevrilmişdir. Buna görə də sosial şəbəkələrdə mövcud olan təhlükə üsullarının analizi çox aktualdır. Məqalədə sosial şəbəkələrdə mövcud olan təhlükə üsulları analiz edilmişdir. Belə nəticəyə gəlmək olar ki, sosial şəbəkələrdə mövcud olan təhlükələr faktiki olaraq iki kateqoriyaya aiddirlər: ənənəvi informasiya təhlükəsizliyi təhdidləri və sosial aspektli təhdidlər. Onu da qeyd etmək lazımdır ki, bu və ya digər təhlükənin hansı kateqoriyaya aid olmasından asılı olmayaraq, onlar, əsasən, sosial şəbəkə istifadəçilərinin şəxsi həyatının toxunulmazlığının pozulmasına yönəlmişdir.

## ƏDƏBİYYAT

1. İmamverdiyev Y. Sosial media və təhlükəsizlik problemləri / Beynəlxalq Telekommunikasiya İttifaqının 150 illiyinə həsr olunmuş İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II Respublika elmi-praktiki konfransı, 2015, http://www.statista.com/topics/1164/social-networks/
2. Əliquliyev R. M., İmamverdiyev Y. N., Abdullayeva F. C. Sosial şəbəkələr. Bakı: "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2010.
3. https://en.wikipedia.org/wiki/Spamming/

**LALƏ HƏSƏNOVA**
*Naxçıvan Dövlət Universiteti*
*lalehesenovaa1998@gmail.com*

## İNFORMASİYA CƏMİYYƏTİNDƏ İNFORMASİYA MÜHARİBƏSİ TEXNOLOGİYALARI

İnformasiya texnologiyalarının inkişafı ilə əlaqədar daha asan və tez əldə edilən informasiya dövlətin və cəmiyyətin özünü ifadə etməsi baxımından ideal vasitə hesab olunur. Bu səbəbdən, son zamanlar iqtisadiyyatda, siyasətdə və hərbi sahədə "informasiya əməliyyatı" (Information Operation) və "informasiya müharibəsi" (Information Warfare) terminləri geniş istifadə edilir.

İnformasiya müharibəsi termini rəsmi olaraq ilk dəfə ABŞ Müdafiə Nazirliyi tərəfindən 1992-ci ildə istifadə edilib. ABŞ-ın Müdafiə Nazirliyinin informasiya müharibəsi haqqında sənədlərində bildirilir ki, informasiya həm silah, həm də məqsəddir: "İnformasiya hücumu isə icazə olmadan istənilən formada informasiyanın köçürülməsi, dəyişdirilməsi və məhvinə, habelə proqram təminatlarına, məxfi informasiyanın saxlandığı texniki qurğulara və insan psixologiyasına yönəlmiş əməliyyatdır. Amma məsələyə daha makro aspektdən yanaşsaq, "İnformasiya müharibəsi" və onun tətbiqi daha qədim dövrlərə təsadüf edir. Məsələn, Çingiz xanın yürüşləri zamanı xüsusi informasiya hazırlığı görmüş müəyyən qrup atlılar işğal olunacaq ərazilərdə Çingiz xanın ordusunun hədsiz dərəcədə güclü və amansız əsgərlərdən təşkil olunduğu haqqında xəbərlər yayaraq əhalidə qorxu, ruh düşkünlüyü yaradırdılar. Bu cür psixoloji təsir üsullarından Makedoniyalı İsgəndər, Əmir Teymur və s. məşhur sərkərdələr də istifadə ediblər. Marafon döyüşündə farslar üzərində qələbəni öz xalqına çatdırmaq üçün Marafondan Afinaya qədər olan 42 km məsafəni dayanmadan qaçan və yunanlarda böyük ruh yüksəkliyi yaratmağa nail olan, yunan ordusunun qasidi Fidippidi də qədim informasiya müharibəsinin bir iştirakçısı hesab etmək olar.

İlk dəfə "informasiya müharibəsi" terminini 1976-cı ildə amerikalı mütəxəssis Tomas Rona (Thomas Rona) "Boeing" şirkəti üçün hazırladığı "Silah sistemləri və informasiya müharibəsi" adlı hesabatında istifadə etmişdir. T.Rona hesabatında sübut etmişdir ki, son illərdə informasiya infrastrukturu ABŞ iqtisadiyyatının əsas komponentinə çevrilmişdir.

İnformasiya müharibəsinin ilk tədqiqatçılarından biri, ABŞ-ın Milli Müdafiə Universitetinin əməkdaşı Martin Libiki (Martin Libicki) "İnformasiya müharibəsi" anlayışına tərif verərkən demişdir: "İnformasiya müharibəsini bütün incəliyi ilə anlamaq təşəbbüsü kor adamların fili tanımaq üçün göstərdikləri cəhdləri xatırladır: filin ayağına toxunan onu ağac, quyruğuna toxunan adam onu kəndir adlandırır və s. Bu üsulla tam təsəvvür almaq mümkündür? Ola bilsin ki, fil yoxdur, həqiqətən də, ağac və kəndir vardır. Bir qrup mütəxəssis bu anlayış altında bir çox istiqamətləri birləşdirmək istədikləri halda, digərləri informasiya müharibəsinin hərhansı bir aspektini ümumi anlayış kimi qəbul edir..." M.Libiki bu fikri ilə demək istəyirdi ki, "informasiya müharibəsi" çox geniş anlayışdır və İM texnologiyalarının cəmiyyətə təsiri tam aydınlaşdırılmasa da, son illər bu proses sürətlə davam etməkdədir.

İnformasiya müharibələrində ən güclü silah informasiya və dezinformasiyadır. Qarşıdurma zamanı tərəflər öz ölkəsinin məlumat infrastrukturunu qoruyaraq, düşmən qoşunlarının informasiya sistemlərini, məlumat mənbələrini və məlumat infrastrukturunu məhv etməyə çalışır.

ABŞ-da İnformasiya müharibəsini təsvir etmək üçün çox zaman onu informasiya əməliyyatı ilə müqayisə edirlər. İnformasiya əməliyyatı – məqsədə çatmaq üçün qarşı tərəfin informasiya fəzasına təsir etmək və bu zaman öz informasiya resurslarını qorumaq məqsədi ilə xüsusi metodlardan və vasitələrdən (siyasi, iqtisadi, texniki, hərbi və s.) istifadə etməklə həyata keçirilən formadır. Rusiya mütəxəssisləri bu mübarizə formasını informasiya qarşıdurması kimi təsvir edirlər. İnformasiya qarşıdurması – tərəflərin elə mübarizə formasıdır ki, bu zaman onlar xüsusi metodlardan, informasiya resurslarına təsir üsullarından və vasitələrindən istifadə etməklə qarşı tərəfin informasiya resurslarına birbaşa təsir göstərə bilir. İnternetdə informasiya qarşıdurması vasitələrinin universallığı,

gizliliyi, çoxvariantlılığı, təsirin radikallığı, təminatın kifayət qədər zaman və məkan seçimi, nəhayət, əlverişli olması onları həddən artıq təhlükəli edir və bu xüsusiyyətlər qlobal şəbəkədə informasiya müharibəsinin gizli aparılması üçün uyğun şərait yaradır.

M.Libiki 1995-ci ildə ABŞ-ın Milli Müdafiə Universiteti tərəfindən nəşr edilmiş "İnformasiya müharibəsi nədir?" məqaləsində ilk dəfə İM texnologiyalarının təsnifatını vermişdir. Bu konsepsiyada ilk dəfə olaraq göstərilmişdir ki, son dövrlərdə İKT-nin inkişafı nəticəsində artıq İM (informasiya müharibəsi)-də psixoloji deyil, əsasən, iqtisadi və hərbi aspektlərə üstünlük verilir. M.Libikinin fikrincə, izləyici kosmik peyk şəbəkəsindən yerüstü, dəniz və hava məkanında baş verən dəyişiklikləri qeyd edən sistemlərdən ibarət əlaqəli informasiya sistemləri dünyada baş verən istənilən hərbi aktivliyi nəzarətdə saxlamaq imkanına malik olacaqdır.qəli olduğunu bir daha sübut etmiş oldu. M.Libiki "İnformasiya müharibəsi nədir?" məqaləsində İM-in yeddi formasını qeyd etmişdir. Bu texnologiyalar aşağıdakılardır:

komanda-nəzarət, kəşfiyyat, elektron, psixoloji, haker, iqtisadi, kibermüharibə.

Komanda-nəzarət müharibəsi (Command and Control Warfare) - informasiya müharibəsinin bu növü əmri verən və icraçı arasında əlaqənin məhrum edilməsi məqsədini qoyur.

Kəşfiyyat müharibəsi (Information Based Warfare) - Hücum və özlərinin müdafiəsi üçün dəyərli məlumatların toplanmasını əhatə edir.

Elektron müharibə (Electronic Warfare) - İnformasiya müharibəsinin bu növündə isə məqsəd bütün elektron kommunikasiyanı söndürməkdir.

Psixoloji müharibə (Psychological Warfare) –təbliğat və informasiyanın köməyi ilə əhalinin zombiləşdirilməsidir.

Haker müharibəsi - Müxtəlif növ məlumatların əldə edilməsi və sanksiya olmadan onlardan istifadə edilməsi. Bura elektron poçt məlumatları, bank kartlarının məlumatları, şəxsi fayllar, yazışmalar və s. aiddir.

İqtisadi müharibə - İnformasiya blokadası (kommersiya fəaliyyətinin məhdudlaşdırılması) və ya informasiya imperializmi (siyasi informasiya hücumu)

Kibermüharibə - Kompüter məlumatlarının toplanması, obyektlərin izlənilməsi, informasiya texnologiyalarına əsaslanan infrastrukturu pozmaq cəhdi.

1993-cü ildə Con Arkuilla (John Arquilla) və Devid Ronfeldt (David Ronfeldt) tərəfindən "Kibermüharibə gəlir!" (Cyber War Is Coming!) məqaləsində "Şəbəkə müharibəsi" (Network War) termini istifadə edilmişdir. Məqalədə müəlliflər kibernetik və şəbəkə müharibəsi konsepsiyalarını (Network Centric Warfare, NCW) irəli sürməklə müasir dövrdə informasiya müharibəsinin ənənəvi müharibədən daha ciddi problemlər yaratmaq imkanına malik olduğunu göstərdilər .

Aparılan araşdırmalardan məlum olur ki, informasiya asılılığının güclənməsi, İM texnologiyalarının təkmilləşdirilməsi, tətbiqi və yayılması informasiya təhlükəsizliyi məsələsinin aktuallığını artırmaqdadır. İKT-nin inkişafının İM-ə təsiri istiqamətlərinin analizi bir daha göstərir ki, İM zamanı informasiya texnologiyalarının məhvi, informasiyanın və informasiya sistemlərinin ələ keçirilməsi vacib məqamlardandır. Bu əməliyyatlar xüsusi qurğuların, mütəxəssislərin və proqramların köməyi ilə həyata keçirilə bilər. İM texnologiyalarının analizi nəticəsində məlum olmuşdur ki, İKT inkişaf etdikcə informasiya tədricən təminedici vasitə statusundan çıxaraq, döyüş növünə çevrilməkdədir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə İKT-nin inkişaf tempinin daha da yüksək olması milli təhlükəsizlik sistemində İM-in rolunun vacibliyini bir daha sübut edir.

## ƏDƏBİYYAT

1. Əliyev T.S. Tədqiqatçıların sosial şəbəkələri əsasında elmi personalın idarə olunması problemləri / İnformasiya cəmiyyəti problemləri. 2011.
2. Ələkbərova İ.Y. İnformasiya müharibəsi texnologiyaları. Ekpress-informasiya. Bakı: "İnformasiya texnologiyaları" nəşriyyatı, 2012.
3. Ələkbərova İradə. İnternet mühitində informasiya qarşıdurmasının bəzi üsul və vasitələri. AzTU-nun "Elmi əsərlər" jurnalı, Bakı: Azərbaycan

**LEYLA İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*leylaibrahimova435@gmail.com*

## BİOMETRİK İDENTİFİKASİYA VƏ ONUN MƏNFİ TƏRƏFLƏRİ

Biometrik identifikasiya istifadəçinin şəxsiyyətini parol kimi unikal bioloji xüsusiyyətlərdən istifadə edərək təsdiqləyən bir kiber təhlükəsizlik prosesidir və gündəlik təhlükəsizliyimizdə artan bir rola malikdir. Biometrik identifikasiya sistemləri fiziki və ya davranış xüsusiyyətlərini verilənlər bazasında saxlanılan, təsdiqlənmiş orijinal məlumatlarla müqayisə edir. Biometrik məlumatların hər iki nümunəsi uyğun gələrsə identifikasiya təsdiqlənir. Hal-hazırda dünyada istifadə olunan bir sıra biometrik identifikasiya sistemləri mövcuddur. Bunlardan barmaq izinin tanınması, üz tanıma, retina və ya iris tanıma, səs biometriyası kimi biometrik identifikasiya sistemləri daha geniş yayılmışdır.

Barmaq izi identifikasiyası şəxsiyyəti təsdiqləmək üçün şəxsin bənzərsiz barmaq izindən istifadə edir. Bu ən geniş yayılmış biometrik identifikasiya texnologiyalarından biridir və mobil cihazlardan tutmuş avtomobillərə və hətta binalara qədər təhlükəsizliyi təmin etmək üçün istifadə olunur.

Üz tanıma sistemlərini müəyyənləşdirmək üçün şəxsin bənzərsiz üz anatomiyasından istifadə edilir. Smartfonlar, kredit kartı ödəmələri üçün şəxsiyyətin doğrulanması, hüquq mühafizə və s. kimi müxtəlif yerlərdə istifadə olunur.

Retina və ya iris tanıması şəxsiyyətin iris və ya retinasının bənzərsiz nümunəsindən istifadə edir. Bu növ biometrik identifikasiyanı tətbiq etmək çətindir. Buna baxmayaraq mövcud olan ən dəqiq biometrik identifikasiya sistemlərindən biridir və ümumiyyətlə təhlükəsizliyin ən vacib olduğu vəziyyətlərdə istifadə olunur (məsələn, nüvə tədqiqat müəssisələri).

Səs biometriyasını və ya kiber təhlükəsizlik məqsədləri üçün istifadə olunan səs tanımasını təsdiq etmək üçün birinin səsinin bənzərsiz tonu, səs səviyyəsi və tezlikləri nəzərə alınır. Ən çox istifadəçiləri müştəri xidməti dəstəyi üçün bir çağrı mərkəzinə müraciət etdikdə (məsələn, online bankçılıq) yoxlamaq üçün istifadə olunur.

Yeriş tanıma və damar tanıma metodları da vardır ki, onlar digərlərinə nisbətən geniş yayılmamışdır.

İnsanın yerişi onun sifəti və ya barmaqlarının izləri qədər fərdidir. Psixoloqların çoxsaylı tədqiqatları sübut etmişdir ki, insanın yerişi stereotip komponentlərlə - addımın uzunluğu, ritmi, plastikliyi, sürəti və digər xüsusiyyətlri ilə fərqlənən mürəkkəb hərəkət vərdişidir. Tanıma proseduru videomüşahidə kamerası vasitəsilə aparılır. Kamera insanın yerişi zamanı əsas kadrları yaza bilir. Sonra isə yerişin fərdi tərzini müəyyən edən xüsusi proqram hərəkətə gətirilir.

Yerişə görə biometrik tanımadan həm hüquq mühafizə orqanlarının işində, həm də hava limanlarında və banklarda təhlükəsizliyin təmin edilməsi zamanı uğurla istifadə oluna bilər.

Damar tanıma bir insanın əlindəki və ya barmağındaki qan damarlarının nadir nümunəsini istifadə edərək onları müəyyənləşdirir. Əllərinizidəki və ya barmaqlarınızdakı dəri altındakı damarların xəritəsini düzəltmək üçün infraqırmızı işıqdan istifadə edir. Damar tanıması retina və ya irisdən son dərəcə dəqiqdir və günümüzün ən qabaqcıl biometrik identifikasiya sistemlərindən biri hesab edilir.

Biometrik identifikasiya biometrik xüsusiyyətlərin bənzərsizliyinə görə məlumatların təhlükəsizliyi üçün yüksək dərəcədə təsirlidir. Biometrik identifikasiyanın ən üstün faydası rahatlıqdır. Məhdud müddəti tələb edən bir addımlıq prosesdir. Daxili proseslər texniki cəhətdən çətin olsa da, istifadəçi baxımından inanılmaz dərəcədə asan və sürətli olur. Məsələn, bir barmağınızı skanerə qoymaq və bir hesabın kilidini bir neçə saniyə içində açmaq bir neçə xüsusi simvolu olan uzun bir parol yazmaqdan daha sürətlidir. Bundan əlavə, bir şifrəni unutmaq əksər istifadəçilərin ümumi səhvidir. Lakin biometriklərimiz üçün eyni haldan söhbət gedə bilməz.

Digər tərəfdən biometrik identifikasiya onun girişinin icazə verildikdə mövcud olmasını tələb

edir. Fiziki bir biometriki rəqəmsal olaraq köçürə və ya paylaşa bilməzsiniz. Əksər biometrik identifikasiya sistemlərindən istifadə etməyin yeganə yolu fiziki bir tətbiqetmədir.

Lakin qeyd etmək lazımdır ki, biometrik doğrulama sensorlarının tətbiqi baha başa gələ bilər və həmişə 100% etibarlı deyil. Daha inkişaf etmiş bir təhlükəsizlik sisteminin tətbiqi üçün əhəmiyyətli investisiyalar və xərclər tələb edilir.

Həmçinin, istifadəçilərin şəxsi məlumatlarını toplayan və saxlayan müəssisələr və hökumətlər hakerlər tərəfindən davamlı təhdid altındadır. Biometrik məlumatlar əvəzolunmaz olduğundan, təşkilatlar biometrik məlumatları artan təhlükəsizlik və ehtiyatla qəbul etməlidirlər və bu saxtakarlıq inkişaflarından öndə qalmaq üçün bahalı və texniki cəhətdən çətindir. Bir parol və ya pin təhlükə altındadırsa, onu dəyişdirmə ehtimalı həmişə var. Eyni hal insanın fizioloji və ya davranış biometri üçün deyilə bilməz.

Digər tərəfdən bir böhran vəziyyətində, təhlükəsizlik pozuntusu kimi istifadəçilər məlumatlara daxil olmaq və problemi aradan qaldırmaq üçün sistemə uzaqdan giriş edə bilmirlər, bu da sistem üçün böyük bir dezavantajdır.

Biometrik sistem elektrik enerjisindən asılı olan avtomatik sistemdir. Elektrik enerjisi çatışmazlığı varsa, heç bir istifadəçi sistemdən istifadə edə bilməyəcək. Bundan əlavə proqramda bir səhv varsa və ya hər hansı bir səbəbdən uğursuz olarsa, proqram bərpa olunana qədər istifadəçilərə giriş məhdudlaşdırılacaq.

Ümumiyyətlə, biometrik sistemin mükəmməl olması üçün ən son texnologiya ilə inkişaf edən bir irəliləyişdə olduğunu nəzərə alaraq müəssisələrin təhlükəsizliyinə rəhbərlik edə bilər. Sistemin mənfi cəhətlərini üstələyəni üstünlüklərinin olmasına baxmayaraq hələ də mükəmməldən uzaq bir sistemdir.

## ƏDƏBİYYAT

1. Kazımov T., Mahmudova Ş, Fotoportret əsasında insan sifətinin tanınması. Bakı: İnformasiya texnologiyaları nəşriyyatı, 2010.
2. Babich A. Biometric Authentication. Types of biometric identifiers. Haaga-Helia University of Applied Science, 2012
3. Yalçın N., Gürbüz F. Biyometrik Güvenlik Sistemlerinin İncelenmesi // Düzce Üniversitesi Bilim ve Teknoloji Dergisi, 2015, 3, s. 398-413.

**NURLAN SƏFƏROV**
*İdarəetmədə informasiya sistemləri*
*Naxçıvan Dövlət Universiteti*

## PROQRAM MÜHƏNDİSLİYİNDƏ SÜNİ İNTELLEKT PROBLEMLƏRİ

Hazırda SİS proqram təminatı məhsullarının ən mühüm və əhəmiyyətli bir sahəsini təşkil edir. Onların, ilk növbədə ekspert sistemlər (ES) və neyron şəbəkələrin (NŞ) yaradılması zəruriliyi, praktiki əhəmiyyətli çətin formalizə olunan mürəkkəb məsələlərin kompüterdə həllinə imkan yaratması ilə təyin olunur. Bu məsələlərin həllində ciddi iqtisadi səmərəliliyin əldə olunması SİS-in günbəgün artmasını şərtləndirir. Bu sistemlər təsvirlərin identifikasiyası, mətnlərin anlanması, nitqin tanınması, tibbi diaqnostika və s. sahələrdə kütləvi tətbiqini tapmışdır 1, 2.

- **Bilik mühəndisliyinin problemləri**: Sİ-nin əsas istiqamətlərindən olan bilklərə əsaslanan sistemlər çətin formalizə olunan məsələlərin həllində, giriş verilənlərinin və biliyin qeyri-müəyyənliyi və dinamikliyi ilə xarakterizə olunan konkret situasiyalarda qərarların qəbul olunmasını reallaşdıran sistemlərdir. PM-in bu sahədə problemləri biliyin əldə olunması, onun təsvir modellərinin işlənilməsi, strukturlaşdırılması, bilik bazasının yaradılması ilə təyin edilir və bilik mühəndisliyi (ing. Knowledge Engineering) adlanır. Bu prosesi təşkil edən mütəxəssislər bilik mühəndisləri adlanırlar və onlar konkret predmet sahəsi haqqında faktiki biliklərə yiyələnir, məsələnin həlli üçün lazım olan proseduranı, strategiyanı, emprik qaydaları bilik mənbəyindən (ekspertdən) əldə edir və BƏS yaradırlar 3, 4.
- **Sis və onların PM problemləri:** SİS-in bariz nümunəsi olan ES insan fəaliyyətinin dəqiq riyazi metod və modellərin istifadəsi çətin olan və hətta mümkün olmayan müxtəlif sahələrində tətbiq olunur. Bunlara tibb, təlim, qərarların qəbulunun dəstəklənməsi və mürəkkəb situasiyalarda idarəetmə və s. aiddir 1, 2, .

Sİ proqramlaşdırma dilləri və sistem-oboloçkalar istifadə olunur. Sİ proqramlaşdırma dilləri kimi FRL ((Frame Representation Language), Proloq proqramlaşdırma dilləri istifadə olunur.

FRL (Frame Representation Language) proqramlaşdırma dili freym-oriyentir dillər sinfinə aiddir. FRL-də freym beşsəviyyəli alt strukturlardan ibarət olub assosiativ siyahılar toplusudur. Freymlərin altstrukturları slotlar, aspektlər, verilənlər, kommentari və xəbərlər ola bilər. FRL-in mühüm cəhəti onda “cəhətlərin varisliyi” mexanizminin olmasıdır.

Proloq proqramlaşdırma dilinin bir neçə versiyası istifadə olunur: MProlog,CProlog, Prolog-2, Arity Prolog, Turbo Prolog, Strawberry Prolog. Bu dilin riyazi əsasını birinci dərəcədən predikatların hesablanması, rekursiv funksiyalar nəzəriyyəsi təşkil edir.

ES-in işlənilməsi aşağıdakı üç istiqamətdə aparılır :

- hər hansı alqoritmik dildə olan, bir hissəsi BB olan, ayrı-ayrı proqramlar şəklində yerinə yetirilmiş ES. Belə sistemlərin qurulmasında ənənəvi prosedur dillər olan PASCAL, C və s. ilə yanaşı, həm də SI-nin ixtisaslaşmış dilləri olan LISP, PROLOG istifadə olunur.

- ES-in oboloçkaları – müəyyən predmet sahələrində biliklərin təsviri vasitələrinə malik proqram məhsuludur. İstifadəçinin işi bilavasitə proqramlaşdırmadan deyil, təqdim olunan oboloçkanın yaratdığı imkanlar əsasında biliyin formalizasiyası və daxil edilməsindən ibarət olur. Belə sistemlərin nümunələri kimi INTEREXPERT, PC+, VPExpert və s. qeyd etmək olar.

- ES generatorları – baxılan predmet sahəsindən asılı olaraq biliyin bu və ya digər təsvirinə əsaslanan oloçkanın alınması üçün nəzərdə tutulmuş güclü proqram məhsullarıdır. Bu məhsullara KEE, ART və s. misal göstərilə bilər.

- **PM-də Sİ problemləri:** Bu gün Sİ metod və alqoritmləri digər sahələrdə olduğu kimi PM-də də geniş tətbiqini tapmışdır, Sİ metod və alqoritmlərinə əsaslanan proqram təminatı əlavələri PM-in, demək olar ki, bütün sahələrini əhatə etməyə başlayır. Bu baxımdan PM-də istifadə olunan Sİ metodlarını aşağıdakı üç istiqamətə ayırmaq olar :

1) axratışa əsaslanan proqram təminatı kimi tanınan axtarış və optimallaşdırma metodları;

2) qeyri-müəyyənlik şəraitində qeyri-səlis və ehtimal metodları;
3) klassifikasiya, təlim və proqnozlaşdırma metodları.

Təbii ki, nə PM, nə də Sİ statistik sahə deyil, və bu sahədə yeniliklər günbəgün artır və mövcud tətbiqlər günbəgün daha da mükəmməlləşir. Dünənə qədər həlli mümkün olmayan məsələlərin həllində Sİ metodlarının işlənilməsi proqramçı-mühəndislərə bu metodlardan istifadə etmək imkanı yaratmışdır. Sİ metodlarının proqram təminatında tədqiqi və praktiki işlənilməsi sahəsi bir sıra mütəxəssislər tərəfindən “Ehtimal proqramlaşdırma”,“Klassifikasiya”,“Proqram mühəndisliyi üçün təlim və proqnozlaşdırma”, “Axtarışa əsaslanan proqram təminatı” kimi xarakterizə olunmuşdur.

## ƏDƏBİYYAT

1. «Системы искусственного интеллекта», М.: БИНОМ, 2008.
2. А. В. Андрейчиков, О. И. Андрейчикова, «Интеллектуальные информационные системы», М.: Финансы и статистика, 2004.
3. Г. С. Поспелов, «Искусственный интеллект – основа новой информационной технологии», М.: Наука, 1988.
4. M. H. Məmmədova, Z. Q. Cəbrayılova. Tibbi ekspert sistemlərin yaradılması problemləri və inkişaf istiqamətləri. İnformasiya texnologiyaları problemləri, №1, səh. 81–91, 2017.

**RAMİLƏ ƏLİYEVA**
*İdarəetmədə informasiya sistemləri*
*Naxçıvan Dövlət Universiteti*

# İNFORMASİYA SİSTEMLƏRİ VƏ ONLARIN TƏSNİFATI

İnformatika elminin ən mühüm anlayışlarından biri də informasiyadır. Bu anlayış latın sözü olub baş vermiş hadisə və ya fakt haqqında məlumat mənasını verir. İnformasiya dedikdə toplanma, qeydiyyat, saxlanma və s. obyekti ola bilən faydalı məlumatlar toplusu başa düşülür.

İnformasiya anlayışının ən mühüm alt anlayışlarından biri də informasiya sistemləridir. İnformasiya sistemləri tətbiq sahəsinə aid informasiyanın toplanmasını, saxlanmasını, emalını və istifadəçilərə çatdırılmasını təmin edən texniki vasitələr kompleksidir. Bu sistem müxtəlif istifadəçilərin müəyyən mövzu sahəsi çərçivəsində informasiyaya olan tələbatının ödəyir. Müasir informasiya sistemlərində informasiyanın emalı üçün əsas texniki vasitə kimi fərdi kompüterdən istifadə edirlər. Böyük təşkilatlarda və firmalarda texniki vasitələrə fərdi kompüterlə yanaşı, meynfreym və super kompüter də daxil edilə bilər. Paylanmış informasiya sistemlərində texniki təminat funksiyalarını kompüter şəbəkələri yerinə yetirirlər.

İnformasiya sistemlərinin yarandığı ilk vaxtlar (1970-1980ci illər) onlar "Avtomatlaşdırılmış informasiya sistemləri" adlandırılırdı. İnformasiya sisteminin əsasını kompüter təşkil etdiyi üçün xaricdə çox vaxt "Kompüter informasiya sistemi" (Computer Information System-CIS) terminindən istifadə edilir. Bir çox avropa və MDB ölkələrində isə, o cümlədən, Rusiyada "İnformasiya sistemi" terminindən istifadə edilir. Kompüterlərin və digər əlaqə vasitələrinin istifadə olunmasına əsaslanan yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı olaraq bu anlayış geniş istifadə olunur. Ümumi halda sistem anlayışı qoyulmuş məqsədə çatmaq üçün vahid bir tam kimi fəaliyyət göstərən, qarşılıqlı əlaqədə olan elementlər kompleksini özündə birləşdirir. Sistemin özünün giriş və çıxış kimi komponentləri var. Bundan başqa hər bir sistemin alt sistemə bölünmək imkanı da var. Bu xüsusiyyəti onun analizini, yaradılmasını və istifadəsini asanlaşdırır. İnformasiya sistemi dedikdə, qərarın hazırlanması və qəbulu ilə bağlı olan informasiya proseslərini və idarəetmə servisini həyata keçirən aparat və proqram vasitələrinin, həmçinin informasiya resurslarının əlaqəli məcmusundan ibarət texniki sistem başa düşülür. İnformasiya sistemlərinin işlənib hazırlanması və tətbiqində əsas məqsəd şirkətin idarə edilməsi üçün müasir informasiya infrastrukturunun yaradılmasıdır.

İnformasiya sistemlərinin istifadəsi zamanı istifadəçilərin tələbatlarının ödənilməsində iki cəhəti nəzərə almaq lazımdır. Birincisi tətbiq sahəsinin sərhədlərinin təyin olunması və informasiya modelinin tam əhatəli və dəqiq əks etdirilməsi, ikincisi istifadəçilərin sorğularına tam və dəqiq cavab verə bilən informasiya sisteminin yaradılmasıdır. Birinci halda baxılan tətbiq sahəsi çərçivəsində informasiya sisteminin istifadəçiləri lazımi informasiya ilə təmin edilməli, ikinci halda isə sorğuların tipləri və növləri təhlil edilməli, sorğuların tələblərinə uyğun və əlverişli şəkildə cavab verilməlidir. Birinci halda o, informasiya-sorğu sistemi kimi, əsasən, ayrı-ayrı şəxslərin və ya kollektivlərin informasiya tələblərini ödəmək üçün istifadə olunur. İkinci halda isə informasiya sistemi istifadəçilərə informasiya-arayış xidməti göstərməklə yanaşı, həmdə avtomatlaşdırılmış sistemin informasiya təminatı alt sistemi rolunu oynayır.

İnformasiya sistemləri, həll etdiyi məsələlərin mürəkkəblik səviyyələrinə və xidmət göstərdiyi istifadəçilərin sayına görə təsnifləşdirilir. Sistemin miqyası və ya əlçatanlığı həmin sistemdən istifadə edən istifadəçilərin sayı ilə müəyyən edilir. Sistemin əlçatanlığının 2 tipi fərqləndirilir: dinamik əlçatanlıq və kommersiya əlçatanlığı. Dinamik əlçatanlıq eyni vaxtda xidmət göstərilən istifadəçilərin sayı ilə, kommersiya əlçatanlığı isə sistem istifadəçiləri üçün işçi yeri təşkil etmək məqsədi ilə satın alınmış lisenziyaların sayı ilə müəyyən edilir. Dinamik əlçatanlıq daha obyektivdir, lakin çətin qiymətləndirilə biləndir. Çünki sistemə eyni zamanda müraciət edən istifadəçilərin sayı həmin anda onların hansı məsələləri həll etdiklərindən əhəmiyyətli dərəcədə asılı olur

İnformasiya sistemləri vasitəsilə həll edilən məsələlərin rəngarəngliyi çoxlu sayda müxtəlif

növ sistemlərin yaranması ilə nəticələnmişdir. Bu sistemlər həm quruluş prinsipləri, həm də informasiyanın emalı qaydaları baxımından bir-birindən fərqlənir. Ona görə də informasiya sistemlərini bir sıra fərqli əlamətlərə görə təsnif etmək olar; məsələn: arxitekturaya, avtomatlaşdırma dərəcəsinə, tətbiq sahəsinə və.s İnformasiya sistemləri konkret hər hansı bir obyekt üçün yaradılır. İnformasiya sistemləri avtomatlaşdırma dərəcəsinə görə üç qrupa bölünür:

- ✓ əl ilə işləyən (mexaniki)
- ✓ avtomatlaşdırılmış
- ✓ avtomatik

Mexaniki olduqda bütün əməliyyatlar insanlar tərəfindən, avtomatlaşdırılmış olduqda yarısı insan, yarısı EHM-lər tərəfindən, avtomatik olduqda isə texniki vasitələrin köməyi ilə avtomatik olaraq yerinə yetirilir.

İnformasiya sistemlərini tətbiq sahəsinə görə də təsnifləşdirirlər. Bu cəhətinə görə informasiya sistemləri bir neçə sinifə bölünür:

- ✓ elmi tədqiqatlar
- ✓ avtomatlaşdırılmış layihələndirmə
- ✓ texnoloji proseslərin idarə olunması
- ✓ təşkilati idarəetmə və s.

İnformasiya sistemlərinin tətbiq sahəsi araşdırılan obyektin durumu və parametrləri haqqında informasiyanın xüsusi sensorlar vasitəsilə toplanması üçün istifadə edilir. Bu sistemlər olmadan atom-elektrik stansiyaları, insan sağlamlığı üçün ziyanlı olan kimyəvi istehsalat kimi sahələrin işini təsəvvür etmək çətindir. İnformasiya və ölçü sistemləri təbabət, meteorologiya, seysmologiya, kosmik uçuşlar və başqa sahələrdə geniş tətbiq edilir.

Tətbiq sahəsindən asılı olmayaraq bütün informasiya sistemləri eyni komponent toplusundan ibarətdir. Bunlar funksional komponentlər, verilənlərin emalı sistemi komponenti və təşkilati komponentlərdir. Bu komponentlərin hər biri informasiya sisteminin ayrı-ayrı tapşırıqlarını (idarəetmə funksiyasını, verilənlərin emalının tipik əməllərinin reallaşdırılmasını, informasiya üzərində müxtəli əməllər və s.) yerinə yetirir. İnformasiya sistemi idarəetmə funksiyasını reallaşdırılmasına xidmət edir. Bunun üçün o, müxtəlif ranglı işçiləri idarə olunacaq obyekt haqqında informasiya ilə təmin edir, toplayır, çevirir, ötürür və emal edir. Bütün deyilənləri ümumiləşdirərək informasiya sisteminə aşağıdakı tərifi vermək olar. "İnformasiya sistemi idarəetmə funksiyasını reallaşdırmaq məqsədi üçün müxtəlif rütbəli istifadəçiləri (işçiləri) idarə olunan informasiya ilə təmin edən, toplayan, ötürən və emal edən kommunikasiya sistemidir".

## ƏDƏBİYYAT


1. Mübariz Xəlilov, Nazlı Həsənova. İnformatika. Bakı: 2014, 411 s.
2. Müşfiq Ramazanov. İnformasiya sistemləri menecmenti. Dərslik. Bakı: 2017, 186 s
3. Sabit Kərimov. İnformasiya sistemləri. Bakı: 2007, 631 s.
4. https://www.wikipedia.org
5. https://www.kayzen.az

**GÜNAY TAHİROVA**
*Naxçıvan Dövlət Universiteti*
*günaytahirli988@gmail.com*

# İP- ÜNVAN SİNİFLƏRİ

İP (İnternet Protocol) ünvan – İnternet şəbəkəsinə qoşulmuş hər bir kompüter unikal ünvana malikdir. İP- ünvanı İnternetdə bir kompüterin və ya başqa bir cihazın müəyyənləşdirilməsinə dair bir rəqəmdir. İnternetə qoşulan hər bir kompüterin öz İP- ünvanı olur. Digər bütün kompüterlər bu İP- ünvanla əlaqə saxlayırlar. İP- ünvan hər ölkədə İnternet xidməti göstərən provayder tərəfindən verilir. Telefon ilə internetə girən istifadəçilərin İP- ünvanları çox vaxt dinamikdir, yəni servis provayderdə həmin anda boş olan bir İP- ünvanı internetə girən kompüterə verir. Buna görə də hər internetə girəndə İP- ünvanların bir hissəsi dəyişir. Statik İP- ünvanları olan kompüterlərin İP- ünvanları dəyişməz. Server olan kompüterlər üçün statik İP tövsiyə edilir.

İP- ünvanları İnternet Protokolu ilə ötürülən məlumatların mənbəyini və təyinatını unikal şəkildə müəyyənləşdirir. İnternetə qoşulmuş hər bir cihaza İnternet Xidmət Təchizatçısı tərəfindən bir İP ünvanı verilir və İnternetdəki digər cihazlar bu cihazlara verilən İP- ünvanları ilə daxil olur. İP ünvanlı iki fərqli cihaz eyni şəbəkədə olmasa da, marşrutlaşdırıcılar vasitəsilə bir-biri ilə əlaqə qura bilirlər. İnternetdə verilənlərin ötürülməsi üçün rəqəm və ad tipli ünvanlardan istifadə edilir. Bu ünvanlar oktet adlanan dörd hissədən ibarət olurlar.

Kompüter şəbəkələrində verilənlərin ötürülməsinin təmin edilməsi üçün şəbəkəyə qoşulmuş hər bir qovşağın birmənalı şəkildə identifikasiya edilməsi imkanı olmalıdır. Bu İP- ünvanlamanın köməyi ilə mümkündür. Kompüter şəbəkəsinə qoşulmuş bütün kompüterlər, printerlər, marşrutlayıcılar və s. qovşaq sayılır və şəbəkədə qarşılıqlı əlaqədə olmaq üçün heç olmasa bir İP- ünvana malik olmalıdırlar. İP- ünvan şəbəkədə əsas ünvan olaraq paketlərin şəbəkə səviyyəsində şəbəkələr arasında ötürülməsini təmin edir. İP- ünvan 4 baytdan ibarətdir, məsələn, 109.26.17.100 və şəbəkə səviyəsində istifadə edilir. Yəni, İP- ünvan dörd ədədlər yığımından ibarətdir və hər biri 0-dan 255-ə qədər diapazonda yerləşir. İP- ünvan iki hissədən ibarət olur: şəbəkənin nömrəsindən və qovşağın nömrəsindən. İP protokolu qovşağın nömrəsini onun lokal ünvanından asılı olmayaraq təyin edir. İP- ünvanın şəbəkə nömrəsi və qovşaq nömrəsi sahələrinə bölünməsi dəyişkəndir və onlar arasında sərhəd çox sərbəst qoyula bilər. Qovşaq bir neçə İP şəbəkəyə daxil ola bilər. Bu halda qovşaq şəbəkə birləşmələrinin sayına bərabər olan bir neçə İP- ünvana malik olmalıdır. Beləliklə, İP- ünvan ayrı kompüteri və ya marşrutlayıcını deyil, bir şəbəkə birləşməsini xarakterizə edir.

İP- ünvan iki komponentdən ibarətdir: Şəbəkənin identfkatorudan və qovşağın identifikatorundan. İP- ünvanın birinci hissəsi şəbəkə identifikatorudur və kompüterin yerləşdiyi seqmenti müəyyən edir. Eyni bir seqmentin komponentləri eyni bir şəbəkə identifikatoruna malik olmalıdır. İP- ünvanın ikinci hissəsi qovşağın identifikatorudur və seqmentdə olan kompüteri, marşrutlayıcını və ya digər qurğuları müəyyən edir. Bir şəbəkə identifikatoru çərçivəsində hər bir qovşağın identifikatoru unikal olmalıdır. İP- ünvan kimi şəbəkə identifikatoru da dörd ədəddən təşkil olunur. Buna görə də, əgər İP- ünvanın birinci ədədi w şəbəkə identifikatorudurunu təmsil edirsə, onda bu identifikatorun strukturu w.0.0.0 şəkilində olacaq və bu identifikatorda sonrakı üç ədəd sıfırdır. Bununla yanaşı, qovşaq identifikatorunun strukturu x.y.z şəkilində olacaq və bu ədədlərdən əvvəl 0 gəlmir. Qeyd etmək lazımdır ki, müxtəlif şəbəkələrdə yerləşən iki kompüter eyni qovşaq identifikatoruna malik ola bilər. Lakin hər bir- biri ilə qarşılıqlı əlaqədə olan hər bir kompüter üçün şəbəkə identifikatoru və qovşaq identifikatoru kombinasiyası unikal olmalıdır. Bu gün siniflər üzrə İP- ünvanlama geniş istifadə edilir. Təşkilatlara bu və ya digər siniflərin İP- ünvanlar bloku təyin olunur. Bu blokun ölçüsü təşkilatın ölçüsündən asılıdır. İP- ünvanlardan hazırda geniş istifadədə olan İPv4 ünvanları 32 bit uzunluğundadır. Beləliklə, ünvan sahəsi deyilən İPv4 adreslərinin maksimum sayı təxminən 4.3 milyarddır. İPv6-nın əsas üstünlüyü, 2128 unikal ünvana və ya 340,282,366,920,938,463,463,374,607,431,768,211,456-a icazə verərək bir ünvanı saxlamaq üçün

128 bit məlumat istifadə etməsidir. İPv6-nın ünvan sahəsinin ölçüsü İPv4-dən daha böyükdür.

Kompüterə görə təyinat qovşağının müəyyən edilməsi üçün İP- ünvanlar siniflərdə təşkil olunub. Bu sistem siniflər üzrə İP- ünvanlama üsulu adlanır. İP- ünvanlarının siniflərinə A-dan E-yə qədər Latın əlifbasının hərifləri deyilir. İP- ünvanlar aşağıdakı 5 sinifə bölünür:

A sinifi. A sinifinin ünvanları çoxlu sayda qovşaqları olan şəbəkələrə təyin edilir. Bu sinif 126 şəbəkənin olmasına yol verir, çünki şəbəkənin identifikasiyası üçün İP- ünvandakı birinci ədəd istifadə edilir. Digər üç ədədlər isə qovşaq identifikatorunu əmələ gətirir, bu da şəbəkədə 16777214 qovşağı dəstəkləməyə imkan verir;

B sinifi. B sinifinin ünvanları orta və böyük ölçülü şəbəkələrə təyin edilir. Bu sinif 16384 şəbəkənin olmasına yol verir, çünki şəbəkənin identifikasiyası üçün İP- ünvandakı ilk iki ədəd istifadə edilir. Digər iki ədədlər isə qovşaq identifikatorunu əmələ gətirir, bu da şəbəkədə 65534 qovşağı dəstəkləməyə imkan verir. Məsələn, 172.16.53.46 İP- ünvanı B sinifinin ünvanıdır, çünki w=172, yəni 128 və 191 diapazonunda yerləşir. Beləliklə, şəbəkənin identifikatoru 172.16.0.0, qovşağın identifikatoru isə 53.46 olacaq;

C sinifi. C sinifinin ünvanları kiçik lokal şəbəkələr üçün istifadə edilir. Bu sinif təxminən 2097152 şəbəkənin olmasına yol verir, çünki şəbəkənin identifikasiyası üçün İP- ünvandakı birinci ədəd istifadə edilir. Digər ədədlər isə qovşağın identifikatoru istifadə edilir, bu da şəbəkədə 254 qovşağı dəstəkləməyə imkan verir;

D və E sinifləri. D və E sinifləri qovşaqlara təyin olunmur. D sinifi ünvanları çoxünvanlı göndərmələr üçün istifadə edilir, E sinif ünvanları isə gələcək üçün ehtiyat saxlanılıb.

A-dan E-yə qədər olan siniflər, hər biri 16 milyon şəbəkə interfeysi olan 128 şəbəkə və 256 interfeysi olan 2 milyon şəbəkə üçün identifikatorlar təyin etmək imkanı verir.

## ƏDƏBİYYAT

1. İsmayıl Calallı (Sadıqov).İnformatika terminlərinin izahlı lüğəti. “Bakı” nəşriyyatı, 2017.
2. Şıxəliyev R.H. Şəbəkə texnologiyaları. Mühazirələr kursu. Dərslik. Bakı: “İnformasiya Texnologiyaları” nəşriyyatı, 2017.
3. Gündüz Mirzəbəyli, Təbriz Miriyev – İnformatika. Dərslik. Bakı: 2015.
4. T.Q.Əbiyev, M.S.Ağayeva, E.M.Əliyeva. İnformatika . Bakı: 2013
5. Cavanşir Zeynalov. İnformatika və informasiya texnologiyaları . Bakı: 2011

**GÜNEL TAHİROVA**
*Naxçıvan Dövlət Universiteti*
*thrvgnl@gmail.com*

## RESPUBLİKAMIZDA "HÖKUMƏT BULUDU"

Azərbaycan Respublikasında "Hökumət buludu"na ümumi baxış beynəlxalq təcrübəyə əsaslanır. Belə ki, "Hökumət buludu"nun yaradılması dövlət orqanlarının informasiya sistemlərinin istismarı, infrastrukturun qurulması və standartların formalaşdırılması tədbirlərinin əlaqələndirilmə-

sinə, dövlət idarəçiliyində informasiya sistemlərinin yaradılması və saxlanılması xərclərinin azaldılmasına, dövlət orqanları üçün mərkəzləşdirilmiş, təhlükəsiz, dayanıqlı infrastruktur yaradılmasına xidmət etməkdədir. Dövlət orqanlarının, həmçinin özəl qurumların mövcud Data Mərkəzinin texniki imkanlarından istifadəsi üçün zəruri addımlar atılır, o cümlədən normativ hüquqi aktlar barədə müvafiq təkliflər hazırlanır. İlk növbədə, dövlət sektorunda mövcud olan İKT texniki-proqram resurslarından səmərəli istifadənin və onların saxlanılmasının effektiv təşkili, bu fəaliyyətə xərclərin azaldılması yolu ilə bu sistemlərin məhsuldarlığının artırılması, onlardan istifadənin genişləndirilməsi və yeni xidmətlərin tətbiqi təmin edilməkdədir.

Yaradılacaq şərait və infrastruktur nəticəsində dövlət orqanları tələbata uyğun, dövlət satınalmaları qaydaları əsasında münasib qiymətlərlə istismar riskləri azaldılmış xidmətlər əldə edə biləcəklər. Bu da öz növbəsində "Elektron hökumət"in inkişafına, dövlət idarəçiliyində İKT-dən istifadə səmərəliliyinin yüksəlməsinə, dövlət, vətəndaş və biznes arasında elektron əlaqələrin möhkəmləndirilməsinə və "Elektron hökumət"in inkişafında növbəti mərhələ olaraq "rəqəmsal hökumət"ə keçidə təkan vermkdədir. Belə ki, artan tələbatı dəstəkləyə biləcək İKT infrastrukturu inkişaf etdiriləcək, "bulud" xidmətləri təmin ediləcək və təkmilləşdiriləcək, dövlət informasiya sistemləri və ehtiyatları arasında inteqrasiya və məlumat mübadiləsi güclənəcəkdir. Hazırkı Konsepsiya "Hökumət buludu"nun inkişafı üzrə 2025-ci ilədək uzunmüddətli və 2025-ci ildən sonrakı hədəf baxışlara nail olunmasında dəstək mexanizmi rolunu oynamaqdadır.

2025-ci ilədək uzunmüddətli baxışda İKT-nin tətbiqinin genişləndirilməsi və istifadə səmərəliliyinin artırılması üçün innovativ islahatlar davam etdiriləcək, elektron xidmətlərin çeşidi və həcmi artırılacaq, beynəlxalq tələblərə cavab verən standartların tətbiqi təmin ediləcək, rəqəmli iqtisadiyyatın formalaşdırılması sahəsində işlər görüləcək və regional data mərkəzləri şəbəkəsində "Hökumət buludu"nun infrastrukturu və potensialı gücləndirilərək, bu tələbatı ödəməyə xidmət edəcəkdir. Bu dövrlərdə ölkədə daxili əməliyyatlarda rəqəmli həllərdən istifadəyə keçid tədricən daha geniş şəkildə təmin ediləcək və bu məqsədlə həm dövlət sektorunda, həm də özəl sektorda aparılan əməliyyatların, elektron nəzarət və monitorinq sistemlərinin optimallaşdırılması ilə bağlı böyük həcmli verilənlərin emalı üçün Data Mərkəzinin texniki imkanları əsas vasitə olacaqdır.

2025-ci ildən sonrakı hədəf baxışda uzunmüddətli perspektivdə İKT sahəsində regionda güclü potensiallı İKT sənayesinin yaradılması və beynəlxalq əhəmiyyətli informasiya tranziti, xidmətləri, məhsul istehsalı üzrə ixtisaslaşma, o cümlədən "bulud" texnologiyaları əsasında regional xidmətlərin göstərilməsi təmin ediləcəkdir. Həmçinin məlumatların saxlanılması və emalı məqsədilə "bulud hesabla-ma" texnologiyasından geniş istifadə ediləcəkdir. Telekommunikasiya operatorları da öz müştəriləri üçün "bulud hesablama" texnologiyasına əsaslanan həllər təklif edəcəklər. "Bulud"da xidmət yeni fəaliyyət növü olmasına baxmayaraq, artıq gəlirli sahəyə çevrilmişdir. "Bulud" texnologiya əsaslı inkişaf prosesinə dövlət dəstəyi verilməklə Azərbaycan Respublikasında İKT sənayesinə investisiyaların cəlb edilməsinə şərait yaradılacaq, bu isə öz növbəsində yerli və xarici investorların sahəyə olan marağını artıracaqdır.

"Rəqəmsal hökumət"ə keçid dövlət xidmətlərinin təşkili üçün məlumat analizindən, ağıllı qurğulardan, intellektual sistemlərdən istifadə edilməsini, iş yerlərinin avtomatlaşdırılmasını, məlumatların tam inteqrasiyası yolu ilə səmərəliliyin artırılmasını nəzərdə tutur. "Rəqəmsal hökumət"ə keçidin təmin edilməsi üçün ölkəmizdə "Hökumət buludu"nun infrastruktur imkanlarından istifadə bu sahədə arzuolunan nəticənin əldə edilməsinə imkan verəcəkdir. Belə ki, "bulud hesablama" sahəsindəki

irəliləyişlər məlumatların emalı və ötürülməsi imkanlarını artıracaqdır. Bu texnologiyalar ölkədə keyfiyyətli dövlət xidmətlərinin təşkili üçün əsas kimi çıxış edəcək, onlardan həm də yeni məlumat mənbələri kimi istifadə ediləcəkdir. Məsələn, uzunmüddətli perspektivdə Azərbaycan Respublikasında bütün kommunal xidmət sayğaclarının rəqəmli sayğaclarla əvəz edilməsi planlaşdırılır ki, bu da həm istehlaka nəzarət və kommunal haqların ödənilməsi sahəsində, həm də əldə edilmiş məlumatların təhlili yolu ilə paylanmada təkmilləşdirmələr aparılmasına imkan verəcəkdir.

"Bulud hesablama" texnologiyası dövlət xidmətləri üzrə təhlükəsiz və səlahiyyətə müvafiq olaraq məlumatların əldə edilməsində əlaqələndirməni keyfiyyətli təmin edə bilər. Bu infrastrukturdan təkcə məlumat mübadiləsi üçün deyil, həmçinin təşkilatların öz fəaliyyətləri üçün informasiya-sorğu əməliyyatlarını aparmaq, qərar qəbulunu dəstəkləmək, proaktiv və proqnozlaşdırıcı imkanları olan analitik sistemlərin tətbiqi  üçün də istifadə edilə bilər. "Rəqəmsal hökumət"də məlumatların analizinə və dövlət xidmətlərinin təşkilində məlumat əsaslı qərarların verilməsinə böyük önəm verilir. "Rəqəmsal hökumət", eyni zamanda, İKT-nin inkişafı nəticəsində yaranan texnologiyalardan və münasibətlərdən keyfiyyətcə yeni növ dövlət xidmətlərinin təşkilində istifadəni nəzərdə tutur. Məsələn, hazırda "zəncir-bloklar" (blockchain) texnologiyası informasiya infrastrukturunda məlumatların və ya verilənlər bazalarının mərkəzləşmiş deyil, paylaşılan formada mübadilə edilərək kriptoqrafik texnologiya əsasında təhlükəsiz rejimdə bloklar şəklində saxlanılmasını, həmçinin şəbəkə üzərindən göndərilən və ya təsdiqlənmiş hər bir əməliyyat tarixini həmin əməliyyatların tərkib hissəsi sayılan informasiya ilə birlikdə saxlamağa imkan verən yeni texnologiya olaraq inkişaf etməkdədir. Bu texnologiya elektron xidmətlər göstərilməsində fərqli yanaşmalar tətbiq etməyə, daha yüksək sürət və keyfiyyətlə xidmətlər təşkil etməyə imkan yaradır. Hesablama imkanlarının mövcudluğu, "bulud" texnologiyası bu yeni texnologiyanın tətbiqi üçün əlverişli mühitdir. Həmçinin milli məkan məlumatlarının formalaşdırılmasında, saxlanılmasında, idarə olunmasında və istifadəsində, metaməlumatların formalaşdırılması və xidmətlərin göstərilməsində "bulud" texnologiyası tətbiq ediləcəkdir. Atılacaq bu addımlar ölkədə "rəqəmsal hökumət"ə keçidlə bağlı zəruri infrastrukturun formalaşdırılması və inkişafına xidmət edəcək, "bulud" texnologiyaları bu məsələlərin həllinə əhəmiyyətli təsir göstərəcəkdir.

"Hökumət buludu"nun fəaliyyətinin təşkilini "Hökumət buludu"nun operatoru təmin edəcəkdir. Operator "Hökumət buludu"nun yaradılması, infrastrukturunun qurulması, xidmətlərin təşkili, dövlət orqanlarının informasiya sistemlərinin bu platformaya keçidi, dövlət informasiya ehtiyatlarının və sistemlərinin Data Mərkəzində saxlanılmasının effektiv təşkili, habelə dövlət informasiya sistemlərinin inventarizasiyası və ekspertizası ilə bağlı tədbirlər görəcəkdir. "Hökumət buludu"nun fəaliyyətinin təşkili məqsədilə ölkədə istismara verilmiş TIER III səviyyəli Data Mərkəzinin infrastrukturundan və "bulud" xidmətlərindən istifadə ediləcəkdir. Bunun üçün dövlət qurumlarının ehtiyaclarının qarşılanması, əsas proqram təminatı resurslarının lokallaşdırılması, standartlara cavab verməyən müxtəlif data mərkəzlərinin konsolidasiyası (mərkəzləşdirilmə) nəzərdə tutulur. Bununla yanaşı, dövlət-özəl əməkdaşlığında (Public Private Partnership) özəl şirkətlərin işləyib hazırladıqları texnoloji həllərdən istifadə edilməklə ölkədə "bulud" xidmətləri təşviq ediləcəkdir. "Bulud" xidmətlərindən sahibkarlıq subyektlərinin geniş istifadəsi onların biznes əməliyyatlarında səmərəliliyin və məhsuldarlığın artırılmasına zəmin yaradan əsas amillərdən biri olacaq, həmçinin kiçik və orta biznes (KOB) subyektlərinin rəqəmsal texnologiyalardan istifadə səviyyəsini yüksəltməklə, onların rəqabət qabiliyyətinin artmasına xidmət edəcəkdir.

"Bulud" xidmətlərinin göstərilməsi zamanı beynəlxalq təcrübədə mövcud olan ümumi yanaşma tətbiq ediləcəkdir. "Hökumət buludu"nun operatoru infrastruktur (IaaS), platforma (PaaS), tətbiqi proqram (SaaS) modelləri əsasında xidmətlər göstərəcəkdir. Bunların həyata keçirilməsi üçün açıq (public), özəl (private) və hibrid (hybrid) tipli yerləşdirmə modellərinə uyğun texnoloji mühit təmin ediləcəkdir.

## ƏDƏBİYYAT

1. Ramiz Şıxəliyev. Şəbəkə texnologiyaları. Bakı: 2017

2. Ələkbərov R.Q, Həşimov M.A. AzScienceNet şəbəkəsində cloud computing texnologiyalarının tətbiqi perspektivləri haqqında informasiya texnologiyaları problemləri. 2012

## TƏBİƏT VƏ KƏND TƏSƏRRÜFATI

**XANIM QURBANOVA**
*Meliorasiya- mühəndis sistemlərinin tikintisi və istismarı*
*Naxçıvan Dövlət Universiteti*
*ulvixanim1997@gmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İSTİSMAR OLUNAN SUVARMA KANALLARI, ONLARDA SU İTKİLƏRİ VƏ İTKİLƏRƏ QARŞI MÜBARİZƏ TƏDBİRLƏRİ

Naxçıvan Muxtar Respublikasında hər bir rayon suvarma suyu ilə təmin edilmişdir. Muxtar Respublikamız kəskin kontinental iqlim tipinə malik olduğu üçün bu ərazidə suya olan tələbat digər regionlara nisbətən daha çoxdur.

Başlanğıcını su anbarlarından götürən magistral kanallar kənd təsərrüfatı torpaqlarının suvarılması üçün əsas mənbə hesab edilir. Naxçıvan MR-in ümumi torpaq fondu 536, 3 min ha-dır. Relyef şəraitindən asılı olaraq suvarılan torpaq sahəsi 154,28 min ha təşkil edir. Hazırki dövrdə 59,2 min ha torpaq əkin altında istifadə edilir. Uzunluğu 1 km-dən 17 km-ə qədər olan Naxçıvan suvarma sistemi 40 kanaldan ibarətdir. Bununla yanaşı uzunluğu 1 km-dən 52 km -ə qədər olan Arpaçay su sistemi 20 kanaldan və uzunluğu 15 km - ə qədər olan Gilənçay suvarma sistemi 15 kanaldan, digər ərazilərdə layihələndirilmiş kanallar isə kiçik kanallardan ibarətdir. Ordubad rayonun yüksək dağlıq hissəsində 4,6 km yeni kanal çəkilmişdir. Aşağı Əylis və Yuxarı Əylis kəndlərinə suvarma suyunun verilməsi üçün 4,3 km yeni suvarma kanalı çəkilmişdir. Nəticədə 261 ha əkin sahəsi su ilə təmin edilmişdir. Aza çayından çəkilmiş 18 km kanal isə bərpa edilərək, 600 ha əkin sahəsini suvarma suyu ilə təmin etmişdir. Arpaçay sağ və sol sahil kanalları vasitəsilə Sədərək, Şərur və Kəngərli rayonlarının 20000 hektardan artıq torpaq sahələrinin su ilə təmin edilməsində istifadə olunur. Vayxır sol sahil suvarma kanalı vasitəsilə 2424 ha əkin sahəsi su ilə təmin edilir. Bununla yanaşı Culfa rayonunda başlanğıcını Bənəniyar su anbarından götürmüş suvarma kanalı 1050 hektardan artıq əkin sahəsininin suvarılmasında istifadə edilir. Naxçıvan Muxtar Respublikasının ən böyük su anbarı olan Araz su anbarı vasitəsilə Nehrəm kəndinin 1170 ha torpaq sahəsinin və qonşu kəndlərin əkin sahələrinin su ilə təmin edilməsi həyata keçirilir.

Suvarma kanalları açıq və qapalı olmaqla 2 yerə bölünür. Açıq suvarma kanalları parabola və trapesiya formasında layihələndirilir. Açıq torpaq kanallarında sızma itkilərinin azaldılması və kanalların möhkəmliyinin artırılması üçün beton və dəmir- beton üzlüklərdən istifadə etməklə layihələndirilir. Beton və dəmir- beton üzlüklər çox zaman qəliblərə tökülərək hazır şəkildə layihələndiriləcək sahəyə gətirilir və kanalların üzlənməsində istifadə edilir. Kanalların tikintisi mənbədən başlayaraq enişə doğru aparılır. Buradan məlum oldu ki, su kanallarında maillik şərti mütləq ödənilməlidir.

Açıq suvarma kanallarının en kəsik profillərinin tərtib edilməsi, onların planda yerləşdirilməsi üçün aşağıdakı şərtlər ödənilməlidir.

1) Öz axımı ilə suvarmada böyük kanalların kiçik kanallar üzərində rəhbərlik şərti tam ödənilməlidir;

2)Suvarma kanallarının yamacları dayanıqlı olmalı, yəni suyun təsirindən uçub dağılmamalıdır və kanallarda su itkisi minimum dərəcədə az olmalıdır;

3)Kanalların suburaxma qabiliyyəti yuxarı olmalıdır;

4)Kanalların yatağı suyun təsirindən yuyulmamalı və lillənməməlidir.

Açıq suvarma kanalları öz axını ilə suvarmada suvarılacaq sahənin yüksək yerləri ilə çəkilməlidir. Bu halda böyük kanalların kiçik kanallar üzərində rəhbərliyi tam təmin edilir. Suvarma kanallarının uzuznuna profillərinin layihələndirilməsi əsas şərtlərdən biri hesab edilir. Bu halda böyük kanalların su səviyyəsi kiçik kanalların su səviyyəsindən yüksək olmalıdır. Səviyyələr kanalın

dərinliyinə görə əlaqələndirilməliidir. Sahə kanallarının müvəqqəti kanallar üzərində rəhbərliyi təmin edilməlidir.

Suvarma kanallarında uzunluq profillərinin layihələndirilməsi üçün əsas məsələ müvəqqəti arxdan başlanılır. Bu zaman müvəqqəti arxda su səviyyəsi yer səthindən 5-10 sm yuxarıda çəkilməlidir. Beton üzlük çəkilmiş və açıq torpaq kanalların en kəsiyi əsasən trapesiya formasında layihələndirilir. Əgər kanallarda su sərfi daha çox olarsa, bu halda onların en kəsiyi parabola formasında layihələndirilə bilər. Torpaq kanallar layihələndirilərkən dayanıqlı olmalı, sızma itkiləri az olmalı, kanalın yatağı yuyulmamalı və lillənməməlidir.

Açıq konstruksiyalı torpaq kanallarda həm sızma itkisi, həm də buxarlanma itkisi baş verir. Buxarlanma itkisi əsasən yaz- yay aylarında müşahidə edilir. Buxarlanma itkisini aradan qaldırmaq üçün kanallar qapalı konstruksiyalı şəkildə layihələndirilir.

Açıq konstruksiyalı kanallardan fərqli olaraq, qapalı konstruksiyalı kanallar layihələndirilərkən borulardan istifadə edilir. Bu boru kəmərləri yeraltı və yerüstü formada layihələndirilə bilər. Qapalı suvarma şəbəkəsi açıq suvarma şəbəkəsinə nisbətən daha səmərəli üsul hesab edilir. Çünki bu halda torpaqdan istifadəni 10- 15 %- ə qədər artırmaq mümkün olur . Bununla yanaşı faydalı iş əmsalı yüksəlir, su itkisi xeyli azalır və əmək sərfi azaldılır. Qapalı suvarma şəbəkəsinin çatışmayan cəhəti smeta dəyərinin yuxarı olmasıdır. Belə ki, qapalı konstrukiyalı kanallar layihələndirilərkən basqını yaratmaq üçün mexaniki enerjidən, tikinti zamanı müxtəlif konstruksiyalı borulardan istifadə edilir.

Muxtar respublikamızda su itkilərinə qarşı görülən əsas tədbirlər sisteminə istismar itkisinin aşağı endirilməsi aid edilir.

1.Suvarma zamanı su planlı şəkildə paylanılmalı və suyun artrıq sərf edilməsinə yol verilməməlidir.

2.Qışda və suvarmaya ehtiyac olmayan başqa vaxtlarda kanallarn işləmə müdddəti azaldılmalıdır.

3.Suyun qənaətlə istifadə edilməsinə nəzarət edilməli və suvarma bütün gün aparılmalıdır.

4.Kanalların üzərindəki bütün qurğular hər zaman normal vəziyyətdə saxlanılmalıdır.

5.Kanalda suyun sürətini azaldan hər hansısa səbəb müəyyən edilməli və bu problemlər aradan qaldırılmalıdır. Bunun üçün kanallar alaq otlarından və lildən təmizlənməlidir.

Kanallarda sızma itkilərinin həddindən artıq çox olması həmin torpağın meliorativ vəziyyətinin pisləşməsinə, kanalın xidmət etdiyi sahələrdə su qıtlığının meydana gəlməsinə səbəb olur. Torpağın meliorativ vəziyyətinin pisləşməsi nəticəsində torpaqda bataqlaşma halı baş verir və nəticədə torpağın strukturu pozulur.

Muxtar respublikada kanalların sızma itkilərinin qarşısını almaq üçün əsasən 2 üsuldan istifadə edilir:

1) İstismar tədbirləri
2) Texniki rədbirlər

**İstismar tədbirləri** .

Bu tədbirə əsasən kanal və onun üzərindəki qurğuların müəyyən qaydada istismarı , bu qurğuların vaxtlı – vaxtında təmir edilməsi və kanalların təmizlənməsi aid edilir. Həmçinin kanallar arasında su dövriyəssinin yaradılması və kanaldakı sudan planlı şəkildə istifadə edilməsi su itkisinin müəyyən qədər azalmasına səbəb ola bilər.

**Texniki və yaxud da konstruktiv tədbirlər**.

Texniki tədbir kanallarda sızma itkisinin qarşısının almaq üçün aparılan əsas tədbirlərdən biri hesab edilir. Kanalın yatağındakı qruntu bərkitməklə su itkisinin qarşısını almaq olar. Bərkitmə zamanı qruntun məsamələri azalır, qrunt sıxlaşır və nəticədə sızmanı aşağı salır. Bərkitmənin müddəti 2-4 ildən artıq olmur. Yayda bitki örtüyünün əmələ gəlməsi və qışda isə kanalın yatağının donması bərkitmənin effektivliyini aşağı salır. Kanalların yatağının bərkidilməsində, bərkidilən qatın qalınlığı 0,25- 0.5 m olur.

Sızmanın qarşısını almaq üçün tətbiq edilən üsullardan biri də şorakətləşdirmə üsuludur. Bu

tədbir zamanı kanalın yatağına NaCl xörək duzu daxil edilir. Bu zaman $N_3$ kationu kanaldakı hissəcikləri dispresləşdirir və qruntu şişirdir. Bunun nəticəsində sızma xeyli azalır.

Digər tədbirlərdən biri də muxtar respublikamızda aparılmış kolmatasiya üsuludur. Kolmatasiya zamanı qruntun boşluqları və çatları narın gil hissəcikləri ilə doldurulur. Bu zaman kanala çox kiçik gil hissəcikləri və yaxud da bulanıq su axıdılır.

Kanalın yatağına gil, monolit- beton, asfalt- beton, gil- beton, dəmir- beton və s. kimi örtüklər çəkilməklə kanalların yatağı örtüklərlə örtülür və bu zaman sızma itkisi daha çox aşağı salınır. Bunlardan beton və dəmir - beton örtüklər uzun müddət istismarına, keyfiyyətinə və möhkəmliyinə görə digər örtüklərdən xeyli fərqlənir. Lakin buna baxmayaraq muxtar respublikamızda aparılan tədqiqatlar nəticəsində müəyyən oldu ki, beton üzlüklü suvarma kanallarında da su itkisi olduqca çoxdur. Əsasən bu sızma itkisi keyfiyyətsiz örtük betonu və beton çatlaqlarından meydana gəlir. Çatlaqlar təkcə təzə betonda deyil, həmçinin sərtləşmiş betonda da kimyəvi reaksiyaların təsirindən əmələ gələ bilir. Sızma itkisi kənd təsərrüfatında məhsuldarlığı aşağı salır və duzluluq probleminə səbəb olur.

Son zamanlar muxtar respublikamızda sızma itkisinin qarşısını almaq məqsədilə qalınlığı 0,1 – 0,2 mm olan polietilen pərdələrdən istifadə edilir. Bu pərdələr əsasən fasiləsiz işləyən kanallarda tətbiq edilir. Bunun üçün əvvəlcə polietilen pərdələr kanalın yatağına çəkilir və üzərinə nazik qrunt təbəqəsi əlavə edilir. Kanal örtükləri kimi istifadə edilkən bu pərdələrin istismar müddəti əsasən 2- 3 ildir. Polietilen pərdələr bir kanaldan digərinə köçürülə bilər. Beton və dəmir- beton kanallarda polietilen pərdələr əsasən hidroizolyasiya funksiyasını yerinə yetirir.

## ƏDƏBİYYAT

1. Abdiyev S. Ə., Musayev Z. Ə., Mahmudov T. M., Bağırov S.Y. Hidrotexniki qurğular. Bakı: Maarif 1996.

2. Bağırov Ş. N., Həsənov F. H., Mühəndis suvarma və kollektor-drenaj şəbəkəsinin layihələndirilməsi. Dərs vəsaiti. Bakı: 1999.

3. Qəhrəmanlı Y. V. Mühəndis meliorasiyası . Dərslik “ Tİ- MEDİA” şirkətinin mətbəəsi, 2004.

4. Vəliyev A. H. və Rəsulov T. C. Meliorasiya sistemlərinin tikinti işlərinin texnologiyası və təşkili (metodiki göstəriş). Bakı: 2007.

**GÜNEL QASIMOVA**
*Coğrafiyanın tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*gunelqasimova1994@inbox.ru*

# COĞRAFİYA TƏLİMİ PROSESİNDƏ QİYMƏTLƏNDİRMƏNİN NÖVLƏRİ, ÜSUL VƏ VASİTƏLƏRİ

**Aktuallıq**. Müasir dövrdə şagirdlərin biliklərinin düzgün qiymətləndirilməsi onun hərtərəfli bir insan kimi həyata hazırlanması və formalaşmasının ilkin mənbələrindən biridir. Ona görə də hər bir coğrafiya müəllimi şagirdlərin biliklərinin qiymətləndirilməsi düzgün, real, şəffaf həyata keçirməlidirlər. Ona görə də bu sahədə tədqiqatların aparılması hal hazırda əsas məsələlərdən biri sayılır.

İlk növbədə görək coğrafiyanin təlimi prosesində qiymətləndirmənin mahiyyəti nədən ibarətdir? Onun mahiyyəti təlim prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun obyektiv, etibarlı vasitələrlə ölçülməsidir. Yeni qiymətləndirmə sisteminin tətbiq olunmasında məqsəd tədrisin, təlimin keyfiyyətini yaxşılaşdırmaqdan, tədris prosesinin səmərəliliyini təmin etməkdən və şagird fəaliyyətinin inkişafını izləmək və istiqamətləndirməkdən ibarətdir. Bu baxımdan məqalə aktual bir məsələyə həsr olunubdur.

**Təhlil**.Yeni qiymətləndirmə sistemini ənənəvi metodika ilə müqayisə etdikdə biz yeni təlim metodlarının qiymətləndirilməsinin çoxşaxəli olmasını görürük. Bu əvvala dövrün tələblərindən irəli gəlir, ikincisi isə ənənəvidən fərqli olaraq şagirdin bütün fəaliyyətinin, bilik, bacarıq və vərdişlərin qiymətləndirilməsinə imkan verir. Ənənəvi metodla biz ancaq şagirdin biliyini "5" ballıq sistemlə qiymətləndirirdiksə, yeni təlim metodlarına əsasən şagirdin həm biliyi, həm də bacarıqları qiymətləndirilir. Bu qiymətləndirmə isə bir birindən fərqlənən müxtəlif üsullarla aparılır. Kurikulum islahatlarında 3 qiymətləndirmə nəzərdə tutulur.

1. Beynəlxalq qiymətləndirmə ( PİSA, TİMSS, PİRLS)
2. Milli qiymətləndirmə
3. Məktəbdaxili qiymətləndirmə (3 səh.69)

**Beynəlxalq qiymətləndirmə.** Beynəlxalq qiymətləndirmə müxtəlif ölkələrin 15 yaşlı şagirdlərinin nailiyyətlərinin qiymətləndirilməsidir. Bu qiymətləndirmə ölkə daxilində həyata keçirilən təhsil islahatının vəziyyətinin digər ölkələrlə müqayisə edilməsi üçün şərait yaradır və ölkədə həyata keçirilən təhsil islahatının inkişaf sürəti və əldə edilmiş nailiyyətlər müəyyən edilir. Bildiyimiz kimi Beynəlxalq qiymətləndirmənin 3 növü mövcuddur: PİSA, TİMSS, PİRLS

PİSA - əsasən Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı mənasını verən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ( OECD) tərəfindən aparılır və 15 yaşlı şagirdlərin əldə etdiyi bilik və bacarıqları yoxlanılır və üç ildən bir aparılır, şagirdlərdə Oxu bacarıqları, Riyazi bacarıqlar və təbiət fənləri üzrə əldə etdikləri bilik və bacarıqları yoxlanılır. İlk dəfə dünyada 2000-ci ildə tətbiq olunmağa başlanmışdır.

TİMSS- bu qiymətləndirmə növündə riyaziyyat və təbiət elmləri üzrə əldə edilən bilik və bacarıqlar yoxlanılır. İlk dəfə 1995- ci ildə tətbiq edilmişdir. Bu qiymətləndirmə növü 4 ildən bir aparılır. TİMSS-də əsasən 4-cü və 8-ci sinif şagirdləri iştirak edə bilər.

PİRLS- şagirdlərdə Oxu bacarıqları yoxlanılır, 2000-ci ildə tətbiq edilir və 4-cü sinif şagirdləri arasında keçirilir

**Milli qiymətləndirmə.** Milli qiymətləndirmə təhsil prosesinin təşkili, planlaşdırılması haqqında toplanmış məlumatlar vasitəsilə kurikulumun keyfiyyətini və təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədilə həyata keçirilir. Milli qiymətləndirmənin əsas göstəriciləri ayrı-ayrı regionların, zonaların, rayonların və məktəblərin əldə etdiyi nailiyyətlərdir. Bu qiymətləndirmə növü 4-5–ildən bir keçirilir və IV sinif və IX sinif şagirdləri arasında keçilir.

**Məktəbdaxili qiymətləndirmə.** Məktəbdaxili qiymətləndirmə **ş**agird nailiyyətləri və

irəliləyişlərinin monitorinqi formativ (müntəzəm, davamlı) qiymətləndirmə məqsədləri üçün müəllimlər və məktəb rəhbərləri tərəfindən, məktəb səviyyəsində həyata keçirilir.

Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmə və şagirdlərin sinifdən-sinfə keçirilməsi qaydaları aşağıdakı fərmanlar və qərarlarla təsdiq olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 1 mart 2005 – ci il tarixli, 203 nömrəli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"si; 5 sentyabr 2009-cu il tarixli, 156 nömrəli fərmanı ilə təsdiq olunmuş "Təhsil haqqında Azərbaycan Respublikasının Qanu" nu; Nazirlər Kabinetinin 12 mart 1994-cü il tarixli, 109 nömrəli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası ümumtəhsil məktəbinin nümunəvi Əsasnamə" si; 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" ilə; 13 yanvar 2009-cu il tarixli, 9 nömrəli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın icrasını təmin etmək məqsədi ilə qəbul edilir.

Qiymətləndirmənin nəticələrindən aşağıdakı məqsədlər üçün istifadə edilir.

-Kurikulumu dəyərləndirmək üçün

-Tədris prosesini planlaşdırmaq üçün

-Məktəb, rayon və ölkə səviyyəsində müqayisələr aparmaq üçün

-Təhsilin bir pilləsindən digərinə keçilməsi və təhsil sənədlərinin verilməsi haqqında qərar qəbul etmək üçün,

-Gələcək inkişaf strategiyalarını müəyyənləşdirmək və təhsilin səviyyəsi haqqında ictimaiyyəti məlumatlandırmaq üçün

Təhsil orqanları tərəfindən fənlər üzrə şagird nailiyyətlərinin standartlara uyğunluğunu müəyyən etmək məqsədi ilə kurikulum üzrə aparılan məktəbdaxili qiymətləndirilmələr aşağıdakılardan ibarətdir.

-Diaqnostik ( ilkin səviyyənin qiymətləndirilməs)

-Formativ ( təlimdə şagirdin irəliləmə və geriləmələrinin izlənməsi)

-Summativ ( kiçik, böyük)

**Diaqnostik qiymətləndirmə.** Diaqnostik qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarının ilkin səviyyəsinin müəyyənləşdirilməsinə və bunun əsasında hər bir şagirdin potensial imkanlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. Dərs ilinin, bölmənin əvvəlində, şagird sinfini, məktəbi dəyişdikdə və digər zəruri hallar yarandıqda onun bilik və bacarıqları haqqında məlumat toplamaq məqsədi ilə müəllim tərəfindən aparılır. Digər cəhətdən müəllim keçdiyi bölmədə şagird hansı bilik və bacarıqları qazandığını müəyyən etmək məqsədi ilə bölmədən əvvəl və material keçilib qurtardıqdan sonra diaqnostik qiymətləndirmə aparır və təlim prosesində şagirdin qazandığı biliyin səviyyəsini müəyyən edir. Diaqnostik qiymətləndirmənin nəticələri heç bir rəsmi sənədlərdə qeyd olunmur, nəticələr müəllimin şəxsi qeyd dəftərində saxlanılır, bu haqda valideynlərə, məktəb rəhbərliyinə, sinif müəllimlərinə və s. məlumat verilə bilər. Təcrübəli məktəb rəhbərləri müəllimin tədris prosesindəki fəaliyyətini müəyyən etmək üçün hər hansı bölmənin əvvəlində seçdiyi müəllimin sinfində diaqnostik qiymətləndirmə aparır (yaxşı olar ki, test ilə). Bölmə qurtardıqdan sonra təkrar həmin test üzrə yoxlama aparılır və bölmənin nə səviyyədə mənimsənilməsi müəyyən edilir.(3 səh.71)

**Formativ qiymətləndirmə**-şagirdin qəbul edilmiş standartların reallaşmasına yönəlmiş irəliləmələrini və geriləmələrini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və təhsil alanı istiqamətləndirmək məqsədi ilə aparılır. Formativ qiymətləndirmə vasitəsi ilə müəllim tədris prosesini tənzimləyir, şagird üzərində daim nəzarət edir. Müəllim tərəfindən məzmun standartlarından irəli gələn təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq aparılır. İlkin sənədlərdə nəzərdə tutulurdu ki, bu qiymətləndirmənin nəticələri sinif jurnalında qeyd edilməsin, nəticələr müəllimin şəxsi dəftərində, şagirdlərin gündəliklərində qeyd edilsin və şagird qovluğunda saxlanılsın. Ancaq 2012-2013-cü tədris ilindən həm sinif jurnalları, həm də formativ jurnallar nəşr edilmiş və məktəblərə istifadə üçün göndərilmişdir. Formativ jurnalların

yazılması çox vaxt aparmaqla yanaşı qiymətləndirmənin aparılması üçün meyarların seçilməsi və yazılması böyük problemlərə səbəb olur.

**Summativ qiymətləndirmə**- bu qiymətləndirmə təhsilin hər hansı bir mərhələsində (bəhs, bölmə, yarımillərin sonunda) şagirdlərin nailiyyyətləri yoxlanılır. Kiçik summativ qiymətləndirmə bəhs və ya bölmənin sonunda Böyük summativ qiymətləndirmə isə yarımillərin sonunda keçirilir. Kiçik summativ qiymətləndirmə fənn müəllimi tərəfindən Böyük summativ qiymətləndirmə isə məktəbdə yaradılan komissiya tərəfindən aparılır. Qiymətləndirmə sinif jurnallarında və şagirdlərin məktəbli kitabçasında qeyd olunur.

Qeyd etmək lazımdır ki, seçilmiş standartın içərisində, həm də meyar qiymətin özü verilir. Məs: VI sinfin coğrafiya dərsliyində “3.2.5. Ətraf mühitdə çirklənməyə məruz qalmış ərazilərin fotoalbomunu hazırlayır” standartında şagirdin biliyi ətraf mühitdə çirklənməyə məruz qalmış əraziləri bilməsi, mənimsəməsi onun biliyidir, həmin ərazilərin fotoalbomunu hazırlamasıisə onun bacarığıdır. Formativ jurnalda şagirdin adının qarşısında onun bacarığını, yəni formativ qiymətini “fotoalbomunu hazırlayır” yazırıq. Bu həmin standartın ən yüksək meyar qiymətidir. Zəif bacarığa malik olan qiymətləri isə biz özümüz tərtib edirik. Məs: anlayışı var, tanıyır, təsəvvürü var və s. Formativ jurnalların yazılması çox vaxt apardığından dərsdən səmərəli istifadə prinsipi pozulurdu. (3 səh.72)

**Nəticə.** Qiymətləndirmə sistemləri tədqiq olunarkən bu qənaətə gəlinir ki, bu sistem hələlik tamamlanmamış və tədris prosesində analizlər nəticəsində yeniliklər aşkar edilir və sistem təkmilləşir. İlkin dövrlərdə tətbiq olunan formativ qiymətləndirmə özünü doğrultmadığından 2013-2014-cü tədris ilindən formativ qiymətləndirmə jurnalları ləğv edilmiş, ancaq sinif jurnalları saxlanılmışdır. Bu jurnallarda isə cari qiymətləndirmə yoxdur. Cari qiymətləndirmənin olmaması isə gələcəkdə yeni problemlər yaradacaqdır. Yəqin ki, belə problemlər öz həllini tapacaqdır.

## ƏDƏBİYYAT

1.Alxasov O. Coğrafiyanın tədrisi metodikası. Ali məktəblər üçün dərslik. Bakı: 2013.
2.Azərbaycan Respublikasında Ümumu Təhsilin Konsepsiyası (Milli Kurikulumu).Bakı: 2006.
3. Həsənov Ə. M. Pedaqoji ustalığa aparan yol. Bakı: “Mürtəcim” nəşriyyatı, 2014, 96 s.
4. Nəzər Eldarov.Coğrafiyanın tədrisi metodikası. Bakı: 2008, 190 səh.

**TUQAY ABDULLAYEVA**
*Coğrafiyanın tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universitet*
*tugay444@icloud.com*

# TORPAQLARIN KİMYƏVİ TƏRKİBİ VƏ RADİOAKTİVLİYİNİN ÖYRƏNİLMƏSİ METODİKASI

Torpaq insan həyatında mühüm əhəmiyyət kəsb edən ən mühüm təbii ehtiyatlardan biridir. Torpaq mühitini nəinki torpaqşünaslar öyrənməklə, hətta bütün insanlar onu göz bəbəyi kimi qorumalıdır. Aparılmış torpaq tədqiqatlarının istiqamətindən asılı olmayaraq, bütünlükdə hamısı torpaq mühitinin qorunmasına və münbitliyinin artırılmasına xidmət edir [2].

Bu baxımdan muxtar respublikada torpaqların münbitliyinin artırılması üçün ərazidə müasir metodikalar üzrə ərazidə aparılan tədqiqatlar aktuallıq təşkil edir.

Tədqiqatın əsas məqsədi torpaq sahələrində torpaqların münbitliyinin artırılması üçün onların morfoloji, fiziki və mexaniki xassələrinin öyrənilməsindən ibarətdir.

Tədqiqat obyeki kimi Naxçıvan Muxtar Respublikasının Sədərək və Şərur rayonunu torpaq sahələri götürülmüşdür.

Mövzu yerinə yetirilərkən müstəqillik dövründə ölkəmizdə təhsil haqqında qəbul olunan Yeni islahatlar və Dövlət Proqramına uyğun olaraq uzun müddətli perspektiv planların müddəalarından, coğrafiyanın tədrisi metodikasına, torpaqşünaslığa aid metodikalardan, uyğun ədəbiyyat, çöl, xəritə və internet saytlarından materiallar toplanmışdır [1, 3, 4, 5, 7].

Tədqiqat işində eyni zamanda tarixin ayrı-ayrı inkişaf mərhələlərində xarici ölkələrdə, o cümlədən Azərbaycan və Naxçıvan MR-də coğrafiyanın tədrisi metodikasına aid tədqiqat aparan alimlərin monoqrafiya, metodik vəsait, xəritə materialları və müasir tələblərə cavab verən iş təcrübələrindən istifadə olunmuşdur.

İşin əsas məzmununda seçilmiş torpaq sahələrində torpaqların münbitliyinin artırılması üçün onların kimyəvi tərkibi və radioaktivliyi öyrənilmişdir.

Torpaq mineral, üzvi və üzvi-mineral maddələrdən ibarətdir. Kimyəvi tərkibinə görə o ilkin torpaq əmələgətirə nsüxurdan fərqlənir. Torpağın kimyəvi tərkibinin əsas xüsusiyyətləri tərkibində üzvi maddələrin, spesifik maddənin-humus maddələrinin, ayrı-ayrı element birləşmələrinin olması və onların zaman ərzində dəyişkənliyidir [6]. Torpaqdakı mineral birləşmələrin mənbəyi dağ süxurlarıdır (Cədvəl 1 ).

Cədvəl 1

Litosfer və torpaqlarda kimyəvi elementlərin miqdarı(%-lə)

| Element | Litosfer | Torpaq | Element | Litosfer | Torpaq |
|---|---|---|---|---|---|
| O | 47,2 | 49,0 | Mg | 2,10 | 0,63 |
| Si | 27,6 | 33,0 | C | 0,10 | 2,00 |
| Al | 8,8 | 7,13 | S(kükürd) | 0,09 | 0,085 |
| Fe | 5,1 | 3,80 | P(fosfor) | 0,08 | 0,08 |
| Ca | 3,6 | 1,37 | Cl | 0,045 | 0,01 |
| Na | 2,64 | 0,63 | Mn | 0,09 | 0,085 |
| K | 2,60 | 1,36 | N(azot) | 0,01 | 0,10 |

Ayrı-ayrı kimyəvi elementlərin litosfer və torpaqda miqdarı böyük ölçülərdə dəyişir. Bu dağ süxurlarından yer qabığının bərk qatı litosfer yaranmışdır. Üzvi maddələr torpağa orada yaşayan bitki və heyvanların həyat fəaliyyəti nəticəsindədaxil olur. Mineral və üzvi maddələrin qarşılıqlı təsiri torpağın üzvi-mineral birləşmələrinin mürəkkəbkompleksini yaradır. Mineral hissə torpağın 80-90%-ni və daha çox hissəsini təşkil edir və yalnız orqanogen torpaqlarda bu göstərici 10%-ə qədər aşağı düşür. Torpağın tərkibində bütün məlum kimyəvi elementlər aşkar edilmişdir. Ayrı-ayrı elementlərin

litosferdə vətorpaqda miqdarını göstərən orta rəqəm akademik A.Y.Fersman tərəfindən klark (ilk dəfə 1889-cu ildə yer qabığının orta kimyəvi tərkibini hesablamış Amerika geokimyaçısı F.U.Klarkın şərəfinə) adlandırılmışdır. Torpağın geokimyəvi nöqteyi-nəzərdən öyrənilməsinə 1911-ci ildə akademik V.İ.Vernadskiy tərəfindən başlanmışdır.

Torpaqda kimyəvi elementlər müxtəlif birləşmələr şəklində olur və onlar bitkilər tərəfindən müxtəlif dərəcədə mənimsənilir [6, s. 450-465]. Bitki üçün lazım olan kimyəvi elementlərdən oksigeni, o, üzvi maddələrin və suyun əsas elementlərindən biridir. Silisiumun torpaqda ən geniş yayılmış birləşmələrindən biri kvarsdır ($SiO_2$). Silisium silikatların da tərkibinə daxildir. Alüminium torpaqda ilkin və törəmə mineralların tərkibində üzvi mineral komplekslər formasında və udulmuş vəziyyətdə (turş torpaqlarda) olur. Dəmir bitkinin həyatı üçün zəruri elementdir. Onsuz xlorofilin yaranması mümkün deyildir. Azot bütün zülal maddələrinin tərkibinə daxildir. Torpaqəmələgətirən süxurlarda azot olduqca azdır. Fosfor bir çox üzvi birləşmələrin tərkibinə daxildir. Onsuz canlıların həyat fəaliyyəti mümkün deyildir. Bitki tərəfindən udulmaqla fosfor torpağın üst horizontlarında toplanır. Qara torpaqlarda onun ümumi miqdarı 0,35% təşkil edir.Fosfor torpaqlarda üzvi (fitin və nuklein turşuları, nukleoproteidlər, fosfatidlər və s.) və mineral (kalsium,maqnezium, dəmir və alüminium duzları) birləşmələrin tərkibindədir. Fosfor torpaqda apatitin, fosforitin vəvivianitin tərkibinə daxildir. O, həmçinin udulmuş halda fosfat-anionu şəklində müşahidə olunur. Apatitə birçox maqmatik süxurlarda rast gəlinir və yer qabığındakı fosforun 95%-i təşkil edir

Kalium orqanizmdə əhəmiyyətli fizioloji funksiyaları həyata keçirir. Bitkilər, xüsusən də, kartof, kökyumrular, ot və tütün tərəfindən böyük miqdarda mənimsənilir. Torpaqda kaliumun ($K_2O$) ümumi miqdarı nisbətən yüksəkdir. Ağır qranulometrik tərkibə malik torpaqlarda onun miqdarı 2% və daha çoxdur. Kaliumun yüngül torpaqlarda miqdarı azdır.

Apardığımız tədqiqatlar əsasında Naxçıvan MR-in Sədərək və Şəruru inzibati rayonlarının müxtəlif torpaq tip və yarımtiplərininbir neçə kimyəvi göstəriciləri aşkar olunmuşdur (Cədəl 2).

Cədvəl 2

Tədqiqat obyektində müxtəlif torpaq tip və yarımtiplərinin bir neçə kimyəvi göstəriciləri

| İnzibati rayonlar və torpaqların adı | Kə-sim №-si | Dərin-lik, sm-lə | Hu-mus, %-lə | Ümumi azot, %-lə | $P_2O_5$, mq/kq | $K_2O$, mq/kq | Udulmuş əsasların cəmi (Ca+Mg) mq.ekv 100 q torpaq-da | $CaCO_3$, %-lə | Quru Qalıq %-lə |
|---|---|---|---|---|---|---|---|---|---|
| Sədərək, mədəni boz torpaqlar | 1 | 0-28 | 2,61 | 0,070 | 56,52 | 325,35 | 19,77 | 15,46 | 0,161 |
| | | 28-45 | 2,20 | 0,062 | 54,35 | 303,66 | 20,42 | 17,04 | 0,167 |
| | | 45-60 | 1,74 | 0,056 | 50,00 | 267,51 | 21,05 | 19,13 | 0,207 |
| | | 60-80 | 1,50 | 0,038 | 43,48 | 224,13 | 23,05 | 16,00 | 0,147 |
| | | 80-105 | 1,35 | 0,015 | 41,30 | 201,23 | 19,74 | 13,89 | 0,133 |
| | | 105-130 | 1,20 | 0,005 | 25,71 | 178,34 | 16,92 | 12,58 | 0,162 |
| Sədərək, təbii boz torpaqlar | 2 | 0-28 | 1,98 | 0,056 | 54,35 | 301,25 | 14,57 | 17,04 | 0,187 |
| | | 28-45 | 1,79 | 0,042 | 50,00 | 267,51 | 15,04 | 19,66 | 0,260 |
| | | 45-60 | 1,60 | 0,028 | 47,83 | 247,02 | 16,45 | 22,00 | 0,444 |
| | | 60-80 | 1,45 | 0,018 | 43,48 | 201,24 | 17,39 | 22,80 | 0,422 |
| | | 80-105 | 1,20 | 0,005 | 41,30 | 178,34 | 16,92 | 19,92 | 0,366 |
| | | 105-130 | 1,10 | 0,001 | 24,29 | 168,70 | 18,33 | 18,35 | 0,276 |
| Şərur, mədəni tünd-boz-torpaqlar | 3 | 0-20 | 2,91 | 0,168 | 60,87 | 388,01 | 23,03 | 11,01 | 0,103 |
| | | 20-45 | 2,75 | 0,158 | 52,17 | 361,50 | 22,09 | 11,27 | 0,115 |
| | | 45-70 | 2,61 | 0,138 | 41,30 | 325,35 | 20,42 | 11,79 | 0,112 |
| | | 70-100 | 2,53 | 0,070 | 25,71 | 287,99 | 19,27 | 9,96 | 0,123 |
| | | 100-120 | 2,41 | 0,056 | 21,43 | 267,51 | 19,74 | 9,70 | 0,129 |
| Şərur, təbii tünd-boz-torpaqlar | 4 | 0-25 | 2,66 | 0,128 | 54,35 | 361,50 | 20,83 | 12,58 | 0,110 |
| | | 25-50 | 2,53 | 0,080 | 47,83 | 339,81 | 19,74 | 12,32 | 0,127 |
| | | 50-80 | 2,41 | 0,057 | 43,48 | 303,66 | 22,56 | 10,48 | 0,114 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 80-110 | 2,33 | 0,035 | 25,71 | 287,99 | 16,45 | 10,22 | 0,172 |
| | | 110-130 | 2,15 | 0,015 | 24,29 | 253,05 | 15,51 | 10,74 | 0,174 |

Torpaqların çirkləndirilməsində əsas amillərdən biri də atmosferdə radioaktiv maddələrin toplanmasıdır. Onun mənbələri təbii və antropogen amillərdir. Şünəş şüaları yəni kosmosdan gələn şüalar, qayalar, mədən şüaları, torpaq, su və havadakı radionuklidlərin səpələnən şüaları Yerin təbii radiasiyasını təşkil edir. Belə radionuklidlərə kalium-40 (40K), uran-238 (238U), torium-232 (232Th). radon-219-282 (219-282Rn) və radiumun 226 (226Ra) parçalanma məhsulları aiddir

Ərazidə torpaqların kimyəvi xassələrini və radioaktivliyini öyrənilməklə, kənd təsərrüfatı bitkilərinin əkilməsində göstərilən tədbirlərin həyata keçirilməsi müəyyənləşdirilmişdir. Eyni zamanda torpaqdan səmərəli istifadə etmək üçün onların kimyəvi xassələrini aqrotexniki kimyəvi və bioloji tədbirlərlə dəyişmək olar. Aqrotexniki tədbirlər vasitəsilə (şum, mala, kultivasiya, kətmənləmə və s.) torpağın kipliyini, məsaməliliyini və xüsusi müqavimətini dəyişmək olar.

Kimyəvi tədbirlər vasitəsilə torpağın uducu kompleksinin tərkibini dəyişmək olur ki, bu da torpağın fiziki xassələrinə kəskin təsir göstərir.

Bioloji tədbirlərə bitkilərin növbə ilə əkilməsi, üzvi və mineral gübrələrin verilməsi, mikrobioloji proseslərin tənzimi və s. aiddir. Bu tədbirlərin kompleks tətbiqi torpaqların kimyəvi xassələrini yaxşılaşdırır.

## ƏDƏBİYYAT

1. Alxasov O. Coğrafyanın tədrisi metodikası. Ali məktəblər üçün dərslik. Bakı: 2013. 78 s.
2. Azərbaycan Respublikasının ətraf mühitə dair qanunvericilik toplusu / Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. 2 cilddə, I c., Bakı: El-Aliance, 2002
3. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı. 19 iyun 2009 il.
4. Həsənov Ə. M. Pedaqoji ustalığa aparan yol. Bakı: "Mürtəcim" nəşriyyatı, 2014, 79 s.
5. İsayev Ə. M. Çöl təcrübələrinin aparılması metodikası. Bakı: APİ nəşr, 1968, 78 s.
6. Məmmədov Q.Ş. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı: Elm, 2007, 664 s.
7. Orta məktəblərdə coğrafiya təliminin metodikası, A.J.Bibik və başqalarının redaktəsi ilə (məktəbin metodika kitabxanası), Bakı: "Maarif" nəşriyyatı, 1978, 424 s.

**LEYLA İSALI**
*Coğrafiyanın tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*leylanəcəfli1999@gmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI TORPAQLARININ MÜHAFİZƏSİNƏ DAİR

Torpaq örtüyü təbii landşaftın əsas komponentlərindən biri olmaqla, insan həyatında mühüm rol oynayır. İnsanın çox əsirlik təsərrüfat fəaliyyəti birbaşa torpaq üzərində baş verir və onunla bağlıdır.

Naxçıvan Muxtar Respublikasında mürəkkəb torpaqəmələgəlmə şəraitində müxtəlif torpaq tipləri yaranmışdır. Ərazi torpaqları öz tərkib və yayılmasında relyefin, aşınma materiallarının müxtəlif nisbətdə qarışıqlarının, qrunt sularının, kasıb bitki örtüyünün, kəskin kontinental iqlimin və ən nəhayət antropogenləşmənin təsirini əks etdirir.

Ərazidə torpaqların elmi surətdə öyrənilməsinə 1920-ci ildən sonra başlanılmışdır. 1925-ci ildən başlayaraq professor S.A.Zaxarovun rəhbərliyi ilə 40-dan çox istiqamət üzrə ərazinin üfüqi və şaquli zonalrında bütün torpaq tipləri öyrənilmişdir. 1937-1941-ci illərdə Lebedev şoran torpaqları, 1950-1957-ci illərdə Q. Məmmədov düzənlik və dağətəyi torpaqlar üzərində, 1957-1970-ci illərdə H.Əliyev və Ə.Zeynalov Muxtar Respublikanın torpaqlarını hərtərəfli, 1969-1971-ci illərdə isə R.F.Rzayev torpaq tiplərinin dəyişməsi üzrə tədqiqatlar aparmışlar. Muxtar Respublikanın ərazisində 15 torpaq tipi və növü vardır ki,onların da təsvirində Ə.Zeynalovun materiallarından,onun iri miqyaslı torpaq xəritəsindən istifadə edilmişdir (2, səh. 67).

Aparılmış tədqiqatlarda Naxçıvan MR-də hündürlük qurşaqlarından asılı olaraq torpaqların coğrafi yayılması, torpaqəmələgəlmə prosesinin müxtəlifliyi nəzərə alınaraq ərazi torpaqları təbii zonalar üzrə 4 qrupda (yarımsəhra-friqanoid, çöl-dağ-kserofit, dağ-meşə,və subalp-alp) birləşdirilmiş, düzənlikdən yüksək dağlıq qurşağa qədər yayılan torpaq tip və yarımtipləri öyrənilmişdir.

Bu tədqiqatlarla yanaşı, 1974-80-cı illərdə Naxçıvan Dövlət Universitetitinin əməkdaşlarından Ə.G.Quliyev Naxçıvan MR-in Nehrəm düzənliyində təkrar şoranlaşmaya qarşı mübarizə yollarını, 1980-85-ci illərdə H. D. Mehdiyev Naxçıvan MR-də düzənlik zonası torpaqların mineraloji tərkibini, 1985-92 illərdə S. A. Hacıyev Naxçıvan MR-də torpaqların münbitlik modelini öyrənmişdir.

Naxçıvan Muxtar Respublikasının torpaq fondu 536300 hektar təşkil edir. Apardığımız tədqiqatlara görə bu torpaqlardan 162344 hektarı kənd təsərrüfatına yararlı,14444 hektarı həyatyanı, 2462 hektarı meşə, 1740 hektarı meşə zolağı, park və kolluqlar, 355310 hektarı isə kənd təsərrüfatında istifadə olunmur və ya az istifadə olunan torpaqlardır. Kənd təsərrüfatına yararlı torpaq sahəsinin 51859 hektarı əkin və çoxillik əkinlər, 32 hektarı dincə qoyulmuş, 110453 hektarı isə otlaq, örüş, biçənək təşkil edir. Yuxarıda göstərilən rəqəmlərlə əhali sayının müqayisəsi göstərir ki, muxtar respublikada adam başına cəmi 0,5 hektara yaxın kənd təsərrüfatına yararlı torpaq sahəsi düşür . (3, səh. 11)

Əkinə yararlı torpaqların yüksək keyfiyyətli olmaması, yəni bunun xeyli hissəsinin müxtəlif dərəcədə torpaq eroziyasına, şoranlaşmaya, bəzi yerlərdə təkrar şoranlaşmaya məruz qalmasını, səhralaşma və torpaq-deqradasiyası proseslərini nəzərə alsaq, adambaşına düşən əkinə yararlı torpaq sahələrinin nə qədər az olduğu aydınlaşar. Məhz buna görə də əkinə yararlı torpaqlardan səmərəli istifadə etmək tələb olunur.

Müasir dövürdə səhralaşma torpaqların məhsuldarlığının azalmasına səbəb olaraq qlobal probleme cevrilmişdir. Muxtar Respublikada 355 min hektara yaxın torpaq sahəsi müxtəlif dərəcədə səhralaşma-torpaq deqradasiyasina məruz qalmışdır. Apardığımız araşdırmalar nəticəsində aydın olur ki, səhralaşma bir sıra amillərin təsiri ilə bağlıdır. Bunlardan ən əsası vaxtaşırı təkrarlanan quraqlıq

yəni rütubətin çatışmaması nəticəsində baş verir. Hazırda Naxçıvanda yarımsəhra landşaftının yuxarı sərhəddi 1300-1500metr yüksəklikdən keçir.

Digər tərəfdən səhralaşma prosesi ərazidə təbii ehtiyatlardan kənd təsərrüfatında və sənayedə geniş istifadənin nəticəsində baş verir. Otlaqlardan uzun müddət plansız istifadə olunması, suvarma qaydalarına riayət etmədən sahələrin suvarılması, növbəli əkin sisteminin tətbiq edilməməsi, ərazidə dağ mədən komplekslərindən düzgün istifadə edilməməsi və s. bitki örtüyünün seyrəkləşməsinə, torpaqların yuyulmasına və yararsız hala düşməsinə səbəb olur.

Otlaqlardan sistemsiz istifadə eroziyanı inkişaf etdirən əsas səbəblərdən biri olmaqla yanaşı bitki örtüyünün keyfiyyətini aşağı salır.Yay və qış otlaqlarında sistemsiz otarma səbəbindən bitki örtüyünün dəyişməsi,faydalı yem bitkilərinin yoxa çıxması,torpaq strukturlarının pozulması,zərərli, tikanlı, yeyilməyən alaq otlarının geniş yayılması ilə nəticələnmişdir (3, səh. 30). Belə ki,otarılmış ərazilərdən sistemli istifadə edilərsə növbəti otarmaya qədər bitkinin hündürlüyü 14-16 sm artar. Həddən artıq tapdalanma nəticəsində dağ yamaclarında hər 0,8-1metrdən bir əmələ gələn cığırlar zolaqlar şəkilində torpağı kəsir. Belə cığırlar demək olar ki, muxtar respublikanın yay otlaqları kimi istifadə olunan hər yerində müşahidə olunur. Muxtar Respublikanın ən böyük qış otlaqları (xüsusi ilə Böyükdüz və Kəngərli düzü) yarımsəhra və səhra landşaftının yayıldığı Arazboyu düzənlikdədir. Son illər heyvandarlığın inkişafı, əhalinin yay otlaqlarından yetərincə istifadə etməməsi, qış otlaqlarında səhralaşma prosesini gücləndirən başlıca amilə çevrilmiş, intensiv otarılma nəticəsində münbit torpaqlar deqradasiyaya məruz qalmışdır.

Torpaqların deqradasiyasına təsir göstərən amillərdən biri də torpaqların şoran və şorakətləşməsidir. Şoranlaşma əsasən arid iqlimə malik olan Arazboyu duzənliklərdə qrunt sularının yer səthinə yaxınlaşdığı duzluluq tərkibi 0,6-1,28%-dən yuxarı boz və boz-çəmən torpaqlarda yayılmışdır. Son illərin məlumatlarına əsasən Arazboyu zonada 10 min hektardan artıq torpaq sahəsi şoranlaşmaya məruz qalmışdır.

Aparılmış tədqiqatlardan məlum olur ki,şoranlaşmış sahələrə nisbətən zəif şoranlaşmış sahələrdə bitkilərin məhsuldarlığı 10-20%,orta şoranlaşmış torpaqlarda 20-40%,şiddətli şoranlaşmış sahələrdə isə 65-75%-ə qədər aşağı düşür (7).

Suvarma əkinçiliyi torpağın kənd təsərrüfatında səmərəli istifadə formalarından biridir.Torpaqların həddindən artıq suvarılması onun yuyulmasına münbit qatının yararsız hala düşməsinə səbəb olur. Torpaq münbitliyinin qorunmasında suvarma, drenaj sistemi ilə və eləcə də əkinçilik aqrotexnikası ilə düzgün əlaqələndirilməlidir. Şoranlaşmış sahələrdə münasib növbəli əkin sistemi tətbiq edilməli və ya tarlalar bitkilərin tələbatına uyğun suvarılmalıdır.

Naxçıvan MR-in ərazisinin 68%-i dağlıq və orta dağlıq sahələr tutuduğundan burada şiddətli və orta dərəcədə eroziya prqseslərinə rast gəlinir. Muxtar Respublika ərazisinin təqribən 70%-i eroziya proseslərinə məruz qalmışdır. Bu proseslər Ordubad və Culfa rayonu ərazisində yüksək meyillik və bitki örtüyünün kasıblığı ilə əlaqədar daha çox müşahidə olunur.

Bəzi sahələrdə xüsusilə dağ kəndlərinə yaxın ərazilərdə torpaqların eroziyası mədəni əkinçilik zamanı antropogen amilin təsiri ilə genişlənir. Həmin ərazilər heç bir təbii coğrafi xüsusiyyət nəzərə alınmadan bitkilərin becərilməsi üçün istifadə edilmiş, və bu zaman yüksək meyilli yamaclarda torpaq qatı bütöviüklə yuyulmuşdur. Tivi, Biləv, Ərəfsə, Bist, Ləkətağ, Nurgüt kəndləri ərazilərində belə torpaqlara tez-tez rast gəlinir.

Torpaq eroziyasına qarşı mübarizə aparmaq və bitki örtüyünün məhsuldarlığın yüksəltmək üçün torpaqların düzgün və səmərəli istifadəsi təşkil edilməlidir. Torpaqların eroziyadan mühafizəsinə aşağıdakı eroziya əleyhinə tədbirlər sistemi daxildir: təşkilati təsərrüfat, aqrotexniki, meşəmelorativ və hidrotexniki (6, səh. 237). Bu istiqamətdə əsas tədbir elmi əsaslarla torpaq qoruyucu meşə zolaqlarının salınması, və fitomeliorativ tədbirlərin həyata keçirilməsidir. Onu da qeyd edək ki, Azərbaycan Respublikasında Ekaloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks tədbirlər planının təsdiq edilməsi haqqında ölkə başçısının 28 sentyabr 2006-cı il tarixli müvafiq sərəncamını təmin etmək məqsədi ilə Naxçıvan MR Ali Məclisinin Sədri sərəncam imzalayıb. Sərəncama əsasən ərazidə yaşıllaşdırma və abadlaşdırma işlərində ətraf mühiti mühafizə

məqsədi ilə muxtar respublikada bir cox ərazilərə meşə zolağı salınmışdır. Hazırda ərazidə meşə zolağının sahəsi 292 hektardan artıqdır. Muxtar respublikada yarğanlarda, qobularda, qumlaqlarda eroziyaya qarşı 2005-ci ildə 197,7 hektar sahədə meşə meliorasiya tədbirləri aparılmışdırsa, 2010-11ci illərdə bu rəqəm 522,5 hektar olmuşdur.

Ərazidə dağ mədən komplekslərindən düzgün istifadə edilməməsi karxana və mədənlərin kənarındakı tullantılar, əmələ gələn dərin çökəkliklər torpaqların tənəzzülünə səbəb olmuşdur.

Əhali artımı və məskunlaşması ilə əlaqədar yaşayış məntəqələrinin sahəsi ildən-ilə artmaqdadır.Yer kürəsində əhalin sayı proqnozuna görə 2021ci ildə əhalin sayı 7.5 mlrd. nəfərə çatacaq. Bu da adambaşına düşən əkinə yaralı torpaq sahəsinin azalmasına gətirib çıxaracaq. Təsərrüfat fəaliyyəti nəticəsində təbii əlaqələri pozulmuş və xarici görünüşcə tamam dəyişmiş landşaftlar yaranmış (şəhər və kənd yaşayış məntəqələri, müxtəlif tikinti obyektləri, nəqliyyat magistralları və s.) və bu ərazilərdə kənd təsərrüfatına yararlı torpaqların əkin dövriyyəsindən çıxmasına səbəb olmuşdur.

Torpaqların insan həyatında əhəmiyyətini, son dövrlərdə ölkəmizdə aparılmış iqtisadi islahatlar nəticəsində torpaq üzərində yeni mülkiyyət yaranmasını nəzərə alaraq, torpaq sahiblərinin və istifadəçilərinin ondan məqsədli, təyinata müvafiq sürətdə səmərəli istifadəsinə nəzarət edilməlidir. Bunun üçün həyata keçirilən torpaq islahatları nəticəsində ərazidə ekoloji tarazlığı qorumaq, bitkilərdən yüksək, keyfiyyətli məhsul almaq və torpaqların maksimum dərəcədə səmərəli istifadəsi üçün elmi əsaslarla hazırlanmış tədbirlər planı həyata keçirilməlidir.

## ƏDƏBİYYAT

1.Асадов Н.А. Формирование стока и смыва почвы на различных селъскохозяй- ственных угодях в Нахичеванской АССР. Вестник селъскохозяйственоу науки.№ 1 Баку: 1980,с.19-20.
2.Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 226səh.
3.Hacıyev S.Ə. Naxçıvan Muxtar Respublikası torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı: MBM-2010. 296 səh.
4.Babab əyli.N.S. İmat.F.M. Araz çay sisteminin yuxarı hissəsinin ekocoğrafi şəraiti. Naxçıvan: Əcəmi, 2009.212 səh.
5. Məmmədov Q.Ş. Naxçıvan Muxtar Respublikasının torpaq xəritəsi. Naxçıvan ensiklopediyası. İstanbul: Bakanlar Media, 2005, II hissə, s.104-105.
6.Qərib Məmmədov.Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları.Bakı: 2007, s.382
7.Əzizov.Q.Z. Kür-Araz ovalığının melorasiya olunan torpaq qruntlarının su-duz balansı və onun nəticələrinin elmi təhlili. Bakı: Elm, 2006, s.258.

**AYSUN SÜLEYMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*aysunsuleymanova50@gmail.com*

## AĞIZ BOŞLUĞUNDA HƏZM VƏ ONUN SİNİR-HUMORAL TƏNZİMİ

Ağız boşluğu həzm sisteminin başlanğıc şöbəsidir. Qida ağızda müxtəlif fiziki və kimyəvi dəyişikliyə uğrayır. Qidanın ağıza düşməsində görmə, iybilmə və s. kimi hiss üzvləri böyük əhəmiyyət kəsb edir. Qidaların qəbul olunması insanlarda və heyvanlarda müxtəlif formada olur. Bəzi heyvanlar qidaları dişləri, dodaqları, dilləri, bəziləri isə ön ətraflarının köməyi ilə tuturlar. İnsanlarda isə qida qəbulu prosesində əllər iştirak edir.

Ağız boşluğunun girişi dodaqlarla məhdudlaşır. Dodaqların səthi sinir sonluqları və qan damarları ilə zəngin olur. Qida ağız boşluğuna düşdükdən sonra dişlər vasitəsilə kəsilir, parçalanır və üyüdülür. Tüpürcək vasitəsilə isladılmış qida sürüşkən loxma halını alır. Qida 15-18 saniyə ağızda qalır [2]. Sonra həmin qida dilin kökünə tərəf itələnir və udulur. Bu zaman qida ağız boşluundan udlağa ötürülür.

Ağızın selikli qişasında çoxlu miqdarda kiçik vəzilər yerləşir. Həmçinin 3 cüt iri ağız suyu vəzisinin (dilaltı, qulaqyanı və çənəaltı) də axarı ağız boşluğuna açılır. Rüşeymin 5-6 həftəliyindən qulaqyanı və çənəaltı ağız suyu vəzilərinin inkişafı, 7-8 həftəliyindən isə dilaltı ağız suyu vəzinin inkişafı başlayır. 3-cü aydan etibarən kiçik ağız suyu vəziləri inkişaf edir. Bu vəzilər sutka ərzində 0,5-2 l ağız suyu ifraz edir. Fiziki iş, gecə yuxuları və yeməkarası fasilə zamanı ağız suyunun ifrazı azalır, qatılığı isə artır. Ağız suyunun tərkibində amilaza (ptialin) və maltaza fermentləri olur. Ptialin fermenti nişastanı maltozaya, maltaza fermenti isə maltozanı (disaxarid) qlükozaya qədər parçalayır. Bu fermentlər sadəcə neytral mühitdə - ağızda təsir edir, turş mədə şirəsində sönür. Ağız şirəsində bakteriosid təsir göstərərək bakteriyaları məhv edən və yaraları sağaldan lizosim maddəsi aşkar edilir. Ağızda selikli qişanın ifraz etdiyi mutsin maddəsi isə qidanı yapışqan və sürüşkən hala gətirir. Ağızın selikli qişasında insanın müxtəlif dadları, temperaturu və toxunmanı fərqləndirməsinə xidmət edən reseptorlar yerləşir. Həmin reseptorların funksiyası nəticəsində ağız suyu vəzilərinin reflektor şirə ifrazı mexanizmi təmin olunur. Reflektor şirə ifrazı şərtsiz və şərti yollarla hasil edilir [1]. Qida hissəcikləri qəbul edilən zaman oyanma impulsları yaranır və bu impulslar hissi sinir yolu vasitəsilə uzunsov beyində yerləşən ağız suyu ifrazı mərkəzinə gətirilir. Buradan hərəki sinirlər vasitəsilə ağız suyu vəzilərinə ötürülən impulslar onların şərtsiz reflektor fəaliyyətinə səbəb olur. Bununla yanaşı qidanın iyinə, görünüşünə görə də ağız suyu vəziləri şirə ifraz edir ki, bu da şərti ağız suyu ifrazına aiddir. Ağız suyunun tərkibində olan fermentlər sadəcə karbohidratlara kimyəvi təsir göstərir.

**Çeynəmə**

Çeynəmə aktı reflektor hadisə olub, qidanın kəsilməsi, xırdalanması üçün gərəkli olan mexaniki proseslərin məcmusudur. Çeynəmə aktı beyin qabığının başçılığı altında nizamlanır. Bu zaman alt çənə mürəkkəb hərəkətlər yerinə yetirir, yuxarı qalxaraq üst çənəyə yaxınlaşır. Bunun sayəsində alt və üst çənə dişləri bir-biriləri ilə birləşib qidanı kəsir, parçalayır və üyüdür. Qidanın kəsilməsi əsasən ön dişlərin hesabına baş verir. Bu vaxt premolyar və molyar dişlər fumesiya yerinə yetirmirlər. Qida kəsildikdən sonra dilin ucunun və dodaqların köməyi ilə sağ və sol azı dişlərinə ötürülür. Sonra yanaq əzələsi sıxılır və yanaq cibinin divarını yaradır. Yanaq əzələsinin funksiyası yanaq cibini əmələ gətirməklə yanaşı qidanı dişlərin üzərinə qaytarmaqdır. Qida xırdalandıqdan sonra ağız dəhlizindəki yanaq ciblərinə daxil olub, yanaq və dodaq əzələlərinin yığılması nəticəsində dişlərin üzərinə qaytarılır. Qidanın ağız suyu ilə isladılması onun xırdalanması və üyüdülməsi ilə eyni anda baş verir. Ağız suyunun tərkibində olan mutsin qidanı sürüşkənləşdirir və bu da udulmanı asanlaşdırır. Hər bir qidanın xırdalanma dərəcəsi ağız boşluğunun selikli qişasında yerləşən reseptorlar vasitəsilə tənzim olunur. Bunun nəticəsində qidaların seçilməsi baş verir: iri qida hissəcikləri xırdalanmaq üçün dişlərə ötürülür, yad cisimlər (kiçik sümüklər, çəyirdək və s.) dilin köməyilə kənarlaşdırılır.

Alt çənənin çeynəmə hərəkətlərində əsas və köməkçi hərəkətlər ayırd edilir. Əsas çeynəmə hərəkətlərinə bilavasitə qidaların xırdalanması üçün yerinə yetirilən hərəkətlər aiddir. Hər hansı bir qidanın çeynənilməsi alt çənənin nisbi hərəkətlər kompleksi sayəsində mümkündür. Çeynəmə prosesi bitdikdə alt çənə əvvəlki sakitlik vəziyyətinə geri qayıdır.

**Tüpürcək vəziləri**

Ağız boşluğunda yerləşən vəzilər 2 qrupa ayrılır: kiçik və böyük tüpürcək vəziləri. Kiçik tüpürcək vəziləri damaqda, dodaqlarda, yanaqlarda və dilin selikli qişasında yerləşir. Bu vəzilər ağızı nəm saxlamaq üçün daima selik ifraz edirlər. Böyük tüpürcək vəzilərinə qulaqdibi, dilaltı və çənəaltı vəzilər aiddir. Hər bir tüpürcək vəzisi selik və seroz hüceyrələrindən təşkil olunmuşdur. Qulaqaltı vəzilərin ifraz etdiyi tüpürcəyin tərkibində fermentlərə və zülallara rast gəlinir. Dilaltı vəzilər qarışıq vəzilərdir. Onların ifraz etdikləri tüpürcəyin tərkibində selik və seroz maddələri olur. Duzlarla zəngindir. Çənəaltı vəzilərin hazırladıqları tüpürcəyin tərkibində selik və mutsin maddələrinə təsadüf edilir. Bu vəzilər duzlar və fermentlərdən məhrumdurlar. Çənəaltı və dilaltı vəzilərin ayrı-ayrı axarları vardır, lakin hər ikisi eyni yerdən dilaltı məməciyə açılır. Tüpürcək vəzilərinin fəaliyyətini və tüpürcəyin tərkibini öyrənmək üçün bir çox üsullar mövcuddur. Bu üsullardan ən dəqiq və təkmilləşmiş müasir üsul İ.P.Pavlovun klassik fistula üsuludur. İnsanlarda isə tüpürcək vəzilərinin fəaliyyətini müəyyən etmək üçün Krasnoqorskinin “leşli kapuslu” adlanan fistulasından istifadə edilir. Bu fistula təxminən 2 qəpiklik ölçüsündə olub, xarici və daxili kameralardan təşkil olunmuşdur. Ağıza daxil olan qidaların müxtəlifliyindən asılı olaraq tüpürcəyin kəmiyyət və keyfiyyət tərkibi dəyişir. Eyni zamanda tərkibindən asılı olaraq tüpürcəyin rəngi də müxtəlif olur. Belə ki, duru tüpürcək rəngsiz, qatı tüpürcək nisbətən bulanıq olur. Tüpürcəyin qatı və ya duru olması onun tərkibində zülalın, xüsusilə də mutsinin miqdarından asılıdır. Tüpürcəyin tərkibində mutsinlə yanaşı qlobalin zülalı, amin turşuları, sidik turşusu, sidik cövhəri, kriatin və qeyri-üzvi maddələrə rast gəlinir. Onun qeyri-üzvi tərkibi fosfatlardan, xloridlərdən və karbonatlardan təşkil olunub.

Tüpürcəyin ifrazı reflektor mexanizmlə başlayır. Ağıza düşən maddələrin təsiri ilə ağızın selikli qişasında yerləşən reseptorlar qıcıqlanır, nəticədə əmələ gələn oyanmalar sinir mərkəzlərinə ötürülərək tüpürcək vəzilərini oyadır və tüpürcək ifraz olunur. Qəbul edilən qidaların qıcıqlandırma qüvvəsindən asılı olaraq tüpürcəyin müxtəlif ifraz olunma müddəti olur. Qidanın qəbul olunması ilə tüpürcək ifrazı arasındakı qısa vaxt latent və ya refraktor dövr adlanır [4] . Tüpürcək ifrazı mərkəzi uzunsov beyində üz və dil-udlaq sinirlərinin nüvələrində yerləşir. Dilin səthində reseptorların qıcıqlanması zamanı oyanmalar üçlü sinir və dil-udlaq sinir şaxələri vasitəsilə mərkəzə ötürülür. B.P.Babkin belə hesab edir ki, uzunsov beyində yerləşən tüpürcək mərkəzi simpatik və parasimpatik şöbələrə bölünür. Tüpürcək vəziləri müvafiq sinirlərlə innervasiya olunur ki, bu sinirlər sekretor sinirlər adlanır. Tüpürcək ifrazına simpatik sinirlərin təsiri tormozlayıcı, parasimpatik sinirlərin təsiri isə oyadıcıdır.

Beyin qabığının orqanizmin bütün üzvlərinə təsir edərək onların fəaliyyətini dəyişdirdiyi kimi, tüpürcək vəzilərinin də fəaliyyətinə təsir etdiyi İ.P.Pavlov və əməkdaşları tərəfindən öyrənilmişdir.

**Udma**

Udma reflektor hadisə olub, dilin kökündən başlayır. Udma mərkəzi uzunsov beyində, tənəffüs mərkəzlərindən yuxarıda, IV mədəciyin dibində yerləşir [3]. Bu prosesdə dilin çox böyük əhəmiyyəti vardır. Dil öz hərəkəti ilə qidaları dişlərin arasına ötürür, çeynənilmiş qidanı ağız boşluğunda çevirir və qudanın udulmasına xidmət edir. Ağızda qida və ya tüpürcək olmadığı zaman udma baş verir. Udma hərəkətləri bir neçə dəfə ardıcıl təkrar olunarsa əvvəlcə asan olur, sonra çətinləşir, 3-4 dəfə təkrar olunduqdan sonra mümkün olmur.

Udma mərkəzi uzunsov beyində yerləşən tənəffüs mərkəzi, ürək fəaliyyəti mərkəzi və s. ilə əlaqəli olur. Bu əlaqələr udma aktı zamanı tənəffüsün qısa müddətli dayanması, ürək fəaliyyətinin artması kimi hallarla özünü biruzə verir.

Çeynəmə hərəkətləri zamanı həzm yolunun hissələri arasında reflektor əlaqələr nəticəsində mədənin saya əzələlərinin reflektor tonik yığılması, udma zamanı isə bu əzələlərin tonusunun azalması baş verir.

## ƏDƏBİYYAT

1.A.Məmmədov. Tibbi biliklərin əsasları. Bakı: “Təknur” nəşriyyatı, 2012
2.Ə.H.Əliyev., A.Y.Baxşalıyev., Ş.A.Məhərrəmov., F.Ə.Əliyev. Qidalanma və həzm fiziologiyası
3.Ə.H.Əliyev., F.Ə.Əliyeva., V.M.Mədətova. İnsan və heyvan fiziologiyası. “Bakı Universiteti” nəşriyyatı, 2007 H.I, 2008 H.II
4.T.D.Qayibov., Q.Ə.Hüseynov., K.C.Hacıyev., Ş.A.Məhərrəmov. İnsan anatomiyası və fiziologiyası. Bakı: 1973

**ZÜLEYXA QULİYEVA**
*İnsan və heyvan fiziologiyası*
*Naxçıvan Dövlət Universiteti*

# İNTERORESEPTORLARIN TƏDQİQİNƏ DAİR

Reseptor (latınca-qəbuledici) biologiyada iki mənaya malikdir. Birinci mənada reseptorlar mürəkkəb törəmə olub və hissi sinir dentritlərinin terminallarından (sinir uclarından), qliyalardan, hüceyrəarası maddənin xüsusi törəmələrindən və digər toxumaların xüsusi hüceyrələrindən ibarətdir və bütün bunlar kompleks halda xarici və daxili mühit amillərinin (qıcıqlarının) sinir impulslarına çevrilməsini və onların mərkəzi sinir sisteminə ötürülməsini təmin edir.
Reseptorlar bədəndə yerləşmələrinə, tutduğu vəziyyətə görə 2 böyük qrupa bölünürlər.

1. Xarici reseptorlar-eksteroreseptorlar
2. Daxili reseptorlar-interoreseptorlar

Xarici ekstroreseptorlara gözün, daxili qulağın, burunun dilin, dərinin reseptorları aid edilir.

İ.P.Pavlov xarici və daxili aləmdə qıcıqlandırıcıların təsiri ilə baş verən və onları oyanmalara çevirərək mərkəzi sinir sistemində analiz edən bu sinir törəmələrinə analizatorlar adı vermişdir. Pavlovun təbirincə desək analizatorlar mürəkkəb fizioloji aparatdır. Buraya reseptorlar, reseptorlar da oyanmaları nəql edən hissi sinirlər və bu oyanmaları analiz edən baş beyin qabığının müəyyən nahiyələri aiddir. İnsan və heyvan orqanizmində qoxu, dad, dəri, görmə, eşitmə, müvazinət daxili və s. analizatorlar mövcuddur.

Eksteroreseptorlar bədəndə yerləşən reseptorların daha geniş şöbəsini təşkil edir. Eksteroreseptorların ən geniş yayılmış forması da dəri resepsiyasıdır. Həmçinin müxtəlif qıcıqları qəbul etmək qabiliyyətinə görə onlarda müxtəlif formalarda olurlar.

Mexanoreseptorlar hissiyatın ən qədim formalarından olub heyvan və insan orqanizmində geniş yayılmışdır. Bədənin xarici və daxili mühiti ilə əlaqədardır. Lakin ən çox dəridə yayılmışlar və xarici aləmin mexaniki təsirini əks etdirməklə böyük əhəmiyyəti kəsb edirlər.

Mexanoreseptorlar əsasən dərinin səthi təbəqələrində yerləşir və insanda 500000-yaxındır. Bu reseptorlar dəridə qeyri-bərabər yayılmışdır. Əl barmaqlarının uclarında, dodaqlarda daha sıxdır. Dəridə yerləşən reseptorlar çoxdur və onlar bir-birindən öz xassələrinə görə fərqlənirlər. Bunu nəzərə alaraq dəri mexanoreseptorlarını toxunma, təzyiq və b. reseptorlara bölürlər.

Dəri reseptorlarının başqa bir formasıda termoreseptorlardır. Orqanizmin normal həyat fəaliyyəti, onun mühitə uyğunlaşması üçün ətraf mühitin temperaturu haqqında, bu reseptorlar vasitəsilə məlumat alırlar. Termoreseptorlar vasitəsilə orqanizm isti və soyuğu hiss edir. İnsan orqanizmində soyuğa həssas reseptorlar 25-30 min olduğu halda, istiliyə həssas reseptorlar ondan 10 dəfəyə qədər çoxdur. Qeyd etmək lazımdır ki, dəridə olan reseptorların həssaslığı çox yüksəkdir. Onlar yüksək adaptasiya qabiliyyətinə malikdirlər [2].

Eksteroreseptorların bir növü də qoxu və dad reseptorudur. Onların fəaliyyəti sayəsində orqanizm xarici həm də daxili müxtəlif kimyəvi qıcıqlarına qarşı reaksiyalar verirlər.

İnsanda qoxu reseptorları burun boşluğunun, yuxarı hissəsinin divarlarını örtən epitel qişasında yerləşmişdir. İnsanda bu qabiliyyətə malik reseptorların sayı 60 milyona qədərdir. Bunların sayəsində insan minlərlə maddənin iyini fərqləndirə bilir. Müxtəlif iyli maddələrin qoxusunu qəbul edir, hissi sinirlə qoxu mərkəzinə və beyin qabığının qoxu zonasına ötürür. Beləliklə hissiyat kimi qəbul edilir.

Dad reseptorları da ixtisaslaşmış hüceyrələr olub, ağız boşluğunun divarlarında xüsusilə dilin müxtəlif nahiyələrində yerləşmişdir. İnsanda dad hüceyrələri qrup halında yığışaraq dad soğanaqlarının əmələ gətirir ki, onlarında hüceyrələrinin ümumi sayı 10 milyona qədərdir.

İnsanda əsas etibarilə şirini, turşunu, acını və şorluğu qəbul edən dad reseptorları vardır. Qeyd etmək lazımdır ki, dad reseptorlarının həssaslıq dərəcəsi müxtəlifdir və ən yüksək həssaslığa acılıq reseptorları malikdir. Dad reseptorların xüsusilə insanların həyatında mühüm əhəmiyyəti vardır. Belə

ki, dad hissiləri vasitəsilə qida və qeyri qida məhsullarını bir-birindən ayırır, maddələrin keyfiyyətini yoxlamaqla əlverişlisini qəbul edir. Eksteroseptorlarının heyvanların təkamül prosesi nəticəsində ən çox inkişaf etmiş forması eşitmə və görmə reseptorlarıdır.

Heyvanların təkamül prosesində ayrı-ayrı heyvanlarda müxtəlif quruluşlu səs qəbuledici cihazları formalaşıb. Məməlilərdə, o cümlədən insanda mürəkkəb quruluşlu eşitmə aparatı əmələ gəlmişdir. Başqa sözlə desək qulaq vasitəsilə heyvanlar və insanlar ətraf mühitdəki səsləri daha mükəmməl qəbul edirlər.

Səs qıcığı eşitmə reseptorları vasitəsilə səs qəbul edici reseptor aparatı funksiyasını daxili qulaqda yerləşən korti üzvü yerinə yetirir. Eşitmə reseptorları səs dalğalarını mexaniki qıcıqlanmasından oyanır. Burada eşitmə reseptorlarının mexanoreseptorları iştirak edir. Səsin qavranması onun 3 mühüm xassəsinə əsaslanır: Səsin tembirinə, tonuna və istiqamətinə.Səslərin ampmetudası nə qədər yüksək olarsa müəyyən həddə qədər eşitmə qabiliyyəti də artıq olur.

Eşitmə üzvünün reseptorları tərəfindən müəyyən hədd daxilində qəbul edilən səslər baş beyin qabığının müəyyən nahiyyəsində analiz olunduqdan sonra hissiyyat kimi qəbul edilir.Məməli heyvanlarda və insanlarda təkamül prosesində mürəkkəb görmə aparatı-göz formalaşmışdır.

İnsan göz vasitəsilə xarici aləmi tam mənası ilə dərk edir. Görmənin başlanğıcı gözün torlu qişasındakı eksteroreseptorlarının bir növü olan görmə reseptorlarından başlayır və baş beyin qabığının görmə nahiyyəsində başa çatır. Gözün torlu qişasındakı kolbacıq və çöpcük hüceyrələri fotoreseptor funksiyasını görür. İnsan gözündə 130 milyona yaxın çöpcük və 7 milyona yaxın kolbacıq hüceyrəsi vardır.

Gözün torlu qişasında baş verən fotoreseptor proseslər hissiyatı ilə nəticələnir. Xarici aləmdən baş beyinə daxil olan siqnalların əksəriyyətini görmə siqnalları təşkil edir. Bu siqnallar bizi əhatə edən maddi aləmin cisimləri, onların ən müxtəlif parametrləri haqqında məlumat verir.

Müasir təsəvvürlərə görə, gözün tor təbəqəsinin kolbacıq fotoreseptorları arasında görmə piqmentləri ilə fərqlənən üç tip hüceyrələr mövcuddur. Onlardan görmə lifləri daxil olur ki, bu liflərin hər bir qrupu görmənin mərkəzi orqanlarına müxtəlif tip rəng siqnallarını ötürür.

İnteroreseptorlar, reseptorların daxili üzvlərdə yerləşən geniş yayılmış formalarındandır. Keçən əsrin əvvəllərindən başlayaraq xarici üzvlərdə olduğu kimi, daxili üzvlərdə də reseptorların olması ideyası irəli sürülmüşdür. İnteroreseptorların kəşfi ilə əlaqədar A.E.Smirnov, V.M.Bexterev, S.E.Mixaylov və b. böyük xidməti olmuşdur. Sonralar bu barədə təsəvvürlər daha da genişlənmiş bütün daxili üzvlərin divarlarında reseptorların yerləşdiyi təsdiq olmuşdur.

İnteroreseptorlar quruluş cəhətdən üzvlərdə yerləşən ekstroreseptorlardan kəskin fərqlənmirlər və demək olar ki, dəridə olan reseptorlarla eyniyyət təşkil edirlər. Mədə-bağırsaq sistemi, tənəffüs yolları, qan damarlarının divarları, həmçinin ürək, böyrəklər daxili sekresiya vəzilərinin divarları və s. interoreseptorlarla zəngindir. İnteroreseptorlara təsir edən qıcıq müxtəlifliyinə görə onlar ekstroreseptorlarda olduğu kimi onlar mexanoreseptorlara, xemoreseptorlara, baroreseptorlara və s. ayrılırlar. Bu reseptorlarda öz növbəsində mexaniki, kimyəvi qıcıq təsirinə, təzyiqin dəyişməsi nəticəsində oyanırlar.

İnteroreseptorların heyvan və insan orqanizmində mühüm əhəmiyyəti vardır. İlk növbədə onlar orqanizmin nisbi sabitliyinin qorunub saxlanmasında iştirak edirlər. Beləki, orqanizmin nisbi sabitliyi və hemeostas reflektor olaraq özünü tənzimləmə mexanizmi sayəsində qorunub saxlanılır ki, burada da interoreseptorların rolu danılmazdır. Daxili üzvlərin fəaliyyətində baş verən dəyişikliklər interoreseptorların vasitəsilə baş beyin qabığına çatdırılır ki, bunlarsız daxili mühitdə gedən proseslərin nizamlanması qeyri mümkündür [1, 3] .

Orqanizmdə xüsusilə ürək-damar, tənəffüs sistemi və endokrin vəzilərin fəaliyyətində baş verən dəyişikliklərin nizamlanmasında interoreseptorların xüsusi yeri vardır.

Qeyd etmək lazımdır ki, orqanizmin normal fəaliyyəti zamanı daxili üzvlərin fəaliyyətində baş verən dəyişikliklər hiss olunmur. Bu o deməkdir ki, sağlam adam daxili orqanlardakı impulsları hiss etmir. Lakin daxili orqanların qıcıqlanmaları fizioloji həddi keçdikdə və ağrı qıcıqlarına çevrildikdə hiss olunur. Bu zaman interoreseptorlardan nəql olunan impulslar mərkəzi sinir

sisteminin funksional fəaliyyətinə təsir göstərir və onu dəyişdirir.

Aparılan tədqiqatlarla müəyyən olunmuşdur ki, beyin yarımkürələrinin qabığı ilə daxili orqanların fəaliyyəti arasında asılılıq vardır. Bunu məşhur rus fizioloqu V.N.Çerniqovski öz təcrübələri ilə sübut etmişdir. Rus fizioloqu K.M.Bıkov müxtəlif interoseptiv sahələrdən şərtsiz reflekslər yaratmağın mümkünlüyünü qeyd etmişdir. Məşhur Azərbaycan fizioloqu A.İ.Qarayev və onun əməkdaşları interseptik mübadilə reflekslərinin mexanizminin öyrənilməsində prioritet qazanmışdır [4].

Reseptorların vətərlər, oynaqlarda, bağlarda və sümük uclarında yerləşən xüsusi növü də vardır ki, bunlar proprioreseptorlar adlanır. Bu reseptorlar mexanoreseptorların xüsusi bir forması kimi meydana çıxmışdır. Proprioreseptorlar hissiyyatı və geniş yayılmış növlərindəndir. Bunlar vasitəsilə bədənin və onun hissələrinin məkanda vəziyyəti, hərəkətləri və bu zaman baş verən əzələ gərilmələri haqqında mərkəzi sinir sistemi məlumat alır. Mərkəzi sinir sistemi bu siqnalları qəbul edir və onları təhlil edir. Məhz bu siqnallar nəticəsində beyincik əzələlərin tonusunu və aktivliyinin necə əlaqələndirdiyini həyata keçirir. Bununla da beyin yarımkürələrinin qabığı və bir sıra qabıqaltı nüvələr orqanizmin hərəki fəaliyyətini həyata keçirir.

Proprioreseptorlardan gələn siqnallar nəticəsində insan və heyvanlarda məkan hissi, məkanda orqanizmin fəaliyyəti haqqında məlumat toplanır. Proprioreseptorların orqanizm üçün böyük əhəmiyyəti vardır. Ona görə də proprioreseptiv hissiyatın pozulması nəticəsində insan öz hərəkətlərinə və məkanda vəziyyətinə nəzarət edə bilmir. Xüsusilə daxili aləmdə baş verən hadisələri hiss edə bilmir. Belə vəziyyətdə xəstələrdə bədənin hiss etmə qabiliyyəti pozula bilər.

## ƏDƏBİYYAT


1. Меликова Т.Г. Интероцептивных обменные рефлексы и коры головного мозга.x съезд физиологического обва им.И.Н.Павлова, Баку:1964
2. Фундаментальная и клиническая физиология: Учебник для студентов высших учебных заведений / ред. Камкин А.Г., Каменский А.А.. М.: Издательский центар «Академия», 2004, 1072 c.
3. Bijesh, S., Jyoti Singh, and H. P. Singh, Latency intervals of Moro response: A valuable neuro-screening tool. Indian pediatrics 2013, 50.7: 705- 706
4. Ertekin C, Bademkiran F, Yalin S, Karapinar N, Uysal H. Withdrawal reflexes in adductor muscles elicited by electrical and magnetic stimulation of the obturator nerve. Muscle Nerve. 2008, Nov;38(5):1490

**LAMİYƏ SEYİDOVA**
*AMEA Botanika İnstitutu*

## ŞƏRUR RAYONU FLORASININ ETNOBOTANİKİ TƏDQİQİNƏ DAİR

İnsan cəmiyyəti yarandığı vaxtdan yabanı floradan istifadə etməyə başlamışdır. Əkinçiliklə məşğul olana qədər insanlar təbiətin onlara bəxş etdiyi nemətlərlə qidalanmışlar. Daha soralar insanlar bitkiləri becərməyə başlamışdürlar. İnsan qidalarının əksəriyyətini bitkilər verdiyindən, onlar yarandıqları dövrdən bitkiçiliklə məşğul olmağa başlayıblar. İnsanın çoxəsrlik təsərrüfat fəaliyyəti prosesi nəticəsində o, ətraf təbiətdən çoxlu xeyirli bitki növlərini seçib becərmiş və qoruyub saxlamışdır. Bu bitkilərdən həyat üçün ən vaciblərini insan öz yaşayış yerinin yaxınlığında sistematik becərməklə bu günə kimi gətirib çıxarmışdır. Bitkilərin becərilmə üsulları milyon illərdir ki, təkmilləşdirilir və indi də davam etdirilir. Hətta onların bəziləri hazırda da yabanı halda bitir.

*Etnobotaniki tədqiqatlatları Şərur rayonunda aparmışıq. Bu məqsədlə payonon müxtəlif ərazilərinə ekspedisiyalar etmişik.* Çiçəkli bitkilərin ilk vətənlərindən biri olan Şərur zonasının etnobioloji aspektləri çox qədim dövrlərə söykənir. Buna görə də tərəfimizdən Şərur rayonu florasının etnobotaniki tədqiqinin aparılması aktuallaşmışdır. Qarşıda duran problemin tədqiqinin aktuallığı onunla təyin olunur ki, sosial-iqtisadi və mədəni islahatlar nəticəsində xalq təbabəti üsulları xeyli dəyişikliklərə uğrayıb. Təbabətlə əlaqəli bir sıra ənənəvi metodlar vaxtında qeydə alınmasa, onlar itirilib elm üçün aşkarlanmamış qala bilər. Xalqımızın əsrlər boyu yaratdığı bu milli etnik bioloji sərvətləri ümumiləşdirərək elmi araşdırmalar əsasında toplamaq və gələcək nəslə çatdırmaq böyük əhəmiyyət kəsb edir [5].

Şərur rayonu Naxçıvan Muxtar Respublikasının ən qədim və ən iri yaşayış məskənlərindən biridir. Şərurun əlverişli təbii coğrafi mövqeyi insanların burada qədim zamanlardan məskən salmasına şərait yaratmışdır. Tədqiqatlar göstərmişdir ki, bu bölgədə insanlar hələ son buzlaşma dövründən məskunlaşmışdır. Gur sulu çaylara, münbit torpaqlara malik olan Şərurun ərazisi xüsusilə əkinçilik mədəniyyətinin inkişafı üçün əlverişli olmuşdur.

Hələ eramızdan əvvəl Şərurda insanların məskunlaşdığı tarixi araşdırmalarla müəyyən edilmişdir. 1300 il bundan əvvəlki dövrlərə aid olan “Kitabi-Dədə Qorqud” dastanlarında “Şərik” kimi xatırlanan Şərur inzibati ərazisindəki qazıntılar zamanı Eneolit, Tunc dövrlərinə, Antik dövrə, orta əsrlərə aid yaşayış yerləri və qəbir abidələri aşkar edilmişdir. Rayon ərazisindəki “Qaratəpə” dağında olan və 40 hektar sahəni əhatə edən "Oğlanqala” yaşayış məskəninin tarixi e. ə. II-I minilliklərə aiddir. Şərurda qədim insanların əmək fəaliyyətini və həyat tərzini əks etdirən maddi-mədəniyyət abidələri ilə zəngin xeyli arxeoloji abidələr və yaşayış məskənləri mövcuddur. Bunlar qədim yaşayış yerləri, qalalar, qəbiristanlıqlar, kurqanlar və memarlıq abidələrindən ibarətdir. 1987-1990-cı illərdə Daş dövrünə (Mustye) aid qazma mağarasından maddi-mədəniyyət qalıqları, o cümlədən çaxmaqdaşı və dəvəgözündən hazırlanmış xeyli əmək aləti aşkara çıxarılmışdır. Orta Tunc dövrünün abidələri, əsasən Araz çayı, Arpaçay və onların qolları üstündə aşkar edilmişdir (Şortəpə, Xələc dağı, Kültəpə, Cənnətqaya və s.).

Eramızdan əvvəl II minilliyin sonu I minilliyin əvvəllərində Şərur ərazisində Xocalı-Gədəbəy mədəniyyətinin (son Tunc-ilk Dəmir dövrləri) keramikası ilə seçilən abidələr yayılmışdır. Eramızdan əvvəl I minilliyin birinci yarısına aid abidələrin tədqiqi bu əraziyə xarici işğalçıların, xüsusilə Urartu basqınlarının artdığını göstərir. Bölgədə Oğlanqala, Govurqala, Qarasu qalası kimi müdafiə istehkamları inşa edilmişdir. Qədim Şərur ərazisi Küp qəbirlərlə zəngindir. Eramızın I-IV əsrlərində bölgədə quyu qəbirlərlə xarakterizə olunan arxeoloji mədəniyyətin yayılması xüsusi maraq doğurur. Erkən və inkişaf etmiş orta əsrlərdə Şərur ərazisində yaşayış məskənlərinin sayı xeyli artmışdır. (Yaycı, Parçı, Tənənəm, Şahbulaq və s.) XVIII əsrin əvvəllərində Osmanlıların idarəsində olan Şərur nahiyəsində 1728-ci ilin məlumatına görə (“İrəvan əhalisinin müfəssəl dəftəri”) azərbaycanlılardan ibarət 73 yaşayış məntəqəsi mövcud olmuşdur [1, 6].

*Aparılan tədqiqatlar nəticəsində bir sıra bitkilərin bioekoloji xüsusiyyətlərivə xalq tərəfindən*

*qədimdən istifadə yolları araşdırılmışdır.*

*Achillea millefolium* L. – Adi boymadərən. Çoxillik, ot bitkisi olub, gövdəsinin hündürlüyü 20-50 sm, düzqalxan, budaqlanan, dəyirmi, nazikşırımlı, yuxarı budaqcığındakı yarpaqları qısalmışdır. Yarpaqları növbəli, xətti-neştərvari, ikiqat ləlɘkşəkilli yarılmış, iki-üçqat kəsilmiş seqmentli və demək olar ki, kürəkşəkilli, sonluğu xətti formalıdır. Kökümsov yarpaqları saplaqlı uzunluğu 35-50 sm-dir. Kökləri nazik, sürünəndir. Quru dərələrdə, çəmənliklərdə, çaybasar çəmənliklərin yüksək yerlərində, meşə kənarlarında, talalarda, yol kənarlarında yayılmışdır.

Bitkini çiçəkləmə fazasında (iyun və avqustun birinci yarısı) yarpaq və gövdələrini 15 sm uzunluğunda səliqəli şəkildə yarpaq və gövdədən məhrum etmədən kəsmək lazımdır. Yaşayış məntəqələrinə yaxın yerlərdə adi boymadərən olarsa onu əkin sahələrinə köçürmək məsləhətdir. Onun qalxanşəkilli çiçəkqrupu və səbətciyi 2 sm uzunluğunda kəsilməklə toplanılmalıdır. Bitkinin kökünü və pöhrələrini qazaraq çıxarmaq qətiyyən olmaz. Bitkinin toplanıldığı sahələrin təkrar istismarı 1-2 ildən sonra mümkündür.

Keyfiyyətli xammalı onun yarpaqları və çiçəkləridir. Çiçəkləyən zaman bitkinin tərkibində efir yağı, mürəkkəb efir, azulen, tuyol, sineol, kamfora, kariofillen, qarışqa və izovalerian turşuları olur. Tərkibində eyni zamanda qatran, aromatik acı və aşı maddələr, vitaminlər, fitonsidlər və digər maddələr vardır. Bitkinin tərkibində ümummöhkəmləndirici, iltihabəleyhinə, antispastik, büzücü və zəif yerli keyləşdirici maddələr vardır. Boymadərən uşaqlıq, ağ ciyər, mədə-bağırsaq, burun qanaxmalarında, yanıq, trofik yara, xronik furunkulyoz və dəri xəstəliklərinin müalicəsində istifadə edilir. Bitki və çiçəkləri müvəffəqiyyətlə qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, enterkolit, nefrit, spesifik olmayan kolit, mədə və bağırsağın spastik ağrılarında işlədilir. Boymadərən maddələr mübadiləsini aktivləşdirir və normallaşdırır. Qanın laxtalanmasını artırır. Antiallergik xüsusiyyətinə görə diatez, ekzema, qızılyel və bronxial astma xəstəliklərində müvəffəqiyyətlə istifadə edilir. Qanaxmalarda xüsusən ağciyər, bağırsaq, burun, uşaqlıq və böyrək qanaxmalarında xüsusən əvəzedilməzdir.

*Daucus carota* L. - Yabanı kök. 25-85 sm hündürlüyündə, tüklü, çoxillik ot bitkisi olub, yarpaqları cod tüklü, bir və ya iki qat ləlɘkvari bölümlü, lansetvari paylı seqmentlidir. Çətir şüaları qeyri-bərabər və çoxsaylıdır. Çiçəkləri ağdır. D.s.-dən 2000 m hündürlüyə qədər yayıla bilir. Otlu yamac və kolluqlarda rast gəlinir. Bu bitkinin kulturaya keçirilməsi barədə S.C.İbadullayeva bir sıra tədqiqatlar aparmışdır. Yabanı kökün inkişaf fazası təbii şəraitdə mədəni növə nisbətən uzun çəkir. Çöl şəraitində bitki avqust ayında çiçək açır, şaxtalı qışa qədər inkişafını davam etdirir. İkinci il isə meyvə əmələ gətirir.

Muxtar Respublikada geniş yayılmışdır. Dünyanın bir sıra qabaqcıl ölkələrinin elmi təbabətində yabanı kökün kök, çiçək, toxum və yaşıl hissəsindən hazırlanan dəmləmə, tinktura və cövhərlərdən bir çox xəstəliklərin müalicəsində istifadə edirlər. Bitkidən qazqovucu, sidikgətirici, sidik kisəsi və böyrəkdə yığılıb qalan qumların kənar edilməsində, mə'də-bağırsaq xəstəliklərinin müalicəsində, işlədici, qurdqovucu və ürək-damar xəstəliklərinin müalicəsində istifadə edirlər. Hal-hazırda yabanı kökdən alınan preparatlardan istifadə edərək xərçəng xəstəliyinin müalicə yolları öyrənilir. Dərinin üzərində yenicə əmələ gəlmiş xərçəng şişi üzərinə bitkinin yaşıl hissəsindən hazırlanmış məlhəmdən qalın lay yaxıb, bağlayaraq inkişaf prosesini dayandırırlar. Onun mürəbbəsi əhval-ruhiyyəni yaxşılaşdırır, bədəni qüvvətləndirir, eyni zamanda mə'də və qaraciyər üçün faydalıdır. Efir yağından isə antiseptik vasitə kimi difteriya və streptokok çöplərinə qarşı işlədilir. Yabanı kökün toxumlarından hazırlanan ədviyyə tozundan ət, balıq, toyuq xörəklərinə qatqı kimi əlavə edilir. Çünki kök toxumunun yandırıcı xüsusiyyəti vardır. Məhz kökün adı oradan götürülmüşdür, «daukus» yunan sözü olub «dauçin» yandırmaq deməkdir. Toxumundan ədviyyat kimi balıq ətinin tərkibinə əlavə etdikdə ətin xarici görünüşü nəinki dəyişmir, hətta xoş iyə və iştahartırıcı xüsusiyyətə malik olur. Yabanı kök likör, araq istehsalında, onun efir yağından isə ətriyyatda, yeyinti və tibb sənayesində geniş istifadə edilir. Tərkibində 0,9% efir yağı olur [2].

*Carum carvi* L. -Adi zirə.İkiillik ot bitkisidir. Kökləri iyşəkilli lətlidir. Gövdənin hündürlüyü 30-80 (100) sm, düzqalxan və budaqlanandır. Yarparqları iki, üç ləlɘkşəkilli, aşağı hissəsi uzun saplaqlı,

yuxarı hissəsi kiçik və qısa saplaqlı, çiçəkqrupu mürəkkəb çətir, yastılaşmış ağ rəngli meyvələri vardır. Sallaq meyvələrinin uzunluğu 3-7 mm, eni isə 1,5 mm-dir.Quru dərələrdə, rütublətli çəmənliklərdə, çay kənarlarında, dağlarda, kəsilmiş meşələrdə, meşə kənarlarında və bozqır çəmənlikldə yaşayır. Keyfiyyətli xammal kimi iyul-avqust aylarında yarpaqları toplanılır. Xammalı yaxşı ventiliyasiyalı yerlərdə qurudulmalıdır.

Yarpaqları və meyvələri keyfiyyətli tərqovucudur. Meteorizminin müalicəsində və mədə qarışıqlarında müvəffəqiyyətlə işlədilir. İştahlandırıcı, spazmolotik (bağırsaq əzələləri, uşaqlıq, sidik yolu), bronxlardakı seliyi artıran, qadınlarda laktasiyanı gücləndirən xüsusiyyətləri vardır. 2-3 çay qaşığı bitkini 200 ml qaynar suda dəmləmək (termosda) və hər gün içmək lazımdır.

Bronxlarda iltihab mənşəli öskürəklərdə, yumşaldıcı və tərqovucu dərman kimi qastrit, enterkolit, uşaqlarda bağırsaq sancılarında, meteorizm, xroniki atonik qəbizlikdə yaxşı nəticə verir. Südverən analarda laktasiyanı gücləndirir. [4].

*Origanum vulgare* L. – Adi qaraqınıq. Bütöv yarpaq və çiçəkli gövdəsinin uzunluğu 20 sm-ə qədər olur. Yarpaqları qarşı-qarşıya, saplaqlı, yumurtavari zirvəsi itiuclu, xırda dişcikli və ya bütöv kənarlıdır. Gövdəsi dördtilli, yumşaq tükcüklü və ya tamamilə çılpaq olur. Çoxçiçəkli və qalxanvarı-süpürgəvari çiçəkqrupunda toplanmışdır. Çiçək altlığı uzun saplaqlı və uzunsov itiucludur. Kasacığı üçbucaq-neştərvari dişcikli, çılpaq və ya az tükcüklüdür. Yarpaqları yuxarıdan yaşıl, alt hissədən tutqun-yaşıl, gövdəsi purpur, çiçək altlığı və kasacığı tutqun-purpur, tacı isə qonur-çəhrayıdır. Aromatlı, büzücü, şirin-acı dadlıdır Quru meşələrdə, meşə kənarında və çöllərdə, dağ dərələrində, kiçik yarğanlarda və çaybasar, subasar yerlərdə yayılmışdır. Əsasən böyük olmayan pöhrəliklərinə rast gəlinir.

Bu bitki iyul və avqustun birinci ongünlüyündə çiçəkləyir. Zirvəsi 20 sm-ə qədərdir. Oraq və ya iti alətlə kəsilərək toplanılır. Yaxşı ventiliyasiyalı çardaxlarda qurudulur. Xammalı nazik kəsilərək daimi olaraq qarışdırılır və çevrilir. Quruducu şkafda 40ºC temperaturda qurudulur.

Qaraqınıq bitkisi keyfiyyətli öskürəkkəsici və bağırsaq peristaltikasını artıran dərman kimi işlədilir. Daxilə qəbul etmək üçün dəmləmə, vanna və antiseptik vasitə kimi təyin edilir. Ağciyər xəstəliklərində tərlədici dərman kimi də faydalıdir. Mərkəzi sinir sistemini möhkəmləndirici: nevroz, halsızlıq, isteriya, epilepsiya, hipertoniya xəstəliyi, ateroskleroz, klimaksla bağlı nevrotik şikayətlər zamanı tətbiq edilir. Bronxial vəzinin sekresiyasının artırılmasında, spazmolotik, öskürəkkəsici təsir edərək, güclü tər ifrazına səbəb olur. Bundan başqa iştahasızlıq, qastrit, mədə-bağırsaq spazmında, mədə və onikibarmaq bağırsaq xorasında, atonik qəbizliklərdə, ödqovucu və iltihab əleyhinə tətbiq edilir. Revmatizm zamanı oynaqların şişkinliklərində, podaqrada, amonoreyyada, ekzema, dəri səpkiləri və müxtəlif yaralanmalarda istifadə edilir [3, 4].

*Beləliklə, araşdırmalar və əhali ilə edilən söhbətlər zamanı aydın olur ki, qədim dövrlərdən bitkilərdən müxtəlif məqsədlər (müalicə, qida, boyaq, cay, ədviyyat və. s) üçün istifadə edilirmiş və bu gün də bu ənənələr davam etdirilir.*

## ƏDƏBİYYAT


1. "Naxçıvan Muxtar Respublikası şəhər və rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 1 mart 2003-cü il tarixli, 423-IIQ nömrəli Qanunu (azərb.)
2. İbadullayeva S. C., Sultanova Z. R. Yabanı kökün xalq təsərrüfatında əhəmiyyəti və introduksiyası. / IX Beynəlxalq simpoziumun materialları, Simferopol-Aluşta, 2000, s. 177
3. İbadullayeva S.C. Azərbaycan florasının Kərəvüzkimiləri. Bakı: Elm, 2004, 321 s.
4. İbadullayeva S.C., Ələkbərov R.Ə. Dərman bitkiləri (Etnobotanika və Fitoterapiya) Medicial plants (Ethnobotany and Phytoterapya). Bakı: Təhsil-Elm, 2013, 331 s.
5. Qasımov H.Z. Naxçıvan Muxtar Respub-likası florasının etnobotaniki tədqiqinə dair Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Naxçıvan: Qeyrət, 2013, № 2, s. 94-98
6. "Кавказский календарь на 1915 год". Издан по распоряжению Наместника его Императорскаго Величества на Кавказе, под редакцией А.А.Эльзенгера и Н.П.Стельмащука, Тифлис. Типография Канцелярии Наместника Е.И.В. на Кавказе, казённый дом. 1914 / Оглавление: Глава - Отдел статистический: Список населенных мест Кавказа, стр. 82

**ZÜLFİYYƏ SEYİDZADƏ**
*Əczaçılıq texnologiyası*
*Naxçıvan Dövlət Universiteti*

## DƏRİNİN ANATOMİK QURULUŞU, FİZİOLOGİYASI VƏ PROBLEMLƏRİ

Dəri skelet sistemindən sonra bədənimizin ən mühüm orqanıdır. Yetkin insanda dəri səthinin sahəsi 1,9 $m^2$-dir. Dəri bütün bədənimizi əhatə edir və ağızda, gözlərdə və cinsiyyət bölgəsində mukoza olaraq təyin etdiyimiz quruluşla davam edir. Dəri etkin bir insanın ümumi bədən çəkisinin 15% -ni təşkil edir. Bütün bu qeyd etdiklərimiz dərinin insan bədəni üçün necə vacib olduğunun sübutudur. Məqlədə dərinin anatomik quruluşu, fiziologiyası və problemləri barəsində geniş məlumat verilmişdir. Tədqiqat zamanı ədəbiyyat araşdırmalardan istifadə olunmuşdur.

Dəri insan bədəninin örtüyü olmaqla, onu xarici faktorlardan qoruyan mühüm bir toxumadır. Dərinin anatomik quruluşu olduqca mürəkkəbdir. Dərinin hər bir qatı müəyyən funksiyaları həyata keçirir. Bu funksiyalara və dərinin anatomik quruluşuna məqalədə ətraflı şəkildə yer verilmişdir.

**Dərinin anatomik quruluşu**

Dəri 3 qatdan ibarətdir: epidermis, dermis və dərialtı toxuma-pannikulus. Dərinin qalınlığı və dərinin bu 3 təbəqəsi bədənimizdəki anatomik bölgələrə görə dəyişir. Məsələn, epidermisin ən incə bölgəsi 0,1 mm olan göz qapaqlarımızdır. Ən qalın yerlər əlin içi və ayaq altlarında 1,5 mm-dir. Dermisin ən qalın hissəsi arxa dəridir.

*Epidermis:* Dərinin ən xarici təbəqəsidir və daha çox keratinosit dediyimiz hüceyrələrdən ibarətdir. Bədən sahəsinə görə dəyişsə də, qalınlığı 05-100 mikron (əl və sinə dərisi üçün 600 mikron) arasındadır. Bundan əlavə, epidermisdəki su miqdarı, dəri qalınlığını dəyişdirə bilər. Epidermisdə keratinositlərdən başqa melanositlər, Langerhans və Merkel hüceyrələri də vardır [1]. Keratinositlər dərinin 5% -ni təşkil edir və hüceyrə quruluşunda keratin adlı bir protein meydana gətirir. Keratinositlər bölünür və alt qatdakı üst qatlara, yəni dermisə bitişik olan təbəqəyə birləşir. Alt təbəqələrdə canlı keratinositlər ən üst qatlarda məhv olur və dəridən ayrılır. Bu prosesə keratinizasiya dövrü deyilir. Normal bir insanda bu proses 28 gün çəkir. Epidermis 4 alt qatdan ibarətdir:

Stratum bazale
Stratum spinosum
Stratum granulosum
Stratum corneum.

*Dermis:* Epidermal təbəqənin altında dərinin ikinci təbəqəsi mövcuddur ki, bu dermis adlanır. Dermis bədən sahəsindən asılı olaraq 2-4 mm qalınlığında olur. Dermisdə hüceyrələrarası dəstək toxuması və fibroblast hüceyrələri və sinir, damar, lenfatik quruluşlar, tər və yağ vəzləri, dırnaq və saç kökləri vardır. Dermisdə epidermislə müqayisədə daha az hüceyrə və daha çox lif var. Dermisdəki əsas hüceyrələr fibroblastlardır və dermisin hüceyrədən kənar dəstəkləyici matris toxumasını meydana gətirir. Bu matris quruluşu kollagen, elastin və retikulyar liflərdən ibarətdir. Dermis digər hüceyrələrə də sahibdir.

Dermisdəki kollagen dərinin gərginliyini təmin edir. Elastin dəriyə elastiklik verir. Bu ikisi dermisin fibrillyar dəstək toxumasıdır. Fibrillərdən başqa, burada proteoqlikanlar, qlikoproteinlər, qlikozaminoqlikanlar, su və hialuron turşusu digər dəstəkləyici maddələr mövcuddur. Bunların içində ən böyük rolu olan qlikozaminoqlikanlardır [5]. Bunlar karbohidratlara birləşmiş zülal formalarıdır. Karbohidratlara xondrotin sulfat, dermatan sulfat, keratin sulfat, heparan sulfat və heparin aiddir. Ən vacib proteoqlikan versikan (dəri gərginliyini təmin edir) və perlecandır (epidermis və dermis arasındakı bazal təbəqədə yerləşir). Bunlar hüceyrələrin bir-birinə bağlanmasını, hüceyrələrin yerdəyişməsini və hüceyrələr arasındakı əlaqəni tənzimləyir.

**Dərinin fiziologiyası**

Bir insanla ilk görüşəndə hamımız etiraf edə bilərik ki, ilk növbədə üzünə diqqət yetiririk.

Təcrübəli həkimlər öz müayinəsində üz dərisinin vəziyyətinə (rəngi ,nəmliyi ,qırışların

dərinliyi və yerləri) görə xəstənin sağlamlıq vəziyyətini qiymətləndirə bilir.Məsələn:böyrəklər, bağırsaqlar və dəri bədənin normativ iş rejimi pozulduqda mühim bir ifrazat orqanları olaraq öz üzərlərinə əlavə bir missiya götürürlər-maddələr mübadiləsi və maddələri geri çəkmək .Bu vəziyyətdə dəridə sızanaqlar,komedonlar,solğunluq,həmçinin şişkinlik və s.görünə bilər.

Üz bir insanın daxili orqanlarının aynasıdır.Üz dərisinə görə hər hansı bir sistemin işləməsi (hiperfunksiya,çatışmazlıq(hypofunksiya)) prinsipi haqqında fikir yeritmək olar.Aşağıdakı siyahıda üzün xüsusi hissələrinin hansı sistemin xəbərçisi olduğu göstərilmişdir.

Burun ucu -ürək
Burun dəlikləri- bronxlar
Burun ortası- mədə
Burun yuxarı hissəsi- pankreas(mədəaltı vəz)
Gözlər - qadınlarda böyrək və yumurtalıq, kişilərdə testislər
Sol göz - dalaq və pankreas (mədəaltı vəz)
Sağ göz- qaraciyər və öd kisəsi
Qaşlar arasındakı sahə- qaraciyər
Alın bütövlükdə -nazik bağırsaq
Alnın periferik bölgəsi- yoğun bağırsaq
Alnın yuxarı hissəsi -sidik kisəsi
Ağız- həzm sistemi
Üst dodaq- mədə
Alt dodağın içi- nazik bağırsaq
Alt dodağın periferik hissəsi- yoğun bağırsaq
Dodaqların küncləri -onikibarmaq bağırsaq. [2.28s]

**Dəridə ən çox rast gəlinən problemlər**

*Akne və ya sızanaq:* Cəmiyyətdə sızanaq olaraq bilinən səpkilərin ümumi adı aknedir. Müəyyən dövrlərdə bir çox insanda sıx şəkildə görülsə də, bəzi insanlarda həyatları boyunca rast gəlinir. Sızanaqların yaranmasına səbəb olan bir neçə amil var. Ümumiyyətlə, müxtəlif səbəblərdən dəri və saç kökləri altında yağ ifrazından məsul olan vəzlərin tıxanması səbəbindən insanlarda sızanaq əmələ gəlməsi müşahidə olunur. İnsan bədənində dərini nəmli saxlayan sebum istehsalındakı artım, lazımsız sebum hüceyrələrinin məhv olmasına səbəb olur. Nəticədə, ölü sebum hüceyrələrin məsamələrə yapışması nəticəsində ağ və ya qara ləkə meydana gəlməsi müşahidə olunur. Bu vəziyyətdə insan bədənində yaşayan bakteriyalar məsamələrə dolur və sızanaqlar meydana gəlir. Bu cür səpkilərə ümumiyyətlə alnda, sinədə, üzdə, çiyinlərdə və belin yuxarı hissəsində rast gəlinir [4, 71s]. Sızanaqlar doğuşdan hər yaşda baş verə bilsə də, ümumiyyətlə gənclərdə daha sıx görülür. Sızanaq hormon balansının pozulması, istifadə olunan dərmanlar və həddindən artıq şəkərli qidalarla daha da arta bilər. Buna görə insanlar pəhrizlərinə və istifadə etdikləri dərmanlara diqqət yetirməlidirlər.

*Eqzema:* Eqzema, dərinin qırmızı və qaşınmasına səbəb olan dəri xəstəliyidir. Sızanaqlar kimi eqzema da hər yaşda insanlarda müşahidə edilə bilər. Bu xəstəliyə daha çox uşaqlarda rast gəlinir. Elmi olaraq atopik dermatit adlandırılan eqzema bəzi xəstələrdə xroniki olmaqla və bəzi xəstələrdə periodik olaraq ortaya çıxır. Xroniki eqzema xəstələri bir ömür boyu bu xəstəliklə yaşamağa alışmalıdırlar.

Nadir hallarda eqzema qızdırma ilə müşayiət oluna bilər. Eqzemanın hələki tam müalicəsi tapılmamışdır. Bununla birlikdə tətbiq olunan müalicə və fərdi baxım eqzemanın səbəb olduğu qaşınmanın qarşısını alır və yeni epidemiyaların ortaya çıxmasına mane olur [3,6s]. Eqzema xəstələri dərini mütəmadi olaraq nəmləndirməli və xəstəliyin yüngülləşməsi üçün həkimin təyin etdiyi kremlərdən faydalanmalıdırlar. Əks təqdirdə, eqzemanın dərinin digər hissələrinə yayılması görülə bilər.

*Göbələk infeksiyaları:* Göbələk infeksiyaları dəri xəstəliklərində böyük paya malikdir.

Göbələyin müalicə olunmaması digər infeksiyaların bu xəstəliyə əlavə olunmasına səbəb ola bilər. Bunun lenfangit adlanan limfa düyünlərinin iltihabına səbəb olma ehtimalı var. Göbələk infeksiyasının bir sıra növləri mövcuddur. Bunlardan ən çox yayılmışı dırnaq göbələyi, qasıq göbələyi, bədən göbələyi və cinsiyyət bölgəsi göbələkləridir [3, 22s]. Dırnaq göbələkləri deformasiyaya və dırnağın qırılmasına səbəb olur. Qasıq göbələyi bud nahiyəsində baş verir və qızartı, qaşınma və dəri qabarcıqları (köpəşimələr) şəklində özünü göstərir. Bədən göbələkləri isə bədənin hər yerində görülür, yenə də özünü qaşınma, qızartı və qabarlar şəklində göstərir. Həkimin tövsiyə etdiyi kremlərdən və məlhəmlərdən istifadə edərək göbələklərin müalicəsi mümkündür.

## ƏDƏBİYYAT

1.https://open.oregonstate.education/aandp/chapter/5-1-layers-of-the-skin/- Layers of the Skin
2. П. Федотов, В. А. Бочаров, Е. Ю. Корецкая и др. ОСНОВЫ ПРАКТИЧЕСКОЙ КОСМЕТОЛОГИИ (2016) 304s
3. Ronald M.V. (2018) Sık Görülen Deri Hastalıkları. İstanbul, Nobel Tıp Kitap Evi: 451 s.
4. Tüzün Y.A. (2017) Dermatoloji. İstanbul, Nobel Tıp Kitap Evi: 64
5. https://onlinelibrary.wiley.com/doi/full/10.1111/ics.12660- Role of proteoglycans on skin ageing

**SİMA BAYRAMOVA**
*Onurğasızlar zoologiyası*
*Naxçıvan Dövlət Universiteti*

# SARKOSPORİDİLƏRİN (*SARCOCYSTİS*) HƏYAT DÖVRİYYƏSİ VƏ TAKSONOMİYASI

*Sarcocystis* (*Sarcosporidia*) cinsinin nümayəndələri 1843-cü ildə ilk dəfə ev siçanlarının əzələlərində tapılmasına baxmayaraq hazırda parazitin mikro və makrosistalarına bütün məməlilərdə, reptililərdə və quşlarda təsadüf olunur [1].

İlk dəfə Şimali Amerikada sarkosistalar vəhşi ördəklərdə, qazlarda və digər su quşlarında tapılmışdır (*Erickson, 1940*). Bu makrosistaların düyü formasında olduğu göstərilir. Sonralar müəyyən edilmişdir ki, bu növ (*S.rileyi*) üçün son sahib zolaqlı skunsdur.

Hazırda *Sarcocystis* cinsinə daxil edilən əksər növlərin aralıq və əsas sahibləri dəqiqləşdirilmiş, onların təxminən yarısının tam həyat tsikli öyrənilmişdir. *Sarcocystis* cinsinə daxil edilən bəzi növlərinin əmələ gətirdiyi xəstəlik “*sarcocystosis*” insan və heyvanlar üçün təhlükəlidir. Onların kəskin patogen təsiri xüsusilə aralıq sahibdə müşahidə olunur, əsas sahiblərdə isə xəstəlik zəif keçir və ya heç bir klinik əlamət müşahidə edilmir. Bu xəstəliyin spesifik klinik əlamətlərinin olmamasına baxmayaraq bəzən yoluxan heyvanların ölümü ilə müşayiət olunur.

Parazitin orqanizmə təsiri bir çox faktorlardan – parazitin növündən, onun virulentliyindən, sayından, lokalizasiya olunduğu yerdən, inkişaf biologiyasından və orqanizmin fizioloji vəziyyətindən asılıdır. Orqanizmin fizioloji vəziyyəti anlayışına isə bir çox faktorlar, orqanizmin immun statusu, yaşı, yemləmə, saxlanılma şəraiti və s. daxildir. Parazitin virulentliyi parazit-sahib münasibətlərinin aydınlaşdırılmasında çox mühüm əhəmiyyətə malik olub, müxtəlif amillərin təsirindən dəyişə bilər.

Uzun müddət sarkosporidilərin həyat dövriyyəsini öyrənmək və sistematik yerini müəyyənləşdirmək mümkün olmamışdır. Əvvəllər sarkosporidilərin sistematik vəziyyətinin müəyyən edilməsi zamanı bu parazitin aralıq sahiblərdə tapılan sistalarının ölçülərinə görə (makro və mikrosista) təsvir edilmiş, növ kimi isə təsvir edilməmişdir.

Sonralar sarkosporidilərin həyat dövriyyəsinin öyrənilməsi, onların ətraf mühitdə yayılması ilə bağlı əksər suallara cavab verildiyindən növlərin adı hər iki sahibin adına görə adlandırıldı. Məsələn, aralıq sahibi qoyunlar, əsas sahibi isə itlər və pişiklər olan növlərə *Sarcocystis ovicanis* və *S.ovifelis*, əsas sahibi itlər və pişiklər, aralıq sahibi isə ev donuzları olan növlər *S.saicanis* və *S.suifelis* adlandırılmışdır. Belə sərbəst adlandırmalar anlaşılmazlıq yaratdığından və zooloji nomenklaturaya uyğun olmadığından alimlər sarkosporidilərə nomenklaturaya uyğun ad verməyi qərara almışlar.

Son taksonomik sistemdə *Sarcocystis* cinsinə 189 növ daxil edilmişdir. Hazırda isə bu cinsə daxil edilən növlərin sayı 220-dən çoxdur. Sarkosporidilər N.D.Levaine tərəfindən aşağıdakı kimi sistemləşdirilir [6].

**Yarımaləm:** *Protozoa*
**Tip.** *Apicomplexa*
**Sinif:** *Sporozoasina*
**Yarımsinif:** *Coccidiasina*
**Dəstə:** *Eucoccidiorida*
**Fəsilə:** *Sarcosystidae*
**Cins:** *Sarcocystis*

*Sarcocystis* cinsinə daxil edilən növlər son sahiblərinə nisbətən aralıq sahibləri daha spesifikdir. İtlər tərəfindən ötürülən hər hansı bir növ pişiklər tərəfindən ötürülə bilməz [1,5].

Ot və qarışıq qida ilə qidalanan heyvanlar bu parazitlərin inkişafında aralıq, ət yeyən heyvanlar isə əsas sahib rolunda çıxış edirlər.

*Sarcocystis* cinsinə daxil edilən növlər hüceyrədaxili ibtidai parazitlər olub, həyat dövriyyəsi cinsiyyətli və cinsiyyətsiz olmaqla növbələşir və üç mərhələyə bölünür:

1. Sporoqoniya
2. Şizoqoniya
3. Qametoqoniya

Sporoqoniya zamanı aralıq sahibi yoluxdurmaq xüsusiyyətinə malik sporozoitlər əmələ gəlir. Şizoqoniya cinsiyyətsiz çoxalma mərhələsi olub, bu zaman bir neçə dəfə bölünmə baş verir. Son sahibdə gedən qametoqoniya mərhələsi isə qametlərin mayalanması, birləşməsi ilə baş verən mərhələdir.

Hər hansı bir əsas sahib *Sarcosystis spp*. ilə yoluxan toxumada olan yetişmiş sarkosistaları ilə udduqda yoluxur. Ət ilə birlikdə əsas sahibin həzm sisteminə düşən yetkin sarkosistaların divarı həzm sistemi fermentlərinin təsirindən partlayır, azad olan sporozoitlər nazik bağırsağın xovlarına daxil olur ki, burda bir müddətdən sonra makro və mikroqametlərin əmələ gəlməsi ilə müşayiət olunan qametogenez prosesi baş verir. Nazik bağırsaqda qametoqoniya və sporoqoniya mərhələsindən sonra, hər birində dörd sporozoid olan iki sporosista əmələ gəlir. Sporosistalar ətraf mühitə fekal vasitəsi ilə düşür [2].

Qeyd etmək lazımdır ki, aralıq sahibin həyatında bir dəfə bir sporosistanın udulması kifayət edir ki, bütün həyatı boyu sarkosporidilər ilə yoluxmuş vəziyyətdə olsun. Əgər heyvan həyatında vaxtaşırı olaraq sarkosporidilərin sporosistalarını qəbul edirsə onda invaziyanın intensivliyi də daim artır. Onun üçün də əzələlərdə yaşlı sarkosistalar ilə yanaşı cavan sarkosistalara da təsadüf edilir. Aralıq sahibin toxumasında son sahibləri yoluxdurmaq üçün Sarcocystislərin "yetişməsi" növdən asılı olaraq 2 aya qədər davam edir.

Sporlaşmış oosista bir qatlı membrana, nüvəyə, endoplazmatik şəbəkəyə, mitoxondri, ribosom və holci kompleksinə malikdir. Sporlaşmış oosista rəngsiz, qalın divarlı olub, iki uzun formalı sporosistaya malik olub, hər sporosistada da bananşəkilli və bütün ultrastruktura malik 4 sporozoit olur.

Əsas sahibin ifrazatı ilə ətraf mühitə düşən sporosistalar aralıq sahib tərəfindən yem, su və ya hansı bir mümkün olan yollarla udulduqda, bağırsaqda həzm sistemi fermentlərinin təsirindən onun divarları həll olaraq partlayıb sporozoitlərdən azad olur.

Hərəkətli sporozoitlər bağırsağın epiteli hüceyrələrindən miqrasiya edərək arteriyaya daxil olur. Sporosistaların orqanizmə düşməsindən təxminən 15-16 gün sonra, burada şizoqoniya və ya meroqoniya mərhələsi keçərək morfoloji quruluşuna görə sporozoit və brandizoitlərə oxşar çox saylı merozoitlər əmələ gətirir [4].

15 gündən sonra baş verən ikinci nəslin inkişafı endoteldə kiçik kapillyarların divarlarında baş verir. İkinci nəslin şizontlarından azad olan merozoitlər qan damar sistemində sirkulyasiya olunaraq bölünüb 2 nəsil verir. Ümumiyyətlə, onun neçə nəsil verdiyi haqqında dəqiq məlumat yoxdur. Lakin, qanda 3 nəsil meroqoniyanın baş verdiyi haqında az sayda mənbələrdə məlumatlar verilir [3].

İkinci nəslin şizontlarından azad olan merozoitlər qan damarlarından əzələ və sinir toxumalarına daxil olaraq sistaları əmələ gətirir.

Meroqoniyadan sonra sarkosistaların tam formalaşması bir qayda olaraq ürək əzələsində, dildə, qida borusunda diafraqmada, skelet əzələlərində, bağırsaqda, ürəyin Purkinye liflərində, bəzi hallarda isə sinir toxumalarında baş verir.

Göründüyü kimi sarkosporidilərin inkişaf tsikli aralıq sahibin iştirakı ilə gedir. Burada aralıq sahib rolunu it, pişik, vəhşi ət yeyənlər və gəmiricilər oynayır. Bunlara qarşı ciddi mübarizə və profilaktiki tədbirlər aparılmalıdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan heyvanlar aləmi. I cild, akad. M.Ə.Musayevin redaksiyası ilə, Bakı: Elm, 2012, 268 s.
2. Mahmudov S.Ç. Azərbaycanda qoyunların və camışların sarkosporidiozları (parazitoloji və biokimyəvi baxış). Biol. elm. nami. .. avtoref., Bakı: 1995, 18 s.

3. Məmmədov İ.B. Sarkosistidilərin (*Sarcocystidae*) bioloji xüsusiyyətlərinin öyrənilməsi/ Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin öyrənilməsi (21-22 may 2004-cü il tarixdə keçirilmiş elmi konfransın materialları), Bakı: Elm, s. 228-231

4. Namazova A.A. Azərbaycanın bəzi rayonlarında ekoloji şəraitdən asılı olaraq, qoyunların sarkosporidilərinin (Sporozoa, Apicomplexa) parazitoloji və biokimyəvi tədqiqi. biol. elm. nam. ... dis. avtoreferatı. Bakı/: 2014, 23 s.

5. Бейер Т.В. Клеточная биология споровиков возбудителей протозойных болезней животных и человека. Ленинград: Наука, 1989,183 с.

6. Levine, N.D., Lee J.J., Hunter S.H., Bovee E.C. et al. Phylum II. Apicomplexa Levine 1970. In “An Illustrated Guide to the Protozoa” 1985, pp. 322–374.

**GÜNAY TARVERDİYEVA**
*Bitki fizioloiyası*
*Naxçıvan Dövlət Universiteti*
*tarverdiyevagunay55@gmail.com*

## FOTOSİNTEZİN TƏBİƏTİ

Məqalədə bitkilərin həyat fəaliyyətində əsas yer tutan fotosintez prosesi haqqında məlumat verilmişdir. Qeyd edilmişdir ki, fotosintez prosesi zamanı bitkilər, göy-yaşıl yosunlar, yaşıl və qırmızı bakteriyalar günəş enerjisindən və kimyəvi rabitədən istifadə edərək qeyri-üzvi maddələrdən üzvi maddələr sintez edir.

Fotosintez - bitki və bir sıra başqa orqanizmdə gedən işıq enerjisinin kimyəvi enerjiyə çevrilməsi proses. Bitki fotosintezində iştirak edən əsas orqanı yarpaqdır. Ağızcıqlardan yarpağa hava daxil olur ki, onun da tərkibində olan karbon qazından bitki qida kimi istifadə edir. Yarpaq hüceyrələrindəki xloroplastlarda günəş enerjisini udma xüsusiyyətinə malik xlorofil piqmenti olur. Əmici tellərlə torpaqdan su və mineral maddələr udulur və kökün ötürücü boruları ilə gövdəyə, oradan yarpaqlara ötürülür. Günəş enerjisindən istifadə etməklə bitki kimyəvi çevrilmə yolu ilə qeyri-üzvi maddələrdən (karbon qazı və sudan) mürəkkəb üzvi maddələr

Fotosintez prosesi yalnız işıqda gedən prosesdir. Fotosintez prosesində üzvi maddənin yaranmasından əlavə həm də ətraf mühitə oksigen xaric olunur. Canlıların tənəffüsünü təmin edən oksigen fotosintez nəticəsində alınır. İlk dəfə fotosintezi rus alimi Kliment Arkadyeviç Timiryazev kəşf etmişdir. Fotosintez sözü yunanca fotos (işıq), sintezis (birləşmə) sözlərindən gəlməkdədir.

Fotosintezin öyrənilmə tarixi, heyvan orqanizmlərindən fərqli olaraq yaşıl bitkilərin heyvan orqanizmləri tərəfindən pozulması (korlanması) havanı saflaşdırmaq, həyatın mühafizəsi üçün onu yenidən yararlı hala salmaq faktı məşhur ingilis kimyagəri C. Pristli tərəfindən aşkara çıxarılan momentdən başlayır. 1771-ci ilə aid olan bu hadisə həmin Pristli tərəfindən yalnız bir neçə il sonra kəşf edilmiş olan oksigenin varlığı məlum olandan da qabaq baş vermişdir.

Bitkilərin yaşıl plastidlərinin (xlorofilin) və günəş şüaları enerjisinin köməyi ilə karbon qazı və sudan üzvi maddələr sintez etməsi prossesi fotosintez adlanır. Fotosintez prosesi ümumi halda belə bir sxematik tənliklə ifadə olunur.

$$CO_2+H_2O \xrightarrow[\text{işıq enerjisi}]{\text{xlorofil}} C_6H_{12}O_6+O_2$$

Bu tənlikdən göründüyü kimi, yaşıl bitkilər udulmuş günəş enerjisinin köməyi ilə karbon qazı və su monekullarını birləşdirib yenidən quraraq, üzvi maddə əmələ gətirir və havaya sərbəst oksigen xaric olur. Belə mürəkkəb bioloji proses nəticəsində əmələ gələn üzvi maddə və enerjidən heteretrof orqanizmlər istifadə edərək öz həyat proseslərini aparır və bədənlərini qururlar. Çox böyük elmi və praktik əhəmiyyəti olan bu hadisə həmişə tədqiqatların, xüsusən fizioloqların nəzər-diqqətini cəlb etmişdir. Bitkilərin özlərini qurmaq üçün qidalanmaları ilə ilk maraqlananlar hollandiya alimi Van Helmont (1628), ingilis fiziki Robert Boyl (1661), fransız alimi Dyuqamel (1748) bitkilər bədənlərini sudan qurmalı nəzəriyyəsini irəli sürmüşdür. XVIII əsrin əvvəllərində bitkilərin qidalanması sahəsində “humus” nəzəriyyəsi meydana çıxmışdır. Bu fikrin möhkəm tərəfdarı olan alman alimi Seyqer 1733-cü ildə bitkilərin torpaqdan aldığı “bitki yağı” ilə qidalanması nəzəriyyəsini irəli sürmüşdür. Teyer isə bu nəzəriyyənin möhkəm tərəfdarı və yayıcısı olmuşdur.

Bitkilərin havadan qidalanmasına dair ilk fikiri 1733-cü ildə böyük rus alimi M.B. Lomonosovun özünü “hava hadisələri haqqında sözlər” adlı əsərində irəli sürmüşdür. Lomonosov belə yazmışdır: “Qeyri-münbit qumda kök salmış qüvvətli ağacların qol-budaq atması aydın sürətdə təsdiq edir ki, onların yarpaqları havadan qidalanır, çünki bu bitkilərin qidasız qumdan o qədər qida maddəsi alması mümkün deyildir”. M.B. Lomonosov özünün bu fikirlərini 1761-ci ildəki bədii yazılarında daha geniş ümümiləşdirilmişdir. Lomonosov özünün “Yer təbəqələri haqqında” əsərində

yazırdı: “Şam ağacının iynə yarpaqlarının gözə görünməyən dərəcədə kiçik məsamələri ilə havadan qidalı rütubət aldığını (bu rütubətin çox nazik damarlarla bitkinin hər yerinə yayılaraq onun qidasına orqanizminin qurumasına sərf olunduğunu bilərək) şam ağacında yeni şirənin hardan alınıb toplandığını və bu bitkinin nəyin hesabına yaşamasını soruşmazlar”.

İngilis kimyaçısı Coozef Pristley yanma və tənəffüs nəticəsində pozulmuş havanın təmizlənməsinin səbəbini öyrənməklə məşğul olduqdan sonra (1771-ci ildə təcrübələrinin nəticələrini çap etdirir və burada belə nəticəyə gəlirik ki, xarab olmuş hava bitkilər vasitəsilə təmizlənə bilər.

Pristleyin tədqiqatlarının nəticəsi dərc edildikdən 8 il sonra 1979-cu ildə hollandiyalı məhşur həkim İngenhauz bitkilərlə maraqlanmağa başlayıb. O, bir sıra təcrübələr nəticəsində belə bir qərara gəlir ki, tənəffüs və yanma zamanı pozulmuş havanı yalnız yaşıl bitkilər günəşin təsiri altında təmizləyə bilirlər.

Yaşıl bitkilərdə xlorofilin əmələ gəlməsi, piqmentlərin bioloji sintezi olub, bir çox amillərdən asılı olaraq olduqca murəkkəb bir prosesdir. Bu prosesdə yarpaqların rəngsiz elementlərindən plastidlərin çox mühim rolu oynadığı qeyd edilməlidir.Bu prosesə bir sıra xarici amillərində böyük təsiri olur.Onlardan xüsusi ilə temperatur, işiq, mineral qidalanma, su və s-nin təsiri nəzərə alınmalıdır.

Bəzi bitkilər – (yosunlar, mamırlar, qıjılar, ayıdöşəyilər və çılpaqtoxumlular, iynəyarpaqlılar) qaranlıqda xlorofil və karotinoidlər sintez etməyə qabildir. Örtülütoxumlular bitkilərin əksər növləri qaranlıqda karotinoidlər əmələ gətirir. Lakin işıqsız yaşıllaşa bilmir. Demək xlorofil işıqsız sintez oluna bilməz.

K.A.Timiryazev ilə ilk dəfə olaraq örtülütoxumluları etiolə edilmiş cücərtilərdən sarı piqmentlərdən əlavə xlorofilə çox yaxın olan piqmentidə müşahidə etmiş və onun protofilin adlandırılmışdır. H.A. Monteverdi müəyyən etmişdir ki, cücərtilərə qısamüddətli (1 dəqiqəyə qədər) günəş şüası verildikdə cücərtidəki piqmentlər udma spektri ilə bir yerə düşür. Beləliklə, müəyyən edilir ki, bitkilərin cücərtilərində xlorofilə yaxın və işıqda çox asanlıqla xlorofillə çevrilən bilən birləşmə sintez olunur. Timiryazevin protofillin adı ilə qeyd etdiyi bu piqmenti Monteverdi protoxlofillin adlandırmışdır. Bu ad indi umumiyyətlə, qəbul edilmir.

Bitkilərdə gedən fotosintez prosesini biz təcrübələr əsasında müşahidə etdik. Biz bilirik ki, yarpağın hüceyrə arası boşluqları ilə xarici atmosfer arasında gedən qaz mübadiləsi ağızcıqlar vasitəsilə tənzim olunur. Hər bir ağızcıq iki qapayıcı hüceyrədən ibarətdir. Həmin hüceyrələrin qarşı-qarşıya dayanan, yəni ağızcıq tərəfə olan qılafları xeyli qalınlaşmış olduğu halda, xarici tərəflərin qılafları nazik olur. Qapayıcı hüceyrələrin xarici və daxili qılaflarının qeyri-bərabər qalınlığı turqor vəziyyətinin dəyişməsi nəticəsində ağızcıqların açılıb bağlanmasına səbəb olur.

Biz təcrebəni aparmaq üçün aşağıdakı **material və avadanlıqları** götürürük: 1) Tradeskansiya , zanbağ, amarlillis və hortenziya bitkilərinin təzə yarpaqları ; 2) 5%-li qliserin məhlulu ; 3) Ülgüc; 4) Pinsüt; 5) İynə; 6) Şüşə çubuq ; 7) Mikroskop ; 8) Əşya və örtücü şüşə; 9) Filtr kağızı.

**İşin gedişi:** Təzə yarpağın epidermisindən kəsik hazırlanır və əşya şüşəsinin üzərinə bir damla 5%-li qliserin məhluluna salınır. Kəsik örtücü şüşə ilə örtüldükdən sonra dərhal mikroskop altında müşahidə aparılır. Bu zaman həm qapayıcı , həm də digər hüceyrələrdə plazmoliz müşahidə olunur və ağızcıqlar bağlanır. Bir müddət sonra (təxminən 15 dəqiqədən sonra), qliserinin plazmadan hüceyrə şirəsinə keçməsi ilə əlaqədəar olaraq deplazmoliz əmələ gəlir və ağızcıqlar bağlanır.

Yaşıl piqmentlərin əmələ gəlməsi sahəsində son zamanlar aparılan ciddi tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, xlorofilin sintezində ilk mərhələ IX protoporfirinin əmələ gəlmə prosesdir. Sonra IX protoporfirinin iki qola ayrılır. Bir qol maqneziumla birləşir xlorofilləri, ikinci qol isə dəmir atomu ilə birləşir hemləri əmələ gətirir.

Fotosintezin əhəmiyyəti aşağıdakılardan ibarətdir:

1. Planetimizdə heterotrof orqanizmlərin həyat fəaliyyəti nəticəsində, eləcə də insanın müxtəlif növ istehsalat fəaliyyəti nəticəsində arasıkəsilmədən baş verən uzun birləşmələr itksini (sərfini) tamamlamaq
2. Fotosintez məhsullarında olduqca böyük miqdarda kimyəvi enerji toplamaq

3. Planetimizdə sakin olan avtotrof və heterotrof orqanizmlərin əksər hissəsinin yaşaması üçün zəruri olan oksigen miqdarını atmosferdə mühafizə edib saxlamaq
4. Atmosferdə artıq karbon qazı toplanması imkanını aradan qaldırmaq

Qeyri-üzvi karbon hesabına üzvi maddənin sintezi proseseləri planetimizdə aşağıdakı iki qrup orqanizmlər tərəfindən həyata keçirilir:

1. Xlorofili ali bitkilər tətəfindən:
2. Bu prosesi günəş enerjisi hesabına (fotosintezedici bakteriyalar, ibtidai yosunlar), yaxud müxtəlif qeyri-üzvi və üzvi birləşmələrin oksidləşməsi hesabına (xemosintetik bakteriyalar) həyata keçirən ibtidai avtotrof orqanizmlər tərfindən.

Orqanizmlərin yuxarıda göstərilən qrupları $CO_2$ bərpa etmək üçün istifadə etdikləri hidrogen mənbələri cəhətdən də bir- birindən fərqlənir. Canlı orqanizmi işığı elektromaqnit enerjisindən istifadə edərək üzvi maddə yaratmaq qabiliyyətinin ən mükəmməl ifadəsi yaşıl bitkilərin fotosintezidir ki, sonralar qısa olmaq üçün ona sadəcə olaraq fotosintez olaraq adlandıracağıq.

Fotosintezin əsas xüsusiyyəti ondan ibarətdir ki, bu prosesin gedişində udulan işıq enerjisi reaksiya məhsullarının kimyəvi enerjisi formasında toplanır. Gördüyümüz kimi, təbiətdə sərbəst enejinin miqdarının artması ilə gedən bir sıra başqa fotokimyəvi proseslərdə vardır, lakin o miqyaslarına görə onlar fotosintezlə tutuşdurula bilməz. Biz bilirikki, fotosintezin gedişində enerji ilə zəngin məhsullar əmələ gəlir. Bu proses, yəqin ki, yalnız reduksiya olunmuş məhsulların termodinamik cəhətdən ən çox ehtimal olunan oksidləşməsi imkanının qarşısı alındıqda baş verə bilər.

Bu proses yalnız hüceyrənin sturukturu elementləri üzərində davamsız fotosintez fotosintez məhsullarının ayrı-ayrı toplanması və fotosintez prosesinin gedişində arası kəsilmədən əmələ gələn aktiv oksidləşdiricilərin təsirində reduksiya edilmiş $CO_2$ məhsullarının biri-birindən ayrılması şəraitində gedə bilər.

Fotosintezin varlığı xüsusi protoplazma strukturlarının mütləq iştirakı ilə əlaqədardır. Bunların rolu prosesin ayrı-ayrı mərhələlərini lokalizasiyasını təmin etməkdən, prosesin gedişində əmələ gələn reduksiya məhsullarını bir-birindən ayırmaqdan və onların arasında ola biləcək qarşılıqlı təsirin qarşısını almaqdan ibarətdir. Xloroplastların struktur xüsusiyyətləri və funksiyaları məsələsinin xloroplastlarda olan piqmentlərin paylanması və bu orqanoidlərin digər komponentlərinin qarşılıqlı əlaqəsi xarakterləri məsələsinin doğurduğu böyük maraqda onunla müəyyən edilir.

Xloroplatların əsas kütləsi zülallardan, lipoidlərdən, piqmentlərdən və mineral duzlardan ibarətdir. Xloroplastlarda suyun miqdarı təqribən 75% dir. Xloroplatların quru maddələrinin ümumi miqdarının təxminən 70-72% müxtəlif ehtiyyat maddələrinin payına və təxminən 20%-i mineral birləşmələrin payına düşür. Struktur əmələ gətirən kolloidlərin tərkibi hissəsi kimi suyun rolu şübhəsiz olduqca mühimdir.

Xloroplastların struktur əsası zülallardır.Bitkinin növündən və başqa amillərdən asılı olaraq zülalların miqdarı xloroplastın quru çəkisinin 30%-dən 45%-dək dəyişilir.

Sitoloji tədqiqat hələ çoxdan belə bir fikir oyadırdı ki, hüceyrə mövtəviyyatının ən mühüm komponentlərinin (zülallar, lipoidlər, nuklein turşuları, müxtəlif piqmentlər, karbohidratlar və b.) sintezi proseslərində protoplazmasının struktur elementləri xüsusi yer tutmalıdır. Bu aprior mülahizələr hal-hazırda inandırıcı eksperimental işlər nəticəsində əsas qazanmışdır.

Müəyyən edilmişdir ki ,plastidlərdə mürəkkəb fermentlərin, mürəkkkəb komplekti toplanmışdır; bunlar həm hidrolitik fermentlər və həm də oksidləyici-reduksiya kompleksi fermentləri daxildir. İnverteza, peroksidaza, polofenoloksidaza, sitoxromoksidaza, fosforiliza, fosfoqlükomutaza, proteazalar, müxtəlif dehidrogenazalar tapılmışdır ki, bunların funksiyaları Krebs tsikli turşuların oksidləşməsi ilə əlaqədardır (H.M.Sisakyan).

Fotosintez prosesləri piqmentlər tərəfindən işığın udulması ilə əlaqədardır.Bitkilərin havadan qidalanması proseslərində piqmentlərin oynadığı rolu o göstərirki, rəngdən məhrum olan yosun formaları yalnız saprofit həyat tərzi keçirməyə qabildir. Bəzi solğun-yaşıl (zəif rəngli) ali bitkilər isə

parazitlər kimi yaşayırlar.Ali bitkilərdən təsadüf edilən albinos (xlorofildən məhrum) və sarı hüceyrələr yalnız normal yaşıl bitkinin hissələri kimi həyat qabiliyyətinin mühafizə edirlər. Albinoslar müstəqil orqanizmlər kimi uzun müddət yaşamağa qabil deyillər.

Yaşıl bitkilərin yarpaqlarının piqmentlərini 4 qrupa böımək olar:

a) xlorofillər b) karotinoidlər c) fikoblinlər d) antosianlar

Fotosintezin təbiətini öyrənmək məsələsi yalnız bu prosesin mahiyyətini ətraflı olaraq dərk etmək üçün deyil,həmçinin onun xarici şəraitdə asılığını aydınlaşdırmaq və deməli, fotosintez idarə etmə yollarını işləyib hazırlamaq üçün də olduqca əhəmiyyətlidir.

Bu sahədə ilk işlərdən biri K.A. Timiryazevin müşahidələri olmuşdur. Timiryazev görsətmişdir ki, fotosintezin intensivliyi işıqlanmanın intensivliyinin artması ilə həmişə mütənasib sürətdə artmır. İşıqlanmanın müəyyən səviyyəsində sanki yarpağın işıqdan doyma halı başlayır. Bundan sonra $CO^2$ –nin assimliyası intensivliyi artmır. Bir sira hallarda isə işığın intensivliyi artdıqda hətta zəifləyir. Timirzayev haqlı olaraq bu məlumatı fotosintezin mürəkkəb təbiətinə və fotosintezi təşkil edən proseslərin xarici şəraitindən asılılığını müxtəlif xarakterli olmasına işarə kimi qiymətləndirmişdir. Bu müşahidələrin nəticələri belə güman etməyə əsas verir ki, fotosintezə, xlorofolin bilavasitə iştirakı və işığın istifadə olunması ilə gedən fotokimyəvi proseslərlə yanaşı, özləri üçün işığın varlığı zəruri olmayan sırf kimyəvi proseslərdə daxilidir.

## ƏDƏBİYYAT

1.B.A. Rubin. Bitki fiziologiyası kursu .Bakı: 1965, 605s.
2.T.N. Qodnev. Fotosintez. M.1961
3. T.Z. Qazıyev. Bitki fiziologiyası .Maarif, 1974, 314s.
4.M.H. Abutalıbov. Bitki fiziologiyası, I hissə. Bakı: 1956

**YAQUT MƏMMƏDZADƏ**
*Naxçıvam Dövlət Universiteti*
*yakuttmemmedzade@gmail.com*

## ÜRƏK-DAMAR SİSTEMİNƏ STRESS VƏ EKOLOJİ AMİLLƏRİN TƏSİRİ

İnsanlar hər cür xarici təsirlərdən müəyyən qədər təcrid olunmuşdur. Lakin təbii şəraitin dəyişməsilə əlaqədar olaraq, müxtəlif ekoloji şərait amillərinə orqanizmin uyğunlaşması zamanı kəskin dəyişikliklərin yaranması adaptasiya prosesini çətinləşdirir. İnsanlar onların həyatı üçün təhlükəli olan ekstremal vəziyyətlərdə də özünə süni şərait yaradaraq yaşaya bilir. Ətraf mühit amilləri yaşından, cinsindən asılı olmayaraq bütün insanlara eyni səviyyədə təsir göstərir və şəraitdən asılı olaraq, təsir göstərən faktorların intensivliyi bir birindən fərqlənir.

İnsanların müəyyən hissəsi isti iqlimli ölkələrdə yaşayır və onlar fasiləsiz olaraq müvafiq ekoloji faktorların təsirinə məruz qalırlar. İsti iqlim intensiv günəş radiasiyasının təsiri ilə yaranan yüksək temperaturla xarakterizə edilir. Yay aylarında havanın temperaturu orta hesabla 38-42° olduğu halda bir çox hallarda kəskin surətdə yüksəlir. Havanın temperaturunun maksimal səviyyəsi saat 14:00 da müşahidə edilir.

Önəmli həyati əhəmiyyətə malik olan ürək damar sisteminin funksiyaları isti iqlimə uyğunlaşaraq fəaliyyət göstərir. İsti iqlimin yerli əhalisində istiliyin xaric olunmasına tələbatın artması və dəridə qan damarlarının sıxlığı ilə əlaqədar olaraq orqanizmin səthi ilə daxili arasında çox böyük temperatur fərqi müşahidə edilir. Arterial qan təzyiqinin azalması və dəridə damar şəbəkəsinin genişliyi arteriyalardan qanın sərbəst axması üçün şərait yaradır [1,2].

Dəri damarlarının qanla çox dolması damar sisteminin həcminin böyüməsi ilə müşaiət olunduğu üçün qan dövranında dövr edən qanın həcminin çoxalmasına səbəb olur. Dövr edən qanın artmasına səbəb qaraciyər və dalaqda depo qanın səfərbər edilməsidir. Həcmi artmış qanı qan dövranına vuran ürəyin dəqiqəlik həcmi sistola fazasında çoxalır və onun yığılma tezliyi azalır. İsti iqlim şəraitində qan təzyiqinin azalması qanın daha geniş damar şəbəkəsinə vurulması və ürək təqəllüsünün zəifliyi ilə əlaqədardır.

Quru isti iqlim üçün xarakter olan gecə və gündüz hava temperaturunun kəskin surətdə dəyişməsi ilə yanaşı insanların gündüz aktivliyi qan təzyiqinin səviyyəsində təsir göstərir. Belə ki, arterial qan təzyiqinin ən aşağı səviyyəsi gecənin ikinci yarısında və səhər saatlarında qeydə alınır. Saat 12:00 və 13:00 da qan təzyiqi orta hesabla 8-10mm.c.s artır. Saat 15:00 və 16:00 aralığından sonra isə tədricən azalır. Yay aylarında qan dövranı sistemi ilə uyğunlaşmaq arasındakı qarşılıqlı əlaqə arterial qan təzyiqinin azalmasına səbəb olur. Dəri damar şəbəkəsinin genişlənməsi ilə əlaqədar qan dövranında dövr edən qanın miqdarı və ürəyin dəqiqəlik həcmi ürək yığılmasının sayı artmır, onlar əsasən ürəyin sistolik həcminin artması hesabına çoxalır .

Soyuq iqlimdə insanlarda yaranan ekoloji xüsusiyyətlər orqanizmin fizioloji funksiyalarının fəaliyyətini ətraf mühitin soyuq amillərinə adaptasiya edir. Soyuq iqlim hər şeydən əvvəl alçaq temperaturla xarakterizə edilir. Soyuq iqlimdə yaşayanların qan dövranı orqanizmin termotənzim vəzifəsini müəyyən edir. Yəni bədən istiliyinin fiziki yolla damar kələfləri vasitəsilə xaric olunmasını azaltmaq və kimyəvi yolla yağ mübadiləsi hesabına istiliyin əmələ gəlməsini artırmaqla yanaşı xolesterinin miqdarını və damarların divarinda yaranan ateroskleroz əlamətlərini azaltmaqdan ibarətdir [3,4].

Soyuq iqlim şəraitində yaşayan insanların fizioloji əlamətlərindən biridə ürək döyüntülərinin sayının xüsusən kişilərdə nisbətən mülayim xarakterli olması və yaş artdıqca onun azalmasıdır. Ürəyin dəqiqəlik həcmi norma daxilində dəyişilir və yaş artdıqca onun həcmi azalır. Bütün bunlar soyuq iqlim şəraitində yaşayanların ürək-damar sisteminin yaxşı funksional vəziyyətdə olduğunu göstərir.

Soyuq iqlim şəraitində yaşayış müddəti artdıqca qanın damarlarda axma sürəti və damarların periferik müqaviməti də artır.

Yüksək dağ mühitində iqlimləşmə zamanı tənəffüs və qanın fünksiyaları fəaliyyətinin dəyişmələrinə müvafiq olaraq qan dövranında yenidən qurulma baş verir. Bu zaman ağciyər damarları daralır və kiçik qan dövranında qan təzyiqi yüksəlir. Qan təzyiqi yüksələrək sutka ərzində maksimal səviyyəyə çatır. Sonrakı prosesdə ürək ağciyərlərdən gələn qan sürətinə qarşı müqavimətinin artması sayəsində yaranmış sağ mədəciyin qüvvətlənməsi işinə uyğunlaşır

Qan dövranında dövr edən ümumi qanın artması böyük qan dövranına da təsir göstərir. Bu zaman sistolik və diastolik təzyiq artır. Nəbz dalğasının yayılma sürətinin artması ucqar damarlarda tonusun yüksəlməsinə səbəb olur. Ürəyin dəqiqəlik həcminin artması qanın hissə hissə qan deposuna qayıtması ilə əlaqədar olaraq venoz qanın həcminin artmasını göstərir [2,3].

Beləliklə, ekoloji amillərdən isti və soyuq iqlim yüksək dağ şəraiti orqanizmdə ürək damar sisteminin funksiyasının dəyişilməsinə təsir göstərir və onların bu və ya digər istiqamətlərdə dəyişilməsinə səbəb olur.

Stress. Stress (ing. “stress” – təzyiq, gərginlik) anlayışı Kanada alimi Hans Selye tərəfindən irəli sürülmüşdür. O, stressi hər hansı qeyri-əlverişli amilin təsirinə qarşı orqanizmdə yaranan müdafiə refleksləri kimi müəyyən etmişdir. Stress – güclü qıcıqların təsirindən insanda yaranan gərginlik vəziyyətidir və bu gərginlik daha çox emosional qıcıqlara qarşı yaranır. İnsanın psixikasına edilən istənilən təsir cavab stressi yaradır, yəni stress orqanizmin qıcıqlandırıcı amillərə qarşı cavabıdır. Bu zaman orqanizmdə müəyyən fizioloji dəyişikliklər baş verir [1, 4]..

Stress yaradan amillər. Həyatda baş verən dəyişikliklər, emosional münaqişələr, qorxu, yorğunluq, fiziki zədələnmələr, havanın temperaturunun kəskin dəyişməsi, səs-küy, xəstəliklər və s. stress yaradan amillərdir. Bu amillərə qarşı cavab insanın fiziki və psixoloji vəziyyətindən, həmçinin onun bu qıcıqlara hazırlıq dərəcəsindən asılıdır. Emosional streslər həyat ritminin kəskin dəyişməsindən və münaqişələrdən yaranır. İnsanda intensivliyinə görə oxşar streslər həm ciddi təhlükədən, həm də yaradıcı müvəffəqiyyətdən baş verə bilər.

Stressin 3 mərhələsini ayırırlar: orqanizmin səfərbər edilməsi (həyəcan mərhələsi), qıcığa qarşı müqavimət göstərilməsi (uyğunlaşma mərhələsi) və orqanizmin zəifləməsi (zəifləmə mərhələsi).

Orqanizmin səfərbər edilməsi mərhələsində insanda ürək döyüntüsü sürətlənir, qan təzyiqi yüksəlir, qanda adrenalinin miqdarı artır, əzələlərə çoxlu qan gəlir, həzm prosesi zəifləyir. İnsan fövqəladə vəziyyətlərdə öz həyat və sağlamlığını xilas etməyə hazır olur. Nəticədə stress amilinin təsirinə qarşı həyəcan yaranır. Bu reaksiya orqanizmi müdafiəyə səfərbər edir.

Kanadalı endokrinoloq olan János Hugo Bruno "Hans" Selye stressi "Orqanizmin iddia etdiyi hər hansı bir tələbə görə onun qeyri spesifik neyrohormonal reaksiya kimi müəyyənləşdirdi" . Ümumiyyətlə, stres, homeostazın (Homeostaz, bədənin tarazlığı üçün bədənin öz funksiyalarını lazımi səviyyədə yerinə yetirməsi üçün nisbi sabitlik vəziyyətidir.) pozulmasına səbəb olan amillərin təsiri altında bədənin vəziyyətidir [1, 4].

G.Selye, stressi "Bədənin iddia etdiyi hər hansı bir tələbə görə xüsusi bir neyrohormonal reaksiyası" kimi müəyyənləşdirir. Ümumiyyətlə, stres, homeostazın pozulmasına səbəb olan amillərin hərəkəti altında bədənin vəziyyətidir; homeostazı bərpa etmək üçün stres reaksiyası olaraq adlandırılan bir proses yönəldilmişdir .

İdeal olaraq, neyrohormonal və metabolitik hadisələrin bu zənciri təcili, sonra yeni ekoloji tələblərə uzunmüddətli uyğunlaşmaların bərpası üçün nəzərdə tutulmuşdur. Bu mənada, Selye tərəfindən verilən "Ümumi uyğunlaşma sindromu" stress reaksiyasının uyğunlaşdırıcı xüsusiyyətini açıqlayır. Eyni zamanda, müəyyən bir intensivliyə çatan eyni uyğunlaşma, zərərli xarakterə səbəb ola bilər və hər hansı bir patoloji prosesə daxil ola bilər . Bu araşdırmanın məqsədi, ürək-damar sistemi xəstəliklərinin patogenezində stress reaksiyasının rolunu və yerini müəyyən etməkdir. Ümumi halda hipotalamik quruluşların aktivləşməsi homeostazın yerli pozğunluğuna cavab olaraq metabolik reaksiyaların ekstremal vəziyyətlərinin mürəkkəb xüsusiyyəti meydana gəlir.

Bu tədbirlərin həyata keçirilməsi üçün əsas mexanizm kalsiumun hüceyrədaxili yığılmasıdır. Kardiyomyositlərdə, kalsium yığılması stres reaksiyasının ilk dəqiqələrindən başlayır . Stress

reaksiyasının həqiqi təzahürləri kimi ortaya çıxan taxikardiya və hipertansiyon kimi ürək-damar sisteminin patalogiyaları bu amilin hərəkəti ilə əlaqələndirilir [1,2]. Kalsiumdan asılı mexanizmlər əzələ hüceyrələrinin yığılmasını, mitoxondrilərdə enerji meydana gəlməsini, protein sintezini və hüceyrə quruluşlarının yenilənməsi və böyüməsini gücləndirir [4]. Bununla bərabər, kalsiumun həddindən artıq yığılması hüceyrənin ölümünə səbəb ola bilər. Artıq kalsiumun ürəyə kardiotoksik təsir göstərir. Stress zamanı ürək əzələsinin ziyan görməsi qan təchizatının pozğunluğu ilə ağırlaşır. İlk baxışdan xüsusi innervasiya (orqan və toxumaların sinir tənzimi), ağır yük altında koronar qan axınının yaxşı uyğunlaşmasını təmin edir. Ancaq uzun bir stres zamanı qandakı vazopressin, adrenalin və histaminin yüksək miqdarı, β-adrenoreseptorların tədricən daşınmasına səbəb olur. Miyokard işemiyasının yüksək ehtimalı, həmçinin qan qatılığının artmasına və stres zamanı laxtalanma amillərinin aktivləşdirilməsinə də təsir edir. Stres aterosklerozun inkişafı üçün xüsusi şərtlər yaradır. Uzun müddət davam edən stres, qanda xolesterol və trigliserid konsentrasiyasının yüksək fonunda davam edir. Maraqlı hal odur ki, stress şəraitində dislipidemiya (qanda yağların yüksəlməsi) "iltihablaşdırma hazırlığı" şəraitində inkişaf edir. Bu səbəbdən qeyd edildiyi kimi, stresin erkən əlaməti işemiya və hipoksiya zamanı miyokardın sabitliyinin azalmasıdır . Beləliklə, stres reaksiyasının çoxcəhətli bir amil olduğunu, əsasən, koronar ürək xəstəliyi, ürək çatışmazlığı və ritm pozğunluqlarının meydana gəlməsini, inkişafı və proqnozunu müəyyənləşdirmək üçün bir amil olduğunu iddia etmək olar. Demək olar ki, stressin ümumi metabolitik təsiri, ürək əzələlərinin işinin pisləşməsi və ürək-damar sisteminin xəstəlikləri üçün fəsadların inkişafında ciddi rol oynayır. Deməli, stres reaksiyalarının axını üçün mexanizmlər haqqında məlumat nəzərə alınarsa, kardiologiya ürək xəstəliklərinin rasional terapiyası baxımından öz imkanlarını əhəmiyyətli dərəcədə genişləndirə bilər, xüsusən də stres komponentinin koronar patologiyaların inkişafındakı rolu olduqca realdır.

## ƏDƏBİYYAT

1. Меерсон Ф. З., Пшенникова М. Г. Адаптация к стрессовым ситуациям и физическим нагрузкам. – М.: Медицина, 1988. Креативная кардиология, № 1, 2008

2 . Пшенникова М. Г. Феномен стресса. Эмоциональный стресс и его роль в патологии // Там же. – 2000. – № 2. – С. 20–26.

3. Stoney C. M., Niaura R., Baussrman L., Matacin M. Lipid reactivity to stress: I. Comparison of chronic and acute stress response in middle-aged airline pilots // Health Psychol. – 1999. – Vol. 18, № 3. – P. 241–250.

4. Stoney C. M., Baussrman L., Niaura R. et al. Lipid reactivity to stress: II. Biological and behavioral influence // Ibid. – 1999. – Vol. 18, № 3. – P. 251–261.

**GÜLSÜM NURİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*gulsumchem@gmail.com*

## KİMYA TƏDRİSİNİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

Azərbaycanda təhsil sisteminin Avropa təhsil sistemınə inteqrasiyası təhsil sistemində yeni təlim texnologiyalarından istifadə edilməsini tələb edir. Bu da Azərbaycan təhsil sistemində islahatların aparılmasının zəruriliyini ortaya qoyur. Azərbaycanda ötən əsrin sonlarından başlayan təhsil sahəsində məzmun dəyişiklikləri təlim-tədris proseslərinin sistemli planlaşdırılmasını özündə əks etdirən kurikulum islahatları altında aparılır.

Bu məqsədlə izah edilmişdir ki, fənn kurikulumları inteqrativ xarakter daşıyır. Bu ilk növbədə onun ümumitəhsil məktəbləri üçün hazırlanması və şagird şəxsiyyətinin formalaşmasına imkan yaratması, şagirddə həyati bacarıqların yaradılması, onların davamlı fəaliyyəti üçün hazırlanması ilə bağlıdır. Ona görə də kurikulumda əks olunmuş təlim nəticələri biri digərini tamamlamaq, möhkəmləndirmək, davam etdirmək baxımından elə ardıcıl verilir ki, onların vasitəsi ilə şagird şəxsiyyətinin formalaşması və inkişafını izləmək olar.

Bu əlaqələr məzmun və istiqamətinə görə iki yerə ayrılır: şaquli inteqrasiya,üfüqi inteqrasiya.

Şaquli inteqrasiya daha çox fənnin siniflər və mərhələlər arasındakı əlaqəsini, üfüqi inteqrasiya isə müxtəlif, lakin uyğun gələn fənlərin əlaqəsini ehtiva edir. Bütün hallarda şagirdlərin inteqrativ standartlar əsasında ölçülə bilən bacarıqlara yiyələnmələri diqqət mərkəzində saxlanılır.

Kimya, fizika və biologiya elmlərinin arasında qarşılıqlı əlaqənin mümkünlüyü, metodik ədəbiyyatla tanışlıq, proqram və dərsliklərin əlaqə cəhətdən təhlili, nəhayət məktəb təcrübəsi bizi belə bir qənaətə gətirmişdir: kimya ilə fizika və biologiya fənləri arasında olan üzvi bağlılıqdan kimyanın tədrisində istifadə mənimsəmənin keyfiyyətini yüksəldir [1-3].

Kimya və biologiya elmləri arasında qarşılıqlı əlaqənin mümkünlüyü,proqram və dərsliklərin əlaqə cəhətdən təhlili, metodiki ədəbiyyatla tanışlıq, nəhayət məktəb təcrübəsi bizi belə bir qənaətə gətirmişdir ki, kimya ilə biologiya fənləri arasında olan üzvi bağlılıqdan bu fənlərin tədrisində istifadə mənimsəmənin keyfiyyətini yüksəldir.

Kimya və biologiya fənləri arasındakı mövcud əlaqədən tədris prosesində istifadə edərkən aşağıdakıları nəzərə almaq lazımdır:

-kimya və biologiya proqramlarını müqayisə edib əlaqəli mövzuları ortaya çıxarmaq, onların tədris yerini müəyyənləşdirmək;

-əlaqəli mövzulara aid faktiki materialların dərslikdə necə işıqlandırıldığını nəzərdən keçirmək və onun məzmunu ilə tanış olmaq.

Amintурşuları kimya və biologiya fənlərində tədris olunan ortaq mövzulardan biridir.

Məqalədə zülalların tərkibinə daxil olan və orqanizm üçün mühüm əhəmiyyət kəsb edən aminturşularının tədrisi metodu aydınlaşdırılmışdır [2-3].

Canlı orqanizmdə zülalların tərkibinə daxil olan aminturşular haqqında şagirdlərə məlumat vermək üçün zülallara aid aşağıdakı məlumatdan istifadə etməklə qarşıya qoyulmuş məqsədə nail olmaq olar. Bu məqsədlə, müəllim izah etməlidir ki, zülallar canlı orqanizmin tərkibinə daxil olan ən mühüm üzvi birləşmələrdəndir. Onların orqanizm üçün həm praktiki, həm də energetik əhəmiyyəti var. Belə ki, zülallar həm hüceyrə quruluşunun əmələ gəlməsində iştirak edir, həm də toxumalarda parçalanaraq orqanizmin həyat fəaliyyəti üçün vacib olan enerji hasil edir. Bundan əlavə, bütün canlı orqanizmlərə xas olan maddələr mübadiləsi, böyümə və çoxalma qabiliyyəti zülali maddələrlə əlaqədardır. Orqanizmdə baş verən bütün biokimyəvi proseslərin gedişində iştirak edən fermentlər zülali maddələrdir. Qurudulmuş insan bədəninin 45%-ni və bəzi üzvlərin 80%-dən çoxunu zülali maddələr təşkil edir. Bitkilərdə zülali maddələr nisbətən az olur.

Zülali maddələrin növləri çox, tərkibləri isə müxtəlifdir. Zülali maddələrin tərkibi əsasən C, H, O, N az miqdarda S-dən ibarətdir. Bu elementlərdən başqa zülalların tərkibində Fe, Mg, Cu və P

elementlərinə də rast gəlinir. Zülalların tərkibində 50-55% karbon, 21.5-23.5% oksigen, 6.5-7.3% hidrogen, 15-18% azot və 0.2-3.4% kükürd olur. Zülali maddələr böyük molekul çəkisinə malikdir. Müxtəlif zülalların molekul çəkisi 12000-dən başlayaraq, bəzən bir neçə milyona çata bilir.

Müəllim izah etməlidir ki, zülalların təbii mənbələrdən alınmış proteolitik fermentlərlə hidroliz edilməsi nəticəsində 20-dən artıq aminturşu alınmışdır.

Aminturşular-molekuluna amin $-NH_2$ və karboksil $-COOH$ qrupları daxil olan üzvi maddələrdir. Təbiətdə rast gəlinən aminturşuların hamısı $\alpha$-strukturlu aminturşulardır. Yəni onların molekullarında amin qrupları karboksil qrupuna ən yaxın olan karbon atomuna birləşmişdir. $\alpha$-aminturşularının molekul quruluşu aşağıdakı ümumi formula müvafiq gəlir:

$$\underset{\displaystyle |\atop NH_2}{R-CH-COOH}$$

$\alpha$-aminturşularının molekullarında karboksil qrupundan sonrakı karbon atomuna müxtəlif radikallar birləşdiyi üçün onların hamısı optik fəal maddələrdir. Bu cəhətdən yalnız aminturşularının ən sadə nümayəndəsi olan qlikoqol müstəsnalıq təşkil edir.Zülalların tərkibində *l*-sıradan olan aminturşulara rast gəlmək mümkündür.*d*-sıradan olan aminturşular sintetik yolla alınır. Onlar zülalların tərkibinə daxil olmur və çox nadir hallarda orqanizmdə sərbəst halda rast gəlinir. Bitki və heyvan orqanizmlərində zülal mübadiləsində iştirak edən fermentlərin hamısı spesifik olaraq *l* -sırası aminturşularına təsir edir. Buna görə də *d*-aminturşular orqanizm tərəfindən çox çətin mənimsənilir.

Aminturşuların optik izomerlərinin dadları da bir-birindən fərqlənir: *l*-sırası aminturşuları acı, *d*-sırası aminturşuları şirin dada malikdir. Aminturşuların kimyəvi xassələri, onların tərkibində olan amin və karboksil qruplarının sayı ilə əlaqədardır. Bu baxımdan aminturşular üç qrupa bölünür:

1.Monoaminmonokarbon turşuları [$NH_2$-R-COOH]
2.Monoamindikarbon turşuları [$NH_2$-R-$(COOH)_2$]
3.Diaminmonokarbon turşuları [$(NH_2)_2$-R-COOH]

Heyvan və insan orqanizmində aminturşuların bir hissəsi həm sintez olunur, həm də qidanın tərkibindəki zülallardan mənimsənilir. Digər aminturşular isə sintez olunmur, yalnız qida zülallarının tərkibində qəbul edirlər. Birinci qrup aminturşulara əvəz edilən, ikinci qrula isə əvəz edilməyən aminturşular deyilir.

Kimyəvi quruluşuna görə atsiklik və tsiklik aminturşulara bölünür.

Atsiklik aminturşuları izah edərkən müəllim qeyd etməlidir ki, bu aminturşularına monoaminmonokarbon turşularının, monoamindikarbon turşularının və diaminmonokarbon turşularının nümayəndələri daxildir. Monoaminmonokarbon turşularının molekulunda amin qruplarının sayı karboksil qruplarının sayına bərabərdir. Buna görə də onların suda məhlulları neytral reaksiyalı olub, lakmusa təsir etmir. Bu turşulara qlikoqol, alanin, serin, treonin, valin, leysin, izoleysin və kükürdlü aminturşualrın nümayəndələri-sistein, sistin və metionin daxildir.

Müəllim aydınlaşdırmalıdır ki, bu aminturşularından qlikoqol, alanin, serin, sistin və sistein orqanizm tərəfindən başqa maddələrin parçalanma məhsullarından sintez oluna bilir. Ancaq elə monoaminmonokarbon turşuları var ki, onlar yalnız qida vasitəsi ilə orqanizmə daxil olmalıdır. İzoleysin və leysin belə aminturşulardandır.

Monoamindikarbon turşularını izah edərkən müəllim qeyd etməlidir ki, bu aminturşuların molekuluna bir amin və iki karboksil qrupu daxildir. Tərkibində karboksil qrupları amin qruplarına nisbətən çox olduğuna görə bu turşuların məhlulları turş reaksiya verir. Bu qrupa asparagin, qlütamin və $\beta$-hidroksiqlütamin turşuları aiddir. Monoamindikarbon turşuları, heyvani orqanizmlərdə sintez oluna bilir. Onlar orqanizmdə gedən azot mübadiləsində mühüm rol oynayırlar. Bitki zülallarının tərkibində çoxlu miqdarda monoamindikarbon turşuları olur. Diaminmonokarbon turşuları izah edirlərkən aydınlaşdırılmalıdır ki, bu turşularda iki amin və bir karboksil qrupu olduğuna görə bunların suda məhlulu əsasi xassəyə malik olur. Bu turşulara lizin, hidroksilizin və arginin aiddir.

Tsiklik aminturşuları izah edilərkən qeyd olunmalıdır ki, bu turşular homotsiklik və heterotsiklik olmaqla iki qrupa bölünür. Homotsiklik aminturşularına fenilalanin və triozin aiddir.

Fenilalanin heyvani orqanizmlərdə sintez olunmur, yalnız qida zülallarının tərkibində qəbul edilir. Orqanizmin triozinə olan tələbatı əsasən zülalların parçalanması nəticəsində ödənilir.

Kimya fənninin təlimində indiyədək istifadə etdiyimiz məzmun standartlarının çoxu əsasən bilik və fənn yönümlü olmuşdur, daha çox nəzəri xarakter daşıyır. Həmçinin onların fənndaxili və fənlərarası əlaqələrinə, inteqrativ formada öyrənilməsinə az diqqət ayrılmışdır. Bəzən belə hesab edirlər ki, fənn kurikulumlarının bir-biri ilə əlaqələndirilməsi məqsədə uyğun deyil. Bununla yanaşı bir çox ölkələrdə kurikulumların bu və ya başqa formada inteqrasiya edilməsi müsbət nəticələr verir.

Müasir dövrdə bu məsələyə düzgün yanaşan təhsil işçiləri kurikulumların inteqrasiyasını XXI əsrdə təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində daha düzgün yol hesab edirlər. Hazırda bu sahədə müxtəlif fənn kurikulumlarının inteqrasiyası əhəmiyyətli konsepsiya kimi qəbul edilir.

## ƏDƏBİYYAT

1. A.Seyidova və M.Seyidov. Bitkilərin kimyəvi tərkibinin öyrədilməsi metodikası. NMİ xəbərləri №1(17),2009.
2. A.Seyidova və M.Seyidov. Kimyəvi elementlərin tədrisində fənlərarası əlaqədən istifadə metodikası. NMİ xəbərləri №1(13),2008.
3. M.Seyidov. Üzvi kimyanın tədrisi zamanı fənlərarası əlaqənin yaradılması. Müasir riyaziyyat və təbiətşünaslığın problemləri. Naxçıvan:"Qeyrət" nəşriyyatı, 2001.

**MƏHƏBBƏT QARAYEVA**
*Kimya fənninin tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*qarayevamehebbet397@gmail.com*

# KİMYƏVİ REAKSİYALARIN İSTİLİYİ ALTERNATİV ENERJİ MƏNBƏYİ KİMİ

Bəşəriyyət üçün zərurətə çevrilən elektrik enerjisi istilik, su, atom elektrik stansiyalarından (İES, SES, AES) başqa, kimyəvi reaksiyalar vasitəsilə də istehsal olunur. Elektrik enerjisinin kimyəvi mənbələrinə akkumulyatorlar (yığıcı), quru elementlər, müxtəlif növ batareyalar, o cümlədən 2019-cu ilin kimya üzrə Nobel mükafatına layiq görülən litium-ion batareyaları misal göstərilə bilər. Bu kimyəvi enerji mənbələrinin doldurulması zamanı dönər elektrokimyəvi proseslər nəticəsində elektrik enerjisi kimyəvi enerjiyə çevrilir; boşalma zamanı isə əks istiqamətdə baş verən proses nəticəsində yenidən elektrik enerjisi (sabit elektrik cərəyanı) əmələ gələrək yığılır. Elektrik enerjisinin dövri olaraq yaranması bu enerji növünü bərpa olunan, insanların məqsədyönlü fəaliyyəti nəticəsində yaranması isə bərpa olunmayan enerji mənbələrinə yaxınlaşdırır. Başqa sözlə, bərpa olunan və bərpa olunmayan enerji mənbələrinə nəzərən elektrik enerjisinin kimyəvi mənbələri müəyyən aralıq yer tutur.

Akkumulyatorlar turşulu və qələvili olmaqla iki yerə bölünür. Turşulu akkumulyatorların əsasını qurğuşun, qələvili akkumulyatorların əsasını isə kadmium-nikel (KN), dəmir-nikel (DN) və gümüş-sink (GS) akkumulyatorları təşkil edir.

İşlətməyə hazır olan qurğuşunlu akkumulyator şəbəkəşəkilli və məsaməli qurğuşun təbəqələrdən ibarətdir. Bunların bir qismi $PbO_2$ ilə, digəri isə metallik qurğuşunla doldururlur. Anod və katod rolu oynayan təbəqələr 35-40%-li sulfat turşusu məhluluna salınır. Məhz bu qatılıqlı turşu maksimal məxsusi elektrik keçiriciliyinə malikdir. Akkumulyatorun işləməsi zamanı elektrodlarda baş verən oksidləşmə-reduksiya prosesləri aşağıdakı yekun tənliklə ifadə olunur:

$$2PbSO_4 + 2H_2O \rightleftharpoons Pb + PbO_2 + 2H_2SO_4$$

İstismar şəraitinin tədqiqi nəticələri göstərmişdir ki, turşulu (qurğuşunlu) akkumulyatorlardan fərqli olaraq qələvili akkumulyatorlar ifrat yüklənməyə və boşalmış halda uzun müddət qalmağa yaxşı davam gətirirlər. Bu xüsusiyyətlərinə görə, həmçinin silkələnmələrə qarşı davamlı olmaları sayəsində, çox vaxt onlardan müxtəlif səyyar qurğularda istifadə edilir. Qələvili akkumulyatorların əsas nöqsan cəhəti faydalı iş əmsalının xeyli aşağı olmasıdır. Buna görə də iri stasionar qurğular üçün qurğuşunlu akkumulyatorlar hələlik daha üstün tutulur. Lakin son bir neçə onillikdə intensiv surətdə aparılan tətbiqi xarakterli elmi-tədqiqat və mühəndis-texnoloji işlər sayəsində turşulu və qələvili akkumulyatorların çatışmazlıqlarını, əsasən aradan qaldırmaq mümkün olmuş, əlavə olaraq tamamilə yeni tip və çox geniş tətbiq sahələrinə malik olan litium-ion batareyaları (akkumulyatorları) yaradılmışdır.

İlk litium-ion akkumulyatoru 1991-ci ildə Sony şirkəti tərəfindən buraxılmışdır. Litium-ion akkumulyatorlarının xarakteristikaları onların tərkib hissələri və işçi elementlərindən asılı olaraq geniş intervalda dəyişir. Həmin xarakteristikalara bir elementin verdiyi gərginlik, xüsusi enerji tutumu, daxili müqavimət, dolma-boşalma tsikllərinin sayı, işçi temperaturunun diapazonu və s. aiddir. Ötən 30 il ərzində müxtəlif ölkələrin alim-mütəxəssisləri, aparıcı şirkətlər tərəfindən ardıcıl olaraq təkmilləşmələr aparılmış, onların işçi parametrləri yaxşılaşdırılmış, qiymətləri ucuzlaşmış, kütləvi istehsala keçid təmin olunmuşdur. Hazırda bu sahədə dünya üzrə aparıcı yeri “Tesla” şirkəti tutur.

İsveçin paytaxtı Stokholmda Nobel Mükafatları Komitəsi ənənəyə uyğun olaraq 2019-cu il üzrə ayrı-ayrı elm sahələrində Nobel mükafatı laureatlarının adlarını açıqlamış, mükafatlar isə dekabr ayında təqdim olunmuşdur. Komitənin üzvü, Prinston Universitetinin professoru C.Pibls elmi karyera barədə düşünən gənclərə məsləhət verib: “Mükafata görə yox, elmə olan məhəbbətdən elm yolunu

tutmaq lazımdır. Əgər elm sizi heyran edirsə, deməli, elmlə məşğul olmağa dəyər”. İsveç Kral Elmlər Akademiyasının qərarı ilə **2019-cu il kimya üzrə Nobel mükafatına “Litium-ion batareyalarının inkişafı”** sahəsindəki elmi-tədqiqatlara görə amerikalı alim Con B.Qudinaf və onun iki həmkarı-Maykl Stenli Uittingem (Britaniya-Amerika) və Akira Yoşino layiq görülmüşlər. “Litium-ion akkumulyatorları bizim həyatımızda inqilab edib və mobil telefonlardan tutmuş noutbuklara və elektromobillərə qədər hər yerdə tətbiq olunurlar. Bu ilin laureatları mədən yanacağındakı azad olan cəmiyyətin yaradılmasına yaxınlaşdırıblar və bəşəriyyətə çox böyük fayda veriblər”-deyə İsveç Kral Elmlər Akademiyasının üzvləri bildiriblər. Bu batareyalar alternativ energetika sahəsində geniş tətbiq olunur, bu da son nəticədə bəşəriyyətin yanacaq mənbələrindən asılılığını azaltmağa kömək edir. Litium-ion batareyaları yüksək texnologiyaların-mobil telefonlar, noutbuklar, kardiostimulyatorlar və elektromobillərin inkişafında mühüm rol oynayıb. Onlar əvvəlki batareyalardan daha yüngül və daha kompaktdır, portativ elektronikada istifadə olunur. Onlardan qadjetlərdə istifadə edilir, belə batareyalar bütün mobil telefonlarda mövcuddur. Buna baxmayaraq, bu vaxtra qədər alimlər heç vaxt belə faydalı ixtiraya görə nobel mükafatı almamışlar.

Qeyd edək ki, 2019-cu ilin kimya üzrə Nobel mükafatçılarından biri olan **amerikalı alim Con B.Qudinaf** (John Bannister Goodenough) **97 yaşlı olub** fizika və materialşünaslıq sahəsində görkəmli mütəxəssisdir. O, bu vaxta qədər Nobel mükafatına layiq görülmüş ən qocaman alimdir. Hazırda Texas Ostin Universitetində çalışır, professordur. O, litium-ion akkumulyatorunda katod kimi kobaltit-litiumdan istifadəni təklif edib.

Digər laureat **Akira Yoşino** (Yoshino Akira) **71 yaşlı yapon kimyaçı-alimi olub**, hazırda “Asahi Kaseyi” şirkətində çalışır, Meydze Universitetinin professorudur. O, hələ 1985-ci ildə litium-ion akkumulyatorlarının prototipini hazırlayıb və bu işə görə patent alıb.

**Üçüncü laureate M.Stenli Uittingem** (M.Stanley Whittingham) **78 yaşlı, Britaniya** əsilli Amerika vətəndaşı olub litium-ion batareyalarının yaradıcılarından biridir. Hazırda Nyu-Yorkdakı Bingemton Universitetinin professorudur. Alimlərin üçü də bir çox nüfuzlu mükafatların laureatları, Beynəlxalq elmi cəmiyyətlərin mükafatçılarıdır.

**TÜRKAN HÜSEYNOVA**
*Mamalıq, ginekologiya və süni mayalanma*
*Naxçıvan Dövlət Universiteti*

# DAMAZLIQ HEYVANDARLIĞIN İNKİŞAFINDA SÜNİ MAYALANMANIN ROLU

Respublikamızda fəaliyyət göstərən fermer təsərrüfatlarında heyvandarlığın inkişafını əsaslı surətdə yaxşılaşdırmaq məqsədilə təsərrüfatların intensiv texnologiya əsasında inkişaf etdirilməsi vacib məsələlərdən biridir. Heyvandarlığın müvəfəqiyyətlə imkişafı isə hər bir bölgənin təbii-coörafi şəraitindən asılıdır.

Kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılmasında heyvanlara düzgün qulluq və sanitar-gigiyenik qaydalarla riayət edilməsi yanaşı, mal-qaranın vaxtında mayalanması olduqca vacib amillər hesab edilir.

Dünyanın hər yerində olduğu kimi respublikamızda da ət və süd məhsularına olan tələbatın ödənilməsi üçün qarşısda duran başlıca məsələ, məhsuldarlığın yüksəldilməsi tədbirlərinin həyata keçirilməsidir. Elmi araşdırmalar və qabaqcıl heyvandalıq təsərrüfatlarının təcrübəsi göstərir ki, heyvandarlığın inkişafı üç əsas amildən - birincisi damazlıq material, ikincisi heyvandarlığın yem bazası və üçüncü heyvandarlıq məhsullarının istehsalında müasir texnologiyaların tətbiqindən asılıdılr (1; 3;7).

Damazlıq heyvandarlığın inkişaf etdirilməsində məqsəd, kənd təsərrüfatı heyvanlarının məhsuldarlığını artırmaq, mənşəyi bəlli, sabit irsi əlamətlərə malik yüksək məhsuldar cins heyvanlar yetişdirmək, onların təkrar istehsalını və səmərəli dövriyyəsini təşkil etmək, yerli heyvan cinslərinin qorunub saxlanmasını təmin etməklə heyvandarlığın inkişafına nail olmaqdır (2).

Heyvandarlıqda idarəetmə sisteminin mövcud strukturunun yeniləşdirilməsi məqsədilə respublikamızda damazlıq işinin yenidən qurulmasına böyük ehtiyac vardır. Mühüm əhəmiyyəti olan bu tədbirin vaxtında və müvəffəqiyyətlə yerinə yetirilməsində Süni Mayalama Mərkəzlərinin öhdəsinə də mühüm vəzifələr düşür.

Damazlıq heyvanların cins tərkibinin yaxşılaşdırılmasında və sürətlə törəyib artmasında ən mütərəqqi zoobaytar tədbirlərdən biri də süni mayalama üsuludur (4;5;6).

Hazırda dünyanın aparıcı dövlətləri süni mayalanma yolu ilə yanaşı embrionun köçürülməsi (transplantasiya) ilə məşğul olmaqla ən yüksək məhsuldar fərd və heyvan qrupların yaradılmasına nail olmuşlar (6;7).

Süni mayalama üsulu heyvanların cins tərkibinin təkmilləşdirilməsi və məhsuldarlığın artırılmasında ən qısa və səmrəli yol hesab olunur.

Süni mayalanma zamanı heyvanların mayalandırılması üçün az miqdarda törədicilərdən istifadə olunma imkanı yaranır. Bu üsulda törədicidən daha səmərəli istifadə olunur. Belə ki, buğadan alınmış birdəfəlik yüksək keyfiyyətli toxum ilə 18-20 inəyi mayalamaq olar.

Təbii cütləşmədə bir buğaya 25-35 baş, əl ilə cütləşmədə isə 80-120 baş inək ayrıldığı halda, süni mayalanmada bir ildə 4-6 min baş süni mayalamaq olur.

Süni mayalanma zamanı yeni cinslərin yaradılması və mələzləşdirmə işləri qısa müddətdə başa çatdırılır(1).

Yoluxucu xəstəliklərə qarşı aparılan tədbirlərin sırasında süni mayalanmanın tətbiqi əsas yer tutur. Təbii cütləşmə üsullarında təsərrüfatda yolxucu vaginit, trixomonoz, vibroz kimi xəstəliklər təsərrüfata ziyan vurur. Lakin süni mayalanmada isə ancaq sağlam törədicilərdən toxum alınır.

Süni mayalanma üsulunda qısırlığın aradan qaldırılmasına və balalama faizinin artmasına nail olunur. Süni mayalanmada əsasən yüksək keyfiyyət sinifinə məxsus törədicilərdən alınmış toxumdan istifadə edilərək yeni məhsuldar cinslər əldə edilmişdir.

**Nəticə.** Beləliklə, ədəbiyyat materiallarının təhlili və qabaqcıl heyvandarlıq təsərrüfatlarının təcrübəsi göstərir ki, süni mayalama heyvandarlığın genetik tərkibinin yaxşılaşmasında xüsusi bir vasitəyə çevrilmişdir. Süni mayalama iqtisadi və praktiki cəhətdən çox əhəmiyyətli olub, damazlıq-

seleksiya işlərinin əsasını təşkil edir.

## ƏDƏBİYYAT


1. Bəşirov E. Azərbaycanda damazlıq heyvandarlığın problemləri və inkişafının elmi əsasları (1995-2007). Bakı: Şərq-Qərb, 2008, 592 səh.
2. Damazlıq heyvandarlıq haqqında. Azərbaycan Respublikasının qanunu, 18 dekabr 2007-ci il
3. Məmmədov Ə.T.,Yusifov A.H. Kənd təsərrüfatı heyvanlarının süni mayalanması və baytarlıq-sanitariya tədbirləri. Bakı: 2004, 32 səh.
4. Rzayev C, Səidov M. Baytarlıq mamalığı, ginekologiyası və kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması. Bakı: 1975, 305 səh.
5. Tağıyev S. Kənd təsərrüfatı heyvanlarının süni mayalandırılmasından təcrübə məşğələləri. Gəncə: 2010, 206 səh.
6. Erol Alaçam, Hüseyn Deveçi, Dursun Ali Dinç və b. Evcil hayvanlarada repodüksiyon suni tohumlama obstetrik ve infertile. Ankara: 1998, 521 s
7. Студенцов А.П., Шипилов В.С., Никитин В.Я., Петров А.М., Дюльгер Г.П., Храмцов В.В., Преображенский О.Н. Акушерство, гинекология и биотехника репродукции животных: учебник. Издательство "Лань", 2019, 589 с.

**ƏSGƏR LƏTİFOV**
*Parazitologiya və invazion*
*xəstəliklər*
*Naxçıvan Dövlət Universiteti*

## EV QUŞLARIN ASKARİDİOZUNDA ÜMUMİ PROFİLAKTİKA

Profilaktika - helmintozların qarşısının alınmasında aparılan kompleks mübarizə tədbiridir. Quşları tam keyfiyyətli yemlərlə yemləndirmək və zoogigiyeniki şəraitdə bəsləməklə müəyyən qədər helmintozlarla yoluxmanın qarşısı alınır. Bir çox bio və geohelmintozların (strongilyatozlar, askaridoz) profilaktikasında bu üsuldan istifadə etməklə helmintlərlə yoluxmanı nəzərəçarpacaq dərəcədə aşağı salmaq mümkündür. Ətraf mühitin helmint invaziyalarından zərərsizləşdirmək məqsədilə quşlar saxlanılan binalar və onların ətrafları dezinvaziya edilir.

Hər hansı helmintoza görə qeyri-sağlam hesab edilən fərdi və fermer təsərrüfatlarında peyin vaxtaşırı təmizlənməklə, biotermik yolla zərərsizləşdirilir. Bu zaman helmint yumurta və sürfələri ilə yanaşı, bir çox patogen ibtidai və mikroorqanizmlər də məhv edilmiş olur. Helmintlərin aralıq sahiblərini məhv etməklə biohelmintoz törədicilərinin inkişaf mərhələsi dayandırılır. Bəzi helmintlərin inkişafında aralıq və saxlanc sahiblər kimi iştirak edən onurğasızların, eləcə də onların orqanizmində parazit sürfələrinin məhv edilməsində kimyəvi, bioloji və fiziki mübarizə üsullarından istifadə edilir.

Müəyyən edilmişdir ki, toyuq və hind toyuqlarının askaridioz və heterakidozunun, eləcə də ördək və qazların qanquleterakidozunun törədiciləri quşların gəzinti sahələrində yayılmaqla, yoluxma peyinlə çirkləndirilmiş yem və əşyalarala keçir. Ona görə də bu helmintozların profilaktikasında qeyd edilən ərazilərin vaxtaşırı mexaniki təmizlənilməsi və termiki, kimyəvi üsüllarla dezinvasiya tədbirlərinin aparılması zəruridir.

Quşların helmintlərlə yoluxma mənbəyini və yollarını müəyyən etməklə, helmintozlara qarşı profilaktiki tədbirlər aparmaq mümkündür. Ümumi profilaktiki tədbirlərə, sağlam quşçuluq təsərrüfatlarında cücələrin yaşlı quşlardan ayrı saxlanılması, quşların tam keyfiyyətli yemləndirilməsi, istifadə edilən otarılma və suvarılma sahələrinin vaxtaşırı dəyişdirilməsi, quş binalarının istifadə edilən əşyaların, gəzinti sahələrinin dezinvaziyası, peyinin biotermiki zərərsizləşdirilməsi, həmçinin, fərdi və ya fermer təsərrüfatalrında helmintozların vaxtında aşkar edilməsi və bu xəstəliklərin epizootoloji vəziyyətinin müəyyənləşdirilməsi aid edilir.

Adətən, körpə quşların helmintlərlə yoluxması təsərrüfatlardakı gəzinti sahələrində, su mənbələrində yaşlı quşlarla təmasdan sonra baş verir. Yaşlı quşlarda helmintozlar xroniki gedişli olmaqla, onlar helmint törədicilərinin daşıyıcısına çevrilirlər. Ona görə yaşlı quşlarla birlikdə saxlanılan cücələr tez bir zamanda müxtəlif helmintlərlə yoluxmuş olurlar.

Yaşlı quşlar helmintozlara qarşı davamlı olduqlarından, helmintlərələ zəif yoluxma onların orqanizmində nəzərçarpacaq funksional dəyişikliklər əmələ gətirə bilmir. Cücələr isə invaziyalara qarşı həssas olduqlarından, asanlıqla helmintozlara yoluxurlar. Onlarda xəstəlik iti gedişli olmaqla, bəzən kütləvi tələfata səbəb olurlar. Bunun qarşısını almaq üçün körpələri yaşlı quşlardan ayrı saxlamaq zəruridir.Quşlar saxlanılan binalarda vaxtaşırı dezinvaziya tədbirləri aparılmalıdır.

Ümumiyyətlə, quşların saxlanılma şəraitlərindən (qəfəs və ya açıq) asılılı olmayaraq, ətraf ərazilərin təmizlənilməsi helmintlər və onların sürfələri ilə yoluxmanın qarşısını kifayət qədər almaq mümkündür.

Ümumi profilaktiki tədbirlərə körpə quşların sağlam gəzinti və su sahələrində saxlanılması, tam keyfiyyətli yemləndirmə, növbəli otarılma sahələrindən və su hövzələrindən istifadə, quşlar saxlanılan binaların və istifadə edilən alətləri dezinvaziyası, peyinin biotermiki zərərsizləşdirlməsi, təsərrüfatlarda helmintozların vaxtında aşkar edilməsi və bu xəstəliklərə qarşı epizootoloji vəziyyətin düzgün qiymətəlndirlməsi.

Yumurtadan yeni çıxmış cücələr helmintlərdən tam azad olurlar. Onların helmintlərlə

yoluxması yalnız yaşlı quşlarla otlaqda, gəzinti sahələrində və su hövzələrində təmasdan sonra baş verir. Helmintozların xarakterik xüsusiyyətləri ondan ibarətdir ki, helmintlər daha çox zəif inkişaf etmiş quşları yoluxdurular və xəstəlik xroniki gedişli olur. Xəstə quşlar helmintozların yayılmasında mənbə rolu oynayır və digər quşların yoluxmasında iştirak edir. Yaşlı quşlar helmintozlara qarşı daha dayanıqlı olduğundan, onların hər hansı helmintlə yoluxması zamanı orqanların funksiyasında nəzərəçarpacaq dəyişikliklər baş vermir, xəstəlik əlamətləri müşahidə edilmir.

Körpə quşlar isə əksinə, helmintozlara qarşı çox həssas olduğundan invaziyaya asanlıqla yoluxurlar. Xəstəlik belə quşlarda iti gedişli olur və cücələrin kütləvi tələfatına səbəb olur. Belə intensiv yoluxmanın qarşısını yalnız, körpələri yaşlı quşlardan ayrı saxlamaqla almaq olaar. Ançaq, əgər körpə quşlar quş damalrında, gəzinti sahələrində, hovuzlarda helmint sürfə və yumurtaları ilə çirkləndirilmiş yerlərdə saxlanılarsa, parazitlərlə asanlıqla yoluxa bilirlər. Ona görə də cücələri qapalı, helmint törədicilərinə görə sağlam olan gəzinti, otlaq və hovuzlarda saxlamaq zəruridir, helmintozlarla yoluxmanın qarşısını alır.

Hər hansı təsərrüfatda helmintlərlə yoluxma aşkarlanarsa, kimyəvi-profilaktiki dehelmintizasiya, quş saxlanılan binaların müntəzəm dezinvaziyası, peyinin daşınması, həyətin təmizlənməsi təmin edilir.

Toyuq və hind toyuqlarınıın helmintozlarının profilaktikasında ilin fəslinə və yerli iqlim şəraitinə uyğun olaraq, hər 10-30 gündən bir otlaqların dəyişdirilməsi məqsədəuyğun hesab edilir. Otlaqların dəyişdirilməsi əsasən askaridi və heterakis yumurtalarının ətraf mühitdə inkişafına uyğun olaraq, müəyyənləşdirilir. Əgər belə tez bir zamanda otlaqları dəyişdirmək mümkün deyilsə, onda səmərəliliyin aşağı olmasına baxmayaraq, təsərrüfatın imkanları daxilində növbəli otlaqlardan istifadə edilir. Əvvəlki otlağa quşlar iki aydan tez olmayaraq qaytarılmamalıdır.

Quşların hansı formada saxlanılma şəraitindən asılı olmayaraq, binaların və bina ətrafı sahələrin, gəzinti meydançalarının vaxtaşırı təmizləməsi vacib şərtlərdəndir. Quşların yemləndirildiyi qablar, oturacaqlar, su qabları və əşyalar, quş peyinindən təmizlənməlidir.

Döşəmə şəraitində saxlanılan və uzun müddət altlığı təmizlənilməyən binalarda, peyinin daşınmasından sonra dezinvaziya tədbirləri aparılır. Quşların gəzinti sahələrində isə peyin gündəlik təmizlənir. Mexaniki təmizəmə tədbirləri aparıldıqdan sonra, təsərrüfatda helmintozların baş vermə vəziyyətindən, iqtisadi şəraitindən asılı olaraq, quşçuluq binalarında və gəzinti sahələrində dezinvaziya aparılır, alətlər isə qaynar su, yaxud güclü təsir göstərən dezinvaziya vasitələri ilə-5%-li ksilonafat, ortoxlorfenol və digər preparatlarla zərərsizləşdirilir.

**NURİDƏ PAŞAYEVA**
*Baytar-sanitar ekspertizası*
*Naxçıvan Dövlət Universiteti*

# BRUSELYOZ AŞKAR EDİLMİŞ QARAMALIN KƏSİM MƏHSULLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Xəstə heyvanlardan alınmış kəsim məhsulları nəinki digər qida məhsullarının çirklənməsini törədir, həm də insanların və heyvanların bu xəstəliyə yoluxmasına səbəb olur. Bu cür zoonoz xəstəliklərdən biri də brusellyozdur.

Brusellyoz (lat. – Brucellosis, ing. – Undulant fever; malta isitməsi, Banq xəstəliyi, epizootiki balasalma) – müxtəlif növ heyvanların və insanların xroniki xəstəliyi olub, dişilərdə əsasən balasalma, sonun ləngiməsi, erkəklərdə isə orxit və epididimitlə səciyyələnir (1, s. 20).

Brusellyozla qaramal, qoyun, keçi, donuz və atlar xəstələnir. Laboratoriya və vəhşi heyvanlar da xəstələnirlər. İnsanlar da brusellyoza həssasdırlar. Onlar brusellyozla xəstə heyvan və onların kəsim məhsulları ilə təmas yolu ilə, habelə onların zərərsizləşdirilməmiş ət, süd və süd məhsullarını qəbul etdikdə yoluxurlar.

Müasir zamanda brusellyoz 6 növlə təsvir olunur ki, onlardan 3-nün bir neçə biovarı vardır Br. abortusun – 9, Br. melitensisin – 3, Br. suisin – 5 biovarı vardır. Br. neotome, br. ovis və br. canisin hər birinin bir biovarı vardır (4, s. 70; 5, s. 250).

Törədicisi - Brusella növünə aid bakteriyalardır. Bunlar kiçik oval, kokka bənzər formalı aerob bakteriyalar olub, hərəkətsiz, spor və kapsul əmələ gətirməyən, qrammənfi, Kozlovski üsulu ilə yaxşı boyanırlar. 70°C-də brusellalar 5 dəqiqə müddətində məhv olurlar.

İnsan üçün daha virulent növ olan B. melitensisin əsas sahibləri keçilər və qoyunlar olduğu üçün hamısından çox məhz xırdabuynuzlu heyvanların yoluxmuş fərdləri təhlükəlidir. Lakin bəzən B. melitensisin iribuynuzlu mal-qaraya miqrasiyası müşahidə olunur, belə hallarda insanın belə heyanlardan yoluxması və xəstələnməsi ehtimalı tamamilə real vəziyyət alır.

Seryogin və başqaları tərəfindən (2018) ərzaq bazarlarının laboratoriyası şəraitində brusellyozla xəstə heyvanların ətlərinin aşkar edilməsinin test-sistemi işlənilmişdir (4, s. 69).

Brusellyoza diaqnoz formal olaraq, kəsimdən əvvəlki (kliniki əlamətlərə), kəsimdən sonrakı (patomorfoloji dəyişikliklərə), laboratoriya diaqnozu (seroloji, bakterioloji, molekulyar-genetik müayinələrə) bölünür (5, s. 251).

Brusellyoza diaqnoz epizootoloji verilənlərin analizi, kliniki əlamətlər, laboratoriya müayinələri, patomorfoloji dəyişikliklər əsasında kompleks üsulla müəyyənləşdirilir (5, s. 251).

Heyvanlara infeksiyanın verilməsi xəstə heyvanların sağlamlarla təması, otlaqlarda, su içmə və mayalanma zamanı mümkündür (4, s. 71).

İnfeksiyanın ağır gedişi baş verdikdə bütün heyvanlarda bədən temperaturu yüksəlir ki, bu da ətin çıxdaş edilməsinə səbəb olur (4, s. 72).

Brusellyoz zamanı xəstəliyin başlanğıcında limfa düyünləri böyümüş, sulu, kəsik səthində nöqtəli düyünlər olur ki, sonradan onlar sarımtıl rəng alaraq ətraflarında sıx birləçdirici toxuma, bəzən də sarı-yaşıl rəngli irin əmələ gəlir (3, s. 85).

Brusellyozun kəsimdən əvvəlki diaqnozu bir çox hallarda kliniki əlamətsiz baş verir. Xəstəliyin əsas əlamətləri – abortlar, endometritlər, sonun ləngiməsi, bəzən mastit, artritlər, arxa ətrafların parezi; erkək heyvanlarda – orxitlərdir. Kəsimdən əvvəlki əsas diaqnoz metodu – aqlütinasiya reaksiyasıdır (3, s. 84).

Patoloji-anatomik dəyişikliklər brusellyozda xarakterik olmadığı üçün, kəsimdən sonrakı diaqnoz kifayət qədər çətindir. Qaramalda bursitlər, irinli artritlər, abseslər, hiqromalar, orxitlər, metritlər, ocaqlı nefrit qeyd olunur (3, s. 84).

Brusellalar ətraf mühitdə davamlılığı və fiziki, kimyəvi və bioloji faktorların təsiri ilə fərqlənirlər (4, s. 71).

Bununla yanaşı, zülal və yağ möhtəviyyatı təsiredici faktorlara daha davamlıdır ki, bu da

brusellyozla xəstə heyvanlardan alınmış heyvandarlıq məhsullarının böyük təhlükə törətdiyini göstərir (4, s. 71).

Baytar-sanitar qiymətləndirməyə törədicinin insanlar üçün təhlükəliliyi, onun fiziki və kimyəvi faktorlara davamlılığı, orqan və toxumaların zədələnmə dərəcəsi, habelə mikroflora (bağırsaq çöpləri, salmonella və b.) ilə ikincili çirklənmə imkanı təsir edir.

Milli Baytarlıq Qanunvericiliyinin (2010) müddəalarına əsasən, brusellyoza qarşı kliniki və ya patoloji əlamətləri olan bütün növ heyvanlardan alınan ət məhsulları bişirildikdən sonra buraxılır (2, s. 325).

Bruselyoza reaksiya verən və yaxud brusellyozun klinikası olan heyvanların başlarının, qara ciyərlərinin, ürəyinin, ağ ciyərlərinin, böyrəklərinin, mədələrinin, başqa daxili orqanlarının çiy halda satılmasına icazə verilmir; onlar bişirildikdən sonra buraxılır və yaxud bişirilmiş kolbasa və yaxud başqa bişmiş məmulatlar hazırlanmasına verilir (2, s. 325).

İri buynuzlu heyvanların və donuzların qulaqları, ayaqları, qaramalın və donuzların quyruqları bişirilməmişdən əvvəl qaynar buxarla və yaxud odla tükdən təmizlənir. Qoyunların və donuzların başları odla yandırmaqla tükdən azad edilir, mədələri isə qaynar su ilə təmizlənir (2, s. 325).

Brusellyoza görə reaksiya verməsinə baxmayaraq kliniki əlamətləri görünməyən, cəmdək və orqanlarında patoloji-anatomik dəyişikliyi olmayan inək, qoyun və keçilərin yelinləri müəssisədən yalnız bişirildikdən sonra buraxılır, brusellyoza görə kliniki əlamətləri və patoloji-anatomik dəyişiklər olduqda isə onlar utilə göndərilir (2, s. 326).

Kliniki xəstə və yaxud brusellyoza müsbət reaksiya verən heyvanlardan alınan qandan quru heyvani yem və ya texniki məhsulların alınması üçün istifadə edilir (2, s. 326).

Kliniki xəstə və qoyun-keçilərin brusellyoz tipinə müsbət reaksiya verən bütün növ heyvanların dəriləri, buynuzları, dırnaqları dezinfeksiya edildikdən sonra buraxılır (2, s. 326).

Beləliklə, heyvanların bütün kəsim məhsulları (ət, daxili orqanlar, kəllə, ayaqlar və s.) baytar-sanitar ekspertizaya təqdim edilir.

Brusellyoz aşkar edildikdə, kəsim məhsulları bişirildikdən sonra buraxılır. Brusellyoza müsbət reaksiya verən və qoyun və keçi brusellyozuna görə qeyri-sağlam təsərrüfatlardan alınmış qaramal ətini məhdudiyyətsiz buraxmaq qadağan olunur. Belə ətlər kolbasa yaxud konserv hazırlamaq üçün verilir. Kolbasa 90ºC-dək qaynadılır və batonun daxilində istilik 75ºC-yə çatdırılır. Brusellyozlu heyvanların kəsimi qurtardıqdan sonra kəsmə-doğrama sexində 5-10%-li yeni söndürülmüş əhənglə otaqlar dezinfeksiya edilir.

İnsanlar üçün təhlükə törədən xəstə heyvanların emalı prosesində kəsim müəssisəsinin işçilərini xəstəliklərdən qorumaq üçün tədbirlər görülür. Bunun üçün heyvanların kəsimi və cəmdəyin parçalanması xüsusi giyim formasında aparılır. Brusellyozlu heyvanları emal edən işçilərin əllərində zədələr olmamalı, risk qrupuna daxil olan şəxslər həkim nəzarəti altında saxlanılmalıdır. İşin sonunda otaqlar, avadanlıqlar, alətlər və xüsusi geyim formaları dezinfeksiya edilir.

## ƏDƏBİYYAT

1. Əliyev E.A., Əzimov İ.M., Vəliyev U.M., Səfi N.V. Epizootologiya və infeksion xəstəliklər. Bakı: UniPrint, 2013, 1020 səh.
2. Milli Baytarlıq Qanunvericiliyi. Bakı: 2010, 519 s.
3. Боровков М.Ф., Волков А.Х., Папуниди Э.К., Якупова Л.Ф. Ветеринарно-санитарная экспертиза мяса и мясных продуктов: Учебное пособие.- Казань, 2020. – 184 с.
4. Серегин И.Г., Туганова М.М., Золотухин С.Н. Экспресс-метод выявление мяса животных, больных бруцеллезом, на рынках и продовольственных ярмарках. // Вестник Ульяновской государственной сельскохозяйственной академии. Ульяновск, 2018, с. 69-75
5. Юнусова А.Р., Калдыркаева З.С. Диагностика бруцеллеза и ветеринарно-санитарная оценка мяса при выявлении. // Экспертиза пищевого сырья и вопросы продовольственной безопасности. Москва: 2018, с. 250-255

**SİTARƏ VERDİYEVA**
*Parazitologiya və invazion xəstəliklər*
*Naxçıvan Dövlət Universiteti*

# EV QUŞLARINDA PARAZİTLİK EDƏN TƏKHÜCEYRƏLİ (*PROTOZOA*) PARAZİTLƏRİN BİOMORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

Quşçuluq heyvandarlığın ən tez yetişən və yüksək məhsuldarlığa malik olan sahələrindəndir. Əhalinin ən çox istifadə etdiyi heyvandarlıq məhsullarından biri quş əti və yumurtadır. Ev quşlarının sayının artırılmasına və onların məhsuldarlığının yüksəldilməsinə ciddi maneə törədən amillərdən biri də koksidioz (eymerioz) xəstəliyidir. Dünyada baytarlıq sanitariya-gigeyena tədbirlərinin yüksədilməsinə baxmayaraq, quşların bu xəstəliklə yoluxması hələ də yüksək səviyyədədir.

Müasir dövrdə quşların koksidioza yoluxmasına nisbətən az təsadüf edilir. Koksidiozun hər tərəfli tədqiqi onu göstərir ki, bu xəstəlik zamanı kütləvi ölümlə bərabər quşların çəki artımı azalır, toyuqların yumurtlaması 10-80% aşağı düşür. Kəsilmiş quşların cəmdəklərinin ümumi çəkisi və sortu aşağı olur. Koksidioz təkcə Azərbaycanın deyil bütün dünyanin quşçuluq təsərrüfatlarına ciddi iqtisadi zərər verir. Bir çox ölkələrdə ev quşlarının bu xəstəliyə tutulması 70%-dən çox olur. Dünyada koksidiozdan quşçuluq təsərrüfatlarına hər il 1 milyard dollardan artıq zərər dəyir ( 1, s. 36-48; 2, s. 5 -11; 6; ).

*Eimeria* cinsinə daxil olan ibtidailərin inkişafı üç mərhələdə (şizoqoniya, qametoqoniya və sporoqoniya) gedir. Birinci iki mərhələ sahib orqanizmin bağırsağının epiteli hüceyrələrində , üçüncü mərhələ isə ətraf mühitdə baş verir.

Koksidilərin növündən asılı olaraq, onların oosistaları oval, girdə, yumurtaşəkilli, ellipsvari, armudşəkilli, rombşəkilli və s. formada olur. Oosistaların divarı adətən iki laylı, sitoplazmaları isə dənəvari olur (5, s. 95 - 98).

Eymerialar əsasən toyuqların nazik bağırsaq, kor bağırsaq və düz bağırsağının epiteli hüceyrələrində lokalizasiya edirlər. Kalla xarici mühitə atılmış oosista bir neçə gündən sonra sporlaşır, torpaqda 4 - 9 aya qədər, toyuq saxlanılan binalarda isə 15 - 18 aya kimi öz patogeqenliyini saxlayır. Hər yerdə geniş yayıldığından quşlar su və yem vastəsilə tez bir zamanda yoluxur (2, s. 9-12).

Azərbaycan Respublikası ərazisində ev quşları arasında koksidilərdən *Eimeria* cinsinə daxil olan ibtidailər geniş yayılmış və ətraflı tədqiq olunmuşdur. Ədəbiyyat mənbələrinə görə, dünyada indiyə qədər toyuqlarda parazitlik edən 12 növ eymeriya növü təsvir edilib, onların içərisində ən çox E. tenella, E. acervulina, E. mitis, E. praecox, E. maxsima və E.brunetti növlərinə təsadüf edilir (1, s. 39-41; 2, s.5-9; 3, s. 115-127; 4, s. 60-63). Aparılan tədqiqatlara əsaslanaraq Naxçıvan MR ərazisində toyuqlarda beş növ eymeriyanın parazitlik etdiyi aşkar edilmişdir. Bunlar aşağıdakılardır:

*E. tenella* (Raiddet et Lucet,1891) Fahtham, 1909. Bu növün oosistaları rəngsiz oval formada olub, 22,96 x 19,16 mkm ölçüdədir. Ətraf mühitdə əlverişli şərait olduqda oosistaların sporlaşması 18 - 48 saat müddətində başa çatır. Toyuqların orqanizmində bu ibtidainin inkişafı kor bağırsaq çixintılarının epiteli hüceyrələrində gedir. Toyuqlar bu parazitin yüksək dozası ilə yoluxduqda onun endogen mərhələləri bağırsağın orta hissəsindən tutmuş kloakaya qədər olan məsafəni əhatə edir. Bu eymeriya növü toyuqların koksidiləri içərisidə ən patogen növdür. Dünyanın hər yerində, Azərbaycanda , həmçinin Naxçıvan MR ərazisində çox geniş yayılmışdır.

*E. brunetti* (Levine, 1942). Sahib orqanizmdə inkişafı yoğun bağırsaqda gedir. Sporlaşma prosesi 24 saatda başa çatır. Nazik bağırsağın arxa hissəsində, düz bağırsaqda ,korbağırsağın çıxıntılarında və hətta kloakada da yaşaya bilir. Prepatent dövrü 5 gün , patent dövrü isə 10 gündur. E. tenella kimi patogendir. Dünyanın hər yerində, Azərbaycan Respublikasının bölgələrində, o cümlədən Naxçıvan MR ərazisində intensiv yayılmışdır.

*E. necatrix* (Johnson, 1930) . Oosistaları oval və ya yumurtavari olub, 16,7x14,2 mkm ölçüdə olub E. tenella növünün oosistalarının formalarını xatırladır. Sporlaşması 21 - 24 saatda başa çatır.

Toyuqların nazik bağırsağının arxa hissəsində parazitlik edir. Patogen növdür, amma onun patogenliyi E. tenella - ya nisbətən zəifdir. Dünyanın bütün ölkələrində, Azərbaycan respublikasının digər bölgələrində, həmçinin Naxçıvan MR ərazisində toyuqlar arasında geniş yayılmışdır.

*E. maxsima* (Tyzzer,1929). Oosistaları oval formada , 30x20 mkm ölçüdədir. Sporlaşması 30 - 48 saatda başa çatır. Daxili inkişaf mərhələsi toyuqların nazik bağırsağının bütün hissəsələrində gedir. Digər növlərə nisbətən patogenliyi zəifdir. Bütün dünyada, Azərbaycanda, həmçinin Naxçivan MR ərazisində yayılmışdır.

*E.mitis* (Tyzzer,1929). Oositaları oval formada olub, ölçüləri 15,6 x 13,8 mkm-dir. Sporlaşma müsbət 28 - 300C -də yaxşı gedir və 13 - 17 saatda başa çatır. Daxili ınkişafı əsasən nazik bağırsağın ön hissəsində gedir. Bu növün patogenliyi digər növlərə nisbətən zəifdir. Bütün dünyada, Azərbaycanda, həmçinin Naxçivan MR ərazisində geniş yayılmışdır.

Yuxarıda qeyd edildiyi kimi, Naxçıvan MR ərazisində toyuqlarda beş növ eymeriya parazitlik edir. Ədəbiyyatdan da məlumdur ki, ümumiyyətlə koksidilərin xarici mühitdə intensiv inkişafı üçün havanın nəmliyinin və temperaturunun mühüm əhəmiyyəti vardır. Belə ki, koksidilərin sürətli inkişafı üçün temperaturun müsbət 28 - 300C olması daha əlverişlidir. Naxçıvan MR ərazisində toyuqlar əsasən yaz və payız aylarında eymeriyalarla intensiv yoluxurlar. Ona görə ki, Naxçivan MR ərazisində yayda kəskin istilərin və qışda isə çox soyuq olması xarici mühitdə eymerıyaların inkişafına mənfi təsir göstərir.

Apardıgımız tədqiqatlar nəticəsində məlum olmuşdur ki, toyuqların koksidilərinin endogen inkişaf mərhələsində bağırsaqların epiteli hüceyrələrinin kütləvi ölümü, orada xoraların, yaraların əmələ gəlməsinə, çoxlu qanitirmələrə, mikroorqanizmlərin orqanizmə daxil olması üçün giriş qapısının yaranmasına və intoksikasiyanin əmələ gəlməsinə səbəb olur. Çoxlu qanitirmələr nəticəsində, əsasən cavan quşların inkişafı və çəkisi kəskin aşağı düşür.

Eymerioza əsasən böyüməkdə olan fərələr tutulur. Toyuqların temperaturu 42 - 430 C-yə qədər yüksəlir. Xəstələr yem yemədiyi halda tez-tez su içir, tədricən ishal əlamətləri görünür, durulaşmış kalda qan və selik müşahidə edilir, xoşa gəlməyən iy gəlir. Getdikcə şiddətlənən xəstəlik şəraitində anemiya inkişaf edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan heyvanlar aləmi. III cilddə, I cild, Bakı: Elm, 2002, 266 s.
2. Musayev M.Ə., Hacıyev A.T., Yolçiyev Y.Y. və b. Azərbaycanda ev quşlarının parazitləri və onlarıa qarşı mbarizə tədbirləri. Bakı: Elm, 1991, 160 s.
3. Догель В.А., Полянский Ю.И., Хейсин Е.М. Общая протозоология. Москва: АН СССР, 1962, 555 с.
4. Мусаев М.А., Алиева Ф.К. К фауне и экологии кокцидий домашних кур в районах Большого Кавказа (в пределах Азербайджанской ССР) . Изв. АН Азерб. ССР, сер. биол.наук, 1981, № 4, с. 60-63
5. Мусаев М.А., Ельчиев Я.Я, Мамеладзе Г. А. Активность некоторых ферментов тканей цыплят при кокцидиозе Eimeria tenalla//Паразитология,1983, №2,с.95-100
6. Елисеева Е.Н. Эффективные средства профилактики паразитозов птицы. http://www icah.ru/docs/effektivnye_sredstva_profilaktiki_parazitozov_pticy.doc

**LEYLA TALIBOVA**
*Naxçıvan Dövlət Universiteti*
*leyla.talibova1818@gmail.com*

# BƏNÖVŞƏKİMİLƏR - *VİOLACEAE* BATSCH FƏSİLƏSİNİN NAXÇIVAN MR ƏRAZİSİNDƏ TƏDQİQİ VƏZİYYƏTİ

Yer kürəsində orta ölçülü bir fəsilə olan Bənövşəkimilərə hər iki yarımkürənin tropik, subtropik və mülayim bölgələrində yayılmış təxminən 22-28 cins və 1000-1100 növ daxildir. Əksər cinslər monotipik və ya oligotipdir, lakin üç cinsdə: *Viola* (təxminən 600 növ), *Rinorea* (təxminən 250 növ) və *Hybanthus* növlərin 98%-i və ya fəsiləyə daxil olan növlərin təxminən dörddə üçündən çoxunu təşkil edir. Fəsilənin ən zəngin cinsi Bənövşə - *Viola* L. olub, fəsilənin yarıdan çox növünü özündə cəmləşdirir
(1, s.107, 6, s.105-121).

Fəsilənin nümayəndələri əksər hallarda bir və ya çoxillik otlar(*Viola*, *Hybanthus* növləri), nadir hallarda yarımkollar (Viola), dikduran və ya dırmaşan (lian) kollar (*Anchietea, Agation, Calyptrion*), çox az miqdarda isə kol və ya kiçik ağaclardır (*Paypayrola, Rinorea, Leonia, Hymenanthera* və s.). Azərbaycanda yayılmış növləri isə yalnız ot bitkiləridir.

Nadir hallarda bənövşələrin yarpaqları kök də verə bilərək çoxalır, bu *Viola* cinslərinə daxil olan bitkilərdə gövdənin yaxşı inkişaf etməməsi ilə əlaqədardır, əksər hallarda gövdə növbəli və ya nadir halda qarşı-qarşıya (*Hybanthus*) yerləşən yarpaqları daşıyırlar. Yarpaqları növbəli düzülüşlü, sadə, ya da lələkvari olub yarpaqaltlıqlıdır. Çiçəklər təkdir, yarpaq əsasında və bəzi növlərdə isə süpürgə və ya fırçaşəkilli çiçək qrupunda toplanır. Çiçəkləri əsasən ikicinsli, bəzən isə bircinslidir, ziqomorf və ya aktinomorf olub, müxtəlif tipli çiçək qrupu əmələ gətirir. Çiçəkyanlığı ikiqatdır, beşüzvlüdür. Bəzi növlərdə (*Viola, Jonidium*) çiçəklər iki formada: adi (açıq) və kleistogam (qapalı) olur. Kleystoqam çiçəklərdə çiçək açılmamış özü-özünü mayalayır. Çiçəkləri əsasən ziqomorfdur, bəzən müntəzəm (*Paypayrola, Amfirro, Rinorea* və s.) də rast olunur. Çiçəkyanlığı ikiqatdır, beşüzvlüdür. Tac yarpaqları əsasən sərbəstdir, bəzən (*Paypayrola* və başqalarında) əsasından birləşmiş, borulu formalı ola bilir. Zigomorf çiçəklərdə ön ləçək daha iri olub, dırnaqcıqla (*Viola*), bəzən bir qabarıqlıqla (*Jonidium*) təchiz olunmuşdur. Erkəkciklərin sayı 5 ədəddir. Onlar sərbəst erkəkcik sapları ilə birləşərək dişiciyi əhatə edən boru əmələ gətirir, bəziləri nektarlı pulcuqlara malikdir. Tozcuqlar sərbəstdir, nadir hallarda birləşmişdir (*Paypayrola, Gloeospermum*), tozcuq sapı çox qısadır, iki ön tozcuq qola (Viola) nektarlıqlıdır. Dişiciyi sinkarpdır, 3 meyvə yarpağından təşkil olunmuşdur. Yumurtalıq biryuvalı, çoxtoxumludur. Yumurtalıq üst vəziyyətdədir, biryuvalıdır, çoxsaylı (bəzən 1-2) iki intequmentli anatrop rüşeym başlanğıclıdır. Sütuncuq çox vaxt S-vari əyilmişdir, dişicik ağzı çox müxtəlif formaya malik olur. Çiçək formulu $K_5$,$C_5$,$A_5$,$G_{(3)}$, nadir hallarda meyvə yarpaqları 2 ədəd (*Hymenanthera*) və ya 4-5 (*Melicytus*) ola bilir.

Bir çox bənövşə növü bir-birinə çox oxşayır və onun dəqiq təyini asan deyil. Çoxillik bənövşələr, inkişaf etməmiş ləçəklər və yumurtalığı olan, yapışqanlı, məhsuldar çiçəklərin olması ilə xarakterizə olunur; onlar açılmır və tumurcuğun içərisində öz-özünə tozlanma baş verir. Adətən bu cür çiçəklər yerin səthinə yaxın, bəzən də torpaqda olur. Bu forma kleystoqamiya adlanır. Yapışanlı çiçəklərdən açılan böyük tumurcuqlar, qarışqalar üçün qida rolunu oynayan çox böyük ətli yetişmiş rüşeymli toxumları tökür. Gövdə üzərində, çiçəkləmə zamanı məhsuldar və ya qeyri-məhsuldar çiçəklər açılır. Yapışqanlı çiçəkləri olmayan növlərdə, yetişmiş tumurçuqlar kəskin şəkildə çatlayır və saplağı sıxaraq rüşeymi olan toxumları səpir. Meyvəsi tikişlərlə açılan qutucuqdur. Toxumları endospermlidir, çox vaxt rüşeym düz halda olur. Toxumların yanında qarışqaların qidalandığı lətləşmiş hissə əmələ gəlir. Qarışqalar bənövşələrin toxumlarını götürür və bu bitkilərin yayılmasına kömək edir.

Kasa yarpaqları və ləçəkləri sərbəst və ya bir qədər bitişikdir. Bütün ləçəkləri ya eyniformalı, ya da ancaq qarşıda duran ləçəklərin qaidə hissəsində kisəvari və ya mahmızvari çıxıntılar olur (3,

s.44-52; 4, s.44-52; 5, s.280- 297).

Ədəbiyyat məlumatına görə Azərbaycanda 21 növ bənövşə yayılmışdır, həmin növlərdən 10 növü muxtar respublika ərazisi üçün qeyd edilmişdir (2, s.107)

. Bu növlər aşağıdakılardır:

Familia: Violaceae Batsch, nom. cons. - Bənövşəkimilər

Subfam.1. Violoideae Beilschm.

1. Genus: Viola L. - Bənövşə

Subgen.1. Viola

Sect.1. Trigonocarpea Godr.

Subsect.1. Rosulantes (Borbas) Juz.

1. Viola rupestris F.W. Schmidt. - Qaya bənövşəsi
2. Viola alba L. - Ağ b.

Sect.2.Viola

Subsect.1. Eflagellatae (Kitt.) Kupffer

3. V. ambigua Waldst. & Kit. - Şübhəli b.

Subsect.2.Viola

4. V. odorata L. - Ətirli b.

Subgen. 2. Melanium (Ging.) Peterm.

Sect. 1. Melanium Ging.

5. V. tricolor L. - Üçrəng b.
6. *V. hortensis DC. - Bağ b.
7. V. modestula Klokov - Balaca b.
8. V. arvensis Murr. - Çöl b.
9. V. kitaibeliana Schult. - Kitaybel b.
10. V. occulta Lehm. - Gizli b.

Sonrakı tədqiqatlarda *Viola alba* L. - Ağ bənövşənin növmüxtəlifliyi olduğu, *Viola hortensis* DC. - Bağ ənövşəsinin isə hibrid olduğu aydınlaşdırılmışdır. Son olaraq müxtar respublikada yayılan bənovşəkimilər fəsiləsinin sistematik bölgüsü aşağıdakı kimi olur:

Familia: Violaceae Batsch, nom. cons. - Bənövşəkimilər

Subfam.1. Violoideae Beilschm.

1. Genus: Viola L. - Bənövşə

Subgen.1. Viola

Sect.1. Trigonocarpea Godr.

Subsect.1. Rosulantes (Borbas) Juz.

1. Viola rupestris F.W. Schmidt. - Qaya bənövşəsi

Sect.2.Viola

Subsect.1. Eflagellatae (Kitt.) Kupffer

2. V. ambigua Waldst. & Kit. - Şübhəli b.

Subsect.2.Viola

3. V. odorata L. - Ətirli b.

Subgen. 2. Melanium (Ging.) Peterm.

Sect. 1. Melanium Ging.

4. V. tricolor L. - Üçrəng b.
5.*V. x wittrockiana Gams ex Nauenb. et Buttler (V. hortensis DC.) - Bağ b.
6. V. modesta Fenzl. (V. modestula Klokov) - Balaca b.
7. V. arvensis Murr. - Çöl b.
8. V. kitaibeliana Schult. - Kitaybel b.
9. V. occulta Lehm. (Viola alba L.) - Gizli b.

Fəsilədə Bənövşə - *Viola* L. cinsi daha məhşurdur. Azərbaycan Respublikasında 21 növünə,

muxtar respublika ərazisində isə 9 növünə təsadüf olunur. Bu cinsin nümayəndələri əsasən mülayim şimal zonalarında və tropiklərdə geniş yayılmışdır. Kifayət qədər iri ziqomorf rəngarəng çiçəklərə malikdirlər və müxtəlif həşəratlar vasitəsilə tozlanırlar. Erkəkcik sapının pulcuğundan yaranan nektar tacın mahmızında toplanır. Bu mahmız ikinci nektar rolunu oynayır. Həşərat mahmızın daxilinə girməyə çalışarkən dişicik ağzının altında başqa çiçəklərdən gətirdiyi tozcuğu tökür, əks hərəkət zamanı isə həmin tozcuqlar dişiciyin ağızcıq hissəsinə tökülür. Bənövşələrin bir çoxları üçün kleystoqam çiçəklər xarakterikdir. Bənövşə növlərinin meyvəsi 3 qapaqla açılan qutucuqdur.

Üçrəng bənövşə - *Viola tricolor* L. növünü çox vaxt bağçalarda, otaq şəraitində və başqa yerlərdə bəzək bitkisi kimi əkirlər. O, süni yolla bir neçə növün hibridləşməsi nəticəsində yaranmışdır. Üçrəng bənövşə 20-25 sm hündürlüyündə ikiillik bitkidir. Yarpaqları növbəli düzülür. Yarpaq altlıqları lələk bölümlüdür. Uzun saplaq ucunda yarpaqların qoltuğunda əmələ gələn çiçəkləri tək-tək yerləşir. Ləçəkləri kasa yarpaqlarından 2-3 dəfə uzundur. Alt tərəfdə yerləşmiş ləçəyin qaidəsində mahmız əmələ gəlir. Çeşidindən asılı olaraq ləçəkləri ağ, sarı, abı, göy və s. rənglərdə olur. Erkəkciklərinin sapı qısa, tozluğu isə iridir. Bənövşəkimilər fəsiləsinin əsas əlamətləri üçrəng bənövşə növündə daha aydın görünür.

Ətirli bənövşə - *Viola odorata* L. sürünən saplağı olan çoxillik bitkidir; Saplağı uzun, nazik, 1,5-2 mm diametrlidir. Gövdəsinin hündürlüyü 5-15 sm. Yarpaq sapları .böyük eni, kənarları yumru-qəlbşəkilli, adətən 15 sm-dən çox olmayan uzunluğu vardır. Yarpaq ətrafları yumurtaşəkilli-lansetşəkilli, bütövşəkillidir və ya kənarları şaçaqlıdır. Çiçəklər ətirli, tünd bənövşəyi rəngdədir. Tumurcuqları, yaşıl rənglidir, 3-5 mm diametrlidir, həmişə bükülmüş şəkildədir.

## ƏDƏBİYYAT

1. Elşad Qurbanov. Ali bitkilər sistematikası. Dərslik. Bakı:"Bakı Universiteti" nəşriyyatı, 2009, 429 s.
2. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər). Naxçıvan: Əcəmi, 2008, 364 s.
3. Бейдеман И.Н. Методика изучения фенологии растений и растительных сообществ. Новосибирск: Наука, 1979, 155 с.
4. Ибрагимов А.Ш. Растительность Нахчыванской Автономной Республики и ее народно-хозяйственное значение. Баку: Элм, 2005, 236 с.
5.Флора Азербайджана. Баку: Изд-во АН Азерб. ССР, 1957, т. 7, 648 с.
6. *Angiosperm Phylogeny Group*. An update of the Angiosperm Phylogeny Group classification for the orders and families of flowering plants: APG III // Botanical Journal of the Linnean Society: 2009, T. 161, № 2, p. 105 -121

## İNCƏSƏNƏT

**ANAR SADİQOV**
*Naxçıvan Dövlət Universiteti*
*sadigovanar444@gmail.com*

# ORDUBAD ŞƏHƏRİNİN ORTA ƏSRLƏR MEMARLIQ PLANLAŞMA HƏLLİ

Azərbaycanın dilbər guşələrindən biri olan Ordubad Naxçıvan Muxtar Respublikasının tərkibinə daxil olub, Cənubdan İran İslam Respublikası şimaldan və qərbdən Ermənistanla həmsərhəd olmaqla, şərqdən Culfa rayonu ilə qonşudur. Ordubad rayonunun sahəsi 864kvkm-dir.

Ordubadın salındığı dəqiq tarix müəyyənləşdirilməmişdir. Lakin bu ərazi dünyada ən qədim insan məskənlərdindən biri, bəşəriyyətin yaranma ocağı sayılır. Ordubad adına ilk dəfə V əsr yazılı mənbələrində təsadüf edilir. Qədim dünyanın ən müqəddəs panteonlarından biri sayılan Gəmiqaya dağı da Ordubaddadır. Dağın üzərindəki təsvirlər və buradakı yurd yerləri Ordubad ərazisində e.ə VII-I minilliklərdə yaşamış qədim əhalinin həyat tərzi və mədəni inkişaf yollarını izləməyə imkan verir (1, səh.3).

Ordubadın yaşayış məskənlərindən olan Sabir-Dizə yaxınlığındakı Plovdağ yaşayış yerindən tapılmış maddi mədəniyyət nümunələri (e.ə IV-II minillik) yaşayış evləri və qəbir abidələri qədim Sumbatan şəhərinin qalıqları (e.ə II minilliyin sonu-I minilliyin əvvəlləri) Xaraba Gilan ərazisində orta əsrlərə aid şəhər ərazisi və orada yerləşən memarlıq abidələri orta əsrlərdə şəhər kimi formalaşan Aza Əylis və b. kənd ərazilərində qalan memarlıq abidələri ərazidə insanların çox qədim dövrlərdən məskunlaşmasından xəbər verir. Səyyahların verdikləri mənbələrdə Ordubadda orta əsrlərdə sənətkarlıq ticarətin inkişafı ilə əlaqədar istehsal olunan bir sıra malların (ipək, quru meyvələr və.s) dünya bazarlarında böyük əhəmiyyət kəsb etdiyi bildirilir.

XVIII yüzilliyin əvvəllərində Ordubad Səfəvilər imperiyasının tərkibinə daxil idi. 1724-cü ildən Ordubad Osmanlıların daha sonralar isə Nadir şahın hakimiyyəti altına keçmişdir. Nadir şah 1736-ci ildə Muğam qurultayında Azərbaycan inzibati ərazisini dəyişmiş, bəylərbəylikləri ləğv etmiş Azərbaycan bütün ərazisini vahid Azərbaycan vilayətində-mərkəzi Təbriz olmaqla birləşdirmişdir (2, səh.2).

Xanlığın ərazisində iki şəhər mövcud idi: Naxçıvan və Ordubad. O dövrdə Ordubad Naxçıvan şəhərindən kiçik olsada daha abad və gözəl olmuşdur.

Hazırda Ordubad müstəqil Azərbaycan Respublikasının şəhərlərindən biri olmaqla özünəməxsus tarixi memarlıq xüsusiyyətləri ilə seçilir. Orta əsr şəhər quruluşunu tamamilə qoruyub saxlayan Ordubad 1977-ci ildən "Qoruq şəhəri" elan edilmişdir. XX yüzilliyin əvvəllərində Ordubad bölgəsində olan rus alimi V.M.Sısoyev də bu fikri təsdiq edərək yazırdı ki, iqliminə özünün bağlarına, florasının zənginliyinə görə bu həqiqətən də belədir. Ordubadı Azərbaycanın, hətta bütün Qafqazın ən gözəl guşələrindən biri hesab etmək olar (2,səh 3).

**Ordubad şəhər məhəllələrinin memarlığı**. Naxçıvanın tarixi şəhərləri içərisində Ordubad şəhərsalma və memarlıq irsi ilə seçilir. Ordubad şəhərinin ərazisindən iki çay axır. Solundan Gənzə çayı, sağından Ordubad çayı. Başlanğıcını qarlı dağlardan götürən Ordubad çayı şəhəri iki hissəyə-Sərşəhərə və Ambarasa ayırır. Hələ qədim feodal dövründə Ordubad çayının sağ sahilində yerləşən "Qala" adlanan ərazi şəhərin mərkəzi hesab olunurdu. Ordubadın qədim tarixi mərkəzi Ambaras məhəlləsi və bu məhəllənin mərkəzində tikilən Ambaras məscidilə birlikdə ərazidə formalaşmışdır. Orta əsrlərdə Ordubadın mərkəzi çayın sol sahilində yerləşən Sərşəhərə köçürülmüş, mərkəzi Sərşəhər meydanı olmaqla, meydanda Sərşəhər məscidi ucalır. Vaxtilə Sərşəhər məscidi şəhərin plan quruluşunda dominat mövqe tutmaqla yaşayış məskəninin bütün yollarına nəzarət edir. Orta əsr şəhər quruluşunu özündə qoruyub saxlayan Ordubad şəhəri uzun illər ictimai mərkəz kimi fəaliyyət göstərmişdir.

Sərşəhərdən şaxələnən küçə sistemi bir tərəfdən məhəllələrə digər tərəfdən isə ictimai

mərkəzə açılır. Şəhərin ənənəvi plan quruluşunun məhəllələrə bölünməsi onların taç şəhərsalma sistemində iki hissəli zonasının yaranması ilə nəticələnmişdir. Beləliklə, baş küçə üzərində inkişaf edən tarixi ictimai mərkəz və məhəllələrdə meydan şəklində formalaşan məhəllə düyünlərinin vəhdəti yaranmışdır (2,səh.3).



**Sərşəhər meydanı**

Şəhərdə məhəllələrin, məhəllə meydanlarının, mərkəzi meydanın, memarlıq abidələrinin ilkin formasının qalması bu şəhərin orta əsr şəhər quruluşunu tamamilə qoruyub saxlanmasından xəbər verir. 1977-ci ildən qoruq şəhər kimi fəaliyyət göstərən Ordubad şəhəri Nizami küçəsi ilə Füzuli küçəsinin kəsişdiyi yerdən başlayaraq şəhərin əsas küçələrini əhatə edir. Şəhərin plan quruluşunu şəhərin 5 böyük məhəllələri əhatə edir.

1. "Ambaras" ( İbrahim Əbilov və Babək küçələri)
2. "Kürdətal" (Əkbər Ağayev və M.Füzuli küçələri)
3. "Üç tərəngi" (Üçtürləngə küçəsi)
4. "Mingəs" (Ümbül-Leyla və indiki Mingəs küçələri)
5. "Sərşəhər" (Qaffar Babayev və Dədə Qorqud küçələri) (1, səh.17)

Ordubad şəhərində böyük məhəllələrlə yanaşı nisbətən kiçik məhəllələr də vardır. "Qaraçanaq", "Dilbər", "Əngəç", "Qarahovuz başı", "Əsgərxan", "Varsan", "Körpübaşı", "Bəylər", "Meyrəmçə", "Peçi", "Düz", "Qoşqar", "Musa təngi" və.s

**Nəticə.** Azərbaycan Müstəqillik əldə etdikdən sonra tarixi abidələrimizin araşdırılmasına onların bərpa edilməsinə dövlət qayğısı artmışdır. Belə ki, Naxçıvan MR ərazisində yerləşən Ordubad rayonunda bir sıra arxeoloji qazıntılar aparılmış, bir sıra tarixi abidələr aşkarlanaraq bərpa edilərək öz əvvəlki görkəminə qaytarılmışdır. Hazırda Ordubad Cümə Məscidində bərpa işləri aparılır. Bərpa işləri Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin "Tarixi abidələrin bərpası" bölməsi tərəfindən aparılır. Bərpa işlərinə Əməkdar Memar Arif Əzizov rəhbərlik edir. Məscidin orijinallığı, tarixiliyi, qədimiliyi, saxlanılmaqla yüksək peşəkarlıqla icra edilir.



**Ordubad məhəllələrindən biri**

Ordubad şəhərini gəzərkən keçmişlə müasirliyin vəhdətini hiss etməmək mümkün deyil. Məhəllə yolları və Ordubadın mərkəzi yolları yenidən qurulmuşdur. Son dövrlər şəhər mərkəzində Ordubad rayon İcra Hakimiyyəti binası təmir edilib 7 mərtəbəli yaşayış binası tikilərək sakinlərin istifadəsinə verilmişdir.

## ƏDƏBİYYAT

1.Yusifov V., Bağırov V.Ordubad. Bakı: "Adiloğlu" mətbəəsi, 2006.
2.Qənbərova G. Ordubad şəhər məhəllələrinin memarlığı. Xəbərlər. NDU, "Qeyrət" nəşriyyatı, 2011.
3. Ordubad şəhərində aparılan tədqiqatların nəticəsində əldə edilən materiallara əsasən.

**RÜSTƏM İBRAHİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*ibrahimovr593@gmail.com*

## AZƏRBAYCANDA PROFESSİONAL MİLLİ VOKAL SƏNƏTİNİN BANİSİ

Hər bir xalqın musiqi irsində olduğu kimi, Azərbaycan xalq musiqi irsi də başlıca olaraq, vokal, instrumental və vokal instrumental musiqidən ibarətdir.

Azərbaycanda milli vokal sənətininin inkişafı Bülbülün adıyla bağlıdır. Məhşur xalq müğənnisi Bülbül (Murtuza) Məşədi Rza Oğlu Məmmədov 1897-ci ilin iyun ayında Şuşa şəhərində anadan olmuşdur. Bülbül hələ uşaq ikən gözəl vətəni Şuşanın füsünkar təbiətindən ilham almışdı. Onun qəlbini təkcə təbiətin gözəlliyi deyil, o dövrün məhşur xanəndələrinin ürək açan, məlahətli səsi fəth etmişdi. Bülbül "Qayabaşında" "Qırx pilləkanda"və "cıdır düzündə" öz məlahətli səsini "Topxanada" Bülbüllərin incə nəğməsinə qoşaraq oxumağı sevərdi. Onun incə məharətli zəngulələrini görən şəhər əhli elə o zamandan balaca Murtuzaya Bülbül adın vermişlər.

Məhşur vokalist olan Bülbül 1921-ci ildə təşkil olunmuş, Azərbaycan dövlət Milli Konservatoriyasında ilk Azərbaycanlı tələbə kimi təhsil almış, burada Rusva və Avropa klassik musiqisini öyrənmiş, dünya görüşünü genişləndirmişdir. Moskva və Peterburq qastrol səfəri zamanı dinlədiyi igörkəmli rus müğənnilərinin xüsusilə Sobino və Şalyapinin yardıcılığı ona çox böyük təsir göstərmişdir.1927-ci ildə Bülbül vokal sənətinə dərindən yiyələnmək üçün İtalyaya getmiş, burada 4 il dövrünün tanınmış musiqiçilərindən dərs almış, məhşur İtalyan musiqiçilərinin yaradıcılığından bəhrələnmişdir.

İlk dəfə yaşayış yerini 12 yaşında dəyişən gənc Bülbül 1909-cu ildə Gəncəyə köçür. Burada gənc xanəndənin görülməmiş şöhrəti başlayır. 1911-ci ildə onu Tiflisə ictimai yığıncaqlar keçirilən yay binasında çıxışa dəvət edirlər.

O italyanlar kimi oxumaq italyanı görmək orada təhsil almaq istəyirdi. Ama bütün bunlar hələ arzu olaraq qalır, təhsil almaq arzuları Bülbülü rahat buraxmırdı.1912-ci ildə tanınmış şair Abbas Səhətlə tanış olur və gözəl insana ürəkdən bağlanır.Şair ona kitablar bağışlayır və savadlanmasına köməklik göstərir. 1916-cı ildə Bülbül bütün Zaqafqaziyada peşəkar bir xanəndə kimi məhşur idi. Lakin həmin ilin yayından Bülbül istedadlı bir opera artisti kimi də tamaşaçıların hörmətini qazanır.

Məşədi Cəmilin "Seyfəl-Mülk" operasında müvəfəqiyyətlə çıxış edən Bülbül bir neçə il Zaqafqaziyanın şəhərlərində verilən tamaşalarda opera artisti kimi çıxış edərək əhalinin rəğbətini qazanır.

Tələbəlik illərində (1921-1927) Bülbül Azərbaycan vokal sənətinin əsasları ilə daha yaxından məşğul olmağa imkan tapır.O Konservatoriyada böyük həvəslə təhsil alır, yardıcılıq təcrübəsini daha da artırırdı. Bülbül Azərbaycan milli musiqisinin bütün sahələrində fəaliyyət göstərir. Şərq konsertlərində, opera tamaşalarında öz gözəl çıxışları ilə hamını valeh edir.1921-ci ilin fevralında S.Sani Axundovun "Məşədi İbadın Parisdə toyu" və Hacağa Abbasovun "Sabir üzərində məhkəmə" əsərləri oynanılarkən Bülbül tamaşaların fasilələrində tarzən Şirin Axundovla çalıb oxumuşdu.

Bülbül eyni zamanda professor Polyayev, V. Nikolskivə N. Speranskinin vasitəsi ilə klassik Rus və Avropa vokal musiqisi ilə yaxından tanış olurdu. Bülbül Avropa xalqlarının musiqisini öyrənməklə Azərbaycan klassik və xalq musiqisindən uzaqlaşmadı.

Bülbül Azərbaycana gəlmək istərkən Milanda qalması ona təklif olunursa da, Bülbül bu təklifdən imtina edərək Azərbaycana qayıdır. İtalyadan doğma vətəninə qayıdan sevimli müğənnimiz xalqımız qarşısında çıxış etdi.İstedadlı müğənni qədim Azərbaycan mahnı vətən təsniflərini böyük ilham və məhəbbətlə oxuyurdu.Onun ən çox oxuduğu mahnılar "Süsənsünbül", "Yaxandüymələ", "Mehribanım "və.s Bülbül təsnif oxumaqda və gözəl qaval vurmaqda xanəndələrdən fərqlənirdi.

1931-ci il dekabrın 14-də Bülbül Azərbaycan Konservatoriyasında "Səsin diafraqma

üsulunun türk xalq mahnısının ifadəsində tətbiqinə" dair məruzə etmişdir. Bülbülün İtalyadan qayıtdıqdan sonra verdiyi konsert və maraqlı məruzəsi hamıdan əvvəl dahi bəstəkar Y. Hacıbəyovun diqqətini cəlb etmişdi.

Bülbülün xanəndəlik sənətinə yaxından bələd olan və onun sənətkarlıq qabiliyyətini həmişə yüksək qiymətləndirən M.İbrahimov demişdir: Bülbül Azərbaycanda əsrlər boyuda davam etmiş xanəndə və aşıq sənətinin ən yaxşı cəhətlərini klassik vokal məktəbinin nailiyyətləri ilə birləşdirərək təkrar olunmaz, cazibədar bir sənət yaratmışdır. Bülbül Böyük Vətən müharibəsinin ağır günlərində xalqın ümumi işinə fədakarlıqla kömək etmişdir. Eynizamanda Böyük xanəndələrimiz Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski kimi gənc xanəndələrə yaradıcılıq köməyi göstərmişdir.Bülbül təkcə müğənniliklə məhşur deyil.O, görkəmli müəllim, milli musiqini dərindən bilən alim, mahir təşkilatçı idi.O,uzun illər boyu Azərbaycan Dövlət Konservatoriyasının professoru olmuş, bir çox istedadlı müğənnilər yetişdirmişdir. Bülbül Sovet Azərbaycanının vokal sənətinin tam bir məktəbini yaratmışdır.Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun bünövrəsini qoyanlardan biridə Bülbül olmuşdur.Bülbül 1932-ci ildən başlayaraq Azərbaycan Dövlət Konservatoriyası yanında təşkil edilmiş elmi-tədqiqat musiqi kabinəsinə başçılıq etmişdir.Böyük Vətən müharibəsinin ağır günlərində Bülbül xalqın ümumi işinə fədakarlıqla köməketdi. O, Sovet ordusu hissələri ilə İranda, Qafqaz və Bryansk cəbhələrində, eyni zamanda ölkənin hərbi xəstəxanalarında öz konsertləri ilə adamları mübarizəyə ruhlandırmışdır.O, Azərbaycan xalqının iftixarıdır.

Azərbaycan xalqının sevimli müğənnisi olan Bülbül opera sənətini də yüksək zirvəyə qaldırmışdır. Bülbül ilk dəfə olaraq opera aktyorluğu ilə xanəndəlik sənəti arasında möhkəm vəhdət yaratmışdı.

Azərbaycan səhnəsi istər Bülbülə qədər istərsədə Bülbüldən sonra gözəl səsli tenorlar çox görmüşdür.

Bütün ömrü boyu xalqa , vətənə ilhamla xidmət etmək nümunəsini Bülbül ölməz sənəti ilə sübut etmişdir. O, 1961-ci ildə dogma vətəni Qarabağa səfərə çıxmışdır. Orada bir çox mahnı və təsniflərlə çıxış etmişdir.Burada Bülbül Şuşanın keçmiş realnı məktəbi adlanan binasının geniş salonunda son konsertini vermişdir.

Azərbaycanın gözəl və istedadlı müğənnisi Bülbül 1961-ci ildə 26 sentyabrda Bakı şəhərində vəfat etmişdir.

## ƏDƏBİYYAT

1. M.Əsgərov. Azərbaycanda vokal ifaçılığı sənəti
2. F.Şuşinsk. Azərbaycan xalq musiqiçiləri

**AYNUR FƏRZƏLİYEVA**
*Memarlıq abidələrinin bərpası və yenidən qurulması*
*Naxçıvan Dövlət Universiteti*
*aynurferzeliyeva3@gmail.com*

# MÜASİR NAXÇIVAN MEMARLIĞININ DAYANIQLI İNKİŞAFI – TARİXİ-MİLLİ PRİNSİPLƏRDƏN İNKİŞAF STRATEGİYASINA QƏDƏR

***Açar sözlər:*** *dayanıqlı memarlıq, davamlı inkişaf, ekologiya, yüksək texnologiyalar, inkişaf strategiyası, modelləşdirmə, rəqəmsal transformasiyalar*

Bu gün dayanıqlı inkişaf və davamlılıq iqtisadiyyatda və cəmiyyətdə əsas məsələlərdən birinə çevrilir. İndi iqlim dəyişikliyi məsələsi bizi memarlıqda davamlılığı tətbiq etməyə məcbur edir. Dayanıqlı memarlıq yalnız $CO_2$ emissiyalarının azaldılması ilə bağlı olmamalıdır. Dayanıqlılığa maliyyə, mədəni və sosial məsələləri, eləcə də daha geniş ekoloji məqsəd və vəzifələri nəzərə alan vahid perspektivdən baxmaq lazımdır.

Dayanıqlı memarlıq prosesini daha yaxşı başa düşmək üçün onun əsas hissələrinin əlaqəsini təsvir etsək, mütəxəssislər memarlıq ənənələrinin davamlılığını dörd hissəyə ayırırlar:

- ✓ iqtisadiyyat;
- ✓ cəmiyyət;
- ✓ ətraf mühit;
- ✓ memarlıq (4, s. 41).




**Şəkil 1. Davamlılığın üç halqası (H.C., s. 41)**

Şəkil 1-də təsvir edilən davamlılığın üç halqası aşağıda sadalanan əsas memarlıq və layihələndirmə amillərinə malikdir:

- ➢ ətraf mühit – oriyentasiya, iqlim, infrastruktur, işıq, su, relyef, məkan;
- ➢ iqtisadiyyat – əlavə dəyər, çeviklik, innovasiyaların kommersiyalaşdırılması, davamlılıq;
- ➢ cəmiyyət – mədəniyyət, sosial mallar, sağlamlıq, rifah;
- ➢ memarlıq – forma, funksiya, estetika, struktur, materiallar (4, s. 41).

Davamlılıq anlayışı müasir memarların və şəhərsalmaçıların, layihələndirmə və tikinti fəaliyyətinin müxtəlif sahələrində çalışan mühəndis və texnoloqların işində, yeni materialların, konstruksiyaların və texnologiyaların yaradılması və istehsalında getdikcə daha çox əhəmiyyət kəsb edir. Hər il dayanıqlı, "yaşıl", ekoloji dayanıqlı, ekoloji cəhətdən təmiz, enerjiyə qənaət edən və digər bu kimi terminlər adlandırılan layihə və binaların sayı artır.

Tarixin və həyatın müxtəlif mərhələləri memarlığın insan və təbiət həyatındakı roluna özünəməxsus şərhini verir. Fəlsəfi fikirlər və təlimlər, dizayn konsepsiyaları və texnologiyaları, tikinti təcrübəsi, material və konstruksiyalar, həm memarlığın özünün, həm də onun yaradılması prosesinin müxtəlif komponentləri bu və ya digər dərəcədə memarlığın dərk edilməsinə təsir göstərir və onun şərhlərinin terminoloji ailəsini artırır. Bəşər tarixinin bütün mərhələlərində "süni həyat mühitinə", "ikinci təbiətə" çevrilmiş memarlıq öz varlığına getdikcə daha çox yeni mənalar hopdurur, insan varlığının universal komponenti xarakteri alır (3, s. 10).

İqlim dəyişikliyi, temperatur dövrlərində getdikcə kəskin dalğalanmalar, istilik və quraqlıq, leysan və daşqınlar, digər ekstremal təbii təsirlər və texnogen fəlakətlər – bütün bunlar hərfi mənada

şəhər quruluşları və memarlıq obyektləri üçün "sağ qalma", qorunma və davamlılıq üçün yeni tələbləri diktə edir. Beləliklə, fəlakətli təsirlərin aradan qaldırılması üçün iki istiqamət ortaya çıxmışdır: süni ətraf mühitə tələblərin sərtləşdirilməsi, onun təhlükəsizliyinin və insanların qorunmasının təmin edilməsi. İkinci istiqamət, süni mühitin mövcudluğunun yeni yollarının (üzən, uçan binalar və şəhərlər) həyata keçirilməsinin mümkünlüyü və s.

Funksional proseslərin, təbii və iqlim dövrlərinin, təbii risklərin və binanın vəziyyətinin, müxtəlif həyat dövrləri dövrlərində onun sistemlərinin nümayişi ilə formaların İT modelləşdirilməsi dizayn problemlərinin həllinin yeni səviyyəsini təmin edir.

Riyazi modelləşdirmə memarlıq, layihələndirmə və tikintidə geniş istifadə olunur. Memarlıq formalarının və məkanlarının tədqiqi, onların proqramlaşdırılması proqram təminatının daha da inkişafına və tədqiqat və dizaynda tətbiqinə ehtiyac duyur. Baxmayaraq ki, bu gün obyektin optimal formalarının axtarışı, məsələn, maksimum həcmi olan minimum səth sahəsi ("London City Hall"un binası – memar N.Foster) praktiki olaraq həyata keçirilir. Xarici iqlimin istiqamətləndirici təsiri ilə binanın forma və istiqamətinin optimallaşdırılması riyazi modelləşdirmə ilə həyata keçirilir (3. s.21).

Beləliklə, dayanıqlı memarlıq bir dizayn paradiqması kimi intellektuallaşdırma, tədqiqat prosedurlarının və ekspert qiymətləndirmələrinin dizayn problemlərinin və həyata keçirilən layihələrin həlli variantlarının çox meyarlı reytinq qiymətləndirmələrinin istifadəsi kontekstində modelləşdirmə ilə proqnozlaşdırma fəaliyyətin tərkib hissəsinə çevrilən ənənəvi memarlıq və şəhər dizaynına daxil edilməsi tələbini diktə edir.

Bu yanaşmada müxtəlif birləşmələr və müxtəlif istiqamətlərin, cərəyanların, müxtəlif tipli unikal obyektlərin və ya müəyyən universalların memarlığında müəyyən invariantların ayrılması realdır: çərçivə, mobil qabıqlar, stasionar formalar və mobil avadanlıqlar, özünü tənzimləyən sistemlər, müxtəlif enerji növlərinin yeniliklərini nəzərə alaraq, yeni materialların və strukturların yaradılması.

Hazırkı mərhələdə ölkəmizdə davamlı memarlığın inkişafı strategiyası memarlığın doğulduğu bütün sahələrdə vəzifələrin ardıcıl və paralel şəkildə həyata keçirilməsidir. Onların inkişafının müxtəlif səviyyələrini nəzərə alaraq, strategiyada mühüm, bəlkə də həlledici rol bu fəaliyyətin layihələndirmə, tikinti, idarəetmə, qanunvericilik və tənzimləmə fəaliyyətinin əlaqələndirilməsi, binaların həyat dövrünün monitorinqi, şəhərsalma sistemləri ilə təbiətin qarşılıqlı əlaqəsinə aiddir.

Müstəqil Azərbaycanda yaranmış siyasi-iqtisadi sabitlik, əldə olunmuş nailiyyətlər Naxçıvan Muxtar Respublikasında tikinti-quraşdırma və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır. Yaranmış şəraitdən düzgün istifadə edilmiş, çoxsaylı inzibati binalar, sosial obyektlər tikilmiş, yüksək səviyyədə quruculuq və abadlıq işləri görülmüş, "Naxçıvan möcüzəsi" yaradılmışdır.

Yüksək zövqlə, peşəkarlıqla, Şərq və Qərb memarlıq elementlərindən ustalıqla və yerli-yerində istifadə etməklə tikilən binalar, təmir olunan və yenidən qurulan inzibati və sosial obyektlər, salınan gülkarlıqlar, yaradılan səliqə-sahman Muxtar respublikada tikinti, böyük quruculuq və abadlıq işlərinin yüksək səviyyədə görüldüyünü təsdiq edir. Bütün bu işlərə Ali Məclisin Sədri diqqət və həssaslıqla yanaşır, hər bir tikinti, quruculuq və abadlıq işlərinin ən yüksək səviyyədə, keyfiyyətlə aparılmasına nəzarət və rəhbərlik edir.

Ölkə Prezidenti cənab İlham Əliyev Muxtar Respublikaya hər səfərində quruculuq və abadlıq sahəsindəki dəyişiklikləri, yeni memarlıq əsərlərini yüksək qiymətləndirmişdir: "Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir və irəliyə doğru inamla addımlayır. Fürsətdən istifadə edərək mən Naxçıvan rəhbərliyinə və şəxsən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbova görülən bütün işlərə görə öz dərin minnətdarlığımı bildirirəm" (2).

Naxçıvanda bir Beynəlxalq hava limanı, 5 avtovağzal kompleksi, 797 km uzunluğunda yeni avtomobil yolları çəkilmişdir. Ümumiyyətlə, 2003-2019-cu illər ərzində muxtar respublikada kənd yolları da daxil olmaqla 2 min kilometrə yaxın yol inşa olunmuşdur. Dəmiryol, hava və avtomobil nəqliyyatları muxtar respublikanın iqtisadi inkişafında əhəmiyyətli rol oynayır. Muxtar respublikada hava nəqliyyatının inkişafı istiqamətində yeni hava limanı kompleksi tikilib istifadəyə verilmiş, Naxçıvan hava limanı beynəlxalq status qazanmışdır (şəkil 2 – 2).



**Şəkil 2. Naxçıvan beynəlxalq hava limanı**

Bu gün Naxçıvan şəhərində reallaşdırılan layihələr nəticəsində onun müasir siması yaradılmış, şəhər sakinlərinin, qonaqların istirahətinin yüksək səviyyədə təşkili üçün yeni məkanlar qurulmuş, mövcud olanlar isə müasir səviyyədə abadlaşdırılmışdır. Bu qədim diyara gələn qonaqların, nüfuzlu alimlərin də qeyd etdiyi kimi, muxtar respublikanın paytaxtı qısa müddətdə əsaslı surətdə yenidən qurulmuşdur. Şəhərsalmada xüsusi diqqət yetirilən kərpic və şəbəkə elementləri burada Şərq memarlıq ənənələrini, şüşə və metal konstruksiyalardan istifadə isə Qərb inşaat texnologiyalarını üzvi vəhdətdə birləşdirir. Müasir Naxçıvan Şərq mühitinin özünəməxsus aurasını və qərbyönlü inkişafın əsas meyllərinin məcmusunu təcəssüm etdirir.

Son illər Möminə Xatun türbəsi, Qarabağlar Memarlıq Kompleksi konservasiya edilmiş, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılmış, Yusif Küseyiroğlu və Nuh türbələri, "İmamzadə", muxtar respublika ərazisindəki Buzxana abidələri, "Came" məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Xan sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Naxçıvanqala və digər tarixi abidələr əsaslı şəkildə bərpa olunmuşdur. Ümumiyyətlə, son 21 ildə muxtar respublikada 70-ə yaxın tarix və mədəniyyət abidəsi əsaslı təmir və bərpa edilmişdir.



**Şəkil 3. Qarabağlar Memarlıq Kompleksi konservasiyadan sonra**

Ali Məclisin Sədrinin 2006-cı ildə "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında", 2010-cu ildə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında", 2011-ci ildə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında", 2013-cü ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", 2014-cü ildə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" imzaladığı sərəncamlar tarixi-mədəni irsimizin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malik olan sənədlərdir (2).



**Şəkil 4. Naxçıvan Bayraq meydanı**

Beləliklə, IV Sənaye İnqilabının və qlobal çağırışlar fonunda bu gün Naxçıvan Muxtar Respublikasının müasir dayanıqlı memarlığının formalaşması prinsiplərinin təfərrüatlı məzmunu onların "ümumidən xüsusiyə" sxeminə uyğun olaraq işin müxtəlif mərhələlərində tədqiqat, layihə və eksperimental və elmi və təhsil fəaliyyətlərində tətbiqi imkanlarını müəyyənləşdirir.

Prinsip kimi "təbii uyğunluq" və "biomimetika"nın seçilməsi onların süni mühitin həyat dövrünün bütün mərhələlərində təbii və süni sistemlərin qarşılıqlı təsirinin və qarşılıqlı təsirinin təhlilinin tərkib hissəsi kimi dizayn proqramına daxil edilməsini təmin edəcəkdir.

Memarlıq dizaynında məkan və riyazi modelləşdirməyə xüsusi əhəmiyyət verilir ki, bu da davamlı inkişaf prinsipləri əsasında dizayn problemlərinin həllinin tamlığına və səmərəliliyinə kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. Hacıyev İ. Müasir Naxçıvan inkişaf yollarında // "İki sahil" qəzeti, 10 yanvar 2020 [elektron resurs] // https://ikisahil.az/post/muasir-naxchivan-inkishaf-yollarinda (son müraciət: 03.01.22)
2. Əliyev R. Tarixi və mədəniyyət abidələrimizin bərpası diqqət mərkəzində saxlanılır [elektron resurs] // http://elinceqala.naxcivan.az/index.php/2016-08-23-12-04-21/2016-08-23-12-23-46/150-tarikhi-vae-maedaeniyyaet-abidaelaerimizin-baerpas-dizhzhaet-maerkaezindae-sakhlan-l-r (son müraciət: 03.01.2022)
3. Есаулов Г.В. Устойчивая архитектура – от принципов к стратегии развития // Вестник ТГАСУ № 6, 2014, с. 9-24
4. Любин Н.С. Архитектура как часть устойчивого развития // Инженерный вестник Дона № 5 (77), 2021, с. 40-48
5. Abdo Esam E. Sustainable (green) architecture as a symbol of energy efficient and modern ecological architecture // Sciences of Europe № 63, 2021, p. 3-7

**DÜRRÜ BAĞIROVA**
*İnstrumental ifaçılıq*
*Naxçıvan Dövlət Universiteti*
*HD_Mehdiyeva@mail.ru*

## AZƏRBAYCANDA FORTEPİANO MUSİQİSİNİN YARANMA TARİXİNDƏN

Fortepiano musiqisi dünya musiqi sənətinin mühüm sahələrindən birini əhatə edir. Əsrlər boyu öz yaradıcılığında bu sahəyə böyük yer ayırmış dahi bəstəkarlar yaratdıqları fortepiano əsərlərilə dünya fortepiano ədəbiyyatı xəzinəsini zənginləşdirmiş və bu xəzinəyə böyük töhfələr bəxş etdirmişdirlər. Bu aləti bir növöz yaradıcılıq labaratoriyasına çevirmiş sənətkarlar fortepiano alətinin çalğı imkanlarını genişləndirmiş, onu virtuoz texnika və məzmunla zənginləşdirmiş, hətta fortepiano səslənməsini bütöv bir orkestr səslənməsi səviyyəsinə qaldırmışlar. Xüsusilə fortepiano üçün misilsiz əsərlər bəstələyən Motsart, Bethoven, Şuman, Brams, Şopen, List, Çaykovski, Raxmaninov, Prokofyev və s. bu əsərlərlə fortepianonun insan hisslərinin ən müxtəlif anlarının fəlsəfi, düşüncəvi, qəm və kədəri, sevinc və bayram əhval-ruhiyyəsini verməyə qadir olduğunu sübut etmişdirlər.

Azərbaycana fortepiano aləti Avropadan keçmiş və tez bir zamanda sevimli alətə çevrilərək, bəstəkar və musiqi sevərlərin diqqətini cəlb etmişdir. Fortepiano simli zərb-klavişli musiqi alətidir. 1709-1711-ci illərdə zərb mexanikası ixtiraçısı B.Kristofori tərəfindən İtaliyada yaradılmışdır. Ona qədər istifadə olunan klavişli alət – klavesindən fərqli olaraq fortepianoda səslər çəkicin simlərə zərbəsi ilə çıxarılır ki, bu da çalğının dinamiki imkanlarını genişləndirməklə, onun təsirini və texniki vasitələrini zənginləşdirir. Bunun nəticəsində də 18-ci əsrin sonlarına kimi fortepiano klavesini demək olar ki, tamamilə sıxışdırıb aradan çıxarmışdır. Fortepianonun yaranmasına və təkmilləşməsinə əsas səbəb isə simli klavişli alətlərdə çalğıya olan yeni estetik tələbatlar olmuşdur. Onun sonrakı təkmilləşdirilməsi isə 18-ci əsrin ikinci yarısında mexanikanın iki əsas növlərinin - bilavasitə klavişlərlə birləşdirilmiş və ondan tamamilə ayrılmış şəkildə, eləcə də fortepianoda virtuozçalğı texnikasının daha sürətli inkişafına şərait yaradan repetisiyanın tətbiqi sahəsində həyata keçirilmişdir. Bildiyimiz kimi repetisiya eyni yüksəklikdəki səslərin tez-tez təkrarıdır. (1)

Mexanikanın təkmilləşdirilməsi ilə paralel olaraq pedalın mexanizminin, eləcə də fortepianonun özünün forma və konstruksiyasının da inkişafı baş verir, səslərin diapazonu genişlənir (7 1/4 oktavaya qədər). Müxtəlif dinamiki və təsirli vasitələri, çoxsəsli musiqinin təkrar olunması imkanları fortepianonun solo və akkomponament üçün vacib əhəmiyyət daşıdığını müəyyənləşdirmişdir. Fortepiano üçün zəngin musiqi ədəbiyyatı yaradılmışdır. Fortepianonun növləri pianino və royaldır.

Hacıbəyov bir musiqi aləti kimi, fortepianonun rolunu çox yüksək qiymətləndirirdi. O, hesab edirdi ki, Azərbaycan musiqi mədəniyyətində fortepiano əsas istiqamətverici alət olacaq. O, həmçinin fortepianonun musiqi təhsili prosesində müstəsna əhəmiyyət kəsb etdiyini də vurğulayırdı.

Fortepiano musiqisi respublikamızda, demək olar ki, XX əsrin əvvəllərində sürətlə inkişaf etməyə başlamışdır. Bununla belə, bu inkişafın əsasını aydınlaşdırmaq üçün bir az əvvələ - XIX əsrin sonlarına müraciət etməliyik. Bu zamanlar Azərbaycanda ziyalı ailələrində musiqiyə maraq getdikcə daha çox artaraq, bir sıra hallarda dar çərçivədə olsa da, kütləvi musiqi gecələrinə çevrilirdi. Təbii ki, belə başlanğıclarda əsas musiqi aləti kimi fortepianodan istifadə olunurdu.

O dövrün qabaqcıl musiqiçiləri peşəkar musiqi təhsilinin əsasını qoymağa çalışırdılar. Bu işdə ilk addımları Moskva Konservatoriyasının yetirmələri olan A.N. və Y.N. Yermolayevalar olmuşlar. Professor K. Səfərəliyevanın göstərdiyi kimi, 1900-cü ildə Bakıda ilk şəxsi musiqi məktəbi fəaliyyətə başlamış və onun direktoru A.Y.Yermolayeva olmuşdur. Məktəbdə başqa fənnlərlə birlikdə fortepiano dərsləri də tədris olunurdu. Məktəb 1901-ci ildə açılan musiqi sinifləri üçün baza rolu oynamış, 1916-cı ildə isə bu siniflər musiqi məktəbinə çevrilmişdir. Həmin məktəbin də Azərbaycanda gələcək musiqiçilərin inkişafına çox böyük təsiri olmuşdur. Qeyd etməliyik ki, Azərbaycanda yüksək xalq musiqi mədəniyyətinin, bütün folklor sərvətlərinin olmasına baxmayaraq,

milli fortepiano musiqisini yaratmaq üçün hələ çox işlər görülməli idi. Ən yaxşı hallarda piano gecələrində milli musiqilərimiz müxtəlif Azərbaycan melodiyalarının variasiyaları ilə təmsil olunurdu. (2)

Musiqi mədəniyyəti getdikcə daha çox inkişaf edir, 1921-ci ildə Azərbaycan dövlət Konservatoriyası yaranır, 1922-ci ildə Üzeyir Hacıbəyov "Türk (Azərbaycan) musiqi məktəbini" yaradır və ona rəhbərlik edir, 1926-cı ildə həmin məktəb konservatoriya ilə birləşdirilərək yüksək musiqi təhsili daha da genişləndirilir. Fortepiano musiqisinin Konservatoriyada tədrisində qabaqcıl rus musiqiçi və pianoçularının böyük rolu olur, onlar milli kadrların yetişdirilməsinə səy göstərirlər. 1927-ci ildə Konservatoriyada ilk azərbaycanlı pianoçu, həmin Konservatoriyanı bitirmiş K.Səfərəliyeva müəllimlik fəaliyyətinə başlayır.

İyirminci illər fortepiano musiqisi üçün hazırlıq illəri idi. Yalnız otuzuncu illərdə fortepiano mədəniyyəti müəyyən nailiyyətlər əldə etməyə başlayır, görkəmli milli pianoçularımız yetişir.

Respublikamızda ifaçılıq sənətinin inkişafında və təkmilləşdirilməsində professor K.Səfərəliyevanın 15 il ərzinde rəhbərlik etdiyi, Konservatoriyanın nəzdində 1934-cü ildə yaradılan və sonralar on illik məktəbə çevrilən xüsusi uşaq qrupunun çox böyük rolu olmuşdur.

Bu dövrlərdə Respublikamızın rayonlarında da musiqi məktəblərinin şəbəkəsi genişləndirilir. Otuzuncu illərin sonlarına kimi Azərbaycan musiqisi müxtəlif janrlarda yazılmış əsərlərlə zənginləşdirilir. Ötən əsrin qırxıncı illərində isə bəstəkarlıq yaradıcılığının janr diapazonu daha da genişləndirilərək, milli fortepiano musiqisinə getdikcə daha çox yer verilməyə başlayır, fortepiano ifaçılıq yaradıcılığı da inkişaf edir.

## ƏDƏBİYYAT

1. Bağırov N. “Asəf Zeynallı və fortepiano musiqisi” jurnalı
2. Məhərrəmova İ. Aqşin Əlizadənin fortepiano üçün metodik vəsaiti

**İNCİ ƏLİYEVA**
*Etnomusiqişünaslıq*
*Naxçıvan Dövlət Universiteti*
*inci.eliyeva97@gmail.com*

## ÜZEYİR HACIBƏYOVUN PUBLİSİSTİK FƏALİYYƏTİ

Azərbaycan professional musiqisinin klassiki, görkəmli dramaturq Üzeyir Hacıbəyov öz ictimai fəaliyyətinə müəllimlik və mühərrirlikdən başlamışdır. Üzeyir Hacıbəyov qısa bir müddət ərzində istedadlı publisist kimi tanınmışdır. O, 1905 – 1948-ci illər ərzində Azərbaycanın dövri mətbuatında fəal iştirak edərək öz kəskin qələmi ilə xalqımıza qırx ildən artıq faydalı xidmət göstərmişdir. (1)

Üzeyir Hacıbəyov Azərbaycanın dövri mətbuatında gah açıq, gah gizli imza ilə çıxış edirdi. Onun felyetonları, səhnəcikləri feodal mühitini ifşa edən məqalələri dərin məfkurə cəhətdən, sərrastlıq və ifadə kəskinliyi ilə diqqəti cəlb edir, bu publikisistikanın mövzusu olduqca geniş və müxtəlif idi. Mübaliğəsiz demək olar ki, müəllif öz dövrünün irəli sürdüyü bütün siyasi, iqtisadi, tərbiyəvi, əxlaqi və s. məsələlərə toxunmuş və onu mütərəqqi səpkidə işıqlandırmağa çalışmışdır. Bununla bərabər, onun publisistikasında Şərq xalqlarının milli azadlıq mübarizəsi, imperializmin mənfur müstəmləkə siyasəti bütün açıqlığı ilə ifşa olunur.

Müəllif öz fikrini yığcam, aydın və obrazlı şəkildə, özünəməxsus üsulda ifadə etməyi böyük ustadlıqla bacarır. Onun zamanına görə açıq və sadə olan dilində müasirlik nöqteyi – nəzərdən çətin anlaşılan sözlərə ifadə və cümlələrə təsadüf etmək olur. Dilimizin inkişaf tarixini düzgün müəyyən etmək və habelə Üzeyir Hacıbəyov kimi böyük publisistin dil, üslub, janr xüsusiyyətlərini saxlamaq məqsədilə yazılarına, demək olar ki toxunulmamışdır. (2)

Məlumdur ki, publisistika bədii ədəbiyyatın ən aktual, ən canlı janrıdır. Zamanın, əsrin, xalq həyatının bu günkü vəziyyətini əks etmək və irəli sürdüyü vacib suallara cavab vermək publisistikanın əsas vəzifəsidir.

Həm də o publisistik əsərlər əhəmiyyətli, qiymətli sayılır ki, onlar gündəlik mübarizələrin irəli sürdüyü məsələləri və həyatın canlı qaynaqlarından doğan böyük problemləri əks edir, çox vacib suallara cavab verir. Özü də dövri cavab verir. Yəni onların müəllifləri dolaşıq ziddiyyətlər içərisində itib batmır, tərəqqi və inkişafa kömək edən həqiqətləri görə bilir, həris duyğulara, mürtəce fikirlərə, alçaq və yalançı hisslərə qapılmırlar. Üzeyirin əsas publisistik əsərləri məhz bu cür əsərlərdəndir. Üzeyir Hacıbəyovun publisistik fəaliyyətinin ən qızğın dövrü 1905 – 1915-ci illərdir. Bu dövrü əhatə edən çoxlu publisistik yazıları, canlı publisistik fəaliyyəti məhz mütərəqqi ruhda olmuş, zamanənin son dərəcə mühüm məsələlərinə toxunmuş və onlara əsasən düzgün cavab vermişdir. (1)

İctimai fəaliyyətlərin kəskinləşdiyi və inqilabi mübarizələrin son dərəcə qızışdığı bu dövrdə Üzeyir Hacıbəyov özünün əsas publisistik əsərlərini yazmışdır. Üzeyir Hacıbəyov "Molla Nəsrəddin", "İrşad", "Həyat", "Tərəqqi", "İqbal", "Həqiqət" və s. qəzet və jurnallarda çap etdirdiyi saysız – hesabsız publisistik yazılarda Azərbaycan xalqının həyatının, mübarizəsinin, təfəkkürünün ən müxtəlif sahələrini və problemlərini işıqlandırırdı.

Üzeyir Hacıbəyov öz düşüncələri, ideyaları və zövqü etibarilə xalqına bağlı idi. Xalqın həyatı, ruhi aləmi, mənəviyyatı, tarixi və mədəniyyəti ilə dərindən tanış idi, dərdlərini və etirazlarını bütün qəlbi ilə duymuşdu. Söz yox ki, bu keyfiyyətlərin yaranmasında publisistika az rol oynamamışdı. Onun xalq həyatı və mübarizəsi xalqın gündəlik etirazları ilə daha artıq bağlanmasına inqilabi – demokratik görüşlərinin möhkəmlənməsinə kömək etmişdi. Publisistika demək olar ki, ən çox "Arşın mal alan", "Məşədi İbad", "Ər və arvad"dakı satirik sürətlərin yaranmasında böyük bir hazırlıq məktəbi olmuşdu.

Təbiidir ki, Üzeyir Hacıbəyov kimi geniş fikirli, həqiqi qeyrət sahibi olan vətəndaş ürəkli bir yazıcı dövrünün ağır dərdlərini və etirazlarını mümkün qədər bütünlüklə geniş ölçüdə əks etməyə bilməzdi. Onun publisistik yazıları öz tematik genişliyi ilə ədəbi mənbələrdən xüsusilə Şərq

ədəbiyyatından gətirdiyi misallarla adamı heyran edir. Üzeyir Hacıbəyov hər şeydən yazırdı, "Molla Nəsrəddin" yolunu davam etdirərək bir çox dərdlərə və yaralara toxunurdu. (2)

Üzeyir Hacıbəyov publisistik yaradıcılığında humanizmin, azadlığın böyük müdafiəçisi kimi çıxış edir. O, göstərirdi ki, insan şəxsiyyəti yalnız azad və sərbəst olduqda təbiətindəki gözəl istedad və keyfiyyəti meydana çıxara bilər. Təzyiq və sıxıntı küt, qorxaq, namərd və aciz adamlar yetirir. Azadlıq isə insanı ucaldır, gözü açıq, cəsur edir. Üzeyir yazır: "İnsanınkı odur ki, mümkün dərəcədə sərbəst olsun, heç bir təzyiq altında qalmasın, ta ki onun ağır sərbəstyana iş görməklə mənfəət yetirən kimi, insaf və vicdanında sərbəst qalıb fənalığı qəbul etməsin, yoxsa insanın ağıl və insafı təzyiq altında iş görməyə məcbur olsa, elə insanın ağlı yox az səmərələr verib insaf və vicdanı da fənalığı qəbula məcbur olar" ("Həqiqət" qəzeti, 29 dekabr 1909 – cu il).

Üzeyir Hacıbəyov "Molla Nəsrəddin"çilər yolunu tutaraq xalqımızın dərdlərindən yazmış, köhnə həyatın bir çox kiçik tərəflərini mənəvi – əxlaqi səfalətlərini atəşə tutmuşdur. Çünki onlar çürük olsa da yaşayırdı, xalqın əl – ayağına dolaşır və irəliləməsinə, müasir mədəni xalqlar cərgəsinə çıxmasına mane olurdu. Üzeyirin tənqidi sərrast tənqid idi, işıqlı, mütərəqqi qayələri müdafiə edir və hədəfə vururdu. Ü. Hacıbəyov tənqidi böhtan vasitəsilə şəxsi qərəz silahına çevirənlərə atəş açaraq yazırdı: "Bizim boşboğaz tənqidçilərimiz də az deyil. Bu tənqidçilərin bəziləri öz boşboğaz adətlərinə görə, bəziləri də məhz qərəz – şəxsi ucundan hər yerdə və hər zamanda oturub – durub əhli adamları tənqid etməyə başlayırlar. Əlbəttə, həqiqi və doğru çox vacibdir və mənfəəti də çoxdur. Lakin cahilanə tənqid çox zərərdir. Çünki, cahil tənqidçi heç bir şey anlamır. Yaxşı – yaman seçə bilmir". ("Həqiqət" qəzeti, 5 yanvar 1910 – cu il). (1)

Üzeyir bəyin sarsılmaz qənaətinə görə əsl jurnalist ancaq gördüyü və bütün vicdanının şahidliyi ilə ürəkdən inandığı həqiqəti yazmalıdır. Məqalələrinin birində Üzeyir bəy deyirdi ki, "millətə, camaata bir təhlükə üz verdiyi zaman qəzet dördgözlü olmalıdır ki, təhlükə bir tərəfdən üz verdikdə digər tərəfdən qabağı alınsın" ("Həqiqət" qəzeti, 28 yanvar, 1910-cu il).

Üzeyir Hacıbəyli çar üsul – idarəsinin ağır bürokratiya maşınını böyük hərarətlə, çox təsirli qələmlə tənqid və ifşa edirdi. O, "Dövlət dumasının açılmağı" adlı məqaləsində hakim təbəqənin dövlət aparatından öz xeyri üçün gen – bol istifadə etməsini tənqidə tutaraq yazırdı: "Vəzirlərdən tutmuş, hər bir sahibmənsəb – cümləsi bürokratdırlar. Hansı məmləkətdə ki, bürokratlar güclü və ixtiyarlıdır, o məmləkətin işi xarabdır, çünki ixtiyarlı bürokratın vücudu ilə millət özü heç bir işi görə bilməyib həmişə onların buyurduğuna əməl etməyə məcbur olar və heç bir ixtiyarı olmaz ki, durub bürokratların tutduğu əməllərə nəzər yetirsin ki, görək aya bu əməllər millətdən ötrü nə qədər ağırdır və milləti əzməkdə bürokratın nə haqqı vardır." (2)

Üzeyir Hacıbəyovun publisistikası mütərəqqi mahiyyətdə olub, xalqımızın azadlıq mübarizəsinə böyük kömək göstərmişdir və o, bu gün də öz tərbiyəvi əhəmiyyətini itirməmişdir. (1)

## ƏDƏBİYYAT

1. Q. Qasımov. Üzeyir Hacıbəyov əsərləri. III cild. Bakı: 1968.
2. M. İbrahimov. Ədəbi məqalələr. Bakı: 1970

**FƏRHAD ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*lycidas515@gmail.com*

# TƏSVİRİ SƏNƏTDƏ İMPRESSİONİZM

İmpressionizm ("impression" sözündən olub təəssürat deməkdir) incəsənətin XIX əsrin 60-cı illərinin sonlarında Fransada yaranan istiqamətidir. Onun nümayəndələri – fransız rəssamlar Klod Mone, Kamil Pisarro, Alfred Sisley, Pyer Ogüst Renuar və başqaları daim hərəkət edən və dəyişən gerçək dünyanı daha təbii və qərəzsiz əks etdirməyə, ani təəssüratlarını tabloya köçürməyə çalışıblar. Onların əsərlərində rəngin və işığın əks olunmasına xüsusi diqqət yetirilib.

"İmpressionizm" sözü təsviri sənət üslubu kimi Klod Monenin 1874-cü ildə sərgidə nümayiş etdirilən "Təəssürat. Günəşin doğuşu" ("Impression. Soleil levant") əsərinin adından əmələ gəlib. O dövrdə bir o qədər də tanınmayan jurnalist Lui Lerua həmin sərgidə əsərləri nümayiş etdirilən rəssamları aşağılamaq üçün onları öz jurnal məqaləsində "impressionist" adlandırıb. Bu ad qəbul olunub və zaman keçdikcə ilkin mənfi mənasını itirib. (şəkil 1.)




Şəkil 1.

İnpressionistlərin ilk mühüm sərgisi 1874-cü il mayın 15-də fotoqraf Nadarın emalatxanasında olub. Orada 30 rəssamın 165 əsəri təqdim olunub. Gənc rəssamları natamamlıqda və səliqəsizlikdə, zövqsüzlükdə və mənasızlıqda, "əsl incəsənətə qəsd etməkdə", qiyamçı əhval-ruhiyyədə və hətta mənəviyyatsızlıqda qınayırdılar.

İmpressionizmin aparıcı nümayəndələri Klod Mone, Kamil Pisarro, Berta Morizo, Alfred Sisley və Frederik Bazildir. Onlarla bərabər, Eduard Mane və Edqar Deqa da öz əsərlərini sərgiləyiblər. Ceyms Uistler, Hoakim Sorolya, Konstantin Korovin də impresionist rəssamlar sayılır. Şəhər həyatı mənzərələri və səhnələri impressionist rəngkarlığın bəlkə də ən səciyyəvi janrlarıdır. Bu əsərlər irəlicədən hazırlanmış eskizlər əsasında deyil, təbiətin qoynunda, açıq havada, yəni bilavasitə naturadan çəkilirdi. İmpressionistlər diqqətlə naturaya baxır, adi gözlə görünməyən boyaları və rəng çalarlarını, məsələn, kölgədə olan göy rəngi görməyə çalışırdılar.

Bu rəssamların bədii metodu mürəkkəb tonları onları təşkil edən xalis spektr rənglərinə ayırmaqdan ibarət idi. Nəticədə rəngli kölgələr və təmiz, işıqlı, təsirli rəngkarlıq əsəri alınırdı. İmpresionistlər boyaları ayrı-ayrı yaxmalar şəklində qoyurdular, bəzən şəklin bir hissəsində kontrast tonlardan istifadə edirdilər. Rənglərin canlı sayrışması effekti impresionistlərin əsərlərinin əsas cəhətidir. (şəkil 2.)



Şəkil 2

İmpressionistlər əşyanın rəngdən-rəngə düşməsi təəssüratını yaratmaq üçün bir-birini gücləndirən rənglərdən, məsələn, qırmızı və yaşıl, sarı və bənövşəyi, narıncı və mavi rənglərdən istifadə etməyə üstünlük veriblər. Davamlı kontrast effektini də məhz bu rənglər yaradır. Əgər müəyyən müddət qırmızı rəngə baxsaq, sonra nəzərlərimizi ağ rəngə çevirsək, onda ağ rəng yaşımtıl kimi görünəcək.

İmpressionizm fəlsəvi problemlər qaldırmayıb, hətta təsvir edilənlərin "dərinliyinə" varmağa çalışmayıb. Rəsmi akademizmə xas olan Bibliya, ədəbi, mifoloji və tarixi süjetlər kənara qoyulub. Əvəzində adiliyi və müasirliyi görmək imkanı yaranıb. Rəssamlar insanları çox vaxt hərəkət edən, əylənən və ya istirahət edən vəziyyətdə çəkir, müəyyən yerin görünüşünü müəyyən işıqlandırma fonunda təsvir edirdilər. Onların əsərlərinin əsas mövzularından biri də təbiət idi. İmpressionistlər həyatın yalnız müsbət tərəflərini göstərir, kəskin sosial problemlərə toxunmurdular. Rəqs edən, kafe və teatrda oturan insanlar, qayıq gəzintiləri, çimərliklər, bağlar (Renuar, Mane və Klod Monenin bir sıra əsərləri) impressionistlərin sevimli süjetləri olub. Onlar öz əsərlərini emalatxanada deyil, açıq havada çəkməyə başlayan ilk rəssamlardan olublar.

İmpressionizm təsviri sənətdə zəngin irs qoyub. Bu, ilk növbədə rəng problemlərinə və qeyri-standart texnikalara maraqdır. Bu üslubda yaratmış böyük rəssamların əsərlərinə baxanda uzun müddət onların təsirindən ayrıla bilmirsən. Bu əsərlərdə sanki mücərrəd, ani, heç bir vəchlə tuta bilməyəcəyin harmonik bir aləm var.

Təsviri sənətdə impressionizm istiqamətinin üslub və prinsiplərini hazırda müasir impressionistlər davam və inkişaf etdirirlər. Axı insanın gözəllik, məhəbbət, xoşbəxtlik haqqında arzuları əzəli bir hissdir. İnsan yaşadıqca, içindəki həyat eşqi də yaşayır. Müasir impressionistlər də öz əsərlərində insanın həyata bağlılığını çox parlaq və təsirli şəkildə canlandırırlar.

## ƏDƏBİYYAT


1. Samirə Mir Bağırzadə. İncəsənət tarixi. Bakı: MSA, 2012
2. M.J.Manafova, N.T.Əfəndiyeva, S.A.Şahhüseynova. Mədəniyyət tarixi və nəzəriyyəsi. Sabah, 2008. Təkrar nəşri 2010.
3. Rasim Əfəndi. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007.

**FƏRİDƏ BAXŞIZADƏ**
*Təsviri incəsənət tarixi və nəzəriyyəsi*
*Naxçıvan Dövlət Universiteti*
*zulfbax@gmail.com*

# ƏFSANƏVİ MUXTAROV SARAYI

XIX əsrin əvvəllərində hərbi inzibati hakimiyyətin səyi və Zaqafqaziyada işləyən rus memarlarının yaradıcılığı sayəsində Azərbaycanda məhəlli memarlıqla yanaşı Avropa memarlığı da inkişaf edirdi. Avropa memarlığının təsiri ilə tikilən binalardan biri də neft sənayesinin milyonçularından olan Murtuza Muxtarovun sarayı idi. Murtuza Muxtarovun sarayı haqqında ilk yazanlardan biri Manaf Süleymanov olmuşdur. O, "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" (1987) kitabında yazır: "Liza xanımla Avropa səyahətinə gedirlər, Venetsiyadakı binaların arxitekturası neftxudanı valeh edir. Və onlara oxşar bir sarayı Bakıda bir il ərzində (1911-1912) tikdirir. Sarayın hər sütunu, tağları, buta və gülləri, pəncərə və qapıları, bəzəklərinin hamısı təkrarolunmaz sənət əsəri memarlıq incisidir. Neftxuda pul əsirgəmədiyi kimi memar da ilham, ustalar da səy və əməklərini əsirgəməyiblər. Sarayı arxitektor Ploşko fransız qotik üslubunda layihələşdirib" (1). Şamil Fətullayev –Fiqarov "XIX əsr-XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq" (2013) kitabında yazır: "İsmailiyyəni bərk xoşlayan Muxtarov öz sarayını, Ploşkonun onun üçün layihəni hazırlayarkən nəzərdə tutduğu milli-şərq üslubunda deyil, məhz qotika üslubunda tikdirməyi qərara almışdı. Əgər İsmailiyyədə obraz möhtəşəmliyi müşahidə olunursa, burada fransız qotikasının xəfifliyi və zərifliyi tam şəkildə açılır" (2). Bəzi mənbələrdə isə Muxtarovun Ploşkodan sarayı Venesiya tərzində tikməsini xahiş etdiyini, lakin son nəticədə sarayın orta əsrlər Fransız məbədini xatırlatdığı yazılır(3).Rus əsilli jurnalist Oksana Bulanova isə sarayın görünüşünün Fransız yaxud da Venesiya qotikasına oxşamamasını və deyilənlər kimi sarayın ərsəyə gəlmə fikrinin avropa səyahətindən qaynaqlandığını əsas tutaraq, sarayın avropadakı proobrazını axtarmaq qərarına gəlir. Qotika üslubunun Fransada yaranmasına baxmayaraq Almaniyada təşəkkül tapması ilə əlaqələndirərək onu Berlində axtarmağa qərar verir. O.Bulanovanın yazdıqlarına əsasən çox axtarışlardan sonra dağıdılmış Berlin memarlığı şedevrlərinə həsr olunmuş bir forumda eyni ilə Muxtarov sarayının proobrazı olan tikilinin fotosunu tapır. Məqaləsində Muxtarovun binasının proobrazı olan tikilinin fotosunu, müqayisə üçün Muxtarovun sarayı ilə yanaşı yerləşdirən jurnalist, Ploşkonun Berlindəki tikilidən çox ilhamlandığını və ondan daha yaxşısını tikməyi bacardığını qeyd edib. Tikililəri müqayisə etdikdə isə İ.K.Ploşkonun girişdəki barokko üslubunu xatırladan yarımdairəvi damı olan giriş hissəni atdığını, qalxanlı ayını cəngavərlə əvəz etdiyini, günbəzini yenilədiyini , şaquli zərif elementlər sayəsində binanı yuxarı doğru yönəltdiyini yazır. O, həm də qeyd edir ki, bu tikili heç də plaqiat deyil və o dövr üçün tez-tez hər hansı bir şəhərdəki ev əsas götürülüb,proyekti işlənilib başqa şəhərdə ucaldılması xarakterik idi.





Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, O.Bulanova Berlindəki tikilidə giriş hissənin

barokko üslubunda olduğunu yazır lakin alman memarlığında tikilmiş qotik üslubdakı binalarda biləraəkdən roman üslubuna xas elementlər saxlanıldığı məlumdur.

Bütün bunlardan əlavə, binanin memarlıq həlli bütünlüklə qotik üslubda olsa da, bina eklektika dövründə (XIX əsrin ortalarından) tikildiyi üçün neoqotika üslubunda adlandırmaq daha doğru olar. Neoqotika üslubundakı tikililərdə müxtəlif ölkələrin və dövrlərin memarlıq üslubları və istiqamətləri, məbəd memarlığı və qala tikintisinin qarışıq texnikaları nəzərə çarpır.

## ƏDƏBİYYAT

1. Manaf Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. 1987
2. Şamil Fətullayev–Fiqarov. "XIX əsr - XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq. 2013
3. Tonkosti.ru saytı

**FƏRİDƏ RÜSTƏMXANLI**
*Musiqi tənqidi*
*Naxçıvan Dövlət Universiteti*
*rustemovaferide97@gamil.com*

## SÜLEYMAN ƏLƏSGƏROVUN YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK MOTİVLƏRİ

Süleyman Ələsgərov yaradıcılığı ilə Azərbaycan musiqi mədəniyyəti tarixində özünəməxsus yeri olan bəstəkarlardan biridir. Süleyman Ələsgərovun həyat və yaradıcılığı XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixinin ən maraqlı və orijinal səhifələrindən biridir. Süleyman Ələsgərov görkəmli bəstəkar, dirijor, zəhmətsevər pedaqoq, böyük vətənpərvər, eyni zamanda gözəl insan olmuşdur. Onun mahnıları, instrumental əsərləri, operaları, simfonik musiqidəki nailiyyətləri fitri istedadının və yaradıcılıq təxəyyülünün parlaq təzahürüdür. Azərbaycan xalqının fəlsəfi təfəkkürünün mənbələrindən olan xalq musiqisi Süleyman Ələsgərov yaradıcılığının əsas bazası olmuşdur. Xalq musiqisindən bəhrələnən bəstəkarın özünəməxsus yazı üslubu, bəstəkarlıq texnikası və fərdi yaradıcılıq xüsusiyyətləri müraciət etdiyi bütün janrlarda maraqlı obrazlar canlandırmağa imkan vermişdir.

Görkəmli bəstəkar Süleyman Ələsgərov musiqinin bir çox janrında öz yaradıcılıq imkanlarını sınamış, zövq oxşayan maraqlı əsərlər yaratmışdır. Bəstəkarın yaradıcılığı ilə yaxından tanış olarkən aydın olur ki, o, respublikamızda baş verən bütün ictimai-siyasi, ədəbi prosesləri diqqətlə izləyərək hər zaman fəal aparıcı mövqedən çıxış etmişdir. Ayrı-ayrı tarixi hadisələr bəstəkarın yaradıcılıq təxəyyülünü qüvvətləndirərək müxtəlif forma və janrlarda musiqi əsərlərinin yaranmasına əhəmiyyətli təsir göstərmişdir.

Süleyman Ələsgərov XX əsrın 30-40-cı illərini əhatə edən dövrdə formalaşan sənətkarlardandır. Öz xalqının övladı olaraq o, zəmanəsinin qabaqcıl fikirli vətənpərvər mütəfəkkirlərinin irəli sürdüyü ideyaların sədaqətli davamçısıdır. Süleyman Ələsgərov ilk növbədə vətənpərvər rəssamdır. II Dünya müharibəsinin, Azərbaycanda XX əsrin sonunda vüsət alan milli azadlıq hərəkatının, “Qarabağ” faciəsinin şahidi olan sənətkar bu dövrün hadisələrini zəngin musiqi dili vasitəsi ilə canlandırmağı bacarmışdır.

Məlumdur ki, mahnı janrı geniş dinləyici kütlələrinə xitab etmənin ən orijinal formalarından biridir. Həcmcə kiçik olan bu janrda olduqca güclü hisslər təsvir etmək mümkündür. Təsadüfi deyil ki, Süleyman Ələsgərovu bir bəstəkar kimi məşhurlaşdıran mahnı janrındakı ilk əsəri “Gözlə məni” məhz vətənpərvərlik mövzusunda olan maraqlı sənət nümunələrindəndir. 1942-ci ildə yazılmış “Gözlə məni” mahnısı sevgilinin yolunu həsrətlə gözləyən aşiqə həyatını vətənin azadlığı uğrunda mübarizəyə həsr etmiş qəhrəmanın təsəllisidir. Bəstəkar bu əsəri haqqında deyirdi: “İlk mahnımı mən ikinci cahan müharibəsi illərində yazmışam. Bu, cəbhədə həlak olmuş istedadlı şair Şirzad Əliyevin sözlərinə yazılmış “Gözlə məni” mahnısıdır. Mən xoşbəxtəm ki, bu ilk mahnımı Azərbaycan vokal məktəbinin banisi Bülbül oxumuşdur”.

Süleyman Ələsgərovun dahi Azərbaycan şairi Füzulinin sözlərinə bəstələdiyi “Vətənimdir” romansı da özünün əzəmətli melodiyası və dərin obrazlılığı ilə vətənə olan alovlu məhəbbəti tərənnüm edir.

Süleyman Ələsgərovun yaradıclığında vətən mövzusu həm lirik, həm də dramatik planda inkişaf etdirilir. Doğma Şuşa və Qarabağa duyduğu böyük həsrəti sənətkar vətənpərvərlik mövzusunda yazdığı mahnılarda ifadə edir. Ürəyi vətən məhəbbəti ilə çırpınan bəstəkarın hərbi-vətənpərvərlik mövzusunda “Yürüş mahnısı”, “Əsgər marşı”, “Bu torpağa bağlıyıq”, “Hardasan igid oğlan”, “Azərbaycan polisi”, “Bakı-Ankara” kimi əsərləri öz aktuallığı ilə diqqəti cəlb edərək, dinləyicilərə mübarizə ruhu aşılayır. Onun “Sazım Borçalıda, sözüm Göyçədə”, “Gözəldir”, “Bu dünyanın qara daşı göyərir”, “Qəhrəman”, “Laylay”, “İstanbulum”, “Üç yaylaq çiçək”, “Eyləmişəm”, “Ya Rəbb” və s.mahnıları, eləcə də “Ömür qala” vokal əsəri, “Ey gül” mahnı-romansı və başqaları

böyük maraqla dinlənilən əsərlərdəndir.

Süleyman Ələsgərov iri həcmli əsərlərində də vətənə və vətən övladlarına duyduğu dərin məhəbbət və rəğbət hisslərini tərənnüm edir. Onun diplom işi müasir vətən övladlarının həyatına həsr etdiyi "Vətən" simfoniyası olmuşdur. Bəstəkarın "Vətənə eşq olsun" kantatası, Həzi Aslanova həsr olunmuş simfonik "Poema"-sı da vətənpərvərlik mövzusunda yazılmışdır. Bu əsərlər elə yarandığı dövrdə musiqi ictimaiyyətində rəğbətlə qarşılanmış və bu günümüzə qədər müxtəlif konsert proqramlarının repertuarını zənginləşdirməkdədirlər.

Yaradıcılğının son illərində Süleyman Ələsgərov vətənpərvərlik mövzusuna daha çox müraciət edərək, hərbi mahnılar, marşlar bəstələyirdi. "Gənclik marşı", "Biz qələbə çalmalıyıq", "Bura Vətəndir", "Güllələnən abidələr" və başqaları bu qəbildən olan əsərlərdəndir.

Qarabağ faciəsinə- Azərbaycan xalqının ən ağır dərdinə heç vaxt laqeyd qalmayan bəstəkar sənətkarları öz əsərlərində bu mövzunu bütün yaradıcı imkanlarla daha dərindən işləməyə çağıraraq qeyd edirdi**:** "Xalqımızın ağır, çətin günündə biz sənətkarlar daha çox işləməli, tariximizi, bu günümüzü, başımıza gələn faciələri öz əsərlərimizdə tərənnüm etməliyik ki, bu əsərlər tarixin canlı şahidi kimi gələcək nəsillərə yadigar qalsın".

S.Ələsgərov bütün yaradıcılığı boyu əsl vətəndaş mövqeyindən çıxış etmiş, müxtəlif janrlarda yazdığı əsərlərdə maraqlı musiqili obrazlar yaradaraq musiqi mədəniyyətimizi ecazkar və rəngarəng sənət əsərləri ilə zənginləşdirmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan musiqi tarixi. III cild, Bakı: "Elm" nəşriyyatı, 2018
2. Əliyeva F. Azərbaycan musiqisində üslub axtarışları. Bakı: 1996,118 s.
3. Qasımova S. Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı. Bakı: Elm və təhsil, 2011
4. Qasımova S. Azərbaycan musiqi ədəbiyyatı. Dərslik I hissə, Bakı: Adiloğlu, 2003
5.Qasımova S. Bağırov N. Azərbaycan sovet musiqi ədəbiyyatı. Dərslik, "Maarif" nəşriyyatı, Bakı: 1984

**GÖYÇƏK HACIYEVA**
*Etnomusiqişünaslıq*
*Naxçıvan Dövlət Universiteti*

# XƏYYAM MİRZƏZADƏNİN FORTEPİANO YARADICILIĞI

Müxtəlif janrlarda, müxtəlif formalı çoxsaylı əsərlərin müəllifi kimi tanınmış Mirzəzadə milli musiqi mədəniyyəti salnaməsinə çox dəyərli səhifələr yazmışdır. Mirzəzadə qələminin məhsullarının siyahısına ötəri bir nəzər salsaq, aşağıdakıların adlarını çəkə bilərik: iki simfoniya, "Oçerklər -63" simfonik poeması, iki simli kvartet, skripka üçün Konsert, ağac nəfəs alətləri üçün sekstet, fortepiano üçün bir neçə əsər, o cümlədən, "Ağlar və qaralar" silsiləsindən 12 prelüd, "Ohne", variasiyalar, skripka, alt, arfa, gitara üçün solo sonatalar, müxtəlif heyətli orkestr üçün nəzərdə tutulan "Memory", "Konsertştük" və "Pianto" kimi əsərlər, uşaqlar üçün pyeslər silsiləsi, "Etiraf" vokal silsiləsi, "Metamorfozlar" və s. Onun bir sıra dram tamaşalarına və kinofilmlərə yazdığı musiqini də bu siyahıya aid etmək lazımdır.

Mirzəzadə plakat musiqisindən uzaq olan, daim düşünən sənətkardır. Onun əsərlərində diqqəti ən çox cəlb edən cəhət bu əsərlərin dərin intellektual-psixoloji obrazların fərdiliyinin açılmasıdır. Bəlkə də, bunun nəticəsidir ki, Mirzəzadə musiqisi çox vaxt monoloq təsiri bağışlayır. Bununla bərabər, o, daim yeniləşməyi və irəliyə getməyi bacaran sənətkardır. Bəstəkar daim eksperimentlərə can atır, müasir sənət və sənətkarlığın qarşılaşdığı çoxsaylı problemlərin həllinin fərdi yollarını axtarmaqdan usanmır.

X.Mirzəzadə müasir bəstəkar olaraq, sözsüz ki, sənətin bir çox sirrlərini öz müəllimlərindən əxz etmiş, klassik və müasir dünya musiqisinin dahi sənətkarlarının yaradıcılığından bəhrələnmişdir. Lakin bütün bunları bəstəkar özünəməxsus tərzdə yaradıcılıq süzgəcindən keçirərək fərdi üslubunu yaratmışdır. Q.Qarayev məktəbinin yetirməsi olan X.Mirzəzadə özündən əvvəl əsası qoyulmuş ənənələri yaradıcılığında yeni aspektdən inkişaf etdirmişdir.

Müasir musiqi texnologiyalarını dərindən mənimsəyən X.Mirzəzadə milli öz ideyalarını həyata keçirmək üçün milli təfəkkürün qanunauyğunluqlarına, xalq musiqisinin dərin qatlarına, qədim təbəqələrinə də istinad edir.

X.Mirzəzadə müxtəlif janrda yazılmış bir çox əsərlərin müəllifidir. Buna baxmayaraq instrumental musiqi janrı onun yaradıcılığında aparıcı rol oynayır. Simfoniyalar, simfonik poemalar, kvartet, çoxsaylı kino və dram tamaşalarına musiqinin, mahnı və romansların müəllifi ömrünün son dövrlərində daha çox solo və instrumental ansambl musiqisi yazmaqla məşğul olmuşdur.

X.Mirzəzadənin yaradıcılığında maraq doğuran sahələrdən biri fortepiano musiqisidir. Bu sahə bəstəkarın yaradıcılığında aparıcı olmasa da, diqqətəlayiq əsərlərlə təmsil olunmuşdur. Bu baxımdan onun "Uşaq pyesləri" silsiləsi, 12 prelüddən ibarət "Ağlar və qaralar" silsiləsi, sol əl üçün yazılmış "Ohne" əsərini xüsusi qeyd etmək lazımdır.

1970-ci illərdə X.Mirzəzadə uşaq və gənclər üçün "Uşaq pyesləri" silsiləsin yazır. 18 janr xarakterli, proqramlı əsərdən ibarət məcmuənin hər bir pyesi fərqli janr şəkilləri ilə açılır. Tipik uşaq səhnələri ilə yanaşı ("Kiçik marş", "Yanıltmac", "Gəzinti", "Marş-gəzinti", "Oyun", "Gəlincik laylası", "Şaxta babanın yürüşü" və s.), xalq həyatından olan proqram təsvirli pyeslərə ("Kənd səhnəsi", "Peyzaj", Xalq rəqsi", "Yürüş", "Şən yağış", "Etüd" və s.) də təsadüf edilir.

1977-ci ildə yazılmış maraqlı əsərlərdən biri – sağ əl üçün nəzərdə tutulmuş fortepiano sonatası "Ohne"dir. Azərbaycanda belə bir əsər ilk dəfə X.Mirzəzadə tərəfindən yazılmışdır.

"Ohne" müəllif tərəfindən "sonata" adlandırılmış, çox güman ki, qədim italyan dilindən tərcümədə "səslənmə" sözündən ("sonare") götürülmüşdür. X.Mirzəzadə nin sonatasının həmin janrda yazılmış digər əsərlərlə müqaisədə qeyri
-ənənəvi, şərti hesab etmək olar.

Bəstəkar əsərdə məharətlə registr oyunu, tembr qarşıdurmasından istifadə edir. Qeyd edək ki, 2 mövzunun variantlı keçirilməsinə baxmayaraq monotematizm aparıcı rol oynayır. "Ohne" üçün

dinamik zənginlik, relyeflik xarakterdir.

X.Mirzəzadə əsərdə dodekafoniyadan bacarıqla istifadə edir, aparıcı inkişaf vasitəsi kimi intervalların dönmələrinə müraciət edir.

Bəstəkar orijinal əsər yaratmışdır ki, ifa zamanı dinəyicidə bir əldən istifadə qətiyyən hiss olunmur. Ekspressiv, dolğun səslənmə nəticəsində iki əl ilə ifa illuziyası yaranır. Əsərin aparıcı obrazında muğam nəqledici intonasiyada eşidilir.

X.Mirzəzadənin fortepiano üçün daha bir əsəri olan "Ağlar və qaralar" silsiləsini qeyd etmək olar. Bu əsər Şostakoviç, Hindemit, Qarayevin istifadə etdikləri prinsip əsasında, eyni zamanda özünəməxsus fərqli qaydada işlənmişdir.

12 miniatürdən ibarət "Ağlar və qaralar" silsiləsi janr əlamətləri, tonal sistem, polistilistika tendensiyasına görə fərqlənir. Əsərdə funksional sistemdən imtina edərək lad təfəkkürünə əsaslanan bəstəkar milli musiqi prinsiplərinə əsaslanır. X.Mirzəzadə öz prelüdləri üçün polistilistik sistem yaradaraq lad-tonal, atonal, qruplaşmış və s. sistemləri sintezləşdirir. Hər prelüddə konkret obraz təsvir olunsa da, vahid eneji xətti, ümumi hərəkət axını onları birləşdirir.

Silsiləyə daxil olan 12 prelüd mahiyyət etibarı ilə obrazların xarakteri, daxili aləminin müxtəlif məqamlarını əks etdirən "şəkil"lərdir. Burada fəlsəfi obrazlarla dramatik, portret obrazları ilə qrafik təsvirləri bir-birini əvəz edir. Əsərdə istifadə edilən bütün mürəkkəb ifadə vasitələrinin mahiyyəti millilikdən irəli gələrək milli təfəkkürün estetik dayanıqlılığını sübut etmiş olur.

"Ağlar və qaralar" silsiləsi hər şeydən əvvəl özünün obraz-emosional məzmununa, intellektual-psixoloji düşüncə dərinliyinə, intonasiya məzmununa görə orijinaldır. Prelüdiyaların musiqi dili özünəməxsusluğu ilə fərqlənərək müasir instrumental musiqini zənginləşdirən cizgilərə malikdir.

"Ağlar və qaralar" silsiləsi dünya və Azərbaycan musiqisində yaranmış fortepiano silsilələri ilə müqayisədə fərqli cəhətlərə malikdir. Quruluş prinsipinə görə haqqında danışdığımız əsər P.Hindemitin fortepiano silsiləsi ilə bəzi ümumi assosiasiyalar doğurur.

Artıq qeyd etdiyimiz kimi, silsilə 12 prelüddən ibarətdir. Birinci dəftərdə prelüdlər fortepianonun ağ dilləri üzrə yuxarı istiqamətdə pilləvari ardıcıllqla düzülmüşlər. İkinci dəftərdə isə prelüdlər fortepianonun qara dilləri üzrə aşağıya doğru ardıcıllaşır.

Prelüdlərin adında "do", "re" və s. göstərilməsi tonallığın müəyyən olunmasına deyil, musiqinin bir səs qütbünə meyllənməsinə işarədir.

Silsilənin intonasiyalı obraz məzmunu müxtəlif xarakterlidir. Burada lirik pyeslər enerjili, motor xarakterli pyeslərlə, kədərli, matəm əhval-ruhiyyəli pyeslər canlı, həyatsevər pyeslərlə, lirik mahnıvari pyeslər rəqsvari pyeslərlə növbələşir. Lakin silsilədə canlı, enerjili, öz ekspressiv hərəkətliliyi ilə diqqəti cəlb edən, işıqlı obrazlar üstünlük təşkil edir.

Silsilədə homofon-harmonik üslub daxilində ən müxtəlif yazı texnikasının inteqrasiyası nəticəsində əmələ gələn mürəkkəb komplekslər özünü büruzə verir. Bu komplekslər funksional sistemin, aleatorika, sonoristika və milli lad xüsusiyyətlərinin qovuşması nəticəsində meydana gələrək, müstəqil surətdə bir-birilə növbələşir.

2000-ci ilin iyun ayında M.F.Axundov adına Opera və Balet teatrında bəstəkar X.Mirzəzadənin 1984-cü ildə yaratdığı fortepiano üçün 12 prelüdən ibarət "Ağlar və qaralar" silsiləsi əsasında birpərdəli balet tamaşası hazırlanmışdı. Aydındır ki, bu əsərin uğur qazanmasında, onun ictimaiyyət tərəfindən hərarətlə qarşılanmasında tamaşanın quruluşu ilə bağlı bir sıra uğurlu həllər tapılması ilə yanaşı, X.Mirzəzadənin dərin və gözəl musiqisi böyük rol oynamışdır.

**HAKİM MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
*maestrohakim123@gmail.com*

## AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ TARIN KEÇDİYİ YOL

Daha çox Şəhliyar təxəllüsü ilə tanınan və milliyətcə Azərbaycan türkü olan şair Seyid Məmmədhüseyn Behçət Təbrizi dediyi kimi:

Sızlayır əhvalıma sübhə qədər tarım mənim,
Təkcə tarımdır qara günlərdə dildarım mənim.

Bu sözlər qədim musiqi aləti olan tarın sehrli və ecazkar səsi insanın daxili aləminə güclü təsir imkanın malik olduğunu bir daha sübut edir, bu səbəbdən ki, dünya mədəniyyəti incilərindən sayılan Azərbaycan muğamları tar kimi ecazkar musiqi aləti sayəsində sənət qələbəsi qazanıb əbədi fəth etmişdir.

Hələ XIX əsrin ikinci yarısında Mirzə Sadıq Əsəd oğlu yəni Sadıqcan kimi tanınan tarzən və bəstəkar tara yeni quruluş vermiş və formasında dəyişiklik etmişdir. Simlərin sayını 5 - dən 7 - ə, 7- dən isə 11 simə çatdırmış və artırılmış simlərin vasitəsilə muğam sənəti daha da rövnəqlənmiş, tarın harmonik həmahəngliyinə də təsir etmişdir. Tarın solo alət kimi geniş istifadə edilməsi, xususilə muğamın solo insturmental ifaçılığını oxuma sənətinədə böyük təsir etmişdir və tarın diapazonunda genişlənmişdir. Sadıqcan tara etdiyi yeniliklərdən biridə tarın diz üstündə deyil sinədə tutulmasıdır. Beləliklə böyük tarzənin etdiyi dəyişikliklər gələcək nəslin ifaçılıq texnikasına böyük zəmin yaratdı tar Azərbaycan xalq çalğı alətləri içərsində ən geniş diapazona malik alətdir və öz ifaçılıq texnikası ilə seçilir.

XIX əsrdə rəsm əsərlərində tarın təsvirinə rast gəlmək mümkün idi. Buna misal olaraq Əbu Qasım Təbrizinin yağlı boya ilə çəkdiyi “Tarçalan qız” əsəri buna bariz nümunədir. Bu cür əsərlər, portretlər nəinki, rəssamlar tərəfindən, hətda şairlər tərəfindən də şerlərdə tez-tez tarın adına rast gəlinirdi. Azərbaycan poeziyasının inkişafında böyük rol oynamış Mikayıl Müşfiq məhz sovet ideologiyasında tar alətinədə olan qadağalar çox olduğunu bilərək “Oxu tar, oxu tar səni kim unudar” yazaraq tarın Azərbaycan cəmiyyəti və mədəniyyəti üçün nə qədər əhəmiyyətli olduğunu kəsb etdi. Azərbaycançılıq ruhunun aşılanmasında qədim milli musiqi aləti olan Azərbaycan tarı xüsusi rol oynayır.

Tar sovet ideologiyasının qadağadan onun qədrini bilən sənət vurğunlarının səyləri nəticəsində azadlığa çıxıb zaman – zaman Qurban Primov, Bəhram Mansurov, Əhməd Bakıxanov, Kamil Əhmədov kimi görkəmli sənətkarlar bu alətin nəyə qadir olduğunu göstəriblər.

Azərbaycan simli musiqi alətləri arasında tarın texniki və dinamik imkanlarına görə ən mükəmməl çalğı alətidir. Dahi bəstəkarımız Üzeyr Hacıbəyov yaradıcılığında və etdiyi yeniliklər arasında məhz demək olar ki tarında xususi və önəmli yeri var o tarı sinfonik orkestrin tərkibinə salaraq ondan məharətlə istifadə etmiş və yazdığı operalarda operettalarda tara xusisi yer vermiş bunlara misal olaraq Koroğlu operasında üverturda Leyli və Məcnun operasında tara partiya verərək tarın Azərbaycan musiqisinin şahı etmişdir Dahi bəstəkar hətda o zamanlar tar üçün əsərlər yox idi tara solo əsərlər yazaraq tarın texniki imkanlarını göstərir I fantaziya II fantaziya buna misaldı və Üzeyr Hacıbəylinin yaratdığı Azərbaycan bəstəkarlıq məktəbinin davamçıları tar üçün yeni əsərlər yazdılar ilk dəfə Dahi bəstəkarın tələbəsi Səid Rüstəmov tar üçün konsert yazaraq tardada iri həcimli əsərlərin yazılmasına böyük zəmin yaratdı. XX əsrdə Azərbaycan musiqisinin çiçəklənən dövründə məhz tarında məktəbi yarandı Azərbaycan milli konservatoriyasını yaradan Üzeyr bəy tarada önəm verdi və tarın təhsilini aliləşdirdi və buda gələcək nəsil tar ifaçıları üçün əhəmiyyətli rol oynayır Üzeyr bəyin yetişdirdiyi bəstkarlıq nəsli ifa etdikləri alət tar aləti olub buda yaranan əsərlərdə nəzərə çarpır. Azərbaycan xalq çalğı alətləri zaman keçdikcə daha da profesoniallaşmış notsuz ifadan notlu ifaya keçmiş bununda yaranma səbəbkarı 1931-ci ildə Ü.Hacıbəyli tərəfindən yaradılıb. Yaradılan Azərbaycan xalq çalğı alətləri orkestrində tarlardan bu günə kimi aparıcı alət kimi istifadə edilir. Tar

həm uşaq musiqi məktəblərində, həm musiqi texnikumlarında, həm də ali təhsil ocaqlarında tədris olunur. Azərbaycan bəstəkarları milli ruhun aşılanmasında tara yüksək qiymət vermişlər. Fikrət Əmirovun qeyd etdiyi kimi, axı tar Azərbaycanlılar arasında ən geniş yayılmış, simləri xalqın ürək telləri ilə həmahəng səslənən çox qiymətli musiqi alətidir. Üzeyir Hacıbəyov tarı bəzi "solçuların" hücumlarından müdafiə etməklə zəngin xəzinəmizi - Azərbaycan xalq musiqisini müdafiə edirdi. Moskvada keçirilən Azərbaycan incəsənəti dekadası günlərində simfonik orkestrdə sarı simli Azərbaycan tarının və başqa milli çalğı alətlərinin müvəffəqiyyətlə səslənməsi Hacıbəyovun yaradıcılıq ideyalarının qələbəsi və milli musiqimizin təntənəsi idi. O öz fikrini izah edərkən belə deyirdi: "Mən tarın bu operada iştirak etməsi üçün başqa cür düşünürəm. Hərgah tarı, milli bir alət olduğu üçün irəli çəkmək istəsəydim, o zaman kamançaya da müəyyən yer verərdim. Lakin bu, lazım deyildi. Şərq musiqisi əsasında yazılan əsərdə kamançanın vəzifəsini skripka daha yaxşı bədii bir surətdə ifa edə bilər. Lakin tar belə deyil, tarın tembri orkestrdə yenilik yaradır və onun incə səsləri artıq dərəcədə xoşa gəldiyi üçün orkestrə daxil edilməsini lazım bilirəm".Azərbaycan tarı bu gün daha profsional səviyyəyə gəlmiş dünya konsert salonlarında öz ifa xussiyyəti ilə insanları cəlb etmiş hətda avropa bəstəkarlarının əsərləri mahir tar ifaçıları Azərbaycan milli musiqi alətləri içərisində özünəməxsusluğu ilə fərqlənən Azərbaycan tarı xalqımızda azərbaycançılıq ruhunun aşılanmasında əvəzsiz rol oynayır.

## ƏDƏBİYYAT

1. http://anl.az/down/meqale/ses/2012/aprel/247616.htm
2. Əfrasiyab Bədəlbəyli. İzahlı monoqrafik musiqi lüğəti

**İNCİ NOVRUZLU**
*Musiqi tənqidi*
*Naxçıvan Dövlət Universiteti*
*inci12ova@gmail.com*

## N. RİMSKİ-KORSAKOVUN“ ŞƏHRİZAD “ SİMFONİK SÜİTASI

N.Rimski-Korsakov rus musiqi tarixində zəngin yaradıcılıq irsi ilə özünəməxsus yer tutan bəstəkarlardan biridir. O , eyni zamanda dirijor, pedaqoq, nəzəriyyəçi , ictimai xadim kimi fəaliyyət göstərmişdir. Bəstəkar qırx illik yaradıcılıq dönəmində 15 opera, 3 simfoniya, 80 romans , 3 kantata, xor, simfonik orkestr üçün “ Şəhrizad” simfonik süitası , “ İspan kapriççiosu”, kamera –instrumental eləcə də fortepiano əsərlərinin müəllifi olmuşdur. Harmoniyaya aid dərslik, “Mənim musiqi həyatımın salnaməsi”, “Orkestrləşdirmənin əsasları” onun qələminin məhsuludur. Rimski-Korsakovun musiqi tarixində folklorşünas kimi böyük xidmətləri olmuşdur.Onun əsərlərində rus xalqının tarixi, məişəti , adət- ənənəsi, milli cəhətləri öz əksini tapmışdır.O, Darqomjskinin “Daş qonaq “operasını orkestrləşdirmiş, Borodinin “Knyaz İqor” operasını Qlazunovla birgə tamamlamış, Musorqskinin” Boris Qadunov “operasının yeni redaksiyasını yazmışdır. Rimski-Korsakov yeni rus simfonik nağılının banisi hesab olunur. Bəstəkarın əsərlərinin mövzusu olduqca zəngindir . Xalq nağıllarından və dastanlarından qaynaqlanan mövzular içərisində şərq mövzulu əsərlər də əhəmiyyətli yer tutur. Rimski-Korsakovla yanaşı, rus musiqisində, eyni zamanda “Qüdrətli dəstə” bəstəkarlarının yaradıcılığında şərq mövzusuna müraciət olduqca diqqətəlayiqdir. Rus simfonik musiqisində oriyentalizmin ən gözəl nümunələrdən biri də şərq mövzulu “Şəhrizad” simfonik süitasıdır. Proqramlı olan əsər N. Rimski-Korsakov tərəfindən 1888 – ci ildə yazılmışdır. Əsərin ilk premyerası həmin ilin 28 oktyabrında Rimski- Korsakovun rəhbərliyi ilə Sank- Peterburqda həyata keçirilmişdir. Simfonik süita 4 iyun 1910- cu ildə Parisdə səhnəyə qoyulmuşdur. “Şəhrizad” simfonik süitası bəzən “Ərəb gecələri” də adlandırılır. Min bir gecə ərəb nağılları motivlərinə əsaslanaraq şərq aləmini ,ərəb dünyasını, xalq məişətini, eləcə də təbiətini, incəsənətini təcəssüm etdirir. Əsər iki növ musiqi elementinin kombinasiyası – rus musiqisinin əsas elementləri və Rimski – Korsakovun xüsusi əlavələri – heyranedici əlvan orkestr və şərq musiqi elementləri – şəklində yazılmışdır. “ Şəhrizad” simfonik süitası bir –biri ilə bağlı dörd mövzudan ibarət dörd hissəli əsərdir. Lirik əhval-ruhiyyəli məhəbbət lövhələri, məişət səhnələri fantastik təbiəti təsvir edən obrazlarla növbələşir.

“Şəhrizad” simfonik süitasi rus epik simfonizmin parlaq, olduqca məşhur nümunəsidir. Bəstəkar hər bir hissəyə başlıq verməyi düşünsə də sonradan başlıqları ixtisar etmiş, əsərin spesifik “Sindibad “nağıllarından fərqlənməsini istəmişdir. Bu səbəblə də nağıllardan götürülmüş motivlər əsasında proqram tərtib etmiş, yalnız əsərin ümumi başlığını saxlamışdır. Rimski- Korsakov qeyd edirdi: “Arzu etdiyim yeganə şey dinləyicinin bu əsəri sevməsi idi və əgər bu əsər bəyənilibsə, bunda, şübhəsiz, şərq hekayələrinin və müxtəlif nağıllarının böyük rolu var. Yalnız ona görə yox ki, əsərin dörd hissəsinin hərəsində bir şərq nağılına istinad edilir, ona görə ki, əsərin ümumilikdə mövzu bazasında Şərq dayanır”. Bəstəkar şərqi xatırladığına görə simfonik süitasını “Şəhrizad” adı ilə adlandırmışdır. Hissələrin hər biri tamamlanmış musiqi lövhələridir. Simfonik süitanin hissələrinin təzadlı bölmə və epizodlardan ibarət olması epik dramaturgiya prinsiplərinə əsaslanır.

Süitanın birinci hissəsi əvvəlcə “Dəniz və Sindibadın gəmisi” adlanırdı. Giriş (Larqo e-moll) asta templi və kiçikdir. Bu hissədə əsərin baş qəhrəmanları Şəhrizad və Şəhriyarın xarakterlərini əks etdirən mövzular leytmotivlər vasitəsilə təqdim edilir. Şəhriyar obrazı qəzəbli, qəddar hökmdar simli və mis nəfəsli alətlərin ifasında aşağı registrdə sərt və hökmlü səslənir. Bu mövzu dairəvi formada dörd notla (E-D-C-Ais) vurğulanmışdır. Şəhrizad isə zərif, incə, məlahətli obraz kimi solo skripkanın ifasında verilir. Bəstəkar Şəhrizad mövzusunu əsərin bütün hissələrini birləşdirən parça kimi düşünmüşdür . Birinci , ikinci və dördüncü hissələrin qısa girişində, üçüncü hissənin isə intermezzo hissəsində solo skripka ilə ifa edilən musiqi parçası Şəhrizadın özünü və qəddar sultan Şəhriyarı təsvir edir. Şəhrizad və Şəhriyar obrazı bir birinə təzaddır. Birinci hissə girişlə başlayır. Girişin ardınca

sonata alleqro formasında yazılmış Alleqro (e-moll) səslənir. Əsas mövzu dənizi, köməkçi mövzu isə "Sindibadın gəmisini" təsvir edir. Köməkçi partiyanın yeni mövzusu ağac nəfəsli alətlərin ifasında səslənir. Sanki dəniz səyyahı Sindibadın gəmisi dalğaların üstü ilə sürüşür. Musiqidə get-gedə coşan dəniz lövhəsi təsvir olunmuşdur. İkinci köməkçi partiyadan sonra repriz çılğın dənizi əks etdirir. Birinci hissəni tamamlayan koda işıqlı sakit musiqi ilə bitir. Bu hissədə Rimski-Korsakov "Antar" əsərindəki bənzər motivlərdən istifadə etmişdir.

Bəstəkar tərəfindən öncədən adlandırılan " Şəhzadə Qələndərin hekayəti "adlı ikinci hissə (Lento, h- moll) üçhissəli formada yazılmışdır. Bu hissədə fantastik əhvalatdan bəhs edilir. Solo skripkanın ifasında Şəhrizadın mövzusu ilə başlayır. Şəhzadə Qələndərin hekayəti faqotun aramlı, sakit solo ifasında səslənir. Mövzu variasiya ilə inkişaf etdirilir. Orta bölmədə təzadlı mövzular növbələşərək skertso-marş xarakterini alır. Əsas melodik xəttin içərisində trombonda ifa edilən giriş musiqisinin dəyişkən tonallıqlı olması nəzərə çarpır. Hissənin sonunda səslənən musiqi Şəhrizadın mövzusuna əsaslanır.

Süitanın ən lirik hissəsi üçüncü hissə (Andantino, G-dur) hesab edilir. "Şəhzadə qız və şəhazadə oğlan" adlandırılan bu hissə işləməsiz sonata formasında yazılmışdır. Forma və melodik baxımından sadə məzmun daşıyır. Hissənin əsas və köməkçi mövzular bir birilərinə yaxındırlar. Kənar mövzular da temp və ümumi motiv vasitəsi ilə əsas mövzu ilə əlaqələndirilir. Beləliklə, üçüncü hissə əsas motivə incə dönüşlə başa çatır .

Əvvəlcədən dördüncü hissə "Bağdadda xalq bayramı" adlandırılaraq möhtəşəm xalq şənliyini təsvir edir. Özünəməxsus xüsusiyyətləri olmasına baxmarayaq, dördüncü hissə əvvəlki üç hissə ilə bağlıdır. Digər hissələr kimi bu hissə də girişlə başlayır. Sultan Şəhriyarın əhvalatından bəhs edən "vivace" parçasında Şəhrizadın violinlə ifa edilən musiqisi təkrar edilir. Bu musiqinin ardınca girişdə təsvir edilmiş dağılmış gəmi səhnəsi canlandırılır. Finala giriş Şəhriyarın sərt və Şəhrizadın ürəkaçan mövzularının qarşıdurması üzərində qurulub. Finalda Şəhriyarın minor mövzusu Şəhrizadın vurğulu major ritmli mövzusu ilə əvəzlənir. Şəhrizad özünün sonuncu nağılını danışmağa başlayır. Şəhrizadın melodiyasını Bağdadda bayram musiqi lövhəsi əvəz edir. Bu böyük epizodun əsas mövzusu şərq (qafqaz) rəqsi olan ləzginkaya yaxın temperatemtli xalq musiqisidir. Bu, finalın dəfələrlə təkrar olunan əsas musiqi obrazıdır. Mövzunun səciyyəvi xüsusiyyəti şərq rəqslərinə xas çevik ritmli olmasıdır. Bəstəkar finalın musiqisində ikinci hissədən Qələndərin hekayəti, üçüncü hissədən Şəhzadə qızın mövzusu, həmçinin üçüncü hissənin orta bölməsindən sərt marş musiqisini təkrar səsləndirmişdir. Əvvəlki mövzuların yenidən səslənməsi süitanın hissələri arasında vahidlik yaratmaq məqsədi daşıyır. Bu hissədə gözlənilmədən şən bayram musiqisi xarakterini dəyişərək gərgin və drammatik xarakter alır. Final rondo formasında yazılmışdır. Sonluq Şəhrizad və Şəhriyarın mövzularına əsaslanır. Koda bölməsində qəddar hökmdar Şəhriyar artıq mülayim, təmkinli leytmotivlə təqdim olunur. Simfonik süita Şəhrizadın mövzusu ilə bitir. Əsərin son hissəsi fantastik , lirik, sülhsevər ruhda başa çatır.

"Şəhrizad" simfonik süitasının orkestr tərkibi – iki fleyta , pikkolo, iki qoboy, iki klarnet , iki faqot, dörd valtorna, iki truba, üç trombon, tuba, litavra, böyük baraban, kiçik baraban, tava, üçbucaq, dəf, qonq, arfa, skripka təşkil edir. Əsərin tez bir zamanda məşhurlaşmasına səbəb orkestrinin rəngarəngliyi, incə şərq elementləri, təsirli melodiyalar, ritmik quruluşu və zəngin məzmunu idi.

Əsəri dinlədikcə təsəvvürdə dəniz , şərq ölkələri, orjinal musiqi hekayəti canlanır. Müxtəlif xarakterli müstəqil, rəngarəng musiqi lövhələri Şəhrizadın nağıllarına köklənərək əsrarəngiz əsər ərsəyə gətirmişdir. "Şəhrizad" simfonik süitası nəinki rus musiqisinin, eləcə də dünya musiqi xəzinəsinin ən dəyərli nümunəsidir.

## ƏDƏBİYYAT

1.Tamilla Hüseynova . Musiqi ədəbiyyatı. Bakı: Şirvannəşr, 2010
2.Şəhla Həsənova. Musiqi tarixindən mühazirələr. Bakı: 2008
3. Elmira Əfəndiyeva. Rus musiqi ədəbiyyatı. Bakı: Uniprint, 2011

**LEYLAXANIM MƏMMƏDOVA**
*Musiqi tənqidi*
*Naxçıvan Dövlət Universiteti*
*mammadovaleyla555@gmail.com*

# CABBAR QARYAĞDIOĞLUNUN XANƏNDƏLİK SƏNƏTİ

Azərbaycanın musiqi mədəniyyətinin inkişafında xanəndəlik sənətinin mühüm rolu vardır. Həmin inkişaf görkəmli xanəndələrin yüksək peşəkarlığı hesabına olmuşdur. Bu sahədə elə sənətkarlarımız var ki, onların yaradıcılığı musiqi mədəniyyətində dərin izlər qoymuşdur. Həmçinin muğam sənətinin keyfiyyətcə yaxşılaşdırılması və gələcək nəslə çatdırılması işində mühüm rol oynamışlar. Belə ustad xanəndələrdən biri də muğam ifaçılığında öz üslubunu, dəst-xəttini yaratmış, təsniflər, mahnılar qoşan, bütün muğamları mükəmməl ifa edə bilən, böyük səs diapazonuna malik Cabbar Qaryağdıoğlu olmuşdur.

Azərbaycanda xanəndəlik sənətinin yeni bir mərhələsi Cabbar Qaryağdıoğlunun adı ilə bağlıdır. O, milli mədəniyyət tarixində böyük xanəndə, görkəmli musiqi xadimi və vokal sənətinin ən məşhur nümayəndələrindən biridir. Şuşada bu nəsil “Qaryağdılar” adı ilə məşhur idi. Firudin Şuşinski araşdırmasında qeyd edir ki, nəsilə belə ad verilməsi haqqında müəyyən mülahizələr var. Deyilənə görə Cabbarın atası Məşədi İsmayıl kişi çox dinməz və qaraqabaq adam imiş. Tay-tuşları da onunla tez-tez zarafat edərmişlər: “ Ay İsmayıl, yenə nə olub, dunyanın xərc-xəsərətini səndən alırlar? Qar-zad yağmayıb ki, nə qaşqabağını sallamısan?” Sonralar isə sadəcə olaraq Qaryağdı deyirmişlər. Cabbar isə lap uşaqlıqdan özünə “Qaryağdı oğlu” ləqəbini götürmüşdü. Digər bir mülahizə isə Cabbar Qaryağdıoğlunun qardaşı oğlu, məşhur heykəltaraş Cəlal Qaryağdının danışdığıdır. O, müsahibələrində qeyd edib ki, soyumuzun “Qaryağdı” adlanmasının səbəbi babamızın uşaq vaxtı soyuq havada bayırda çox oynaması olub. Ona “Ay İsmayıl, qar yağdı, keç içəri deyirmişlər”. Sonradan babanın adı elə “Qaryağdı” qalıb.

Cabbar Qaryağdıoğlu 1861-ci il martın 31-də Şuşa şəhərinin “Seyidli” məhəlləsində, boyaqçı ailəsində anadan olmuşdur. Atası Məşədi İsmayıl kişi boyaqçı idi. Bu sənəti Cabbara da öyrətmək istəyirdi. Lakin oğlunun gözəl səsi, anadangəlmə istedadı Cabbarı başqa bir sahəyə-musiqiyə istiqamətləndirirdi.

Cabbarın musiqi təhsili almasında şübhəsiz böyük qardaşı Məşədi Məhəmmədin böyük rolu olmuşdur. Məşədi Məhəmmədin məlahətli səsi olub. Onun yanıqlı səsi balaca Cabbarın fikrində dərin iz buraxmışdır. Hələ məktəbə getməyən Cabbar öz böyük qardaşı kimi oxumaq arzusu ilə yaşayırdı. O, Cabbarın tərbiyəsi ilə məşğul olmuş, həmçinin, klassik və şifahi xalq yaradıcılığını, xalq musiqisinin incəliklərini öyrətmişdir. Məşədi Məhəmməd Şuşada dəvət olunduğu toy və ziyafət məclislərinə Cabbarı da özü ilə aparardı. Şübhəsiz ki, Cabbar Qaryağdıoğlunun mahir bir sənətkar kimi yetişməsində bu musiqi məclislərinin xüsusi rolu olmuşdur. O, bu məclislərdə Şuşanın görkəmli xanəndələrinin məlahətli səsini tez-tez eşidər, bu sənətin sirlərini öyrənərdi.

Müxtəlif yerlərdən xanəndələrin Şuşaya toplaşması, təşkil olunan böyük məclislər, gözəl Şuşanın bu zəngin musiqi mühiti balaca Cabbarın inkişafında müstəsna rol oynamışdır.

Cabbar 10 yaşında ikən şəhər məktəbinə daxil olur. Onun ilk müəllimi Şuşada “Saqəri” təxəllüsü ilə tanınan şair Zeynalabdin oğlu Mirzəli olmuşdur. Mirzəli fars və türk dillərini mükəmməl bilən, hərtərəfli biliyə malik musiqişünas idi. Cabbar 15 yaşına qədər Mirzəlinin məktəbində oxumuş və öz müəllimindən musiqi elmini və fars dilini öyrənmişdi. Cabbar məktəbdə oxudugu illərdə şeir yazmağa və hətta yoldaşları ilə beytləşməyə başlayır.

Bir gün şəhərin “Qurdlar” məhəlləsində böyük bir toy olur. Toyda o dövrün məşhur xanəndələri Hacı Hüsü, Məşədi İsi, istedadlı tarzən Sadıqcan, Cavadbəy Əlibəy oğlu və kamançaçı Mirzə iştirak edirmişlər. 16 yaşlı Cabbar da öz müəllimi Mirzəli ilə həmin toya qonaq gəlmişdi. Mirzəli toyun “padşahı” şair Novrəs Ələsgərdən gənc Cabbarın oxumasına icazə verməyi xahiş edir. O, tarzən Cavadbəyin müşayiəti ilə “Kürd-Şahnaz”ı oxuyur. Cabbarın zil və təravətli səsi nəinki

dinləyiciləri, hətta musiqiçiləri belə məftun edir. Onun bu müvəffəqiyyəti hamıdan çox qoca xanəndə Hacı Hüsünü heyrətdə qoyur. Hacı Hüsü onun alnından öpüb, məclis əhlinə müraciətlə deyir: "Gələcəkdə bizim yerimizi bu cavan xanəndə tutacaqdır.

Bu hadisədən sonra Cabbarın şöhrəti geniş yayılır. Onu şəhərdə olan toylara dəvət edirlər. Gənc Cabbarın toylara dəvət olunmasını eşidən Məşədi İsmayıl çox narahat olur,çünki oğluna ancaq dini mərasimlərdə oxumağa icazə vermişdi. O, Cabbara toy məclislərində oxumağı qəti qadağan edir. Cabbar gecə-gündüz düşünür, yenidən musiqi məclislərində çıxış etmək üçün yol axtarır. O, atasına nə qədər yalvarırdısa da bir nəticə vermirdi. Onun xanəndəlik sənətinə qayıtması barədə mərhum tarzən Qurban Pirimov maraqlı hadisə nağıl edirdi: "O dövrdə Cabbargilin qonşuluğunda Smirnov adlı bir həkim yaşayırdı. Həkim Cabbarın xətrini çox istəyirdi. Cabbar yenidən xanəndəlik etmək üçün həkimdən kömək etməyini xahiş edir.Həkim ona kömək edəcəyinə söz verir. Bu söhbətdən sonra Cabbar həkimin tapşırığı ilə özünü xəstəliyə vurur. Yemir, içmir, gündən-günə halı pisləşir. Atası Cabbarı həmin həkimin yanına aparır.

Smirnov Cabbarı bir qədər müayinə etdikdən sonra Məşədi İsmayıla deyir: "Sənin oğlun vərəm xəstəliyinə tutulmuşdur. Əgər sən oğlunu oxumağa qoymasan, xəstəlik şiddətlənər və oğlunu məhv edər". Məşədi İsmayıl çox qorxmuş və həmin gündən oğlunun oxumasına icazə vermişdir.

Cabbar Qaryağdıoğlu Sadıqcan ilə ilk dəfə Şuşada "Xandəmirovun teatr salonu"nda təşkil olunmuş "Xeyriyyə gecəsində" çıxış etmişdir. Cabbar Qaryağdıoğlu 20 yaşına qədər Sadıqcanla peşəkar xanəndə kimi ancaq Qarabağın məclis və toy şənliklərində iştirak etmişdir. Bir müddət sonra Cabbarın şöhrəti Bakı, Gəncə, Şamaxı şəhərlərinə və daha uzaqlara yayılır.

Daha sonra Azərbaycanda ilk Şərq konserti keçirilir. Konsert 1901-ci ildə dramaturq Əbdülrəhimbəy Haqverdiyevin rəhbərliyi ilə Şuşada "Xandəmirovun teatr salonu"nda təşkil edilmişdir. Həmin konsertdə o dövrün məşhur oxuyan və çalanlarından Cabbar Qaryağdı oğlu, Keçəçi Məhəmməd, Qasım Abdullayev, məşhur tarzən Sadıqcan, aşıq Nəcəfqulu və başqaları iştirak etmişlər. Konsertdə Cabbar Qaryağdıoğlu böyük ifaçılıq qabiliyyəti göstərərək Azərbaycanın görkəmli şairlərindən Füzulinin, Qasımbəy Zakirin, Seyid Əzim Şirvaninin, Xurşudbanu Natəvanın qəzəllərini ilham və məhəbbətlə oxumuşdur. Cabbarın doğma ana dilində qəzəl oxuması muğamatın geniş xalq kütlələri içərisində yayılmasına xeyli kömək etmişdir.

Azərbaycan oxuma üslubunu birinci olaraq Cabbar yaratmışdır. O, fars dilində 100-dən artıq təsnifi gözəl oxumaqla yanaşı xalq yaradıcılığından, xüsusilə də aşıq yaradıcılığından istifadə edərək Azərbaycan dilində də bir o qədər təsnif yaratmışdır. Bu o zaman üçün cəsarətli bir addım idi. Cabbarın gətirdiyi yenilik Azərbaycan orijinal vokal üslubunun təşəkkülündə və daha da inkişaf etdirilməsində çox böyük rol oynamışdır.

Cabbar Qaryagdıoğlu Azərbaycan xalq mahnılarını ifa etməyə başlayan və tədricən fars dilli mətndən uzaqlaşan ilk müğənillərdən biri olmuşdur. Cabbar iki oktava yarım səs diapazonuna malik idi. Bülbül dünyada məşhur olan İtalyan müğənnisi Karuzonun səsi ilə müqayisədə Cabbarın səsinin daha yüksək olduğunu qeyd etmişdir.

Cabbarın Azerbaycanda opera sənətinin meydana gəlməsində də böyük rolu olmuşdur. Opera sənətimizin ilk aktyoru məhz Cabbar Qaryağdıoğlu olmuşdur. 1901-cı ildə gənc xanəndə Əlişir Nəvainin "Fərhad və Şirin" səhnəciyində Fərhad rolunda bacarıq və istedadını nümayiş etdirir. 1906-cı ildə "Leyli və Məcnun" tamaşasında Məcnun rolunun ifaçısı da Cabbar Qaryağdıoğlu olmuşdur.

Yaxın və Orta Şərqdə, Qafqazda məşhur bir xanəndə kimi şöhrət qazanmış Cabbar Qaryağdıoğlu 1906-1912-ci illərdə "Sport-rekord" və "Qrammafon" şirkətlərinin dəvəti ilə Qurban Pirimov və Saşa Oqanezaşvili ilə birlikdə Kiyev, Moskva və Varaşava şəhərlərinə gedərək səsini qrammafon valına yazdırmışdı. O, səsini vala yazdırarkən klassik şərq Azərbaycan muğamlarının hamısını,təsniflərini böyük məharətlə oxumuşdur. Cabbar Qarayğdıoğlunun oxuduğu muğam dəstgahlar aşağıdakılardır: "Rast", "Segah-Zabul", "Mirzə Hüseyn Segahı", "Yetim Segahı", "Mahur", "Bayatı-Şiraz", "Şüştər".

Cabbar Qaryağdıoğlu tərəfindən ifa olunan kiçik həcmli muğamlar bunlardır: "Dügah", "Qatar", "Sarənc", "Əraq", "Bayatı-Kürd", "Bayatı-Qacar", "Kürdü-Şahnaz", "Manəndi-muxalif".

Cabbar Qaryağdıoğlu aşağıdakı zərbi muğamları ifa etmişdir: "Osmanı", "Ovşarı",

"Arazbarı", "Simayi-Şəms", "Heyratı", "Şikəstə", "Mənsuriyyə", "Qarabağ Şikəstəsi".

Təsnif janrı Cabbar Qaryağdıoğlunun yaradıcılığında xüsusi yer tuturdu. Qrammafon vallarında saxlanılan təsniflərdən aşağıdakıları göstərmək olar: "Mahur" təsnifi, "Dəşti" təsnifi, "Bəyan oldu"təsnifi, "Ənvər bəy" təsnifi, "Qarda nişan" təsnifi, "Xumar"təsnifi, "Məcnun" təsnifi.

Xalq mahnıları da xanəndənin yaradıcılığında xüsusi yer tuturdu. Aşağıdakı xalq mahnıları Cabbar Qaryağdıoğlunun repertuarına daxil idi: "O xal nə xaldı", "Şuşalı", "Bala-bala", Gülə-gülə", "Xumar oldum", "Yaylıq", "Nar-nar", "Məzlumlar marşı", "Ordu marşı", "Salonik marşı", "Gözəlim sənsən" və. s

Qeyd etmək lazımdır ki, bir çox mahnı və təsniflərin yaranması C.Qaryağdıoğlunun adı ilə bağlıdır. Bunlardan "İrəvanda xal qalmadı", "Naxçıvan gədiyindən aşeydim", "İstəkanın deşilsin" və başqalarını göstərmək olar.

Həmçinin görkəmli xanəndə xalq mahnı və təsniflərin toplanılmasında xüsusi rol oynamışdır. Cabbar Qaryağdıoğlu 1934-cü ildə Bülbülün rəhbərlik etdiyi "Azərbaycan musiqisini öyrənən elmi kabinet"ə 220 xalq mahnısı,təsnif və 70-ə qədər xalq musiqi nümunəsi vermişdir. Qaryağdıoğlu həmin mahnı və təsnifləri tarzən Qurban Pirimovun müşayiəti ilə oxumuşdur. Onun ifa etdiyi 300-ə qədər mahnı və təsnifi professor Bülbül fonovalikə yazmış, bəstəkar Səid Rüstəmov isə nota köçürmüşdür. Cabbar Qaryağdı oğlu tərəfindən fonovalikə köçürülmüş 50 xalq mahnısı 1938-ci ildə Azərbaycan musiqisini öyrənən elmi kabinet tərəfindən "Azərbaycan xalq nəğmələri" adı altında ayrıca kitab şəklində çap olunmuşdur. Kitabda mahnıların mətni Azərbaycan və rus dillərində verilmiş, hər mahnının not yazısı da göstərilmişdir.

Cabbar Qaryağdıoğlu bir muğam ustadı kimi klassik muğamların təkmilləşdirilməsi üzərində də çalışmışdır.O, "Rast", "Çahargah", "Segah" və "Mahur" muğamlarına yeni-yeni variantlar,guşələr və xallar əlavə etmişdir

Cabbar Qaryağdıoğlu Hacı Hüsü, Məşədi İsi kimi zəngin yaradıcılıq yolu keçmiş xanəndələrdən biridir. O, muğamatın incəliklərini, texnikasını dərindən bilirdi. Cabbar hər bir muğamın spesifik xüsusiyyətini və müxtəlif hissələrini məharətlə oxuyardı. Məsələn, Qaryağdıoğlu "Bayatı-Qacar" muğamını çox orijinal bir şəkildə, məhz Azərbaycan muğamının xüsusiyyətlərinə uyğun oxuyurdu. "Kürdü-şahnaz" və "Dəşti"ni son dərəcə lirik tonda, özünəməxsus əlavə zəngulərlə ifa edərdi.

2021-ci il martın 31-də Cabbar Qaryağdıoğlunun 160 illik yubileyidir. Bu Şuşamızın 28 illik düşmən işğalından azad olunması ilə eyni vaxta tesadüf edir. Artıq Şuşa illərdir həsrət qaldığı musiqisinə qovuşur. Şuşada böyüyüb boya-başa çatmış, onun bütün nemətlərindən bəhrələnmiş musiqiçilərin, o cümlədən Cabbar Qaryağdıoğlunun musiqiləri yenidən pöhrələnərək qol-budaq açacaqdır. Öz zəngin və əsrarəngiz təbiəti, mədəniyyət və incəsənəti havası və suyunda daşıyan, Qaryağdıoğlu və onun timsalında bənzərsiz istedadları Azərbaycan incəsənətinə bəxş edən Şuşa yenə doğma ellərdə öz ruhuna dönəcək. Bu torpaqlarda yenə neçə-neçə sənətkarlar yetişəcək və bununla əcdadlarımızın ruhları şad olacaq. Bu torpaqlar bundan sora yalnız Qaryağdıoğluların yubileyinə deyil, yeni Cabbarların doğulmasına şahidlik edəcək.

C.Qaryağdıoğlu sözün əsl mənasında ustad sənətkar idi. O, bütün ömrü boyu doğma xalqının incəsənətinin inkişafında çalışmışdır.Gorkəmli xanəndə 1944-cü il aprelin 20-də vəfat etmişdir.

## ƏDƏBİYYAT

1. F.Şuşinski. Azərbaycan xalq musiqiçiləri. Bakı:Yazıçı, 1985
2. V.Bəhmənli. Cabbar Qaryağdıoğlu. Bakı: Şərq-Qərb, 2017

**MƏLƏK HƏSƏNOVA**
*İnstrumental ifaçılıq ixtisası*
*Naxçıvan Dövlət Universiteti*
*angelfrst01@gmail.com*

## RAMİZ MİRİŞLİNİN MAHNI YARADICILIĞI

Azərbaycan professional musiqisinin banisi, dahi Üzeyir Hacıbəylinin əsasını qoyduğu musiqi ənənələrinə sadiq qalan, özünəməxsus yaradıcılıq dəsti-xətti ilə seçilən istedadlı bəstəkarlar dəstəsinin layiqli nümayəndələrindən olan Ramiz Mirişli bir çox janrlarda maraqlı əsərlər bəstələmiş və böyük hörmət qazanmışdır. Lakin Ramiz Mirişlinin bir bəstəkar kimi xalqa tanıdan, ona uğur gətirən məhz mahnı yaradıcılığı olmuşdur.

Ramiz Mirişlinin mahnı yaradıcılığına nəzər saldıqda, onun sözə böyük önəm verdiyini görürük. Bu mənada mahnıların mövzu dairəsi çox maraqlı və ürəyəyatımlıdır. Onun mahnılarında Vətən, Azərbaycan təbiəti, məhəbbət lirikası, gənclik, bayram əhval-ruhiyyəsi öz əksini tapır (1).

Klassik irsi dərindən mənimsəyən, ona yaxşı bələd olan Ramiz Mirişli müasir musiqi nümunələrindən bəhrələnərək bənzərsiz, ahəngdar, rəngarəng melodiyalar bəstələmişdir. Ramiz Mirişlinin yaradıcılıq nailiyyətləri özü də ənənəyə çevrilmişdir. Mahnı sahəsində çalışan Azərbaycan bəstəkarlarının yeni nəslin bir çox nümayəndələri bu ənənəyə istinad etmişdir.

Yaradıcılığının mühüm hissəsini pedaqoji fəaliyyəti təşkil edən Ramiz Mirişli 1972-ci ildən Bakı Musiqi Akademiyasının müəlimi, dosenti və professoru, 2005-ci ildən ömrünün sonunacan Azərbaycan Milli Konservatoriyasının professoru olaraq yeni musiqiçilər nəslinin yetişdirilməsi üçün özünün zəngin bilik və bacarığı əsirgəməmiş, peşəkar musiqiçi kadrlarının formalaşdırılması işinə dəyərli töhfələr vermişdir.

Geniş yaradıcılıq diapozuna malik olan Ramiz Mirişli folklor və xalq musiqisindən, milli bəstəkarlıq ənənələrindən lazımınca bəhrələnərək Azərbaycanın musiqi mədəniyyəti xəzinəsini öz əsərləri ilə daha da zənginləşdirmişdir. O, simli kvartet, tar və simfonik orkestr üçün konsert, kamera orkestri üçün simfoniya, xalq çalğı alətləri orkestri üçün konsert və süitalar, fortepiano triosu bəstələmişdir. Bununla yanaşı Ramiz Mirişli bir çox teatr tamaşaları və kinofilmlərə musiqilər bəstələmişdir (2).

Ramiz Mirişli məhsuldar bəstəkar kimi daha çox tanıdan və sevdirən onun mahnı yaradıcılığı olmuşdur. Məşhur Azərbaycan şairlərinin sözlərinə yazdığı həmin çoxsaylı mahnılar sənətsevərlərin böyük rəğbətini qazanmışdır. Naxçıvan şairlərindən olan İslam Səfərlinin sözlərinə yazdığı *"Dalğalar"* mahnısı onun ilk mahnısı olmuşdur. Kompozisiya bütövlüyü, təbiilik, səmimiyyət və emosional təsir gücü onları səciyyələndirən başlıca cəhətlərdir. Ramiz Mirişlinin mahnıları görkəmli ifaçıların repertuarında özünəməxsus yer tutaraq, Azərbaycanda və onun hüdudlarından kənarda müəllifinə şöhrət gətirmişdir. Bu əsərlər doğma yurda məhəbbət və milli dəyərlərə ehtiram aşılamaqla gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir (3).

R.Mirişlinin bəstələdiyi mahnılara misal olaraq: *"Doğma diyarım", "Əlvida", "Bir xumar baxışla","Yandım, elə yandım","Gəlmədi","Güləndam" və s.*göstərə bilərik.

R.Mirişlinin musiqi bəstələdiyi kinofilmlərə misal olaraq:*"Dəvətnamə","Monoloq", "Həyat,sən kiminsən?","Köhnə bərə", "Güləndam" və s.*

Ramiz Mirişlinin yaradıcılığı, mahnı irsi, pedaqoji fəaliyyəti Azərbaycan bəstəkarlar məktəbinin inkişafına öz tövhələrini vermişdir. Bu böyük və uğurlu irsdir.

### ƏDƏBİYYAT

1. Hacıbəyov Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları // 1995, səh.176
2. Dünya musiqi sərhədlərini aşan bəstəkar// Kaspi-2015.04.24.səh.21
3. Ramiz Aqil oğlu Mirişli // Azərbaycan-2015.04.19.səh.19

**ÇİLƏR MƏMMƏDOVA**
*Musiqi tənqidi*
*Naxçıvan Dövlət Universiteti*
*cilermemmedova69@gmail.com*

## AZƏRBAYCAN KİNO MUSİQİSİNDƏ ARİF MƏLİKOVUN ROLU

Elmin, texnikanın inkişafı ilə əlaqədar XX əsrin əvvəllərində incəsənətin yeni janrları, növləri meydana çıxır. İncəsənətin yeni yaranmış növləri arasında kino sənəti xüsusi əhəmiyyətə malikdir. Çünki incəsənət janrları arasında elə bir sənət növü yoxdur ki, o kino sənəti kimi az bir vaxt ərzində böyük xalq kütləsi arasında güclü nüfuz etmiş olsun və xalqın böyük rəğbətini, məhəbbətini qazansın. Azərbaycan kino musiqisinin inkişafında A.Məlikovun özünəməxsus rolu və son dərəcə böyük əhəmiyyət kəsb edən xidmətləri vardır. Məhz buna görədə onun kino musiqisinin yaradıcılığının öyrənilməsi əsas məqsədi olmuşdur. Kino sənəti kütləvi janr olduğu üçün, bəstəkar həyatın ictimai münasibətlərini məhz burada daha açıq verə bilmişdir. Azərbaycan bəstəkarlarının kino musiqisi yaradıcılığı 1960-cı illərdən başlayaraq böyük vüsət almışdır. Bu illərə qədər kino musiqisi yaradıcılığında toplanmış təcrübə eyni zamanda Azərbaycan bəstəkarlarının sovet kinomotoqrafiyası çərçivəsində fəaliyyəti xarici kinomotoqraf ilə olan təmaslar Azərbaycan bəstəkarları qarşısında daha geniş imkanlar yaratmışdır. Bu hər şeydən əvvəl kino dramaturgiyasının, yeni ssenarilərin müasir tələbləri ilə bağlı olmuşdur. Təsadüfi deyil ki, məhz bu illərdə Azərbaycan bəstəkarlıq məktəbinin formalaşması və inkişafında da böyük irəliləyişlər baş vermişdir. Bəstəkarlarımızın həm professional hazırlığı, həmdə daha müasir, yüksək səviyyədə inkişaf etmiş kinomotoqrafiya ilə ünsiyyəti gənc bəstəkarlarımızın bu sahədə yaradıcılığına müsbət dərəcədə təsir göstərmişdir. Ayrı-ayrı bəstəkarların kino musiqisinə diqqət yetirdikdə, onların müasir ifadə vaaitələrindən ustalıqla istifadə etmələrinin və kino musiqisində bunları tam təfərrüatı və dolğunluğu ilə tətbiq etmələrinin şahidi oluruq. (3)

Azərbaycan kino musiqisinin inkişafında A.Məlikovun özünə məxsus rolu və son dərəcə böyük əhəmiyyət kəsb edən xidmətləri vardır. Kino sənəti kütləvi janr olduğu üçün, bəstəkar həyatın ictimai münasibətlərini məhz burada daha açıq verə bilmişdir. Bütün yaratıcılığı boyu böyük dramatik, fəlsəfi məzmunlu əsərlərə üstünlük verən A.Məlikov müasir incəsənətin ən populyar sənəti olan kinoya biganə qalmamış, və bir çox filimləri musiqisi ilə dolğunlaşdıraraq onların ideyasının axımımda  öz əvəzsiz rolunu oynamışdır. O, əsas etbarı ilə tarixi və fantastik mövzulu filmlərə üstünlük vermişdir. Bu faktı 1963cü ildə “Sehirli xalat” filminə musiqi bəstələməsi bir daha təsdiqləyir. Bəstəkarın kino musiqisinin yaradıcılığının ilk dövründə “Sehirli xalat” filminin böyük əhəmiyyəti olmuşdur. A.Məlikovun milli ənənələrə əsaslanan zəngin melodik dili uşaq auditoriyyası üçün, eyni zamanda geniş xalq kütləsi üçün daha asan mənimsənildiyi üçün filmin böyük rəğbətlə qarşılanmasında əsas rol oynamışdır. Artıq iki filmdən başlayaraq bəstəkar rejissorun tələblərinə cavab verərək kadrlara musiqinin tam uyğunluğuna nail olmuş, bununla da filmin bədii-estetik dəyərini artırmışdır. Fantastik səhnələrin səsləndirilməsində elektron alətlərdən məharətlə istifadə edən  bəstəkar, özünün qeyd etdiyi kimi, “filmin musiqi məsələsinin  həllində müstəqilliyini saxlayaraq” səhnələrin dolğun səslənməsinə tam nail ola bilmişdir. Filmin musiqisinə gəldikdə isə ilk növbədə diqqəti cəlb edən çoxlu musiqi materiallarını, mövzularını qeyd etmək olar. Bəstəkar bu işində səhnələrin açımı, qəhrəmanların daxili aləminin xarakterizəsi üçün müxtəlif rəngarəng mövzulardan istifadə etmişdir. (1)

A.Məlikovun kino musiqisi fəaliyyətinə diqqət yetirdikdə  nəzəri cəlb edən cəhədlərdən biri bəstəkarın filmə musiqi bəstələməyə dəvət alarkən ilk növbədə onun filmin məzmununa böyük əhəmiyyət verərək, əsas etibari ilə tarixi, fəlsəfi, fantastik mövzulara müraciət etməsidir. Kino sənətinin bəstəkarın yaradıcılığına bilavasitə təsirini A.Məlikovun kino sahəsindəki ikinci işində aydın şəkildə göstərmək olar. 1963-cü ildə kino sahəsində ilk işi olan “Sehirli xalat” filminə musiqi bəstələdikdən bir neçə il sonra A.Məlikov yenə də incəsənətin bu növünə qayıdır və Azərbaycan kinosu tarixində əhəmiyyətli yerlərdən birini tutan “26 Bakı komissarı”bədii filminə musiqi

bəstələyir. AMəlikovun yaradıcılığına onun kinofilmlərə və teatr tamaşalarına yazdığı musiqi də mühüm yer tutur. Onun "Sehirli xalat", "Ulduzlar sönmür", "Rüstəm və Söhrab", "Axırıncı aşırım" kimi filmlərə, "Nətavan", "Atabəylər" tamaşasına, 5 seriyalı "Şahnamə" filminş yazdığı musiqi bu film və tamaşaların müvəffəqiyyətini təmin etmişdir. Belə əhəmiyyətli əsərlərdən sonra bir daha bəstəkarın kino musiqisinə müraciət etməsi bu janrın bəstəkar üçün maraq doğurduğunu göstərirdi. A.Məlikovun kino musiqisi fəaliyyətinə diqqət yetirdikdə nəzəri cəlb edən cəhədlərdən biri bəstəkarın filmə musiqi bəstələməyə dəvət alarkən ilk növbədə onun filmin məzmununa böyük əhəmiyyət verərək, əsas etibari ilə tarixi, fəlsəfi, fantastik mövzulara müraciət etməsidir. 1972-ci ildə ekranlara buraxılan "Axırıncı aşırım" filmi olmuşdur. "Axırıncı aşırım" bədii filminə bəstələnmiş musiqi materialına diqqət yetirdikdə nəzəri cəlb edək iki xüsusiyyətlərdən biri, bəstəkar tərəfindən bu və ya digər kadrın müşaiyyətində qısa musiqi fraqmentlərindən istifadə etməsidir. Filmin tamaşası sferası ilə, onun musiqi obrazını ayırmağımıza səbəb isə, bəstəkarın musiqinin dili vasitəsilə filmdə baş verən hadisələrin mahiyyətini tam açması, xarakteerizə etməsi, son nəticə musiqi materialının filmdən kənarda da müstəqil olaraq səslənmə imkanına malik olması ilə izah olunur. "Axırıncı aşırım" filmindən sonra bəstəkar 1977-ci ildə "Qərib cinlər diyarında" filminə musiqi bəstələyir. Filmin musiqi materialında məzər diqqəti cəlb edən cəhədlərdən biri də, ekran əsərində fantastik obrazların təsviri zamanı bəstəkarın elektron alətləri vasitəsilə alınan musiqidən istifadə etməsidir ki, bu amilə biz "Sehirli xalat" filmində rast gəlmişdir. Azərbaycan kino musiqisi sahəsi araşdırılarkən görkəmli bəstəkarımız Arif Məlikovun yaradıcılığının milli kino musiqisi sahəsində əhəmiyyətli yer tutması, onun inkişafında böyük rol oynaması, həmçinin bu sahənin bəstəkarın yaradıcılığına bilavasitə təsiri olmuşdur (2).

## ƏDƏBİYYAT

1. Zöhrabov R. Sənətə bağlı ömür. "Xalq qəzeti" 4.12. 1973
2. "Kino" qəzeti N5 (1309) may 1992, c.2
3. Məmmədova A. Müəllim haqqında söz. "İncəsənət" qəz. 9.06.1994

**NURAY DÜNYAMALIYEVA**
*Musiqinin tədrisi metodikası ve metodologiyası*

## ŞAGİRDİN MUSİQİ-ESTETİK ZÖVQÜNÜN FORMALAŞMASINDA MUSİQİ DİNLƏMƏNİN ROLU

Musiqi həyati gerçəklikləri səslər vasitəsilə ifadə edən incəsənət sahəsidir. İncəsənət gerçəkliyin estetik mənimsənilməsinin ən yüksək forması - inkişaf etmiş estetik şüurun ifadəsi, insanın bədii fəaliyyətinin xüsusi biçimi və gerçəklik hissinin obrazlı dərk olunmasıdır. İncəsənət insanların duyğularını təkmilləşdirir və inkişaf etdirir, insan onun vasitəsilə ətraf gerçəkliyi sadəcə dərk etmir, həm də özünü şəxsiyyət kimi anlayır və təsdiq edir, çünki incəsənət insanın hərtərəfli formalaşmasına, ümumiyyətlə onun mənəvi aləminin inkişafına kömək edir. O, emosiyaları cilalayır, dərinləşdirir və istiqamətləndirir, fantaziya yaradır, düşüncəni fəallaşdırır, əxlaqi prinsipləri formalaşdırır, dünyagörüşünü genişləndirir, ideya mövqeyini möhkəmləndirir.

Musiqi digər incəsənət növləri kimi insan mənəviyyatının ən dərinliklərinə nüfuz eədərək, onun dünyagörüşünü, estetik zövqünü formalaşdırır. Hələ qədim zamanlardan musiqi insan həyatının, məişətinin ayrılmaz hissəsi olmuşdur. Antik dövrün filosofları musiqinin bədii təsir gücünü yüksək qiymətləndirmiş, insanların həyatında musiqinin rolunun böyüklüyünü vurğulamışlar.

İnsan dünyaya gəldiyi ilk günlərdən etibarən musiqi ilə birbaşa təmasda olur. Onu əhatə edən mühitin hər bir zərrəsində musiqili səslər mütləq mövcuddur. Buna görə də musiqi insanın mənəvi zənginliklərini, estetik tərbiyəsini formalaşdıran mühüm vasitələrdən biridir. Musiqini dinləmək, onu daxilən hiss etmək, duymaq, musiqi haqqında öz fikirlərini söyləmək insanda estetik zövqün formalaşmasının ilkin təzahürlərindəndir.

Musiqi dinləmək böyüyən nəsildə estetik, hissi-emosional tərbiyənin gucləndirilməsi, umumi intellektual səviyyənin inkişafı, istedadlı şagirdlərin aşkara cıxarılması kimi əsas tələblərin yerinə yetirilməsində mühüm əhəmiyyət kəsb edir. Müxtəlif musiqi janrlarına aid numunələrə qulaq asmaq şagird şəxsiyyətinin idraki, psixomotor cəhətdən inkişafına, mənəvi-emosional cəhətdən zənginləşməsinə zəmin yaradır.

Musiqi dinləmək mənəvi-estetik təsirinə, didaktik mahiyyətinə, vətənpərvərlik, humanizm ruhunda tərbiyəedici təsir görə olduqca güclü vasitədir. Ən azı ona görə ki, musiqinin dili, onun insan psixologiyasına təsiri çox sadədir, tərcüməçi, vasitəçi tələb etmir, yaşından, intellektindən asılı olmayaraq hər kəsin musiqiyə mənəvi ehtiyacı var.

Musiqi incəsənətin elə bir sahəsidir ki, onun mahiyyəti zaman çərçivəsində açılır. Yəni musiqi sintetik sənət sahələrindən biridir. Musiqi dinlərkən onda təsvir olunan obraz müxtəlif ifadə vasitələrinin vahid kompleksi ilə qavranılır. Buna görə də musiqini sadəcə dinləmək kifayət deyil, musiqi qanunauyğunluqları, dünya musiqisinin inkişaf mərhələri haqqında da müəyyən biliyə malik olmaq lazımdır.

İstər bəstəkar, istər xalq, istərsə də klassik musiqi haqqında verilən məlumatlar, nümunələr, həmçinin musiqi nəzəriyyəsi haqqında ilkin bilgilər, musiqi janrları və onlara aid nümunələr şagirdləri musiqi aləminə aparmaqla yanaşı, həm də onların özü tərəfindən musiqi əsərinin dəyərləndirilməsinə gətirib çıxarır ki, bu da estetik dünyagörüşünün formalaşması imkanyaradır.

Musiqi dinləmək, musiqili-ritmik hərəkətləri icra etmək, musiqi alətlərində çalmaq, süjetli musiqiləri, mahnıları səhnələşdirmək və ya ifa etmək fərdin şəxsiyyət kimi yetişməsində müstəsna rol oynayır. Uşaq yaşlarından yaranan musiqini dinləmək vərdişi insan şəxsiyyətində müsbət keyfiyyətlərin formalaşmasına birbaşa təsir edir. Buna görə də şagirdlərdə musiqi dinləmək vərdişlərinin tərbiyə olunmasında məktəblərin rolu böyükdür. Bu haqda Ü. Hacıbəyli yazırdı: "Məktəbin ən yaxın məqsədi azərbaycanlıları musiqi sənətinə alışdırmaqla bunlar üçün yeni sənət qapısı açmaq, əlavə məxfi qalmış olan məharət və təbii sahibləri zühura çıxarmaqla bəşəriyyətə bu yollarla xidmətlər göstərməkdir. Digər böyük bir qayeyi-əməl vardır ki, o da Şərq musiqisini məktəb

vasitəsilə tərəqqi etdirib, Qərb musiqisinin bu gün işğal etməkdə olduğu uca mərtəbələrə qədər irəlilətməkdir.”(2. s 1-01-110)

Musiqi dinləmək tədricən onda təsvir olunan obrazlar aləminin mahiyyətini başa düşməklə nəticələnir. Musiqi şagirdin emosional dünyasında güclü təsir edərək onun estetik təsəvvürlərini dolğunlaşdırır. Emosional təsir, təkrarsız hiss və həyəcan musiqili dünyagörüşünün xarakterik cəhətləridir. Şagirdin mənəviyyatına musiqi o vax təsir edir ki, o, dinləsin, musiqini hiss edib, başa düşsün.

Hər bir insan anadan olduğu zaman hər hansı bir sahədə istedada malik olur. Lakin bu istedadın üzə çıxması hər kəsdə müxtəlif olur. Kimsə yaxşı mahnı oxuyur, digəri musiqi parçasını dinləməyi yaxşı bacarır. Həm də bu zaman o dinlədiyini musiqi terminləri ilə sadəcə təhlil etmir, bu işə yaradıcı münasibət də bəsləyir. Bu keyfiyyətləri isə daha da inkişaf etdirmək lazımdır. Bu isə tərbiyə prosesində mümkündür. Musiqi tərbiyəsinin düzgün qurulmasında tərbiyə metodlarının seçimi başlıca yer tutur. Bu zaman düzgün mənbələrdən istifadə etmək vacibdir. İlkin mənbə musiqinin özüdür. Biliklərin əldə edilməsində uşaqların özünün bilavasitə musiqi fəaliyyəti nəticəsində müraciət etdikləri mənbə isə ikinci mənbədir. Lakin bütün mənbələrlə iş bilavasitə müəllimin köməkliyi və rəhbərli altında gerçəkləşdirilir. Müəllim dərs prosesinin əsas aparıcı simasıdır. O şagirdləri düzgün istiqamətdə yönləndirir və onların bilik bazasının zənginləşməsində bilavasitə iştirak edir. Buna görə də müəllim tərəfindən dərs prosesinin düzgün təşkil olunması əsas məsələlərdən biridir. Dərsin düzgün təşkilolunması nəticəsində şagird başa düşməlidir ki, musiqi sadəcə əyləncə deyil, eyni zamanda psixoloji cəhətdə sağlam nəslin yetişməsində mühüm vasitədir. Buna görə də musiqi insanı bir tək mənəvi cəhətdən yetişdirmir, onun sağlam böyüməsini də təmin edir. Şagirdlərin estetik, mənəvi cəhətdən yetişdirən musiqi onların müsbət şəxsiyyət kimi formalaşmasını təmin edir.

Musiqi dinləyərkən hərtərəfli inkişaf üçün zəngin zəmin yaranır. Musiqi dinləmək incəsənəti başa düşməkdə başlıca vasitəsidir. Bu hər bir fərdin psixologiyasının əsas tərəflərinin-təfəkkür, təsəvvür, yaddaş, intellekt və s. tam mənası ilə açılmasını deməkdir. Musiqi insan psixologiyasının emosional hiss və həyəcanını tərbiyə edir. Yaradıcı qabiliyyəti inkişaf etdirmək, insanın mənəvi dünyasının formalaşmasında, incəsənətin digər sahələrinin başa düşülməsində musiqinin rolunu aydınlaşdırmaq, şagirdlərdə estetik zövqün formalaşdırmaq musiqi dinləməyin məqsəd və vəzifələridir.

Musiqinin dərk olunması ümumi təfəkkürü inkişaf etdirir, qavrama prosesində emosionallıqla şüurluluğun vəhdətini formalaşdırır. Fəal qavrama isə əməli fəaliyyətin inkişafında böyük rol oynayır. Demək musiqi sadəcə insanlarda estetik dünyabaxışı formalaşdırmır, Ən güclü ən güclü tərbiyə vasitəsi olan musiqipsixologiyasına müsbət istiqamətdən təsir edərək, onun vətənpərvər, əməksevər ideal şəxsiyyət kimi yetişməsində mühüm aparıcı rol oynayır. Buna görə də musiqili dünyagörüşünün yaradılması, musiqidən tərbiyəedici vasitə kimi istifadə edərək gənc nəslin yetişdirilməsi ümumxalq mövqeyinə xidmət edən ən aktual məsələdir.

## ƏDƏBİYYAT

1. Əliyeva F. Azərbaycan musiqisində üslub axtarışları. Bakı: 1996, s.118

2.Hacıbəyli Ü. “Seçilmiş. əsərləri” III cild AMEA nəşriyyatı. Bakı:1964

3.Rəcəbov O, Hidayətova F. Ümumtəhsil məktəblərində musiqi tədrisi metodikası. Bakı: “Mütərcim”, 2013

4. Rəcəbov O. Azərbaycan xalq musiqisi və müəllim hazırlığı. Bakı: “Mütərcim” 2012

**RUZALƏ ƏLİYEVA**
*İnstrumental ifaçılığın tarixi,*
*nəzəriyyəsi və metodikası*
*Naxçıvan Dövlət Universiteti*
*ruzale704@gmail.com*

## HEYDƏR ƏLİYEV VƏ MUSİQİ TÜRKOLOGİYASI

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində türk dünyasına böyük bir qapı açıldı. Bu haqda materialların küllülüyü də bunu sübut edir. Xüsusilə qeyd etmək istərdik ki, bütün türk dünyası qarşısında Heydər Əliyevin xidmətləri olduqca böyükdür. Belə ki, Azərbaycan-türk xalqları arasında dostluq, qardaşlıq münasibətlərinin möhkəmlənib inkişaf etməsi məsələsi Heydər Əliyevin siyasi fəaliyyətində mühüm yer tutub. Bu fəaliyyətin nəticəsini biz türkdilli xalqların müxtəlif sahələrdə, o cümlədən, mədəniyyət sahəsində bəhrəli əməkdaşlığında görürük.

1996-cı il oktyabr ayının 21-də türkdilli xalqların dövlət rəhbərlərinin Daşkənddə keçirilən IV görüşündə Heydər Əliyev türk xalqlarının mənəvi dəyərlərinin rol və əhəmiyyətini vurğulayır və qeyd edir ki, bizim böyük mütəfəkkirlərimizin, ədəbiyyat və mədəniyyət klassiklərimizin yaradıcılığı, "Dədə Qorqud", "Manas", "Alpamış" kimi minillik tarixə malik eposlar bizim ümummədəni nailiyyətlərimiz, xalqlarımızın yüksək mənəviyyat simvolu və eyni zamanda hər zaman gəncləri humanizm, xeyirxahlıq ənənələri ruhunda tərbiyə edən zəngin bir mənbədir. Ona görə də onların yubileyi türkdilli xalqlar tərəfindən birgə qeyd olunmalıdır. Həmçinin elm, mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin artması, mənəvi dəyərlərin öyrənilməsi sahəsində bu cür tədbirlərin keçirilməsi zəruridir. Bu isə bir daha türkdilli xalqların mədəniyyətlərinin yaxınlığını və bu yaxınlığı təmin edən mənbələrin, köklərin tədqiqini tələb edir.

Türksoy təşkilatında türk sivilizasiyası ilə bağlı təqvimin hazırlanması, bu tədbirlərə beynəlxalq təşkilatların, o cümlədən YUNESKO-nun cəlb olunması, böyük türk Kahanatının 1450 illiyi ilə bağlı müştərək tədbirin keçirilməsi planı bu qəbul edildi.

"İpək yolunun dirçəldilməsi" proqramının birgə hazırlanıb realizə olunması da önəmlidir. Ölkələr arasında informasiya mübadiləsinin artıq bərqərar olmuş müsbət tendensiyalarının artırılması, türkdilli xalqların mədəni, mənəvi və tarixi dəyərlərinin populyarlaşması və inkişaf tapması yolunda kütləvi informasiya vasitələri arasında rabitənin daha da möhkəmləndirilməsi məqsədyönlüdür. Xalqlar arasında əlaqələrin möhkəmlənməsi və müxtəlif sahələrdə təcrübə mübadiləsi məqsədilə yerli idarəetmə orqanları və qeyri dövlət təşkilatları arasında qarşılıqlı münasibətlər mühüm əhəmiyyətə malikdir.

Eyni zamanda, türkdilli xalqların dil, mədəniyyət və digər sahələrdəki nailiyyətlərini təbliğ etmək üçün seminar, konfrans. simpoziumların təşkili, türk xalqlarının keçmiş və çağdaş həyatı barədə ədəbi mənbələrin axtarıb tapılması da bütün bu məsələlərin həlli üçün vacib amillərdir.

Xüsusilə bu görüşdə Heydər Əliyevin çıxışı bizim üçün önəmlidir. Bu çıxışın əsas qayəsi ortaq milli mədəni və mənəvi dəyərlərimizin xalqlarımıza bəxş etdiyi imkanları dövlətlərimizin ümumi mənafe işinə səfərbər etməyə və bərabər-hüquqlu münasibətlərin etibarlı təməllər üzərində inkişafına çağırışdan ibarətdir.

Heydər Əliyev göstərir ki, tarixin mürəkkəb axarında türkdilli xalqlara məhz dərin köklər və genetik qohumluq, yaxınlıq kömək etmişdir. "Türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiya qitəsinin dəyərli hissəsində yaşayaraq dünya bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı, onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmış və bu günlərə gətirib çatdırmışdır. Biz öz tarixi köklərimizlə, mili köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik"

Ensiklopedik biliyə malik bir şəxs, müdrik siyasətçi kimi Heydər Əliyev öz çıxışında totalitar rejim dövründə mövcud olan çətinlikləri, qadağaları da yada saldı. Türk etnosu, tarixi və mədəniyyətinin ümumi əsaslarının, köklərinin öyrənilməsi o dövrdə həmişə böyük çətinliklərlə qarşılaşırdı. Bununla belə elm və mədəniyyət xadimləri qarşılıqlı əlaqə və əməkdaşlıq üçün müəyyən yollar axtarıb tapırdılar.

Bu proseslər xüsusən Sovetlər İttifaqına mənsub olmuş türkdilli respublikaların həyatında baş vermişdir: Özbəkistanda, Qazaxıstanda, Türkmənistanda, Başqırdıstanda, Azərbaycanda "Dünyada gedən ictimai-siyasi proseslər, baş vermiş dəyişikliklər, Sovetlər İttifaqının dağılması türkdilli, türk dünyasına mənsub olan xalqların tam azad olmasına, müstəqillik əldə etməsinə və müstəqil dövlət qurmasına imkanlar yaratmış və bu qısa bir müddətdə öz gözəl nəticələrini vermişdir".

Bunun nəticəsində, "Biz sərbəst, müstəqil olaraq, heç bir kəsdən, heç bir dövlətdən asılı olmayaraq, öz istədiyimiz kimi əlaqələrimizi qururuq və əməkdaşlıq edirik, milli ənənələrimizi, milli dəyərlərimizi, mədəniyyətimizi birlikdə inkişaf etdirməyə çalışırıq.

Türk dünyası yazıçılarının III qurultayındakı nitqində də Heydər Əliyev bu fikirlərini davam etdirərək demişdir ki, "Bizim tarixi köklərimiz xalqlarımızın öz iradəsi ilə bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir. Mənəvi dəyərlərimizin inkişafı tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə, keçilməz yollarla rastlaşıbsa da dayanmayıb, inkişaf edib, qalxıbdır. Amma indi türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim vəzifəmizdir, borcumuzdur. Bir də qeyd etmək istəyirəm ki, bu sahədə yazıçıların böyük xidməti, böyük rolu var və onların üzərinə bundan sonra da böyük vəzifələr düşür".

O göstərirdi ki, eyni zamanda xalqlarımızın böyük tarixini yenidən təhlil etmək, yenidən qiymətləndirmək, ona düzgün, ədalətli qiymət vermək və hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, ədəbiyyat, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək diqqət mərkəzində duran prinsiplərdir, vəzifələrdir. Bu mənada yenə də mədəniyyətin, ədəbiyyatın, yazıçıların rolu böyükdür.

Prezident Heydər Əliyev çox müdrikcəsinə qeyd edirdi ki, Türk-Azərbaycan münasibəti, ümumiyyətlə, türkdilli xalqlarla Azərbaycanın əməkdaşlığı çox yüksək səviyyədədir.

Beləliklə, bütün yuxarıdakı fikirləri ümumiləşdirərək, qeyd etmək istərdik ki, həqiqətən də Heydər Əliyevin çıxışları, mülahizələri türkologiyanın, o cümlədən, musiqi türkologiyasının inkişafına rəvac vermişdir. Heydər Əliyevin proqram xarakterli çıxışlarına əsaslanaraq bilavasitə musiqi türkologiyasının bir elm sahəsi kimi istiqamətlərini müəyyən etmək vəzifəsi isə üzərimizə düşür.

**RADİK ŞIXKƏRİMOV**
*Təsviri incəsənətin tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*sixkerimovradik@gmail.com*

# TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİNİN ORTA MƏKTƏBLƏRDƏ TƏDRİSİ METODİKASI

Təsviri incəsənət fənni şagirdlərin estetik dünyagörüşünü və hissiyyat aləmini inkişaf etdirmək, hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarının mənimsədilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ətraf aləmdə baş verən hadisələrin şagirdlərə bədii təsvirlər vasitəsi ilə əyani şəkildə çatdırılması onlarda gerçəkliyi daha dərindən dərk etməyə şərait yaradır.Təsviri sənət əsərləri cəmiyyətin mənzərəsini şagirdlərə daha dolğun və obyektiv çatdırmaq imkanına malikdir.Təsviri incəsənətdə obyektiv və subyektiv amillər şagirdə fərd-cəmiyyət münasibətlərini dərk edib qiymətləndirməyə kömək edir.Vizual özünüifadə insanın mənəvi tələblərinin ödənilməsini, şəxsiyyətin təbiətə və cəmiyyətə inteqrasiyasını təmin edir.Təsviri fəaliyyət şagirdləri həm əqli, həm də estetik cəhətdən inkişaf etdirir, onları ətraf mühiti dərk etməyə yönəldir, təbiətin və əşyaların formasını, rəngini və materialını, onların vəhdətini, gözəlliyini hiss etməyə və bu hissiyyatı təsvirlərdə əks etdirməyə imkan yaradır. Şagird tərəfindən yaradılan təsviri görüntülər həyat gerçəkliyinin daha dolğun və obyektiv şəkildə dərk olunmasını, onun şəxsi ideyalar, hisslər və təxəyyül prizmasından keçirilməsini təmin edir.Təsvir etmək insanın görmə yaddaşını, mühit və məkan duyumunu, obrazlı təsəvvür qabiliyyətini inkişaf etdirir.Təsviri fəaliyyət şagirdləri məkan və forma ölçülərini hiss etməyə, obrazlı və məntiqi düşünməyə, bu düşüncələri vizual obrazlarda əks etdirməyə istiqamətləndirir.

Təsviri incəsənət fənni şagirdlərdə Azərbaycan və dünya incəsənətinin klassik nümayəndələri və nadir sənət nümunələri haqqında təsəvvür yaratmaqla uşaqların məlumat dairəsini genişləndirir, onların mənəvi aləmini daha da zənginləşdirir.Bu fənn vasitəsilə formalaşdırılan və inkişaf etdirilən obrazlı təfəkkür bacarıqları digər fənlərin müvafiq mövzuların mükəmməl mənimsənilməsinə də zəmin yaradır.Təsviri incəsənət fənninin məqsədi estetik dünyagörüşlü, zəngin mənəviyyata, bədii zövqə və yaradıcı təxəyyülə malik, milli və ümumbəşəri dəyərlərə hörmətlə yanaşan, incəsənət əsərlərini duyub qiymətləndirən, obrazlı və simvolik düşüncə tərzinə malik şəxsiyyət formalaşdırmaqdan ibarətdir.

Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyasi çərçivə sənədinə uyğun olaraq, ümumtəhsil məktəblərində təsviri incəsənət fənninin vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir: İbtidai təhsil səviyyəsində:

- Şagirdləri təsviri sənət növlərinin forma, janr, üslub və ifadə vasitələri, incəsənət tarixi haqqında ümumi məlumatlarla tanış etmək, onların yaradıcı-estetik fəaliyyətlə bağlı ən sadə və ilkin bacarıqlara yiyələnmələrini təmin etmək.
- Şagirdlərdə bədii zövq, estetik mədəniyyət, rəng, forma və məkan hissiyyatı, vizual yaddaş, milli təsviri və dekorativ sənət növlərinə məhəbbət, ümumbəşəri incəsənət nümunələrinə, habelə bədii yaradıcılığa meyil və maraq formalaşdırmaq.
- Şagirdlərdə mücərrəd , məntiqi təfəkkür, əməksevərlik bacarıqları formalaşdırmaq.

Ümumi orta təhsil səviyyəsində:

- Azərbaycanın, eləcə də dünya incəsənətinin görkəmli nümayəndələri və onların yaradıcılığı ilə şagirdlərin daha ətraflı tanış olmalarını təmin etmək.
- Həyati gerçəkliklərin və sənət əsərlərinin şagirdlər tərəfindən bədiiemosional qavranılmasını təmin etmək, onların estetik zövqünün inkişafına nail olmaq və təsviri sənət nümunələrinin timsalında ölçü, forma, simmetriya, harmoniya məfhumlarının mahiyyəti barədə şagirdlərin təsəvvürlərini dərinləşdirmək.
- Şagirdlərdə müqayisə, təhlil və təsvir qabiliyyətlərini təkmilləşdirmək, onlarda sadə tərtibatdizayn bacarıqları formalaşdırmaq, təsviri sənət üzrə istedadlı uşaqların üzə çıxarılmasını təmin etmək.

Məqsədi, vəzifələri aşağıdakı məzmun xətləri vasitəsilə həyata keçirmək nəzərdə tutulur :1. Cəmiyyət və təsviri incəsənət 2. Təsviri və dekorativ yaradıcılıq.

Estetik reaksiya Təsviri incəsənətdə əsasən təlim prosesi əvvəlcədən müəyyən olunmuş nəticələrə əsaslanır.Bu prosesdə müəllim əlaqələndirən, yol göstərən, istiqamət verən bələdçi şagirdlər isə öyrənən, tədqiqat aparan, öyrəndiklərini tətbiq edən və təqdimat etməyi bacaran yaradıcı subyektlərdir.Təsviri incəsənət fənni İbtidai və ümumi orta təhsil səviyyələrində tədris olunmaqla şagirdlərin bilik və bacarıqlarının, məntiqi, tənqidi yaradıcı təfəkkürünün inkişafında mühüm əhəmiyyətli rol oynayır. Burada şagirdlərdə konseptual biliklərin və psixomotor bacarıqların hərtərəfli inkişafı üçün çox geniş imkanlar var.Təsviri incəsənət fənninin tədrisi məqsədyönümlü bir proses olub öyrədən və öyrənən arasında qarşılıqlı anlaşmaya, ünsiyyətə əsaslanır. Burada başlıca məqsəd öyrənməyi öyrətməkdən ibarət olsa da, bəzən öyrədənlər özləri öyrəndikləri kimi öyrətməyə üstünlük verirlər.Bu zaman şagirdin ehtiyacları nəzərə alınmır, təlim prosesi onların bacarıq və arzusundan asılı olmayaraq təşkil edilir ki, bu da ümumilikdə təlimin keyfiyyətinə mənfi təsir göstərir. Fənnin tədrisinə bu cür yanaşma şagirdlərin təlimə olan marağını azaldır, onlarda özlərinə inamsızlıq yaradır, təsəvvürlərində, təxəyyüllərində canlandırdıqlarını təsvir etmək arzusundan, mücərrəd ideyaları real həyatda tətbiq etmək imkanlarından uzaqlaşdırır, müxtəlif sahələrdə yaradıcı təfəkkür prosesinin inkişafını aşağı salır. Cəmiyyət və təsviri incəsənət bu məzmun xətti cəmiyyətdə təsviri incəsənətin rolu, cəmiyyət və təsviri incəsənət arasındakı əlaqələri, təsviri incəsənətin cəmiyyətin aynası olması, baş verən tarixi hadisələrin mahiyyətinin dərk olunmasında təsviri incəsənət nümunələrinin əhəmiyyəti, milli və dünya təsviri incəsənət tarixinin görkəmli nümayəndələri, onların məşhur əsərləri haqqında məlumatları əhatə edir.

Cəmiyyətdə baş verən müxtəlif hadisələri, xalqımızın, eləcə də dünya xalqlarının imkanlarının dərk olunmasında bu fənn mühüm vasitə kimi çıxış edir.Digər fənlər vasitəsilə mənimsədilən tarixi faktların, hadisələrin və şəxsiyyətlərin təsvirlərdə əks olunması dolğun təsəvvürlər formalaşmasına əhəmiyyətli təsir göstərir.Cəmiyyət və təsviri incəsənət əlaqələrini əks etdirən bu məzmun xətti üzrə müəyyən olunan bilik və bacarıqlar şagirdlərdə milli və beynəlmiləl dəyərlərə maraq və hörmət aşılayır, insan cəmiyyətinin mədəni, siyasi və iqtisadi həyatı haqqında geniş və dolğun təsəvvürlər yaradır, müxtəlif dövrlərdə mövcud olan cəmiyyətlər, onların tərkib hissələri və bunların özünəməxsus xüsusiyyətləri haqda geniş və rəngarəng məlumatlar verir.Təsviri və dekorativ yaradıcılıq:Təsvir yaradarkən şagird hadisələri, obyektləri və predmetləri dərk etdiyi tərzdə vizuallaşdıraraq onların mahiyyətinə, qarşılıqlı əlaqələrinə və fərdi xüsusiyyətlərinə öz münasibətini bildirir.Təsvir fəaliyyəti şagirdlərin əqli və estetik inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, onların görmə yaddaşının, mühit və məkan duyumunun, obrazlı təsəvvür qabiliyyətinin formalaşmasında mühüm rol oynayır.

Təsviri yaradıcılıq fəaliyyəti gerçəkliyi dərk etmək, obrazlı və məntiqi düşünmək, hiss və duyğuları vizual obrazlarda əks etdirmək bacarıqlarnın təmin edilməsində başlıca vasitə hesab olunur. Bu prosesdə şagird keçmişə və gələcəyə obrazlı münasibətini bildirmək imkanları əldə edir.İnsan mənəviyyatının mühüm tərkib hissəsi olan gözəlliyə tələbatın ödənilə msində təsvir yaradıcılığı mühüm əhəmiyyət kəsb edir. Yaradıcılıq prosesi şəxsdə daxili aləmlə xarici aləm arasında əlaqələrin yaranmasını, müxtəlif təsvir üsullarının mənimsənilməsini təmin edir, onun cəmiyyətə daha fəal inteqrasiyasına və özünütəsdiqinə geniş imkanlar yaradır.

Təsviri sənətin mühüm hissəsi olan, istər müstəvi səth üzərində stərsə də üçölçülü plastik forma yaratmaq bacarığı şagirddə forma hissiyyatını təmin etməklə, onun forma gözəlliyindən və kamilliyindən zövq almaq qabiliyyətini inkişaf etdirir. Təsviri və dekorativ yaradıcılıq şagirdlərə eyni zamanda tərtibat, quraşdırma, dizayn bacarıqları aşılayır.Dekorativ yaradıcılıq şəxsin bəzəyə olan təbii tələbatını ödəyir və onun estetik aləmini zənginləşdirərək bədii zövqünün formalaşmasına, bu sahədə milli ənənələrin davam etdirilməsinə qüvvətli təsir göstərir Dekorativ kompozisiya və dizayn işlərinin yerinə yetirilməsi şagirdin bədii düşüncə, zövq, ənənə daşıyıcısına çevrilməsinə imkanlar yaradır.Dekorativ yaradıcılıq prosesi şagirdlərin abstrakt və estetik düşüncə qabiliyyətini inkişaf etdirilməsini təmin edir.Estetik reaksiya: Təsviri və dekorativ sənət növlərinə aid nümunələr təbiətin,

ətraf aləmin insanın daxili aləminə, hislərinə, duyğularına təsirindən yaranır.Şəxsiyyətin mənəvi dünyasında gözəllik təsəvvürləri halında formalaşaraq incəsənət əsərlərində termin və anlayışlar, bədii ifadə vasitələri şəklində əks olunur. Şüurlu, mükəmməl estetikemosional hisslər yaradır. Azərbaycan və dünya incəsənəti tarixini təşkil edən əsərlər zaman keçdikcə mədəni, bədii, mənəvi dəyərlərin ifadəsi kimi meydana gəlmiş və toplam halında milli və ümumbəşəri dəyərlərin maddiləşmiş daşıyıcılarına çevrilmişdir.

Təsviri incəsənət əsərləri ilə təmasda olmaq şagirdə milli və ümumbəşəri dəyərlərə yiyələnməklə bir növ mədəni mübadilə prosesini yaşadır.Təsviri və dekorativ incəsənət əsərlərinin şəxsiyyətə göstərdiyi təsir nəticəsində estetikemosional meyar və normalar, mənəvi zənginləşmə və mədəni tolerantlıq formalaşır, hissiyyat diapazonu daha da genişlənir.Təsviri və dekorativ sənət əsərlərinin qavranılması estetik zövqün, emosional duyğuların kamilləşməsini və hissiyyat aləminin zənginləşməsini təmin edir.İncəsənət əsərlərinə, hadisələrinə və fenomenlərinə şagird tərəfindən verilən estetik reaksiya gözəlliyi duymaq və qiymətləndirmək qabiliyyətlərinin göstəricisi kimi çıxış edir.Təsviri incəsənət fənninin mənimsənilməsi nəticəsində formalaşdırılan və inkişaf etdirilən bədii həssaslıq və emosional qavrama bacarıqları şagirdlərin mənəvi dünyasını zənginləşdirir, onlarda milli və ümumbəşəri dəyərlərə hörmət, humanizm, şəfqət hislərini qüvvətləndirir.

Təsviri sənət fənin orta məktəbdə tədrisi metodikasının birçox vəzifələri var: Təsviri sənət və onun tədrisi metodikası fənninin məqsəd və vəzifələri, təsviri sənət tədrisinin pedaqoji əsasları, təsviri incəsənətin növləri, rəssamlıq haqqında məlumat, qrafika haqqında məlumat, dekorativ– tətbiqi sənət haqqında məlumat,heykəltaraşlıq haqqında məlumat, təsviri sənət dərslərinin məzmunu, təsviri sənət dərslərinin tədrisi metodikası, rəng dairəsinin sirri, isti və soyuq rənglər, naturadan rəsm üzrə dərslərin təşkili, naturadan rəsm üzrə dərslərin quruluşu, mövzu üzrə rəsm dərslərinin təşkili, mövzu üzrə rəsm dərslərinin quruluşu, bədii əsərlərin seçilməsinin yaş səviyyəsinə uyğunlaşdırılması, boyalarla tanışlıq üzrə fərdi yanaşma prinsipləri, natürmortun çəkilməsi ilk tanışlıq metodları, təsviri incəsənətdə kompozisiyanın qurulma mərhələri, işıq, kölgə qanunları, uşaqlara həcm və forma üzrə anlayışların verilməsi, bədii əsərlərin seçilməsi üzrə fərdi yanaşma prinsipləri, payızın sehrli rənglərinin uşaqlarla müzakirəsi, aplikassiya nədir, məktəbəqədər yaşlı uşaqlarda applikasiya işlərinin məzmunu, həndəsi naxışların qurulması, məktəbəqədər yaşlı uşaqlarda bədii zövqün tərbiyəsi üsulları, məktəbəqədər uşaqlarda yapma işləri, məktəbəqədər yaşlı uşaqlarda yapma işlərinin xüsusiyyətləri, yapma işlərinin əsas ifadə vasitələri hansılardır, məktəbəqədər uşaqlarda yaradıcı qabiliyyətlərin inkişafı, məktəbəqədər yaşlı uşaqlarda yaradıcı təfəkkürün inkişafı, məktəbəqədər yaşlı uşaqlarda rəsm dərslərinin təşkili metodları, məktəbəqədər yaşlı uşaqlarda qrafika dərslərinin təşkili və metodları, məktəbəqədər yaşlı uşaqlarda dekorativ – tətbiqi sənət dərslərinin təşkili və metodları, məktəbəqədər yaşlı uşaqlarda heykəltaraşlıq dərslərinin təşkili və metodları, uşaqlarda kompozisiya qurma bacarığı prinsipləri,applikasiya işlərində tərbiyəçinin qarşısındakı ümumi məsələlər, müxtəlif həndəsi formaların yerləşdirilməsi xüsusiyyətləri, kağızla işə, əl əməyinə maraq tərbiyə etmək, estetik hiss və qavrayışı inkişaf etdirmək,işin icra ardıcıllığının mənimsədilməsi, hazır formaların keyfiyyətli icrasına nail olmaq, yapışqanlama və yapışdırma texnikasını təkmilləşdirmək, müxtəlif növ materialların tətbiqini mənimsətmək, təsviri sənətin hər bir növündə yaş səviyyələrini nəzərə almaq, əşyaların, ümumi təsvir üsulunu müəyyənləşdirmək, naturadan rəsm dərslərində təlim məsələləri.

## ƏDƏBİYYAT


1. Əlizadə Nigar. Pedaqogika. 2011
2. Mironova L.N. Gözəl Sənətlərdə Rəng, Minsk: Belarusiya, 2005
3. Telman İbrahimov. Təsviri incəsənətin nəzəriyyəsi
4. Şükürov Ş. Sənət və sirr. M., 1999, Sənətdə rəng. M. 2011.
5. Təsviri incəsənət və onun tədrisi metodikası
6. Sevastyanov D.A. Sənətdə rəng. Novosibirsk: NGPU, İncəsənət İnstitutu, 2007

**TÜRKANƏ RZAYEVA**
*Etnomusiqişünaslıq*
*Naxçıvan Dövlət Universiteti*
*rvaturkane@gmail.com*

# AZƏRBAYCANDA FLEYTA ALƏTİNİN İNKİŞAFINDA İFAÇILARIN ROLU

Əmək və yaradıcılıqları ilə məşhurlaşan şəxsiyyətlərdən, fleyta tarixində əks olunan görkəmli sənətkarlardan söz açarkən tanınmış fleyta ifaçısı azərbaycanlı Ələkbər İsgəndərovu unutmaq mümkün deyil. Nadir istedada malık bu insan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Nəfəs və zərb alətləri” kafedrasının, fleyta sinifinin adını ucaltmış, dahi pedaqoq və məşhur ifaçıdır. Professor, xalq artisti adlarına layiq görülmüş Ələkbər İskəndərov həyatının çox hissəsini Azərbaycanın ifaçılıq sənətinin təbliğinə həsr etmiş, pedaqoji istedadı ilə və bir çox ölkələrdə ifaçılığı ilə böyük şöhrət qazanmışdır (1). Ə.İskəndərov 30 ildən artıq M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının simfonik orkestrinin əvəzolunmaz solisti olub. Bu illər ərzində dahi Maestro Niyazi, N.Paxlin, G.Rojdestvenski, M.Şostakoviç və b. məşhur dirijorlarla çıxış etmişdir. Yaradıcılıq fəaliyyətini heç bir zaman dayandırmayan, Azərbaycanın ifaçılıq sənətinin təbliğatını öz həyatının vacib məqsədinə çevirmiş Ə.İskəndərov müntəzəm olaraq dövlət radio və televiziyasında çıxış edirdi. O, F.Əmirovn “Lirik mahnı”, R.Hacıyevin “Mahnı”, T.Quliyevin “Səhər nəğməsi”, A.Məlikovun “Kontertino” kimi əsərləri dinləyiciyə yüksək ifaçılıq zövqü ilə çatdıraraq sevdirməyi bacarmışdır. **Ələkbər İsgəndərov -** fleyta ifaçısı, ansambl solisti, peqaqoq, Azərbaycanın əməkdar artisti (1959), sənətşünaslıq namizədi (1968), professor (1976) adlarına layiq görülmüşdür. Ə.İsgəndərov 2006 – cı ildə Bakıda vəfat etmişdir. (2)

**Rəhim Babayev:** Azərbaycanın xalq artisti, fleyta ifaçısı Rəhim Sadıq oğlu Babayev 1930-cu il oktyabr ayının 19-da Bakıda anadan olub. 1973-cü ildə Ə.İsgəndərovun sinfində Azərbaycan Dövlət Konservatoriyasını bitirib. 1952-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının simfonik orkestrinin, 1978-ci ildən Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin solisti olub. O, 1958-2010-cu illərdə pedaqoji fəaliyyət göstərib. Rəhim Babayevin Azərbaycanda fleytaçılar nəslinin yetişməsində böyük zəhməti olub. Görkəmli fleyta ifaçısı Rəhim Babayev 9 iyun 1959-cu ildə **“Əməkdə fərqlənməyə görə”** medalı ilə təltif olunub. 2008-ci il sentyabr ayının 17-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə **“Xalq artisti”** fəxri adına layiq görülüb. Rəhim Babayev 2010-cu il iyul ayının 20-də Bakıda vəfat edib (3).

**Müzəffər Ağamalızadə:** Azərbaycanın görkəmli fleyta ifaçısı, professor Müzəffər Ağamalızadə Məhəmməd İbrahim oğlu 23 yanvar 1940-cı ildə Bakıda anadan olub. O, Azərbaycan Dövlət Konservatoriyası nəznində olan 10 illik musiqi məktəbində (1953-1958) P.N.Zilbermanın sinfini bitirmiştir. Daha sonra, 1958–1960-cı illərdə Azərbaycan Dövlət Opera və Balet simfonik orkestrində ifaçılıq fəaliyyətinə başlamış, bu dövr ərzində Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyündə (1959) iştirak etmişdir. 1959-64-cü illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fleyta sinfinə (Ə.İsgəndərovun sinfi) daxil olub. M.Ağamalızadə Solist, orkestr solisti, müəllim ixtisaslarını qazanmışdır. 1960-62-ci illər arasında isə Azərbaycanda keçirilən müsabiqə və yarışmalarda birincilik diplomlarını almışdır. 1963-cü ildə isə Sankt-Peterburq (Leninqrad) şəhərində keçirilən müsabiqədə iştirak etmişdir. 1961-72-ci illər ərzində Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik Orkestrinin Solisti olmuş, 1970-ci ildən nəfəs alətləri kvintetinin ifaçısı kimi fəaliyyət göstərmişdir. 1965-ci ildən etibarən Asəf Zeynallı adına musiqi texnikumunda müəllim kimi çalışmış. 1972-75-ci illərdə isə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrində işləmişdir (4).

Müzəffər Ağamalızadə 1975–1978-ci illərdə Sovetlər birliyi Mədəniyyət Nazirliyi tərəfindən Əlcəzair Bələdiyyə (Dövlət) Konservatoriyasına ezam edilərək, burada həm dərs demiş, həm də konservatoriyanın orkestrində solist olaraq fəaliyyətinə davam etmişdir. 1979-84-cü illərdə Asəf

Zeynallı adına musiqi texnikumunda, 1979-cu ildən başlayaraq Azərbaycan Dövlət Konservatoriyasında "Nəfəs və Zərb alətləri" kafedrasında çalışmışdır. O, 1972-92 illər ərzində özünün yaratdığı və rəhbərlik etdiyi nəfəsli kvintetlə Azərbaycan və Sovetlər Birliyinin bir çox şəhərlərində konsertlər vermişdir. Müzəffər Ağamalızadə 1984-cü ildə görkəmli dirijor Niyazinin istəyi ilə Azərbaycan Dövlət Simfonik Orkestrinin tərkibinə qayıtmışdır. O, burada 1992-ci ilə qədər çalışdıqdan sonra Türkiyəyə dəvət edilmişdir. Müzəffər Ağamalızadə Türkiyədə 1992-2002-ci illərdə yaşayaraq çalışmışdır. 2002-ci ildə yenidən vətənə qayıdan Müzəffər Ağamalızadə Azərbaycan Dövlət Simfonik Orkestrində Solist kimi Çalışmışdır. O, həmin ildən etibarən, Bakı Musiqi Akademiyasının "Nəfəs və Zərb alətləri" kafedrasında professor olaraq çalışmışdır. 2020-ci il yanvarın 29-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Müzəffər Ağamalızadənin anadan olmasının 80 illiyinə həsr edilmiş konsert proqramı təqdim olunub. Xalq artisti Müzəffər Ağamalızadənin 80 illiyi keçirilib.

**M.Ağamalızadənin mükafatları:** Azərbaycan SSR əməkdar artisti fəxri adı — 17 may 1989. Azərbaycan Respublikasının xalq artisti fəxri adı — 16 sentyabr 2005. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü — 10 may 2019 (5).

**Telman Hacıyev:** "Əfsanəvi insan", "Məftunedici fleyta", "Dünya fleytaçısı", "Etibarlı dost" və "Fitri istedadlı musiqiçi" - Azərbaycanın əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor Telman Hacıyevi çox vaxt bu cür adlandırırlar. Telman Hacıyev, Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının "İncəsənət nəzəriyyəsi və tarixi" kafedrasının təsisçisidir. Azərbaycan Musiqi Xadimləri İttifaqının üzvü, estetika sahəsində alimdir. Solist qismində nəinki keçmiş İttifaqın, həmçinin Avropa və Yaxın Şərq, Latın Amerikası və Skandinaviya ölkələrini - ümumilikdə, gurultulu alqışlarla qarşılandığı 63 ölkəni gəzib - dolanıb. Onun həyatı və yaradıcılığı barədə bir neçə film çəkilib, kitablar yazılıb. Onun 13 albomunun səs yazıları isə radio və televiziyada səsləndirilib, Ümumittifaq və Azərbaycan radiosunun "Qızıl Fond"una daxil edilib (6).

Telman Hacıyev demişdir: "Bilirsinizmi, bu prosesdə genetika az rol oynamır. Lakin hesab edirəm ki, sağlam həyat tərzi, gimnastika, yüngül qidalanma, xeyirxahlıq və ən əsası, incəsənət - insanın həyati proseslərini qidalandırır və stimullaşdırır. Deyilənlərə görə, yaradıcı insanların beyninin donmaması üçün mütləq gündüz istirahətlə birgə sutkada 4-5 saatdan çox yatılmamalıdır. Mənim beynim təlim görüb və daim işlənməyə ehtiyacı olan fikirlər, ideya və obrazlar yaradır. Ancaq bu cür yaşaya və mövcud olmağa davam edə bilərəm. Əlavə etmək istəyirəm ki, bu dünyada hər şey məhəbbətdən doğur. Bu, güclü stimuldur, həyatın əsas düsturudur; onun üzərində hər şey dayanır və fırlanır. O, ən böyük fantaziya və İlahi yadigardır. Hər şeydə məhəbbət olmalıdır. Onsuz hər şey dayanar və hərəkətsiz qalardı...". Düşünürəm, həyatın bu cür düsturu gənclər üçün yaxşı nümunədir.(7).

## ƏDƏBİYYAT

1. "Nəfəsli və zərb alətləri" kafedrasının görkəmli xadimləri
2.www.musigi-dunya.az
3.wikipedia.anarim.az
4.http://wikipedia.az.nina.az
5.elmimeqaleler.wordpress.com
6.www.musicacademy.edu.az
7.regionplus.az › articles › view

**VƏFA QURBANOVA**
*Aktyor ifaçılığının tarixi və nəzəriyyəsi*
*Naxçıvan Dövlət Universiteti*

## AZƏRBAYCANIN XALQ ARTİSTİ NƏSİBƏ ZEYNALOVA FİLMDƏ VƏ TEATRDA

Həm teatr, həm də kino sənətini eyni janra aid etmək olar. Eyni zamanda bunlar bir-birindən ayrı mövcud olan, haradasa kəsişən tamamilə fərqli xüsusiyyətlər daşıyır. İstər canlı səhnədə, istərsə də, ekranda baş verməsindən asılı olmayaraq, hər iki halda tamaşaçı süjeti yaxından izləyən və aktyorların oyununu qiymətləndirən əsas personajdır.

Teatrın kinodan nə ilə fərqlənməsi sualına cavab vermək üçün bir az araşdırmaq, və teatr sənətinin öz mövqeyini niyə bu qədər illərdir ki, kinoya vermədiyini başa düşəmək istədim. Necə deyərlər, teatr qarderobdan başlayır, kinoteatr ... popkorndan.

Azərbaycan teatr və kino sənətində qeyri- adi istedadları ilə incəsənət tariximizin parlaq səhifələrini yazan korifey aktyorlar nəsli yetişmişdir. Həm teatr və həm də kino sahəsində böyük uğur və nüfuza sahib olan dahi sənətkarlarımızdan biri də Nəsibə xanım Zeynalova olmuşdur.

Nəsibə Zeynalova Azərbaycan teatrsevərləri arasında "qaynana" kimi sevilirdi və Milli Musiqili Komediya teatrının inkişafında əvəzolunmaz rol oynamışdır. Nəsibə xanım 20 aprel 1916-cı ildə Bakıda doğulub. Atası azərbaycan realist aktyor məktəbinin banisi, Kərbəlayi Cahangir Zeynalov olmuşdur. Cahangir Zeynalov yeganə övladı olan Nəsibə Zeynalovanın onun sənətini davam etdirməsini arzu edib. Ancaq bu arzusunun gerçəkləşdiyini görmək ataya nəsib olmuyub. Cahangir zeynalov vəfat etdiyində Nəsibə Zeynalovanın hələ iki yaşı vardı. Böyüdükdən sonra o, atasının arzusunu inamla həqiqətə çevirib.

Nəsibə Zeynalova atasının yolunu davam etdirərək, azərbaycan realist aktyor məktəbinin ən layiqli nümayəndələrindən biri kimi formalaşıb və tanınıb. Yaradıcılığnın mayası gülüş və musiqi ilə yoğrulmuş Nəsibə xanım orta məktəbdən rəqqasəlik etmiş, milli oyun havalarının mürəkkəb və lirik incəliklərinə yiyələnmişdi. Bədən plastikasının incəliyini və axıcılığını oynadığı filmlərdə görməmək mümkün deyil. Nəsibə Zeynalova rəqs edərkən təkcə bədən hərəkətləriylə deyil həmçinin üz ifadəsiylə,mimikalarıyla tamaşaçıya çatdırıdı. 1932-ci ildə Rza Təhmasibin dram dərnəyinə üzv olub. 1937-ci ildən fəaliyyət göstərən səyyar Kolxoz və Sovxoz Teatrında aktrisa işləməyə başlayıb. Bir il burada aktrisalıq edən Nəsibə xanım 1938-ci ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının truppasına birinci dərəcəli aktrisa götürülüb. Həmin il Bakı Teatr Məktəbinə daxil olaraq aktyorluq təhsili alıb. Aleksandr Tuqanovdan, Məhərrəm Haşımovdan, Ağasadıq Gəraybəylidən dərs alan tələbə- Nəsibə Zeynalova texnikumda oxuyarkən Katarina ("Şıltaq qızın yumşalması" -Vilyam Şekspir), Elvira ("Don Juan"-Jan Batist Molyer), Yelizaveta ("Mariya Stüart"-Fridrix Şiller) rollarını oynayıb. Aktrisa milli klassik operettalarımızın tamaşalarında Gülpəri, Cahan xala, Sənəm kimi xarakterik səhnə obrazlarında çıxış edib. Aktrisanın zəngin rollar qalereyasında tərcümə əsərlərində ifa etdiyi
Kabato və Barbale ("Keto və Kote"), Ziraldina ("İki ağanın bir nökəri"), Qesiya ("Tiflis nəğməsi"), Alma ("Şirin arzular") rollarının xüsusi yeri var.

Nəsibə Zeynalovanın yaradıcılığının ən parlaq dövrü isə çağdaş bəstəkarların müasir mövzulu musiqili komediya əsərlərinin tamaşalarındakı bir-birindən fərqlənən komik personajların ifası ilə bağlıdır. Bu baxımdan aktrisanın , Xanpəri ("Dərviş Məstəli şah"-M.F.Axundzadə), Nargilə ("Gözün aydın"-Məhərrəm Əlizadə), Tükəz ("Hacı Qara"- M.F. Axundzadə), Münəvvər ("Bir dəqiqə-Məhərrəm Əlizadə"), Gülyanaq ("Hardasan,ay subaylıq?"-Salam Qədirzadə), Qəmər ("Nəğməli Könül"-Xalidə Hasilova), Nazxanım ("Nazxanım naz eləyir"-Məhərrəm Əlizadə), Güləndam ("Qonşumuzda bir oğlan var"-Məhərrəm Əlizadə), Qızbacı ("Hicran"-Sabit Rəhman), Züleyxa ("Ulduz"-Sabit Rəhman), Fatma ("Həyətim mənim, həyatım mənim"- Cahangir Məmmədov) rollarının əvəzolunmaz ifaçısı sayılır. Xüsusilə Cənnət xala, Nargilə, Ulduz, Zuleyxa rollarını zəngin ifadə vasitələrilə, yumorun milliliyi, təbii reallığı ilə səhnəmizin nadir incilərindən biri sayılır.

Oynadığı rollarda hərzaman təbiiliyə, həyat həqiqətlərinə diqqət edirdi.

Azərbaycan televiziyasında onlarla yumoristik səhnəciklərdə, teatr tamaşalarında çıxış etmiş Nəsibə Zeynalova həmçinin "Azərbaycanınfilm" in çoxlu ekran əsərlərində də filmə çəkilib. Onun kino obrazları içərisində Fatmanisə ("Ögey ana"), Telli ("Böyük dayaq"), Züleyxa ("Ulduz"), Cənnət xala ("Qaynana"), Əsli xala ("Bəyin oğuranması") rollar daha canlı və möhtəşəmdir.

Musiqili teatrımızın inkişafında böyük xidmətlərinə görə Nəsibə xanım 24 may 1960-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1967-ci ildə Xalq artisti fəxri adına layiq görülüb. "Hicran" musiqili komediyasındakı Qızbacı roluna görə Azərbaycan Dövlət Mükafatl Laureatı adını almışdır. 1974-cü ildə Rauf Kazımovski onun yaradıclığı barədə "Aktrisanın təbəssümü" adlı televiziya filmi çəkib. Nəsibə Zeynalovanın obrazları həyatiliyi və real bədii təsvirləri ilə həmişə canlı olub. Aktrisa gözlənilməz, ancaq mənalı və ifadəli, şirin və məzəli ifadə vasitələri ilə cilvələnən improvizənin mahir ustası idi. Nəsibə xanım yartdığı obrazlarda rəqs, mahnı və hərəkətlərdən eyni epizodda, hətta eyni məqamda yüksək peşəkarlıqla istifadə edirdi. Mahir aktrisa öz yaradıcılıq sferasında xalq yumorunun, "Qaravəlli" oyun tamaşalarının, lətifə söyləmələrinin estetik oyun göstərmə prinsipinnən həssaslıqla istifadə etməyi bacarmışdır. Aktrisa həmçinin, yaradıcılığı boyu tipajlığın bədii dəyərlərinə tam yiyələnməklə tipik xarakter yaratmağa üstünlük verib və bu istiqamətdə obrazın məzmun-forma vəhdətini vacib şərt kimi dəyərləndirib. Obrazın xarakterini hərəkətdə ( yeriş, duruş, oturuş və s.) koloritli tərzdə verməkdə musiqili komediya teatrnda Nəsibə xanıma tay aktrisa olmayıb. Nəsibə xanım klassik operettalarda obrazın sözlərinə qarşı çox həssas idi və təhrifə, yaxud əlavəyə qətiyyən söz verməzdi. Ancaq librettosu zəif musiqili komediyalarda ifa etdiyi rolun sözlərini dəyişər, dialoqların məntiqlərini gücləndirər, vəziyyətə uyğun deyimlər, cümlələr qurardı. Bu axtarış tamaşadan-tamaşaya davam edər, bəzi əlavələr olar, müəyyən ixtisarlar aparılar, tapıntılar cilalnardı. Aktrisa miəşət yumorunu incə ştrixlərlə ictimai-sosial mahiyyətə yönəltmək məharətinə malik idi. Eyni zamanda aktyor satirik boyaları müəyyən rollarda qrotesk səviyyəsinə qaldırır, boyalardan gen-bol istifadə edir, ancaq heç vaxt janrın estetik prinsip və meyarlarını pozmurdu. Nəsibə Zeynalova saysız-hesabsız tamaşalarda oynadığı qədər aşağıda qeyd etdiyim filmlərdə rol almışdır. Adı sənin, dadı mənim (film,1980), Aktrisanın təbəssümü (film,1974), Bağlı qapı (film,1981), Bəyin oğurlanması (film,1986), Bizim Cəbiş müəllim (film,1969), Bizim küçənin oğlanları (film,1973), Bizim Nəsibə xanım (film,1991), Böyük dayaq (film,1962), Böyük ömrün anları (film, 2006), Dad (film,1984), Dəli Kür (film,1969), Fövqəladə hadisə (film,1982). Güllələnmə təxirə salınır! (film,2003), Sənətin Vaqifi (film,1996) və s. filmlərdə müxtəlif obrazlarla yadda qalmışdır, Oynadığı obrazlarda hər zaman həyatiliyə, doğruçuluğa xüsusi önəm verirdi. Filmləri və tamaşaları sənətdə önəmli simalardan biri olan Nəsibə xanımın həyat hekayəsi də bir o qədər maraqlı və biraz da kədərli olmuşdur.

Gənc yaşında ailə quran aktrisanın həyat yoldaşı ikinci dünya müharibəsində həlak olmu, aktrisa ikinci dəfə 38 yaşında özünnən 11 yaş balaca adamla ailə qurmuşdur. İlk əvvəllər aktrisa bu nikaha razı olmas da, yaş fərqini bəhanə gətirsə də lakin sonradan bu izdivaç baş tutur. Nəsibə xanımın həyat yoldaşı həm də musiqiçi olub. Tamaşadan sonra yoldaşı Nəsibə xanımı qarşılayıb evə gətirərdi, onun qayğısına qalardı. Nəsibə xanım deyirdi: "Ailəmiz inam üstündə qurulmuşdu. Bir-birimizin qədrini bilirdik. Çox səmimi ailəm vardı. Bu səmimilik həyat yoldaşımnan gəlirdi. Mən xoş söz eşitməmişdim, atamı itirməyim anamı elə bükmüşdü ki, dilindən xoş söz eşitməzdim. Nə xoş söz eşitdimsə, yoldaşımnan eşitdim. Allah onu da mənə çox gördü, tez aldı əlimdən onu itirəndən sonra xoş günlərimi də itirdim, əvvəlki pis günlərimi də xatırlamağa ondan sonra vaxt tapdım". Nəsibə Zeynalova sonuncu dəfə oğlu**, Cahangir** Novruzovla "Əmanət" tamaşası üzərində işləyir. Məşqlər başlansa da, aktrisanın səhhəti korlandığı üçün bu səhnə işi yarımçıq qalır.

Aktrisa öz nəvəsi Nəsibəni qızlığa götürüb və nəvəsinə qarşı çox sərt olub, hətta onu ad günlərinə, son zəngə belə buraxmayıb. Bir dəfə isə Nəsibə xanımdan icazəsiz sinif yoldaşının ad gününə getsə də, Nəsibə xanım nəvəsinin ardınca məktəbə gələrək onu evə aparıb. Nəsibə xanımın xasiyyəti ağır idi, o, evdə, ailədə, işində, sənətində özünə və ətrafına qarşı çox tələbkar idi, ömrünün 65 ilini teatrda çalışıb, amma son illərdə teatrdan inciyir, Musiqili Komediya Teatrından ayrılır.

Həmin dövrdə qoyulan tamaşalar ona uyğun olmur. Aktrisa ömrünün son günlərində teatr üçün çox darıxdığını deyirmiş: “Heyf, Allah mənə möhlət versəydi, sağlamlığım yerimdə olsaydı, yenə də oynayardım”. Aktrisa “Qaynana” filmində mətbəxdə oxuduğu bayatını anasından öyrənib, anası həmişə o bayatını zümzümə edərmiş.. aktrisa gülləri və heyvanları ən çox da pişikləri sevirmiş, harda sahibsiz pişik görsə, ürəyi yanır, götürüb evə gətirirmiş. Onlara qulluq edir, yorğan-döşək də tikirmiş. Karifey sənətkarımız Nəsibə Zeynalova 2004-cü il martın 10-da Milli Teatr Günündə 88 yaşında dünyasının dəyişmişdi.

**MERVE AKKUŞ**
*mimarmerve0@hotmail.com*

## AHLAT MİMARİSİ

*Ana sanat mimaridir. Kendi mimarimiz olmadan,*
*Kendi medeniyetimizin ruhu olmaz.*
Frank Lloyd Wright

İslam dünyasının söylemiyle Kümbet-ül İslam, Urartuların söylemiyle Halads, Kürtlerin söylemiyle Xelat, Türkler ve İranlıların söylemiyle Ahlat'tan bahsedeceğim. Ahlat 22.000 Nüfuslu Bitlis iline bağlı bir ilçedir. Şehrin en eski sakinleri Urartulardır. İsminin Ahlat olmasıyla alakalı halk arasında söylenen çeşitli rivayetler vardır. Bunlardan biri Urartu kralı Lat'ın savaşta ağır yaralanmasıyla kızının 'Ah! Lat.' Diye ağıt yakması sonucunda adının böyle kaldığı söylenmektedir.

İlk yerleşimin Urartular ile başladığı Ahlat, Asya'dan Anadolu'ya ve dolayısıyla Avrupa'ya uzanan yolun üzerinde yer alan konumu nedeniyle tarih boyunca farklı medeniyetler için stratejik öneme sahip olmuştur. Türklerin yerleşim yerlerinden biri olan bölge, bereketli topraklara, su kaynaklarına ve bina yapımına uygun Ahlat taşlarına sahip olmasından dolayı büyük güçlerin dikkatini çekmiştir. İlçede bir çok tarihi eser bulunmaktadır. İlçenin tarihi eserlerinin büyük bir kısmı 13. Yüzyılda inşaa edilmiştir. 13. Yüzyıldan kalma 14 kümbet ve 2 kalenin yanı sıra Selçuklu dönemi eserleri arasında yer alan 5 tarihi mezarlık ve Osmanlı döneminden kalma 1 mezarlık, 1 hamam ve 2 cami bulunmaktadır. İslam dünyasında Kümbet-ül İslam olarak anıldığından bahsetmiştim. Bunun sebebi bir çok kümbete sahip olan büyüleyici ve görkemli bir ilçe olmasıdır. Bu kümbetlerde genellikle ahlat taşı kullanılmıştır. Ahlat taşı özellikle anıt tarzı yapılarda kullanılmıştır. 11. Yüzyılda bölgeye gelen Türklerin adeti olup mimari genel olarak taşa dayalı gelişmiştir. Mimari kültür büyük ölçüde Asya, Güney Kafkasya ve Doğu Anadolu taş mimari geleneğine dayanmaktadır. Ahlat'ta en fazla dikkat çeken tarihi eserler mezar ve kümbetlerdir. Yapılan Kümbetlerin çoğunluğu büyük din adamları ve devlet büyükleri için yapılmıştır. İki katlı olan kümbetlerin bodrum katında mezar bulunur. Birinci kat sandukanın bulunduğu kısımdır. İkinci kat ziyaretgah olarak kullanılır. Üstünde kümbet bulunan yapılarda bir kısmında mezar bulunurken bir kısmında toplu mezarlar bulunur.

KÜMBET : Anadolu Selçukluları zamanında yapılan ve kendine özgü yapısı olan mezarlar

SANDUKA : Genellikle seçkin kişilerin asıl mezarının üzerine yerleştirilen tahta yada mermer tabuta verilen addır.



Kümbetler genellikle yüksek yerlere yapılır. Ben yüksek yerlere yapılma amacının Türklerin atalarına duyduğu saygı kültüründen geldiğini düşünüyorum. Ahlat için açık hava müzesi demek aslında pek de yanlış olmaz. Ahlat'ta en dikkat çekici bulunan türbeden bahsetmek istiyorum. Usta Şagirt Türbesi diğer bir adıyla Ulu Türbe. İki katlı kümbet kare formlu kaidesinde, köşeler ters üçgen yüzeyler oluşturacak biçimde çift yönlü kenarı eğik olarak kesilmiş bir onikigen alt yapı oluşturmuştur. Üst kat silindirik gövde üzerinde, içten kubbe dıştan konik külah şeklindedir. iç mekân, doğu, batı ve güney yönlerine açılmış dikdörtgen formlu birer pencereyle aydınlatılmıştır (Selçuklu Belediyesi Resmi Sitesi alıntıdır.) Kümbette tamamen kesme taştan istifade edilmiştir. Ahlat'ta bulunan en büyük türbe Usta Şagirt Türbesidir. Alt zeminden çatı uç noktasına kadar olan uzunluğu 36.5 metredir. Yapının bezeğinde geometrik, dini ve bitki motifleri ile beraber yazı kullanılmıştır. Yapı günümüze sağlam olarak ulaşmıştır. Kümbetin kesin tarihi bilinmiyor.

Ancak yaptığım araştırmalara göre şöyle bir rivayete ulaştım. Şehrin bir başka anıt mezarı Hasan Padişah Kümbetine benzerliğinden dolayı 1270- 1300 yılları arasında yapıldığı tahmin ediliyor. Yanında bulunan harabe durumdaki Şadi Aka Kümbetini dönemin ünlü mimarının, Ulu Kümbeti ise onun yetiştirdiği şakirt yani öğrencisi öğrencisinin yaptığı rivayet ediliyor. Bu yüzden Usta Şakirt Kümbeti olarak biliniyor. Ustanın yaptığı kümbet yıkılmış, çırağın yaptığıysa sapasağlam ayakta duruyor.



Ahlat türbələrində yazı ornamentləri türbələrin giriş qapıları alınlığında məlumat xarakteri daşıyır. Yalnız gövdəni frizdən ayıran bölüm üzərində "Ayet-el-kürsi" surəsi işlənib. Bu ornamentlər daş üzərində oyularaq türbələrin divarlarına məhlul vasitəsilə yapışdırılmışdır. ("Orta əsrlər ahlat və Nahçıvan türbələrinin ortaq və fərqli cəhətləri" makalesi Qənbərova Gülnarə sayfa 5 )



Size beni en çok etkiliyen türbeden bahsetmeden geçmek istemiyorum. 641 yılına uzanan köklü bir tarihe sahip olan Abdurrahman Gazi Türbesi Hz. Ömer döneminde orduda yer alan ve ahlatı fethetmek için görevlendirilen Abdurrahman Gazi, burada şehit düşmüştür. Gazinin şehit düştüğü yerde yaptırılan türbe, daha sonra 1974 yılında Ahlatlı taş ustası Tahsin Kalender tarafından kümbet mimarisine uygun bir biçimde restore edilmiştir. Tahsin Kalender hakkında sayın kafedra müdürümüz Qənbərova Gülnarə ile yaptığımız bir sohbet arasında Tahsin Kalender beyle tanıştığını ve Tahsin Beyin türbenin restorasyonunu herhangi bir maddi destek almadan yaptığını öğrendim. Bu beni gerçekten derinden etkiledi. Tahsin Kalender gibi bir değeri bana tanıttığı için Gülnarə öğretmenime çok teşekkürlerimi iletiyorum.

Geçmiş dönemlerden beri Ahlat'taki çoğu mimari eserde ahlat taşlarından yararlanılmıştır. Ocaklardan geleneksel yöntemlerle çıkarılan Ahlat taşı, kışın sıcak yazın serin tutma özelliğiyle asırlardır yapılarda tercih ediliyor. Ahlat taşı, Süphan Dağı volkanik malzemenin ani şekilde soğuması sonucu oluştuğundan kalıp kalıptır. Çünkü volkanik malzemeler katman katman akmıştır. Taşların çeşitli renkte olması cephe süslemesinde bolca kullanmasına neden olmuştur. Taş yapısı itibariyle volkanik olduğundan hafiftir. Fakat buna karşılık çok dayanıklıdır. Öyle ki oksijen kaynağı taşı eritememektedir Bu özelliklerinden dolayı yapılarda yoğun bir şekilde kullanılmaktadır. Büyük rezervlere sahip olan taşın maliyeti düşüktür. Bu taşlar Selçuklular döneminde yörede birçok tarihi eserlerde kullanılmıştır. Günümüzde Ahlat ilçesinde bulunan Büyük Selçuklu Oteli de bu taşlardan yapılmıştır. Taşlar yörede cami minarelerinin yapımında da kullanılmaktadır. Taşların ocaktan çıkarılışı ve şekillendirilmesi oldukça kolaydır.( Ahlat –Malazgirt Yapı Taşlarının Isıl ve Mekanik Özellikleri sayfa 2) Ahlat taşları hem görünümü hem de yapısı itibariyle mimarinin gelişmesi için adeta bir fırsat niteliği taşımaktadır. Ben her zaman mimarinin doğayla bütünleşmesinden yana oldum. Bulunulan bölgenin materyallerinden faydalanılması hem sağlamlığı arttırır hem de doğayla mimari arasındaki bütünlüğünü tamamlar.





Ahlat'ta bulunan tarihin en önemli miraslarından biri olan Ahlat mezar taşlarından bahsetmeden geçemeyeceğim. 11 . ve 12. yüzyıldan kalan dünyanın en büyük tarihi Müslüman

mezarlığı ünvanına sahip Selçuklu Mezarlığı'nda tespit edilen 8 bin adet mezar taşı bulunuyor. Buradaki mezar taşları, Orhun Abidelerinin İslamlaşmış şeklidir desek çok da yanlış olmaz. Ahlat mezarlıkları arasında Selçuklu Mezarlığı en büyüğüdür. Selçuklu mezarlık 210 dönümdür. En önemli mezar taşları ve en ünlü sanatkarların eserleri bu mezarlıktadır. Bu mezarlıkta Xll. asır başından XVl. asra kadar tarihlenen mezarlar bulunmaktadır. Mezar taşlarının üzerinde ayetler ve hadisler yazmaktadır. Mezarların üzerindeki kabartmalarda mezar sahibiyle ilgili sözler, metinler yazmaktadır. Çift başlı kurt sembolleri çeşitli hayvan sembolleri ve de Türk tarihiyle ilgili bilgi veren motif ve yazılar bulunmaktadır. Mezarların yanında o zamanlar mezar hediyesi olarak adlandırılan çeşitli seramik parçalar, kişiye ait takılar ve Türklerin o dönem en önemli silahı olan okların uçlarını bulmak da mümkün. Ahlat eski yerleşimi ve Mezar Taşları UNESCO Dünya Listesi'ne önerilecek adaylar arasında yer almaktadır. Mezar taşlarının yüzlerce yıl önceden bugüne bu kadar sağlam gelmiş olması biz mimarlara da birer örnek niteliği taşımaktadır. Bu mezar taşlarıyla ilgili şöyle bir rivayet okumuştum internette araştırma yaparken. Zamanında Rus askerleri karanlık bir zamanda Ahlat'ı işgal için geldiklerinde bu mezar taşlarını Türk askeri sanıp mühimmatlarının büyük bir bölümünü burada harcamış ve sabah olduğunda Türk askerlerini dimdik ayakta görünce şaşırıp kalmışlar. Tabi ne kadar doğrudur bilinmez. Eğer Ahlat'a yolunuz düşerse bu bahsettiğim yerleri görmeden dönmeyin. Ahlat'ı anlatmak için kelimeler yetmez. Türkülere şiirlere konu olmuş o büyüleyici ilçeyi mutlaka görmenizi önemle tavsiye ediyorum. Lütfen tarihimize sahip çıkalım ve o ruhu yaşatalım.

## KAYNAKLAR


1. Selçuklu Belediyesi Resmi Sitesi
2. Orta əsrlər ahlat və nahçıvan türbələrinin ortaq və fərqli cəhətləri makalesi Qənbərova Gülnarə sayfa 5
3. Ahlat –Malazgirt Yapı Taşlarının Isıl ve Mekanik Özellikleri sayfa 2

**SƏMƏD ƏSGƏROV**
*İnstrumental ifaçılğın tarixi və nəzəriyyəsi*

# NAXÇIVANLI BƏSTƏKARLARIN YARADICILIĞINDA BALET JANRI

Naxçıvanlı bəstəkarların yaradıcılıq yolunu izləyərək, peşəkar musiqi janrlarının inkişafını qeyd etmək istərdik. Bəstəkarların yaradıcılığında bir sıra musiqi janrlarının inkişafından və Azərbaycan musiqi irsində tutduğu layiqli yerindən danışa bilərik.

Bu baxımdan musiqi janrlarının bölgüsü üzrə: musiqili-səhnə janrları, simfoniya və orkestr musiqisi janrları, vokal-instrumental, kamera instrumental və vokal musiqi janrlarında yazılmış əsərlərin yaranmasını, mövzu və musiqi dilinin xüsusiyyətlərini xarakterizə edə bilərik.

Musiqili-səhnə janrları sırasında naxçıvanlı bəstəkarların yaradıcılığında opera, balet və musiqili komediya janrında yazılmış əsərlər, həmçinin, dram tamaşalarına yazılmış musiqi yer almışdır.

Öncə balet janrında yazılmış əsərlərə diqqət yetirək. Bu janr Nəriman Məmmədovun və Yaşar Xəlilovun yaradıcılığında öz əksini tapmışdır.

Nəriman Məmmədovun yaradıcılığında balet janrı iki əsərlə - "Humay" (1981) və "Şeyx Sənan" (1995) baletləri ilə təmsil olunmuşdur. Hər iki balet Azərbaycanın klassik şair-dramatruqlarının əsərlərinə: "Humay" - Səməd Vurğunun, "Şeyx Sənan" - Hüseyn Cavidin əsərinə əsaslanır. N.Məmmədovun "Şeyx Sənan" baleti (libretto müəllifindir) səhnəyə qoyulmuşdur, lakin "Humay" baleti Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulmuş və ölkənin musiqi həyatında əlamətdar hadisəyə çevrilmişdir.

N.Məmmədovun "Humay" baletinin yaranması Azərbaycan balet sənətinin inkişafı ilə şərtlənmişdir. Qeyd etmək lazımdır ki, 1980-cı illərə kimi Azərbaycanda balet janrının inkişafı böyük inkişaf mərhələsi keçmişdir, bu sahədə Əfrasiyab Bədəlbəylinin "Qız qalası", Soltan Hacıbəyovun "Gülşən", Qara Qarayevin "Yeddi gözəl" və "İldırımlı yollarla", Fikrət Əmirovun "Min bir gecə", "Nəsimi dastanı", "Nizami", Arif Məlikovun "Məhəbbət əfsanəsi", Niyazinin "Çitra", Aqşin Əlizadənin "Babək", Tofiq Bakıxanovun "Xəzər ballası" və s. baletlər yaranmış və böyük müvəffəqiyyətlə səhnəyə qoyulmuşdur. Nəriman Məmmədov balet janrının klassik ənənələrinə əsaslanaraq, onları davam etdirmişdir.

N.Məmmədovun yaradıcılığında "Humay" baleti xüsusi yer tutur. Bu balet böyük Azərbaycan şairi Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında yazılmışdır. Baletin libretto müəllifi K.Bataşovdur. Balet 1981-ci il dekabrın 6-da Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuşdur.

Səməd Vurğunun "Komsomol poeması" 1920-ci illərdə Azərbaycanda gedən inqilabi proseslərdən, kənddə sovet hakimiyyətinin qurulmasından, cəmiyyətin müxtəlif təbəqələrinin (fəhlə-kəndlilərlə bəy-xan təbəqəsinin) siyasi baxışlarına görə iki cəbhəyə bölünərək üz-üzə durması, sovet hakimiyyətini quran bolşeviklərin və komsomolçuların, əks cəbhədə durub sovet hökumətinə tabe olmaq istəməyən varlı bəylərin və onların əlaltılarının mübarizəsindən danışılır.

"Komsomol poeması"nda bəstəkarın diqqətini Cəlal və Humayın romantik məhəbbəti cəlb etmişdir və o, Humayı əsərinin baş qəhrəmanı kimi seçmişdir. Baletdə cərəyan edən hadisələr fonunda Cəlal və Humayın nakam sevgisi tərənnüm olunmuşdur.

Bəstəkar və libretto müəllifi baletdə poemanın süjet xəttinin ardıcıl açılmasına deyil, ictimai dramın fonunda lirik xətti inkişaf etdirməyə çalışmışlar. Əsərin qəhrəmanları - sevgisinə sədaqətli gözəl Humay, şair qəlbli Cəlal, komsomolçu dəstəsinin başçısı Bəxtiyar və hakimiyyətin düşməninə çevrilmiş Gəray bəy kəskin faciəvi konfliktdə qarşılaşdırılır.

Baletin pərdələrinin proqramlı adı süjet xətti ilə bağlıdır: Proloq - "Məhəbbət himni"; Birinci pərdə, I şəkil - "Kənd"; II şəkil - "Gözəllik və məhəbbət"; İkinci pərdə, III şəkil - "Novruz bayramı"; IV şəkil - "Qan çanağı"; Üçüncü pərdə, V şəkil - "İntizar"; VI şəkil - "Gəray bəyin ölümü"

Musiqişünas-alim R.Fərhadova N.Məmmədovun "Humay" baletini xarakterizə edərkən, yazır ki, bəstəkar balet tamaşasında qiraətçinin səsindən istifadə etmişdir. Belə ki, balet tamaşasının ən gərgin anlarında poemanın mətnindən misraların səsləndirilməsi xüsusilə məhəbbət xəttinin təsirini artırır. Ümumiyyətlə, baletdə inqilabi mübarizə mövzusunun həlli plakatlıqdan uzaq bir şəkildə, poetik məhəbbət mövzusunu müşayiət edən fon kimi şərh olunur. Məhəbbət mövzusu isə psixoloji dərinliyi, faciəvi axarı ilə diqqəti cəlb edir. Bu baxımdan balet məhəbbət haqqında poema kimi təfsir olunur[5, 35].

Baletin musiqi dramaturgiyası təzadlı xətlərin kəsişməsinə, ziddiyyətli mühitlərin qarşıdurmasına əsaslanır: bunlardan birincisi - ictimai dramatik mühitdə verilmiş lirik məhəbbət xəttidir, ikincisi - qəddar gərginlik yaradan Gəray bəy obrazı ilə bağlı mühiti, üçüncüsü isə xalq məişət mühiti ilə bağlıdır. Bunlardan hər biri özünəməxsus intonasiya quruluşuna, metro-ritmik xüsusiyyətlərə malikdir. Baletin quruluşunda, şəkillər, onların daxilindəki səhnələr və musiqi nömrələri arasında özünü göstərən təzadlıq əsərin musiqi dramaturgiyasının inkişaf xarakterini müəyyən edir.

Musiqi dramaturgiyasında leytmotivlər mühüm rol oynayır: Məhəbbət leytmotivi, Cəlalın leytmotivi, Gəray bəyin leytmotivi, Xalq üsyanı mövzusu, Rekviyemin mövzusu, Cəlalın poetik qəzəllərinin mövzusu.

Baletin obrazlarının xarakterizə olunmasında fərdi musiqi portretlərinin yaradılması da diqqətəlayiq cəhətlərdən biridir. Əsas obrazların musiqi portretləri olduqca qabarıq surətdə göstərilir. Bunlardan "Cəlalın çıxışı", "Cəlalın hekayəti", "Gəray bəyin monoloqu", duet və ansambl səhnələri qeyd oluna bilər. Həmçinin, hər bir obrazın ətrafında olan insanlar da qrup şəklində səciyyələndirilir, məsələn, Humayın rəfiqələri, Cəlalın dostları, Bəxtiyar və gənclər, Gəray bəyin quldur dəstəsi, aşıqlar və Cəlalın musiqi xarakteristikaları bu qəbildəndir.

Baletin musiqisi dərin milli köklərə malik olub, musiqi dilinə və ifadə vasitələrinə görə müasir, simfonik vüsətlidir. N.Məmmədovun yaradıcılığını qidalandıran muğamlar, aşıq yaradıcılığı, xalq mahnı-rəqs intonasiyaları baletin musiqisində özünəməxsus canlı təcəssümünü tapmışdır.

"Humay" baletinin musiqisində Azərbaycan xalq xoreoqrafiyasının rəngarəng formalarından istifadə olunması obrazların xarakterinin açılmasında mühüm əhəmiyyət kəsb edir və ümumilikdə baletin musiqisinə özünəməxsus keyfiyyətlər aşılayır. Milli səciyyəli ritmik quruluş və hərəkət formaları, xalq musiqisinin məqam-intonasiya elementləri baletin musiqisinin məğzini təşkil edir.

Beləliklə, Naxçıvanda bəstəkar yaradıcılığının inkişafı ilə demək olar ki, bütün musiqi janrları öz təcəssümünü tapmışdır. Bütün bu janrlarda yazılmış əsərlər Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsində və Naxçıvan musiqi həyatının inkişafında böyük rol oynayır.

## ƏDƏBİYYAT

1. İsmayılova G.H. Bəstəkar Ramiz Mirişli. Bakı: 2000, s
2. Qəhrəmanov Ə., İbrahimov S., Cəfərov F. Naxçıvan Teatrının Salnaməsi: 1883-2008 /Elmi red. İ.Hacıyev; rəyçi İ.Həbibəyli. - Naxçıvan: Əcəmi NPB, 2010, 734 s.
3. Qulamova J.E. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının 30 ildə keçdiyi yaradıcılıq yolu. Bakı: 2010, 135 s.
4. Qulamova J.E. Nazim Quliyev. Bakı: Şərq-Qərb, 2015, 32 s.
5. Fərhadova R. Nəriman Məmmədov. Bakı: İşıq, 1982, 48 s.
6. Zöhrabov R.F. Bəstəkarlarımız haqqında söz. Bakı: Şur, 1995, 90 s.

# AZƏRBAYCAN DİLİ

**ÜLVİYYƏ HACIYEVA**
*Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*

## LEKSİK OMOMORFEMLƏRİN TƏDRİSİ MƏSƏLƏLƏRİ

Müasir Azərbaycan ədəbi dilinin leksikasında maraqlı mövzulardan biri də omonimlərdir. Omonimlər məsələsini təsdiq etmək və aydınlaşdırmaq üçün dilin leksik sistemində olan sözlərin məna münasibətləri müəyyən edilməlidir. Dilimizdə olan omonimlik xüsusiyyətlərinə malik olması haqqında məsələ 1920-ci ildən sonrakı dövrlərdə lüğətçiliyin inkişafı ilə əlaqədar olaraq ortaya çıxmışdır. Belə ki, bu dövrdə dilçilər omonimiya məsələsinə daha çox diqqət verməyə başlamışlar.

Azərbaycan dilçiliyində dilin hərtərəfli tədqiqi sahəsində önəmli uğurlar əldə edilmişdir. Bununla belə, dilin ayn-ayrı səviyyələrinə aid müxtəlif kateqoriyalarla əlaqədar olan bəzi məsələlərin yeni dil faktları əsasında yenidən öyrənilməsinə ehtiyac duyulmaqdadır.

Bildiyimiz kimi, şəkilçinin leksik və ya qrammatik şəkilçi yerində işlənib-işlənməməsini onların sözlərlə birlikdə əmələ gətirdikləri məna ilə təyin etmək olar. Leksika ilə qrammatikanın qarşılıqlı əlaqəsini nəzərə alaraq dilimizdə olan omonim şəkilçilər 3 qrupa bölünür:

1. Leksik omonim şəkilçiləri;
2. Qrammatik omonim şəkilçiləri;
3. Leksik və qrammatik omonim şəkilçiləri.

Leksik omomorfemlər söz yaratma vasitəsi kimi çıxış edir. Onlar sözün leksik mənasını konkretləşdirir, sözü bu və digər nitq hissəsi qrupuna daxil edir. Leksik omomorfemlər formaca eyni olsalar da, qrammatik mənaca fərqlənirlər. -*açar* (feil) - *açar* (isim), qazma (feil) - qazma (isim)

Leksik omomorfemlərin öyrənilməsi məsələsi həm leksikaya, həm də qrammatikaya aiddir, çünki, onlar leksik vahidlər əmələ gətirir, həm də qrammatik ünsürlərdir. Elə bir leksik məna yoxdur ki, o, qrammatik cəhətdən formalaşmasın. Sözün leksik mənası özlüyündə onun qrammatik səciyyəsinə işarədir.

Azərbaycan dilində leksik omomorfemlərin miqdarı səs tərkibinə görə təsadüfi eynilikdən, fonetik dəyişiklikdən və başqa dillərdən bu dilə keçən morfemlərin sayından asılıdır.

Leksik omomorfemlər aşağıdakılardır:

*-a, -ə, -a,-ə; -ı, -i, -u, -ü, -ı, -i, -u, -ü; -ın, -in, -un, -ün, -ın, -in, -un, -ün; - ır,-ir, -ur, -ür, -ır,-ir-ur-ür; -ış, -iş, -uş, -üş, -ış, -iş, uş, -üş; -sız, -siz, -suz, -süz, -sız,-siz, -suz, -süz; -lı,-li,-lu,-lü, -lı,-li,-lu,-lü; -lıq, -lik, -luq, -lük, -lıq, -lik, - luq, -lük; -la, -lə -la, -la, -lə; -ca, -cə, -ca, -cə; -ar, -ər, -ar, -ər; -dan, -dən, - dan, -dən; -ov, -öv, -ov, -öv; -dar, -dər, - dar, -dər.*

*-a, -ə* leksik omomorfemi. Bu şəkilçi müasir Azərbaycan dilində ad düzəldən şəkilçi kimi tanınır.

Ümumiyyətlə, bu şəkilçi haqqında dilçilikdə müxtəlif mülahizə və fikirlər vardır. Bəzi dilçilər bu şəkilçini məhsuldar və qeyri-məhsuldar şəkilçi hesab edirlər (1, s. 37).

S.Cəfərov isə bu şəkilçini "nisbətən qeyri-məhsuldar olan" şəkilçi adlandırır (2, s. 78).

Bizcə bu şəkilçi qədim və az məhsuldar şəkilçidir, *-a, -ə* şəkilçisinin qədim şəkilçi olması fikrini dil faktları sübut edir. Faktlar sübut edir ki, dilimizdə elə sözlər var ki, onlar *-a, -ə* şəkilçisinin köməyi ilə yaranmış, zaman keçdikcə həmin sözlər kök və şəkilçi qovuşuğunda daşlaşmışlar. Belə sözlərə misal olaraq qısa, kəsə, kökə, tikə tipli sözləri göstərə bilərik.

*-a, -ə* şəkilçisi isim və feillərdən düzəltmə feil əmələ gətirir:

1. Adlardan feil əmələ gətirir: dil-di<u>lə</u>(mək), qan-qa<u>na</u>(maq), yaş-ya<u>şa</u>(maq), boş-bo<u>şa</u> (maq) və s.
2. Feldən fel əmələ gətirir: qal(maq)-qa<u>la</u>(maq), san(maq) -sa<u>na</u>(maq) və s.

3. Adlardan ad düzəldilməsində iştirak edir: top-topa.

*-ə* şəkilçisi onomastikada ən geniş yayılmış leksik omomorfem kimi çıxış edir. Kişi adlarından qadın adları əmələ gəlir: Cəmil-Cəmilə, Kamil-Kamilə, Həmid-Həmidə, Samir-Samirə.

*-a, -ə* şəkilçisi eyni feillərin təkrarı ilə substantlivləşərək mürəkkəb isimlər də əmələ gətirir: basabas, qaçaqaç, tutatut və s.

*-ı, -i, -u, -ü* leksik omomorfemi. Bu şəkilçi, əsasən, feil köklərinə qoşulur, leksik şəkilçi kimi feildən isim, sifət, isimdən isim əmələ gətirir.

*-ı, -i, -u, -ü* şəkilçisi hal-hazırda yeni mənalı sözlərin əmələ gəlməsində iştirak edir və leksik omomorfemlik yaradır:

1. Feillərdən isim əmələ gətirir: çək(mək)-çəki, ölç(mək)-ölçü, qorx(maq)-qorxu, sanc(maq)-sancı və s. Onun gözləri qorxu və təəccüb içində parıldadı (25, s.82-93).
2. Feillərdən sifət əmələ gətirir: dolu (boşqab), ölü (qoyun), duru (su) və s.
3. Sifətdən isim əmələ gətirir: turş-turşu, şirin-şirini və s.
4. Onomastik vahidlərin əmələ gəlməsində iştirak edir, ümumi isimlərdən qadın və kişi adları, təxəllüslər əmələ gətirir: zər-Zəri, nur-Nuru və s.

1. Azərbaycan dilinə məxsus olan bu şəkilçi dörd variantlıdır. Saitlə bitən sözlərin əvvəlinə “y” səsi artırılır: sürmə-sürməyi, qəhvə-qəhvəyi, buğda-buğdayı, bənövşə-bənövşəyi və s.

2. Ərəb dilinə məxsus “i” şəkilçisi qeyri-məhsuldardır və semantik cəhətdən məhdud olub, bir qrup ərəb sözləri ilə işlədilir: iqtisad-iqtisadi, lazım-lazımi, elm-elmi, daxil-daxili, xaric-xarici və s.

*-ın,-in,-un,-ün* leksik omomorfemi. Bu şəkilçi çox qədim tarixə malikdir. Sözdüzəltmə dairəsi məhduddur. Müasir ədəbi dilimizdə iki müxtəlif mənalı sözlər əmələ gətirir:

*1.* Feillərdən isim əmələ gətirir: sər(mək)-səpin, biç(mək)-biçin, ək(mək)-əkin və s.

*2.* Feillərdən feil düzəldir: sev(mək)-sevin(mək), gör(mək)-görün(mək), de(mək)-deyin(mək) və s.

*-ır,-ir,-ur,-ür* leksik omomorfemi. Müasir dilimizdə bu şəkilçi az işlənir və yalnız iki müxtəlif mənaya malik söz əmələ gətirir.

1. Feil kökünə birləşərək mücərrəd mənalı isim əmələ gətirir: gəl(mək)-gəlir, kəs(mək)-kəsir, qıs(maq)-qısır və s.
2. Feildən feil əmələ gətirir: qaç(maq)-qaçır(maq), uç(maq)-uçur(maq), köç(mək)-köçür(mək) və s.

*-ış, -iş, -uş, -üş* leksik omomorfemi. Bu şəkilçinin əsas funksiyası artırıldığı feillərdə hərəkət adı mənasını bildirməsidir. İctimai həyatın müxtəlif sahələrinin inkişafı ilə əlaqədar olaraq, müasir dilimizdə yeni sözlərin yaranmasında fəal iştirak edir. Müasir Azərbaycan dilində *-ış, -iş, -uş, -üş* şəkilçisi çox zaman feilin qarşılıq-müştərək növü ilə omomorfemlik təşkil edir: göndəriş, bildiriş; vuruşmaq, döyüşmək, yarışmaq və s.

Dilimizdə *-ış, -iş, -uş, -üş* şəkilçisinin əmələ gətirdiyi sözləri iki qrupa ayırmaq olar:

1. Sadə feil köklərindən isim əmələ gətirir: vur(maq)-vuruş, en(mək)-eniş, uç(maq) - uçuş, qaç(maq) - qaçış və s.
   Düzəltmə feildən isim əmələ gətirir: açılış, yalvarış, göndəriş və s.
2. Feildən isim düzəldir: yaz(maq)-yazış(maq), qaç(maq)-qaçış(maq), vur(maq)-vuruş(maq) və s.

Müasir Azərbaycan dilində bu şəkilçinin *-y(ış), -y(iş), -y(uş), -y(üş)* variantı da işlənir. Saitlə qurtaran feillərdən ad düzəltməyə xidmət edən *-yış, - yiş, -yuş, -yüş* şəkilçisindəki “y” səsi bitişdirici ünsür olub adların fonetik cəhətdən feillərdən fərqlənməsinə xidmət edir: yaşa(maq)-yaşayış, qavra(maq)-qavrayış, titrə(mək)-titrəyiş və s.

*-ış, -iş, -uş, -üş* şəkilçisi onomastik leksikada az miqdarda əzizləmə və oxşama mənalı şəxs adları əmələ gətirir: Göyüş, Gülüş, Nuruş və s.

*-sız, -siz, -suz, -süz* leksik omomorfemi. Bu şəkilçi dilimizə qədimdən işlədilən və bu gün də öz əhəmiyyətini itirməyən şəkilçilərdəndir.

Müasir ədəbi dilimizdə isim köklərinə qoşularaq müəyyən bir əlamət, yaxud xüsusiyyətin yoxluğunu, mövcud olmadığını bildirən sözlərlə düzəlir.

Bəzi dilçilər bu şəkilçini *-lı, -li, -lu, -lü* şəkilçisinin antonimi hesab edirlər. Lakin onun dilimizdəki vəziyyəti göstərir ki, onların antonimliyi mütləq deyil. Belə ki, *-lı, -li, -lu, -lü* şəkilçisinin semantik dairəsi daha geniş olduğu halda *-sız, -siz, -suz, -süz* şəkilçisinin semantik dairəsi məhduddur. Ona görə də həmin şəkilçilərlə düzələn adlar həmişə *-lı, -li, -lu, -lü* şəkilçisi ilə düzələn adların antonimi ola bilmir.

*-sız, -siz, -suz, -süz* şəkilçisi eyni fonetik tərkibdə iki müxtəlif mənalı sözlər əmələ gətirir.

1. İsimlərdən sifət düzəldərək müəyyən bir əlamət və yaxud xüsusiyyətin yoxluğunu bildirir: ev-evsiz, dad-dadsız, yağ-yağsız, bilik-biliksiz və s.
2. İsimlərdən zərf düzəldərək sırf əlamət və keyfiyyət bildirir: ürəksiz, cəsarətsiz, etinasız və s.
3. *-lı,-li, -lu, -lü* leksik omomorfemi. Bu şəkilçi ən qədim və ən məhsuldar şəkilçi olmaqla həm isim, həm də sifət düzəltməklə dildə omonim xasiyyətə malik olan bir şəkilçidir. Çox az hallarda feildən düzələn adlara qoşularaq mücərrəd mənalı isimlər əmələ gətirir: dönməz-dönməzlik, qorxmaz-qorxmazlıq, igid-igidlik, qaçaq-qaçaqlıq və s.

*-lıq, -liq, -luq, -lük* şəkilçisinin leksik omomorfemliyinə nəzər salaq.

Sarılıq (xəstəlik)-sarılıq (rəngi sarıya çalan), başlıq (oğlan evindən qız evinə verilən süd pulu)-başlıq (baş örtüyü)-başlıq (sərlövhə) və s.

Bu şəkilçi adlara qoşularaq ölçü, zaman, ağırlıq və həcm bildirən sifətlər əmələ gətirir: litrlik (şüşə), aylıq (maaş), həftəlik (qəzet) və s.

*-ov, -öv* şəkilçisi də dilimizdə rus dilindən keçən şəkilçilərdəndir. Dilimizə məxsus şəkilçilərə nisbətən məhdud şəkilçidir. Əsasən soyad düzəldən şəkilçi kimi formalaşmışdır.

Bu şəkilçi eyni fonetik tərkibində iki müxtəlif mənalı sözlər əmələ gətirir.

1. Adlardan ad düzəldir: al-al<u>ov</u>,qır-qır<u>ov</u> və s.
2. Adlardan soyad düzəldir: (ikinci ünsürü "yev" kimi işlənir). Qasım-Qasım<u>ov</u>, Əmir-Əmir<u>ov</u>,Kazım-Kazım<u>ov</u> və s.

*-dar, -dər* leksik omomorfemi. Bu şəkilçi dilimizə fars dilindən keçmiş şəkilçisi kimi işlənir. Leksik omomorfem kimi iki müxtəlif mənalı söz əmələ gətirir:

1. Feillərdən feil düzəldir: ax(maq)-axtar(maq), dön-döndər(mək), qon(maq)-qondar(maq) və s.
2. Adlardan ad düzəldir: ev-ev<u>dar</u>, hökm-hökm<u>dar</u>, din-din<u>dar</u>, məhsul-məhsul<u>dar</u> və s.

Leksik omomorfemlər müxtəlif mənalı və formal sözlərə əlavə edilərək onlardan müxtəlif mənalı sözlər əmələ gətirir. Bu şəkilçinin əmələ gətirdiyi yeni sözlərin hamısı deyil, bir qismi omonim kimi çıxış edir. Leksik omomorfemlər bir və ya bir neçə nitq hissəsini əhatə edir. Onlar formaca eyni, məzmunca müxtəlifdirlər. Bunları həm omonim sözlərə, həm də omonim olmayan sözlərə əlavə etmək olar. Leksik omomorfemləri omonim sözlərə əlavə etdikdə onlardan yeni omonim sözlər yaradır, omonim olmayan sözlər əlavə etdikdə isə onların bir qismini omonimləşdirir.

Leksik omomorfemlər qədim tarixə malikdirlər və uzun əsrlərdən bəri Azərbaycan dilinin söz yaradıcılığına xidmət etmişlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1960
2. Cəlilov F. Azərbaycan dilinin morfologiyası. Bakı: ADU- nun nəşri, 1985
3. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1960;
4. Cəfərov S. Azərbaycan dilində sözdüzəldici və sözdəyişdirici şəkilçilər. Bakı: Maarif, 1968
5. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərbaycan Dövlət Tədris-Pedoqoji Ədəbiyyatı, 1962
6. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1988
7. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1983
8. Mahmudova R. Dilçilikdə omomorfem məsələsi. Filoloji araşdırmalar (məqalə və məruzələrin tezisləri), II kitab, Bakı: Azərnəşr, 1996

**XATIN QURBANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*qurbaovaxatin@gmail.com*

# SALİK ORDUBADİNİN HƏYATININ ALİ MƏKTƏBDƏ TƏDRİSİ ÜSULLARI

Naxçıvan Dövlət Universitetinin professoru Əsgər Qədimovun tərtibi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin xətti ilə çap olunmuş Azərbaycan ali məktəblərinin filologiya ixtisasları və həmin ixtisaslar üzrə magistratura üçün seçmə fənn proqramında "XIX əsr Ordubad ədəbi mühiti" fənninin tədrisində ədəbi mühitin nümayəndələri sırasında Məhəmmədqulu Salik Ordubadinin tədrisinə də xüsusi yer verilir. Proqramda Salik Ordubadinin həyatının tədrisi də nəzərdə tutulur. Bu məqsədlə biz elmi məqaləmizdə Salik Ordubadinin həyatının tədrisi üsullarından bəhs edəcəyik.

Bu mövzunun tədrisində müəllim mühazirədə ilk öncə XIX əsr Azərbaycan ədəbiyyatında "Salik" təxəllüsü ilə yazan şairlər haqqında aşağıdakı məzmunda tələbələrə məlumat verməli və bildirməlidir ki, XIX əsrdə Azərbaycan ədəbiyyatında "Salik" təxəllüsü ilə yazan bir neçə şair olmuşdur. Bunlardan Kazım ağa Salik, Salik Təbrizi, Salik Xoylu haqqında mənbələrdə az da olsa məlumat vardır. Lakin Salik Ordubadi haqqında mənbələrdə əsaslı məlumat verilməmişdir. Bu şair haqqında Filologiya elmləri doktoru, professor Əsgər Qədimobun ali məktəblər üçün nəşr etdirdiyi "XIX əsr Ordubad ədəbi mühiti" adlı dərsliyində məlumat verilmişdir ki, biz də elmi məqaləmizdə bu dərsliyin materiallarına istinad etmişik.

Müəllim dərsdə bu mənbəyə istinad edərək tələbələrə izah etməlidir ki, vaxtı ilə "İrşad" qəzetinin səhifələrində "Salik" təxəllüslü bir şairin 80 misralıq bir müxəmməsinin naxçıvanlı Salikin olması haqqında polemika yaransa da (1), (4), (5), Firidun bəy Köçərlinin "İrşad"a cavabından və Salik Ordubadinin ədəbi irsindən aydın olur ki, həmin müxəmməsin ona aidiyyatı yoxdur. Deməli, vaxtı ilə "İrşad"ın səhifələrində polemikaya səbəb olan müxəmməs ya Kazım ağa Salikin, ya Hüseyn Cavidin (çünki Cavid də "Salik" təxəllüsü ilə yazmışdır), ya Salik Ordubadinin, ya da "Salik" təxəllüslü başqa bir XX əsr şairlərindən birinindir.

Bu məlumatdan sonra müəllim dərsdə Salik Ordubadinin tədqiqi tarixi haqqında olan mənbələr haqqında tələbələrə məlumat verməlidir. Bu məsələ ilə əlaqədar müəllim tədrisdə belə bir izahat verə bilər ki, Salik Ordubadi haqqında ilk məlumata Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" adlı təzkirəsində rast gəlirik. M.Tərbiyət bu əsərində "Salik" təxəllüslü şairlər sırasında Salik Ordubadinin də adını çəkmiş və haqqında çox bəsit məlumat vermişdir. Bu məlumatda deyilir:"Salik Ordubadi hicri-qəməri XIII əsr (miladi XIX) söz ustalarındandır. Onun şeirləri türk dilindədir (7, səh.292). Elə buradaca müəllim dərsdə tələbələrə bildirməlidir ki, bu divanı professor Əsgər Qədimov çapa hazırlamış və 2001-ci ildə geniş müqəddimə ilə Təbrizdə nəşr etdirmişdir (2). Bu divana Salikin tam külliyyatı – Azərbaycan, cığatay, fars və ərəbcə şeirləri daxil edilmişdir. Professor Əsgər Qədimov Salikin azərbaycanca olan əsərlərini də Divan halında "Gülşəni-vəhdət" adı ilə 2010-cu ildə Naxçıvanda "Əcəmi" nəşriyyatında geniş müqəddimə ilə nəşr etdirmişdir (6).

Müəllim mühazirədə bu məlumatdan sonra Salik Ordubadinin öz divanı haqqında verdiyi elmi məlumatı da tələbələrə çatdırmalıdır. O, belə bir elmi izah verə bilər ki, Salik öz "Divan"ını "Gülşəni-vəhdət adlandırmışdır (3). Şair bu divana daxil etdiyi "Qiteyi-lətifə" adlı farsca bir şeirində məlumat verərək yazırdı (Şeiri sətri tərcümə ilə veririk) :

"Gülşəni-vəhdət"i yazmaqdan ötrü
Gülşəni seyr etməyə çıxdım.
Peyğəmbərin hicrətindən 1200 il keçirdi.
Bunu dörd fəsildə nəzmə çəkdim.
Yeddini yetmişə əlavə elə,
Ta haqqın kamalı yerinə yetişsin.
Sevinc gətirən, ürək açan bağ,

Dolandıqca hamıya sevinc bağışlasın.
Bu kəmtər, mühəqqirin ərmağanı,
Salikin səfərdən sonra töhfəsidir.
O dostlara ki, sədaqətli olalar,
Onlara yox ki, sədaqətsiz və zalım olalar (2, səh.495-496).

Bu faktın tələbələrə çatdırılmasından sonra müəllim bildirməlidir ki, Salikin bu məlumatından aydın olur ki, şair öz divanını hicri-qəməri tarixinin 1277-ci (miladi – 1861) ilində tərtib etməyə başlamışdır. Divanın ərəbcə yazılmış "Xatimə" hissəsindən isə əsərin hicri-qəməri tarixinin 1280-ci (miladi – 1864) ilində tərtib edilib tamamlandığı aydın olur.

Müəllim tədrisdə Salikin öz divanı haqqında yazdığı aşağıdakı məlumatı da tələbələrə bu cür çatdırmalı və Salikin öz fikrini verməlidir: "Mən fərağat hasil elədim bu kitabın təlifindən və yazılmasından ki, bu nüsxeyi-şərifənin adı "Gülşəni-vəhdət"dir. Bu kitab çox günahkar, çox düşkün, çox həqir və fəqir olan, Allahın yolunu gedən və Allahın ipindən tutan Məhəmmədqulunun yazdıqlarındandır ki, təxəllüsü "Salikdir. Bu Salik həqiqət yolunun salikidir. Ona görə də rəbbül aləminin rəhmətinə möhtacdır ki, Allah rəhmət eləsin, Allah bağışlasın. Kərbəlayi Əbdülhüseyn Xaturinin oğludur ki, Allah ona rəhmət eləsin. Və bu kitabı da rəcəbül mərcəb ayında Allahın köməyi peyğəmbərin hicrətinin 1280-ci ilində yazdım ki, Allah ona və onun xanədanına minlər səlamu səlavat göndərsin" (2, səh. 715).

Bu izahdan sonra müəllim dərsdə tələbələrə bildirməlidir ki, Salik öz divanında anadan olması haqqında da məlumat vermişdir. Bu məlumatdan şairin 1805-1806-cı illərdə anadan olması aydın olur.

Müəllim dərsdə Salikin öz şeirlərində həyatı haqqında verdiyi məlumatları da bədii tərcümeyi-hal nümunələri kimi tələbələrə çatdırmalıdır. Müəllim izah edə bilər ki, Salik farsca qəzəllərinin birində Səlma adlı bir qıza aşiq olması haqqında məlumat vermiş və yazmışdır:

Oftad nəzəre ma ra bər areze Səlma duş,
Xalü xətte roxsarəş be ribud ze xater huş (2, səh. 261).
Tərc.: Dün gecə gözüm Səlmanın arizinə düşdü,
Onun xəttü xalı mənim huşumu oğurladı.
Başqa bir qəzəlində də şair həsrətində olduğu Səlmanın adını çəkir və onu sevdiyini bildirir:
Dələm hobbe rəhe Səlma gereftəst,
Movəddət dər dərunəm ca gereftəst (2, səh.66).
Tərc.: Ürəyim Səlmanı sevmə yolunu tutub,
Onun sevgisi ürəyimdə yer tutub.

Müəllim dərsdə bu misraları şərh edib tələbələrə bildirməlidir ki, Salik gəncliyində Səlma adlı bir gözələ aşıq olmuş və onun eşqi ilə aşiqanə qəzəllər yazməşdır.

Müəllim mövzunun tədrisində tələbələrə izah etməlidir ki, Salikin şeirlərində onun doğulduğu məkan haqqında da məlumat verilmişdir. Bu fikri əsaslandırmaq üçün müəllm dərsdə Salikin aşağıdakı şeirini nümunə verə bilər:

Şükrəlilləh, şod moqime sahele rude Ərəs,
Kəz ələstəm in təmənna əzme xater budo bəs (2,səh.256).
Tərc.: Allaha şükr olsun ki, mən Araz qırağında yaşayıram,
Əzəl gündən də istəyim ancaq bu idi.

Müəllim bu şeirə istinad edərək tələbələrə izah verə bilər ki, Salik bu şeirində Ordubadın Xanəgah (Xanağa) kəndində doğulduğunu söyləməsə də, Araz qırağında doğulduğuna işarə etmişdiir. Xanağa kəndi Ordubadda Vənənd kəndinə yaxın ərazidə yerləşir. Təsadüfi deyildir ki, Salik "Vənəndin tərifində qəsidə" adlı şeirində də Vənəndin təbiət gözəlliklərini nəzmə çəkmişdir (bax: 2, səh. 645).

Salik Ordubadi XIX əsr Ordubad ədəbi mühitində klassik üslubda yazan şairlərdən olmuşdur. Şairin ədəbi irsi Ürfani üslubda yazılmış bayatı, qəzəl, müxəmməs, təxmis, rübai, qəsidə, məsnəvi,

ibrətnamə, müləmmə və digər ictimai məzmunlu şeirlərdən ibarətdir.

## ƏDƏBİYYAT


1. A.F. Qazağdan. "İrşad" qəz., Bakı: 1908, 21 fevral.
2. Divane Salik Ordubadi (Tərtibçi, müqəddimə müəllifi və çapa hazırlayan filologiya elmləri doktoru, professor Ə.N.Qədimov). Təbriz: Müəsseye-çap və nəşre-Hadi, 2001, 1186 s.
3. Qədimov Ə.N. XIX əsr Ordubad ədəbi mühiti və Məhəmmədqulu Salik Ordubadi (Müqəddimə). Divane Salik Ordubadi (Tərtibçi, müqəddimə müəllifi və çapa hazırlayan filologiya elmləri doktoru, professor Ə.N.Qədimov). Təbriz: Müəsseye-çap və nəşre-Hadi, 2001, 1186 s.
4. Nəsirbəyov M.B. Azərbaycanın və ya Qafqazın hal-hazırda olan şüəralarından birisi. "İrşad" qəz., Bakı: 1908, 9 fevral.
5. Nəsirbəyov M.B. "İrşad" ruznaməsinin idarəsinə. "İrşad" qəz., Bakı: 1909, 9 fevral.
6. Salik Ordubadi. Gülşəni-vəhdət. Divan, I c. (Tərtibçi və çapa hazırlayanı, ön sözün müəllifi filologiya elmləri doktoru, professor Ə.N.Qədimov). Naxçıvan: "Əcəmi", 2010, 248 s.
7. Tərbiyət M. Danişməndani-Azərbaycan. Bakı: "Azərnəşr", 1987, 464 s.

**FATMA SEYİDLİ**
*Azərbaycan dili*
*Naxçıvan Dövlət Universiteti*
*eysani1994@mail.ru*

# XX ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCANDA BƏDİİ DİLİN İNKİŞAFI

Dil yalnız insanlara aid olan ,təkcə ünsiyyət vasitəsi deyil,dünya haqqında təsəvvür yaradan təbii intellektual sistemdir. Bədii dil isə ədəbiyyatın, yazılı əsərlərin dilidir. Bədii dil ədəbi dildən yüksək pafosu və təmtəraqlı ifadə üslubu, ritmin quruluşu, intonasiya tərzi, səs təkrarlarından geniş istifadəsi ilə fərqlənirdi. Keçən əsrlərdə bədii dilin funksiyası sadə dildə yazmaq, adi danışıq sözləri işlətmək,gündəlik həyat məsələlərindən bəhs etməklə kifayətlənirdi.Orta əsrlər yazılı poeziyada yüksək forma kamilliyi tələb edən normativ qanunlar həmin dövr şeirində yüksək səviyyəli poetik dilin yaranmasına səbəb olmuşdu. Ədəbi dilin spesifik üslublarından sayılan bədii dilin başqa nitq növlərindən fərqi, ilk növbədə sənətkarlıq baxımından işlənib cilalanmasında, yazıçının xüsusi məqsədlərinə tabe edilməsində və deməli, yaradıcılıq məhsulu kimi təzahür etməsindədir.

Zaman keçdikcə dövrün tələblərinə uyğun olaraq bütün sahələrdə inkişaf get-məkdədir. Bu inkişaf özünü Azərbaycan ədəbiyyatında da göstərirdi. XX əsrin əv-vəllərində Azərbaycan ədəbiyyatı çoxcəhətli idi.Bu dövrdə istər lirik, epik, istərsə də drammatik növlərdə yazılan əsərlərdə bədii dildən məharətlə istifadə olunurdu. Bu dövrün yaradıcılıq məhsulu olan bir neçə əsərə nəzər salaraq.
Mikail Müşfiq "Yenə o bağ olaydı" şeiri

Yenə o bağ olaydı, yenə o qumlu sahil,
Sular ötəydi dil-dil.
Saçın kimi qıvrılan dalğalara dalaydım,
Dalıb ilham alaydım.
Əndamını həvəslə qucaqlarkən dalğalar,
Qəlbimdə qasırğalar,
Fırtınalar coşaydı, qısqanclıqlar doğaydı,
Məni hirsim boğaydı.
Cumub alaydım səni dalğaların əlindən,
Yapışaydım belindən.
Xəyalımız üzəydi sevda dənizlərində,
Ləpələr üzərində.

Bu şeir Ənvər Məmmədxanlının bacısı Arifə Məmmədxanlıya ithaf olunub. Bu əsərin mövzusu şairin 1946 –cı ildə Pirşağıda bir neçə şairlə,o cümlədən Arifə xanımla keçirdiyi yay tətilindən ilhamlanaraq ərsəyə gəlmişdir. Şeir o qədər obrazlı,emosional təsvir olunub ki, şeiri dinləyərkən dinləyici təkcə mövzunu yox, şairin keçirdiyi hissləri də özü yaşayıbmış kimi hiss edir. Şeirdə şairin keçmiş günlərin həsrəti,o günlərə qayıtmaq istəyinə o qədər gözəl don geyindirilib ki,sözün sehrinə heyran olmamaq mümkün deyil.
Daha bir nümunə Səməd Vurğunun 1937-ci ildə yazdığı "Vaqif" dramı

Bəs baş əymədiniz?
Əymədim bəli!
Əyilməz vicdanın böyük heykəli!

Əsərdən verilən bu parçada Vaqifin baş əyməmə səbəbi göstərilib.Hər bir sətir xüsusi bir melodik intonasiya ilə tələffüz edilir və belə intonasiya, həmçinin poetik ritm, obrazlı və emosional ifadə vasitələri sayəsində gerçəklilkdə olduğundan daha gözəl və estetik şəkil alır.

Məmməd Səid Ordubadi " Qılınc və qələm" romanı

M.S.Ordubadinin 1936-cı ildə qələmə aldığı bu romana verilən ad diqqəti cəlb edir.İlk baxışdan əsərin adında heç bir qeyri-adilik nəzərə çarpmır.Əsərlə tanış olduqdan sonra aydın olur ki,qələm –maarif, təhsil ,ağıl, düşüncə qılınc isə güc, qüv-vəti təmsil edir.Bu əsər həyat materialında

mühüm yer tutan iki amilin-xalqın mənəvi və fiziki qüvvəsinin rəmzi olan "Qılınc və qələm" adlandırılmışdır. Bədii dilin əsas ünsürü sözdür. "Bədii dil qafiyəyə, ahəngə, ritmə salınmış sözlərdən daha çox, sözlərlə ifadə olunmuş ritm və ya ahəngdir. Hətta belə demək mümkündürsə, sözlərlə çəkilmiş tablo və ya sözlərlə ritmlənmiş musiqidir. (Əbu Turxan)

## ƏDƏBİYYAT

1. Ə.Səfərli, Xəlil Yusifli. Azərbaycan ədəbiyyatı tarixi. 2cilddə, Bakı: Ozan, 2008,543s
2. Mir Cəlal, Xəlilov P.İ. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Çaşıoğlu, 2005, 287 s.

**SƏFURƏ PİRİYEVA**
*Azərbaycan dili*
*Naxçıvan Dövlət Universiteti*
*pvasafura 9824@gmail.com*

# ŞƏHRİYAR YARADICILIĞINDA GÜNEY AZƏRBAYCAN DİALEKTLƏRİNƏ MƏXSUS FONETİK XÜSUSİYYƏTLƏRİN İZLƏRİ

Azərbaycan dilinin fonetik sistemi nəzərə alınmaqla dialektlərimizin tədqiqi böyük əhəmiyyət kəsb edir və bu sahədə tədqiqatlar aparılır.

Güney Azərbaycan şivələrinin bəzi fonetik xüsusuyyətləri Cənubi Azərbaycan şairlərinin əsərlərində öz əksini tapmışdır. Bu hadisə əsərlərdə danışıq formalarından istifadə nəticəsində ortaya çıxmışdır. Təbriz şairlərindən olan Məhəmmədhüseyn Şəhriyarın Azərbaycan dilində olan şeirlərində Təbriz dialektinə xas olan xüsusiyyətlər üstünlük təşkil edir.

Sait səslərin dəyişməsi dialekt fonetikasında özünü göstərən önəmli hadisələrdən, həmçinin hər bir bölgənin fərdi xüsusiyyətlərini nəzərə çarpdıran əsas əlamətlərdən biridir. M.Məmmədov sait səslərin dəyişməsinin 7 qrupda vermişdir. (4, s.53)

1)Qalın saitlərin incə saitlərə keçidi
2) İncə saitlərin qalın saitlərə keçidi
3) Dodaqlanan saitlərin dodaqlanmayan saitlərə keçidi
4) Dodaqlanmayan saitlərin dodaqlanan saitlərə keçidi
5) Açıq saitlərin qapalı saitlərə keçidi
6) Qapalı saitlərin açıq saitlərə keçidi
7) Qapalı saitlərin qapalı saitlərə keçidi

Bu qruplaşmaya daxil olan bəzi fonetik proseslərə M.Şəhriyarın şeirlərində rast gəlmək mümkündür.

[A] səsinin [ə] səsinə keçmə hadisəsinə bir çox şivələrdə olduğu kimi cənub şivələrində də rast gəlinir. a>ə səs dəyişməsi bəzən bir hecanı, bəzən də bütün sözü əhatə edə bilir. Şəhriyarın yaradıcılığında hər iki hala aid nümunələrlə rastlaşmaq mümkündür. Şüca xaloğlunun Bakı *sovqəti* (3, s.42); Quzuların ağı, bozu, *qərəsi* (3, s.39)*;* Dur gedək, bu *xəlqi* artıq sınama (3, s.910; Əl qatanda sənə məşşatə *təmaşəyə* gəlim (3, s.92); Kim deyər mən belə bir şir ilə *dəvayə* gəlim (3, s.93); Açmışam *qərnimizin* bağlı qalan yollarını (3, s.124).

Dodaqlanan [o] səsinin dodaqlanmayan [a] səsi ilə əvəzlənməsi cənub ləhcəsinə xas olan fonetik xüsusiyyətlərdəndir. Tərkibində [ov] səs birləşməsi olan sözlər şivələrimizdə həm [av], həm də [ov] şəklində özünü göstərmişdir. M.Ergin Şəhriyarın "Heydərbabaya salam" poemasında *qovzanmaq* feilinin təhlilini verərkən, onun *qovzan* formasının Təbriz şivələri üçün xarakterik olduğunu bildirmişdir (5, s.168). M.Məmmədli isə Təbriz şivələri üçün o>a keçidinin səciyyəvi olduğunu göstərmişdir (4, s.55). Cənubi Azərbaycan şairlərinin, eləcə də Şəhriyarın əsərlərində həm [ov], həm də [av] formasının işlənməsi hər iki halın şivələrdə mövcudluğunu sübuta yetirir. *Avçı* qoyar baş yəhərin qaşına; *Ovçu* fələk *ovlayıb* sürüylə ceyranımı (3, s.82, 99).

Şəhriyarın şeirlərində [a] səsinin [e] səsi ilə əvəzlənməsi hadisəsi ilə bağlı nümunələr vardır. Çəkibdir ipliyimi, qırıbdı *qeytanımı;* Sən də *qeytər*, göylərə sal bu səsi (3, s.98, 48).

[E] səsinin [ö] səsinə keçməsi də Təbriz şivələrinə xas xüsusiyyətdir. Şəhriyarın "Heydərbabaya salam" poemasında e>ö səs keçidinə aid nümunələr görmək mümkündür. Şal istədim məndə *övdə* ağladım; Təndir yanup tüsti *övi* basardı (5, s.6, 9).

Əsasən cənub şivələrimizə xas olan e>ə səs keçidinə az da olsa yazılı mənbələrdə rast gəlinir. Balam, durun, qoyaq gedək *əmmizə* (3, s.44). ə>e keçidi baş vermiş sözlər görmək də mümkündür. Xəmir tağarda neçindir – *qeyiş!* Şatır nə şatır! (3, s.110)

Təbriz şivələrində rast gəlinən və fərqləndirici fonetik xüsusiyyətlərdən biri də dodaqlanmayan saitlərin dodaqlanan saitlərə (labiallaşma) və dodaqlanan saitlərin dodaqlanmayan

saitlərə (delabiallaşma) keçməsidir ki, bu xüsusiyyətin nümunələrinə də Şəhriyar şeirlərində rast gəlmək mümkündür.

[I] səsinin labiallaşması: Ürək deyir zaman keçmə *amandur*; Küsmüşdux, allah qoysa, *barışdux;* Gəldim sənin *başun* qoydum diz üstə; Öz *haqquvu* qurd ağzından qaparsan. (3, s.50, 80, 83)

[İ] səsinin labiallaşması: Salam olsun *şövkətüzə, elüzə;* Mənim də bir adım *gəlsün dilüzə;* Qayıdıb gələndə baxdım, *yerüvü* yığışdırıblar; *Ərün* səndən bir zövq alırmı, ya yox? (3, s.37, 115, 108)

Söz sonunda dodaqlanma hadisəsinin itməsi olan delabiallaşma hadisəsinə aid nümunələr də mövcuddur. Bir vaxt olur bu sözlər də *sovuşi,* Bəşər hamı qardaş kimi *qovuşi,* Onda biz də qalxızarıq *çovuşi (3, s.77).*

Dialekt və şivələrimizdə ahəng qanununun pozulması hallarına çox rast gəlmək mümkündür. M.Şirəliyev ahəngin gözlənilməsinə görə dialektlərimizi 3 qrupa bölmüşdür. O, Təbriz dialektini "ahəng qanununu bir çox hallarda pozan dialekt və şivələr" qrupuna daxil etmişdir (6, s.55). "Kitabi-Dədə Qorqud" dastanının dilində, həmçinin XIII-XVI əsr yazılı abidələrinin dilində rast gəlinən incə saitlər ahənginin pozulması hadisəsi Şəhriyar yaradıcılığında da qarşılaşdığımız hadisələrdəndir. Çox şükrü var, yenə *gəldux, görüşdux; Küsmüşdux,* allah qoysa, barışdux (3, s.50); Yük-yapını hey çatırdıq ki, *gedax (3, s.53).*

Şivələrdə səs uzanması hadisəsi daha çox samit səslərin düşməsi nəticəsində baş verir. [İ] səsinin uzanması daha çox köklə şəkilçi arasında [y,n,r ] samitlərinin düşməsi ilə əlaqədar olaraq işlənir. *Bir-birizdən* ayrılmayın amandı; Qazamat istidi yata *bilmisən,* Analar beşiyin sata *bilmisən,* Öz ata yurdunu ata *bilmisən; Bilisən* nə istərəm mən? (3, s.47, 90, 117)

[O] saitinin uzanması həm səsdüşümü, həm də "nə" və "ol" sözlərinin birləşməsi nəticəsində yaranır. Bizdən *sora* sənin başın sağ olsun; Heç bilmədim gözəllərim *necoldu;* Fərq eyləməz, hər *nolacaq,* qoy olsun; Bu səfər *nolubdu,* mənsiz; Xan nənə, canım, *nolaydı*; *Noleydi* bir dağılaydın.(3, s.37, 38, 40, 116, 135)

Diftonqlar da dialektləri bir-birindən fərqləndirən xüsusiyyətlərə daxildir. Diftonqlar, əsasən, [v,y,n] samitlərinin düşməsi nəticəsində meydana gəlir. Yaz qabağı gün güneyi *döəndə* (3, s.43).

[R] səsi ilə başlayan sözlərdə səsartımı hadisəsinin şahidi oluruq. *İrza* mənə novruzgülü dərərdi (3, s.42).

Şivələrimizdə söz sonunda cingiltili [q] samiti demək olar ki işlənmir. Elbrus Əzizov [q] samitinin dəyişmə hadisəsinə görə şivələrimizin 2 qrupa bölündüyünü qeyd etmişdir. Şimal-şərq şivələrində [ğ] səsinə, cənub, qərb, şimal-qərb şivələrində isə [x] səsinə üstünlük verildiyini qeyd edir (1, s.82). Gədiklərin *sazax* çalan sazları; Ömrü qovam, bəlkə burda *haxlıyam;* Novruzəli qaçaq keçib *qoçaxdı;* Uşaqların qıç-paçası *çılpaxdı; Qulaxlar* şaxlanıb seçə gərəkdi; Xəlqə *qonax* gəli gözü sürməli.(3, s.38, 49, 50, 53, 112, 129)

Qərb şivələrinin əsas əlamətlərindən olan c>j keçidinə cənubda da rast gəlinir. Bu hadisə Təbriz şivələrində söz ortasında və təkhecalı sözlərin sonunda qeydə alınmışdır. Bala gəldün? Niyə belə *gej* gəldün? Səbrim sənnən güləşdi, sən *güj* gəldün (5, s.17).

Söz əvvəli mövqedə [d] samitinin [t] kar qarşılığı ilə əvəzlənməsi də Şəhriyar dilində rast gəlinən hadisədir. El əlindən *dutmax* onun işiydi (5, s.12).

B>p keçidinə aid nümunələr də yazılı abidələrdə öz əksini tapmışdır. Cigərdən ayrılmır bir *pıçaq,* Nəbi, Ay qoçaq Nəbi! (3, s.91)

Samitlərin yer dəyişməsi hadisəsi - Neyləsin *çıplaq* idi, oğru da yorğan ilə getdi (3, s.137).

Şimal-şərq şivələrində geniş yayılmış y>g samit dəyişməsinə Təbriz şivələrində də rast gəlinir. *Cigərdən* ayrılmır bir pıçaq, Nəbi; Qəbir *genə* qəfəs oldu; Dedim, *genə* durum yazım (3, s.91 88).

Əsasən, təkhecalı sözlərin sonunda işlənən [ç] səsinin [ş] səsi ilə əvəzlənməsi Təbriz şivələrində qarşılaşılan hadisələrdəndir. Qulamgilə *qaşdı*, şalı salladım; Mən buzovu qucaqlardım *qaşmasın;* Eşqim ayaqyalın *qaşdı;* Kət gözümdə elə bil titrədi, dam-daş *uşdu;* Nə qoşaymış, quşumun

qonmasilə *uşması* (3, *s.41, 51, 86, 105, 119).*

Assimilyasiya hadisəsi - Davaların şuxluğınan *qatallar;* Əti yeyib, başı atıb *yatallar;* Gahdan da bir axundu *allatmışam;* Qışı çıxardıb uşaqlar, *qaçılla* çay-çəmənə; Heydərbaba yolum *sənnən* kəc oldu; Kənddə bizi *döyüllə,* bir havar yox; Elə bil bir də *silkəlillə* məni (3, s.46, 52, 102, 38, 129, 113).

Səs düşümü hadisəsi - Haçan səni görə *billəm;* Qol boynuva hörə *billəm; Səlqəli* bal pətək saxlayanındı; Gör mən nə hal *ollam* bu qızıl gülləri tapsam; Yağlı desəm quru ağzın *islanı;* Sondan durub *üs* donumu geyərdim; Həftxanlardan aşırsan, *alısan* div yarasın; Nəbi tək bizdə *qılıc* Rüstəmi çoxlar var imiş; Məni *götdü* ayrı kəndə; Yaramın közməsin *qopatmışdı;* Cəlilə *əmqızı* da qardaşının lap tayıdır (3, s.71, 88, 94, 53, 40, 125, 115, 97).

Bəzi sözlərdə samit səslərin qoşalaşması da baş verir. Balam, durun, qoyaq gedək *əmmizə;* Tək canım *hammuza* qurban; İstədik qanla yuyaq ölkəmizin *ləkkəsin* amma; Ölkəmiz xalis özü *ləkkə* olub qan ilə getdi (3, s.44, 88, 137).

Fonetik fərqlər dialekt və şivələrimizi bir-birindən, həmçinin ədəbi dildən ayıran, sözlərin ilkin formasının müəyyənləşdirilməsinə kömək edən əsas əlamətlər sırasındadır. Yazıçı və şairlərin qələmində dialektik fərqlərin öz əksini tapması bölgələr üzrə fərqliliklərin aşkarlanmasına kömək edən ünsürlərdəndir.

## ƏDƏBİYYAT


1. Əzizov.E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: 2016, 348 səh.
2. Hacıyeva Q.Ə. Naxçıvan dialekt və şivələrinin Güney Azərbaycan və Şərqi Anadolu dialektləri ilə müqayisəli tədqiqi. Bakı: 2018
3.Məhəmmədhüseyn.Ş. Seçilmiş əsərləri. Bakı: 2005, 480 səh.
4. Məmmədli M. Azərbaycan dialektologiyası. Bakı: 2019, 352 səh.
5. Muharrem Ergin. Azeri türkcesi. İstanbul: 1971, 255 səh.
6. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: 2008, 416 səh.

**ÜLVİYYƏ ASLANOVA**
*Azərbaycan dili və ədəbiyyatının*
*tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*aslanowaulya@gmail.com*

# İBTİDAİ SİNİFLƏRDƏ SAVAD TƏLİMİ DÖVRÜNDƏ ŞAGİRDLƏRİN NİTQİNİN İNKŞAF ETDİRİLMƏSİ İLƏ BAĞLI APARILAN İŞLƏR

İfadəli oxu vasitəsilə şagird və tələbələrin estetik zövqü tərbiyə olunur və onların emosional dərketmə qabiliyyətləri artır. Oxu nitq fəaliyyətinin mühüm növlərindən biri olmaqla avtomatlaşanadək uzun inkişaf yolu keçir. Oxu vərdişi ucadan nitq plnında işlənib, tədricən, özünün inkişaf etmiş mərhələsi olan səssiz oxu fəaliyyətinə çevrilir. Deməli, oxu səsli və səssiz olur. Savad təlimi dövründə ilkin oxu vərdişi ucadan oxumaq şəklində aşılanır. İbtidai siniflərdə ucadan oxumaq texnikasına yiyələnmək təlimin ən mühüm vasitəsi olmaqla oxu vərdişlərinin inkişafı üzrə məşq etməyə imkan verir. Ucadan oxu həm də tələffüz, ümumiyyətlə, nitq inkişafı üzrə məşqdir. Ucadan oxu şagirdlərin fəaliyyətinin daim müəllimin nəzarəti altında saxlanmasına şərait yaradır. Yəhya Kərimov savad təlimi dövründə nitq inkişafı üzrə işdən bəhs edərək yazır: "Savad təlimi dövründə şagirdlər bilirlər ki, nitq cümlələrdən ibarədir. Uşaqlar sözlərin cümlələrə ayrılması, cümlədə sözlərin sayı və ardıcıllığı, nağıletmə prosesində cümlələrlə danışdıqlarına fikir verirlər. Bu dövrdə şagirdlərə şəkil üzrə və ya müəyyən mövzuda cümlə qurmaq vərdişi aşılanır" (2, s.160).

Müasir dövrdə elmi biliklərin qazanılması üçün imkanlar genişdir. Elmi-texniki tərəqqinin yüksək səviyyədə inkişafı iqtisadiyyatla yanaşı öz əksini hərtərəfli inkişaf səviyyəsində, dərin dünyagörüşdə və dünyəvi biliklərdə tapır. Məlum həqiqətdir ki, elmin aparıcı sahələri içərisində nitq inkişafının özünəməxsus, əvəzolunmaz yeri vardır. Nitq inkişafının ilkin mərhələsinin əsası I sinifdə əlifba təlimindən sonrakı dövrə aiddir ki,uşaqlar artıq nitq inkişafı ilə bağlı müəyyən elmi təsəvvürlərə yiyələnirlər. Ümumiyyətlə, uşaqların ümumi-psixi inkişafında nitqin rolu böyükdür. İbtidai siniflərdə nitqin inkişafı əsas etibarilə üç mərhələdə gedir:

1) şagirdin söz ehtiyatının tədricən zənginləşməsi
2) nitqin fonetik cəhətdən inkişaf etdirilməsi
3) nitqin qrammatik baxımdan təkmilləşdirilməsi

Nitqin inkişafı, ifadəli danışıq bilikləri mənimsəmək, insanlarla düzgün ünsiyyətə girmək üçün xüsusi əhəmiyyət kəsb edir. Nitqin inkişaf etdirilməsi hər şeydən əvvəl səsləri və sözləri düzgün tələffüz etmək bacarığını aşılamaqdan başlayır. Bu qaydalara mükəmməl yiyələnmək vərdişləri əlifba təlimi dövründə aparılır.İfadəli oxu texnikasini bilən, heca və sözlərin tələffüz və yazılışına dərindən yiyələn şagirdlərin nitqi mükəmməl olur. Professor Nadir Abdullayev nitqdə tələffüzün xüsusi rolundan bəhs edərək edərək yazır ki, səslərin, sözlərin aydın diksiya ilə tələffüzü, söz və qrammatik formaların orfoepk qaydalar əsasında tələffüzü, bir qədər ucadan, aramla danışmaq və oxumaq, intonasiya çalarlarından daha bacarıqla, məzmuna uyğun şəkildə istifadə edə bilmək ifadəli oxunun müvəffəqiyyətlə həyata keçməsini təmin edir (1, s. 56).

Səs və sözləri düzgün ifadə etmədikdə danışıq qrammatik cəhətdən nə qədər mükəmməl olsa belə, sözlər aydın olmayacaqdır. Uşaqların nitqinin inkişafı sahəsində aparılan mühüm işlərdən biri onların tələffüz ediləcək səsləri düzgün eşidə bilməsidir.Uşaq bir-birinə yaxın olan səsləri,sözləri fərqləndirməli, aydın qavramağı bacarmalıdır. Uşaqlarda nitqin inkişaf etdirilməsində söz ehtiyatının zəngin olması xüsusi əhəmiyyətə malikdir.Uşağın söz ehtiyatı az olduqda o, fikrini ifadə etməkdə çətinlik çəkir, hətta demək istədiklərini hərəkətləri ilə bildirir.

Uşaqların söz ehtiyatı zənginləşdirilməsində əlifba təlimindən sonrakı dövrə xas olan müxtəlif məzmunlu atalar sözləri və məsəllər, tapmacalar, yanıltmaclar, şeirlər toplusunun mühüm əhəmiyyəti vardır. Uşaqlara dinləməyi və eşitməyi, baxmağı və görməyi öyrətmək son dərəcə vacibdir. Şagirdlər savad təliminə hazırlıq dövründə düzgün qulaq asmaq, müəllimin və yoldaşlarının dediklərini düzgün

eşitmək, müəllimin dediklərinə əməl etmək, eşitdiklərini yadda saxlayıb, yerinə yetirmək bacarığı tərbiyə edilməlidir (3, s.196).

Əlifba təlimindən sonrakı dövrdə nitq inkişafı ilə bağlı oxu materiallarını müəyyən qruplara bölmək olar:

1) şifahi xalq ədəbiyyatı materialları
2) Azərbaycan klassiklərinin yaradıcı nümunələri
3) bədii və elmi-publisistik mətnlərin verilməsi

Nitq inkişafı sahəsində aparılan işlər mütəşəkkil olarsa,verilən tələblərə uyğun təşkil edilərsə bu da öz səmərəsini nitqin inkişafında gösrətərər. Şagirdlərin elmi biliklərə dərindən bələd olmasına və dünyagörüşlərinin müəyyən dərəcədə ardıcıl inkişafına şərait yaradar. Əlifba təlimindən sonrakı dövrdə nitq inkişafı ilə bağlı aparılan işlər əsas etibarilə oxu dərslərində aparılır. Oxu dərslərinin şagirdlərin nitqinin və təfəkkürünün inkişafında müstəsna əhəmiyyəti vardır. Dilçi Mehriban Quliyeva şagirdlərin oxu dərslərində bəzən yaxşı oxuyan şagirdin yorulduqda diqqəti mətn üzərində toplaya bilməməsinin aradan qaldırılması məsələsinə diqqəti çəkərək yazır: "Oxu dərslərində müxtəlif cəhətlərdən nöqsanlı olan şagirdlər müəllimin daimi nəzarətində olmalıdır. Onlara fərdi yanaşmaq, məktəbdə loqopedin köməyinə müraciət etmək və evdə müstəqil işləmələrinə istiqamət vermək lazımdır" (4, s.73). Oxu təliminin optimallaşdırılması, təlimin tərbiyələndirici və inкişafetdirici effeкtinin təmin edilməsi o vaxt mümкündür кi, müəllim yeni biliкləri şərh etməyin, şagirdlərin fəaliyyətini təşкil etməyin metodlarını bilsin, həmin metod və priyomları düzgün seçməyi, onlardan səmərəli istifadə etməyi bacarsın. əsas məqsədi tələbələrə oxu sənətinin nəzəri əsaslarını öyrətmək, tələbələrin bədii-estetik zövqünün inkişafına təsir göstərmək, onların bədii qiraət vıərdişlərini formalaşdırmaq, nitq mədəniyyətini inkişaf etdirmək, natiqlik sənətinin sirrlərinə yiyələndirmək və müstəqil Azərbaycanımızın hərtərəfli inkişaf etmiş layiqli vətəndaşına çevirməkdən ibarətdir.

## ƏDƏBİYYAT


1. Abdullayev Nadir. Nitq mədəniyyətinin əsasları. Bakı: "Elm və təhsil", 2013, səh. 288
2. Kərimov Yəhya. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı: Maarif, 1996, səh. 475
3. N.B.Cəfərova. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. (Dərslik). Bakı: 2016, ADPU-nəş. 403 s.
4. Quliyeva Mehriban. Kiçik yaşlı məktəblilərin nitq mədəniyyəti və nitq inkişafı məsələləri. (Metodik vəsait), Bakı: 2014, səh. 87

**ALİNA BABAYEVA**
*Azərbaycan dili və ədəbiyyatının*
*tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*alina.babayeva.555.@gmail.com*

# MÜASİR TƏHSİLİN İNKİŞAFINDA TƏLİM METODLARINDAN İSTİFADƏ

*Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik,*
*elm hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir.*
**İLHAM ƏLİYEV**
*Azərbaycan Respublikasının prezidenti*

Cəmiyyətin tərəqqisinin vacib amillərindən biri elm və təhsildir. Mükəmməl təhsil sisteminə malik olmaq dövlətin tərəqqisi və müstəqilliyinin mühüm şərtidir.Müstəqilliyin çətin yolları ilə irəliləyən Azərbaycan bütün sahələrdə olduğu kimi təhsil sahəsində də müəyyən qədər dəyişiklik və yeniliklər etmişdir. Respublikamızda yeni tipli məktəblərin açılması, müasir avadanlıqlarla təhciz olunmuş sinif otaqlarının yaradılması, çoxsaylı kadrların yetişdirilməsi istiqamətində görülən işlər buna gözəl nümunədir.Bütün bunların nəticəsidir ki, Azərbaycanda təhsilin inkişafı geniş vüsət almış, təhsil yeni inkişaf pilləsinə qədəm qoymuşdur.

Təhsil qanununda da deyildiyi kimi "Azərbaycan təhsili öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə, insan hüquqları və azadlıqlarına hörmət edən, müstəqil düşünən, tədqiqatçı və yaradıcı şəxsiyyət yetişdirməlidir". Məhz elə buna görə müasir təhsil sistemi bəşəri dəyərləri qoruyan, inkişaf etdirən, geniş dünya görüşünə malik, yenilikləri qəbul edib onunla ayaqlaşan, müasir təfəkkürlü, rəqabət qabiliyyətli kadrlar hazırlamalıdır. Dünya təhsil sisteminə nəzər saldıqda görürük ki, bu bacarıqlara yiyələnməyin ilk addımları ailədən və bağçadan başlayır, məktəbdə davam etdirilir, ali təhsil müəssisələrində isə daha da genişləndirilir.

Qeyd etdiyimiz kimi ana dilinə yiyələnmə prosesinin təməli ailədə qoyulur. Uşaqlar bağçaya gələnə qədər ana dilinin köməyi ilə ətrafı dərk edib özlərini ifadə edə bilirlər. Dilin uğurlu inkişafı üçün ilk öncə uşaqlarla söhbət etmək, dili sevdirmək, sual vermək, problemli vəziyyət yaratmaq lazımdır. Verilən suallar düşündürücü olmaqla yanaşı həm də uşağı araşdırmağa sövq etməlidir. Bağçada müəllimlərin sualları uşaqları düşündürür, oynadıqları oyunlarla təfəkkürlərini inkişaf etdirir, şeirlər, tapmacalar, yanıltmaclar əzbərləyərək və həmyaşıdları ilə söhbətlər apararaq lüğət ehtiyyatlarını lazımı qədər zənginləşdirirlər. Bütün bunlar da uşaqları ümumi təhsilin birinci mərhələsi olan ibtidai təhsilə hazırlayır.

Təhsil insan münasibətlərindən bəhs edən prosesdir.Bu prosesin əsasını müəllim və şagird arasında düzgün qurulmuş ünsiyyət təşkil edir. Bəs düzgün ünsiyyət necə qurula bilər? İlk öncə müəllim şagird arasındakı münasibət səmimi və xoşrəftar olmalıdır. Bunun üçün müəllim şagirdləri sevməli və onları olduğu kimi qəbul etməyi bacarmalıdır. Pozitiv müəllim şagird münasibətinin əsas şərti səmimiyyətdir. Bu münasibət qarşılıqlı dəyər hörmət və diqqətdən yaranır. Pozitiv münasibət məktəbin akademik missiyasını uğurla yerinə yetirməyə kömək edir. Belə münasibət müəllimdən davranış sərhədlərini müəyyən etməyi tələb edir. Yəni müəllim müəyyən normativlər qoymalıdır ki, şagird yaranan səmimiyyətin məsuliyyətini dərk edərək ondan artıq istifadə edib nə özünə, nə də qarşıdakı insana ziyan versin. İbtidai təhsil pilləsində əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının hüsnxət qaydasının,düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyyatının tədricən zənginləşdirilməsi, ədəbi qaydaların və ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi- mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur. Ana dili üzrə aparılan bütün işlər təlim vəzifələrinin yerinə yetirilməsinə xidmət edir. Şagirdlər bu fənnin vasitəsilə milli mədəniyyət nümunəsi kimi ana dilini öyrənir. Eyni zamanda onlarda bu dildən istifadə edərək öyrənəcəkləri digər fənlərin daha yaxşı mənimsəmələri zəruriyyəti yaranır.

Hər bir müəllim ana dilini tədris edərkən müxtəlif metod və piomlardan istifadə edir. İstifadə

edilən metod və ya priomlar nə qədər düzgün olarsa, dərs keyfiyyəti də bir o qədər qənaətbəxş olar.

Professor Həsən Baliyev tədris metodlarını seçərək aşağıdakı şərtləri məqsədəuyğun hesab edir:

1.təlim metodlarının şərtlərinə uyğunluq

2.dərsin qarşısına qoyulmuş konkret məqsədə müvafiqlik

3.şagirdlərin inkişaf səviyyəsinə uyğunluq

4.müəllimin öz fərdi xüsusiyyətlərinin nəzərə alınması

5.şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması

6.dərs materialının məzmunu

7. metod priom və əyani vasitələrdən istifadə şəraiti

8.təlim metodlarından istifadənin yeri və zamanı(2.98)

Qeyd olunanlardan belə nəticəyə gəlmək olur ki, müasir metodlardan düzgün istifadə tədris sahəsində həm ənənəvi, həm də modern təlim texnologiyalarının təcrübəsindən istifadə etmək vacibliyini artırır. Biz köhnə təhsil sisteminin yeni yaranan texnologiyalar və üsullardan aşağı səviyyədə olduğunu söyləmək fikrindən uzağıq, lakin müasir texnologiyalar demokratik cəmiyyətin ruhuna uyğun gəldiyinə görə onların qaçınılmaz olduğunu dərk edirik. Texnologiya dövründə informasiyanın çoxluğundan irəli gələn səbəblərdən müasir dərsin keçirilməsi qaydasında da xeyli dəyişikliklər həyata keçirilir. Bu səbəbdən də biz dərsləri müasir tələblərə, texnologiya əsrinə uyğun olaraq qurmağa başlamışıq..

Müasir və fəal dərs necə qurulmalıdır?

İlk öncə müasir dərs bir çox tələblərə cavab verməlidir.Bu tələblərdən birincisi dərsin mərhələlərinin düzgün qurulmasıdır.Biz bilirik ki, fəal dərsin ilk mərhələsi motivasiya mərhələsidir. Motivasiya şagirdlərin idrak fəallığına təkan verən bir prosesdir.Buna görə də dərsin fəallığı motivasiyadan başlanır. Motivasiya gündəlik həyatla əlaqəli olduqda daha effektli və cəlbedici olur. Bundan başqa, əyani vasitələr, açıq suallar, rəsm, foto, şəkil, simvol, tapmaca, rəvayətdən də istifadə edilə bilər.

Tədris prosesində öyrənilən mövzuların uzun müddətli yadda qalmasi üçün müəllim düzgün qurulmuş motivasiya ilə yanaşı, həm də təlimin iş formalarından məqsədə uyğun şəkildə istifadə edir.

İş formaları dedikdə (kollektivlə iş), kiçik qruplarla, fərdi və cütlərlə iş nəzərdə tutulur. Kiçik qruplarla və cütlərlə iş fəal təlimin formaları hesab edilir.

Fəal təlimin iş formalarından istifadə etməklə müəllim şagirdlərin yaddaşını təkcə yeni biliklərlə zənginləşdirmir, həm də təfəkkürlərinin inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin formalaşmasına təkan verir. Azərbaycan dilinin nəzəri və praktik cəhətdən öyrənilməsini dilçi alimlərimiz müxtəlif metodlarla izah edirlər. A.Abdullayev dilin həm nəzəri, həm də praktik daha sürətli öyrənilməsi üçün aşağıdakı amilləri əsas götürür:

1.müəllimin sözü; 2.müəllimin sualları; 3.qrammatik tərif və qaydaları şagirdlərin mənimsəmələri üzərində iş; 4.müsahibə; 5. Şagirdlərin müstəqil işləri üzərində rəhbərlik; 6. qrammatik təhlil; 7. şagirdlərin biliyinin yoxlanılması(1.551-52)

Dilçi alimimizin də dediyi kimi biz şagirdlərimizi düzgün istiqamətləndirməli, bir şagird kimi yox bir tədqiqatçı kimi yetişdirməliyik. Müəllimin şagirdə bəxş edəcəyi ən böyük xəzinə onlarda oxumaq,araşdırmaq həvəsi yaratmaqdır. Biz elə etməliyik ki, şagirdlər bizim tətbiq etdiyimiz metodikanı sevməklə yanaşı,bizim ixtisasımızı da sevə-sevə mənimsəsinlər. Bütün bunları isə yalnız peşəsini özü qədər sevən, cəmiyyətdə özünə layiqli yer tutan, öz vəzifəsinin məsuliyyətini, çətinliyini, müqəddəsliyini dərk edən, gələcək nəsillərin cavabdehliyini öz çiyinləri üzərində daşımağı bacaran, bu yolda heç bir çətinlikdən qorxmayan, zəhməti , fədakarlığı, hesabına özünə inanan müəllimlər bacara bilər.

Məqalədə Azərbaycan dili dərslərində effektli şagird müəllim münasibətləri, dərslərin fəal, aktiv keçirilməsi üçün lazım olan məsələlər, yəni fəal təlimin iş formaları, müasir dərsin qurulma yolları və s kimi məqamlar öz əksini tapmışdır.

## ƏDƏBİYYAT

1.Professor A.Abdullayev. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Azərtədrisnəşr, Bakı: 1964.

2.H. Baliyev .Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif,1988

3. e-qanun.az

**ÜLVİYYƏ MƏHƏRRƏMOVA**
*Azərbaycan dili*
*Naxçıvan Dövlət Universiteti*
*cavomaho1@gmail.com*

# OSMANLI QAYNAQLARINDA ADI KEÇƏN ƏFŞAR ETNONİMİ BƏZİ TƏDQİQATLARDA

Son illərdə Azərbaycanda onomastik tədqiqatlar nəzərə çarpacaq dərəcədə genişlənmişdir. Onomastik tadqiqatlara marağın artmasının ən başlıca səbəblərindən biri hər bir xalqin təşəkkül tarixi, dili və məskunlaşdığı coğrafi arealın müəyyənləşdirilməsidir. Belə ki, elmi tədqiqatlar bir daha sübut edir ki, onomastik vahidlər xalqın ən qədim tarixi, etnoqrafiyası, dili və s. problemlərinin öyrənilməsi üçün ən tutarlı qaynaqlardandır.

Bu baxımdan tarixən azərbaycanlıların etnogenezində fəal rol oynamış tayfalar və onların tarixi mövcudluğunu təsdiq edən müxtəlif növ onomastik vahidlərin sırasında etnonimlarin xüsusi rolu var.

Etnonimlər eyni zamanda digər etnonimik onomastik vahidlərin tarixi tədqiqi bu günədək öyrənilməyən Azərbaycan türklərinin etnogenetik yapıçını müəyyənləşdirmək, onların linqvistik və ekstralinqvistik təhlillərini vermək, bunlarla yanaşı, dilçilik baxımından maraqlı olan onomastik vahidlərdə əks olunan bir sıra leksik semantik leksik qrammatik və qrammatik qanunauyğunluqları üzə çıxarmaq səciyyəsi daşıyır. Naxçıvan, ümumilikdə Azərbaycanın onomastik mənzərəsinin böyük bir qismini etnonimlərdən törənmiş toponimlər təşkil edir. Tədqiqatlar göstərir ki, bu ərazidə ilkin məskunlaşan türk tayfalarının adları tarixi proseslər nətijəsində bir çox coğrafi obyektlərin ünvanına çevrilmişdir.

Azərbaycan dili lüğət tərkibinin mühüm bir qatını təşkil edən etnonimlar dilin lüğət tərkibindəki digər söz qruplarından fərqli olaraq daha qadim fonetik,qrammatik, leksik – semantik xüsusiyyətlərə malikdir. Xalqın ictimai-siyasi həyatı ila sıx bağlı olan etnonimlər müəyyən tarixi mərhələlərin məhsulu olduğundan qədim tarixi qaynaqlara müraciət olunması zəruridir.

A.Qurbanovun qeyd etdiyi kimi tayfa, qəbilə, xalq və millətlər haqqında öz sözünü birinci tarix elmi deyir, eyni zamanda tayfa, qəbilə, xalq və millət adlarını da yaşadan tarix özüdür. (A.Qurbanov. Müasir Azərbaycan dilinin onomologiyası, Bakı, Maarif, 1988. Səh. 299.)

Əfşarlar haqqında ilkin məlumatlara əsasan Mahmud Kaşğalının «Divani-lügət-it-Türk», Rəşid-əd-Dinin, yazıçı oğlu Əlinin və Əbül Qazi xanın əsərlərində rast gilinir. Əfşarların dili asasən oğuz qrupu dilinə məxsusdur. F.Zeynalov afşarların VII IX əsrlərdə iç ve dış oğuzların etnogenezində mühüm rol oynadıqlarını qeyd etmişdir. (Zeynalov F.R. O əzıke afşarov. Türk dillərinin tarixi problemləri. Bakı,ADU, 1986, səh. 3).

Bəzi qaynaqlarda türkmən elinə mənsub əfşar soylarının moğol istilasından sonra Azərbaycana köç etdikləri qeyd olunur. Verilən tarixi məlumatlara əsasən əfşarların bir qisminin İran sərhədlərini qorumaq məqsədilə Şah İsmayıl tərəfindən Xorasana yerləşdirildiyi qeyd olunur. Iran Şahi Imamqulu Nadir şah da bu qabiladan hesab olunur.

R.Eyvazova XVIII əsrdə İranda əfşarların bir neçə tayfaya – qırıqlı, emirli, güneşli, arallı, papli-bölündüyünü qeyd edir. (R.Eyvazova Əfqanıstanda türk mənşəli toponimlər, Bakı, 1995, sah. 157).

Ə.Cəfəroğlu Əfşar sözünün «toplayan, toplayıjı anlamını verdiyini ehtimal edirsə, (F.Rəşiddədinə görə «avşar» «çevik və ovçuluğu Sevən anlamında işlənir.

Ə.Z.Abdullayev Azərbaycanlıların etnogenezində mühüm rol oynamış əfşar tayfalarının Iran, Türkiyə və Əfqanıstanda yaşadığını qeyd edir. (Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri. Bakı, 1992, sah,103).

Lakin araşdırmalar göstərir ki, müasir dövrlərdə əfşarlar daha geniş ərazilərdə Şimali və Cənubi Azərbaycan, (İran). Türkiyə (xüsusilə Anadolu yörasi), Irak və Əfqanıstanda

yaşamaqdadırlar. Bu ərazilərdə əfşarların adını yaşadan yüzlərlə toponim bu tarixi-faktı təsdiqləyir. Masalan: Əfşar çay,Əfşar oba, Qaleyi – Əfşar, Bucaq-Əfşar.

## ƏDƏBİYYAT

1. Qurbanov A. Müasir Azərbaycan dilinin onomalogiyası. Bakı, Maarif,1988
2. Naxçıvan sancağının müfəssəl dəftəri, AMEA Şi, Bakı, Elm, 2001
3. Fahrittin Kırzıoğlu. Osmanlıların Kafkas – Ellerini fethi (1451-1590). TTKB, Ankara 1993
4. Ali Sinan. Bilgili Osmanlı Iran və Azerbaycanı 1. 16, ve 18. yüzyıllar soysal ve ekonomik tarih. Erzurum, Bazkır yayınları 2004
5. Abdullah Saydam. Kırım ve Kafkas Göçleri (1856-1876). Ankara 1997,
6. Əhmədov T.M.Azərbaycan toponimikasının əsasları. Bakı BDU, 1991
7. İrəvan əyalətinin icmal daftori. Bakı, Elm, 1996.
8. Quliyev Ə.A. Qadim Türk onomastikası,Bakı, ADPI 2007)
9. Zeynalov F.R. O azike afşarov. «Türk dillərinin tarixi dialektologiyası Problemlaris Bakı, ADU, 1986
10.Budaqov B. Turk uluslarının yer yaddaşı. Bakı, elm, 1994
11.Kasgarh Mahmud. Divani lugetit türk.Çeviren Besim Atalay, Istanbul 1992
12.Bağırov A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı. Elm. 2002

## DİLÇİLİK

**AYSEL ƏSƏDOVA**
*İngilis dili*
*Naxçıvan Dövlət Universiteti*
*ayselesedova111@gmail.com*

# THE MENTAL PROCESS IN LEARNING LANGUAGES: BENEFITS OF BILINGUALISM

Psycholinguistics has provided numerous theories that explain how a person acquires a language, produces, and perceives both spoken and written language. Psycholinguistic approach views learning as a cognitive individual process happening within the individual and then moves to the social dimension.

Language perception refers to listening and reading, while the language production refers to speaking and writing. Listening, reading, speaking, and writing are called as the four of language skills. Specifically, psycholinguistics helps to understand the difficulties of these four skills both intrinsic difficulties and extrinsic difficulties. Psycholinguistics also helps to explain the errors students do in the language learning. Moreover, psycholinguistics also defines some kinds of brain disorders that affect language learning performance such as aphasia which must be treated properly. Psycholinguistics mainly helps teachers to consider the use of appropriate method to teach that four language skills.

Psychology is the study of mind and behavior; linguistics is the study of language. So, in general, psycholinguistics can be defined as the study of mind and language. It is concerned with the relationship between the human mind and the language as it examines the processes that occur in brain while producing and perceiving language.

All human beings are unique because each of us has a unique brain. The experiences and learning that we have, cause physical and chemical changes in the brain. Since no two humans have had identical experiences, everyone’s brain is different from that of every other person in the world (4, p.211).

The operations performed by the brain can be divided into three levels: the primary, emotional, and rational. The primary mind enables humans to perform needed functions at a subconscious level while freeing the brain to concentrate on other processes that require conscious attention. The emotional mind helps to feel as well as to think. The rational mind processes ideas and produces language.

The basis for all physical acts resides in the brain. Even the simplest act, such as taking a step requires the support of a complex circulation of neurons performing in concert.

The brain makes language learning and language use possible. Only human beings have a brain capable of acquiring from insufficient data the competence needed to generate an infinite variety of language whenever they need to communicate. The brain not only makes it possible for humans to learn language; it also allows them to use their language symbolically.

The brain has two hemispheres. Physically, the two hemispheres are not alike. The left hemisphere is larger than the right.

In most people language is centered in the left hemisphere. Research proves that 92 percent of right-handed people and 69 percent of left-handed people have language in the left hemisphere. The right hemisphere evidently has the capacity to comprehend some language and to respond through the left hand, although it cannot produce language. In essence, the right hemisphere is linguistically mute. The brain waves of the two hemispheres are different both during the reception and production of language, which indicates that different types of mental activity are occurring in the two hemispheres.

The brain contains two types of language areas: sensory and motor. The sensory cortex receives language and interprets it. This language function is centered in Wernicke's area in the posterior portion of the brain. The motor cortex produces language.

Between the ages of 0-3, the brains of children are extraordinarily suited to learn a second language as the brain is in its most flexible stage. In fact, bilingually exposed newborns excelled in finding a switch in language as early as 6 months old. They can learn a second language as easy as they learned to walk and learn their native language. According to the University of Washington News, the U.S. census shows that 27 per cent of children under the age of 6 are learning a language other than English. Learning a second language does not negatively impact the child's native language.

As grown-ups, we need to consider linguistic grammar rules and practice, but children absorb sounds, structures, sound patterns. Up until the age of 8, young learners' advantage from flexible ear and speech muscles that can distinguish differences between the sounds of a second language.

A bilingual speaker maybe someone with different levels of proficiency in the two languages, using the two languages in different contexts or learning a new language due to educational requirements, immigration, or other business and life demands. By this definition, a bilingual individual is not only necessarily someone who has acquired both languages from birth, or early in life, but also one who learns a second language (L2) later in life. (1, p.242–275)

While a balanced bilingual has near equal abilities across the board in two languages, most bilinguals around the world know and use their languages to changing extents. And depending on their situation and the way they acquired a second language, they will be classified into three general types: compound bilingual, coordinate bilingual, subordinate bilingual. As an example, let's take Aisha, whose family immigrates to the US from Azerbaijan when she's one year old. As a compound bilingual Aisha improves two linguistic codes at the same time with a single set of concepts, learning both English and Azerbaijani as she begins to prepare the world around her. Her brother, on the opposite hand, may be a coordinated bilingual working with two sets of concepts, learning English at school, while continuing to speak Azerbaijani with family and friends. Finally, Aisha‘s parents are likely to be subordinate bilinguals who learn a secondary language by fileting it through their primary language. Because every type of bilingual people can become completely talented in a language regardless of accent or pronunciation. The difference may not be apparent to a casual observer. But recent brain imaging technology has given neurolinguistics a glimpse into how specific aspects of language learning affect the bilingual brain. It is well known that the brain's left hemisphere is more dominant and analytical in logical processes while the right hemisphere is more active in emotional and social ones.

The fact that language involves both types of functions while lateralization develops progressively with age, has brought to the critical period hypothesis. According to this theory children learn language more easily. Because the plasticity of their developing brains lets them use both hemispheres in language acquisition, while in most adults, language is lateralized to one hemisphere, usually left. So learning a language in childhood may give you a more complete understanding of its social and emotional contexts. Recent research showed that individuals who learned a second language in adulthood show less emotional bias and a more rationalistic approach when challenging within the second language that in their native one. But when you acquire other languages, being multilingual gives your brain some advantages. A number of these are even visible, such as high density of the gray matter that contains most of your brain's neurons and synapses, and more activity in certain regions when engaging in a second language.

Understanding more than one language makes it easier to navigate the world and interact with other people. But it is the cognitive effects of language acquisition what it does to the brain that is truly extraordinary. Learning how to think and communicate in another language gives our brains a powerful cognitive workout. There are a few areas related to language acquisition and storage. We have Broca's area, and it is responsible for speech production and articulation. And also, Wernicke's

area in the left temporal lobe, associated with language development and comprehension. Bilingual brains are more developed in areas that organize process speech the motor cortex which controls the lips and mouth. The Wernicke's area where the brain organizes language for active speech the Broca's area where language sounds are processed and the auditory cortex where auditory stimuli are received.

Research shows that bilingual students enjoy better academic outcomes in the classroom. They demonstrate increased reading comprehension better remembering and find it easier to use logic in 2004 psychologists conducted an experiment. They invited two groups of young people; one monolingual one bilingual to divide a group of objects by shape and colour and found that those who could speak a second language had greater success than those who could not.

But language involves information exchange between both the left and right sides of the brain. And, the way our brains tuck language away is very variable. Research shows that who learn a second language together with their native language, while in adult learners, it is saved in a different area of the brain. The brain might store second languages differently at different points in our lifespans, but the neurological benefits of language remain steady well into adulthood. Studies suggest that the information transfer between the left and right hemispheres, for example, increases the white matter in the corpus callosum, which can make it easier for the various parts of your brain to communicate. People who speak more than one language can also boost their grey matter count when switching between languages, which can improve prefrontal cortex functions, including decision making and concentration. Learning new languages can improve multitasking, problem solving and memory, even when the task at hand has nothing to do with language. The cognitive and neurological benefits of bilingualism also extend into older adulthood. Older bilingual people enjoy improved memory and executive control relative to older monolingual people. That cognitive boost can even help ward off the effects of degenerative diseases like dementia and Alzheimer's. To put it simply, learning a language is mind-bendingly good for you. In a study of more than 200 bilingual and monolingual patients with Alzheimer's disease, bilingual patients reported showing initial symptoms five years later than monolinguals did. Likewise, bilingual patients were diagnosed more than four years later than monolingual patients. (3, p.2)

The main advantage involves what is loosely referred to as executive function. This describes skills that allow you to control, direct and manage your attention, as well as your ability to plan. It also helps you ignore irrelevant information and focus on what is important. Because a bilingual person has mastery of two languages, and the languages are activated automatically and subconsciously, the person is constantly managing the interference of the languages so that she or he does not say the wrong word in the wrong language at the wrong time.

The brain areas responsible for that are also used when you are trying to complete a task while there are distractions. The task could have nothing to do with language; it could be trying to listen to something in a noisy environment or doing some visual task. The muscle memory developed from using two languages also can apply to different skills.

First, we see increases in gray matter volume. The brain is made up of cells called neurons, which each have a cell body and little branching connections called dendrites. Gray matter refers to how many cell bodies and dendrites there are. Bilingual experience makes gray matter denser, so you have more cells. This is an indication of a healthier brain.

Bilingualism also affects white matter, a fatty substance that covers axons, which are the main projections coming out from neurons to connect them to other neurons. White matter allows messages to travel fast and efficiently across networks of nerves and to the brain. Bilingualism promotes the integrity of white matter as you age. It gives you more neurons to play with, and it strengthens or maintains the connections between them so that communication can happen optimally.

The cognitive and neurological benefits of bilingualism extend from early childhood to old age as the brain more efficiently processes information and staves off cognitive decline. The attention and ageing benefits discussed above aren't exclusive to people who were raised bilingual; they are

also seen in people who learn a second language later in life. Bilingual people enjoy advantages: they have enriched cognitive control, it's likely that they have improved metalinguistic awareness, as well as better memory, visual-spatial skills and even creativity. They switch between competing tasks and monitor changes in their environment more easily than monolinguals, as well as display signs of greater creativity and flexibility. If that weren't enough, as we age, being bilingual or multilingual also helps to stave off mental aging and cognitive decline.

Investigators have shown that the bilingual brain can have better attention and task-switching capacities than the monolingual brain, thanks to its developed ability to inhibit one language while using another. The bilingual language-learning advantage may be rooted in the capability to focus on data about the new language while reducing interference from the languages they already know. This ability would allow bilingual people to access newly learned words more easily, leading to larger gains in vocabulary than those experienced by monolingual people who are not as skilled at inhibiting competing information.

The idea of major cognitive benefits to bilingualism could appear intuitive, but it would have surprised earlier experts. Before the 1960s, bilingualism was considered a handicap that slowed a child's development by forcing them to spend an excessive amount of energy distinguishing between languages, a view based largely on flawed studies. And while the latest study did show that reaction times and errors increase for a few bilingual students in cross-language tests, it also showed that the effort and attention needed to switch between languages triggered more activity in, and potentially strengthened, the dorsolateral prefrontal cortex. This is the part of the brain that plays a large role in executive function, problem solving switching between tasks, and focusing while filtering out irrelevant information. So, while bilingualism may not necessarily make you smarter. It does make your brain more healthy, complex, and actively engaged and even if you didn't have the good fortune of learning a second language as a child.

"Bilingualism is an experience that shapes our brain for a lifetime."

## REFERENCES

1. Abutalebi J, Green D. Bilingual language production: the neurocognition of language representation and control. *Journal of Neurolinguistics.* 2007;

2. Neuroanatomical Evidence in Support of the Bilingual Advantage Theory O. A. Olulade, N. I. Jamal, D. S. Koo, C. A. Perfetti, C. LaSasso, G. F. Eden *Cerebral Cortex*, Volume 26, Issue 7, July 2016, Pages 3196–3204

3.The Cognitive Benefits of Being Bilingual' by Victoria Marian and Anthony Shook, 2012.

3. Viorica Marian, Anthony Shook "The Cognitive Benefits of Being Bilingual" Northwestern University,2012

4. Whitetaker, H. (1998) Neurolinguistic Perspectives on Second Language Acquisition. New York:Academic Press, p. 371-403

**AYSUN NOVRUZOVA**
*Naxçıvan Dövlət Universiteti*
*novruzluaysun@gmail.com*

## ABOUT THE REPRESENTATIVES OF BRITISH POETS AND WRITERS OF RENAISSANCE PERIOD

The **English Renaissance** was a cultural and artistic movement in England dating from the late 15th to the early 17th century. The beginning of the English Renaissance is often taken, as a convenience, to be 1485, when the Battle of Bosworth Field ended the Wars of the Roses and inaugurated the Tudor Dynasty. Shakespeare is usually referred to as the Renaissance man due to the contributions he had on the lives of people during this period. All the 16th century Tudor monarchs were highly educated, as was much of the nobility, and Italian literature had a considerable following the sources for many of Shakespeare’s plays.

**William Shakespeare** was an English playwright, poet, and actor, widely regarded as the greatest writer in the English language and the world's greatest dramatist. He is often called England's national poet and the "Bard of Avon" (or simply "the Bard"). His extant works, including collaborations, consist of some 39 plays, 154 sonnets, three long narrative poems, and a few other verses, some of uncertain authorship. His plays have been translated into every major living language and are performed more often than those of any other playwright. They also continue to be studied and reinterpreted.

Shakespeare was born and raised in Stratford-upon-Avon, Warwickshire. At the age of 18, he married Anne Hathaway, with whom he had three children: Susanna and twins Hamnet and Judith. Sometime between 1585 and 1592, he began a successful career in London as an actor, writer, and part-owner of a playing company called the Lord Chamberlain's Men, later known as the King's Men. At age 49 (around 1613), he appears to have retired to Stratford, where he died three years later. Few records of Shakespeare's private life survive; this has stimulated considerable speculation about such matters as his physical appearance, his sexuality, his religious beliefs, and whether the works attributed to him were written by others.

Shakespeare produced most of his known works between 1589 and 1613. His early plays were primarily comedies and histories and are regarded as some of the best work produced in these genres. He then wrote mainly tragedies until 1608, among them Hamlet, Romeo and Juliet, Othello, King Lear, and Macbeth, all considered to be among the finest works in the English language. In the last phase of his life, he wrote tragicomedies (also known as romances) and collaborated with other playwrights. Many of Shakespeare's plays were published in editions of varying quality and accuracy in his lifetime. However, in 1623, two fellow actors and friends of Shakespeare's, John Heminges and Henry Condell, published a more definitive text known as the First Folio, a posthumous collected edition of Shakespeare's dramatic works that included all but two of his plays. The volume was prefaced with a poem by Ben Jonson, in which Jonson presciently hailed Shakespeare in a now-famous quote as "not of an age, but for all time". William Shakespeare was the son of John Shakespeare, an alderman and a successful glover (glove-maker) originally from Snitterfield, and Mary Arden, the daughter of an affluent landowning family. He was born in Stratford-upon-Avon, where he was baptised on 26 April 1564. His date of birth is unknown, but is traditionally observed on 23 April, Saint George's Day. This date, which can be traced to a mistake made by an 18th-century scholar, has proved appealing to biographers because Shakespeare died on the same date in 1616. He was the third of eight children, and the eldest surviving son.

John Shakespeare's house, believed to be Shakespeare's birthplace, in Stratford-upon-Avon Although no attendance records for the period survive, most biographers agree that Shakespeare was probably educated at the King's New School in Stratford, a free school chartered in 1553, about a quarter-mile (400 m) from his home. Grammar schools varied in quality during the Elizabethan era,

but grammar school curricula were largely similar: the basic Latin text was standardised by royal decree, and the school would have provided an intensive education in grammar based upon Latin classical authors. At the age of 18, Shakespeare married 26-year-old Anne Hathaway. The consistory court of the Diocese of Worcester issued a marriage licence on 27 November 1582. The next day, two of Hathaway's neighbors posted bonds guaranteeing that no lawful claims impeded the marriage. The ceremony may have been arranged in some haste since the Worcester chancellor allowed the marriage banns to be read once instead of the usual three times, and six months after the marriage Anne gave birth to a daughter, Susanna, baptised 26 May 1583. Twins, son Hamnet and daughter Judith, followed almost two years later and were baptised 2 February 1585. Hamnet died of unknown causes at the age of 11 and was buried 11 August 1596. Shakespeare's coat of arms, as it appears on the rough draft of the application to grant a coat-of-arms to John Shakespeare. It features a spear as a pun on the family name.

After the birth of the twins, Shakespeare left few historical traces until he is mentioned as part of the London theatre scene in 1592. The exception is the appearance of his name in the "complaints bill" of a law case before the Queen's Bench court at Westminster dated Michaelmas Term 1588 and 9 October 1589. Scholars refer to the years between 1585 and 1592 as Shakespeare's "lost years". Biographers attempting to account for this period have reported many apocryphal stories. Nicholas Rowe, Shakespeare's first biographer, recounted a Stratford legend that Shakespeare fled the town for London to escape prosecution for deer poaching in the estate of local squire Thomas Lucy. Shakespeare is also supposed to have taken his revenge on Lucy by writing a scurrilous ballad about him. Another 18th-century story has Shakespeare starting his theatrical career minding the horses of theatre patrons in London. John Aubrey reported that Shakespeare had been a country schoolmaster. Some 20th-century scholars suggested that Shakespeare may have been employed as a schoolmaster by Alexander Hoghton of Lancashire, a Catholic landowner who named a certain "William Shakeshafte" in his will. Little evidence substantiates such stories other than hearsay collected after his death, and Shakeshafte was a common name in the Lancashire area. It is not known definitively when Shakespeare began writing, but contemporary allusions and records of performances show that several of his plays were on the London stage by 1592. By then, he was sufficiently known in London to be attacked in print by the playwright Robert Greene in his Groats-Worth of Wit:

There is an upstart Crow, beautified with our feathers, that with his Tiger's heart wrapped in a Player's hide, supposes he is as well able to bombast out a blank verse as the best of you: and being an absolute Johannes factotum, is in his own conceit the only Shake-scene in a country. Scholars differ on the exact meaning of Greene's words, but most agree that Greene was accusing Shakespeare of reaching above his rank in trying to match such university-educated writers as Christopher Marlowe, Thomas Nashe, and Greene himself (the so-called "University Wits"). The italicised phrase parodying the line "Oh, tiger's heart wrapped in a woman's hide" from Shakespeare's Henry VI, Part 3, along with the pun "Shake-scene", clearly identify Shakespeare as Greene's target. As used here, Johannes Factotum ("Jack of all trades") refers to a second-rate tinkerer with the work of others, rather than the more common "universal genius". Greene's attack is the earliest surviving mention of Shakespeare's work in the theatre. Biographers suggest that his career may have begun any time from the mid-1580s to just before Greene's remarks. After 1594, Shakespeare's plays were performed only by the Lord Chamberlain's Men, a company owned by a group of players, including Shakespeare, soon he became the leading playing company in London. After the death of Queen Elizabeth in 1603, the company was awarded a royal patent by the new King James I, and changed its name to the King's Men.In 1599, a partnership of members of the company built their own theatre on the south bank of the River Thames, which they named the Globe. In 1608, the partnership also took over the Blackfriars indoor theatre. Extant records of Shakespeare's property purchases and investments indicate that his association with the company made him a wealthy man, and in 1597, he bought the second-largest house in Stratford, New Place, and in 1605, invested in a share of the parish tithes in

Stratford.

Some of Shakespeare's plays were published in quarto editions, beginning in 1594, and by 1598, his name had become a selling point and began to appear on the title pages. Shakespeare continued to act in his own and other plays after his success as a playwright. The 1616 edition of Ben Jonson's Works names him on the cast lists for Every Man in His Humour (1598) and Sejanus His Fall (1603). The absence of his name from the 1605 cast list for Jonson's Volpone is taken by some scholars as a sign that his acting career was nearing its end. The First Folio of 1623, however, lists Shakespeare as one of "the Principal Actors in all these Plays", some of which were first staged after Volpone, although one cannot know for certain which roles he played. In 1610, John Davies of Hereford wrote that "good Will" played "kingly" roles. In 1709, Rowe passed down a tradition that Shakespeare played the ghost of Hamlet's father. Later traditions maintain that he also played Adam in as you like It, and the Chorus in Henry V, though scholars doubt the sources of that information. Throughout his career, Shakespeare divided his time between London and Stratford. In 1596, the year before he bought New Place as his family home in Stratford, Shakespeare was living in the parish of St. Helen's, Bishopsgate, north of the River Thames. He moved across the river to South by 1599, the same year his company constructed the Globe Theatre there. By 1604, he had moved north of the river again, to an area north of St Paul's Cathedral with many fine houses. There, he rented rooms from a French Huguenot named Christopher Mountjoy, a maker of women's wigs and other headgear.

## REFERENCES

1. Adams, Joseph Quincy (1923). A Life of William Shakespeare. .
2. Hales, John W. (26 March 1904). "London Residences of Shakespeare".
3. The Athenaeum. John C. FrancisJamieson, Lee. The Renaissance in Shakespeare’s Time.
4. Mason, Antony. Everyday Life in Renaissance Times. New York: Black Rabbit Books, 2005.
5. McEvoy, Sean. Shakespeare: The Basics. Indiana: Taylor & Francis,
6. Lee, Sidney (1900). Shakespeare's Life and Work

**AYŞƏN MƏDƏDLİ**
*Naxçıvan Dövlət Universiteti*
*aysenmededli@gmail.com*

## MODERN THEORETICAL APPROACHES TO TEACHING FOREIGN LANGUAGES

A characteristic trend of the XXI century is world globalization and the formation of a world educational space that was reflected in the signing of a number of European states of the Bologna Convention on the Establishment of a European Higher Education Area. In the context of its implementation, the problem of the quality of teaching a foreign language is gaining momentum in the world. An effective solution to the problem of modernization of domestic language education presupposes, first of all, a change in the paradigm of foreign language education and the development of new, innovative approaches to the content, methods and means of teaching [1, 2, 5].

By the mid-1980s there were two groups of approaches in theory and the practice of language education. First group made up reproductive approaches that had a long history of their development, which corresponded to the traditional pedagogical paradigm and were presented in teaching foreign languages grammar-translation concept. The second group consisted of productive approaches that emerged in the early 70s of the XX century, which were based on the humanistic pedagogical paradigm and were presented in teaching foreign languages with a communicative and intercultural concept.

As a basis for classification approaches to teaching, methods of teaching language (direct, conscious, activity-based) or an object of learning (language, speech, speech activity) are used. All available methods and approaches to teaching foreign languages, respectively, were divided into reproductive (instructivistic) and productive (constructivist) concepts. As the main representative of reproductive approaches used to this day are considered the grammar-translation concept teaching foreign languages. The communicative-intercultural approach is analyzed as the main representative of productive approaches [9].

By the mid-80s of the XX century, dissatisfaction with the results of the use of grammar-translational and communicative-intercultural approaches led to the emergence and justification new modern integrative concept of teaching foreign languages and cultures. Therefore at the next stage of the study, the task of detailed analysis of those factors that could lead to its appearance and foundation both in theoretical and socio-cultural terms was highlighted.

With regard to the advantages of one or another there are no currently unanimous opinion in existing approaches. However, it is safe to say that preference is given to those approaches to foreign language education that stimulate intellectual development of personality, develop it speech-thinking abilities. They should be, in first of all, include personality-activity [7] problematic [5; 6] and project [6; 12] approaches. Therefore, we can assume that there is a need to integrate these approaches into the context of the competence-based approach.

One of the most important applied aspects linguistics is a methodology for teaching foreign languages, which today has become a testing ground for theoretical research and practical applications. If we trace the history of the methodology of teaching foreign languages over the past century, it becomes obvious that this is far from a frozen system. To the same question – How have you studied foreign languages? – representatives of different generations will answer differently. Moreover, it will be possible to deduce patterns from their answers the process of changing one dominant method teaching to a different methodological paradigm. Let's dwell on the methodological techniques used in the communicative methodology of G. Kitaigorodskaya and I. Shekhter. Formula of this method - learning to communicate in the language through communication itself, without abandoning the English grammar, which is used to summarize the passed English material. The uniqueness of the methodology lies in the fact that the role of the teacher is to "infect" students with his own artistry, turning each lesson into a theatrical performance. At the origins of this emotional

and semantic method of studying foreign languages is the Bulgarian psychiatrist Lozanov, who worked with patients according to his own method of psychocorrection. He created the so-called. "interest groups" and learning a foreign language was a medical tool. School of Kitaygorodskaya based on a combination of Lozanov's suggestions with a fundamental English course language.

According to G. Kitaygorodskaya, when studying any foreign language, students develop a new communication system that superimposed on the existing communication system in native language. Among the techniques used in the technique Kitaygorodskaya most attractive in working with popular science texts are: polylogue, dialogue and monologue, role playing.

G. Kitaygorodskaya writes [8] that under conditions intensive foreign language training selection of learning material that is the only substitute for the natural language environment, becomes especially important.

Thus, deciding that based on the modern paradigm of teaching a foreign language (integrative approach), and having determined that the communicative technique (with the formation of linguistic competencies) most closely matches this approach, we believe that the methodological the techniques of the intensive teaching method of G. Kitaigorodskaya can be effectively used in speech training .Thus, the PKI, in our opinion, can also be presented on three levels. The key competencies that make up an IPC can be combined into three groups (competence of the linguistic, sociolinguistic and pragmatic levels).

## REFERENCES

1. И.Л. Бим, В кн. Языковое образование в национально-культурном наследии России. 2001. С. 4-5);

2. И.Л. Бим, Иностранные языки в школе, 4, С. 5-8 (2001);

3. А. А Вербицкий, В кн.Активное обучение в высшей школе: контекстный подход. Высшая школа, Москва, 1991. 2 0 8 с);

4. М.С.Гришина, Автореф. дис. канд. пед. наук, Пермь, 2003. 23с.];

5. И.А. Зимняя/ Иностранные языки в школе, 1, С. 16-20 (1992);

6. Г.В. Иевлева, В сб. Профессиональная коммуникация, как цель обучения иностранному языку в неязыковом вузе. МГЛУ, Москва, 2000. С. 37-44);

7. Ю.Н. Караулов, В кн. Русский язык и языковая личность. МГЛУ, Москва, 2003. 340с.);

8. Г.А. Китайгородская, В кн. Методика интенсивного обучения иностранным языкам. Москва, 1986.;

9. И.С. Крестинский, Кафедра, 2, Тверь, Твер.гос.ун-т, С. 55 – 66 (2006);

10. А.А. Миролюбов, В кн. История отечественной методики обучения иностранным языкам. СТУПЕНИ, ИНФРА, Москва, 2002. 448 с.);

11. Е.И.Пассов, В кн. Основы коммуникативной методики обучения иноязычному общению. рус.яз., Москва, 1989; 12. Л..В. Сарычева, Е.А. Кытманова, В кн..Особенности преподавания иностранного языка в условиях новой парадигмы образования. МГОУ, Москва, 2012. 176с.);

13. И.М. Булатова, Вестник Казанского технологического ун-та, 3, С. 407-415 (2010);

14. Н.Х. Мифтахова, Вестник Казанского технологического ун-та, 3, С. 436-443 (2010)

15. Ю.Н. Зиятдинова., Э.Э. Валеева, Вестник Казанского технологического ун-та, 16, С. 292-300 (2011)

**ŞAHNAZ ƏHMƏDOVA**
*Xarici dilin tədrisi metodikası və metodologiyası*
*"Naxçıvan" Universiteti*
*sahnaz2912@gmail.com*

# XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ İNNOVATİV METODLAR

Xarici dilin tədrisinin effektivliyinin artırılması müasir tədris sisteminin qarşısında duran əsas vəzifələrdəndir. Məhs bu səbəbdən də hər gün yeni, müxtəlif metodlar yaranır. Lakin bu metodlar hərkəsə eyni nəticəni vermir. Xarici dilin tədrisinin gücləndirilməsi müasir tədris metodologiyasının və texnoloji avadanlıqların müntəzəm istifadəsini tələb edir.

Son illərdə edilmiş araşdırmalar göstərir ki, ənənəvi birtərəfli tədris kommunikativ-interaktiv tədris metodologiyası ilə əvəz edilərsə daha effektiv təsir göstərər. Ənənəvi metodda müəllimin vəzifəsi mövzunu izah etmək, tapşırıq vermək və verilən tapşırığı yoxlamaqdır. Bu zaman şagird və müəllim arasındakı ünsiyyəti birbaşa deyil, dolayı şəkildə həyata keçirilir. İnteraktiv metodda isə müəllim şagirdlə ünsiyyət yaradır, şagird isə bacarığını ifadə etmək üçün imkan qazanır. Belə halda şagird öz problemərini daha rahat həll edir, xarici dildə danışmaq fobiyasını, utanqaclığını zamanla aradan qaldırır. Beləliklə , dərs müddətində real situasiyaların məşqinə də imkan yaranır.

Audio-video texnikasından dərs vəsaiti kimi istifadə etmək şagirdləri dərsə daha maraqla ,həvəslə yanaşmağa sövq edir. Real bir faktdır ki, şagirdlər həvəslənmədikləri işi görmək istəmir ya da "mən bunu bacara bilmərəm" deyərək dərsdən soyuyurlar. Belə şagirdləri dərsə cəlb etmək üçün həm müəllim-şagird ünsiyyəti gücləndirməli və şagirdlərin öz aralarındakı kommunikasiyanı gücləndirmək zəruridir. Bunun üçün ən əlverişli yol şagirdlər arasında bəzi oyunlar təşkil etmək, onlara rollar verib, birgə mahnılar oxutmaq, bütün şagirdləri müzakirələrdə iştiraka cəlb etməkdir. İnnovativ tədris metodunda yeni dərslərin müəllim tərəfindən qrammatik konstruksiyalar, mimika və jestlərlə yanaşı, şəkillər və digər vasitələrlə də aparılmasını tələb edir. Belə metodlardan biri də kommunikativ metoddur. Bu metod nitqi həm yazılı həm də şifahi formada inkişaf etdirir. Bu cür metodlar sayəsində şagirdlərdə səlis danışmaq qabiliyyəti formalaşır. Qrammatika isə həmin danışıq prosesində öyrədilir. Əvvəlcədən sözlər öyrənmiş şagirdlər bildikləri üsullarla cümlə qurur, daha sonra isə müəllim cümlələrə yeni qrammatik qaydaları tətbiq etməklə düzəlişlər edərək həmin qaydaları şagirdlərə mənimsədir. Dərs zamanı tez-tez qarşılıqlı sual-cavab və testlərdən istifadə innovativ metodun üstünlüklərindən biridir. Şagirdlərin hamısını bu prosesə cəlb edərək onlar arasında rəqabət yaratmaqla həm öyrətmək, həm də ünsiyyət problemlərini aradan qaldırmaq olar. Məlum olduğu kimi şagirdlər həvəsləndirilməyə meyillidir. Bunu nəzərə alaraq, hər müəllim kiçik mükafatlandırma metodları tətbiq edə bilər və bu, sərbəstdir. Bunun nəticəsində şagirdlər öz fikirlərini xarici dildə ifadə etməkdən çəkinmmirlər. Müəyyən komanda yarışları təşkil etmək, qruplara bölərək hər bir şagirdin özünü komandanın vacib elementi kimi hiss etməsinə imkan yaratmaq da yeni təlim metodları sırasındadır. Təkcə məktəb proqramı və sinif dərslikləri ilə kifayətlənmək xarici dili öyrənmək üçün doğru yol deyil. Bunun üçün müəllim müntəzəm olaraq öz üzərində işləməli, mövzuya uyğun əlavə ədəbiyyat və ya kitablardan istifadəni etməlidir. Öyrənmək, təbii ki, müəyyən vaxt və əmək sərfi tələb edir. Amma effektiv metodlarla bu işi əyləncəli və maraqlı şəkildə həyata keçirmək daha səmərəli və bəhrəli olar.

Müstəqil Azərbaycanın beynəlxalq əlaqələrinin sürətlə genişlənməsi dünyada aparıcı rola malik və qlobal səviyyədə əsas ünsiyyət vasitəsi olan ingilis dilinin öyrənilməsi vəzifəsini qarşıya qoyur. Dünya ölkələri ilə iqtisadi, mədəni, sosial əlaqələrin səmərəli şəkildə genişləndirilməsini şərtləndirən əsas amillərdən biri xarici dillərə, xüsusilə də ingilis dilinə mükəmməl şəkildə yiyələnməkdir. Tələbələrə tədris edilən dildə peşə vərdişlərinin aşılanmasına yönəldilmiş işin interaktiv şəkildə təşkil olunması və dilin tədris sisteminə inteqrativ şəkildə daxil edilməsi məhz bir sıra xarici dil öyrətmə metodları vasitəsilə daha səmərəli olur. Xarici dilin öyrədilməsi zamanı fərqli

metodlar mövcuddur. Onlardan biri "Bir başa dil öyrətmə" metodu adlanır (Direct Method). Bu metod 1990- cı illərin əvvəllərində Ç.Berlitz tərəfindən irəli sürülmüşdür. Metod ingilis dilinin öyrədilməsi zamanı əsasən aşağıdakıları təklif edir;

a) xarici dilin öyrədilməsi zamanı ana dili ilə müqayisəyə üstünlük vermək;
b) şifahi danışığa çox yer ayırmaq;
c) öyrədilən dilin spontan istifadəsindən qaçmamaq;
d) lazım olduqda öyrədilən dillə hədəf dilin qrammatik qaydalarını və dilin quruluşunu təhlil etmək;
e) auditoriyada göstərişləri, təlimatları hədəf dildə vermək;

Öyrədilən dilin qrammatikasına induktiv yanaşmaq bir başa dil öyrətmə metodunda əsas üstünlük şifahi nitqə verilir, kommunikasiya müəllim və tələbələr arasında sual-cavab şəklində reallaşır; danışma və dinləmə möhkəmlədirilir; düzgün tələffüz və qrammatikaya diqqət verilir. Xarici dilin öyrədilməsi zamanı diqqət cəlb edən metodlardan biri də "Audiolinqual metod" hesab edilir. Bu metodun şərtləri aşağıdakılardır

a) ali məktəb tələbələrinin ingilis dilində ünsiyyət bacarıqlarının formalaşmasını təmin etmək;
b) tələbələrin ingilis dilində ünsiyyət bacarıqlarının formalaşması modelini yaratmaq; c) qrammatik qaydalara az yer vermək;
d) müəllimlərin ana dilində danışmasını azaltmaq;
e) tələffüzə xüsusi diqqət yönəltmək.

Xarici dili öyrədən zaman tələbələrə öyrəndikləri dildə düzgün danışmaq və yazmaq bacarığını öyrətmək üçün fərqli dilöyrətmə metodlarına üstünlük verilməlidir. Bu metodların tədris prosesinə inteqrasiyası tələbələrin ingilis dilində ünsiyyət bacarıqlarının inkişaf etdirir və onlarda öyrəndikləri dildə ünsiyyət qurmaq qabiliyyətini formalaşdırır.

## ƏDƏBİYYAT

1. Kashina ES.. Xarici dillərin tədrisində ənənəvi və innovaiv metodlar. Samara: Univers-Grupp; 2006. Galskova ND. Xarici dilin tədrisində müasir metodlar. Moscow: ARKTI; 2003.

**BƏNÖVŞƏ HÜSEYNOVA**
*Naxçıvan Dövlət Universiteti*
*thefutureisfemale1999@gmail.com*

## NEW PEDAGOGICAL TECHNOLOGIES IN TEACHING FOREIGN LANGUAGES

In recent years, great changes have taken place in teacher education, which cover almost all aspects of the educational process. Increasingly, the question of the use of modern pedagogical technologies in teaching foreign languages is being raised. New methods and forms of teaching appear, which, in turn, represent not only various technologies of the means of exchange and transmission of information with the help of which the educational process is carried out, but also one large system of teaching methods aimed at developing the communicative knowledge of students, improving speech skills. The main task of the English language is to teach the practical mastery of a foreign language, in the formation of basic knowledge, that is, the ability to carry out foreign language and international communication with native speakers. The search for new pedagogical technologies is associated with a lack of motivation among students to study foreign language. Very often, there is no positive motivation, since when learning a foreign language, students encounter some difficulties and do not absorb the material due to their psychological characteristics. Work experience shows that the use of various, modern, fresh sources and means provokes interest in the audience, increases their motivation to study.

Pedagogical technology is a set of techniques, an area of pedagogical knowledge, reflecting the characteristics of the deep processes of pedagogical activity, the peculiarities of their interaction, the management of which ensures the necessary efficiency of the educational process [1].

The use of modern pedagogical technologies in the process of teaching foreign languages allows you to reproduce learning situations, helps to complement traditional teaching methods, contributes to the formation of the fundamental skills of foreign language communication from the awareness of the ability to express thoughts in another language to the independent solution of communicative problems, increases the desire, interest of students in learning, makes -a new look at the studied subjects, thus revealing their creative and intellectual capabilities, talents [4].

Currently, the concept of "SMART" is the main purpose of the development of educational systems. The main source of knowledge is electronic, educational Internet-content, technological operations are to provide feedback from teachers and students, exchange knowledge between them.

Smart education is a concept that involves the comprehensive modernization of all educational processes, as well as the methods and technologies used in these processes [2].

SMART education is able to provide a high level of education that meets the challenges and opportunities of today's world, will allow young people to adapt in a rapidly changing, unstable environment, will ensure the transition from book content to active content using a single common repository of educational materials in the presence of an analytical search system. The quality of educational materials in the repository should be constantly monitored through the introduction of various materials and work in a unified connection with educational process management systems.

Considering current, innovative technologies, one should dwell in more detail on the topic of using Internet resources in teaching a foreign language. The opportunities for using online resources are enormous.

Using web resources, you can perform the following tasks:

- include materials from the network in the content of the lesson;
- to carry out independent search for information by students as part of the work on the project;
- organize and develop reading skills and habits using materials from the web of any degree of complexity;
- improve listening skills based on audio texts on the web online resources;

- replenish the vocabulary with vocabulary, abbreviations of a modern foreign language;
- study the culture of a particular language [3].

At the moment, there are a large number of sites dedicated to the independent study of foreign languages. On such sites you can find ready-made lessons of foreign language teachers, exercises, audio recordings, grammatical explanations that are incomprehensible to the student.

30 years ago, it was impossible to imagine that it is possible to listen to a native speaker in real time, but today, thanks to new innovative technologies, we are provided with this opportunity, which makes learning a foreign language many times easier and much more interesting.

Thus, it is currently impossible to imagine the educational process without the use of innovative pedagogical technologies. This kind of technology is firmly established in the modern education system. Today, a foreign language teacher has a lot of opportunities, which helps to conduct their classes more interesting and cognitive. These opportunities contribute to more active student activity. Compared to the traditional teaching method, the new introduction into teaching inevitably changes the role of the teacher. Its task is to increase the independent work of students, support in the development of personality. Such training allows you to increase the motivation to learn, significantly increases interest in learning, and also gives good results in the formation of communication skills in comparison with the traditional method.

## REFERENCES

1. Назарова Н. Б., Мохова О. Л. Новые информационные технологии в обучении иностранным языкам // Современные проблемы науки и образования. 2016. № 3.

2. Применение SMART-технологий в образовательном процессе «Образование без границ». МБОУ «СОШ №1». 2015. 20 с. [Электронный ресурс]. Режим доступа : https://infourok.ru/primenenie-smarttehnologii-v-obrazovatelnom-processe-mobu-soshobrazovanie-bez-granic-540134.html

3. Кизлякова Е. С. Внедрение новейших информационных технологий в обучении иностранным языкам. С.-П., 20

**QIZXANIM CƏFƏROVA**
*Naxçıvan Dövlət Universiteti*
*qizxanimceferova99@gmail.com*

## EFFECTIVE COMMUNICATION AND SOME OF ITS BARRIERS

Understanding the language barriers to effective communication firstly we need to analyze "What is the effective communication?". Communication is the act of imparting or exchanging of information by speaking, writing, or using some other ways. There are some types of communication. These kind of communication types are verbal and non-verbal communication. Verbal communication occurs through speech and non-verbal communication occurs through emotions. As a science study communication has some groups: informational theory, communication studies, biosemiotics, biocommunication.

For making communication effective, we should obey some instructions. First one is establishing eye contact. Eye contact is the indicator of self-confidence, attention and respect to your partner and it proves the truthfulness of what we are talking about. The second important component is using gestures and facial expressions and tones of our voice. According to research, gestures and facial expressions are 55-60%, tone of voice 30-35%, and words 8-10% important for the effective transmission of information to the other party. Another important factor is using pleasant expressions. It is valid for people from all walks of life. Being good listener. For being a good speaker firstly we need be a good listener. Referring to the topic of communication, we need pay attention the zones of psychological distance defined by Allari Piz regarding the choice of distance during communication, which is one of the important points for effective communication:

-Intimate zone (15 cm to 46 cm) – is a special buffer zone. This zone can be penetrated by people with the closest emotional contact.

Personal zone (from 46 cm to 1.2 m) – is the optimal communication area for friendship. It is possible for friends to touch each other in this area. -
Social communication zone (1.2 m to 3.6 m) – is an effective area for business communication.

- Mass zone (more than 3.6 cm) – is an effective area for communication between people who do not know each other in public places. Violating of some of these elements can cause the barriers to effective communication.

The inability to communicate using a language is known as language barriers to communiocation. There are some types of barriers to communication: these are behavioral barriers, enviromental barriers, language barriers, cultural barriers, and attitudinal barriers. The main language barriers to effective communication is language differences. This is occurs between people who do not speak the same languages or people who use the language as their second or third language, even it can occur when people are speaking the same language. Having the different level of ability in a language or not having a clear speech are other main factors of it. Individual linguistic ability may sometimes become a barrier to communication. The use of difficult or inappropriate words in communication can prevent the people from understanding the message. Poorly explained or misunderstood messages can also result in confusion. The linguistic differences between the people can also lead to communication breakdown. Using dialects, slangs, jargons, terms or poetic words, abbreviations and accents can cause barriers when they are not understood fully by receivers. Different languages across different regions represent a national barrier to communication, which is particularly important for migrates.

Grammar and spelling- language barriers may arise when the the sender makes errors in grammar and spelling. This mistakes can create communication problems in written comunication. The word can change the whole meaning of the sentence or maket he sentence not undersdable. To avoid such mistakes, sender must use dictionary in order to check spelling, use spell-checker computer to be sure that there is no mistake in writing.

Ambiguity of words/phrases - If a word, phrase or a sentence has more than one meaning, in this case it is ambigious. For example: the word- book means "equipment for reading" or "to arrest". So the speaker should be sure that the listener receive the meaning correctly. Otherwise it causes the barrier in conveying the messages.

A sense of shame or fear of being criticized – shyness, self-consciousness, absense of poise are the results of this feeling and they generate many other negative feelings and cause barriers during communication

Physiological barriers - Physiological barriers to communication are related with the limitations of the human body and the human mind, memory, attention, and perception. Physiological barriers may result from individuals' personal discomfort, caused by ill-health, poor eye sight, or hearing difficulties.

Cultural barriers- Culture shapes the way we think and behave. It can be seen as both shaping and being shaped by our established patterns of communication. Cultural barrier to communication often arises when individuals in one social group have developed different norms, values, or behaviors to individuals associated with another group. Cultural difference leads to difference in interest, knowledge, value, and tradition. Therefore, people of different cultures will experience these culture factors as a barrier to communicate with each other. As mentioned above using facial expressions and gestures is very important while communication but we should remember that the same gestures and facial expressions may have different meaning in different cultures. So misusing of them can cause cultural shock and communication barriers. Understanding cultural aspects of communication refers to having knowledge of different cultures in order to communicate effectively with cross culture people. Families and family groups may also experience the effect of cultural barriers to communication within and between different family members or groups. For example: words, colours and symbols have different meanings in different cultures. In most parts of the world, nodding your head means agreement, shaking your head means "no", but this is not true everywhere. While non- verbal communication we should pay attention all of these factors for making our communication effective.

Religious language differences - language barriers generally result from the lack of understanding between the followers of the three religious. For example, christians, jews and muslims all worship one God, but they have different names for God. "God" for Christians "Elohim or Yahweh" for a Jew and "Allah" for a Muslim. Each one of them has a different concept for God. The sender should use dialogue to communicate üith the receiver in order to overcome misunderstanding.

Technological multi-tasking and absorbency – With a quick increase in technologically-driven communication in the last years, people are faced with online communication in the form of e-mail, text, and social medias. Lack of verbal communication and miscommunication on media may be reaons of barriers.

Language barriers prevent people from conveying information ideas, and thoughts and there are some tips for overcomeing this barriers. To obey some ways can help us to communicate easily. We need avoid using difficult words, complex sentences, using vague, ambigious, or confusing words, term, jargon or idiomatic expressions.we need select our words carefully. And need use language appropriate to the level of understanding of the receiver. We need respectful because language barriers can be frustratring. They require patience, understanding, and conciousness. The best strategy to make effective communication and get messages across is to bridge the language barriers by using: simple, clear, concrete, and receiving feedback, minimizing the use of jargons, avoiding ambigious words, regional dialects and, confirming understanding, using translation machines, avoiding shouting and sarcasm and mimicry, explaining confusing informations to people. The future of persons, groups, societies and nations depends mainly on their ability to communicate effectively with others in a globalization and communication era.

## REFERENCES


1. Lunenburg, (2010). “Communication”: The process, barriesr, and improving effectiveness”
2. DN Jureddi, N.Brahmaiah - Barriers to effective communication. Journal of English language and Literature, 2016.
3. Communication barriers by Dr.K.Usha Rani- Assistant Professor, Department of English, KL university, Vaddeswaram.
4. Crystal, David.( 2003) English as a Global Language. CUP, Cambridge.
5. Danesi, Marcel (2009), Dictionary of Media and Communications. M.E.Sharpe, Armonk, New York.
6. Burgoon, J. Guerrero, L. Floyd, K. (2010). Nonverbal Communication.

**LALƏ RZAYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*rzayevalala11@gmail.com*

## THE SEMANTIC FEATURES OF QUANTITATIVE VOCABULARY OF ENGLISH LANGUAGE

Quantity is a philosophical category implying accuracy of an object, its dimension, date, extent, degree of properties integration and more. This section is universal and essential in terms of comprehending reality. The category of quantity, which is accepted as reasonable category, reveals its reverberation in language on various level or sublevels such as the functional, morphemic, grammatical, lexical, phraseological. Every language rate originates a planned system and determines the mechanism that is connected with the number of categories. Some scientists consider the category of quantity as frequency, intensity, concentration, countability. Based on the other assumption, universal category encompasses the amount of three categories: numbers, measures and chronicle order.

The vast majority of linguists regard the number as a wide concept, which generates the various elements, containing the most appropriate ones. They are the number, size and multiplicity. Identification of the number, size and multiplicity of components of the category number is not random.

Semantic continuum of quantity language field is illustrated by background period of number and extent. The key methods of expression of a discrete number at the lexical level is offered by numeral, dominant word of counting system, every element of which demonstrates a discrete set.

The language delineates the number by means of which quantitative item has a distinct way of expression and various presentments. The initial quantitative actualization is implied through forms of grammatical category of number, the second category is utilizing different lexical items of various lexical and grammatical categories.

Quantitative unit is a lexical unit that specifies or transmits the amount of objects. Any word or phrase can be referred to the lexical-semantic field of quantity.

The structure of lexical-semantic field of quantity is adjusted as follows: in the center are direct specific values of quantitatively-defined, self-quantitative, fractional and collective numerals; then go lexemes of indefinite-quantitative meaning; outside - quantitative nouns and noun equivalents of fractional numerals; and apart are numerals that in result of transfer of stylistic and functional characteristics of a load of one part on speech on the characteristics of the other parts of speech lose their semantic function and may be taken as an adjective, pronoun, noun. The peripheral circle covers words of portable quantitative value; there are still derivatives, consisting of adverbs of numerical origin; and the final cluster consists of phraseological units and components which are lacking of quantitative meaning, but their complete semantics is quantitative.

Vocabulary which is related to quantity can be proposed by various parts of speech. In linguistics, the category of numeral is regarded the central part to functional-semantic field of quantity. This is the result of their regular correlation with the set of natural numbers, their replacement of countable items, their wide usage, relationship in direct and indirect counting, aptitude to nominate precisely, approximate and indefinite quantitative features.

The category of numeral in English is multifunctional. Thus the subsequent functions are categorized such as nominative-quantitative function, by which consequences are conveyed knowledge of the quantitative associations of the objective world; cognitive function that concludes and analyzes the complex quantitative way of exploring the reality; a pragmatic function that affords emotional and volitional impact on the recipient in terms of idiomatic context; derivational function.

The other type of quantitative units is noun. Noun is considered exceptionally in the English language because of the ability to not only be identified quantitatively, but also serves the function of

quantitative determinant. In linguistics, the category of quantitative nouns are named with various terminology: "countable nouns," "quantitative words", "countable words", "defined quantitative word", "word of weights and measures", "substantival quantifiers". Some numerical word clusters exist among nouns in English:

words of collective type: crowd, class, band;

words related to counting: dozen, score;

words of measure and weight: foot, yard, fathom, pound.

On the paradigmatic rate, the primary group achieves the meaning of unidentified quantity, while the second two are numerical constants. Furthermore the quantitative semantics groups of nouns in the English language are divided into collective nouns, numerical words, the words of measure and weight. The first group varies from others via the peculiarity that they are undefined number actualizations such as minority, majority, and multitude.

The analysis of this article concerning the analysis of collective nouns which confirms the absence of a solid vote from scientists' perspective at the category of nouns. Collective nouns are regarded to be ones that in their unmarked form indicates a range of unspecified number of separate homogeneous objects found in the syntactic structure of singularity or plurality through a number of forms that are syntactically dependent and correlated words.

The process of "collectivity" happens: a) in the cluster of people gathered by one target or aim, such as: crew, congregation, nation, jury, team, senate, horde, etc; b) when denominating belongings species: a flock (of sheep), a brood (of young pigs), a farrow (of young pigs); c) while stating groups of living-beings or inanimate objects: a galaxy (of stars), a crowd (of daffodils); d) on semantization the multiplicity of diverse elements: finery, furniture, cutlery.

On the syntagmatic degree, the numerical words and words of measure and weight are capable of applying a rough and uncertain quantity. These words illustrate the close number when: 1) some numerals are used by preceding them: two-three acres; 2) nouns take pre-positive position: a bushel or two. Nouns implement an undefined quantity when: a) words, connected with nouns, are lacking of numerical content: some meters, several liters; b) a phrase includes replaceable numerals: thousands of gallons, tens of kilometers; c) quantitative words that are altered according to desemantization: pounds of pardon; d) negative words which concerned with numerical phrases: not eight bushels.

The third division is about pronouns. Among pronouns a group of quantitative function is chosen which implements quantitative factors that are crucial for delicateness indicated is dangerous and quantity. For instance, a group of pronouns showing "singularity" forms the semantic opposition such as each and every.

The next form which generates the fourth group of quantitative units in English is adjective. Quantitative adjectives are subdivided into two groups of words that are concerned to the notion of computation and measurement. The first group of words shows these things among both explicitly and implicitly. For example: decimal, dipterous, tripartite and others. A group of adjectives includes the meaning of identified quantity. For example: distant, great, high, long, old, tall, wide, young and others. Grammatical forms of adjectives directly influence on the unification of adjective and adverb. For example, adverbs via the meaning of unfinished characteristics combined with the highest degree of adjectives, adverbs with the meaning of full feature are combined with the usual degree of adjectives.

The verb is considered the fifth group. Grammatical characteristics of verbs are of indirect nature, lexical expression of number in the verb is able to differentiate the dynamics of quantitative relations based on the categorical meaning of procedure, which is characteristic of the verb. Therefore, in the semantic structure of verbs in English that accommodates with the number of lexical means of expression quantity, along with action quantitative features of action are distinguished. For example, to increase, to decrease, to lower should be taken into consideration. These verbs detect indefinite quantity, which is characteristic of English verbs. Opposite to nouns and adjectives, verbs

do not cover the definite number. Simultaneously, the verb can conduct the notion of quantity more specifically. The category of number realizes through the verb-forms in opposition "boundedness and unboundedness" or through generic forms. In this occasion, the verb does not nominate the quantity but reflects the dynamic of the quantitative relations in the direction of their increase or decrease: a) reduce (to decrease, to decline, to fall, to drop), b) increase (to add, to reach, to climb, to jump). Verbs “to multiply, to expand, to rise, to increase” express quantitative feature and action at the same time. Semantic implicit meaning reveals its expression in the grammatical form: to people, to troop do not combine with the subject in the singular.

The final cluster of typological lexical-grammatical means of expression quantity is about adverbs. Adverb depicts the extent of the number both independently and in combination with other words: lately, not far from here, more than two hours. Adverbs in English can contain the meaning of the degree and extent, for example: very, enough, nearly, almost, hardly, rather, etc. Expressing the degree or extent of a quantitative characteristic, adverbs realize the erroneous quantity both independently and in combination with other words: time and again, not far from here, soon. Number of items can be expressed in various ways: many books, much rice, little hail, few cats. Much, many, few, little are used to indicate indefinite quantity.

In conclusion, It is obviously analyzed that, the planning of quantitative function in modern English is a category that can be realized within various units of speech and language.

## REFERENCES

1. Allen, J. P. B. (1975) 'Some Basic Concepts in Linguistics'. In Allen, J. P. B. and Corder, S. P. eds. (1975).
2. Beaugrande R. de. Introduction to Text Linguistics / R. de Beaugrande, W. Dressler. – London : Longman, 1981. – 270 p.
3. Crystal D. The Cambridge Encyclopedia of Language / Crystal D. – Cambridge : Cambridge University Press, 1995. – 472 p.
4. Davidson D. The Logical Form of Action Sentences / Davidson D. – Pittsburgh : Pittsburgh University Press, 2003. – 567 p.
5. Firth J. R. The Technique of Semantics / J. R. Firth // Papers in linguistics. – London : Oxford University Press, 1957. – P. 7–33.
6. Ginzburg R. S. A Course in Modern English Lexicology / R. S. Ginzburg, S. S. Khidekel, G. Y. Knyazeva. – M. : Higher school, 1966. – 275 p.
7. Leech G. N. Exploration in Semantics and Pragmatics / Leech G. N. – Amsterdam: John Benjamins B.V., 1980. – 133 p.
8. Mason C.P. English Grammar Including Grammatical Analysis.– London: Covent Garden, 1984. – 271 p.

**NURAY MİRZƏLİYEVA**
*İngilis dili*
*Naxçıvan Dövlət Universiteti*
*nuraymirzeliyeva98@gmail.com*

# ETHNOGRAPHY OF COMMUNICATION

Ethnography of communication is the studying of communication from the social and cultural sphere. For the first time the Ethnography of Communication was emerged by Dell Hymes in 1962 and he gave comprehensive information about the Ethnography of Communication in his article named "Towards Ethnographies of Communications" which is published in 1964. When we say the Ethnography of communication we envisage the different features of the approach which is aimed at the multiform conception reflects the understanding of the language in the anthropological point of view. By the end of the 1964$^{th}$ year Dell Hymes had named the Ethnography of Communication like "Speech Ethnography". [2]

After 1964 Dell Hymes expanded the Ethnography of communication by adding the other sides of communication saying the communication has a lot of areas. They are followings.

1. Speech community
2. Speech event
3. Speech condition
4. Conversational methods
5. General communication style

The speech event is considered to be the main analytical unit of the communication model. During the communication meanings are conveyed to the other side trough speech acts. Speech acts are distinguished into three parts such as locutionary, illocutionary, perlocutionary. [1]

Locutionary speech act is equal to one meaning. This kind of speech acts consists of the primary meaning of the word.

When we talk about the illocutionary speech act, some speech acts like to promise, to apologize or to offer emerge. [1]

Some scientists say that perlocutionary speech act be a person who express his speech is an action that affects the thoughts and the movements of the one who hears that speech. [1]

What means of communication do people use when they communicate in their daily lives? Why is the role of the means of the communication necessary in human life? These basic questions are important in the Ethnography of Communication.

Methods of the communication that we use in our daily life are followings.

1. Meeting is a personal synthetic rally frequently achieved by a scripted follow-up.
2. Report which is the functionary corroboration of the actions of any administration.
3. Forum – this way of communication takes into account members to dispatch data expeditiously in a centralized placement.
4. Presentation - this is such a kind of method of the communication commonly contains a courtly suggestion, update, or account encompassing audiovisual information, slideshows and etc.
5. Video discussion – This method permits humans to keep a synergistic merging and consultation in any time and in different locations.
6. Web based communication is a method of communication that is typically corresponded for leaving inter-group communication data like address and phone number or for sharing some other transaction details like order verification. [3]

A profound comprehension of the action of the communication is unavoidable. Here we shall see several forms of communication. Forms of communication are divided into four parts such as verbal, non-verbal, visual and formal. [4]

Verbal Communication

Verbal form of communication implicates the consumption of the language and words for the goal of passing on the planned message. Generally verbal communication takes into account communication in the version of spoken words. Verbal communication has two types: oral and written.

 Oral communication engages spoken words like a communication channel. The effective form of communication is oral communication.

 Written communication employs any kind of commute of data in written form. For example, texts, letters, documents, handbooks, etc.

Non-verbal Communication

In this form of communication information is broadcasted without using of words. This version of communication basically supports the verbal communication. It attaches it with expressions, gestures, symbols and body languages. There are some modes of non-verbal communication such as physical, paralanguage, aesthetic.

Physical non-verbal communication is the sum aggregation of the physical observable. For instance, facial expressions, stance, posture, gaze, the tone of one's voice, touch, hand gestures, etc.

Paralanguage is the graphics of reading between the lines. The basic kind of this communication is made by means of the tone of one's voice. Together with the tone of the one's voice, emotions, the style of speaking, the quality of voice, intonations, stress is suited for the goal of the communication.

In the aesthetic non-verbal communication one of the most important means of the communication is art. An artist can deliver the most powerful messages by means of the paintings and the other forms of art. Many times the art has been put into practice as an appreciable form of nonverbal communication.

Visual Communication

The graphical recommendation of thoughts is called visual communication. With the supporting of graphs, videos, drawings, art, charts and sketches the visual communication is established.

Formal Communication

Formal Communication is created through determined channels seconded by confident organizational operations. Examples of formal communication are a legal document, a business meeting, a real estate treaty and an appointment letter. Using of jargon and formal language are symptoms of this form of communication. This type of communication commonly pursues a predetermined structure or format.

At the end we understood that communication is rudimentary to the face of the earth and survival of humans as well as to an organization. Everyone has to try to use the correct communication means to create relationship between each-other more clearly and avert the misunderstanding.

## REFERENCES


1. Bahuman, R., & Shezer, J. (1974). Explorations in the ethnography of speaking. New York: Cambridge University Press.
2. Caubaugh, D. (2007) Ethnography of Communication.
3. Hymes, D. (1962). The ethnography of speaking. In T. Gladwin and W. Sturtevant (ends.), Anthropology and human behavior. Washington, DC: Anthropological Society of Washington.
4. Fitch, K. (1998). Speaking relationally: Culture, communication, and interpersonal connection. New York: Guilford.

**NURŞƏN QURBANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*qurbanovanursen00@gmail.com*

## PERSONALITY-ORIENTED APPROACH IN TEACHING A FOREIGN LANGUAGE

Modern society is undergoing economic, social and cultural changes, these transformations could not but affect both the education system in general and higher education in particular. The transition of modern society to a new one economic formation also affects the functioning of higher education. In this regard, there is a change in the pedagogy of technogenic civilization to "humanitarian pedagogy of anthropogenic civilization", which is based on the idea of such an organization of the process of education and upbringing, in which “students become subjects of their own development” [5].

In the field of education in general and teaching foreign languages, in particular, student-centered learning is a priority. Teaching can focus on either a teacher-centered, student-centered, or on a combination of both approaches. For centuries, the teacher was the main link and leader of the entire learning process, preference was given to learning oriented to teacher [1].

The current system of teaching a foreign language is mostly traditional, although teachers are often required to use the methods of a student-centered approach. For the most part, the curriculum for the discipline "Foreign Language" is adopted by the educational and methodological department of universities, which describes the content, schedule, learning conditions, attendance policy and the assessment process.

The specificity of teaching a foreign language is not taken into account. The teacher is prescribed a strict directive that makes it clear what kind of the teacher answers. These decisions, however, are a top-down initiative for the teacher. For example, instructors are given a prescribed course with a certain number of hours, and they are required to complete it in a given and predetermined period of time, usually a semester. If the course is not completed within the allotted time frame, instructors should explain the reasons for the failure to complete the curriculum. Thus, on the one hand, teachers are asked to use student-centered methods, and on the other hand, they are forced not to do so, limiting their freedom of choice and instructing them to cover certain topics of the curriculum and do it in a certain time. In these conditions, in order for a future specialist to become competitive, authoritarianism should be replaced with humanity, and the traditional learning process, where the teacher plays the main role, for learning, where the student is at the center. However, it should be clarified that this transition is possible only if all specialists take part in it, at all levels of the educational system.

- Educational professionals and management should rethink the nature of the current system and curriculum at all levels, whether in schools or higher education, and make the necessary changes in order to provide student-centered learning.
- Teachers must be competent enough to use a student-centered approach.
- One of the main tasks of the teacher should be to encourage and motivating students to work hard and actively participate in classes.
- Teachers should start using teaching methods in within the personality-oriented approach [2].
- Students, in turn, must be ready to change their role in the learning process.
- Trainers should try to adapt the teaching materials to the requirements of a personality-oriented approach. They should begin to apply student-centered assessment methods that, when used correctly, show an objective picture of student progress [4].
- The teacher must use various means (mass media, social networks, IT-technologies) to maintain stable motivation of students in the study of a foreign language [3].

Lack of motivation to learn is observed among a large number of students. This must be taken

seriously by all stakeholders: administrators, educators, education policymakers, teachers, parents and the whole community. Everyone should take action to find out the causes of this problem. Research is needed to identify the pitfalls of the entire education system in relation to the student-centered approach. A more comprehensive study covering a larger number of students is needed to learn about the state of implementation of the student-centered approach. Other system-wide difficulties are assessment and hard curriculum, large student numbers, etc. All of this creates serious obstacles to real progress in student-centered learning.

The current rating system is problematic. Because teaching is still traditional, so is assessment. The main task of traditional teaching methods is formal control, which is carried out using a single testing method. Traditional tests measure declarative knowledge: memorization of vocabulary and grammatical phenomena, correct translation of texts of various nature. They do not necessarily relate to depth of understanding or skills that students have acquired.

Assessment of students using student-centered methods differs and measures different skills and abilities such like thinking, critical and creative, deep understanding of the material, etc. Traditional tests are not suitable for a person-centered approach.

New methods should be used such as self-assessment or peer review using journals, files, blog posts, and projects.

Student-centered learning means that both they and teachers must be prepared and available with sufficient resources from which both sides of the learning process can choose, give assignments, organize events and so on. This is not always possible. In addition, well-equipped and modern libraries are not yet available everywhere.

Thus, today the situation in education is such that the administrative system must follow an already defined program, where the developer or teacher is given little freedom of choice. When an enthusiastic teacher tries to implement or use student-centered methods, he or she faces challenges such as having to follow a prescribed curriculum and complete it at a given time, or teach certain topics not in accordance with your choice.

Learning with a student-centered approach requires a small number of students in groups so that the teacher can use different types of group work. This is not the case in most situations where the average number of students per class can be as high as twenty to twenty-five students.

## REFERENCES

1. Дубских А. И., Кисель О. В., Босик Г. А. Развитие иноязычной профессио-нальнокоммуникативной компетенции студентов посредством дифференцированного подхода // Современные проблемы науки и образования. 2019. № 4. С. 85.

2. Дубских А. И., Зеркина Н. Н. Роль преподавателя в процессе обучения профессионально ориентированному иностранному языку в техническом ВУЗе // Современные тенденции развития системы образования. Чебоксары : Издательский дом «Среда», 2018. С. 108–110.

3. Дубских А. И. Интерактивные технологии в процессе обучения иностранному языку // Вопросы лингводидактики и межкультурной коммуникации в контексте современных исследований : сб. науч. ст. XI Междунар. науч.-практ. конф. ; отв. ред. Н. В. Кормилина, Н. Ю. Шугаева. Чебоксары, 2019. С. 167–171.

4. Дубских А. И. Особенности профессионально-ориентированного обучения иностранному языку в техническом вузе // Актуальные проблемы современной науки, техники и образования : тезисы докладов 77-й междунар. науч.-техн. конф. Магнитогорск : Изд-во Магнитогорск. гос. техн. ун-та им. Г.И. Носова, 2019. Т. 2. С. 377.

5. Евплова Е. В. Этапы формирования конкурентоспособности будущего специалиста // Высшее образование в России. 2011. № 4. С. 156–158.

**EMMA SEYİDOVA**
*Naxçıvan Dövlət Universiteti*
*emmaseidova68@gmail.co*

## SOCIO-CULTURAL FACTORS IN FOREIGN LANGUAGE LEARNING

The specificity of the functioning of a language as a foreign language is that its communicative function ensures intercultural communication. This study investigates socio-cultural theory’s concepts which include peer interaction and feedback, scaffolding, private speech. Learners become aware of their errors through feedback they learn, feedback is very essential [3, p.65] A situation arises during a meeting of people who, using the same language, perceive messages differently, since the linguistic structures they generate are built on the basis of different sociocultural structures. Sociocultural factors have recently become the subject of close attention of methodologists who determine the socio-cultural conditions by the prevailing attitude in society towards the people who speak a particular language, its culture, society, as well as the system of cultural and social relations adopted in society, etc.

Peer interaction complements teacher-fronted interaction by providing a context for greater opportunity for individual production, and practice and meaningful use of the target language [2,p.262].

The interdisciplinary nature of the content of the subject "foreign language" has favorable opportunities for creating a fairly wide sociocultural educational space, the use of the sociocultural approach in language education allows in a new way, more deeply and meaningfully to reveal all the components of the concept of the level of functional sociocultural literacy. Sociocultural competence can be achieved at the expense of other disciplines, and such sources of sociocultural information as literature, mass media, Internet, films, can serve as a significant addition to the development of sociocultural competence.

Self-efficacy has a tremendous influence on second language learning. Most students feel lost in the language class since they do no t have a primary belief in their self-efficacy [1, p.12]. The question of the didactic filling of sociocultural competence in teaching a foreign language is rightfully raised. Private speech is another socio-cultural factor. Private speech is a type of speech that is addressed to oneself (self-directed) though it is occasionally spoken loudly, a supposed to external speech, which provides a social function and is intended to address other people [4, p.190]. Traditionally, in the scientific literature, competence is considered in terms of: knowledge, skills and abilities. The organization of the educational process in communicative learning is cyclical. This means that the learning process is divided into cycles that include several lessons. In each cycle, a set of goals is set - cognitive, actually educational, developmental and educational. But since development, cognition and upbringing are carried out through communication, the main feature for highlighting the cycles of lessons is the educational aspect, which ensures the integrity of the methodological and subject content.

Cognition of the culture of the country of the target language is not an end in itself, but only an excuse (means) for a deeper understanding and comprehension of one's native culture. The main thing in the process of cognition is not only the accumulation of information about the country, but also the cognition of people, their peers, their way of thinking, behavior, attitude to universal values.

Each subject contributes to the creation of a holistic view of the world in schoolchildren, but from a certain angle of view. The academic subject "foreign language" by virtue of its specificity, being a means of communication about knowledge, plays a special role in the formation of a sufficiently holistic picture of the world in schoolchildren, it is both a linguistic and sociocultural picture of the world. The specificity of the subject "foreign language" lies in the fact that the leading components of the learning content of the foreign language are not the foundations of sciences, but the methods of their activity: teaching different WFDs: reading, writing, listening, speaking. Another

feature in teaching FL is that the teaching of speech activity is possible only in communication (oral or written). Students mastering sociocultural literacy are faced with a number of rather difficult tasks, and it is very important in psychological and pedagogical terms that these tasks become personally significant for them.

During the entire period of training, a communicative competence is formed, the components of which are: LINGUISTIC; SOCIOLINGUISTIC; DISCUSSIVE; STRATEGIC; SOCIAL

SOCIOCULTURAL knowledge is about the national and cultural characteristics of the country of the target language and the culture of speech behavior.

The ability to apply knowledge about the national and cultural characteristics of the countries of the target language consists of:

Linguistic and cultural knowledge (background signs, realities of the country of the target language, speech and non-speech behavior in situations of oral communication, non-equivalent vocabulary);

Cultural knowledge (natural and climatic conditions, socio-political, economic and social characteristics, the main stages of the historical and cultural development of the country of the target language);

Knowledge about the culture of the country of the target language (traditions and customs, everyday life, peculiarities of the national character and psychology of the country of the target language). The main goal in the study of foreign language is the formation of communicative competence, where all other goals (educational, upbringing and developmental) are realized in the process of achieving this main goal. Communicative competence in its modern sense provides for the formation of the ability for international interaction.

What qualities (properties) of a student's personality must be formed in order for him to be able to participate in intercultural communication in the FL? Based on the foregoing, it is possible to define the development of the following personal qualities necessary for the successful implementation of communication in intercultural communicative situations as an important task of teaching IL, as:

Openness (freedom from prejudice towards people - representatives of another culture);

Tolerance (tolerance) is the ability to hear and listen to the interlocutor, ability to see commonality and characteristics due to national factors, ability to understand and accept cultural differences in behavior of the native language and the language of the studied country.

Readiness for practical use of foreign language as a means of communication with native speakersis the need to independently study FL outside of school hoursThe stated position is presented in the diagram with respect to the objectives of learning the FL. It shows that all the components are interconnected and mutually condition each other.

In order for students to properly comprehend the socio-cultural basics, certain requirements for the teacher are necessary:

Proficiency in the sound side of speech, which meets the orthoepic norms of the taught language;

Ability to competently build and perceive a foreign language by ear;

Possession of vocabulary, which allows teaching students to communicate within the topics and situations provided for by the standards of the foreign language;Cultural knowledge and knowledge of the culture of the taught language.

On the basis of the above, it should be emphasized once again the fact that the mastery of a foreign language without acquaintance with the culture of the country of the target language, with the mentality of people speaking this language, etc. cannot be complete. In other words, it is necessary to master not only the language itself, but also the “image of the world” of those who speak it, since representatives of another culture should not be psychologically “alien” to us.

## REFERENCES

1. Oxford, R . & Shearin, J. ( 1994). Language learning motivation: Expanding the theoretical framework. Modern Language Journal, 78, 12-28.
2. Philp, J., Walter, S. & Basturkmen, H. (2010). Peer Interaction in the Foreign Language Classroom: What Factors Foster a Focus on Form?. Language Awareness, 19(4), 261-279.
3. Sato, M., & Lyster, R. (2012). Peer Interaction and Corrective Feedback for Accuracy and Fluency D evelopment: M onitoring, P ractice, a nd Proceduralization. Studies in Second Language Acquisition, 34(4), 591-626.
4. Vygotsky, L. S . (1981). T he d evelopment o f hi gher f orms of attention in c hildhood. In J . V.Wertsch, e d. The c oncept of ac tivity i n So viet ps ychology. A rmonk, N Y: M .E. Sharpe, 189-239.

**CEYRAN ƏSƏDOVA**
*Dilşünaslıq (Alman dili)*
*Naxçıvan Dövlət Universiteti*
*ceyran.esedova1999@icloud.com*

# AZƏRBAYCAN VƏ ALMAN DİLLƏRİNDƏ CÜMLƏNİN İKİNCİ DƏRƏCƏLİ ÜZVLƏRİNİN SİNTAKTİK TƏHLİLİNƏ DAİR

Alman dili mürəkkəb qrammatik quruluşa malik olan dillərdən biridir. Alman dilini öyrənərkən mütləq şəkildə çətinliklər qarşımıza çıxır. Bu ondan irəli gəlir ki, alman və azərbaycan dilləri müxtəlif sistemli dillər qrupuna (Hind–Avropa və Türk dilləri qrupu) daxildirlər. Qafqaz dilləri haqqında bəzi tədqiqatçıların müxtəlif fikirləri olmuşdur. Məsələn, alman alimi F.Bopp Qafqaz dillərinin iber qrupunun genetik cəhətdən hind-Avropa dilləri ailəsi ilə qohum olduğunu göstərməyə cəhd etmişdir. M.Müller Ural-Altay dillərinə qohum olduğunu göstərmişdir. N.Marr isə iber dillərinin Sami dillərdən ərəb və yəhudi dilləri ilə qohumluq əlamətləri olduğunu vurğulamışdır. O, burada, əsasən, gürcü, zan və svan dillərini nəzərdə tutmuşdur (4,s.245). Lakin buna baxmayaraq müqayisəli şəkildə dil öyrənmə həmin dilin mənimsənilməsini asanlaşdırır. Alman dilinin qrammatik qanunları düzgün söz sıralı nəqli cümlənin əvvəlində subyektin, ondan sonra predikatın durmasını tələb edir. Azərbaycan və alman dilinin hər birinin özünəməxsus milli, mənəvi sərvətlərinin yaradılması, dillərinin tipoloji fonetik semantik-morfoloji sintaktik baxımdan öyrənilməsi bu dillərin müxtəlif məzmunlu fərqli üslublu mətnlərinin bir-birinə tərcümə olunması, yazılışca və deyilişcə fərqlənən xüsusi adların, söz və terminlərin transliterasiyası yolu ilə çatdırılması və təhlili həm dil nəzəriyyəsi, həm də müqayisəli dilçilik üçün dəyərli bir elmi hadisədir.

Aydındır ki, sintaksisin obyekti olan cümlənin tədqiqini həmin vahidin özəyində duran mübtəda-xəbər münasibətini araşdırmadan həyata keçirmək qeyri-mümkündür. İstər alman, istərsə də Azərbaycan dilində cümlənin ikinci dərəcəli üzvlərinin cümlədəki yerində oxşar və fərqli cəhətlər mövcuddur. . Ümumiyyətlə, cümlə üçün subyekt və predikatın vacibliyi əksər dilçilər tərəfindən irəli sürülür. Subyekt və predikat münasibəti hər bir cümlənin əsasını təşkil edən əsas münasibətdir. Bu münasibət subyektlə predikat arasındakı tabelilik formasındadır. Predikativ münasibətdə olan bu üzvlər bir-birinin yaradıcısı olur, biri digərinin mövcudluğunu təmin edir. Bununla belə, istər alman, istərsə də Azərbaycan dilində cüttərkibli cümlələrlə (//Der Arzt untersucht den Kranken// (Həkim xəstəni müayinə edir), yanaşı, Y.Risin təbirincə demiş olsaq, azlıq təşkil edən təktərkibli cümlələr də işlənir.

Alman və Azərbaycan dillərinin müqayisəli şəkildə öyrənilməsinin elm və mədəniyyətin müxtəlif sahələrində böyük əhəmiyyəti vardır. Müstəqillik dövründə xarici dillərin öyrənilməsinə böyük maraq vardır. Bu, təkcə maraq olaraq qalmır, həm də tipik səhvlərin təhlilinə yol açır. Dövrümüzdə bir neçə dil bilmək zəruri bir hala çevrilmişdir. Tədrisin bütün mərhələlərində leksik - semantik cəhətdən zəngin, məntiqi cəhətdən rabitəli nitqin əldə olunmasına cəhd göstərilir. Azərbaycan və alman dillərində cümlənin ikinci dərəcəli üzvlərinin təhlilinə müasir yanaşmalar hər iki dilin imkanlarının sintaktik quruluşunun zəngin və çoxşaxəli olduğunu göstərir. Vaxtilə– hələ mərhum professor Əziz Əfəndizadə metodikamıza rəhbərlik etdiyi dövrdə belə, deyərdi ki, "sintaktik təhlil" dərin anlayışdır. "Onun aparılması sistemi" geniş dairədə dərk olunmalıdır (2, s.33).

İkinci dərəcəli üzvlərdən tamamlıq və zərflik yalnız xəbərə aid olur və xəbəri izah edib aydınlaşdırır. Təyin əşya bildirən bütün üzvlərinə - mübtədaya, tamamlığa, zərfliyə və ismi xəbərə aid ola bilir. Tamamlıq (das Objekt) Sözönüsüz işlənən tamamlıqların sualları: Wen? -kimi? Was? - nə? Wem? - kimə? nəyə? Wessen? - kimin? nəyin? Sözönü ilə işlənən tamamlıqların sualları? auf wen? - kimi? an wen? - kimi? woran? -nə? nə üzərində? worauf? - nəyi? wovon?-nədən? womit?-nə ilə? von wem? -kimdən ? bei wem? - kimdə? Tamamlıq ifadə oluna bilər: 1. Akkusativ, Dativ və Genitiv -də duran isim və ya əvəzliklə 2. Tamamlıq məsdərlə ifadə oluna bilər. Onun "zu" və ya "zu " - suz işlənməsi feldən aslıdır. Wir lernen deutsch sprechen. - Biz almanca danışmağı öyrənirik. 3.

Tamamlıq budaq cümlə ilə ifadə oluna bilər. 4. “ich” - qayıdış əvəzliyi tamamlıq kimi işlənir. Akkusativdə sözönüsüz işlənən tamamlıq vasitəsiz tamamlıq, qalan tamamlıqlar isə vasitəli tamamlıqlar adlanır. Vasitəsiz tamamlıqlar həmişə təsirli fellərlə (transitive Verben) vasitəli tamamlıqlar ilə təsirsiz fellərlə (in transitive Verben) işlənir. “ich” - qayıdış əvəzliyi mübtəda isimlə ifadə olunarsa felin təsrif olunan hissəsindən sonra, mübtəda əvəzliklə ifadə olunarsa mübtədadan sonra durur. Oben befindet sich eine Bibliothek. - Yuxarıda kitabxana yerləşir. Jeden Morgen wasche ich mich mit kaltem Wasser.- Hər sabah mən soyuq su ilə yuyunuram.

Təyin (das Attribut) Təyin isimlə ifadə olunmuş hər hansı bir cümlə üzvünə aid olur. Bu suallara cavab verir: Welcher? Welches? Welche? - hansı? Was für ein? - hansı? necə? Wessen?- kimin? nəyin? haranın ? Wieviel? - neçə? Təyin aid olduğu cümlə üzvü ilə aşağıdakı hallarda uzlaşmayada bilər: 1. Təyin hallanmayan nitq hissəsi ilə ifadə olunduqda (məsələn miqdar sayları) fünf Studenten - beş tələbə 2. “allerlei” (hər cür), “mancherlei” (bəzi) əvəzliklərindən sonra allerlei Bücher - hər cür kitablar 3. Hallanmayan bəzi sifətlərdən sonra (lila -bənövşəyi, rosa - çəhrayı, prima - əla) 4. Coğrafi adlardan - er suffiksi ilə əmələ gələn sifətlərdən sonra Das Berliner Theater - Berlin teatrı 5. “ganz“ (bütün), “halb”(yarısı) sifətləri xüsusi adlarla işləndikdə ganz Berlin -bütün Berlin 6. Atalar sözləri, ifadələrdə, poeziyada və xalq üslubunda isimdən əvvəl gələn sifətlər qısa formada işlənir. Er war gut Freund mit allen. - O, hamı ilə yaxşı dost idi. Təyin aid olduğu isimdən sonrada gələ bilər: 1. İsimlə ifadə olunmuş təyin Genetiv halında durur: der Schüler unserer Klasse - bizim sinifin şagirdi 2. Sözönlü isimlə ifadə olunmuş təyin: der Schüler aus unserer Klasse - bizim sinifdən olan şagird. Genişləndirlimiş təyin- Bir neçə sözdən ibarət təyindir.

Zərflik (die Adverbialien) Yer zərfliyi (das Adverbiale des Ortes) - Wo? - harada?, Wohin? - haraya? Woher? - haradan? Zaman zərfliyi (das Adverbiale der Zeit) - Wann? - nə vaxt? Seit wann? - nə vaxtdan bəri? Bis wann? - nə vaxta qədər? Wie lange? - nə qədər? Wie oft? - nə tezlikdə? Tərzi - hərəkət zərfliyi (das Adverbiale der Art und Weise) - Wie? - necə? Auf welche Weise? - necə? Səbəb zərfliyi (das Adverbiale des Grundes) - Warum ? - nə üçün? Auf welchem Grund? - hansı səbəbdən? Məqsəd zərfliyi (das Adverbiale des Zieles, des Zweckes) - Wozu?- nə üçün? Zu welchem Zweck?- hansı məqsəd üçün? Cümlədə bir neçə zərflik olarsa nəzərə çarpdırılan zərflik cümlənin əvvəlində yazılır. Adətən cümlə yer və zaman zərfliyi ilə başlayır. Əgər bağlayıcı zərfdən əmələ gələrsə, onda söz sırasına təsir edir, belə ki, ondan sonra xəbər gəlir. deshalb - ona görə, darum- ona görə, deswegen - ona görə, dann - sonra, also - deməli, und zwar - yəni, endlich - nəhayət , das heiß - bu o deməkdir ki (5, 98). Zərflər cümlədə, adətən hərəkətlə əlaqələnib, hərəkətin əlamətini bildirir, lakin alman dilində zərflər bir-birləri ilə və eləcə də sifə ilə əlaqələndirilə bilər, məsələn

Sie spricht gut. O yaxşı danışır.

Er spricht ziemlich gut

O, olduqca yaxşı danışır.

Sie hat eine sehr schöne Aussprache. Onun çox yaxşı tələffüzü var (1. s.271). Azərbaycan dilində də, alman dilində olduğu kimi, zərflər quruluşca sadə, düzəltmə və mürəkkəb olur. Qrammatik planda sifətin bu dildə zərfə keçidi aqlütinativ dillərdə olduğu kimi əvvəlki qrammatik kateqoriyaların itməsi və sintaktik funksiyaların dəyişməsi ilə müşayiət olunur. M.D.Stepanovanın fikrincə, alman dilində bir sıra zərflər vardır ki, eyni cür səslənən sifətlərdən semantik olaraq ayrılmışlar: bloß, gleich, eben,gerade və s. (6, s.134). Alman dilində cümlələrdə zərflərin işlənmə dairəsi aşağıdakı kimidir:

**Fellərdən əvvəl və ya sonra:** *İch lese gern.* (Oxumağı sevirəm.) *Das habe ich hierhin gestellt.* (Bunu buraya qoydum).

**İsimlərdən əvvəl və ya sonra:** *Der Mann da, der guckt dich immer an.* (Oradakı adam həmişə sənə baxır).*Da,am Strand gibt es ein Boot.* (Orada sahildə bir qayıq var).

**Sifətlərdən əvvəl və ya sonra:** *Diese Frau ist sehr schön.* (Bu qadın çox yaraşıqlıdır).İch werde spätestens innerhalb von drei Wochen zurückkehren. (Ən gec üç həftəyə qayıdacağam).

Məlum olduğu kimi, “Azərbaycan dili” və Alman dili” fənlərinin təlimi sahəsində ölkəmizdə böyük ənənə yaranmış və geniş təcrübə toplanmışdır. Son dövrlərdə bu fənlər üzrə yeni təhsil proqramları (kurikulumları) hazırlanarkən bu baxımdan həm Azərbaycanda, həm də dünyanın inkişaf

etmiş ölkələrində mövcud vəziyyət öyrənilərək təhlil olunmuş, yeni fənn standartlarının yaradılmasında onlara istinad edilmişdir. Situasiyadan asılı olaraq yaranan cümlələr tərkibcə müxtəlif olduğundan onlarda ifadə olunan məlumat müxtəlif tərzlərdə dinləyicilərə çatdırılır. Məs: /Die Sonne scheint// cümləsində informasiya feli xəbərlə ötürülür. Deməli, feli xəbər fikrin daşıyıcısıdır. Burada fikrin tamamlanması üçün əlavə bir üzvə ehtiyac duyulmur. Çox halda isə fel təklikdə fikrin tamamlanması üçün başqa bir üzv tələb edir və onunla birlikdə fikrin tamamlanması başa çatır. Belə vəziyyətdə fel ifadə olunan fikirdə nüvəni təşkil edir. Onunla əlaqədə olan digər üzvlər (tamamlıq, zərflik və s.) isə fikrin tamamlanmasında yardımçı rol oynayır. Məsələn: Die ruft das Kind // Die Mutter. Alman dilində də sifətlər xəbər və təyin vəzifələrində işlədilir. Xəbər vəzifəsini daşıyan sifət köməkçi fellər vasitəsilə mübtəda ilə əlaqələndirilir. Alman dilində sifətlərin işlənmə xüsusiyyətlərinə fikir verərkən aydın olur ki, alman dilində xəbər vəzifəsini daşıyan sifətlər cins və kəmiyyət şəkilçisi qəbul etmir. Aşağıdakı nümunələr yuxarıda dediklərimin bariz nümunəsidir:

Das Museum ist reich - Muzey zəngindir Aserbaidschan ist reich- Azərbaycan zəngindir. Təyin vəzifəsi daşıyan sifət, ana dilimizdə olduğu kimi, bilavasitə ismin qabağına gəlir.Alman dilində isimdən qabaq artikl və ya əvəzlik gələrsə, o vaxt sifət təyini artikl və ya əvəzlik ilə ismin arasında durur (3, s.48).

Azərbaycan dilinin müxtəlif üslublu mətnlər üzərində öyrədilməsi texnologiyası praktik əhəmiyyəti olan təcrübə kimi genişləndirilmiş, onun icbari təhsil səviyyəsində ədəbiyyatla birləşdirilərək inteqrasiya olunması imkanları reallaşdırılmışdır. Əslində bu reallıq hər iki fənnin məqsəd və vəzifələrinə uyğun olaraq hazırlanmış sinif standartlarındakı oxşarlıqdan irəli gəlmişdir.

## ƏDƏBİYYAT

1. Alman dilinin qrammatikası. Bakı: “Təfəkkür” NPM, 2009, 288 səh.
2. Əfəndizadə Ə.R. Azərbaycan dili təliminin prinsipləri haqqında. //Azərbaycan dili və ədəbiyyatı tədrisi. Bakı: 1981, №1, s.31-36
3. Əliyev Ə.Q. Alman dilinin qrammatikası. Bakı: 1959, 230 səh.
4. Nəriman Seyidəliyev. Afad Qurbanov və ümumi dilçilik. Bakı: 2019, 424 səh.
5. Səfiyev R. Alman dilinin qrammatikası. Bakı: 2018, 117 səh.
6. Orucova S. Dildə konversiya hadisəsi. Bakı: “Elm və təhsil”, 2018, 168 səh.

**ŞAİQ QULİYEV**
*Dilşünasliq (Fransız dili)*
*Naxçıvan Dövlət Universiteti*
*saiqquliyev44@gmail.com*

## XARİCİ DİLİN ÖYRƏNMƏ METODLARI VƏ İNSAN HƏYATINDA ROLU

Dil bilginin, məlumatın ötürülməsi ehtiyacından yaranmışdır desək yanılmarıq. Odur ki, dil biliyin təcrübənin səsli və sözlü təzahürüdür deyə bilərik.

Lakin bu heç də o demək deyil ki dil təcrübənin nəticəsi olaraq meydana gəlmişdir. Dilçilyin əsas vəzifələrindən bir onun əsas obyekti olan sözlü ünsiyyəti açıb göstərməkdir. Dilçilik ilk növbədə Dil nədir?sualına cavab verir. Bu zaman iki cəhət fərqləndirilməlidir. 1) ümumi insan fəaliyyətinin nəticəsi olan dil. 2) konkret tarixi .sosial və coğrafi mühitdə formalaşmış dil. Coğrafi aspektdən yanaşarkən qeyd edə bilərik ki ,dil insanın düşdüyü mühitdən aslıdır. O cümlədən müasir dövrümüzdə xarici dilin rolu da danılmazdır.xarici dilinöyrənilməsi və öyrədilməsi metod və vasitələrindən danışarkən, bu yolda azərbaycan dilçiliyinin müxtəlifliyi və rəngarəngliyidə öz mövqeyində durur. Xarici dili tam real ünsiyyət vasitəsi kimi tədris edib öyrətmək lazımdır. Tədris prosesində təbii situasiyalar quraraq, xarici dildə diskusiyalar apararaq real ünsiyyət şəraiti yaratmaq ən önəmli ünsürlərdən biridir. Dil öyrənmək tək verbal faktorlardan asılı deyil, çünki ünsiyyətdə effektivlik yaratmaqda komunikativ səriştə, etiket qaydaları və digər qeyri-verbal faktorlar da mühüm rol oynayır. Dil öyrənmə prossesində ana dili və ya xarici dil öyrənməsi kimi ciddi qəbul edilməsi lazım olan və yaşa görə konkret olaraq sübut edilə bilən bəzi kritik dövrlər var.Bu dövrlər ailə-məktəb mühiti tərəfindən kifayət qədər əhatə olunmadığı təqdirdə, həm ana dili,həm də xarici dil öyrənmə ilə bağlı işlərdə böyük problemlər yaranır .Xarici dilin öyrənilməsində kritik dövrlərin mövcudluğu əlaqəli fənlərdən (məsələn,dilçilik ,neyrolinqivistika ,fiziologiya və digərləri ) məlumat və tapıntılar ilə müəyyən edilmişdir. Xarici dilin öyrənilməsində şifahi nitq fəaliyyətinin əsas bu növlərinə riayət olunmalıdır: - reseptiv (oxuyub anlama və dinləyib anlama) - produktiv ( öz fikrini şifahi və yazılı ifadə edə bilmə) - interaktiv (iki və daha çox fərd arasında reseptiv və produktiv fəaliyyətlərin qarşılıqlı mübadiləsi və dəyişməsi)-mediasiya əlaqələndirici fəaliyyət (interpretasiya və tərcümələrlə mənimsəmə) .Xarici dildə istifadə olunan sözlərin mənası və qrammatik qaydaları bilməklə dil baryerini aşmaq müxtəlif mədəniyyətlərin nümayəndələri ilə ünsiyyət qura bilmək üçün kifayət etmir.Bunun üçün öyrənilən dilin aid olduğu dünyanı dərindən tədqiq edərək mədəni baryeri də aşmaq çox vacibdir. Fərqli mədəniyyətlərə xas bəzi millispesifik komponentlər mədəniyyətlər arasında ünsiyyət qurmaqda çətinliklər yaradır. Öyrənilən dilin aid olduğu mədəniyyəti bilmədən dili ünsiyyət vasitəsi kimi öyrənmək mümkün deyil. Kommunikativ səriştəliyin səmərəliyini artırmaq üçün dil daşıyıcısının mədəni aləminə daxil olaraq onun həyat tərzi, mentaliteti, adət-ənənələri milli spesifik xüsusiyyətlərini araşdırmaq və öyrənmək lazımdır. Xarici dil kimi sırf fransız dilinin tədrisindən bəhs etdikdə fransız dilinin zənginliyi və rəngarəngliyi ilə yanaşı Fransanın tarixi, ədəbiyyatı, musiqisi, milli mətbəxi kimi mədəni dəyərləridə diqqət mərkəzinə gəlir. Fransız xalqının mədəni xüsusiyyətlərini, milli mentalitetini və həyat tərzini araşdırmadan Fransız dilini qrammatik konstruksiyalar üzərində tədris etmək dərs prosesində yüksək nəticə əldə etməkdə və bu dili öyrənməkdə çətinlik törədir.

Xarici dili öyrənmək ikinci bir mədəniyyəti mənimsəməkdir. Bu fərqli mədəniyyətə aid olan ünsürləri müəyyən etmək və mədəni fərqləri analiz etmək üçün müxtəlif metod və metodologiyalardan istifadə olunur. Bunun nəticəsində hansı mədəni dəyərlər və hansı davranışlar prioritet hesab olunursa, həmin faktorlar tədris prosesində daha da geniş təhlil edilir. Düşüncə tərzi, mədəniyyət və dil arasında olan əlaqə, mədəni fərqlər və oxşarlıqların araşdırılması və onların tədris prosesində təhlili xarici dilin daha mükəmməl formada öyrənilməsinə şərait yaradır.Mədəniyyət dildən asılıdır və dilə təsir göstərir. Xalqın mədəniyyətinin və dilin qarşılıqlı təsir prosesi bir aksiomadır. Dil və mədəniyyətin qarşılıqlı təsiri zamanı dildən istifadə qaydalarına nitq icması

daxilində insanların danışıqlarının qiymətləndirilməsinə, nitq şəbəkəsinə, onların sosial və kultural inamlarının qiymətləndirilməsinə, cəmiyyətin necə qurulmasına, cəmiyyət daxilindəki insanların bir-biri ilə necə qarşılıqlı fəaliyyət göstərməsi prinsipləri nə baxılır. Son zamanlarda öyrənmənin bu növü xarici dil mənimsənilməsində müəyyən töhfələr vermişdir. Aparılan tədqiqatların nəticəsinə əsasən, xarici dilin öyrənilməsi prosesinin ətraf mühitlə bağlı sözlərlə əlaqələndirilməsi tələbələrə dil bacarığını inkişaf etdirmək, ətraf mühitlə əlaqəli konsepsiyaların başa düşülməsini təkmilləşdirmək və müxtəlif layihələr vasitəsilə qlobal cəmiyyətə cəlb olunmaq imkanı verir. Azərbaycan təhsil sistemində tələbələrin real həyat situasiyalarında qazandıqları bilik, bacarıq və vərdişlərin tətbiq olunması prossesi yalnız pedaqoji təcrübə ilə kifayətlənir. Müəyyən hallarda öyrənənlər fərdi olaraq təcrübə proqramlarına, yaxud könüllü fəaliyyətlərə cəlb olunurlar. Öyrənmənin bu növündə isə bilik, bacarıq və vərdişlərin real situasiyalarda tətbiq edilməsi ilə yanaşı, cəmiyyətə faydalı xidmət təqdim olunur. Xarici-dil dərslərində məhz bu cür öyrənmənin reallaşması öyrənənlər üçün maraq doğurar və dil öyrənmək üçün motivasiya mənbəyinə çevrilə bilər.

## ƏDƏBİYYAT

1. Yusifov M. Linqivistik tipologiya. Bakı; Elm və Təhsil, 2017, 184 s
2. Axundov A.A. Dil və ədəbiyyat. Bakı. 2003. 658 s.
3. Veysəlli F.Y   Kazımov Q.Ş. 2014 dilçiliyin funksional qrammatikası.180 s
4. Həsənova.S  Əli bəy Hüseynzadənin  dilçilik görüşləri .B. 2006,100s
5. Humboldt fon. V. Dillərin milli xarakteri haqqında Bakı. Prestij. 2014. 138 s

# İCTİMAİ-SİYASİ ELMLƏR

**TURAL CƏFƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*huseynoglu88@inbox.ru*

## AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN HÜQUQLARI

Cəmiyyətin və dövlətin inkişafı insan hüquqlarına hörmət olmadan, insan hüquqlarının nə olduğunu dərk etmədən mümkün deyil. Çünki insan hüquqları demokratiyanın ali prinsiplərindən biri sayılır. Hər bir demokratik cəmiyyətdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması ən ümdə vəzifə hesab olunur. İnsan hüquqları hüququn ən gənc sahələrindən biri olmaqla yanaşı insanların maraqlarının qorunmasına xidmət etdiyindən daim cəmiyyətin nəzər nöqtəsində olmuşdur. İnsan hüquqlarının əsas inkişaf yolu son 3 əsrin payına düşür. Belə ki, 18-ci əsrdə Avropada yaşamaq hüququ, azad olmaq hüququ, söz və vicdan azadlığı, təhlükəsizlik və mülkiyyət hüququ kimi ayrılmaz insan və vətəndaş hüquqları meydana çıxmışdır ki, bu hüquqların tanınıb qorunması insan hüquqları sahəsində ilkin mərhələ hesab oluna bilər. 19-cu əsrdə əldə olunmuş siyasi hüquqlar kimi təsnifləşdirilən respublika quruluşu, ümumi seçki, gizli səsvermə, xalq özünüidarəsi, cəmiyyət və birliklərin sərbəstliyi, siyasi həyatda və hakimiyyət sistemində iştirak etmək hüquqları insan hüquqlarının formalaşmasında ikinci mərhələni təşkil edir. 20-ci əsrdə bütün bu hüquqlar sırasına əmək, sosial təminat hüququ, qadın bərabərliyi və uşaqların müdafiə hüquqları, təhsil, tibbi yardım hüquqları kimi daxil olan sosial hüquqlar insan hüquqları ideyasının yekun mərhələsi hesab oluna bilər.

Bütün digər sahələrdə olduğu kimi, hüquqi, demokratik və vətəndaş cəmiyyətli dövlət quruculuğunda inamlı və qətiyyətli addımlarını atan Azərbaycanda da insan hüquqları sahəsində islahatların aparılması, zəruri hüquqi bazanın və institusional əsasların formalaşması məhz 1990-cı illərin əvvəllərində baş vermişdir. Müstəqil Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə qəbul etdiyi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nda bir sıra müddəalar irəli sürmüşdür ki, bu müddəalar 1995-ci ildə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunmuş, ilk milli Konstitusiyamızın da başlıca qayəsinin insan hüquqlarının və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi olduğunu bəyan etdi. Bu hadisə 1918-ci il may ayının 28-də qəbul edilmiş Azərbaycanın İstiqlal Bəyannaməsinin davamı kimi qiymətləndirilə bilər. Çünki Müsəlman dünyasında ilk dəfə olaraq kişilərlə bərabər, qadınlara seçkilərdə iştirak etmək – seçmək və seçilmək hüququnun verilməsi tarixi nailiyyətimizdir. Bununla da, nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ Azərbaycanda verilmiş oldu.

Konstitusiyanın qəbul ediməsi, xalqımızın həyatında və dövlətçiliyimizin qurulmasında yeri bir mərhələnin başlanğıcını qoydu, hüquqi dövlət quruculuğu sahəsində yeni imkanlar açdı, siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratdı. Müxtəlif illərdə referendum yolu ilə Konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasına, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəlmişdir. Konstitusiyamızın üçdəbir hissəsinin insan hüquq və azadlıqlarına və onların təminatına həsr edilməsi Azərbaycan Respublikasının demoratik dəyərlərə nə qədər önəm verdiyinin ilkin ifadəsidir. Hüquq və dövlətin ən mühüm prinsiplərindən biri insanların təbii, ayrılmaz və demokratik hüquqlarını təsbit etmək, onun reallığına təminat vermək, hər hansı qəsddən hüquqi vasitələrlə və etibarlı şəkildə müdafiə etməkdir. Bu meyarlar Konstitusiyamızda öz əksini tam dolğunluğu ilə tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını ali dəyər kimi qiymətləndirərək, onlara hörməti, insan hüquq və azadlıqlarının qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının əsas vəzifəsi kimi müəyyən etmişdir. Bu da bir həqiqətdir ki,

dövlət orqanlarının səmərəli fəaliyyəti, qarşıda duran vəzifələrin və funksiyaların uğurla yerinə yetirilməsi, ilk növbədə yüksək ixtisaslı, müasir dünyagörüşünə malik, ədalətli, prinsipial və bacarıqlı kadrların sayəsində mümkündür. Dövlət məmurları insan hüquqlarının səmərəli və etibarlı təmin olunması kimi ümumdövlət maraqlarını rəhbər tutmağa borcludurlar. Bu vəzifələrin şərəflə və vicdanla yerinə yetirilməsinə dövlət tərəfindən birbaşa nəzarət olunur.

Ölkəmizdə insan hüquq və azadlıqlarına verilən böyük önəmin daha bir təzahürü Heydər Əliyevin 1998-ci il fevralın 22-də imzaladığı "İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmandır. Bundan sonra Azərbaycan Respublikası Prezidentinin 18 iyun 1998-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” bu sahədə qanunvericilik və digər islahatların həyata keçirilməsinə yeni bir təkan vermiş oldu. Həmin Dövlət Proqramı əsasında, eləcə də ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq, 2002-ci ildə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) institutu təsis edilmişdir. 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanununun qəbul olunması və Ombudsman institutunun təsis edilməsi ölkəmizdə insan və vətəndaş hüquqlarının daha etibarlı və sərbəst şəkildə qorunmasına öz layiqli töhfəsini vermiş oldu.

İnsan hüquqlarının qorunmasını və inkişafını diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev bu məqsədlə 2006-cı il dekabrın 28-də "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nı təsdiq etmişdir. Milli Fəaliyyət Planı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına yeni təkan verdi. İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Prezident İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edildi. Bu proqram ölkədə insan hüquqlarının müdafiəsi sahəsində aparılan davamlı tədbirlərin tərkib hissəsi olmaqla bir daha göstərdi ki, insan hüquqlarının müdafiəsi Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin prioritetlərindən biridir. Bütün bunlar ölkəmizdə insan hüquq və azadlıqlarının təmini istiqamətində daha qətiyyətli və prinsipial addımlar atmağa imkan yaradır.

Prezident İlham Əliyevin 2007-ci il 17 iyun tarixli Fərmanı ilə Azərbaycanda iyun ayının 18-i İnsan Hüquqları günü kimi qeyd olunur. 18 iyun 1998-ci ildə ölkəmizdə “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”nın təsdiq edilməsi və bu sahədə dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən olunması nəzərə alınaraq Azərbaycanda İnsan Hüquqları günü təsis edilib. Bütün bunlar ölkəmizdə insan, vətəndaş hüquq və azadlıqlarının qorunması işinin bu gün də təkmilləşdirildiyini, bu sahədə məqsədyönlü tədbirlərin həyata keçirilməsinin uğurla davam etdirildiyini bir daha sübut edir.

Qloballaşan cəmiyyətimizdə hər bir insan və vətəndaş hüquqlarının dünyada baş verən ən son yeniliklərlə bağlı dəyişərək müdafiə olunması istiqamətində bundan sonra da əməli addımların atılacağı şübhə doğurmur. Çünki beynəlxalq birliklərlə qarşılıqlı əməkdaşlıq və öhdəlik prinsiplərinə daim əməl edən ölkəmiz bundan sonra da insan hüquqlarının daha etibarlı müdafiəsi sahəsində nəinki regionda hətta dünyada nümunə olaraq göstərilməyə davam edəcəkdir.

**TƏBRİZƏ BAĞIROVA**
*Beynəlxalq münasibətlər və diplomatiya*
*Naxçıvan Dövlət universiteti*

# XƏZƏRİN DƏNİZİNİN HÜQUQİ STATUSU: XƏZƏRİN ENERJİ RESURSLARI VƏ NƏQLİ PROBLEMLƏRİ

Xəzər dənizi Asiya və Avropanın sərhəddində, beynəlxalq geosiyasət üçün əhəmiyyətli strateji region olan Orta Şərqdə yerləşir. Dünyada duzlu suyun miqdarına görə birinci olan Xəzər dənizi beş sahilyanı dövlətlə: şimalda Rusiya Federasiyası, cənubda İran İslam Respublikası, qərbdə Azərbaycan, şərqdə isə Qazaxıstan və Türkmənistan Respublikaları ilə əhatə olunmuşdur.



SSR dağılmadan əvvəl, 1991-ci ilə qədər Xəzər dənizi SSR və İran İslam Respublikası arasındakı müqavilə əsasında istismar olunurdu. Lakin, SSR-nin süqutundan sonra idarəetmə və delimitasiyada qanuni boşluq meydana gəldi. Bütün sahil dövlətləri dənizin dibi və suyun səthinin delimitasiyasının bölünməsi ilə bağlı mübahisələri həll etmək üçün çoxtərəfli bir müqavilənin ideal olduğu qərarında idilər. Otuz ildən çoxdur ki, Xəzər sahili dövlətlər müxtəlif səviyyələrdə çoxsaylı görüşlərdə, o cümlədən dövlət və hökumət başçılarının zirvə görüşlərində Xəzər probleminin həlli üzərində çalışırlar.

Lakin, Xəzər sahili dövlət başçılarının iştirakı ilə keçirilən 4 zirvə görüşü və xarici işlər nazirləri səviyyəsində 40-dan çox xüsusi qrup iclaslarının keçirilməsinə baxmayaraq, hər bir tərəfdaşı qane edəcək həll yolu hələ də tapılmayıbdır.

Bu məsələnin həllində böyük çətinliklər var, beynəlxalq qanunlar belə adekvat bir nəticə təmin etməkdə uğursuzdur. Keçmişdəki bütün müqavilələr naviqasiya və az dərəcədə balıqçılıq hüquqları ilə əlaqədar olub, lakin dəniz dibi mədənləri ilə əlaqəli əsaslı heç nə yoxdur.

Naviqasiya və balıqçılıq hüquqları mineral ehtiyatların istifadəsi hüququ ilə qarışdırılmamalıdır. Mineral ehtiyatlara görə su qatı deyil, dənizin dibi nəzərə alınır. Təktərəfli, ikitərəfli və çoxtərəfli razılaşmalar zamanı fərqli maraqlar səbəbi ilə uğursuz nəticələr əldə edilir. Keçmişdə, dənizi bölmək üçün qanunların icrasına görə ciddi maneələr var idi, bir neçə sahənin inkişafı və bağlanması, eyni zamanda transxəzər nefti də daxil olmaqla bir çox layihə və qaz kəmərlərinin taleyi nümunə ola bilər. Axı, Xəzər dənizinin dibi sahilyanı dövlətlər arasında necə bölünə bilərdi ki, karbohidrogen yataqlarının hansı ölkənin sektoruna düşəcəyini müəyyənləşdirmək mümkün olsun?

Xəzər dənizinin hüquq çərçivəsi haqqında hər hansı bir araşdırma hüquqi status və hüquqi rejim arasında fərqləndirilməlidir. Bütün Xəzəryanı dövlətlər neft və qaz yataqlarına sahiblik mübahisələrində az da olsa iştirak etmişdir. Ən ciddi olanlar Azərbaycanla Türkmənistan və Azərbaycanla İran arasındadır. Rusiya-Qazaxıstan mübahisəsi diplomatik yolla idarə edilmişdir. Hər iki ölkənin prezidentləri May 2002-ci ildə bir protokol imzaladı. Azərbaycan ilə Türkmənistan arasında ilk mübahisəüç böyük dəniz yatağı ilə əlaqəlidir. Sahələr - Azəri, Çıraq və Günəşli. 20 Sentyabr 1994-cü ildə, Azərbaycan və 6 xarici neft şirkətlərinin imzaladığı "Əsrin müqaviləsi" bu problemləri həll edib, neftinin dünya bazarına çıxarılmasını təmin etdi. Ancaq, Türkmənistan Azəri və (qismən) Çıraq yataqlarının Türkmənistan ərazi sularında olduğunu iddia etdi.

Başqa bir sahə, Alov yatağı (İranda Alborz adlanır) Azərbaycan və İran arasında mübahisə mövzusudur. 1998-ci ilin iyul ayında Azərbaycanla imzalanan müqavilə və neft şirkətlərinə seysmik əməliyyatlar aparmaq üçün icazə verilməsinə İran qəti şəkildə qarşı çıxdı. 23 İyul 2001-ci il tarixində BP şirkəti ərazidə qazma və araşdırma işlərini dayandırdı. Bundan sonra, İran Braziliya ilə müqavilə

imzaladı, lakin beynəlxalq sanksiyalar Braziliyanı İranı tərk etməyə məcbur etdi. 23 fevral 2016-ci il tarixində, Azərbaycan prezidenti İlham Əliyevin Tehrana səfərinin ardından bu mübahisəli məsələ birlikdə istifadə etməyi prinsipcə qəbul edən İranla Azərbaycan arasında razılıq əldə olundu.

Xəzərin hüquqi statusu 1921 və 1940-cı illərdən etibarən Sovet İttifaqı dağılana qədər Sovet-İran müqavilələri ilə idarə olunurdu. O vaxtdan bəri qanunda qeyri-müəyyənlik yarandı, keçmiş olsa belə müqavilələr hələ də bütün Xəzəryanı dövlətlər (yeni müstəqil dövlətlər daxil olmaqla) üçün məcburidir. Xəzər dənizinin hüquqi statusuna gəldikdə, keçmiş müqavilələrin heç biri qanun üçün konkret cavab təmin etmir. Yalnız, Sovet-İran dənizi olduğunu qeyd edirlər. Keçmiş müqavilələrin heç birində dəniz sərhədləri yoxdur və Xəzər dənizindəki delimitasiya xətləri Sovet və İran hissələri arasında təmin edilir. Hər nə qədər sahilyanı dövlətlər bu məsələni 30 ildən çoxdur müzakirə etsə də, demarkasiya ilə əlaqəli (kim nə alır və necə) problemlər demək olar ki, hələ də həll olunmayıbdır. Bölgədəki güclərdən hər hansı birinin ziddiyyətli maraqlara və prioritetlərə sahib olması transxəzər boru kəmərlərinin alovlanması ehtimalını, maraqların toqquşması və müxtəlif güclər arasında geopolitik rəqabətin yaranmasına gətirib çıxarır. Bölgədə dövlətlər arasında siyasi fikir ayrılıqlarının mövcudluğu qaçınılmazdır. Xəzər hövzəsindəki hərbi təhlükəsizlik təmin edilərsə, İran və Rusiyanın hüquqi bazası zəifləyəcəkdir. Vladimir Putinin 2002-ci ildə dediyi kimi, “Xəzərin gələcəyi burada maraqları toqquşan sahil dövlətlərin hərbi vəziyyətinin necə olacağından asılı olacaq.”

Xəzər dənizinin dibində çoxsaylı neft yataqlarının olması səbəbindən hüquqi status məsələsi çox vacib idi; bəzi ölkələr hətta mübahisəli bölgələrdə tarlaları inkişaf etdirməyə çalışdılar və demək olar ki, hərbi hadisələrə səbəb oldular. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın hazırlanması üçün 1996-cı ildə Xəzəryanı dövlətlər tərəfindən xarici işlər nazirinin müavinləri səviyyəsində xüsusi işçi qrupu yaradıldı. Konvensiyanın təsdiqlənməsi illərində (1996–2018) tərəflər arasında xüsusi işçi qruplarının 51 iclası, xarici işlər nazirlərinin ondan çox iclası və 2002-ci ildə Aşqabadda, 2007-ci ildə Tehranda, 2010-cu ildə dörd prezident sammiti keçirilmişdir.

Konvensiya hər qonşu ölkəyə 24 km (15 mil) ərazi sularından artıq yurisdiksiyanı, üstəlik səthdə əlavə 16 km (10 mil) müstəsna balıqçılıq hüquqları verir, qalan hissəsi beynəlxalq sulardır. Bəziləri beş tərəfli bir müqavilə olduğunu iddia etsələr də hal-hazırda bu çox çətin görünür. İndiyə qədər ümumi bir fikir birliyi dəniz dibinin (dənizin dibinin neft və qaz ehtiyatları) milli sektorlara bölünməli və dəniz səthi, su təbəqəsi ümumi olmalıdır. Ancaq bu bölgü necə həyata keçirilə bilər, hələ də bir problem olaraq qalır.

## ƏDƏBİYYAT

1. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.
2. Əliyev A. Sahilyanı dövlətlərin Xəzər siyasəti. Bakı, Tarix və onun problemləri, № 1-2 2009.
3. Avcı E. Hazar’ın statü sorunu və sahildar devletlerin konuya yaklaşımları. Uluslararası Stratejik Bakış Enstitüsü, nisan 2014.
4. Oğan S. Hazarda tehlikeli oyunlar: Statü sorunu, Paylaşılmayan kaynaklar ve Silahlanma yarışı. Avrasya Dosyası, Türkmenistan Özel, Yaz 2001, Cilt: 7, Sayı: 2.
5. Mamedov R.F. International – Legal Status of the Caspian Sea in its Historical Development. The Turkish Yearbook, Vol.XXX 2000.

**LƏMAN CƏFƏRLİ**
*Beynəlxalq münasibətlər və diplomatiya*
*Naxçıvan Dövlət Universiteti*
*lemancafarova13@gmail.com*

# ÇİNİN XARİCİ SİYASƏTİNDƏ YAXIN ŞƏRQİN YERİ: MARAQLAR VƏ RİSKLƏR

1949-cu ildə qurulduqdan sonra Çin Xalq Cumhuriyyətinin Yaxın Şərqdə siyasi əlaqələr yaratdığı ilk dövlət Misir olmuşdur. 1956-cı il 30 mayda Camal Əbdülnasir liderliyindəki Misirlə Mao liderliyindəki Çin arasında ilk rəsmi əlaqələr yaradılmışdır. Çin baş naziri Zhou Enlai Misirə 3 dəfə rəsmi səfər etmişdir. Çin Misir münasibətləri hər zaman əhəmiyyət kəsb etmişdir. Əbdülnasirin anti-qərb yanaşmasının, imperialist güclərin həm Misir, həm də Yaxın Şərqdən çıxmasını istəməsinin və Süveyş kanalını milliləşdirməsinin əks-sədaları bütün dünyada hiss edilmiş və Pekində də bu müsbət qarşılanmışdır. Bu səbəbdən Mədəni İnqilab zamanı Yaxın Şərqdəki bütün səfirlərini geri çağıran Mao Misiri istisna etmişdir. Yaxın Şərqdə 1956-cı il avqust ayında Suriya, sentyabrda Yəmən və 1958-ci il avqust ayında İraq ilə dipomatik əlaqələr yaradılmışdır. Çin tərəfindən Yaxın Şərqdə sonuncu tanınan ölkə 1992-ci il yanvar ayında İsrail olmuşdur.

Çinin Yaxın Şərqlə bağlı siyasətindən bəhs edərkən “ehtiyat diplomatiyası” anlayışından istifadə edilir. Belə ki Çin Yaxın Şərqdə öz milli maraqları üçün ərazisini genişləndirərkən eyni zamanda regionda rəqib olaraq gördüyü ABŞ-ın nüfuz dairəsini azaltmağa çalışır. Bu siyasətə nümunə göstərsək ABŞ-ın Yaxın Şərqdə yumşaq güc vasitələrindən olan və regionda açılan ilk Amerikan məktəbi Suriya Protestant Kollecinə qarşılıq olaraq Çin Beyrutda 2006-cı ildə Konfutsi İnstitutu açmışdır. Çinin xarici siyasətindən bəhs edərkən Yaxın Şərq siyasətini formalaşdırdığı vasitə və taktikaları da vurğulamaq vacibdir. 2002-ci ildə qurulan “Yaxın Şərq Xüsusi Nümayəndəliyi”, 2003-cü ildə qurulan Çin –Körfəz Ölkələri Forumu, BMT nəzdində Yaxın Şərq regionunda təsis edilən sülh missiyalarında aktiv fəaliyyətlər və Konfutsi İnstitutları Çinin Yaxın Şərq siyasətinin mühüm vasitələrindəndir. Çinin son illərdə Yaxın Şərqə göstərdiyi xüsusi marağın ifadəsi kimi Xarici İşlər Nazirliyi nəzdində qurulan, Yaxın Şərqdən cavabdeh olan xüsusi təmsilçilik qurumunu nümunə göstərmək olar. 2002-ci ildə qurulan bu qurumun ilk nümayəndəsi Wang Shijie olmuşdur. Əvvəlcədən Çinin Bəhreyn, İordaniya və İranda səfiri olan Shijie 4 illik fəaliyyətindən sonra yerini 2006-cı ildə Sun Bigana vermişdir.

2014-cü ildə Çin rəsmi medyasında Çin ilə Yaxın Şərq arasında mehriban münasibətlərin inkişaf etdiyi və bir çox ortaq qurumların bu münasibətlərin inkişafında təsiredici rola malik olduğu qeyd edilmişdir: Çin və Ərəb Dövlətləri Əməkdaşlıq Forumu, IV Çin-Ərəb Enerji Əməkdaşlıq Konfransı, VI Çin-Ərəb İş Konfransı ölkələrarası münasibətləri inkişaf etdirmək üçün nəzərdə tutulmuş cəhdlərdəndir. Çin-Ərəb münasibətləri 4 əsas başlıqda ifadə olunur: enerji, beynəlxalq ticarət, investisiya və infrastruktur. Çin ilə Ərəb ölkələri arasındaki qarşılıqlı ticarət həcmində 600 milyard dollarlıq hədəf müəyyən edilmiş və bu hədəfə 10 il içində, yəni 2024-cü ilə qədər çatmaq nəzərdə tutulmuşdur. İki tərəfin əməkdaşlığının ən vacib istiqamətlərindən biri nüvə enerjisi, yeni enerji sahələrində əməkdaşlıq və kosmik sənaye kimi qabaqcıl texnoloji paylaşımdır. Çin-Ərəb Texnologiya Mərkəzinin qurulacağı, həmçinin nüvə enerjisinin sülh məqsədləri ilə istifadəsi istiqamətində Ərəb Təhsil Mərkəzi yaradılacağı elan edilmişdir.

Çinin Ərəb ölkələri ilə münasibətlərini inkişaf etdirmək istiqamətində atdığı əhəmiyyətli addımlardan biri Çinin rəsmi televiziyası CCTV-nin (China Central TV) 2009-cu il 25 iyulda ərəb dilində proqram təqdim etməsi olmuşdur. Rəsmi açıqlamalarda Çinin dünya miqyasında öz ölkəsi ilə bağlı yanlış düşüncələri aradan qaldırmaq üçün ərəb dilində 22 ölkəyə və təribən 300 milyon insana müraciət etmək istədiyi bildirilmişdir. Əlavə olaraq Çinin rəsmi mediası da ərəb dilində yayım xidməti göstərir. Pekin təbliğat mərkəzlərinin irəli sürdüyü ən vacib arqumentlərdən biri ABŞ və qərb ölkələrinin əksinə Çin tarixində imperialist keçmişin olmamasıdır.

Çin ticari əlaqələr yaratdığı ölkələrə qərb ölkələrinin müstəmləkə tərzindən fərqli olduğunu göstərmək məqsədilə infrastruktur investisyalarına dəstək verir. Məsələn, Anqola (Çinin ən böyük neft tədarükçülərindən biri) ilə enerji əməkdaşlığı və neft idxalı anlaşmasında Anqolanın infrastruktur investisiyalarını həyata keçirə bilməsi üçün bir sıra avantajlı kredit seçimləri təklif edilmişdir. Bu kreditlər istifadə olunduğu təqdirdə Çinli şirkətlərin quru və dəmiryolu, məktəb, xəstəxana və körpü kimi inşaat işlərində, fiber optik xətt çəkilməsi və texniki heyətin təhsili kimi məsələlərdə öhdəlik götürmüşdür. Pew adlı tədqiqat şirkətini 2007-ci ildə apardığı ətraflı araşdırmaya əsasən, Çinə qarşı mənfi düşüncələr bəsləyənlərin nisbəti Çinin iqtisadi və investisiya münasibətləri qurduğu ölkələrə nisbətən aşağıdır. Məsələn, Yaxın Şərq regionunda daha mənfi düşüncəyə sahib olan ölkələrin sıralanmasında Türkiyə 53%, İordaniya 49%, Liviya 48%, İsrail 45%, Fələstin 43%, Misir 31%, Mərakeş 30%, Küveyt 17% təşkil edir. Çinin Yaxın Şərqdə neft sahibi olmayan ölkələrlə münasibətlərinə nəzər salmaq da əhəmiyyət kəsb edir. Bu mənada Tunis və Yəmən kimi ölkələrlə münasibətdə region ölkələrinə qarşı xarici ticarət kəsrləri, Çin mallarına olan xoşagəlməz münasibət, Çinin öz müsəlman azlığına qarşı münasibəti bu ölkələrdə ciddi mənada mənfi təsirlər yaradır.

Çin ilə Yaxın Şərq ölkələri arasında iqtisadi əlaqələr 3 əsas faktordan ibarətdir. Çinin enerji təhlükəsizliyi və xüsusilə neftə olan tələbi, Çinin Yaxın Şərq ölkələrinə silah satışı və Çinli şirkətlərin Yaxın Şərqə əmtəə və mal ixracı. Siyasi münasibətlərdə vacib olan məsələlərə isə İslam dininə münasibətdə olan soyuqluq, dünya miqyasında müsəlmanların ortaq problemləri, İsrail-Fələstin münasibətləri, İranın nüvə proqramı ABŞ-a qarşı inkişaf edən Rusiya-Çin əməkdaşlığı və Çinin Tayvan məsələsindəki həssaslığını misal göstərmək olar.

**LƏTİF ABBASOV**
*Dövlət hüququ*
*Naxçıvan Dövlət Universiteti*
*latifabbasov41@gmail.com*

# AZƏRBAYCANDA DÜNYƏVİ VƏ MÜSƏLMAN QANUNVERİCİLİYİNİN QARŞILIQLI ƏLAQƏSİ

Azərbaycan tarixin bütün mərhələlərində sosial-iqtisadi, hərbi, siyasi, ideoloji hadisələrin zənginliyi baxımından özünün əlamətdar gerçəklikləri ilə tanınmışdır. Qədim zamanlara nəzər yetirərkən, islamın yer üzünə enməsindən yüz illər öncəsində Azərbaycanın müxtəlif dini-ideoloji mənsəblərin geniş yayıldığı mərkəzlərdən biri olduğunu görürük.

İslam dini IX əsrdən başlayaraq, Ərəblərin işğalı nəticəsində Azərbaycanda hakim dini ideologiya kimi formalaşmağa başlamış və nəinki, cəmiyyətin dünyagörüşünə, bütövlükdə hüquq sisteminə də təsir etmişdir. Zərdüştlüyün əsas mərkəzlərindən biri olan Azərbaycanda islam dini nisbətən tez, təqribən bir yüzillikdə yayılmışdır ki, bunda qılınc siyasətinin mühüm rolu olmuşdur. Çünki Bu dinə sitayiş edənlərə islam qılınc gücünə qəbul etdirilmişdir. Bunun əsas səbəbi isə zərdüştlüyün təqib edilməsi ilə bağlı olmuşdur. Qeyd etmək lazımdır ki, Ərəb sülaləsinin hakimiyyəti dövründə şərq dövlətlərində, o cümlədən, Azərbaycanda hakimiyyət bürokratik məmur aparatının əlində olmaqla, cəmiyyətin ümumi mənafe və maraqlarının müdafiəsinə deyil, yalnız hakimiyyətdəki müəyyən sosial qrupların, yəni "yuxarı" təbəqənin maraqlarının qorunmasına yönəldilmişdir. Nəticədə, sinfi təbəqələşmə istər dövlət idarə etməsində, istərsə də, cəmiyyət həyatının sosial-iqtisadi, ictimai və s. kimi aparıcı sahələrində ziddiyyət əmələ gətirmiş, bununla da "aşağı" təbəqənin azadlığı formal xarakter daşımağa başlamışdır. Nəticədə, Xilafət dövründə olan sinfi yanaşma idarəçiliyin, qanunçuluğun mahiyyətindəki sosial ziddiyyətlərin olduğunun bariz nümunəsinə çevrilmişdir. Heç də təsadüfi deyildir ki, Xilafətin süqutundan sonra inkişaf etmiş sinfi müsəlman cəmiyyətində dinin dövlət hakimiyyətinə tabe edilməsi ideyası hakim mövqedə olmuşdur. Bu ideya isə xarici dövlətlərin istismarı ilə mübarizənin üsulu kimi təzahür etmişdir. (3,173)

Müsəlman hüququnun tarixi inkişaf dövrü VII-X əsrlərə, Xilafət dövrünə təsadüf edir. Müsəlman hüququ dedikdə, dini formaya və islama əsaslanan normalar sisteminə malik olmaqla yalnız müsəlmanlar arasındakı münasibətləri tənzimləyən hüquq münasibətləri başa düşülür. Müsəlman hüquq sisteminə malik olan dövlətlərdə müəyyən ictimai-iqtisadi formasiyanın mühüm əlamətlərinin məcmusu qismində onun hüquqi təbiətini səciyyələndirən xüsusiyyətlər, bir sıra institutların arxaikliyi, kazuistlik və sistemləşmənin yoxluğu kimi xüsusiyyətlər çıxış edirlər. Müsəlman hüququnun mənbələri qismində müsəlmanların müqəddəs kitabı olan Quran, Allahın elçisilə bağlı hədislərdən bəhs edən sünnə, müsəlman cəmiyyətinin vahid razılığından ibarət olan icma, analogiya üzrə mülahizələrdən ibarət olan qiyas çıxış edir (6, səh 311). Qeyd qetmək lazımdır ki, müsəlman hüququnun aparıcı mənbəyi olan Quran özündə islam qanunvericiliyinin əsaslarını ehtiva etməklə, cəmiyyət üçün zərərli olan, ona ziyan vuran bütün pozuntuları və yaramaz adətləri rədd edir, yüksək əxlaqi dəyər və prinsipləri rəhbər tutur.

Müsəlman cəmiyyətində dünyəvi və dini amillərin qarşılıqlı əlaqəsinin aydın başa düşülməsi üçün dünyəvi-dini sistem kimi islamın öyrənilməsi, müsəlman qanunlarının sistemləşdirilmiş toplusu olan şəriət normalarının dərk edilməsi müstəsna əhəmiyyətə malikdir. Şəriət müsəlman hüququnda aparıcı termin olmaqla, dini kontekstdə islam dini normalarının, Allahın əmrlərinin, dini ehkamların məcmusuna deyilir. Müsəlman hüququnun mahiyyətini dərk etmək üçün digər aparıcı termin isə fiqhdir. Fiqh dedikdə, müsəlman hüquq normalarının fətvaların, müsəlman hüququnun əsas mənbələrində Quranda və Sünnədə olan çıxarışlar etmək elmi başa düşülür. (5, səh 43)

İlkin növbədə qeyd etmək lazımdır ki, müsəlman qanunvericiliyi ilə dünyəvi qanunvericilik arasında hər hansı qarşılıqlı əlaqəni təsdiq edən fakta təsadüf olunmur. Fikrimizi daha aydın ifadə etsək, müsəlman şərqində ölüm cəzasının hələ də saxlanması, oğurluğa görə əllərin kəsilməsi və digər

cismani cəzaların olması və s. kimi faktorlar bir çox avropa şərqşünasları tərəfindən sərt və amansız hesab olunmaqla, Qərb üçün kəskin tənqid obyekti olaraq qalmaqdadır. Qeyd etməliyəm ki, avropa şərqşünasları tərəfindən islama olan qərəzli tənqidi tamamilə əsassız hesab etməliyik. Çünki heç bir cinayət cəzasız qalmamalıdır.

Müstəqillikdən sonra Azərbaycanda dini və milli dəyərlərin dirçəlişi prosesi sürətlənmişdir. Belə ki, islamın Azərbaycanda özünə möhkəm vətəndaşlıq qazanması, bu dini ideologiyanın cəmiyyətin ictimai-siyasi təfəkkürünə təsiri özünü sosial həyatın demək olar ki, bütün sahələrində göstərirdi. Lakin bolşeviklər tərəfindən Rusiyanın hakimiyyətinin Azərbaycanda zor gücünə bərqərar etdirilməsindən sonra ölkənin siyasi-hüquqi şüurunda kəskin dəyişikliklər baş vermiş, din və dövlət münasibətləri aktual mövzulardan birinə çevrilmişdir. Azərbaycan xalqı XIX əsrin əvvəllərindən başlayaraq, Çar Rusiyasının xristianlaşdırma, XX əsrin 20-ci ilindən sonra isə Sovet Rusiyasının ateizm siyasətinə məruz qalmışdır. Lakin bütün bunlara baxmayaraq, islam dini xalqın dini olaraq yaşamış və onun siyasi-hüquqi ideologiyası XX əsrin sonlarından etibarən isə yenidən dirçəlməyə başlamışdır. (6, səh 101)

Dünyəvilik hüquqi bir termin kimi dar və geniş olmaqla iki mənada işlədilir. Dar mənada dünyəvilik dedikdə, hökumət və digər hüquq mənbələrinin hər cür din və inanclardan kənarda mövcudluğu ideyasına əsaslanan konsepsiya nəzərdə tutulur. Geniş mənada dünyəvilik dedikdə isə, həmçinin cəmiyyətin və dövlət institutlarının dinin təsirindən azad edilməsi başa düşülür. Sözügedən terminə AR Konstitusiyasının bir sıra maddələrində də rast gəlirik. Məsələn, Azərbaycan Respublikasının Konstitusiyasının 7-ci maddəsinə əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır (1, səh 5). Həmin Konstitusiyanın 18-ci maddəsinə əsasən, dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır. Göründüyü kimi, dövlətin təhsil sisteminin mahiyyətini tənzimləyən 18-ci maddənin 3-cü bəndində də dünyəvilik prinsipinin prioritetliyi özünü göstərir. (1, səh 8)

Azərbaycan Respublikasının Konstitusiyasının 18-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır və bütün dini etiqadlar qanun qarşısında bərabərdir. 18-ci maddənin məzmunundan göründüyü kimi, Azərbaycan Respublikasında dünyəvilik dövlətin dindən ayrılığı, qanunvericiliyin dindən asılı olmaması, dini etiqad azadlıqlarının təminatı, dövlətin bütün dinlərə bərabər münasibəti ilə xarakterizə olunur. Maddələrdən də göründüyü kimi, Azərbaycan Respublikası Qərbi Avropa ölkələrinin modernləşmə və dünyəviləşmə nümunəsinə söykənməklə dövlət-din münasibətlərini tənzimləyir.

Həmin Konstitusiyanın 23-cü maddəsində isə Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnindən bəhs olunur (1, səh 9). Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində qurulan ilk parlamentli respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət olmuş və Azərbaycan xalqının milli şüurunda dövlətçilik tarixinin önəmli bir mərhələsi kimi iz qoymuşdur. Azərbaycan Respublikasının Dövlət Bayrağı bizə Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır. Bayraq bərabər enli üç üfüqi zolaqdan ibarət olmaqla yuxarı zolaq mavi, orta zolaq qırmızı ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvirindən, aşağı zolaq yaşıl rənglərdən təşkil olunmuşdur. Bildiyimiz kimi, Bayrağın mavi rəngi türkçülüyü, qırmızı müasir cəmiyyət, demokratiyanı, yaşıl rəng isə İslamçılığı tərənnüm edir. Bununla belə bayrağımızda olan yaşıl rəng islamçılığı, müsəlman sivilzasiyasının əsaslarını təcəsssüm etdirməklə milli-mənəvi ideologiyamızla vəhdət təşkil etməkdədir. Dinin dövlətdən ayrı olduğu qəbul edilməklə yanaşı, dini dəyərlərin Azərbaycan xalqının tarix boyu formalaşan dəyərlər məcmusundan ibarət olduğu Ulu Öndər Heydər Əliyev tərəfindən bir çox çıxışlarda xüsusilə vurğulanmışdır. O, İslam dininə sahib çıxmaqla yanaşı, heç bir dinə, yaxud konfessiyaya qarşı ayrı-seçkiliyə yol verilmədiyini dəfələrlə qeyd etmiş, bir çıxışında isə dövlətin dünyəviliyi prinsipinə belə münasibət bildirmişdir: "Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik. Din ilə dövlət arasında sıx əməkdaşlıq var…".

Böyük əminliklə qeyd etmək olar ki, hüquqi dövlət quruculuğu yolunda Azərbaycan xalqı milli-mənəvi dəyərlərinə sahib çıxmaqla yanaşı, böyük mənəvi əxlaqi dəyərə malik irsdən, pozitiv

ənənələrdən həmişə uğurla istifadə etmiş, indi də etməkdədir və gələcəkdə də edəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı:2018
2. Azərbaycan dövlət və hüquq tarixi. Bakı: Qanun, 2019
3. Azərbaycan tarixi. VII cilddə, II cild. Bakı: Elm, 2007
4. Azərbaycan tarixi. VII cilddə, III cild, Bakı: Elm, 2007
5. S.Əliyarlı Azərbaycan tarixi. Bakı:1996
6. A.Qənbərov. Azərbaycanda din-dövlət münasibətləri. Bakı: 2019
7. A.Quliyev. Hüquqi pozitivizm və müsəlman hüququ. Bakı: 2015
8. A.Quliyev. XII-XVI əsrlərdə Azərbaycanın siyasi-hüquqi fikrində qanun və qanunçuluq predmeti. Bakı: 2005
9. V.V.Lazarev. Ümumi hüquq və dövlət nəzəriyyəsi. Bakı: Qanun, 2007

10. http://www.e-qanun.az

**SƏMƏD ŞAHTAXTİNSKİ**
*Dövlət hüququ*
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASINDA HÜQUQİ DÖVLƏT QURUCULUĞU

Azərbaycan xalqı dünya tarixində azadlığı uğrunda mübarizə aparan, suveren dövlət quran, qədim dövlətçilik ənənələrinə malik şərəfli səhifəyə malikdir. XIX əsrin əvvəllərində dövlət müstəqilliyini itirən xalqımızın XX əsrdə iki dəfə dövlət müstəqilliyini bərqərar etməsi faktının özü Azərbaycan xalqının siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, azadlıq mübarizliyinin danılmaz sübutudur. Xalqımız 1918-ci ilin 28 mayında bəşəriyyət tarixinin ən dəhşətli və ən qanlı hərbi-feodal müstəmləkə rejimlərindən olan Çar Rusiyasının bir əsrdən artıq davam edən əsarətindən azad olaraq Azərbaycan Demokratik Respublikasını - müsəlman Şərqində ilk demokratik, hüquqi dövləti qurmağa nail olmuşdur. Azərbaycan Demokratik Respublikasının qurulması xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə olmuşdur.

1918-ci il mayın 25-də Zaqafqaziya Seyminin son iclasından sonra Gürcüstan Seymdən çıxaraq mayın 26-da öz istiqlaliyyətini elan edir. Zaqafqaziya Seymi dağıldıqdan bir gün sonra, mayın 27-də Seymin Müsəlman Fraksiyasının üzvləri ayrıca iclaslarını keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası elan etdi. 1918-ci il mayın 27-də keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçildi. Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri seçilir.

Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. Həmin iclasda iştirak edən Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Usubbəyov, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Həmid bəy Şahtaxtinski və bir çox ziyalı ictimai xadim Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul etdilər. İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə, ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsində deyilirdi:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.
2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.
4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq, öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.
5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.
6. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur (1).

Azərbaycan Milli Şurası həmin iclasında, həmçinin bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Demokratik Respublikasının ilk Müvəqqəti hökumətinin tərkibini də təsdiq etdi. Fətəli xan Xoyski Nazirlər Şurasının sədri və daxili işlər naziri təyin olundu. İlk hökuməti “Müsavat”, Müsəlman sosialist bloku, “Hümmət”, “İttihad” və bitərəflərdən ibarət doqquz nazir təmsil edirdi. İstiqlal Bəyannaməsində ali icraedici hakimiyyətin müvəqqəti hökumətə məxsus olduğu bildirilirdi və hökumət Milli Şura qarşısında məsuliyyət daşıyırdı.

Dövlətçilik atributlarına sadiq qalan cümhuriyyət hökuməti xalqda milli ruhu da yüksəltməyə çalışırdı. Bunun ən bariz nümunələrindən biri də 1918-ci il iyunun 27-də "Azərbaycan dilinin dövlət

dili elan edilməsi haqqında" fərmanın imzalanması idi. Sənəddə deyilirdi: "Dövləti lisan türk dili qəbul edilərək, irəlidə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istimalına müsaidə edilsin". Beləliklə, iki il müddətində ölkədə dövlət orqanlarının işinin tamamilə ana dilinə keçməsi nəzərdə tutulurdu. Fərmanla azərbaycan dilli savadlı kadrların çatışmazlığı nəzərə alınaraq, dövlət idarələrində müvəqqəti olaraq rus dilindən istifadəyə icazə verilirdi (2).

1918-ci il iyunun 24-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq, noyabrın 9-da isə mavi, yaşıl və qırmızı zolaqlı, üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz olan bayraq dövlət bayrağı olaraq qəbul edildi. Tarixi qərarlardan biri də gənc respublikanın milli qürur mənbəyinə çevrilən dövlət himninin qəbulu idi. Azərbaycanın milli valyutasının - manatın dövriyyəyə buraxılması da uğurlu islahatlardan biri kimi böyük əhəmiyyət kəsb edirdi.

Demokratik Respublikanın həyatında ən əhəmiyyətli və qürurverici hadisələrdən biri də üzvlərinin əksəriyyəti gənclərdən təşkil olunmuş parlamentin ("Məclisi-Məbusan"ın) fəaliyyəti olmuşdur. 1918-ci il noyabrın 16-da toplanan Milli Şura ali hakimiyyət orqanı kimi "Azərbaycan parlamentinin yaradılması haqqında" qanun layihəsini hazırlamış və noyabrın 19-da qəbul etmişdir. 19 noyabr tarixli iclasda qeyd olunurdu ki, Azərbaycanın əhalisi çoxmillətli olduğu üçün parlamentdə qeyri millətlər də təmsil olunmalıdır. Parlament 2 milyon 750 min nəfər olan ölkə əhalisinin hər 24 min nəfərinə 1 nəfər nümayəndə olmaqla, ümumilikdə 120 deputatdan ibarət olmalı idi. Onlardan 80 nəfər müsəlmanları, 21 nəfər erməniləri, 10 nəfər rusları, 1 nəfər almanları, 1 nəfər yəhudiləri, sayları çox az olduğu üçün, parlament seçkilərində iştirak etmək hüquqları olmadığı halda, gürcülər və polyaklar da hərəsi 1 deputatla parlamentdə təmsil olunmalı idilər. Göründüyü kimi, 1918-ci ilin Mart soyqırımından hələ cəmi yarım il keçməsinə baxmayaraq Azərbaycan parlamentində 21 nəfər erməni nümayəndəsinin iştirakının nəzərdə tutulması Azərbaycan xalqının demokratik xarakterinin, insan hüquqlarına olan dərin hörmətinin açıq təzahürüdür.

Parlamentin çağırılması ilə əlaqədar Azərbaycan Milli Şurası adından, onun sədri, M. Ə. Rəsulzadənin imzası ilə 1918-ci il noyabr ayının 29-da azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi dərc edilir. Parlamentin açılışı 1918-ci il dekabrın 3-nə təyin olunsa da, lakin Bakıda fəaliyyət göstərən rus və erməni Milli Şuraları əleyhinə olduqları Azərbaycan Parlamentinin açılmasına hərtərəfli mane olmaq üçün bu ərəfədə Bakıya gəlmiş Müttəfiq qoşunlarının baş komandanı general Tomsondan istifadə etməyə çalışırdılar. General Tomsonla aparılan danışıqlarla əlaqədar olaraq və qəzalardan bütün deputatların Bakıya gələ bilməsini nəzərə alaraq Parlamentin ilk iclasının açılışı dekabrın 7-nə keçirilir. 1918-ci il dekabrın 7-si H. Z. Tağıyevin Nikolayev (indiki İstiqlaliyyət) küçəsində yerləşən keçmiş qız məktəbinin binasında müsəlman şərqində ilk parlamentin birinci iclasının açılışı oldu. Parlamenti açan Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə böyük təbrik nitqi söyləyir. Əlimərdan bəy Topçubaşov Parlamentin sədri, Həsən bəy Ağayev isə sədrin birinci müavini seçilirlər (3).

Parlament cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, özünün əhəmiyyətini, zəruriliyini və yüksək işgüzarlıq qabiliyyətini sübut etmişdir. Bu müddətdə "Məclisi-Məbusan"ın 11 daimi komissiyası fəaliyyət göstərmiş, 145 iclası keçirilmiş, ilk iclas 1918-ci il dekabrın 7-də, son iclas 1920-ci il aprelin 27-də olmuşdur. Bu iclaslardan 15-i yetərsayın olmaması üzündən baş tutmamış, 130 iclasda ölkənin daxili, xarici siyasəti, iqtisadiyyat, maliyyə məsələləri, qanunvericilik aktlarının müzakirəsi, qəbulu, ordu quruculuğu və digər əhəmiyyətli, zəruri məsələlər müzakirə olunmuşdur. Parlamentin fəaliyyəti dövründə müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmış, onlardan 230-a yaxını təsdiq edilmişdir.

Azərbaycan Demokratik Respublikasının Parlamenti bütün fəaliyyətini ölkənin sosial-iqtisadi, maliyyə problemlərinin həllinə, ölkənin siyasi və ərazi toxunulmazlığını təmin etməyə, vətəndaşların hüquq və azadlıqlarını qorumağa, dövlətin demokratik və hüquqi əsaslarını möhkəmləndirməyə, Azərbaycanın beynəlxalq miqyasda tanınmasına yönəltmişdir. 1919-cu il iyulun 21-də parlamentdə təsdiq edilmiş "Müəssislər Məclisinə seçkilər haqqında" qanunla cinsindən asılı olmayaraq 20 yaşına çatmış bütün respublika vətəndaşlarının parlamentə bərabər, birbaşa və gizli

səsverməyolu ilə seçilməsi təsbit edilirdi. Şərqdə ilk dəfə olaraq qadınların da seçkilərdə iştirakına imkan yaradılması Azərbaycan Demokratik Respublikasının hüquqi dövlət ideyasına sadiqliyinin əyani təcəssümü idi (4).

Bütün bu müsbət hallara baxmayaraq parlamentdə daxili ziddiyyətlərin kəskinləşməsi, sayı 100 nəfərə çatmayan parlamentdə 11 fraksiya və qrupun mövcud olması onun normal fəaliyyət göstərməsinə əngəl törədirdi. Ayrı-ayrı fraksiya və qruplar bir çox hallarda özlərinin fraksiya və qrup mənafelərini ümummilli mənafedən üstün tuturdular. Məsələn, parlamentin sosialist bloku "yoxsulların mənafeyini müdafiə etmək" pərdəsi altında müntəzəm olaraq Azərbaycanın sovet Rusiyasına birləşdirilməsi ideyasını təbliğ etmiş, orada diplomatik nümayəndəliyin açılması barədə qərarın qəbuluna nail olmuş, nəhayət, "Qızıl Ordu"nun ölkəyə müdaxiləsinə tərəfdar çıxmışdı. Demokratik Respublikanın mövcud olduğu 23 ayda hökumətin 5 dəfə dəyişdirilməsi də məhz bu ziddiyyətlərin nəticəsi hesab edilməlidir.

XX əsrin əvvəllərində - 1918-ci ilin 28 mayında müstəqilliyini elan etmiş Azərbaycan xalqı əsrlər boyu həsrətində olduğu hüquqi dövlət ideyasını praktik olaraq reallaşdırmış, ilk dövlətçilik təsisatlarını yaratmış, bütün Şərqdə, o cümlədən, türk-islam dünyasında ilk demokratik-hüquqi və dünyəvi dövlət nümunəsi olmuşdur. Cəmi 23 ay mövcud olmuş Müsəlman Şərqində ilk demokratik quruluşlu dövlət xarici hərbi müdaxilə nəticəsində süquta uğrasa da, müasir prinsiplərə söykənən milli dövlətçilik ənənələrinin başlanğıc nöqtəsi kimi Azərbaycan xalqının yaddaşından heç zaman silinməmiş, bundan sonra da tarixmizin ən parlaq səhifələrindən biri kimi həmişə xatırlanacaqdır.

## ƏDƏBİYYAT

1. Mahmudov Y. Azərbaycan Xalq Cümhuriyyəti Türk – İslam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət idi. Bakı, "Xalq qəzeti" qəz., 28 may 2016, № 115, s. 6-7.

2. Əliyeva İ. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin dövlət quruculuğu siyasəti. Bakı: "Azərbaycan" qəz., 24 may 2011, s. 4.

3. Məmmədli M. Cümhuriyyət və hüquqi dövlət quruculuğu. Bakı: "Ekspress" qəz., 31 may 2017, № 95, s. 10.

4. Vəliyev İ. Azərbaycan Xalq Cümhuriyyəti dövründə hüquqi dövlət quruculuğu. Bakı: "525-ci qəzet" qəz., 26 iyul 2018, № 133, s. 4.

**ZİNİYƏT MƏMMƏDOVA**
*Arxeoloji və tarixi memarlıq abidələrinin mühafizəsi*
*Naxçıvan Dövlət Universiteti*

## KÜLTƏPƏ YAŞAYIŞ YERİNDƏ APARILAN QAZINTILAR

Azərbaycanın qədim dövr tarixini, bu ərazidə baş verən mədəni-tarixi prosesləri öyrənmək üçün Arxeoloji abidələrin tədqiqi mühüm əhəmiyyətə malikdir. Azərbaycanın arxeoloji abidələrindən aşkar olunan maddi-mədəniyyət nümunələri qədim daş dövründən başlayaraq Son Orta əsrlərədək böyük bir dövrü əhatə edir. Arxeoloji abidələrin tədqiqi Azərbaycanın həm yazıya qədər olan tarixini, həm də yazının meydana çıxmasından sonrakı tarixini öyrənmək üçün əvəzedilməz dəlillər vermişdir.

Azərbaycanın arxeoloji abidələrinin tədqiqi XIX əsrin 30-50-ci illərində qədim abidələrin qeydə alınması ilə başlanmışdır. Azərbaycanda aparılan arxeoloji qazıntıları ilk vaxtlar ölkəmizdə olan rus və alman mənşəli həvəskar araşdırıcılar etmişdir. Onlar zəngin maddi-mədəniyyət nümunələri əldə etmişdir və bu da Azərbaycanın arxeoloji abidələrinə və qədim mədəniyyətinə marağın artmasına səbəb olmuşdur.

1991-ci ildə Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Azərbaycan, o cümldən Naxçıvan abidələrinin öyrənilməsində yeni mərhələ başlanmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tövsiyyəsi ilə Azərbaycan tarixi milli konsepsiya əsasında yenidən işlənmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab Ilham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisini sədri, hörmətli Vasif Talıbovun arxeoloji abidələrin öyrənilməsinə qayğısı bu sahədə mühüm işlərin görülməsinə səbəb olmuşdur. Dövlət qayğısının nəticəsidir ki, hazırda Naxçıvanda bir neçə arxeoloji ekspedisiya, o cümlədən iki beynəlxalq ekspedisiya fəaliyyt göstərir. AMEA Naxçıvan Bölməsinin ABŞ-ın Corciya, Pensilvaniya, Emori Universitetləri və AMEA Arxeologiya və Etnoqrafiya Institutu ilə birlikdə təşkil etdiyi «Naxçıvan Arxeoloji Proyekti» adlı ekspedisiya II Kültəpə, I Maxta Kültəpəsi və Oğlanqala yaşayış yerlərində araşdırmalar aparmışdır. [1, s.8]

Naxçıvanda Kür-Araz mədəniyyətinə aid I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, Maxta Kültəpəsi, Xalac, Ərəbyengicə, Şortəpə kimi qədim yaşayış yerləri aşkar olunmuşdur.

Bu abidələrdən I Kültəpə və II Kültəpədə geniş miqyaslı arxeoloji qazıntılar aparılmış, digərləri isə yalnız kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. I Kültəpə yaşayış yeri Naxçıvan şəhərindən 8 km şimal-şərqdə, Naxçıvançayın sol sahilində, Babək rayonunun eyniadlı kəndi yaxınlığında yerləşir. Abidənin ümumi sahəsi 1,5 ha-dır. Yaşayış yerində 1951-1964-cü illərdə O.H.Həbibullayev tərəfindən aparılan qazıntılar zamanı 22,2 metr qalınlığı olan 4 mədəni təbəqə aşkar edilmişdir. [2, s.62]

2013-2016-cı illərdə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin arxeoloqları ilə birlikdə I Kültəpə yaşayış yerində tədqiqat işlərinə başlamışdır. Tədqiqat işləri 400 kv. m. ərazidə davam etdirilmişdir. Arxeoloji tədqiqatlarla yanaşı Kültəpə yaşayış yeri ətrafında arxeoloji araşdırmalar da aparılmışdır. [3, s.4]

Ekspedisiyada əsas məqsəd, Neolit dövrünün sonuna aid olan I Kültəpə yaşayış yerində yaşayışın tarixi və qədim Naxçıvan sakinlərinin ətraf aləmlə əlaqələrini öyrənmək, köçmə maldarlıqla bağlı abidələri tədqiq etməkdən ibarət idi. Bu tədqiqatlar Kültəpə və onun ətrafında yaşayan insanlar əkinçiliklə və köçmə maldarlıqla məşğul olduqlarını göstərir. Köçmə maldarlıq insanların müxtəlif faydalı qazıntılar, həmçinin mislə tanışlığına səbəb olmuşdur. Kültəpə yaşayış yerində və onun ətrafında aparılan araşdırmalar iqlim dəyişiklikləri ilə bağlı olaraq qədim insanların yaşayış yerlərini dəyişməyə məcbur olduğunu təsdiq edir. Araşdırmalar onu göstərir ki, qədim Naxçıvan sakinlərinin Eneolit dövrünə aid mövsümi yaşayış yerləri məhz Zəngəzur dağlarının zəngin metal yataqlarına gedən yollar üzərində salınmışdır.

Bu mövsümi yaşayış yerlərinin bir qismi araşdırmalar zamanı  qeydə alınaraq tədqiq edilmişdir. Ekspedisiyanın əsas vəzifələrindən biri digər yaşayış yerlərini müəyyənləşdirmək və qədim kommunikasiya xətlərinin keçdiyi yerləri təsbit etmək olmuşdur. Bu illər ərzində aparılan

araşdırmalar ölkəmizin qədim sakinlərinin miqrasiyasının arealını, onların qədim Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini öyrənməyə imkan vermişdir.

I Kültəpə yaşayış yerində həyat e.ə.VI minillik boyu davam etsə də e.ə.V minillikdə burada həyat kəsilmişdir. Kültəpədən tapılan bəzi keramika məmulatı e.ə. V minillikdə burada həyatın epizodik xarakter daşıdığını, daimi məskunlaşma olmadığını göstərir. Bununla belə e.ə. V minilliyin birinci yarısında Kültəpə ətrafında yaşayış yenidən davam etmişdir. Uzunoba və Uçan Ağıl yaşayış yerlərində aparılan e.ə. V minilliyin birinci yarısına aid maddi mədəniyyət nümunələri əldə edilmişdir. 2016-cı ildə Naxçıvançay vadisində Eneolit dövrünə aid yeni bir yaşayış yeri - Naxçıvan yaşayış yeri aşkar edilmişdir. Sirabçay vadisində yerləşən Uçan Ağıl, Naxçıvançay vadisində yerləşən Uzunoba və Naxçıvan yaşayış yerlərinin araşdırılması e.ə. V minilliyin əvvəllərində qədim insanların çay vadilərinə daha yaxın ərazidə məskunlaşdığını göstərir ki, bu da quraq iqlimlə bağlı ola bilərdi.

Araşdırmalara əsasən demək olar ki, uzun müddət davam edən quraqlıq mülayim və yağmurlu iqlimlə əvəz olunmuş, daşqınlar baş vermişdir. Güman ki, elə bunun nəticəsidir ki, bəzi yaşayış yerlərinin üzəri qalın lil qatı ilə örtülmüş, vadidəki, yaşayış yerləri izsizləşmişdir.

I Kültəpə və onun ətrafında yerləşən yaşayış yerlərinin tədqiq edilməsi Cənubi Qafqazın Son Neolit və Son Eneolit mədəniyyətləri arasındakı boşluğu doldurmağa imkan verir.

Kültəpənin Neolit dövrünə aid təbəqəsinin materialları yaxşı nəşr edilmədiyindən və karbon analizlərinin nəticələri köhnəldiyindən Azərbaycanın bu qədim diyarının Neolit dövrü haqqında bitkin məlumat əldə etmək olduqca çətindir. Buna görə də Kültəpə yaşayış yerində 1951-1964-cü illərdə aşkar olunan arxeoloji materialların yenidən araşdırılaraq nəşr edilməsi nəzərdə tutulmuşdur. Digər tərəfdən 2006-cı ildən Duzdağda aparılan araşdırmalar qədim duz mədənlərinin daha çox Naxçıvançay vadisində yerləşən abidələrlə bağlı olduğunu göstərmişdir. Belə ki, Duzdağda aşkar olunan əmək alətlərinin bənzərləri I Kültəpə və II Kültəpə yaşayış yerlərində daha çox rast gəlinir. Mədən sənayesinin meydana gəlməsi və inkişafı tarixinin öyrənilməsi üçün də Kültəpə yaşayış yerinin tədqiqinə ehtiyac vardır.[3, s.6]

2013-cü ildə Kültəpə yaşayış yerinin Neolit və Eneolit dövrü haqqında geniş məlumat əldə etmək və təbəqələrin necə saxlandığını aydınlaşdırmaq məqsədi ilə burada kəşfiyyat xarakterli araşdırmalar aparılmışdır. Bu araşdırmalar Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları ilə birlikdə aparılmışdır. 2013-cü ildə yaşayış yerində aparılan araşdırmaların məqsədi Neolit və Eneolit dövrünə aid sağlam qalmış təbəqələri müəyyənləşdirmək və gələcək araşdırmalar üçün təməl yaratmaq idi. Araşdırma zamanı Kültəpə yaşayış yerindən xeyli miqdarda obsidian parçaları, obsidian alətlər, sümük alətlər və keramika məmulatı aşkar edilmişdir. Bu araşdırmalar aparılan zaman keramika məmulatı daha çox B sahəsində aşkar olunmuşdur. Keramika məmulatının bir qismi Erkən Tunc dövrünə aiddir. Demək olar ki, Erkən Tunc dövrünün bütün mərhələləri burada təmsil olunmuşdur.

2014-cü ildə I Kültəpədə arxeoloji tədqiqatlar davam etdirilmişdir. Məlum olduğu kimi, bəzi tədqiqatçılar bu abidənin Neolit dövrünə aid olmasına şübhə ilə yanaşırdılar. Bu məsələni aydınlaşdırmaq üçün I Kültəpə yaşayış yerində və onun ətrafında araşdırmalar aparılmışdır. Tədqiqatların nəticəsində Naxçıvanda Son Neolit və Eneolit dövrünə aid yeni abidələrin olduğu müəyyən edilmişdir. İlk tədqiqat işləri I Kültəpə abidəsində aparılmışdır. Tədqiqatlar zamanı aşkar olunan arxeoloji materialların əksər hissəsi keramika məmulatından ibarətdir. Keramika məmulatı başlıca olaraq saman qarışığı olan gildən hazırlanaraq bəzən yaxşı, bəzən isə qeyribərabər bişirilmişdir. Qabların divarları arasında bişməmiş boz, yaxud qara rəngli lay vardır. Qabların xarici səthi yaxşı cilalanmışdır. Keramika məmulatının əksər hissəsi çəhrayı rəngdə bişirilmişdir. Rəng tonları sarı və qəhvəyi arasında dəyişməkdədir. Boz rəngli keramika məmulatı olduqca azdır. Qabların çeşidi də azdır. Küpə tipli qablar az miqdardadır. Onlar başlıca olaraq silindrik-qabarıq gövdəli banka tipli qablardan və kasalardan ibarətdir. [3, s.13]

Əmək alətləri, əsasən, daşdan və sümükdən hazırlanmışdır. Araşdırmalar nəticəsində aşkar olunan arxeoloji materialların bir qismi obsidian alətlərdən ibarətdir. Ümumiyyətlə, həm obsidian

alətlərin çox rastlanması, həm də çox miqdarda istehsal çıxarının aşkar eddilməsi alətlərin yaşayış yerində emal edilərək hazırlandığını təsdiqləyir.

2015-ci ilin yay mövsümündə də araşdırmalar davam etdirilmişdir. Araşdırmalarda əsas məqsəd Son Neolit dövrü insanlarının həyat tərzini, yaşayış yerinin strukturu ilə bağlı məsələləri aydınlaşdırmaqdan ibarət idi. Abidənin bəzi qismlərində Kür-Araz mədəniyyətinə aid təbəqə saxlandığından onun da araşdırılması və Eneolit dövrü ilə əlaqələri qarşımızda duran əsas məsələrdən idi.

I Kültəpə yaşayış yerində 2015-ci ildə aparılan tədqiqatlar abidənin stratiqrafiyasına yenidən baxılması fikrini zəruri etməklə bərabər, dünya arxeologiyasında onun xüsusi yeri olduğunu göstərməkdədir. [3, s.39]

Azərbaycan xalqının qədim dövrdən bu ərazidə yaşadığını sübut edən ən tutarlı maddi dəlillər Azərbaycanın qədim abidələridir. Xalqımızın etnogenezi ilə bağlı bir sıra yanlış nəzəriyyələr uydurulmuşdur. Buna baxmayaraq, qədim abidələrimiz xalqımızın keçdiyi yolu ardıcıllıqla izləməyə və bu yanlış nəzəriyyələrə cavab verməyə imkan verir. Arxeoloji və antropoloji araşdırmalar təsdiq edir ki, min illər bundan əvvəl Azərbaycanda yaşayan kuti, lullubi, turukki, kassi, su, naxçı, subar, skif və digər tayfalar Azərbaycan xalqının ulu əcdadları olmuşlar. Onların maddi və mənəvi dəyərləri bu gün də Azərbaycan xalqı içərisində yaşamaqda davam edir.

## ƏDƏBİYYAT

1. Vəli Baxşəliyev, Fizzə Quliyeva. Naxçıvanın tarixi abidələri. Bakı: Nuralan, 2017.
2. Vəli Baxşəliyev. Azərbaycan arxeologiyası. Bakı: 2016.
3. Vəli Baxşəliyev, Catherine Marro, Remi Berthon, Zeynəb Quliyeva, Savaş Sarıaltun. Kültəpədə arxeoloji tədqiqatlar (2013-2016). Bakı: Nurlan, 2017.

**ŞƏRƏBANI ABBASOVA**
*Gənclərlə iş*
*Naxçıvan Dövlət Universiteti*

# GƏNCLƏR HÜQUQİ DÖVLƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUCULUĞU KONTEKSTİNDƏ

Müasir Azərbaycanda hüquqi dövlətin formalaşması prosesi mülkiyyətinin müxtəlif və bərabər hüquqi formalarının rolunun artırılması, tənzimlənən bazar iqtisadiyyatının yaradılması, ictimai həyatın bütün sahələrində plüralizmin və aşkarlığın qəti möhkəmləndirilməsi, dövlət üzərində nəzarətinin daha səmərəli mexanizmlərinin yaradılması istiqamətləri üzrə gedir.

Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev demişdir "Respublikamızda hüquqi dövlət qurulması demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir".

Hüquqi dövlətin yaradılması demokratikləşməsi şəraitində gənclər ilə dövlət arasındakı qarşılıqlı münasibətlər probleminin düzgün həllinin əsas yolu kimi çıxış edir. Məhz hüquqi dövlət gənclərin cəmiyyətdə statusunu yüksəldir, onun əsas hüquq və azadlıqlarını müdafiə edir və həyata keçirir.

Hüquqi dövləti səciyyələndirən aşağıdakı keyfiyyətlər onun gənclərin inkişafına göstərdiyi təsir baxımından daha önəmlidir: siyasi proseslərdə hamının iştirak etmək hüququ; siyasi partiyalar və müxtəlif maraq qrupları arasındakı münasibətlərdə sivil qaydalara əməl olunması; hakimiyyətin demək olar ki, bütün pillələrinin seçkililiyi; parlamentarizmin və plüralist demokratiyanın müxtəlif forma və prinsiplərinin mövcudluğu.

Hüquqi dövlətin gənclərin inkişafı baxımından yaratdığı böyük üstünlüklər onun totalitar dövlət tipi ilə müqayisəsində daha aydın üzə çıxır. Ölkəmizdə 70 ildən artıq davam etmiş totalitar dövlət tipi gəncliyi ümumi cəmiyyət içərisində, onun fərdiyyətinin, hüquq və azadlıqlarının əlindən alırdı. Həmin dövrdə gənclər büsbütün avtoritar-bürokratik hakimiyyətin törətdiyi özbaşınalıqların əsirinə çevrilmişdi. Bunun tam əksinə olaraq hüquqi dövlət gənclərin inkişafına real şərait yaradır, onun hüquqlarının müdafiyəçisi və təminatçısı rolunu oynayır. Burada ictimai idarə sistemi vahid qanunlar sistemi əsasında həyata keçirilir. Onlar həm də siyasi hakimiyyət ilə gənc nəsil arasında qarşılıqlı münasibətləri, onların bir-birinə nəzərən yerinə yetirlməli olduqları vəzifələri və öhdəlikləri müəyyənləşdirir.

Hüquqi dövlətdə hakimiyyət yalnız qanun əsasında həyata keçirilir və dövlətin hüquqilik dərəcəsi onun tərəfindən gənclərin maraqları və hüququnu təmin etmə səviyyəsi ilə ölçülür. Bütövlükdə cəmiyyət dövlətə deyil, dövlət cəmiyyətə xidmət göstərir. Hüquqi dövlətin gənc nəslin formalaşması və inkişafına təsirinin mühüm bir istiqaməti idarəçiliyin bütün pillələrində demokratik prinsiplərin tətbiqinin genişləndirilməsi yolu ilə baş verir. Söhbət ilk növbədə hakimiyyət bölgüsünün həyata keçirən institutların işinin qanun əsasında tənzim olunmasından, ümumi və bərabər seçki hüququnun tətbiq olunmasından, taleyüklü məsələlər barəsində ümumxalq referendumunun keçirilməsindən gedir. Hüquqi dövlətdə cəmiyyətin yüksək demokratizmi təmin olunur, siyasi hakimiyyətin bütün vəsilələri seçkilər yolu ilə formalaşdırılır. Bundan əlavə gənc vətəndaşların qanunda nəzərdə tutulmuş bütün hüquq və azadlıqları çərçivəsində( söz azadlığı, vicdan azadlığı, tolerantlıq, dini dözümlülük, birliklərdə və təşkilatlarda könüllü birləşmək hüququ, toxunulmazlıq; təqsirsizlik prezumpsiyası və sair ) öz ictimai və fərdi fəaliyyətinin tam dolğunluğu ilə həyata keçirməsi üçün real şərait yaranır. Burada gənclərin fəaliyyəti aşağıdakı prinsip üzrə qurulur : " qanun qadağa etmədiyi hər işi görməyə icazə verilir ". Bu isə onun fəallılığını və təşəbbüskarlığını yüksəldir, öz yaradıcı potensialını daha dolğun reallaşdırmağa imkan açır. Hüquqi dövlətin humanist xarakteri gənclərin cəmiyyətdəki mənəvi, intellektual və fəallıq statusunun yüksəlməsində təcəssüm olunur.

Hüquqi dövlətin fəaliyyətinin bütün əsas prinsiplərinin konstitusiya müəyyənləşdirir . Burada

gənc nəsil ilə siyasi hakimiyyət arasındakı münasibətlərin əsas prinsipləri siyasi hakimiyyətin gənclərə münasibətdə həyata keçirməli olan funksiyaları, habelə onların hüquq və azadlıqları qanunvericilik qaydasında təsbit olunur.

Hüquqi dövlətin mahiyyəti və məzmunu gənclərin ictimai həyatdakı artan rolundan asılı olaraq, onun formalaşması və inkişafı üçün optimal şərait yaratmaqdan ayrılmazdır. Məhz bu dövlətin bərqərar olduğu şəraitdə gənclər özünün potensial imkanlarını tam reallaşdırmaq, özünü təsdiq etmək, spesifik mənafə və maraqlarını həyata keçirmək üçün lazım olan əsl şəraiti əldə edə bilər. Hüquqi dövlət bir sistem kimi siyasi, iqtisadi, mədəni və mənəvi sferalarda gənclərin həyat fəaliyyətinin istehsalı və təkrar istehsalına real imkanlar yaradır. Bu baxımdan ictimai həyatın vətəndaş cəmiyyəti formasında sosial təşkili gənc nəslin bütün sahələrdə həqiqi azad fəaliyyətini təmin edir və onu ali dəyər kimi qiymətləndirir. Məhz onun sayəsində müasir gənclik özünün spesifik və ümumi dövlət maraqlarından müəyyən qədər kənarda yerləşən, lakin onun özü üçün həyatı əhəmiyyət kəsb edən bir sıra mühüm mənəvi və mədəni ənənələri, normaları və dəyərləri qoruyub saxlayır, inkişaf etdirərək gələcək nəslə ötürə bilir.

Gənclərə təsir baxımından hüquqi dövlətin aşağıdakı keyfiyyətləri daha önəmlidir: yaxın xalq tərəfindən tanınması və seçicilərin əsl xüsusiyyətlərinə malik olması; demokratiyanı daha dolğun şəkildə həyata keçirmək imkanları; hakimiyyətin səmrəli şəkildə reallaşdırılması üçün malik olduğu üsütünlüklər (o cümlədən də fərdlərin maraqlarının nəzərə alınması və mənafelərinin ödənilməsi baxımından). Bu zaman diqqəti belə bir məsələyə yönəltmək lazımdır ki, hüquqi dövlətin gənclərə müsbət təsirinin çox mühüm istiqaməti özünü onda göstərir ki, burada gənclərin siyasi özəlləşməsi məhdudlaşdırılır və demək olar ki, aradan qaldırılır, çünki onun fəaliyyətinin müxtəlif tərəflərində sırf siyasi təsirin rolu azalır, onun əvəzində sosial xüsusiyyətlər ön plana keçir. Sonra, vətəndaş cəmiyyəti gənclərin təhlükəsizliyin qorumağı özünün başlıca məqsədlərindən biri hesap edir. Özü də söhbət təkcə sosial-iqtisadi təhlükəsizlikdən (mülkiyyət hüququnun müdafiəsi, azad iqtisadi yaradıcılığa və təşəbbüskarlığa meydan verilməsi və sair ) deyil, habelə şəxsi təhlükəsizliyin müxtəlif tərəflərindən (sağlamlığın müdafiəsinin rəngarəng formalarının tətbiqi, təhsil və mədəniyyətin inkişafına qayğı, gənclərin həyatına hər cür zoraki formalarda müdaxilənin qadağan olunması və sair) gedir.

Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşması obyektiv xarakter daşıyan təbii tarixi prosesdir. Lakin onun özbaşına axın kimi baş verdiyini təsəvvür etmək doğru deyildir. Bu proses cəmiyyətdəki sosial və siyasi təşkilatların, strukturların və idarəçilik orqanlarının məqsədyönlü tənzimləyici təsiri altında baş verir.

**BƏHRƏM ƏLİYEV**
*İqtisadiyyatın tənzimlənməsi*
*Naxçıvan Dövlət Universiteti*
*aliyevbehrem45@gmail.com*

# BORC PROBLEMLƏRİNİN BEYNƏLXALQ SƏVİYYƏDƏ TƏNZİMLƏNMƏSİ

Bildiyimiz kimi, inkişaf şəraitindən asılı olmayaraq, müasir şəraitdə bütün ölkələr müəyyən həcmdə dövlət borclarına malikdirlər. Lakin,bütün iqtisadi kateqoriyalarda olduğu kimi, dövlət borclanmasında da müəyyən sərhədlər mövcuddur.Yalnız bu sərhədlər daxilində sözü gedən iqtisadi siyasət müsbət səmərə verə bilər. Əks halda isə,bu borc vəsaitləri ağır maliyyə problemlərinə səbəb olmaqla ölkənin iqtisadi vəziyyətinə kəskin mənfi təsirlər göstərəcəkdir.

Müasir dünya təcrübəsində dövlət borcunun idarə edilməsi sistemləri bir neçə alt sistəmlərə bölünür ki,bunlar da öz növbəsində müvafiq borc vəsaitlərinin cəlb edilməsi,onların səmərəli istifadə edilməsi və son nəticədə tam ödənilməsi proseslərinin ardıcıl həyata keçirilməsinə istiqamətlənmişdir. Ayrı-ayrılıqda dünya ölkələrinin dövlət borcunun idarə edilməsi sistemi və bu sistemin müxtəlif parametrlər baxımından müqayisəsi dedikdə həmin dövlətlətlə aşağıda qeyd olunan alt sistemlərin müxtəliflikləri başa düşülür. Dövlət borcunun idarə edilməsinin alt sistemləri aşağıdakılardır:

1. qanunverici–hüquqi alt sistem;
2. institusional alt sistem;
3. bazar alt sistemi və.s

Dövlət borcunun idarə edilməsi sisteminin hüquqi alt sistemi dövlət borcu ilə bağlı bütün münasibətlərin hüquqi–qanunvericilik əsasını təşkil edir. Məhz bu alt sistemin mükəmməlliyi, yəni milli iqtisadi təhlükəsizliyə, iqtisadi inkişafın şərtlərinə cavab verə bilən bir səviyyədə olması ölkənin səmərəli borc siyasətinin ümdə şərtlərindən biri kimi çıxış edir.

İnkişaf etmiş sənaye ölkələrində hüquqi alt sistemin bütün həlqələri düzgün tənzimləyici, o cümlədən stimullaşdırıcı rola malik olduğu halda digər qrup dövlətlərdə bu həlqələrin real hüquqi bazası ya tamamilə mövcud deyil, yaxud da olduqca bəsit xarakter daşıyır.

Məsələn, Almaniyada dövlət qiymətli kağızlar bazarının vergi tənzimlənməsi, yəni dövlət borcu münasibətlərinin müəyyən bir hissəsi ilə bağlı qanunvericilik aktının inkişaf etməkdə olan, o cümlədən əksər MDB dövlətlərində dövlət borcu ilə bağlı qanundan həcmcə və mahiyyət baxımından dəfələrlə iri olması bu fikri sübuta yetirir.

Müasir dünya təcrübəsində dövlət borcunun idarə edilməsi mexanizminin hüquqi–normativ tənzimlənməsinin başlıca aləti borc vəsaitlərinin cəlb edilməsi, istifadəsi və qaytarılması prosesinə hüquqi məhdudiyyətlərin tətbiq edilməsidir. Bu məhdudiyyətlər ümumi şəkildə aşağıdakı kimi sıralanır:

l. Dövlət borcunun ümumi məbləğinin məhdudlaşdırılması: o cümlədən,
- daxili dövlət borcunun məhdudlaşdırılması;
- xarici dövlət borcunun məhdudlaşdırılması.

2. Dövlət borcuna görə xidmət məbləğinin məhdudlaşdırılması.
3. Borc öhdəlikli dövlət qiymətli kağızlarının tədavülünün məhdudlaşdınlması.
4. İnvestorların dövlət maliyyə alətlərini əldə etməklə bağlı hüquqlarının məhdudlaşdırılması.
5. Vahid investor tərəfindən investisiya məbləğinin məhdudlaşdırılması.

Qeyd olunan məhdudiyyətlərdən istifadə səviyyəsi dövlətin borc siyasətinin prioritetlərindən, milli-iqtisadi xüsusiyyətlərdən, eləcə də dövlətin daxili maliyyə bazarında faiz siyasətindən asılı olaraq fərqlənir. Məsələn, Argentina, Türkiyə və s. kimi dövlətlərdə xarici dövlət borcu yükünün çox olmasından irəli gələrək birbaşa xarici kreditlərin cəlb edilməsi istiqamətində dövlətin məhdudlaşdırıcı siyasəti geniş tətbiq olunduğu halda daxili maliyyə bazarının yüksək inkişaf etdiyi, güclü investorların mövcud olduğu “böyük yeddilik”də vahid investorun investisiya fəaliyyətinin

müəyyən hədlərlə çərçivələnməsi tədbirləri hökuməti daha çox maraqlandırmaqdadır.

Dövlət borcu münasibətlərinin hüquqi tənzimləməsi ilə yanaşı normativ tənzimlənməsi də mövcuddur. Bu, əsas etibarilə borc öhdəlikli dövlət qiymətli kağızlarının yerləşdirilməsi yolu ilə cəlb edilən borc vəsaitlərinə aiddir. Əksər ölkələrdə maliyyə bazarını Maliyyə Nazirliyi və ölkənin Mərkəzi Bankının normativ aktları ilə tənzimlənir. Bu normativ aktlar borc-maliyyə alətlərinin yerləşdirilməsi,tədavülü, hökumətin bu borc vəsaitlərindən istifadəsi, eləcə də öhdəliklərin tam ödənilməsini əhatə edir. Bir sıra ölkələrdə isə dövlət qiymətli kağızlar bazarının normativ tənzimləyici funksiyasını əsasən qiymətli kağızlarla bağlı dövlət komitəsi həyata keçirir. Buna misal olaraq ABŞ–ı göstərmək olar. Demək olar ki, digər inkişaf etmiş ölkələrdən fərqli olaraq burada borc öhdəlikli dövlət qiymətli kağızlar bazarının əsas normativ tənzimləyicisi Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyadır.

Dünya ölkələrində dövlət borcunun idarə edilməsi üzrə hüquqi bazanın təhlili göstərir ki, kredit olmayan öhdəliklər kimi meydana gələn dövlət borclarının tənzimlənməsi məsələləri xüsusiləşdirilməmişdir. Əvvəldə qeyd etdiyimiz kimi, kredit olmayan dövlət borclarının ölkənin borc yükü və bundan irəli gələrək iqtisadi təhlükəsizlik baxımından təsirləri qaçılmazdır. Lakin, digər tərəfdən müasir dünya təcrübəsində sözügedən öhdəliklərin idarə edilməsinin xüsusi olaraq hüquqi reqlamentinin təsbit edilməməsi ciddi maraq doğurur. Bunu bir tərəfdən onunla izah etmək olar ki, xarici təcrübədə hökumət ilə dövlət müəssisələri və təşkilatları, habelə dövlət maliyyə fondları ilə digər subyektlər arasında maliyyə-hüquq münasibətləri kifayət qədər düzgün və ətraflı müəyyənləşdirilmiş və bu əsasdan kredit olmayan borc problemlərinin meydana gəlməsi ehtimalı aşağıdır. Digər tərəfdən məlumdur ki, kredit olmayan borc probleminin əsas səbəblərindən biri dövlətin öhdəliyini çevrilə biləcək maliyyə münasibətləri üzərində ciddi maliyyə nəzarətinin mövcud olmamasından ibarətdir. Məhz, maliyyə nəzarətinin gücləndirilməsi ilə əksər dünya dövlətləri bu problemləri arxa planda saxlayırlar. Lakin, Azərbaycan reallığında sözügedən məsələ birmənalı şəkildə aktualdır və hesab edirik ki, hətta xarici təcrübəyə əsaslanmaq imkanları məhdud olduğu halda, kredit olmayan öhdəliklər kimi meydana gələn daxili və xarici dövlət borclarının idarə edilməsinin xüsusi hüquqi institutsional mexanizmini təsbit etmək zəruridir. Dövlətin borc-maliyyə bazarının normativ tənzimlənməsinin əksər dövlətlərdə müstəqil maliyyə institutlarına deyil bilavasitə hökumət orqanına şamil edilməsi bu istiqamətdə ciddi dövlət tənzimlənməsinin zəruriliyindən irəli gəlir. Qeyd etmək lazımdır ki, bu aspektdən maliyyə bazarının ilkin formalaşma mərhələsini yaşayan ölkələrdə, o cümlədən Azərbaycanda mərkəzi bankın və maliyyə nazirliyinin bu istiqamətdə ciddi tənzimləyici rolunun qorunması dövlətin borc siyasətinin prioritetlərinə daxil olmalıdır.

**FİRUDİN FƏRMANLI**
*İqtisadiyyatın tənzimlənməsi*
*Naxçıvan Dövlət Universiteti*
*firudin.fermanli@gmail.com*

## MÜƏSSİSƏ MALİYYƏSİNİN MENECMENTİ

Müasir bazar iqtisadiyyatında müxtəlif mülkiyyət formalı çox növlü təsərrüfat subyektləri əsas rol oynayırlar. Təsərrüfat subyekti hüquqi şəxsdir, mövcud qanunvericiliyə uyğun olaraq, dövlət qeydiyyatından keçir və qarşıya qoyulan məqsədə nail olmaq üçün fəaliyyət göstərir.

Yaranma məqsədindən və fəaliyyətindən asılı olaraq təsərrüfat subyektləri kommersiya və qeyri-kommersiya təşkilatlarına bölünürlər. Kommersiya təşkilatının əsas məqsədi mənfəət əldə etmək və onu iştirakçılar arasında bölüşdürməkdir. Qeyri-kommersiya təşkilatının məqsədi isə sosial məsələləri həll etməkdir, əgər təşkilat sahibkarlıq fəaliyyət ilə məşğul olursa, onda alınan mənfəət iştirakçılar arasında bölüşdürülmür, yalnız sosial və digər ictimai faydalı məqsədlər üçün istifadə edilir.

Kommersiya təşkilatları bazar iqtisadiyyatının özəyini təşkil edir. İqtisadi və hüquqi ədəbiyyatlarda bu özəyin müxtəlif cür adlandırılmasına rast gəlinir: firma, şirkət, müəssisə, təşkilat və s.

Məlum olduğu kimi, müasir iqtisadi nəzəriyyə iki hissədən: mikroiqtisadiyyat və makroiqtisadiyyatdan ibarətdir. Mikro və makroiqtisadi sistemlər biri-birini tamamlayan vahid iqtisadi sistemin tərkib hissələridir.

Mikroiqtisadi nəzəriyyənin əsasını firma (müəssisə) nəzəriyyəsi təşkil edir. Bu nəzəriyyə milli iqtisadiyyatın əsas həlqəsi kimi firmanın fəaliyyətini öyrənir. Məşhur alman alimi V. Zombari müəssisəni uzunmüddətli planın mövcud olduğu və həyata keçirilməsi üçün vahid iradəli bir neçə şəxsin uzun müddət birgə fəaliyyət göstərmələrini tələb edən subyekt adlandırılmışdır. R.Kour demişdir ki, firma resurslardan istifadə istiqamətlərinin sahibkardan asılı olmağa başladığı zaman baş verən münasibətlər sistemidir. “Firma” anlayışı həm elmi ədəbiyyatlarda və həm də gündəlik biznes fəaliyyətində geniş istifadə olunur.

Qeyd etmək lazımdır ki, dünyanın ayrı-ayrı ölkələrində sözügedən termindən istifadənin fərqli xüsusiyyətləri vardır. Məsələn, Britaniya qanunvericiliyində “şirkət” anlayışı işlədilir və baza normativ aktlardan biri məhz “şirkətlər haqqında qanun” adlanır. Rusiya Federasiyasının qanunvericiliyində “müəssisə” və “təşkilat” anlayışları təsbit olunub. Bazar iqtisadiyyatı inkişaf etmiş Qərb dövlətlərində biznesin təşkilat-hüquqi formaları kimi fərdi xüsusi müəssisə, tərəfdaşlıq və səhmdar cəmiyyəti (şirkət) göstərilir.

Müəssisə bir tərəfdən çoxlu alt sistemlərdən ibarət olan mürəkkəb sistemi ifadə edir, digər tərfədən isə daha yüksək nizamlı sistemin tərkib hissəsi sayılır. Mexaniki sistemlərdən fərqli olaraq müəssisənin sosial-iqtisadi sistem kimi çoxlu eynitipli və öz-özünə əmələgələn, çox vaxt formalaşmayan fəaliyyət aspektləri olur, hansıki məntiqi idarəetmənin ümumi nəzəriyyəsi çərçivəsində izah edilir.

Müəssisə mülkiyyət formasından asılı olmayaraq ictimai tələbatın ödənilməsi və mənfəət alınması məqsədilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyektidir.

Bazar münasibətləri şəraitində müəssisə özünün istehsal-təsərrüfat fəaliyyətini müstəqil həyata keçirir, istehsal etdiyi məhsulun reallaşdırılmasından alınan gəlirdən vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra sərəncamında qalan mənfəətdən istədiyi kimi istifadə edir. Bu zaman müəssisə mənfəətin alınması və ictimai tələbatın ödənilməsi məqsədlərinə nail olmağa çalışır. Klassik iqtisadi ədəbiyyatlarda, xüsusilə Adam Smitin əsərlərində “görünməz əl” termini işlədilir. Bu terminin mahiyyəti ondan ibarədir ki, istehsal müəssisəsi və malgöndərən təşkilatlar öz şəxsi

gəlirlərini (mənfəətini) artırmağa cəhd edərkən, eyni zamanda ictimai tələbatın ödənilməsinə xidmət edirlər. Ona görə də sivil bazar münasibətləri şəraitində fəaliyyət göstərən hər bir sahibkarlıq subyekti sözügedən məqsədlərin ağıllı şəkildə əlaqələndirilməsinə ciddi diqqət yetirilməlidir.

Qeyd etmək lazımdır ki, biznes sahibkarların iqtisadi fəaliyyəti, onların daim artan həcmdə mənfəətin alınmasını və rentabellik səviyyəsinin yüksəldilməsini təmin etmək qabiliyyətidir. Bununla belə, bazar iqtisadiyyatı şəraitində biznesin inkişafı istehlak bazarını əmtəə və xidmətlərlə zənginləşdirir, iqtisadiyyatın struktur yeniləşməsini fəallaşdırır, elmi-texniki nailiyyətlərin tətbiqini stimullaşdırır, istehsalın səmərəliliyini əhəmiyyətli dərəcədə yüksəldir.

Müasir müəssisə mürəkkəb təşkilati struktura malikdir. Bazar iqtisadiyyatı şəraitində müəssisənin təşkilinin üç əsas istiqaməti: istehsalın, əməyin və idarəetmənin elmi təşkili müstəsna əhəmiyyəti kəsb edir.

İstehsalın elmi təşkili müəssisənin optimal texniki-texnoloji sisteminin yaradılması məqsədinə xidmət edir.

Əməyin elmi təşkili əmək kollektivində sağlam münasibətlərin qurulmasını nəzərdə tutur.

İdarəetmənin elmi təşkili müəssisənin maddi və insan altsisteminə məqsədyönlü təsir göstərən texniki, iqtisadi və humanitar sistemdir.

Bazar münasibətləri şəraitində hər cür müəssisə mənfəət əldə etmək məqsədilə istehsal-təsərrüfat fəaliyyətinin genişləndirilməsi və səmərəliliyinin yüksəldilməsi istiqamətində konkret tədbirlər həyata keçirməli, düzgün maliyyə, investisiya və qiymət siyasəti işləyib hazırlamalı və həyata keçirməlidir.

Cəmiyyət üçün zəruri olan məhsullar istehsal edən, xidmətlər göstərən müəssisələrdə əsas iqtisadi proseslər baş verir, istehsalın texnologiyası və buraxılan məhsulun keyfiyyətilə bağlı problemlər tənzimlənir, iqtisadi və sosial münasibətlər qurulur, ictimai və xüsusi mənafelər səmərəli şəkildə əlaqələndirilir. İstehsal müəssisələrində qarşıya qoyulmuş məqsədlərə və mövcud şəraitə uyğun olaraq məhdud resurslardan səmərəli istifadə etmək yolu ilə istehlakçıların tələbatının optimal ödənilməsi üçün texniki, texnoloji, iqtisadi, maliyyə və s. məsələlər uğurla həll edilir.

İqtisadi ədəbiyyatlarda "firma" və "müəssisə" anlayışları bəzən sinonim kimi işlədilir. Bu fikrə aydınlıq gətirmək lazımdır. Firma geniş profilli fəaliyyətlə məşğul olur, yəni istehsal, ticarət, nəqliyyat, bank, auditor və s. fəaliyyəti həyata keçirir. Firma tərkibində eyni və ya müxtəlif profilli bir neçə müəssisəni birləşdirməklə istehsal və kommersiya fəaliyyəti ilə məşğul olan iqtisadi subyektdir. Firma bazarın ilkin həlqəsi olub bazarda qiymət siyasətini formalaşdırır, rəqabət mübarizəsi aparır və mənfəətin bölüşdürülməsində iştirak edir.

İqtisadiyyatın ilkin həlqəsi olan müəssisə isə müxtəlif mülkiyyət formasına əsaslanan, ictimai tələbatın ödənilməsi və mənfəət alınması məqsədilə məhsul istehsal edən, iş yerinə yetirən və xidmətlər göstərən istehsal-texniki, təşkilati və iqtisadi vəhdətə malik olan hüquqi şəxs səlahiyyətli təsərrüfat subyektidir.

Bazar münasibətləri şəraitində müəssisənin sosial-iqtisadi əhəmiyyəti dəyişir və bu dəyişikliklər aşağıdakı əsas istiqamətlər üzrə baş verir:

- bazarın müəssisəyə qarşı irəli sürdüyü tələbin ödənilməsi;
- mümkün qədər daha çox və yüksək keyfiyyətli məhsul istehsal etmək;
- müəssisənin bir çox məsələlər üzrə müstəqilliyinin artırılması .

Deməli, təsərrüfatçılığın bazar şəraitində müəssisənin sahibkarlıq davranışı dəyişir ki, bu da müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinə müsbət təsir göstərir. Müəssisənin təsərrüfat fəaliyyətində maliyyə xüsusi əhəmiyyət kəsb edir. Maliyyənin xüsusiyyəti ondadır ki, o, həmişə pul formasında çıxış edir. O, bölüşdürücü xarakterdə olub, maddi istehsal sahələrində təsərrüfat subyektlərinin, dövlətin və qeyri-istehsal sahəsi iştirakçılarının gəlirlərinin və yığımlarının formalaşmasını və istifadəsini əks etdirir.

Konkret təsərrüfat subyektlərinin sərəncamında olan pul vəsaitləri müəssisənin maliyyə resurslarını təşkil edir və onun gəlirlərinin əmələ gəlməsi, bölüşdürülməsi və istifadəsi prosesini əks etdirir.

Maliyyə -pul fondlarının yaranması və istifadə edilməsini ifadə edən pul münasibətləri sistemidir. İstehsal-kommersiya müəssisələrində maliyyə münasibətləri təsərrüfat fəaliyyətinin əsasları ilə birbaşa bağlı olan aşağıdakı prinsiplər üzərində qurulur və bu prinsiplər əsasında müəssisənin maliyyəsi təşkil olunur. Bu prinsiplər aşağıdakılardır:

- maliyyə -təsərrüfat fəaliyyəti sahəsində müstəqillik;
- özünümaliyyələşdirmə;
- işin nəticəsinə maraqlılıq;
- işin nəticələri üçün məsuliyyət;
- maliyyə ehtiyatlarının yaradılması;
- vəsaitlərin xüsusi və borc alınmış vəsaitlərə bölünməsi;
- büdcə, büdcədənkənar və dövlət fondlarına birinci növbəli ayırmalar;
- müəssisənin fəaliyyətinə maliyyə nəzarəti.

Müəssisənin iqtisadi imkanı baxımından- həm onun əmlakı, həm də maliyyə vəziyyəti mövqeyindən-xarakterizə etmək olar. Təsərrüfat fəaliyyətinin qeyd edilən tərəfləri sıx qarşılıqlı əlaqədədir: əmlakın qeyri- səmərəli sektoru, onun keyfiyyətsiz tərkibi müəssisənin maliyyə vəziyyətinin pisləşməsinə gətirib çıxarır və əksinə. Buna görə müəssisənin maliyyə siyasətinin işlənib hazırlanması onun maliyyə - iqtisadi vəziyyətinin təhlili və qiymətləndirilməsindən başlanır. Belə təhlil qiymətləndirmə isə müəssisənin əmlak və maliyyə vəziyyətini əks etdirən bir sıra göstəricilərin köməyi ilə həyata kecirilir.

Müəssisənin əmlak və maliyyə vəziyyətini qiymətləndirmək üçün onların sərəncamında olan əsas fondların dəyəri, əsas fondların aktiv hissəsinin payı, əsas fondların köhnəlmə, yeniləşmə, sıradan çıxma əmsalları və s. bu kimi göstəricilərdən istifadə olunur.

Müəssisənin maliyyə vəziyyətinin sabitliyi maliyyə resurslarının aktivlərə məqsədəuyğun və düzgün qoyuluşundan əhəmiyyətli dərəcədə aslıdır. Aktivlər isə təbiəti etibarilə dinamikdir, müəssisənin fəaliyyəti prosesində həm aktivlərin miqdarı, həm də onların strukuru daim dəyişikliklərə məruz qalır. Uzunmüddətli perspektiv baxımından müəssisənin maliyyə vəziyyəti vəsaitlərin mənbələrinin strukturu, müəssisənənin kənar investorlardan və kreditorlardan aslılıq dərəcəsi və s. ilə xarakterizə olunur. Müəssisənin xüsusi və cəlb edilmiş vəsaitləri arasındakı nisbət üçün qəbul olunmuş vahid normativ yoxdur. Lakin belə bir geniş yayılmış fikir var ki, müəssisənin xüsusi vəsaitlərinin payı 60%-dən cox olmalıdır.

## ƏDƏBİYYAT

1. D. A. Bağırov , M.X. Həsənli. Maliyyə. Dərslik. Bakı: 2011

2. Abbasov S.A. Maliyyə menecmenti: təşkili və təkmilləşdirilməsi problemləri (monoqrafiya). Bakı: “Elm və Təhsil”, 2009.

3. Biznesin təşkili və idarə edilməsi. Dərslik. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2011.

**HÜSEYN HACIYEV**
*Gənclərlə iş*
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİ

Ümummilli lider Heydər Əliyev çıxışlarının birində Azərbaycan gəncliyi haqqında fikirlərini bildirmişdir: " Azərbaycanın bugünkü gəncləri indi özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər. Onların əksəriyyəti vətənpərvər gənclərdir. Biz də çalışmalıyıq ki, bu gənclərin hamısı vətənpərvər olsun və vətənə xidmət etməyi özlərinin ən şərəfli vəzifəsi hesab etsinlər. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edirdi:

- Milli mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək;
- Gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək;
- Gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək;
- Gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq;
- Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq.

Gənclər siyasəti dövlət siyasətinin mühüm və ayrılmaz tərkib hissəsidir. Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldır. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər. Prezident İlham Əliyev özünün çıxışlarında mütəmadi olaraq gənclərin ictimai-siyasi və humanitar proseslərdə göstərdiyi səyləri nəzərə alaraq bu təbəqəni novator, yeniliyə can atan və vətənpərvər insanlar kimi təqdim edir. Həqiqətən də, dövlətin gənclər üçün yaratdığı geniş imkanlar onları nəinki cəmiyyətin avanqard qüvvəsinə çevirir, üstəlik, gənc nəsil özünün intellektual potensialı ilə Azərbaycanı beynəlxalq müstəvidə daha əzmlə təmsil etmək üçün qətiyyət göstərməkdədir. Bu faktor isə müstəqilliyini 1991-ci ildə bərpa edən bir respublika üçün mürəkkəb geosiyasi proseslərin getdiyi dövrdə çox əhəmiyyətli sayılır. Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Sağlam gənclik sağlam nəsil deməkdir. Yaxın tarixi keçmişimizdə - Sovet dönəmində bu quruluşa xas stereotiplərə görə cəmiyyətdə mövqe sahibi olmaq, dövlət strukturlarında çalışmaq üçün bəlli bir yaş həddini keçməli idin. Belə bir quruluşda gəncliyin inkişafından və cəmiyyətdəki rolundan danışmağa dəyməzdi. Lakin Azərbaycan tarixi müstəqilliyini bərpa etdikdən, xüsusən də xalqın təkidli tələbi ilə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlara başlanıldı.

1996-cı il fevralın əvvəllərində Azərbaycan gənclərinin ilk forumu keçirildi və bununla da gəncliyin inkişafına dəstək dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Ulu Öndərin 1997-ci ildə imzaladığı fərmanla fevralın 2-si ölkədə Gənclər Günü kimi təsbit olundu. Son illər Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Ulu öndər Heydər Əliyevin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Prezidenti İlham Əliyev bu meyarları nəzərə alaraq ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir. Hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi

Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. Həmin sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapmışdır. Bu istiqamətlər tamamilə xalqımızın milli mənafelərinin inkişafına yönəldilərək gəncləri ideya müəllifi olmağa səsləyirdi. Yəni, hər bir gənc fərdi qaydada özünü idarəçi kimi yetişdirməli, daim təşəbbüskarlıq göstərməlidir. "2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib. Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. Qürurlu haldır ki, xalqımızın qəhrəmanlıq tarixini yazanlar da onlardır. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)”, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il tarixli 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramlarının icraları nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş vermiş və müəyyən uğurlar əldə olunmuşdur. Gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində davamlı iş aparılmış, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı genişləndirilmişdir. Məşğulluq sahəsində beynəlxalq təcrübəyə və gənclərin təşəbbüskarlığına əsaslanan fəaliyyətlər inkişaf etdirilmiş, regionlarda yaşayan gənclərin fəallığını stimullaşdıran tədbirlər həyata keçirilmişdir. Ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılmış və bu sahədə irəliləyişlərə nail olunmuşdur. Dövlətin qayğısı sayəsində gənclər təşkilatlarının dövlət gənclər siyasətində iştirakını təmin edən hüquqları genişləndirilmiş, onların layihə və proqramlarına mütəmadi dəstək verilmişdir. Beynəlxalq əməkdaşlıq sahəsində gənclər təşəbbüskarlıq və davamlı fəaliyyət nümayiş etdirmişlər. 2017-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin sərəncamı ilə növbəti "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq edildi. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və dəyərləndirilməsi, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri edir. Dövlət Proqramının əsas məqsədi isə respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsini təmin etməkdir. Bir sözlə, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətində gənclik mövzusunun aktuallığı bir daha aydın təsbit olunur.

“Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Biz heç kimin diktəsi ilə oturub durmuruq və oturub durmayacağıq. Öz sözümüzü daim açıq deyəcəyik və prinsipial mövqeyimizi nümayiş etdirəcəyik. Həmişə də belə olmalıdır. Siz də bu ruhda böyüməlisiniz, tərbiyə almalısınız ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməsin və Azərbaycan inkişaf, azadlıq, müstəqillik yolu ilə getsin”. Bu sözləri ölkə başçısı İlham Əliyev Sabirabadda ASAN Könüllülərinin I Ümumrespublika Forumunun açılışında iştirakı zamanı deyib.

Gənclər siyasətinin əsas istiqamətləri “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə aşağıdakı kimi müəyyənləşdirilib:

1. Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı;
2. İstedadlı gənclərə dövlət qayğısı;
3. Gənclərin sağlamlığının qorunması və fiziki inkişafı;
4. Gənclərin məşğulluğunun təmin edilməsi;
5. Gənc ailələrə dövlət yardımı;
6. Gənclər təşkilatlarına dövlət yardımı.

Hazırda ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir. Azərbaycan əhalisinin 2,8 milyonu və ya 31%-i gənclərdir. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Təbii ki, bu, cənab Prezidentin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir.

Gənclər də dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Çünki Prezident İlham Əliyev gənclərə olan münasibətini belə ifadə etmişdir: “Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram”.

Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini toplamalı, vətənin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə Prezidentinin etimadını həmişə doğrultmalıdırlar.

Dövlətimiz biz gənclərə göstərdiyi qayğı və diqqət bizim məsuliyyətimizi daha da artıracaq, ölkəmizin gələcək inkişafı üçün çiyinlərimizə ağır və şərəfli yük qoyacaqdır. İnanıram ki, biz öz fəaliyyətimizi Prezidentimiz İ.ƏIiyevin biz gənclərə olan inam və etimadını bu gün olduğu kimi, gələcəkdə də doğruldacağıq.

Azərbaycan gəncliyi cənab Prezident İ.ƏIiyevin yürütdüyü daxili və xarici siyasəti dəstəkləyir və ölkəmizin işıqlı və parlaq gələcəyini məhz onun çiyinlərində görür. Gəncliyimiz Azərbaycan naminə sabahımızdır. Vətənimiz naminə uğurumuzdur, bütövlüyümüz, dilimiz naminə şərəfimizdir. Demək sabahımız, uğurumuz, zəfərimiz bizimlədir.

## ƏDƏBİYYAT

1. “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”
2. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası
3. “Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı
4. “Azərbaycan gəncliyi 2017–2021-ci illərdə” Dövlət Proqramı
5. "Regionların İnkişafı" Dövlət Proqramı 2019-2023

**NİGAR MƏHƏRRƏMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*meherremovanigar98@gmail.com*

## VERGİ PROQNOZLAŞDIRILMASININ HÜQUQİ ƏSASLARI

Ölkəmiz XX əsrin sonlarında ikinci dəfə müstəqillik əldə etdi. Bu dövrdə Azərbaycanın xalqı çox çətin bir şəraitdə yaşayırdı, iqtisadi xaos və tənəzzül, siyasi hərc-mərclik baş alıb gedirdi, iqtisadiyyatımız ciddi problemlərlə üz-üzə qalmışdı. Həyata keçirilən sosial-iqtisadi is-lahatlar bütün sahələrdə olduğu kimi, dövlət büdcəsində də kəmiyyət və keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. Ölkədə müvafiq konsepsiyanın işlənib hazırlanması və həyata keçirilməsi uzun-müddətli sosial-iqtisadi inkişaf proqnozların, proqram və modellərin tərtibini tələb edir. Büdcə mərkəzləşdirilmiş ümumdövlət pul vəsaiti fondunun yaradılması, bu fondun istifadə edilməsi və büdcə vəsaitlərinin hərəkətinə nəzarətin həyata keçirilməsi kimi mühüm funksiyaları yerinə yetirməklə cəmiyyətdə baş verən sosial-iqtisadi prosesləri tənzimləyir. Büdcə vergilərdən və qey-ri-vergi ödənişlərindən təşkil olunur ki, burada vergilərin xüsusi çəkisi üstünlük təşkil edir.

Vergilər dövlət və yerli hakimiyyət orqanları ilə vergi ödəyiciləri (müəssisə, firma və ev təsərrüfatları) arasındakı qarşılıqlı prosesi əks etdirir.

Müasir şəraitdə Azərbaycan Respublikasının vergi sistemi bazar iqtisadiyyatına keçməyin hüquqi qaydaları əsasında inkişaf edərək formalaşmışdır. Formalaşmış vergi sistemi iki başlıca sosial və iqtisadi funksiyanı yerinə yetirir:

1) büdcə gəlirlərinin formalaşmasını təmin edilməsi;
2) ölkə əhalisinin müxtəlif təbəqələrinin gəlirlərinin formalaşması və yenidən bölgü nəzərə alınmaqla, bütövlükdə iqtisadiyyatda və onun ayrı – ayrı sahələrində ictimai istehsalın və isteh-lakın tənzimlənməsi üçün şərait yaradır.

Müasir şəraitdə ölkəmizin ərazisində yerli vergilər (bələdiyyə vergiləri də) mühüm əhəmiyyəti kəsb edir. Bu vergilərdən istifadə işi müəyyən muxtariyyətə malik olmaqla, yerli qanunlara və şəraitə uyğun olaraq ödənilsə də, onları əsaslandıran qanun və normativ aktlar ümumi dövlət qanunlarına uyğun qaydada həyata keçirilir

Dünyanın İqtisadi cəhətdən inkişaf etmiş ölkələrində vergi sisteminin inkişafının başlıca istiqamətlərini vergiqoyma prosesini tənzimləyən və büdcə gəlirlərinin formalaşmasını qanun və normativ aktlarla təmin edən vəzifələrin yerinə yetirilməsinə daha çox diqqət ayrılır. Hər bir ölk-ədə vergi intizamının olması, yəni verginin vaxtında və qanun tələb etdiyi qaydada ödənilməsi və büdcə gəlirlərinin formalaşa bilməsi, beləliklə də büdcə öz xərclərini ödəyə bilməsi üçün ölkədə maliyyə vəsaitinin çatışması üçün əvəzedilməz əhəmiyyətə malikdir. Mövcud faktların təhlili göstərir ki, bu sahədə görülməli işlərimiz, yəni vergi intizamının tam formalaşması üçün hələ də çox işlər görülməlidir.

Vergi intizamının pozulması təkcə verginin vaxtlı – vaxtında, lazımi həcmdə ödəməməsi şəklində yox, məsələn, başqa bir ad altında bizneslə məşğul olmaq şəklində də baş verir. İdentifi-kasiya işi vaxtaşırı aparmaq lazımdır. Bu və bir sıra başqa metodlarla təsərrüfat subyektlərinin qayda – qanunlara riayət edib - etmədiyi, aşkar edilir. Son illərin vergi toplanması, vergi ödəyicilərinin intizamının yüksəlməsi də bunu sübut edir.

Həm də vergi bazasının genişlənməsi vergiqoyma obyektlərinin ödəyicilərinin vergiyə cəlb edilməsi zamanı ədalətlilik, dəqiqlik və verginin adekvatlığı prinsiplərinə düzgün əməl edilməsini tələb edir.

Yığılan vergilərin 65% dən çoxu vergi orqanlarının, 15 % -dən coxu gömrük orqanları xətti ilə 20 % -ə qədəri isə sair daxilolmaların üzərinə düşür.

Qeyd etmək lazımdır ki, vətəndaşların vergi ödəmə sahəsində öz boclarını yerinə yetirməsi intizamı xeyli dərəcədə yaxşılaşmışdır. Nəzərə almaq lazımdır ki, yanacağa, enerji daşıyıcılarına qiymətlərin qaldırılması ilə baş verən dəyişiklik zəncirvari şəkildə bütün istehsal sahələrində

məhsullara vergi ödənilməsi intizamının pozulmasına və büdcəyə olan borcların artmasına səbəb olmuşdur. Ona görə də vergi siyasətində bu cəhətlər hamısı diqqətlə ölçülüb – biçilməli, nəzərə alınmalıdır.

Hazırkı dövrdə vergi ödəmə sahəsində ən çox intizam pozuculuğu əlavə dəyər vergisi (ƏDV) üzrə baş verir. Bu sahədə aparılmış yoxlamalar nəticəsində özünü ƏDV ödəyiciləri kimi göstərən 1436 təşkilatın vergi intizamını pozması aşkar edilmişdir. Azərbaycan Respublikasında 2006 –cı ilin fevralından başlayaraq ƏDV – nin ödənilməsi sahəsində onu ödəməmək üçün müxtəlif fəndlər işlədən şəxslərə ödənilməyən ƏDV – nin 100% - i qədər cərimə tətbiq edilməsi qərara alınmışdır.

Qeyd etmək lazımdır ki, ölkə üzrə dövlət büdcəsi layihəsi tərtib edilərkən, vergilərin planlaşdırılan məbləği faktiki vergi yığılması əmsalı nəzərə alınmaqla müəyyənləşdirilir.

Göstərilənlərlə əlaqədar vergi yükünün İqtisadiyyatın sahələri üzrə bərabər bölgüsünün təmin edilməsi, istər büdcəyə vergi daxilolmalarının artırılması, istərsə də bütövlükdə ölkənin maliyyə sisteminin və vergi intizamının sağlamlaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Ölkədə müasir şəraitdəki vergi daxilolmalarının təhlili göstərir ki, son illərdə bu sahədə ciddi müvəffəqiyyətlər qazanılmış, vergi daxilolmaları artmış, borclu ödəyicilərin sayı xeyli azaldılmışdır. Keçirilən identifikasiya tədbirləri və başqa tədbirlər nəticəsində özünü ƏDV və başqa birbaşa vergi ödəyiciləri kimi göstərən, vergi intizamını pozan bəzi hüquqi və fiziki şəxslər aşkar edilmiş, büdcənin çoxlu miqdarda məhrum olduğu pul vəsaiti büdcəyə qaytarılmışdır. Bunlar təkcə birbaşa vergilər yox, dolayı vergilər, xüsusi vergilər və rüsumlar sahəsində də aşkar edilmiş, pozuntuların əsas hissəsi aradan qaldırılmışdır. Bu cür faktklar isə vergi orqanlarının işinin və bunun nəticəsi olaraq vergi ödəyiciləri intizamının yüksəldilməsi işinin düzgün istiqamətdə ink-işaf etdiyini göstərir.

Müasir vergiqoyma nəzəriyyəsində ən mühüm problemlərdən biri vergiqoymanın optimallaşdırılması, bunların reallaşmasını müəyyənləşdirən və həyata keçirməyi təmin edən qanunver-iciliyi və ona uyğun gələn vergi sisteminin özünü təkmilləşdirmək lazım gəlir.

Son illərdə vətəndaşların vergi ödəmə sahəsində öz boclarını yerinə yetirməsi intizamı xeyli dərəcədə yaxşılaşmışdır. Vergi yığılması və ödənilməsi intizamına nəzarət edilməsi işində başlıca məsuliyyət Vergilər Nazirliyinin üzərinə düşür.

“Azərbaycan Respublikasının” hər ilin yekununda “Dövlət büdcəsinin icrası haqqında” adlanan dövlət Qanununda büdcə vəsaitlərinin istər sərf olunması, istərsə də formalaşması istiqamətləri göstərilir.

Hazırda Azərbaycan Respublikasında tətbiq edilən Vergi Məcəlləsi vergi sistemin təkmilləşdirmək, vergilərin legitimliyinin əsas məsələlərini tənzimləmək, vergi hüququnun başlıca problemlərinin həllinə kompleks yanaşmanı təmin etmək üçün sistemləşdirilmiş qanunvericilik funksiyasını lazımi dərəcədə yerinə yetirsə də, o hələ yenə də təkmilləşdirilməlidir.

## ƏDƏBİYYAT

1.Azərbaycanın vergi sistemi (xüsusi buraxılış) Azərbaycan Respublikası Vergilər Nazirliyi. Bakı: 2015
2. https://www.taxes.gov.az/files/2/Vergilere_aid_nesrler/4/4.20.pdf
3. https://unec.edu.az/application/uploads/2015/12/229_vergi.pdf
4. http://anl.az/el/v/vz_db.pdf
5. http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=70

**MƏRHƏMƏT BAYRAMOV**
*İqtisadiyyatın tənzimlənməsi*
*Naxçıvan Dövlət Universiteti*
*merhametbayramov@gmail.com*

# SƏNAYE SAHƏLƏRİNİN İNKİŞAF DİNAMİKASI

Milli iqtisadiyyatın dayanıqlılığının və müstəqilliyinin bərqərar olunması, onun liberallaşdırılması və rəqabət qabiliyyətinin artırılması baxımından sənayenin inkişafı iqtisadi siyasətin əsas prioritetlərindən biridir. Bununla yanaşı, sənayenin inkişafı sadəcə iqtisadi baxımdan deyil həm də sosial, ictimai, elmi və mədəni aspektlərdən ötrü mühüm əhəmiyyətə malikdir. Belə ki, güclü sənayeləşmə həm də təbii sərvətlərdən səmərəli şəkildə istifadə edilməsi nəticəsində istehsalın rentabelliliyinin artırılmasına, elmi texniki tərəqqinin sürətləndirilməsinə, əhalinin rifah səviyəsinin yüksəldilməsinə və nəhayət işsizliyin minimuma endirilməsinə stimul yaratmaqdadır. Ölkədə sənaye sahələrinin diversifikasiyası dolaylı yollarla nəqliyyat, kommunukasiya və rabitə xətlərinin inkişafına, istehsal sahələrinin enerji, xammal və digər materiallarla təminatına müsbət təsir göstərməkdədir.

Dünya miqyasında aparılan təcrübələr və emprik araşdırmalar göstərir ki, sənayenin inkişaf tendensiyası ölkələrin gəlir səviyyəsinə paralel olaraq dəyişməkdədir. Ölkələr inkişaf etdikcə aşağı texnologiyalı və əməktutumlu yeyinti, yüngül və mebel sənayesi sahələri aparıcı mövqeyini orta texnologiyalı kimya, metallurgiya, gəmiqayırma, maşın və avadanlıq istehsalı sahələrinə verir. Sənayeləşmənin ən son mərhələsində elektronika, kompyuter istehsalı, əczaçılıq və kosmik sənaye kimi yüksək texnologiyalı sahələr lokomotiv olaraq çıxış edir və qlobal miqyasda sənayenin inkişafında əhəmiyyətli rol oynayır.

1990-cı illərdə Sovet İttifaqının süqut etməsindən sonra Azərbaycan Respublikası öz suverenliyini bərpa etmiş və bunun nəticəsində isə bu günə qədər bir çox sahədə olduğu kimi iqtisadi sahədə də köklü dəyişikliklər baş verməyə başlamışdır. Ümumiyyətlə ələ aldıqda, Azərbaycan iqtisadiyyatını iki dövrə ayırmaq mümkündür. Birincisi 1990-cı ildən 1994-cü ilə qədərki dövrü əhatə edən Sovet İttifaqının süqutu nəticəsində müəssisələr və ölkələr arasındaki mövcud əlaqələrin pozulduğu, səriştəsiz siyasi rəhbərliyin hakimiyyəti nəticəsində Ermənistan tərəfindən Azərbaycanın bir sıra şəhər və rayonlarının işğal olunduğu və nəticəsində isə 1 milyondan artıq soydaşımızın doğma torpaqlarından didərgin düşdüyü, Azərbaycanın iqtisadi, siyasi, informasiya blokadasına alındığı tənəzzül və resessiyanın hökm sürdüyü illərdir. İkincisi isə 1994-cü ilin sentyabr ayında Ümummilli Lider Heydər Əliyevin təşəbbüskarlığı ilə 8 ölkənin 11 transmilli neft şirkəti ilə birgə imzalanan "Əsrin müqaviləsi"nin nəticəsində baş verən bərpa və dinamik inkişaf dövrləridir. Bu müqavilənin nəticəsində ölkənin enerji təhlükəsizliyinin təməli qoyulmuş, Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyası sürətləndirilmiş və ölkədə liberal iqtisadiyyata transformasiya dövrü geniş vüsət almağa başlamışdır.

Daha sonralar enerji sahəsindəki ixrac marşrutlarının diversifikasiyasına səbəb olmuş Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996 və 1999-cu illərdə müvafiq olaraq Bakı-Novorossiyskvə Bakı-Supsa ixrac neft kəmərləri istismara verilmişdir. Bununla yanaşı həmin ərəfələrdə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin inşası üçün beynəlxalq saziş imzalanmışdır.

2004-cü ildən etibarən Azərbaycanda sənayeləşmə prossesi sürətləndirilərək enerji təminatı məsələlərinin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Məhz həmin ildən ölkə təbii qaz və elektrik enerjisi idxalçısından ixracatçısına çevrilmiş və sənayenin infrastruktur təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. Ötən dövr ərzində infrastruktur layihələri ilə yanaşı, dövlət investisiyaları bir sıra istehsal təyinatlı layihələrə yönəldilmiş, ölkədə əlverişli biznes investisiya mühiti yaradılmış, özəl sektor tərəfindən icra edilən layihələrin güzəştli şərtlərlə dövlət tərəfindən maliyyələşdirilməsi və zərurət yarandığı halda dövlətin bu layihələrdə pay iştirakı təmin edilmişdir.

Hal hazırda, ölkə miqyasında bütün regionların tarazlı şəkildə inkişaf etdirilməsi və

karbohidrogen ehtiyatlarından asılılığı azaldaraq sənayenin digər sahələrinin paralel inkişafı üçün atılan ciddi addımların nəticəsində regionların müxtəlif makro və mikro iqtisadi göstəriciləri nikbinləşmiş, yeni istehsal və emal müəssisələri yaradılmış, əhalinin məşğulluğu maksimum səviyyədə təmin olunmuşdur.

Ölkənin iqtisadi mövqeyini gücləndirmək və bu sahədə dünya dövlətləri arasında aparıcı mövqelərdə yer almasını təmin etmək məqsədilə həyata keçirilən mühüm tədbirlərdən birisi də Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi”nin yaradılması haqqındaki fərmanıdır. Bu mərkəzin yaradılmasındakı əsas məqsəd yeni sənaye inqilabı ilə ölkəni paralel şəkildə inkişaf etdirmək, dünya praktikasında yeni inqilabın fayda və üstünlüklərini daha optimal şəkildə təhlil edərək Azərbaycanın bu sahədə atacağı addımları daha rasional və çevik hala gətirməkdən ibarətdir.

Ölkələrin inkişafının və uğurlarının təməlində texnoloji tərəqqi, təhsil və elmin işkişafı, intellektual inkişaf və bunların bir-birinə inteqrasiyası dayanır. Belə ki, bu sahənin inkişafının əsas meyar göstəricilərindən hesab edilən texnoparkların, sənaye parklarının və aqroparkların yaradılması yeni istehsal və elmtutumlu sahələrin yaradılmasına ciddi şəkildə təkan verməkdədir. Bu məqsədlə, Azərbaycanda artıq 1 xüsusi iqtisadi zona, 2 yüksək texnologiyalar parkı, 5 sənaye parkı, biri Naxçıvan Muxtar Respublikasında olmaqla 5 sənaye məhəlləsi yaradılmışdır.

Ölkə miqyasındason 10 ildə mövcud olan sənaye müəssisələrinin sayı 19,6 faiz artaraq 2019-cu ildə 3169 ədəd olmuşdur ki, bunun 561-ni dövlət, 2608-ni isə qeyri-dövlət mülkiyyəti təşkil etmişdir.

2019-cu ildə sənayedə 47 milyard manatlıq məhsul və xidmətlər istehsal olunmuş, ümumi istehsalın 69,9 faizi mədənçıxarma, 25,1 faizi emal, 4,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrinin payına düşmüşdür. Sənaye sektorunda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 2010-cu illə müqayisədə 2019-cu ildə 2,2 dəfə artaraq 9,3 milyard manat təşkil etmiş və iqtisadiyyat üzrə əsas kapitala yönəldilmiş ümumi investisiyanın 49,9 faizini təşkil etmişdir. 2019-cu ilin göstəricilərinə əsasən sənaye sektoruna qoyulmuş investisiyanın 4,4 milyard manatı xarici investisiyaların, 4,9 milyard manatı isə daxili investisiyaların payına düşmüşdür.

Məlum olduğu kimi, regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsini və onlar arasında fərqin minimuma çatdırılması məqsədilə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən ölkə ərazisi 10 iqtisadi rayona bölünmüşdür ki, bunlardan biri də Naxçıvan iqtisadi rayonudur. Və təsadüfi deyil ki, regionlar arasında ən stabil inkişaf tempinə malik olan iqtisadi rayonlardan birisi də Naxçıvandır. Ötən illər ərzində muxtar respublikada görülmüş iqtisadi islahatların və ardıcıl tədbirlərin nəticəsində liberal bazar iqtisadiyatına transformasiya mərhələsi sürətləndirilmiş, iqtisadiyyatın bütün sahələrində dinamik inkişafa nail olunmuş, iqtisadiyyatın sosial sahələrində yeni mərhələnin təməli qoyulmuşdur. Həyata keçirilən uğurlu iqtisadi islahatlar muxtar respublika iqtisadiyyatında müxtəlif mülkiyyət mənsublu qurumların inkişafına, bütövlükdə çoxukladlı iqtisadiyyatın formalaşmasına və iqtisadiyyatın bütün sahələri üzrə yüksək göstəricilərin əldə olunmasına əlverişli şərait yaratmışdır.

Həmçinin “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq muxtar respublikada enerji təhlükəsizliyinin təmin edilməsi və yeni tip enerji mənbələrinə inteqrasiya məqsədilə günəş və külək elektrik stansiyalarının tikilməsi istiqamətlərində ardıcıl tədbirlər həyata keçirilir. Belə ki, son illər Babək rayonu ərazisində 22 meqavat, Kəngərli rayonu ərazisində 5 meqavat gücündə Günəş Elektrik Stansiyaları tikilib istifadəyə verilmişdir. Bundan başqa, Şərur rayonunda 5 meqavat gücündə Günəş Elektrik Stansiyasının və Culfa rayonunda1 meqavat gücündə Külək-Günəş Hibrit Elektrik Stansiyasının tikintisi davam etdirilir.

Dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, Naxçıvanda da yeni sənaye müəssisələri açılır, mövcud müəssisələrin istehsal gücü artırılır. 2019-cu ildə dövlət maliyyə dəstəyi və özəl investisya hesabına müasir texnoloji avadanlıqla təmin olunan 84 istehsal və xidmət sahəsi

fəaliyyətə başlamışdır.

Muxtar respublika sənayesi həm texnoloji, həm də innovativ baxımdan inkişaf edir. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli Fərmanı ilə müəyyən edilmiş vəzifələrin icrasına uyğun olaraq ölkədə sənaye məhəllələrinin yaradılması davamlı prosesə çevrilmişdir. Ölkə Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən Şərur rayonunda Şərur Sənaye Məhəlləsinin yaradılması və bu məqsədlə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə ilkin olaraq 5 milyon manat vəsaitin ayrılması sənayenin inkişafına yeni imkanlar yaratmışdır. Sənaye məhəlləsi istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli iqtisadi modeldir.

Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri çoxdur. Bu gün qarşıda duran əsas vəzifə bu sərvətlərdən səmərəli istifadə etməkdir. 2019-cu ilin sonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin qayğısı ilə Duzdağda yeni şaxtanın təməlinin qoyulması əhalinin bu məhsula olan tələbatının yüksək səviyyədə ödənilməsinə və Naxçıvan duzunun şöhrətinin qorunub saxlanılmasına şərait yaratmışdır. Naxçıvanın brendinə çevrilmiş duzun istehsal və satış həcmini artırmaq məqsədilə mədənə yaxın ərazidə müasir texnologiyalara əsaslanan Duz İstehsalı Müəssisəsi qurulur ki, bu da gələcəkdə Naxçıvan duzunun istehsal həcminin və keyfiyyətinin artırılmasına onun ixrac imkanlarının genişləndirilməsinə şərait yaradacaqdır.

Sənaye məhsulu istehsalının ildən-ilə artması muxtar respublikanın iqtisadi təhlükəsizliyinin əsas şərtlərindəndir. Sənaye məhsulu həcminin artması mövcud istehsal müəssisələrinin öz fəaliyyətini bərpa etməsi ilə yanaşı, həm də yeni istehsal müəssisələrinin istifadəyə verilməsi nəticəsində mümkün olmuşdur. Sənaye sahəsində həyata keçirilən irimiqyaslı islahatların uğurlu yekunudur ki, 1990-cı ilin əvvəlində muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 2019-cu ildə bu müəssisələrin sayı 400-ü ötmüşdür.

Bunlarla yanaşı, ölkə miqyasında sənaye müəssisələrinin və universitetlərin tərkibində texnoparkların yaradılması da diqqət mərkəzindədir. Belə ki, sənayenin və elmin paralel inkişaf etdirilməsinin, bilik və texnologiya transferinin zəruriliyi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən ötən ilin sonunda imzalanmış müvafiq Sərəncama əsasən Naxçıvan Dövlət Universitetində "Texnologiyalar Parkı"nın yaradılması elmi tədqiqatların və emprik araşdırmaların sənayedə tətbiqi ilə innovasiyayönümlü iqtisadiyyata keçid üçün təkan verəcəkdir. Bununla yanaşı, bu tədbirlərin nəticəsində gənc alimlərin və digər elm adamlarının innovativ ideyalarının və araşdırmalarının yüksək qiymətləndirilməsinə və beləliklə onların müvafiq sahələrə maraqlarının artmasına səbəb olacaqdır ki, bu da öz növbəsində muxtar respublikada elmin hiper inkişafına stimul yaradacaqdır.

2019-cu ildə muxtar respublika ərazisində 1015 milyon manatlıq sənaye məhsulu istehsal olunmuş, ümumi istehsalın 94,1 faizi emal sənayesinin, 0,1 faizi mədənçıxarma sənayesi, 5,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatının, 0,4 faizi isə su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi müəssisələrində emal olunmuşdur. Başqa ifadə ilə desək, bunun 60,1 milyon manatı dövlət sektorunun, 954,9 milyon manatı isə özəl sektorun payına düşür. Bu isə muxtar respublikada yeni sənaye müəssisələrinin yaradılması, mövcud özəl müəssisələrin daha səmərəli işləməsi və muxtar respublika rəhbərliyinin özəlləşdirmə sahəsindəki uğurlu iqtisadi islahatlarının nəticəsidir.

Naxçıvan Muxtar Respublikasında bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyanın həcmi 2010-cu illə müqayisədə 2019-cu ildə 2,1 dəfə artaraq 1029,3 milyon manat təşkiletmişdir.

2019-cu ildə muxtar respublikada sənaye sahəsində çalışan işçilərin sayı 16763 nəfər olmuş və onların 19,5 faizi dövlət, 80,5 faizi isə özəl sektorda olmaqla, 4,1 faizi və ya 697 nəfəri mədənçıxarma sənayesində, 77,3 faizi və ya 12955 nəfəri emal sənayesində, 10,2 faizi və ya 1707 nəfəri elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində, 8,4 faizi və ya 1404 nəfəri isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində fəaliyyət göstərmişdir.

Sənaye müəssisələrində çalışan işçilərin orta aylıq nominal əməkhaqqı isə 2019-cu ildə ümumilikdə 416 manat təşkil etmişdir.

Sənayedə istehsalın genişləndirilməsi ixracın da həcminə müsbət təsir göstərmiş, 2019-cu ildə 323 milyon 309 min ABŞ dolları həcmdə sənaye məhsulu ixrac edilmişdir.

Muxtar respublikada həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini daha da sürətləndirmiş, bu gün muxtar respublikada 384 növdə məhsulların istehsalı üçün bütün imkanlar yaratmış və 350 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası ərazisində o cümlədən də muxtar respublikada son illərdə aparılmış məqsədyönlü siyasət nəticəsində iqtisadi islahatlar ardıcıl olaraq həyata keçirilmiş, torpaq islahatı başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin, kiçik və orta biznesin inkişafı üçün geniş imkanlar yaradılmış, müasir texnika və texnologiya ilə təchiz edilmiş, onlarla yeni istehsal sahələri qurulmuş, zəngin təbii ehtiyatlar aşkar olunaraq istismara cəlb olunmuşdur. Son vaxtlar Naxçıvan Muxtar Respublikasında digər sahələrdə olduğu kimi sənaye sahəsində də fəallığı təcəssüm etdirən iqtisadi göstəricilər hər il yüksələn xətt üzrə davam edir.

Bu gün dövlətimiz iqtisadiyatın sürətli inkişafına təkan vermək, Azərbaycanı dünya ölkələri arasında aparıcı mövqedə yerləşdirmək və şərqlə qərbin inteqrasiyasında mövqeyini möhkəmləndirməküçünsənayeləşmə yolunda qərarlı və əmin addımlarla irəliləməkdədir.

## ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı. Bakı şəhəri, 26 dekabr 2014-cü il № 964

2. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı. Bakı şəhəri, 29 yanvar 2019-cu il № 500

3. Bora Yenihan, Gökçe Cevher. İndustry 4.0 and social change. 2020 Bursa

4. Circular Economy and Re-Commerce in the Fashion Industry. Archana Shrivastava. 2020

5. “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 yanvar 2021-ci il.

6. Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında Naxçıvan Muxtar Respublikasi Ali Məclisi Sədrinin Sərəncamı. Naxçıvan şəhəri, 14 dekabr 2020-ci il № 69-06/S

7. Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 8 oktyabr 2014-cü il

8. “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikasi Ali Məclisi Sədrinin Fərmanı. Naxçıvan şəhəri, 29 mart 2019-cu il

9. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

10. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

11. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi

12. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi

**MƏSUD FƏRƏCOV**
*Azərbaycan Dövlət Aqrar Universiteti*

# AQRAR SIĞORTA BAZARININ ÖYRƏNİLMƏSİ MƏRHƏLƏLƏRİ

Aqrar sahədə icra olunan araşdırmaların mühüm istiqamətlərindən birini onun mərhələli öyrənilməsi, müvafiq qruplaşdıra və tərəflərinin fəaliyyətlərinin öyrənilməsidir. Sığorta fəaliyyətinin və onların təmərküzləşdiyi sığorta bazarlarının fəaliyyətinin ("üfuqi") öyrənilməsi ilk növbədə sxem 1-də ifadə olunan ardıcıllığı özündə əks etdirməlidir.

Sxem 1.

MARKETİNQ XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİ ARDICILLIĞI

Sığorta fəaliyyətinin planlaşdırılması → Sığorta xidmətlərinin (məhsullarının) satışı → Satışdan sonrakı sığorta xidmətlərinin göstərilməsi

Göstərmək istədiyimiz ardıcıllıq məhdud xarakter daşımaqdadır əsasən 3 mərhələni işıqlandırmaqdadır. Sığorta fəaliyyətinin sistemli öyrənilməsi üçün eyni zamanda "şağuli" təsnifləşdirməyə də müraciət olunmalıdır. Bu təsnifatın I bəndi kimi "sığorta bazarının öyrənilməsi" təşkil etsə də, digər bəndlərin də birgə ifadəsi sistemlilikdən xəbər verməlidir. Müvafiq məqsədlərin funksiyalar şəklində vanid məcmuda birləşdirilməsi aşağıdakı kimi ifadə oluna bilər.

Sxem 2.

**SIĞORTA FƏALİYYƏTİNİN FUNKSİYALAR ÜZRƏ ƏSAS İSTİQAMƏTLƏRİNİN QRUPLAŞDIRILMASI**

→ Sığorta fəaliyyətinin (bazarının) öyrənilməsi

→ Sığorta fəaliyyətinin planlara və müvafiq standartlara uyğunlaşdırılması və təklif üçün hazırlanması

→ Sığorta xidmətlərinin satış kanalları və üsullarının seçilməsi,vasitələrindən istifadənin qiymətlərndirilməsi

↓ Sığorta xidmətləri satışının həvəsləndirilməsi, bu sahədə satış və sonrakı xidmət göstərilməsinin innovativ üsullara müraciət olunması

Sxem 2-də də ifadə edildiyi kimi, sığorta fəaliyyətinin qruplaşdırılmasında əsasən dörd istiqamət fərqləndirilməkdədir. Burada kifayət qədər rəngarəng məsələlər (o cümlədən, fəaliyyət istiqamətləri) işıqlandırılmaqdadır. Həmin istiqamətlərin hər biri özündə fərqli tədbirlər dəstini cəmləməkdə və həyata keçirməkdədir. Sığorta subyektləri haqda bəhs olunan alət və tədbirlərin köməklik göstərməsi real mübadilə məkanları (bazarlar, ixtisaslaşdırılmış birjalar, o cümlədən ixtisaslaşdırılmış sığorta bazarları və s.) miqyasında özünün spesifik (ixtisaslaşdırılmış) strategiyasının qurulması yolunda məqsədyönlü addımlar atmaqdadırlar ki, bu da kəskun bazar rəqabəti şəraitində baş verməkdədir [1;159].

Rəqabət mühitində xüsusi rol oynayan sığorta fəaliyyəti, sığorta xidmətlərinin təklifi kimi işlər eyni zamanda xüsusi qiymətləndirmə və təhlil proseslərinə məruz qalmaqdadırlar. Eyni zamanda burada sığorta alətlərinin tətbiqi nəticələrinin kənarda qalmaması da nəzərə alınmalıdır. Qeyd olunmalıdır ki, bəhs olunan məqsədlər əsasında icra olunan marketinq araşdırmalarının müsbət nəticələr ilə yanaşı mənfi nəticələrə malik olması da istisna edilmir (yəni, sığorta şirkətlərinin fəaliyyəti iflasla da nəticələnə bilər). Hər bir növ məhsulun bazarda rastlaşdığı tarazlaşdırma addımı

– tələb-təklif səviyyələrinin qarşılaşdırılması və bu əsasda ehtiyacın ödənilmə dərəcəsinin müəyyənləşdirilməsidir. Müvafiq mərhələdə əsas məqamlardan biri mümkün qədər yüksək həcmdə sığorta ödəmələrini toplamaq, sığortaçılar üzrə riskli hadisələrlə bağlı müdafiə tədbirlərinin seçmək, bu sahədə siğortaçıların məqsədlərinin kəsişmə nöqtələrinin tapmaqdır. [3; 182]

Sadalanan fəaliyyət istiqamətləri üzrə ümumiləşdirmələrin həyata keçirilməsi aşağıdakı üç blokun ümumiləşdirilməsinə şərait yaratmaqdadır ki, onu da sxem 3 vasitəsilə görmək mümkündür.Sxemdə 3-də göstərilən mərhələlərdə qeyd olunanlarla yanaşı sığorta subyektləri aid olduğu ölkənin sosial-iqtisadi, demoqrafik, siyasi və digər yönlərdəki vəziyyətini, həmçinin sığortanın mübadilə məkanlarında mövcud ola biləcək rəqabətin və inhisarçılığın səviyyəsini müəyyən etməlidir. Bəhs olunan mühitdə sığortaçıların fəaliyyəti, onların sayı və maliyyə gücü, təklif etdikləri sığorta növləri və onların həcmi araşdırılmalı, eyni zamanda sığorta ba-
zarında tələbin ödəmə qabiliyyəti və onun artım imkanları qiymətləndirilməlidir.

Sxem 3.




Sığorta müştərilə üzrə bu fəaliyyətə olan münasibətin dəqiqləşdirilməsi məqsədilə onlar əsasında müxtəlif mövzularda sorğular həyata keçirilir ki, bunların sırasında mühüm olanlarına ümumilikdə sığorta fəaliyyətinə münasibət, sığorta növlərinə olan münasibət, fəaliyyətdə olan sığorta təşkilatlarına münasibət və digər mühüm istiqamətlər göstərilə bilər. Deyilənlərlə yanaşı daha iki məsələyə də toxunulmalıdır: 1. sığorta bazarı həcminin planlaşdırılması; 2.kənar sığortaçıların potensial imkanlarının proqnozlaşdırılması [2; 113].

Sxem 4.

**TƏHLİL MATERİALLARI ƏSASINDA SIĞORTA MÜƏSSİSƏSİ TƏRƏFİNDƏN PERSPEKTİV FƏALİYYƏT PLANLARININ HAZIRLANMASI MƏRHƏLƏLƏRİ**

I.Növbəti dövrlər üçün sığorta müəssisəsinin məqsəd və strategiyasının müəyyən olunması

II.Sığorta olunanın sinfinin, ödəmə qabiliyyətinin və həcminin öyrənilməsi

III.Sığorta bazarında uyğun xidmətlərinin təklifinin müəyyən olunması, təsnifləşləşdirilməsi və sistemləşdirilməsi

IV. Sığorta məhsulları üzrə satış prosesinin (kanallarının) seçilməsi, onun icra mexanizmləri üzrə fəaliyyətin tənzimlənməsi və həvəsləndirmə metodlarının müəyyən olunması

Qeyd olunanlarla yanaşı bəzi sığora şirkətlərinin təcrübədə strateji planlaşdırma ilə müqayisədə üstünlüyün bazar qanunlarına verdikləri görünməkdədir.

## ƏDƏBİYYAT

1. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Müəssisələrin maliyyəsi. Bakı:"Kooperasiya", 2009, 336s
2. Xankişiyev B.A. Sığorta fəaliyyətinin əsasları (dərs vəsaiti). Bakı: ADİU, 2006, 274 s.
3. Abbasov T.A.Naxçıvan: aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf. Bakı: ADPU, 2018, 584 s.

**PÜSTƏ CƏFƏROVA**
*Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş*
*Naxçıvan Dövlət Universiteti*
*pusteceferova74@gmail.com*

# QLOBALLAŞMA VƏ AZƏRBAYCAN

"Qloballaşma" anlayışı etimoloji cəhətdən "qlobus" (lat.) - yəni "yer kürəsi" sözü ilə əlaqədardır . Bu isə bu və ya digər proseslərin ümumplanetar xarakterini ifadə etdiyini göstərir. Lakin proseslərin qloballaşması sadəcə bunların bütün yer kürəsini əhatə etməsi deyildir. Qloballaşma hər şeydən əvvəl, Yer kürəsində bütün ictimai fəaliyyətin beynəlmiləlləşməsi ilə əlaqədardır. Bu o deməkdir ki, müasir dövrdə bütün bəşəriyyət sosial-mədəni, iqtisadi, siyasi və digər əlaqələrin, qarşılıqlı təsirlərin və münasibətlərin vahid sisteminə daxil olur. Beləliklə, keçmiş tarixi dövrlərlə müqayisədə, müasir dövrdə bəşəriyyətin ümumplanetar vəhdəti həddindən artıq sürətlənmişdir. Nəticədə ümumi tale, ümumi məsuliyyətlə əlaqədar olan problemləri prinsipcə yeni super sistem təmsil edir. Ona görə də müxtəlif bölgələr, dövlətlər və xalqların sosial-mədəni, iqtisadi, siyasi konsepsiyaları vahid sivilizasiya və yeni planetar təfəkkür üsullarının yaranmasını mürəkkəbləşdirir.

"Qloballaşma" beynəlxalq əhəmiyyətli müxtəlif siyasi, iqtisadi, mədəni, informasiya təyinatlı amillərin ayrı-ayrı ölkələrin sosial varlığına hərtərəfli artan təsir prosesidir. Qloballaşmanın başlıca nəticəsi beynəlxalq əmək bölgüsü, kapitalın, insan və istehsal resurslarının planet miqyasında miqrasiyası, qanunvericiliyin, iqtisadi və texnoloji proseslərin standartlaşması və ayrıayrı ölkələrin mədəniyyətlərinin yaxınlaşması və birləşməsidir. O, sistem xarakterli olan obyektiv proses kimi cəmiyyət həyatının bütün sferalarını əhatə edir. Qloballaşma nəticəsində ümumi dövlətlər qrupu problemləri çoxalır, inteqrasiya subyektlərinin sayı və tipi genişlənir, dünyanın onlardan asılılığı artır və bununla da sıx əlaqəlilik də əldə edilir. (1. s. 15)

"Bəşəriyyətin inkişafının müasir mərhələsində qloballaşma onun əsas məzmununu müəyyən edir" desək, yanılmarıq. Bu prosesin əsas səbəblərini, təzahür formalarını, nəticələrini və müxtəlif aspektlərini aydınlaşdırmadan, müasir dünyamızda baş verən sosial, iqtisadi, kulturuloji, geosiyasi və digər prosesləri düzgün anlamaq mümkün deyildir. Müasir dildə desək, "qloballaşma" bəşəri həyat əhəmiyyətli bir məsələ olaraq, keçən əsrin 80-cı illərinin ortalarında meydana gəlmişdir. Bu termin yaranmağı ilə intellektual elitaya güclü təsir göstərmişdir. "Qloballaşma" termini ilk dəfə 1983-cü ildə Amerikalı alim T.Levit tərəfindən "Harvard Business Review" jurnalında işlənmişdir. 90-cı illərin əvvəllində qloballaşma ya həsr edilmiş kitabların, məqalələrin sayı daha da artmağa başladı.

Əslində, qloballaşma çox qədim dövrlərdən nəqliyyatın və rabitənin inkişafı nəticəsində bir-birindən təcrid edilmiş xalqların ünsiyyətə girməsindən başlamışdı; yəni təbiət, cəmiyyət və insan problemlərinin qarşılıqlı əlaqəsi və vəhdətinin realizə olunması üçün elmi-texniki, iqtisadi və digər vasitələr mühüm rol oynayırlar. Bu əlaqələr həmin xalqların heç də həmişə iradəsinə və mənfəətlərinə uyğun olmamışdır. Məsələn, son illərdə Çin elmi-texniki sahədə xeyli inkişaf etdiyindən, bəzi hallarda kiçik və inkişaf etməmiş ölkələrin iqtisadiyyatı üçün hələ də yeni hesab edilən köhnəlmiş texnologiyaları eksport edir və bu ticari qlobal əlaqələrdən onlar milyardlarla mənfəət əldə edirlər. (1. s. 50)

Bir çoxlarımız fərqinə varmasaq da, qloballaşmanın təsirini və işarələrini hər gün həyatımızda görə bilərik. Başqa sözlə, hər gün biz dünyanın müxtəlif bölgələrində istehsal edilən məhsullara və tanımadığımız minlərlə insana arxalanaraq gündəlik həyatımızı qururuq. Bu cür qarşılıqlı asılılıq məhz beynəlxalq ticarətin və qloballaşmanın xidmətləridir. Məhz bütün bunları arqument gətirərək, müasir liberal iqtisadçılar iddia edirlər ki, genişlənən beynəlxalq ticarət və qloballaşma bütün xalqların və insanların maraqlarına cavab verir, çünki bu prosesin nəticəsində hər kəs daha yaxşı imkanlar əldə etmiş olur. Artiq təkzibolunmaz faktdır ki, zamanla dünyadakı bir çox inkişaf nəticəsində cəmiyyət və cəmiyyəti meydana gətirən insanlar fərdilikdən uzaqlaşmalı olur və daha ümumi olan qlobal proseslərin iştirakçısina çevrilirlər. Bir tərəfdən individualizm gücləndiyi halda,

digər tərəfdən qloballaşma meylləri də yüksəlir. Bir sıra fəaliiyət növləri-səyahət, ünsiyyət, iqtisadiyyat, iqlim probləmləri, olimpiya hərəkatı və idman müsabiqələri bir ölkə çərçivəsindən çıxaraq dövlətlərarası qlobal məsələlərə çevrilmişdir. Qloballaşma elə proseslər irəli sürür ki, milli dövlətlər və onların suverenliyi transmilli aktların və əməliyyatların şəbəkəsinə - "toruna" çulğaşır, qərar qəbul etmək prosesində onları nəzərə almalı olur. "Lokal-qlobal" müstəvi hədsiz tellərlə bağlanır. (2. s. 170)

Qloballaşmanın təzahürlərinin - konkret istiqamətlərdə izlənilməsi əsasən: demoqrafik-ekoloji, texnosferadakı dəyişikliklər, iqtisadiyyatın qloballaşması, geosiyasi sahədə və aspektlərdə müşahidə olunur. Qloballaşmanın demoqrafik-ekoloji faktorları bir-biri ilə sıx əlaqədar olan iki sahəni əhatə edir. Təbii sərvətlərin tükənməsi və əhali artımının nisbəti qloballaşma prosesində yenə də ən başlıca faktorlar sırasında durur.

Bütün səviyyələrdə məkanı və zamanı sıxlaşdıran qloballaşma, müxtəlif mədəniyyətləri də bir-birinin "ağuşuna itələyir", üz-üzə, "nəfəs-nəfəsə" qoyur. Dünya mədəniyyətinin ortaq nailiyyətlərinə yiyələnmə bir tərəfdən, mədəni müxtəliflik amilinə yüksələn diqqətlə müşayiət olunan mədəni-intibah, qlobal "ünsiyyət" texnologiyaları, inteqrasiya proseslərinin intensivləşməsi və s.-də digər tərəfdən dialoq problemini təkcə nəzəri-elmi deyil, həm də praktiki həlli mexanizmlərinin çözülməsini gündəmə gətirmişdir. Bu istiqamətdə ən müxtəlif mövqe və yanaşmaların, ünsiyyət və qarşılıqlı təsir strategiyalarının irəli sürülməsinə baxmayaraq, bu gün dialoq probleminin ümumi konsepsiyası və uzunmüddətli strategiyası, aydın və ziddiyyətsiz həlli mexanizmi hələlik formalaşmamışdır. Çünki söhbət sadəcə beynəlxalq və ya dövlətlərarası yaxınlaşma meyllərinin geniş vüsət almasından da getmir . Bir şey aydın dərk olunmalıdır: Planetimizdə XXI əsrdə bəşəriyyətin taleyini həll edəcək yeni qlobal fenomen təşəkkül tapır.

Dünyada istər lokal, istərsə də qlobal mədəniyyətin taleyi probleminin araşdıran tədqiqatları ümumiləşdirməsi, burada üç istiqamət yaxud ssenarinin mövcudluğunu ayırd etməyə imkan verir. Bunlar: 1) qarşıdurma, 2) dialoq və 3) lokal mədəniyyətlərin qlobal hakim mədəniyyətə əriyib qarışması kimi səciyyələndirilən istiqamətləridir. Mədəniyyətlər və dialoq problemini xüsusi vurğuladığımız və qlobal dünyanın gələcəyini yalnız dialoq yolunda gördüyümüz üçün ondan fərqli və ya onun əksi olan digər mövqelərə toxunmaq zəruridir.

Qloballaşma prosesində ən müxtəlif irq, mədəniyyət, etnik qrup və dinlərin nümayəndələri bir-biri ilə daha tez-tez üzləşir. İnsanlar indi daha çox başa düşürlər ki, onların yaşam tərzi bir çox mədəniyyətlərin təsiri altında baş verir; eyni zamanda həm özünün, həırı də başqasının mədəniyyətinə həssaslıq göstərmək zərurətə və məlumat mənbəyinə çevrilir. (1. s. 68) Hər kəs öz inamı, keçmişi və mədəniyyəti ilə fəxr edə bilər, lakin mütləq başqasına nifrət bəsləməyə də bilər. Mədəniyyətlərarası dialoqun əbədi humanist idealı, böyük siyasi və praktiki potensialı, qlobal gələcək üçün əhəmiyyəti və dəyəri məhz buna dayaqlanır. Mədəniyyətlərarası dialoqun elan edilməsi ilk baxışda praktiki-siyasi deyil, fəlsəfi xarakterli çıxış kimi qəbul edilmişdi. Dialoq ideyasının məhz Şərq-müsəlman aləminin təşəbbüsü kimi irəli sürülməsi xüsusilə vacib fakt kimi vurğulanmalıdır.

Qlobal axın neqativ təzahürlərində milli dövlətin inkişafını ləngidir, ictimai şüurda, iqtisadi və mədəniyyət təfəkküründə dəyişikliklərə rəvac verir, cəmiyyət adaptasiyası üçün çətinliklər, yeni sosialiqtisadi problemlər yaradır. Qloballaşma istənilən ölkənin milli təsərrüfatına əhəmiyyətli təsir göstərir. Dünya bazarının qloballaşması daha çox iqtisadi inkişaf etmiş dövlətlərin mənafelərinə xidmət edərək əks qütbdə olan zəif təsərrüfatlı ölkələrin yüksək tərəqqi əldə etməsinə mane olur. Qlobal miqyasda ölüm göstəricisi, planet əhalisinin bir milyarddan çoxunun yoxsulluq içərisində yaşaması, pis qidalanaraq aclıq keçirməsidir. Bu xüsusiyyətinə rəğmən qloballaşma dünyanın bir sıra regionlarında antiqlobal proteslərlə müşayiət olunaraq milli məhsul istehsalına keyfiyyət və möhkəmlik gətirən vətənpərvər fərdiyyəçilərin simasında məhdudiyyətlərə və təcridə məruz qalır.

Qloballaşma prosesi Azərbaycanın iqtisadi, siyasi, mədəni həyatına, milli-mənəvi dəyərlərinə və mənəvi-əxlaqi meyarlarına da təsir göstərir. Qloballaşma ayrı-ayrı mədəniyyətləri və milli ənənələri, ideyaları, milli-mənəvi dəyərləri ümumdünya sistemi daxilinə qataraq sivilzasiyaların dialoqu üçün də şərait yaradır. Belə dialoq zamanı qarşılıqlı anlaşma və ümumbəşəri əsaslar axtarışı

konsensus, ayrı-ayrı mədəniyyətlərlə, ənənələrlə və dəyərlər sistemi ilə rastlaşarkən, onları inkar etmədən öz ənənələri və mədəniyyətinə, sadiq qalaraq başqa dəyərlərə hörmət etmək və anlaşmaq bacarığı tələb olunur. Qloballaşmanın sürətli axarına düşən Azərbaycan bu prosesdən ümumbəşəri dəyərləri əxz etsə də, özünün tarixi-mədəni keçmişindən gələn milli-mənəvi dəyərlər sistemini və ənənələrini də qorumağa çalışır. Müstəqillik və dünyaya inteqrasiya şəraitində respublikamız Qərb və Şərq dəyərlərinin sintezini özündə ehtiva edir. Demokratikləşmə, hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyəti və vətəndaş mədəniyyətini formalaşdıran Azərbaycan tarixən qazandığı və yaratdığı milli-mənəvi ənənələri, spesifik xüsusiyyətləri yeniləşmə ilə sıx uzlaşdırır. Azərbaycanlıların milli-mənəvi özünəməxsusluğu və mənəviyyatı onları dünya xalqlarından ayırmır, əksinə, onlarla birləşməkdə, inkişaf etməkdə əsas amillərdən biri olur. Özünəməxsusluğu saxlamaq naminə qapalı cəmiyyət olmaq, inkişafdan geri qalmaq, ümumdünya prosesindən təcrid olunmaq, demokratiya və ya totalitarizm, avtoritar etika və ya humanist etika dilemması qarşısında qalmaq deməkdir.

Milli özünütəcrid, millilik və qloballaşma arasında mübarizə gedir. Qloballaşma ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən milli-mənəvi dəyərlərə sirayət etdikdə ənənəviçilik-mühafizəkarlıq və ya müasirlik problemi üzə çıxır. Millətin milli varlığını müəyyən edən, keçmişindən indiyə və gələcəyə, onun tərəqqisinə xidmət edən dəyərlər, meyarlar qorunub saxlanmalı, milli şüur prizmasından keçərək, müasirliklə uzlaşdırılmalıdır. Qloballaşma sivilizasiyaya da təsir edərək onu dəyişdirir, yeni ideyalar gətirir, köhnə ideyaları həyatdan və yaddaşdan silir. Hər bir dövlət öz ərazisində məskunlaşmış insanların əsrlər boyu yaratdıqları qayda-qanunlar və milli-mənəvi dəyərlərlə yaşayır. Bu dövlətin, onun cəmiyyətinin, tarixinin, adət-ənənələri və dininin yaşarlığı həmin insanların baxışlarından, ideyalarından və atdıqları addımlardan asılıdır. Qloballaşma prosesinin özü ilə xeyir və yaxud şər gətirməsi barədə suala birmənalı cavab olmasa da, bir məsələ aydındır ki, əgər dövləti ənənəvi milli dəyərləri modernist dəyərlərlə birləşdirməyə qadir olmayan adamlar idarə edirsə, əgər dövlət öz inkişafının perspektivlərini aydın görə bilmirsə, o zaman qloballaşma o ölkəni uğursuz transformasiya edir".

Qloballaşmanı mədəniyyət və əxlaq nöqteyi-nəzərindən qərbləşmə kimi qəbul edənlər də var. Azərbaycanda qloballaşma əleyhinə çıxanlara daha çox təsadüf olunur. İ.Məmmədzadə bunu Azərbaycanda şüurlarda ənənəvi şüur ehkamlarının hakim olması ilə izah edir. Yad və yeni dəyərlərə şübhə ilə yanaşılır. Qloballaşma siyasi şüurda zəruri hesab edilsə də, siyasi şüur və "ziyalı" şüuru arasında ziddiyyət baş verir. Siyasi şüur qloballaşmanı, demokratikləşməni, bazar iqtisadiyyatını islahatlar və modernləşmənin mənası kimi qəbul etdiyi halda cəmiyyətin "ziyalılaşmış" şüuru ona şübhə ilə Azərbaycan mədəniyyətinin və milli-mənəvi dəyərlərinin özünəməxsusluğuna təhlükə kimi yanaşır. İ.Məmmədzadə maraqlı bir məsələyə toxunur. O, ənənəvi mədəniyyətin, o cümlədən, milli-mənəvi dəyərlərin bu günə qədər yalnız öz inkişafı sayəsində, heç bir təsir olmadan gəlib çıxdığına şübhə ilə yanaşır. Hər bir milli-mədəniyyət, milli-mənəvi dəyər həm də qlobal mədəniyyətin, ümumbəşəri dəyərlərin bir hissəsi kimi çıxış edir. (4. s. 163-164)

Qloballaşma suveren dövlətlər arasındakı sədləri götürərək, daxili sosial münasibətlərin formasını dəyişir, milli özgünlüyü sərt şəkildə nizamlayır, onu xüsusi dünyabaxışı çərçivəsinə salır. Qloballaşma milli mədəniyyətin və ənənələrin üstünlüyünü dağıdır, milli özgürlükdən uzaqlaşmanı gücləndirir və coğrafi, iqtisadi vəziyyətindən, siyasi quruluşundan, milli mentalitetindən asılı olmayaraq, cəmiyyəti qərbləşdirir. Ona görə də əgər milli inkişaf ideologiyasının əsası kimi "azərbaycançılığın" mahiyyətini təhlil etsək, deyə bilərik ki, bu mənada, o, tranzitar cəmiyyətə, keçid dövrünün iqtisadi sisteminə, formalaşmaqda olan vətəndaş cəmiyyətinə malik və Ermənistanla müharibə vəziyyətində olan ölkə kimi Azərbaycan üçün daha münasibdir. Belə vəziyyətdə "azərbaycançılıq" milli ideyanın" əsas forması kimi təsəvvür edilir və ona inteqrativ ideya kimi yanaşmaq lazımdır. Bu ideyanın əsasında sivil Avrasiya birliyinin bir hissəsi - özünəməxsus milli özgünlüyə, ənənəyə, milli eyniyyətə və mentalitetə malik Azərbaycan haqqında təsəvvür dayanır. Qloballaşma milli-mənəvi dəyərlərin məzmununa müasir, modernist ümumbəşəri ruh verir. Azərbaycanda milli ideologiyanın, azərbaycançılığın, onun ayrılmaz tərkib hissesi olan milli-mənəvi

dəyərlərin qorunub saxlanması, mənimsənilməsi və inkişaf etdirilməsində Ulu Öndər Heydər Əliyevin əvəzsiz rolu olmuşdur. O, dağıdıcılıq mövqeyindən çıxış etmədi, dəyərlərin varisliyi prinsipinə üstünlük verdi. Heydər Əliyev nəinki milli köklərə və ənənələrə qayıtmağa üstünlük verdi, eyni zamanda, bunu tarixi kəsilməzliyə əməl etməklə, hətta sosializmdən qalan dəyərlərə də qayğı və diqqətlə yanaşmaqla həyata keçirdi. O, bütün sahələrdə ümumbəşəri və milli dəyərlərin vəhdətini başlıca cəhət hesab edirdi. Ulu Öndər milli ideologiyanın komponentlərindən biri kimi dəyərləndirdiyi milli-mənəvi dəyərlərin üç tərkib hissəyə malik olduğunu göstərirdi: dil, din, adət-ənənə və bunların şüur müstəvisində proyeksiyası olan milli mentalitet. Heydər Əliyev milli-mənəvi dəyərlərin tərkibinə dili, milli adət-ənənələri, milli bayramları daxil etməklə azərbaycançılığı yüksəkliyə qaldırmaq, milli-mənəvi dəyərləri daim yaşatmaq istəyirdi. Dahi şəxsiyyət qloballaşma şəraitində milli-mənəvi dəyərlərin, milliliyin, milli özünəməxsusluğun, azərbaycançılığın qorunub saxlanılmasına xüsusi əhəmiyyət verirdi. O, qloballaşmanın, ümumbəşəri dəyərlərin ön plana çəkilməsinə, milli-mənəvi dəyərlərin isə arxa plana keçirilməsinə qarşı çıxaraq millilikIə ümumbəşəriliyin vəhdəti ideyasını irəli sürür, göstərirdi ki, biz başqalarından öyrəndiyimiz kimi, başqaları da bizdən öyrənməlidir. Hansı millətdə hansı milli-mənəvi keyfiyyət üstündürsə, onun bütün bəşəriyyət tərəfindən qəbul olunması ideal qloballaşma modelinə daha çox uyğun olmalıdır .

Beləliklə, milli-mənəvi dəyərlər azərbaycançılığın ayrılmaz tərkib hissəsi olub, xalqımızın əsrlər boyu yaratdığı dili, dini, adət-ənənələri, yüksək mənəviyyatı, mərdliyi, əzmkarlığı, sözübütövlüyü, vətənpərvərliyi, qonaqpərvərliyi, səxavətliliyi, həya və isməti, hörmət və ehtiramı, xalqın milli psixologiyasını, milli xarakter və milli-mədəni dəyərlərini özündə cəmləşdirmişdir. Azərbaycançılıq ideologiyasının formalaşmasına təsir edən milli-mənəvi dəyərlərimiz dünya xalqlarının yaratdığı ümumbəşəri dəyərlərlə bağlı milli-mənəvi və əxlaqi keyfiyyətlərdir. Milli-mənəvi dəyərlər nəsillərin irsi sərvəti, tarixilik və müasirliyin vəhdəti olub bu günə gəlib çatıb və indiki qloballaşma şəraitində transformasiya ilə uzlaşaraq, gələcək nəsillərin də mənəvi sərvətinə çevriləcəkdir.

KİVDF

## ƏDƏBİYYAT


1. Rəbiyyət Aslanova .Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004, 15s, 50s, 68s.
2. Ağayar Şükürov. Qloballaşma: mahiyyəti və perspektivləri. Bakı: 2001, 170 s.
3. Ağayar Şükürov. Fəlsəfə. Bakı: 2008, 465.
4. Dirçəliş - XXI əsr. 2001-ci il, No 42 (avqust), s.163-164

**ŞƏNAY İSMAYILOVA**
*Gənclərlə iş*
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCANDA SOSİAL KÖNÜLLÜLÜK

Son zamanlarda ölkəmizdə könüllülük sahədə bəzi problemləri müşahidə olunur. Əksər hallarda kommerisiya qurumları gəncləri könüllü fəaliyyət adı ilə öz işlərinə cəlb edir. Qanunvericilik kommersiya hüquqi şəxslərində könüllü fəaliyyətin həyata keçirilməsinə yol verilmir. Bəs könüllü fəaliyyəti nədir? Hansı sahələrdə həyata keçirilə bilər?

Bu sahədə fəaliyyət **"Könüllü fəaliyyət haqqında"** qanunla tənzimlənir.

**Könüllü fəaliyyət** – qanunvericiliklə qadağan edilməyən, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyətdir.

**Könüllü** – öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti şəxsən həyata keçirən Azərbaycan vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir.

**Könüllü fəaliyyətin təşkilatçısı** – könüllü fəaliyyətin təşkilini və həyata keçirilməsini təmin edən dövlət orqanları, dövlət büdcəsindən maliyyələşən təşkilatlar, yerli özünüidarə orqanları və qeyri-hökumət təşkilatları ola bilər.

**Əvəzi ödənilməyən fəaliyyət** – əmək haqqı ödənilməyən fəaliyyətdir.

**Könüllü fəaliyyətin istiqamətləri aşağdakılardır:**

– əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi;
– insanpərvərliyin və dözümlülüyün təbliği;
– istehlakçıların hüquqlarının qorunması;
– hüquqi və mədəni maarifləndirmə;
– uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı;
– idmanın inkişafı;
– xəstəliklər və epidemiyalar barədə məlumatlandırma;
– sağlam həyat tərzinin təbliği;
– ətraf mühitin mühafizəsi;
– tarix və mədəniyyət abidələrinin, mədəni və mənəvi irsin qorunması;
– silahlı münaqişələr, təbii fəlakətlər, sənaye qəzaları, yanğınlar, epidemiyalar, epizootiyalar və digər fövqəladə halların nəticələrinin aradan qaldırılmasına, o cümlədən fövqəladə hallar nəticəsində zərər çəkmiş şəxslərə yardım göstərilməsi;
– cəzaçəkmə müəssisələrindən azad edilən, narkotik asılılığa düçar olan, məişət zorakılığına məruz qalan şəxslərə və çətin həyat şəraitində olan digər şəxslərə (ailələrə) kömək edilməsi;
– qanunvericiliyin tələblərinə zidd olmayan digər fəaliyyət sahələri.

**Könüllü fəaliyyətin iştirakçıları**

Könüllü fəaliyyətin iştirakçıları könüllü fəaliyyətin təşkilatçılarından və könüllülərdən ibarətdir. Şəxs öz iş yerində könüllü fəaliyyətlə məşğul ola bilməz. Könüllünün işçi çatışmazlığının qarşısını almaq məqsədi ilə istifadəsinə yol verilmir. Kommersiya hüquqi şəxslərində könüllü fəaliyyətin həyata keçirilməsinə yol verilmir. Könüllü fəaliyyətin iştirakçıları arasında münasibətlər qanunvericiliyə və könüllü fəaliyyətin təşkilatçıları tərəfindən cəlb edilmiş könüllülər ilə bağlanan müqaviləyə uyğun olaraq tənzimlənir. Yetkinlik yaşına çatmamış şəxslər valideynlərinin və ya qanuni nümayəndələrinin razılığı əsasında könüllü fəaliyyət ilə məşğul ola bilərlər. Yetkinlik yaşına çatmamış şəxslər könüllü fəaliyyəti həyata keçirərkən yaşı 18-dən az olan işçilərin əməyindən istifadəyə dair əmək qanunvericiliyində nəzərdə tutulmuş tələblərə riayət olunmalıdır.

**Könüllü fəaliyyətin iştirakçıları arasında münasibətlər tərəflər arasında yazılı formada bağlanan müqavilə ilə tənzimlənir. Könüllü fəaliyyətin təşkilatçıları tərəfindən cəlb edilmiş könüllülərlə bağlanan müqavilədə aşağıdakılar göstərilməlidir:**

– müqavilə bağlayan tərəflər haqqında məlumatlar;
– tərəflərin hüquq və vəzifələri;
– görüləcək işlər və göstəriləcək xidmətlər;
– müqavilənin müddəti;
– tərəflərin məsuliyyəti;
– müqaviləyə xitam verilməsi qaydası.

Könüllü fəaliyyətin təşkilatçıları tərəfindən cəlb edilmiş könüllülərlə bağlanan müqavilədə "Könüllü fəaliyyət haqqında"qanunun məqsədlərinə uyğun olaraq digər şərtlər də nəzərdə tutula bilər. Könüllü tərəfindən könüllü fəaliyyətin həyata keçirilməsi ilə bağlı üçüncü şəxslərə vurulmuş zərərin ödənilməsi qaydası müqavilə ilə müəyyən olunur. Müqavilədə könüllünün hüquqlarını məhdudlaşdıran müddəaların əks olunması yolverilməzdir. Müqaviləyə tərəflərin razılığı ilə vaxtından əvvəl xitam verilə bilər. Tərəflərdən birinin təşəbbüsü ilə müqaviləyə vaxtından əvvəl xitam verildikdə qarşı tərəfə müqavilənin xitam olunacağı haqqında xəbərdarlıq edilməlidir. Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməməsinə dair əsaslar olduqda tərəflər müqaviləyə xitam verə bilərlər. Müqavilə üzrə tərəflər arasında yaranan mübahisələr qanunvericiliyə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

Azərbaycanda könüllü fəaliyyətin təşkilatçıları ölkə ərazisində könüllü fəaliyyəti həyata keçirmək üçün xarici könüllüləri dəvət edə bilərlər. Beynəlxalq könüllü fəaliyyətin təşkilatçıları, habelə könüllü əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkə ərazisində könüllü fəaliyyətlə yalnız Azərbaycanın könüllü fəaliyyət təşkilatçıları ilə birgə məşğul ola bilərlər. Azərbaycanda könüllü fəaliyyətin təşkilatçıları və respublikamızın vətəndaşları xarici dövlətin ərazisində həmin dövlətin qanunvericiliyinə uyğun olaraq könüllü fəaliyyət ilə məşğul ola bilərlər.

Günümüzdə aktual məsələlərdən biri də xüsusi qayğıya ehtiyacı olan şəxslərlə münasibət və onlara yardım təşkil etməkdədir. Gənclərdə olan mərhəmət və qayğı hissi onların cəmiyyətimizdə yaşayan xüsusi qayğıya ehtiyacı olan insanlar naminə bir araya toplanmalarına səbəb olub. Bu isə, öz növbəsində, həmin kateqoriyaya aid insanların cəmiyyətimizə inteqrasiya olunmasına zəmin yaradır. Həmçinin fəal gənclərin icra etdikləri layihələr çərçivəsində məhdud fiziki imkanlı gənclərin əl işlərinin satışı və tanıdılması kimi tədbirlər də həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə yaradılmış "Sosial könüllülük" proqramı buna ən ideal misal ola bilər. Artıq bu sosial toplumun 50-dən çox gənc iştirakçısı vardır və bu gənclər mütəmadi olaraq məhdud fiziki imkanlı şəxslərlə, eləcə də tənha ahıllarla görüşüb onlara mənəvi dəstək göstərirlər. Eyni zamanda xüsusi günlərdə və bayram ərəfələrində sosial könüllülər həmin kateqoriyadan olan insanların yanında olmaqla, öz gənclik öhdəliklərini yerinə yetirirlər.

Sosial könüllülük gənclər üçün şərəfli bir işdir. İlk sosial könüllülər 1 may 2019-cu ildə fəaliyyətə başlamış, 1 oktyabr 2019-cu ildə müddətləri başa çatsa da, fəaliyyətlərini bu günədək davam etdirirlər. Öz məramlarının layiqincə yerinə yetirilməsində sosial könüllülüyə seçilmiş gənclərin Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun təşkil etdiyi "Sosial Könüllülük Akademiyası"nda 4 həftəlik təlimlərdə həssas qruplarla necə davranmalı və ünsiyyətin necə qurulması yollarını mənimsəmələri başlıca rol oynayır. Bütün bu göstəricilərə əsaslanaraq demək olar ki, "Sosial könüllülük" layihəsi könüllü gəncləri cəmiyyətimizin əsas aparıcı qüvvələrindən birinə çevirməklə yanaşı, gələcəkdə bu sahədə daha peşəkar gənclərin yetişməsinə də öz töhfəsini verəcəkdir.

Azərbaycanda və həmçinin Naxçıvan Muxtar Respublikasında Sosial könüllülük heç şübhesiz ki, daha da inkişaf edəcəktir. Və bunu da nəzərə almaq lazımdır ki, Sosial könüllülük ilk başda əvəzsiz əmək olsada bu ictimai işlərdə iştirak edən və tanınan gənclər gələcək işlərində və kariyeralarında daha rahat irəliləmək imkanları əldə edə bilirlər. Könüllülük- insanlara kömək etmək, hər hansə bir sahəni inkişaf etdirmək, gəncləri maarifləndirmək və bunların əvəzində hər hansı bir məbləğin qarşılıq görməməyin mənası, həmin işin pulsuz yox, nə qədər dəyərli olduğunu və hər hansı bir məbləğlə ölçülmədiyi anlamına gəlir.

## ƏDƏBİYYAT


1. Sosial.nmr.az- Sosial könüllülük layihəsi haqqında məlumat.
2. Sərqqapısı.az- Sosial könüllülük bir dəyərdir.
3. Vikipediya- Könüllü fəaliyyət.
4. Avciya.az- Könüllü fəaliyyət haqqında.

**SEVİNC HÜSEYNLİ**
*Dövlət hüququ*
*Naxçıvan Dövlət Universiteti*

## PARLAMENT İDARƏÇİLİYİ

İlk insan qəbilələri yarandığı gündən idarəçiliyin tənzimlənməsi məsələləri daim aktual problemlərdən biri olmuşdur. Qədim dövrlərdə idarəçilik tayfa ağsaqqalları, qəbilə başçıları və yuxarı silki ifadə edən digər şəxslər tərəfindən həyata keçirilsə də, zaman keçdikcə idarəçiliklə bağlı problemlər daha çox diqqət cəlb etmişdir. Sadə camaatın da idarəçilikdə iştirak etmək və öz maraqlarını təmin etməyə çalışmaq səyi geniş miqyaslı üsyanlara və narazılıqlara gətirib çıxarmışdır. Cəmiyyət inkişaf etdikcə problemlərin həlli üçün yeni üsul və vasitələrin işlənib hazırlanması, bütün əhalinin maraqlarının təmsil olunması problemlərin həllinə istiqamətlənmişdir. Müasir dövrdə mövcud olan idarəçilik formaları əsrlərdən bəri formalaşmış və illərin sınağından keçərək təşəkkül tapmış idarəçilik formaları olaraq xalqın maraqlarının ifadə olunmasına istiqamətlənmişdir

İdarəetmə formalarını təsnifləşdirmədən öncə idarəetmə formasının anlayışının izah edilməsi yerinə düşər. İdarəetmə forması dedikdə, hakimiyyət orqanlarının formalaşması qaydası, onların səlahiyyətləri, fəaliyyət şərtləri, təşkili sistemi, bu orqanların əhali və bir-biri ilə qarşılıqlı əlaqəsi qaydasını, həmçinin əhalinin onların formalaşmasında iştirakının xarakterini müəyyən edən dövlət formasının bir elementi başa düşülür. Göstərilən əlamətlərə görə dövlətin idarəçilik formaları monarxiya (təkbaşına, irsi) və respublika (kollegial, seçkili) olaraq təsnifləşdirilir. Monarxiya (mono-tək) – hakimiyyətin tək bir şəxsin əlində cəmləşməsi deməkdir. Adətən irsi xarakter daşıyan bu idarəçilik formasında hakimiyyət vətəndaşların iradəsindən asılı olmadan yönəldilir. Monarxiyanın alt kateqoriyası olan məhdud monarxiyada hakimiyyət demək olar ki, heçnə ilə məhdudlaşdırılmır. Digər alt kateqoriya olan məhdud monarxiyada isə, monarx formal xarakter daşıyır. Bu cür idarəçilik formasının mövcud olduğu ölkələrdə hakimiyyət parlamentin formalaşdırdığı hökumət tərəfindən idarə olunur. Məhdud monarxiyanı adətən konstitusiyalı monarxiya da adlandırırlar. Belə ki, bu üsul-idarənin mövcud olduğu ölkələrdə monarxın fəaliyyəti konstitusiya və qanunlarla məhdudlaşdırılır. Konstitusiyalı monarxiyada real olaraq qanunverici hakimiyyət parlamentə, icraedici hakimiyyət isə hökumətə məxsusdur. Buna görə də, bu idarəçilik formasına “parlamentli monarxiya” da deyirlər. Respublika dedikdə isə hakimiyyətin bütün ali orqanlarının müəyyən müddətə seçilməsi və təşkili forması başa düşülür. Respublikalar prezidentli, super-prezidentli, qarışıq və parlamentli ola bilər. Prezidentli respublika ilk növbədə onunla səciyyələnir ki, prezident dövlət başçısı və hökumət başçısı səlahiyyətlərini daşıyan ali vəzifəli şəxsdir. Dövlət başçısı xalq tərəfindən birbaşa seçilir və odur ki, onun mandatının hüquqi qüvvəsi parlamentin mandatının hüquqi qüvvəsinə bərabər olur. Belə respublikada hökumət prezidentin özü tərəfindən təşkil olunur və parlament qarşısında siyasi məsuliyyət daşımır. Hökumət prezident qarşısında məsuliyyət daşıyır və ona hesabat verir, yalnız prezident qarşısında istefa verir. Prezidentin parlamenti buraxmaq hüququ yoxdur. Super-prezidentli respublika həddən artıq böyüdülmüş və mahiyyət etibarilə nəzarət edilməyən prezident hakimiyyətidir (prezident əhali tərəfindən seçilir, parlamenti buraxmaq, referendum keçirmək və s. hüququ var). Qarışıq respublika prezidentli respublikanın əlamətləri ilə yanaşı (dövlət başçısı əhali tərəfindən seçilir, icra hakimiyyətinin başçısıdır, hökuməti təşkil edir və s.) parlamentli respublikanın (hökumət parlament qarşısında cavabdehlik daşıyır, prezident tərəfindən parlamentin vaxtından əvvəl buraxılması mümkündür və s.) əlamətlərinin mövcud olduğu idarəçilik formasıdır.

Parlamentli respublikada dövlət başçısı - prezident seçkili vəzifəli şəxsdir. Hökumətin təşkilində də ölkənin idarə edilməsi kimi onun rolu nominal xarakter daşıyır. Baş nazirin başçılıq etdiyi hökumət parlament tərəfindən formalaşdırılır və onun qarşısında siyasi məsuliyyət daşıyır. Bununla bərabər parlamentli respublikada dövlət başçısı parlamenti vaxtından əvvəl buraxa bilər. Lakin bu bir qayda olaraq prezidentin şəxsi təşəbbüsü ilə deyil, hökumətin tələbi ilə baş verir.

Parlamentli idarəçilik formasının ən geniş yayılmış növü parlamentli respublikadır. Dünyanın

bir çox inkişaf etmiş dövlətlərinin idarəçilik forması olan bu sistemin mahiyyətini açıqlamaq üçün parlamentin anlayışını şərh etmək lazımdır. Parlament termini fransızca “parle” sözündən olub, “danışmaq” deməkdir. Müasir parlamentin yaradılması İngiltərədə XII-XIV əsrlərdəki hadisələrlə əlaqələndirilir. Belə ki, kralın hakimiyyətini məhdudlaşdırmaq üçün iri feodalların, ali ruhanilərin, şəhər və kəndlərin nümayəndələrinin məclisi çağırılmışdır. Müasir parlament isə, xalq nümayəndələrinin ali orqanı olub, xalqın suveren iradəsini ifadə edir, mühüm ictimai münasibətləri, başlıca olaraq qanunlar qəbul edilməsi yolu ilə tənzim edir, icra hakimiyyəti orqanlarının və ali vəzifəli şəxslərin fəaliyyətinə nəzarəti həyata keçirir. Parlamentin bir çox başqa səlahiyyətləri də vardır. Məsələn, o, dövlətin digər ali orqanlarını təşkil edir (bəzi ölkələrdə prezidenti seçir, hökuməti yaradır), hökumətin bağladığı beynəlxalq müqavilələri ratifikasiya edir, amnistiya elan edir və s.

Müasir cəmiyyətdə parlamentin əhəmiyyəti çox böyükdür. O, müxtəlif siyasi qüvvələrin mənafelərinin ifadəçisi və kompromislər axtarışı meydanıdır. Lakin bir sıra hallarda parlament fəaliyyətində xırda mənafelər, şəxsi ambisiyalar və müxtəlif qeyri-formal əlaqələr üstünlük təşkil edə bilir. Bu da bəzi anti-demokratik ölkələrin mənfi cəhəti kimi qiymətləndirilir. Parlamentli respublikanın nöqsanları da vardır: birincisi, partiya sisteminin qatı natamamlığı parlament koalisiyasını da analoji natamamlığa, hökuməti isə davamsızlığa sürükləyir. Partiya sisteminin çatışmazlığı hətta azsaylı partiyaları parlament çoxluğunun koalisiyasının bir hissəsi edə bilər. İkincisi, sadə parlament çoxluğu tam real olaraq müstəbidlik təhlükəsi yaratmaq vəziyyətindədir, yəni parlament idarəçilik formalarının effektivliyi və sabitliyi siyasi partiyaların parlamentdəki yerlər uğrunda yarışının xarakterindən asılıdır.

Parlament dedikdə, adətən birpalatalı nümayəndəli təsisat və ya ikipalatalı parlamentin aşağı palatası başa düşülür. Lakin hüquqi mövqedən bu anlayış olduqca mürəkkəbdir. Anqlo-sakson hüququnda parlament dövlət başçısını, yuxarı və aşağı palatanı əhatə edən üçhissəli təsisatdır. Anqlo-sakson hüququnun təsiri hələ də qalan, prezidenti və birpalatalı parlamenti olan ölkələrdə parlament dövlət başçısından və Milli Məclisdən ibarət ikihissəli təsisat kimi nəzərdən keçirilir. Qitə hüququnda parlament dedikdə onun iki palatası başa düşülür, dövlət başçısı isə parlamentin tərkib hissəsi hesab olunur. Nəhayət, bəzi ölkələrdə dövlət başçısı birpalatalı parlamentin hissəsi kimi nəzərdən keçirilir. Hazırda dünya ölkələrinin parlamentlərində palataların sayı ikidən artıq deyildir. Parlament palatalarının müxtəlif adları olub, lakin onları yuxarı və aşağı palata adlandırmaq qəbul olunmuşdur. Sonuncu ad tarixi xarakterə malikdir: hazırda əksər ölkələrdə yuxarı palata aşağı palatadan az səlahiyyətlərə malikdir.

Səlahiyyətlərindən asılı olaraq parlamentlərin üç növünü fərqləndirirlər: qeyri-məhdud səlahiyyətli, məhdud səlahiyyətli və məşvərətçi. Parlamanentin aliliyi konsepsiyası ilə əlaqədar qeyri-məhdud səlahiyyətli parlamentlər anqlo-sakson hüququ ölkələrinin əksəriyyətində mövcuddur: parlament istənilən məsələ üzrə qərar qəbul edə bilər. Lakin belə ölkələrdə də kralın müstəsna səlahiyyətləri vardır (məsələn Böyük Britaniyada müharibə və sülh məsələləri, lakin təcrübədə belə məsələləri parlament və ya hətta Nazirlər Kabineti həyata keçirir). Bu qrupa daxil olan və qəti hakimiyyət bölgüsünün qəbul olunduğu, habelə qanunları konstitusiyaya zidd hesab etmək hüququna malik konstitusiya nəzarəti orqanı olan ölkələrdə parlamentin aliliyi konsepsiyası müəyyən məhdudiyyətlərə məruz qalır.

Ali nümayəndəli orqanın qeyri-məhdud səlahiyyətləri konsepsiyası totalitar-sosializm ölkələrində də qəbul edilmişdir. Adətən onların konstitusiyalarında bu orqanın səlahiyyətlərinə aid edilən məsələlərin siyahısı sadalanır, sonda isə “və başqa” sözləri verilir. Bu o deməkdir ki, ali nümayəndəli orqan istənilən məsələni baxılmaq üçün qəbul edə bilər. Bununla belə, qeyd edilməlidir ki, hər hansı partiyanın parlamentdə əksəriyyətə malik olduğu və onun liderlərinin hökuməti təşkil etdiyi demokratik ölkələrdə də parlament çoxluğun partiyasının və kabinetin rəhbərliyi altında fəaliyyət göstərir.

Məhdud səlahiyyətli parlamentlər Fransada və onun keçmiş müstəmləkəsi olmuş bəzi fransızdilli Afrika ölkələrində mövcuddur. Konstitusiyalar barəsində parlamentin çərçivə qanunlar-hüquqi tənzimləmənin əsaslarını müəyyən edən qanunlar (bu qanunların müəyyən etdiyi hüdudlarda

daha müfəssəl tənzimetməni icra hakimiyyəti həyata keçirir) və “mükəmməl qanunlar” yalnız parlament tərəfindən tənzim edilə bilən məsələlər üzrə qəbul edilən qanunlar qəbul edə biləcəyi məsələləri sadalayır. Bütün qalan məsələlər reqlamentar hakimiyyət sahəsinə aiddir: həmin məsələlər üzrə prezident, hökumət və nazirlər normativ aktlar qəbul edirlər, parlament isə bu sahəyə müdaxilə etməməlidir.

Məşvərətçi parlamentlər bəzi islam ölkələrində mövcuddur. Onlar bəzən monarxın razılığı ilə qanunlar qəbul edirlər, bəzən isə, ümumiyyətlə, qanunlar qəbul edə bilməzlər (məsələn BƏƏ-də təyin edilən Milli Məclis olmasına baxmayaraq qanun qüvvəli aktları Əmirlər Şurası qəbul edir). Səudiyyə Ərəbistanında belə aktları kral qəbul edir (Məşvərətçi Şurada-əşşurada müzakirə edildikdən sonra), lakin onları qanun adlandırmırlar, çünki qanunların predmeti olan bütün mühüm münasibətlər müqəddəs kitablarda-Quranda və sünnədə tənzim olunur.

Səlahiyyətlər Milli Məclisin faktiki fəaliyyət imkanlarını, dövlət idarəetməsinə təsirini birbaşa müəyyən edir. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsində Milli Məclisin qanun vermək səlahiyyətinin predmetindən söhbət gedir və Milli Məclisin hansı məsələlər üzrə norma yaradacağı müəyyənləşdirilir. Parlamentin başlıca vəzifəsi qanunlar qəbul etməkdir. Onlar arasında əsas qanunlar-konstitusiyalar (bəzi ölkələrdə konstitusiyaları parlament qəbul edir), konstitusiyaya düzəlişlər, üzvi qanunlar, habelə hər il qəbul edilən dövlət büdcəsi haqqında qanunlar mühüm əhəmiyyətə malikdir. Onların hamısı xüsusi, lakin qanunların müxtəlif növləri üçün eyni olmayan qaydada qəbul edilir.

Parlament digər ali dövlət orqanlarını bütövlükdə və ya qismən seçir, təyin və ya təşkil edir. O, bunu ya müstəqil həyata keçirir, ya da digər ali dövlət orqanlarının təşkil etdiyi namizədi təsdiq edir və ya ona razılıq verir. Bəzi ölkələrdə parlament prezidenti seçir; parlament və ya onun palatalarından biri prezidenti seçən kollegiyanın tərkib hissəsidir. Bəzən parlament baş naziri seçir və ya təyin edir (ikipalatalı parlamentdə bunu aşağı palata edir). Bir çox ölkələrdə parlament hökumətin bütün tərkibini təşkil edir: hökumətin proqramına səs vermək yolu ilə ona etimad bildirilir, bundan sonra hökumət dövlət başçısının aktı ilə təyin olunur. Parlament konstitusiya məhkəməsini (və ya onun üzvlərindən bir hissəsini), ali məhkəməni təşkil edir (və ya onun sədrini təyin edir), baş prokuroru, baş nəzarətçini və bəzi digər ali vəzifəli şəxsləri təyin edir. Ali orqanların təşkili və ali vəzifəli şəxslərin təyin edilməsi üzrə səlahiyyətləri palatalar, adətən, ayrılıqda yerinə yetirirlər: onlardan hər birinin öz səlahiyyətləri vardır. ABŞ-da prezident nazirləri və Ali məhkəmənin üzvlərini yuxarı palatanın razılığı ilə təyin edir; Braziliyada prezident yuxarı məhkəmələrin hakimlərini, baş prokuroru və Mərkəzi Bankın sədrini aşağı palatanın razılığı ilə təyin edir.

Xarici siyasət sahəsində parlament beynəlxalq müqavilələri ratifikasiya edir və ya onların prezident tərəfindən ratifikasiyasına icazə verir, ölkə xaricində silahlı qüvvələrdən istifadə məsələsini həll edir. Onun bir sıra məhkəmə səlahiyyətləri vardır: prezidentin və bəzi başqa vəzifəli şəxslərin impiçmenti haqqında məsələni həll edir, nazirlərin və digər ali vəzifəli şəxslərin məhkəməyə verilməsi haqqında qərar qəbul edir.

Parlamentin maliyyə və nəzarət səlahiyyətləri xüsusi əhəmiyyətə malikdir. Əksər ölkələrdə yalnız o, dövlətin maddi öhdəliklərini və vergiləri müəyyən etmək, dövlətin illik gəlirləri və xərcləri haqqında vahid qanun şəklində və ya büdcə qanunlarının məcmusu şəklində dövlət büdcəsini qəbul etmək hüququna malikdir. Dövlət xəzinəsi məsələləri, ənənəvi olaraq, parlamentin mühüm səlahiyyətlərinə aid edilir.

İcra hakimiyyətinin və digər ali dövlət orqanlarının fəaliyyətinə parlament nəzarətinin formaları prezidentli respublikalarda, parlamentli respublikalarda və monarxiyalarda müxtəlifdir. Lakin parlament həmişə xalq nümayəndələrinin ali orqanı olaraq nəzarət funksiyalarına malikdir. Parlamentin nəzarəti siyasi xarakterli və hüquqi xarakterli ola bilər. İcra hakimiyyətinin, xüsusilə hökumətin nazirlərin və onlara tabe olan qurumların fəaliyyətinə parlament nəzarətinin aşağıdakı formalarından istifadə olunur: 1. Parlamentin geniş iclasında hökumətə, nazirlərə, dövlətin digər ali orqanlarına və vəzifəli şəxslərinə suallar; 2. Əvvəlcədən müəyyən olunmuş məsələlər və hökumətin ümumi siyasəti üzrə müzakirələr; 3. İnterpellyasiya; 4. Etimadsızlıq votumu haqqında məsələ

qoyulması və ya hökumət barəsində tənbeh qətnaməsi çıxarılması (səsvermə ilə həll olunur); 5. Palataların geniş iclaslarında hökumətin və nazirlərin öz fəaliyyəti haqqında məruzə və hesabatları; 6. Parlament dinləmələri; 7. Parlament istintaqı; 8. Parlament komissiyalarının və parlament yanında digər orqanların fəaliyyəti; 9. Parlamentin xüsusi iclaslarının çağırılması; 10. Ali vəzifəli şəxslər barəsində impiçment; 11. Müvəkkil edilmiş qanunvericiliyə, yəni parlamentin tapşırığı ilə icra hakimiyyəti tərəfindən qəbul edilmiş və qanun qüvvəsinə malik aktlara nəzarət və s.

Tarixən mövcud olmuş idarəçilik formaları sırasında xalqın mənafeyinin daha çox təmin olunmasına xidmət edən, hakimiyyətin ən böyük qolunu təşkil edən parlament demokratiyanı özündə təcəssüm etdirir. Belə ki, aparılan araşdırmalar da göstərir ki, parlament üsul idarəsi ilə xalqın maraqlarının təmin edilməsi daha məqsədə müvafiq və əlçatandır. Dünya təcrübəsində də hazırda parlament idarəçiliyindən geniş istifadə olunması onun demokratik dəyərlərə söykənməsi, maraqları təmin etməsi və nəzarətin daha yekdil olması ilə əlaqələndirilir. Ölkəmizdə də qanunvericilik hakimiyyətini həyata keçirən parlamentin dövlətin idarə olunmasında öz yeri vardır. Dünya parlamentlərinin başlıca xüsusiyyətlərini özündə ehtiva edən Azərbaycan parlamentini-Milli Məclisi digər dövlət hakimiyyəti orqanlarından fərqləndirən başlıca xüsusiyyət, məhz onun nümayəndəlik xarakterinin olması və qanunvericilik hakimiyyətinin yalnız bu orqan tərəfindən həyata keçirilməsidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası (e-qanun.az)
2. Ziyafət Əsgərov - Konstitusiya hüququ (dərslik) Bakı-2011
3. V.N.Xrapanyuk - Dövlət və hüquq nəzəriyyəsi Bakı-2013
4. V.V.Lazarev – Ümumi hüquq və dövlət nəzəriyyəsi Bakı-Qanun-2007
5. Parlament hüququ – XI fəsil Qanunvericilik hakimiyyəti və onun orqanları
6. az.wikipedia/org.wiki/Dövlət_idarəetmə_formaları

**MİSİRXAN KAZIMLI**
*Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi*
*Naxçıvan Dövlət Universiteti*
*xankazimli@gmail.com*

## SOYUQ MÜHARİBƏDƏN SONRA TERRORİZMƏ QARŞI MÜBARİZƏDƏ BEYNƏLXALQ TƏŞKİLATLAR

Terroizm bu gün insanlığın qarşılaşdığı ən mühüm problemlərdən biridir və onunla mübarizə beynəlxalq əməkdaşlığı tələb edir. Bu gün hər halda ölkəsində terrorizm hadisəsi baş verməmiş bir ölkə belə yoxdur. Buna görə də terrorizmlə mübarizədə bütün dövlətlər birgə hərəkət etməlidir. Lakin beynəlxalq hüquqda terrorizmlə bağlı konseptual birliyin olmaması çox vaxt dövlətlərin ortaq mövqe tutmasının qarşısını alır.

Beynəlxalq sülh və təhlükəsizliyi qorumaq 1945-ci ildə imzalanan Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 1-ci maddəsində qeyd edilmişdir. 1-ci Maddədə sülhü pozan hərəkətləri yatırmaq üçün kollektiv şəkildə tədbirlərin göstərilməsi və sülh yolu ilə uyğun olaraq həll yollarının tapılması gərəkdiyi bildirilir. BMT Baş Assambleyasının 1999-cu il qətnaməsinə əsasən terrorizm "səbəblərə görə hər cür qeyri-qanuni repressiya yolu ilə terror mühiti yaratmağa təhrik edən siyasi, fəlsəfi, ideoloji, irqçi, etnik, dini və ya digər bütün cinayət əməlləri" kimi müəyyən edilmişdir. BMT terrorizmin, xüsusilə də beynəlxalq terrorizmin bütün dünya dövlətlərinin iştirakı ilə aradan qaldırıla biləcəyini vurğulayaraq, hər bir dövləti bu mübarizəyə səsləmişdir.

Ümumiyyətlə terrorizmə qarşı mübarizənin hüquqi əsasını BMT və onun səviyyəsindəki beynəlxalq təşkilatlar tərəfindən hazırlanmış müqavilələr təşkil edir. Bu müqavilələr içərisindəki ən əhəmiyyətlilərindən biri 1963-cü ildə təyyarədə törədilmiş cinayətlərə aid müqavilədir [1.] Bu razılaşmadan 7 il sonra 1970-ci ildə təyyarə qaçırma ilə bağlı konvensiya qəbul edildi. 50 dövlətin imzası ilə qəbul edilmiş bu konvensiyada təyyarə qaçıranların müvafiq ölkəyə təslim edilməsi tələb edilirdi. Əfsuslar olsun ki, bu konvensiyanın qəbul edilməsinə baxmayaraq həmin ildən sonra təyyarə qaçırma hadisələrinin sayı daha da artdı.

Daha sonra ardıcıl olaraq 1988-ci ildə dəniz təhlükəsizliyini təhdid edən hərəkətlər və beynəlxalq hava limanlarına hücumlar, 1997-ci ildə terror bombardmanları və s. barədə razılaşmalar qəbul edilmişdir. Birləşmiş Millətlər Təşkilatının terrorizmlə mübarizədə qəbul etdiyi ən mühüm konvensiyalardan biri 9 dekabr 1999-cu il tarixli konvensiyadır. Bu konvensiya "Terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiya" adlanırdı. 9 dekabr konvensiyasının başlıca məqsədi terrorizmin maliyyələşdirilməsinin qarşısının alınması idi. Həmçinin bu konvensiyada terrorizmə qarşı tədbirlərin hazırlanmasında dövlətlərin beynəlxalq əməkdaşlığı təşviq edilməsi vacib faktor kimi götürülürdü. Əslində bu konvensiya çox vacib bir məsələyə toxunurdu. Belə ki, terorizmi pisləyən bir çox dövlətlər əslində arxa planda öz siyasi hədəflərinə çatmaq üçün terrorizmdən bir alət kimi istifadə etməkdədir. Onlar terrorizmi bir başa və ya dolayı yollarla maddi və mənəvi cəhətdən dəstəkləməktədir.

Həm BMT Baş Assambleyası, həm də Təhlükəsizlik Şurası müxtəlif vaxtlarda dövlətlərlə birgə terrorla mübarizəni müzakirə edib və beynəlxalq ictimaiyyətə öz qətnamələrini elan ediblər. 2996 nəfərin ölümü və 6000-dən çox insanın yaralanması ilə nəticələnən 2001-ci il 11 sentyabr hadisəsindən bir neçə gün sonra 28 sentyabr tarixli 1373 saylı qətnamə ilə beynəlxalq ictimaiyyətə daha konkret və məcburi tədbirlər görməri elan edildi. Bu prosesdə BMT Təhlükəsizlik Şurasının Terrorla Mübarizə Komitəsi təsis edildi. Burada nəzərdə tutulmuş əsas məsələlər terrorizmlə mübarizədə qabaqcıl təcrübələri müəyyən etmək, yeni plan strategiyası yaratmaq, dövlətlərarası əməkdaşlığı yaratmaq və inkişaf etdirmək idi.

Terrorizmlə mübarizədə Şimali Atlantika Müqaviləsi Təşkilatı da (NATO) mühüm addımlar atmışdır. Ümumiyyətlə, bu təşkilatın terrorizmlə mübarizəyə dair yeni Strateji Konsepsiyasından sonra qəbul edilmiş bəyanatların demək olar ki, hər birində terrorizmlə bağlı müddəalar yer almışdır.

11 sentyabr terror hadisəsindəm sonra NATO yeni bir saziş qəbul etdi. Bu sazişə əsasən terror təşkilata üzv olan dövlətlərdən birinə qarşı real hecum kimi qəbul edilirdi. NATO-nun terrora qarşı yeni hərbi müdafiə konsepsiyası NATO üçün dörd mümkün hərbi fəaliyyət kateqoriyasını müəyyən etdi [2]. Bunlar anti-terrorla, nəticələrin idarə edilməsi, terrorla mübarizə və hərbi əməkdaşlıqdır. 11 sentyabr hadisələrindən sonra Amerika Birləşmiş Ştatları terrorla mübarizə çərçivəsində NATO-dan asılı olmayaraq hərəkətə keçməyə başladı. Terror hadisəsindən sonra Əfqanıstanda tək başına əməliyyat keçirən ABŞ-ın bu hərəkəti kollektiv əməkdaşlığı nəzərdə tutan NATO daxilində problemlər yaratdı.

Uzun illər terror hadisələri ilə üzləşmiş Avropa dövlətləri terrorla mübarizədə təşkilat daxilində mühüm addımlar atmışdır. Avropa dövlətlərində 1980-ci illərdə yüngül terror hadisələri yaşanırdı. Lakin 1990-cı illərdə artıq bu regionda da terror ciddi bir təhlükəyə çevrilməyə başladı [4]. Xüsusilə, 1995-ci ildə Paris metrosunda baş verən terror aktından sonra terrorizmlə mübarizədə Avropa ölkələri arasında geniş əməkdaşlıq yaradılmasının vacibliyi gündəmə gəldi. 1997-ci ildə Avropa Şurası çərçivəsində imzalanmış "Terrorizmin qarşısının alınmasına dair Avropa Konvensiyası" həyata keçirilən addımlardan biridir.

Avropa İttifaqı daxilində terrorla mübarizə baxımından diqqətçəkən məsələlərdən biri Avropa İttifaqı ölkələrindən yalnız 7-nin öz daxili qanunvericiliyində terrordan bəhs etməsidir. Bu ölkələr Fransa, Almaniya, İngiltərə, İtaliya, Portuqaliya, İspaniya və Yunanıstandır. Onların içində isə sadəcə İngiltərənin bu məsələ barədə daha ətraflı qanunvericiliyə malikdir. Avropa Birliyinin Maastrix sazişinin "Üçüncü Sütun (The Third Pillar)" adlandırılan bölməsində terrorizmlə mübarizədə birlik şəklində fəaliyyətin önəmi vurğulanır. 21 sentyabr 2001-ci ildə Avropa İttifaqı tərəfindən Aİ-nin Fövqəladə Brüssel Sammitində 11 sentyabrda terror hücumuyla bağlı, terrorun dünya və Avropa üçün çox ciddi təhlükə yaratdığı və onunla mübarizənin Aİ-nin başlıca prioritet hədəfi olduğu bildirilib.

ABŞ və Avropa İttifaqı beynəlxalq terrorizmlə mübarizə çərçivəsində birgə fəaliyyət göstərmə cəhdləri öz daxilində ziddiyyət təşkil edir. Belə ki, kimyəvi və nüvə silahlarının istehsalında istifadə oluna biləcək texnoloji elementlərin İngiltərə, Almaniya və Fransa başda olmaqla, Avropa dövlətləri tərəfindən ABŞ-ın silahlanmada ittiham etdiyi İraq, İran və Suriya kimi ölkələrə ötürüldüyü məlum bir həqiqətdir. Əslində bu cür fəaliyyətlər terror təşkilatlarının güclənməsində mühüm rol oynayır. Əslində baş verən terror hadisələri və bu hadisələr zamanı istifadə edilən texnologiya açıq şəkildə göstərir ki, Qərb yüksək dağıdıcı gücə malik olan texnologiyanın ən yüksək səviyyəsinə malikdir və bu əməlləri həyata keçirən qruplar bu texnologiyanı Qərbdən əldə edirlər.

İNTERPOL beynəlxalq terrorizmlə effektiv mübarizə aparmağa çalışan və bu mənada geniş fəaliyyət sahəsinə malik təşkilatlardan biridir. İNTERPOL beynəlxalq terror fəaliyyətinin qarşısının alınması və cinayətkarların məsuliyyətə cəlb edilməsinə kömək etməkdir. Bu təşkilat şübhəli şəxslər, qruplar və onların fəaliyyəti ilə bağlı gizli məlumatları toplayır, təhlil edir, saxlayır və lazımi yerlərə ötürür. Bu məlumatlar təşkilata üzv dövlətlərdən toplanır. 1946-cı ildə yaradılmış İNTERPOL-un beynəlxalq terrorizmlə mübarizədə faktiki iştirakı 1985-ci il oktyabrın 1-dən 8-dək Vaşinqtonda keçirilən Baş Assambleyanın 54-cü iclasında qəbul edilmiş qərarla reallaşdı. Həmin iclasda İNTERPOL Polis İdarəsinin tərkibində ekspert bölməsinin yaradılması qəbul edildi. Bu ekspert bölməsinin vəzifəsi beynəlxalq terrorizmə qarşı mübarizədə koordinasiyanın təmin edilməsi və əməkdaşlığın artırılması kimi müəyyən edimişdir.

Beynəlxalq terrorizmlə mübarizə aparan başqa bir polis təşkilatı isə EUROPOL-dur. 1970-ci illərdə Avropada fəaliyyətə başlayan EUROPOL terrorizmin, narkotiklərin qanunsuz dövriyyəsinin və beynəlxalq cinayətin digər əsas formalarının qarşısının alınması və onlarla mübarizə üçün məlumat mübadiləsi sistemidir. Yəni təşkilat bu baxımdan İNTERPOL ilə oxşar funksiyaları yerinə yetirir. Lakin mühüm fərq EUROPOL qlobal yox sadəcə regional təşkilatdır və Avropa sərhədləri daxilində fəaliyyət göstərir. Təşkilatın əsasını 1970-ci illərdə fəaliyyətə başlayan və əsas məqsədi Avropada terrorizmlə mübarizə aparmaq olan TREVI Qrupu təşkil edir.

Beynəlxalq aləmdə polisin əməkdaşlığına imkan yaradan İNTERPOL və

EUROPOL terrorizmlə mübarizədə çox mühüm funksiyanı yerinə yetirirlər. İNTERPOL dünyanın hər yerindən 181 üzvü olan və bu kontekstdə həqiqətən mühüm qlobal xarakter daşıyan bir strukturdur. Ona görə də bu xüsusiyyət onun terrorizmə qarşı ən böyük üstünlüyüdür. İNTERPOL ilə müqayisədə daha regional təşkilat olan EUROPOL bu baxımdan bəzi üstünlüklərə də sahibdir. Belə ki, təşkilatın üzvlərinin sayının daha az olması qərarlarda razılığa gəlmək baxımından INTERPOL-dan qat-qat asan ola bilər. Həmçinin EUROPOL-un bütün üzvləri həm də Avropa İttifaqı üzvləri olması onun işlərini daha da asanlaşdırır.

## ƏDƏBİYYAT


1. Ana Britannica (Ansiklopedi), 1994, 391-392
2. Christopher BENNETT, “Combating Terrorism”, NATO Review, 2003
3. United Nations, Treaty Series, C. 1137, S. 17828, 1977
4. Laurence THIEUX, “European Security and Global Terrorism: the Strategic Aftermath of the Madrid Bombings, Perspectives, C. 22, Yaz 2004, s.

**ELŞƏN NƏCƏFOV**
*Yol hərəkətinin təşkili və təhlükəsizliyi*
*Naxçıvan Dövlət Universiteti*
*necefov.elsen@inbox.ru*

## YOL HƏRƏKƏTİ İŞTİRAKÇILARININ QARŞILIQLI DAVRANIŞ MÜNASİBƏTLƏRİ

İnsanın davranışı, danışığı onun mədəniyyətinin göstəricilərindəndir. Davranış qaydalarına əməl etmək həm də ətrafdakılara hörmət əlamətidir. Bu baxımdan yol hərəkəti iştirakçıları onlar üçün vacib olan bir sıra qaydaları bilməli və onlara əməl etməli, diqqətli və məsuliyyətli olmalıdırlar.

Əhali sıxlığı yüksək olan şəhərlər tarixən inkişaf etdikcə özündə bir çox ictimai mədəniyyət nümunələrini formalaşdırıb. Belə nümunələrə yollarda hərəkət etmək, dincəlmək, kütləvi yerlərdə davranış qaydalarına riayət etmək kimi xeyli misallar gətirmək olar. Müasir həyatın əsas faktorlarından biri də piyada və sürücü münasibətlərini özündə əks etdirən yol mədəniyyətidir. Bu mədəniyyətin formalaşması müxtəlif nəqliyyat vasitələrinin sayının artması zərurətindən yaranıb. Həmçinin, yol mədəniyyətinin səviyyəsi artdıqca sürücü və piyadaların təhlükəsizliyi də o səviyyədə qorunmuş olmalıdır.

Son illər ölkəmizdə yol-nəqliyyat infrastrukturu sahəsində də mühüm işlər görülür. Belə ki, avtomobil yollarının böyük əksəriyyəti yenidən qurularaq genişləndirilir, işıqlandırma sistemi quraşdırılır, hərəkət qaydalarını tənzimləyən müxtəlif nişanlar qoyulur. Görülən işlər əhalinin rahat hərəkət imkanlarını təmin etməyə xidmət edir. Eyni zamanda qeyd etməliyik ki, son illərdə şəxsi minik avtomobillərinin sayının artması təbii ki, avtomobil yollarında hərəkətin intensivliyinə təsir edir, sürücülərin və digər yol hərəkəti iştirakçılarının məsuliyyətini ikiqat artırır.

Müasir yol hərəkəti mürəkkəb şəraitdə sürücülər qarşısında böyük tələb qoyur. Sürücü yol hərəkəti prosesində başlıca fiqurdur və kəskin situasiyalarda düzgün qərar vermək onun biliyi, ağlı və bacarığından asılıdır. Sürücü mürəkkəb hərəkət şəraitini sərbəst müəyyən etməlidir. Qarşıdakı situasiyanı əvvəlcədən görməyi bacarmalıdır, başqa hərəkət iştirakçılarına qarşı maksimum diqqətli və nəzakətli olmalıdır. Sıx nəqliyyat axınında özünü aparmağı, ümumi hərəkət şəraitinə tabe olmağı bacarmalı, lazımsız yerdəyişmələr və ötmə etməməli, dəqiq və təhlükəsiz distansiya və interval saxlamalıdır. İdarə etdiyi nəqliyyat vasitəsindəki sərnişinlərin təhlükəsiz hərəkətini təmin etməli, həmçinin hərəkət zamanı baş verən qəzalarda ehtiyacı olanlara yardım etməlidir. Onun bu cür rəftarı yüksək sürücülük mədəniyyətinə malik olmasının göstəricisidir. Ona görə də yol hərəkətində iştirak edən hər bir sürücü yol hərəkəti qaydalarına riayət etməklə ətrafdakı insanlara münasibətini və özünün şəxsi mədəniyyətini nümayiş etdirmiş olur. Yadda saxlamaq lazımdır ki, yollarda təhlükəsiziyin təmin edilməsinin əsas şərtləri sürücülər tərəfindən yüksək mədəniyyətlilik, yol hərəkəti qaydalarını yaxşı bilmək və onları dəqiqliklə yerinə yetirməkdir.

Sürücü mədəniyyəti bütün yol hərəkəti iştirakçılarına hörmətlə yanaşmaq, avtomobili qaydalara uyğun idarə etmək, digər yol hərəkəti iştirakçılarına xırda şeylərə görə hirslənməmək, sərnişinlərə görə məsuliyyəti daim hiss etmək, yol hərəkəti qaydalarını bilməyən piyadalara (uşaqlara, ahıllara) səbirli yanaşmaq deməkdir. Bundan başqa da sürücülər avtomobilinin texniki vəziyyətini, xarici görünüşünü, təmizliyini daim nəzarətdə saxlamalıdır.

Yüksək mədəniyyətə sahib sürücülər nəqliyyat vasitələrinin idarə edilməsi haqqında olan mövcud qaydalara yerli-yerində əməl etməyə çalışırlar. Onlar harda hərəkət etmələrinə baxmayaraq, onlara nəzarət edən hər hansı bir vasitənin olub-olmamağından asılı olmayaraq kimlərəsə rahatsızlıq törətmirlər, sürücü mədəniyyətini unutmurlar. Sürücülər qanunun nəzarəti olsa da, olmasa da sürücü mədəniyyətinə sahiblənməli, mənəvi dəyərlərimizi qorumalı, digər yol hərəkəti iştirakçılarının hərəkətinə maneə yaratmamalıdırlar!

Hər birimiz istər-istəməz hər gün olduğumuz yerdən küçə və yollara çıxarkən yol hərəkəti iştirakçısına çevrilirik; avtomobili idarə edərkən sürücü, avtomobildə hərəkət edərkən sərnişin, küçə və yollardan keçərkən isə piyada qismində oluruq. Yəni tutduğumuz vəzifədən, mövqedən,

cinsimizdən və yaşımızdan asılı olmayaraq, hər birimiz yol hərəkət haqqında qaydalarını bilmək məcburiyyətindəyik. Sürücülər sürücü kimi, piyadalar isə ən azından piyada kimi necə hərəkət etmək lazım olduğunu bilməlidirlər.

Piyadalar da öz növbəsində qəza vəziyyətinin yaranmasına, hərəkətin intensivliyinin pozulmasına səbəb olmamalıdırlar, sürücülərin onlara yol verdiklərinə əmin olduqları zaman yolun hərəkət hissəsini keçməlidirlər. Yol Hərəkəti Haqqında Qanunun 40-cı maddəsində göstərildiyi kimi piyadalar səki ilə, piyada zolağı ilə, yol çiyinləri ilə hərəkət etməlidirlər. Yaşayış məntəqələrindən kənarda yolun hərəkət hissəsi ilə hərəkət etdikdə nəqliyyat vasitələrinin hərəkəti istiqamətinə qarşı getməlidir (mühərriksiz əlil arabalarında hərəkət edənlər belə hallarda nəqliyyat vasitələrinin hərəkəti istiqamətində getməlidirlər).

Dəmiryolunu, avtomobil yolunun hərəkət hissəsini, küçələri piyada keçidləri ilə, o cümlədən yeraltı və yerüstü keçidlərlə, bunlar olmadıqda isə yolayrıclarında səki xətti və ya yol çiyni xətləri boyunca keçməlidir. Gözlə görünmə zonasında keçid və ya yolayrıcı olmadıqda, ayırıcı zolaq olmayan və sədd çəkilməyən, hər iki tərəfdən (sağ və sol istiqamətdən) yaxşı görünən sahələrdə hərəkət hissəsinin kənarına nisbətən yolu düzbucaq altında keçməlidir. Sutkanın qaranlıq vaxtı yolun işıqlanmayan hissələrində yalnız görünüş dairəsində nəqliyyat vasitəsi olmadıqda keçməlidir. Dayanmış nəqliyyat vasitəsinin və ya görmə sahəsini məhdudlaşdıran başqa maneənin arxasından yolun hərəkət hissəsinə çıxmazdan əvvəl yaxınlaşan nəqliyyat vasitəsinin olmadığını yəqin etdikdən sonra yola çıxmalıdır.

Piyada, nizamlanmayan piyada keçidlərində yolun hərəkət hissəsinə yalnız yaxınlaşmaqda olan nəqliyyat vasitələrinədək məsafəni, onların sürətini qiymətləndirdikdən və yolu keçməyin onlar üçün təhlükəsiz olacağını yəqin etdikdən sonra çıxa bilər. Keçidi başa çatdıra bilməmiş piyadalar nəqliyyat vasitələrinin əks istiqamətli hərəkətlərini ayıran xəttin üstündə dayanıb gözləməlidirlər.

Hərəkətin nizamlandığı yerlərdə nizamlayıcının və ya piyada svetoforunun, o olmadıqda isə, nəqliyyat svetoforunun işarəsini əsas tutmalıdır, yolun hərəkət hissəsində zərurət olmadan ləngiməməli və dayanmamalıdır.

Piyadalar yalnız hərəkətin təhlükəsizliyinə əmin olduqdan sonra və svetoforun (nizamlayıcının) siqnalını nəzərə almaqla yolu keçməyə davam edə bilərlər.

Sərnişinlərin ictimai nəqliyyatda və ya avtomobillərdən minib-düşməsi zamanı yol verdikləri qeyri-normal davranışların yol nəqliyyatının qəza göstəricilərində nəzərə çarpacaq yeri var.

Belə ki, sərnişin nəqliyyat vasitəsinə yalnız xüsusi minik meydançasından, belə meydança olmadıqda isə, səkidən və ya yolun çiyni tərəfdən yalnız nəqliyyat vasitəsi tam dayandıqdan sonra minib-düşməlidir (sərnişinlərin səki və ya yolun çiyini tərəfdən minib-düşməsi mümkün olmayan halda, onlar yolun hərəkət hissəsindən o şərtlə minib-düşə bilər ki, bu, təhlükəli olmasın və hərəkətin digər iştirakçıları üçün maneə yaratmasın). Nəqliyyat vasitəsi dayandıqda və ya durduqda, heç bir təhlükənin olmadığını yəqin etdikdən sonra onun qapılarını açmalıdır. Nəqliyyat vasitəsindən çıxdıqdan sonra, səbəb olmadan yolun hərəkət hissəsində ləngiməməlidir. Nəqliyyat vasitəsindən bayıra hər hansı əşya atmaq qadağandır.

Hərəkət vaxtı sürücünün diqqətini nəqliyyat vasitəsini idarə etməkdən yayındırmamalı, təhlükəsizlik kəməri olan avtomobildə gedərkən kəməri bağlamalıdırlar.

Ümumiistifadəli nəqliyyat vasitəsindən düşən sərnişinlər yolun digər tərəfinə təhlükəsiz keçmək üçün qarşıdan və arxadan gələn nəqliyyat vasitəsinin olmadığına əmin olduqdan sonra keçməlidirlər.

Artıq bir çox ölkələrdə, həmçinin ölkəmizdə həm ekoloji təmizliyin təminatı, həm də özlərinin fiziki sağlamlıqlarını təmin etmək məqsədi ilə velosipedlə hərəkət edən insanlar çoxalmaqdadır. Velosipedlərin sürətinin az olması, gecə vaxtı işıqlandılmasının zəif olması avtomobillərin sıx hərəkət etdiyi yollarda avtomobil sürücülərinə müəyyən çətinliklər yaranır. Bu baxımdan velosipedçilər qaydalara uyğun olaraq texniki cəhətdən saz və lazımınca təchiz olunmuş velosipeddən istifadə etməlidir, velosipedi idarə etməyə mane olan yük və ya sərnişin daşımamalıdır. Xüsusi velosiped

zolaqları ilə, bunlar olmadıqda isə yolun, küçənin hərəkət hissəsinin kənarı və ya piyadalara maneə yaratmamaq şərti ilə yol çiyinləri ilə nəqliyyat vasitələrinin hərəkəti istiqamətində yol nişanları və ya yol nişanlanmasının tələblərinə riayət etməklə, mümkün qədər sağ tərəfdə bir cərgə ilə hərəkət etməlidir.

Yolayrıcından kənarda avtomobil yolunun velosiped yolu ilə nizamlanmayan kəsişməsində velosiped sürücüləri bu yolla hərəkət edən nəqliyyat vasitələrinə yol verməlidirlər.

Mütəxəssislərin araşdırmaları və yol-qəza hadisələrinin aşağı səviyyədə olduğu ölkələrin təcrübəsi onu deməyə əsas verir ki, yollarda qəzaların sayını azalda biləcək bircə amil varsa, o da yol hərəkəti iştirakçılarının intizamıdır. Bu isə ilk növbədə, insanın tərbiyəsindən və mədəniyyətindən irəli gəlir. Sürücü və piyadanın yol mədəniyyəti, insani mədəniyyətinin, yəni onun ictimai, əxlaqi və əqli inkişafının bir hissəsidir. Mülayim, nəzakətli, hamıya hörmətlə yanaşan bir insanı yol qaydalarını pozan qeyri-intizamlı bir sürücü və ya piyada rolunda təsəvvür etmək çətindir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının “Yol hərəkəti haqqında” Qanunu
2. Naidə Hacıyeva. Estetika, peşə etikası və psixologiya. 2012.
3. Elşən Nəcəfov. Sürücülük vəsiqəsi imtahanlarına hazırlaşanlar üçün izahlı vəsait. 2020.

**ZEYNƏB QASIMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*Dəmiryolu təsərrüfatı və onun istismarı*

# AZƏRBAYCAN NƏQLİYYATININ İNKİŞAFI

Ölkədə nəqliyyat sahəsinə dəmir yolu, avtomobil, aviasiya və dəniz nəqliyyatı daxildir. Nəqliyyat sisteminin inkişafı Azərbaycan Respublikası üçün böyük əhəmiyyət kəsb edir.Son illər ölkəmizdə ictimai həyatın bütün sahələrində əldə edilən dinamik hərəkətliliyinə nəqliyyatın böyük təsirləri olmuşdur.

Hazırda ölkə həyatının bütün sahələri ilə yanaşı yol təsərrüfatının sistemli və hərtərəfli inkişafına xüsusi diqqət yetirilir.Və beləliklə respublikamızda nəqliyyat sahəsində yeniləşmə və müasirləşmə getdikcə dərinləşir,dövlətimizin gücünün və qüdrətinin artırılmasına ,xalqımızın rifahının yüksəldilməsinə kömək edir. Zaman keçdikcə yeni yollar salınır,mövcud yolların isə əsaslı təmiri ilə bağlı işlər aparılır. Paytaxtda və regionlarda çoxsaylı yol ötürücüləri körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa olunub.

Hazırda işğaldan azad edilmiş ərazilərdə yol infrastrukturunun qurulması istiqamətində işlər davam etdirilir. 2020-ci ilin noyabr ayının 16da təməli qoyulmuş "Zəfər yolu" layihəsi başlanğıcı Şuşa şəhərinə qədər birləşdirən uzun magistral yol çəkilir. Layihələndirilən yolun uzunluğu 101kilometrdir.Strateji əhəmiyyəti ilə seçilən digər bir layihə isə Zəngilan-Horadiz avtomobil yolunun tikintisi ilə bağlı işlər hələ də davam etməkdədir.Bu yolun ümumi uzunluğu isə 124 kilometrdir.

Ölkəmizin nəqliyyat sahəsinin inkişaf etmiş mühüm sahələrdən biri də dəmir yollarıdır. Son illər dəmir yolu nəqliyyatı sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, ölkənin dəmir yolları şəbəkəsinin genişləndirilməsi, müasirləşdirilməsi və yenilənməsi istiqamətində intensiv işlər aparılıb.Hazırda işğaldan azad edilmiş ərazilərdə dəmiryolu şəbəkəsinin bərpası istiqamətində geniş işlər aparılır. Ən vacibi gələcəkdə Zəngəzur dəhlizi vasitəsi ilə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR arasında birbaşa dəmir yolu əlaqəsinin yaranmasına imkan verəcək.

Hazırda Azərbaycanda dəmiryolunun uzunluğu 2008 km təşkil edir.1878-ci ildə dövlət fərmanına əsasən Azərbaycanda ilk dəmir yolunun çəkilişinə başlanıldı .Azərbaycanda ilk dəmir yolunun çəkilməsi və sonradan inkişaf etdirilməsi neftin daşınması ilə əlaqədar olmuşdur.Dəmir yolu nəqliyyatı ilə yük və sərnişin daşıma, bir qayda olaraq, müəyyən bir ölkənin ərazisi ilə məhdudlaşır, yəni müəyyən bir dövlətin ərazisində başa çatır.Müasir dəmir yolu nəqliyyatının inkişafında elm və texnologiyanın ən yeni nailiyyətləri, yükləmə-boşaltma əməliyyatlarının genişmiqyaslı kompüterləşdirilməsi və avtomatlaşdırılması da mühüm rol oynayır.

Nəqliyyat sisteminin mühüm sahələrindən biri də hava nəqliyyatıdır. Son illər ərzində Respublikada 7 aeroport tikilib və ya yenidən qurulub. Hal-hazırda Azərbaycanda altı beynəlxalq və bir yerli əhəmiyyətli aeroport mövcuddur. Hazırda azad olunmuş ərazilərdə biri beynəlxalq olmaqla daha 3 aeroportun istifadəyə verilməsi nəzərdə tutulur.

Azərbaycan nəqliyyat donanmasının böyük bir hissəsi açıq dənizlərdə yerləşir, qalan hissəsi isə açıq dənizə çıxışı olmayan Xəzər dənizində yerləşir. Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra bir sıra beynəlxalq nəqliyyat təşkilatlarına üzv olmuş beynəlxalq nəqliyyat konvensiyalarına qoşulmuş və nəqliyyat daşımaları sahəsində bir çox dövlətlərlə sazişlər bağlamışdır. Əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş qlobal iqtisadi layihələrin –Böyük "İpək yolu"nun bərpası və digər iqtisadi-ticarət layihələrinin həyata keçirilməsi həlledici əhəmiyyət daşıyırdı. Nəqliyyat konvensiyalarında, birinci, elə normalar müəyyənləşdirilir ki, onlar nəqliyyat sahəsində dövlətlər arasında yaranan münasibətləri tənzimləyir, bu sahədə dövlətlər üçün hüquq və vəzifələr müəyyən edir.Onların vasitəsilə aşağıdakı məsələlər müəyyən edilir:

-nəqliyyat daşıma şərtləri;

-beynəlxalq nəqliyyat daşıma tarifləri;

-beynəlxalq nəqliyyat daşımalarının ümumi prinsipləri və təşkili;

Nəqliyyat haqqında Azərbaycan Respublikasının qanununda göstərilmişdir ki, əgər qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdırsa, yükün, sərnişinin, baqajin və poçtun daşınmasına görə haqq müqavilə ilə müəyyən edilir.Nəqliyyat sistemi quruda, suda və hava məkanında inkişaf edir. Nəqliyyat hər hansı coğrafi mühitdə özünəməxsus xüsusiyyətlər əsasında inkişaf edir.

Azerbaycanda nəqliyyatın inkişaf etmiş sahələri aşağıdakılardır:

1.Dəmiryol nəqliyyatı-sürəti və təhlükəsizliyinə görə fərqlənir. Dağlıq, bataqlıq kimi əlverişsiz relyefə malik ərazilərdə istifadə oluna bilmir.

2.Boru-kəmər nəqliyyatı

3. Hava nəqliyyatı

4.Su nəqliyyatı

5.Avtomobil nəqliyyatı

Su nəqliyyatı-dəniz və çay nəqliyyatı olmaqla iki hissəyə ayrılır.Su nəqliyyatında istifadə olunan nəqliyyat vasitələri:

Gəmi,qayıq, bərə,sandal

Nəqliyyat sahəsinin inkişafı Azərbaycanda iqtisadi ictimai inkişafına yüksək səviyyədə köməklik göstərir.Yük və sərnişin daşımalarını asanlıqla istənilən yerə çatdırmaq imkanı yaradır.

Nəqliyyat - Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış yüklərin və insanların daşınma vasitələridir, həmçinin dəmir yolu, avtomobil, dəniz, daxili su, hava, şəhər və şəhərətrafı elektrik,sahələrini əhatə edir.

Nəqliyyat müəssisəsi - qanunvericiliyə və öz təsis sənədlərinə uyğun fəaliyyət göstərən, yük, sərnişin, baqaj və poçt daşımaları, nəqliyyat vasitələrinin saxlanılması texniki xidmət və təmir, yükləmə-boşaltma və liman xidmətləri göstərən hüquqi şəxsdir.

Magistral boru kəməri sahəsində olan tənzimləmələr Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir. Nəqliyyatda iqtisadi münasibətlərin əsasını nəqliyyat xidmətlərinə tələb və təklif bazarı formalaşdırır.

Nəqliyyat vasitəsini idarəetmə hüququ müvafiq ixtisas tələblərinə və sağlamlıq vəziyyəti müvafiq normalara cavab verən fiziki şəxsə verilir. Nəqliyyat vasitəsini idarəetmə hüququ müvafiq normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada və formada verilmiş sənədlə təsdiq edilir.Buda nəqliyyat sahəsində peşəkarlı ixtisaslı kadrların olması üçün gözəl bir fürsət yaradır.

Nəqliyyat vasitələri, yollar, habelə nəqliyyatın işini təmin edən müvafiq texniki vasitələr dövlət standartları ilə müəyyən edilmiş insanın həyatı, səhhəti və əmlakının təhlükəsizliyinə, əməyin mühafizəsinə və ekoloji təhlükəsizliyə dair məcburi tələblərə uyğun olmalıdırlar.

Son zamanlara qədər nəqliyyat müəssisələrindən yalnız daşıma məqsədi ilə istifadə edirdilər,lakin zaman keçdikcə yeni nəqliyyat sahələri inkişaf etməyə başladı və yeni texnologiyalar istifade olunmağa başlandı. Sərnişinlərin uzaq məsafələrə rahatlıqla daşınması üçün ən son texnikalar istifadə olundu.Hava,su dəmiryolu, avtomobil və.s nəqliyyat sahələri üzrə ciddi şəkildə dəyişikliklər baş verdi. Hal -hazırda da istər işğaldan azad olunmuş torpaqlarımızda istərsə də Azərbaycanın digər regionlarında avtomobil yolları salınır,yeni aeroport tikintisi davam etdirilir və dəmiryolu xətləri yenilənir.Bununla da demək olar ki iqtisadiyyat baxımından digər ölkələrlə də rahatlıqla əlaqə yaratmaq imkanı əldə etmiş oluruq. İpək yolu xəttinin köməkliyi ilə məhsullarımız xarici bazarlara çıxartmaq imkanı yaradır. Azərbaycan xalqının rifahının yüksəldilməsi üçün hər cür şərait təmin edilir.

## ƏDƏBİYYAT

1.Cavadov Ə.Ə.Daşımalar və vahid nəqliyyat sistemi. Bakı: “Təhsil” NPM, 2009, 260 s.

2.Əliyev Etibar Əli o. Beynəlxalq nəqliyyat hüququ. Bakı:”Sena” MMC nəşriyyat poliqrafiya müəssisəsi, 2009, 868 s.

3.H.İsgəndər. Azərbaycanın yol tarixi . Azərbaycan,1995-128s

4. Qərib Məmmədov, Mahmud Xəlilov. Ensiklopedik ekoloji lüğət. Bakı: Elm, 2008, 727 səh.

**NİHAD KƏRİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*Yol hərəkətinin təşkili və təhlükəsizliyi*

# AVTOMOBİL YOLLARINDA HƏRƏKƏTİN NİZAMLANMASI

Yol nişanlarının tarixi ən az yollar qədər qədimdir. İlk nişanlar istiqamət nişanları idi. Romalılar, Roma'ya qalan məsafəyi göstərmək üçün yol kənarlarına daş sütunlar yerləşdirmişdirlər. Zamanla texnologiya inkişaf etdikcə yol nişanlarıda dəyişimə ,inkişafa məruz qalmışdır. Avtomobil texnologiyasının inkişafı yol nişanlarının daha böyük əhəmiyyət kəsb etməsinə səbəb oldu. Yol hərəkətinə qoşulan nəqliyyat vasitələrinin sayı gun keçdikcə artır. Buna görə də, yol qəzalarının , tıxacların , yollarda olan qarışıqlığın qarşısını almaq və sürücülərin düzgün qayda çərçivəsində hərəkət etməsi üçün yolun nişanlanması şərtdir.

Yol hərəkətinin nizamlanmasında dörd vasitədən (üsuldan) istifadə olunur:

1) Hərəkətin nizamlayıcı (yəni polis əməkdaşı) tərəfindən nizamlanması
2) Müxtəlif növlü və təyinatlı svetoforlar
3) Yol nişanları
4) Nişanlanma xətləri.

Bu nizamlama vasitələrindən (üsullarından) birincisi olan yol hərəkətinin nizamlayıcı, yəni polis əməkdaşı tərəfindən tənzimləməsi operativ xarakter daşıyır. Yəni belə tənzimləməyə ayrı-ayrı konkret hallarda polisin təcili müdaxiləsinə ehtiyac olduqda əl atılır (məsələn, tıxac yarandıqda, qəza baş verdikdə, hər hansı yol bağlandıqda və s.). Ona görə də qanunvericilik belə operativliyi nəzərə alaraq müəyyən edir ki, nizamlayıcının göstərişləri yerdə qalan digər üç qrup tənzimləmə vasitələrinin göstərişinə zidd olsa da, nizamlayıcının göstərişlərinə əməl olunmalıdır. Yəni məsələn, hərəkəti tənzimləyən DYP əməkdaşı svetoforun qırmızı işığı yanarkən hərəkətə icazə verirsə, giriş qadağan olunan yol sahəsinə daxil olmağı tələb edirsə, qoşa xətti kəsərək geriyə və ya sola dönməyi tələb edirsə, nişanın müəyyən etdiyi məcburi hərəkət istiqamətindən fərqli istiqamətdə hərəkətə icazə verirsə və s. bu kimi hallarda tərəddüd etmədən həmin DYP əməkdaşının göstərişinə əməl etmək lazımdır.

Digər üç qrup tənzimləmə vasitələri daimi tətbiq edildikdə onlar arasında ziddiyyət olmamalıdır. Yuxarıda istinad etdiyim beynəlxalq və milli qanunvericilik bu tənzimləmə vasitələri arasında yalnız bir halda ziddiyyətin ola bilməsini mümkün sayır: Müvəqqəti tətbiq olunmuş nişanlar və nişanlanma xətləri ilə daimi tətbiq olunmuş nişanlar və nişanlanma xətləri, habelə svetoforlar arasında ziddiyyət. Başqa sözlə, bu üç qrup nizamlama vasitələri arasında yalnız o halda ziddiyyət ola bilər ki, konkret səbəbdən həmin yerdə müvəqqəti hərəkət sxeminə zərurət yaransın. Bu zərurətdən çıxış edərək həmin yerdə müvəqqəti nişan, yaxud da nişanlanma xətti tətbiq edilməklə həmin müvəqqəti hərəkət sxemi təmin edilsin. Sürücülər müvəqqəti nişan və nişanlanma xətlərinin tələblərini üstün tutmalıdırlar. Təsəvvür edin ki, sürücü yolayrıcını 3-4 saniyə müddətində keçir. Həmin yolayrıcında göstərişləri bir-birinə zidd olan müvəqqəti və daimi nişan var. Sürücü həmin 3-4 saniyə ərzində bu nişanlardan hansının müvəqqəti olduğunu dərk etməli (fərqləndirməli), daha sonra yol hərəkəti qaydalarının müvəqqəti və daimi nişanlar arasındakı ziddiyyətli hala dair müddəasını xatırlamalı, həmin müddəanı rəhbər tutaraq yolayrıcında hərəkət etməlidir. Sürücülərin çoxunun beyni bu mürəkkəb prosesi 3-4 saniyə ərzində başa çatdıra bilmir, nəticədə səhvə yol verir və qəza törədir. Bu səbəbdən qabaqcıl ölkələrdə müvəqqəti nişan və nişanlanma xətlərinin daimi nişan və xətlərlə, habelə svetoforlarla birlikdə tətbiqinə çox qısa zaman müddətində yol verilir .

Bu nizamlama vasitələrindən (üsullarından) üçüncüsü olan yol nişanları yol hərəkətinin təşkilinə, yol hərəkəti iştirakçılarının xəbərdar edilməsinə və istiqamətləndirilməsinə xidmət edir. Yol nişanları nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək,sürücülərə müəyyən informasiya bildirmək üçün standartlaşdırılmış qrafiki nişanlardır. Yol nişanları müxtəlif ölkələrdə bir-birindən fərqlənsə də, ümumi prinsip etibarı ilə eynidir.

Yol nişanları 7 nişan qrupundan ibarətdir:

**1.Xəbərdarlıq nişanları**
**2.Üstünlük nişanları**
**3.Qadağan nişanları**
**4.Məcburi hərəkət istiqaməti nişanları**
**5.Məlumatverici-göstərici nişanlar**
**6.Servis nişanları**
**7.əlavə məlumat lövhəcikləri**

**Yol nişanları müxtəlif şəraitə ( hərəkət sürəti, hərəkət zolaqlarının sayı və yolun tikildiyi coğrafi şərait) uyğun olaraq quraşdırılır.**

**Yol nişanlarının standarta uyğun olmayan dayaqlarda quraşdırılması qadağandır.**

**Yol nisanları yaşayış məntəqələrindən kənarda 150-300 metrdən, yaşayış məntəqələrində isə 50-100 metrdən az olmamaq şərtilə quraşdırılır.**

Bu nizamlama vasitələrindən (üsullarından) dördüncüsü olan Yolun nişanlanması yol hərəkətinin nizamlanmasının səmərəli vasitələrindən biri olmaqla, nəqliyyat axınının qaydaya salınmasına və yolun buraxılış qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Yolun nişanlanması yol hərəkətini nizamlamağın ən təsirli vasitələrindən biridir. Yol nişanlanmasına hərəkət təhlükəsizliyini artırmaq məqsədi ilə yol hərəkəti qaydalarını müəyyənləşdirən, yol qurğularının ölçülərini və ya yolun istiqamətini bildirən, yolun hərəkət hissəsinə, yolun və yol qurğularının digər elementlərinə çəkilən xətlər, yazılar və digər qeydlər aiddir.

Sürücülər və piyadalar bütün yol nişanlarını tanımalı və mənalarını bilməlidirlər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının "Yol hərəkəti haqqında" Qanunu
2. Elşən Nəcəfov. Sürücülük vəsiqəsi imtahanlarına hazırlaşanlar üçün izahlı vəsait. 2020.

**CAVİDAN CƏFƏRLİ**
*Pedaqogika nəzəriyyəsi və tarixi*
*Naxçıvan Dövlət Universiteti*
*cavidanceferli123@gmail.com*

## CƏNUBİ QAFQAZDA RUSİYA AMİLİ

Çar Rusiyasının yarandığı gündən etibarən məqsədi Cənubi Qafqazda öz təsirini gücləndirmək, Cənubi Qafqaz və Osmanlı imperiyası ilə Azərbaycan türklərinin vahid məkan daxilində birləşməsinin qarşısını almaq idi. Bu yolda, çar Rusiyasının, ən sadiq müttəfiqi erməni amili idi. Hələ 1724-cu ildə Pyotr erməniləri bu bölgədə yerləşdirmək haqqında sərəncam imzalamışdır. 1828-ci ildə Türkmənçay müqaviləsinin 15-ci bəndinə əsasən Qacarlar dövlətinin tərkibindəki erməni xalqının Şimali Azərbaycana köçürülməsi başlandı. Bu köçürülməni Rus rəssamı V.Maskovun 1828-ci ildə çəkdiyi şəkildən aydın görmək olur. Bundan sonra 1829-cu ildə Osmanlı-Rusiya müharibəsinin yekunu olaraq Edirnə sülhu ilə Kiçik Asiyadan, Van gölü ətrafından ermənilərin Azərbaycana köçürülməsi başlandı.

Bütün bunlarla yanaşı, ruslar Cənubi Qafqazda xristian amilini gücləndirmək üçün hələ 1818-c ildə Azərbaycanda-indiki Göygöl və Şəmkir ərazisində ilk almanları yerləşdirmişdi. 1828-1829-cu illərdə ruslar erməniləri, Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ və Borçalı bölgəsində yerləşdirdi. Bu köçürmənin məqsədi Osmanlı türkləri ilə Azərbaycan türkləri arasında gələcəkdə xristian dövləti yaratmaq və Qarabağda yaşayan alban xristianları ilə bu bölgəyə köçürülən erməni xristianlarının qaynayıb- qarışması üçün mümkün şərait yaratmaqla regionda rus amilini gücləndirməkdən ibarət idi. Bununla kifayətlənməyən çar 1-ci Nikolay 1830-cu ildə təriqətçi və biletçi rus kəndlilərinin Şimali Azərbaycana köçürülməsi haqqında göstəriş verdi. Nikolay Osmanlı dövləti ilə Şimali Azərbaycan arasında xeyli erməni yerləşdirdiyinden rusları mərkəzdə Şirvan bölgəsində, bir qismini Qarabağda, digər hissəsini isə Lənkəranda yerləşdirdi. Lənkəranda rusların yerləşdirilməsinin səbəbi Lənkəran xanı Səlim xanın ruslara qarşı son damla qanına qədər vuruşması, onlara təslim olmaması və cənub xalqının ruslara qarşı nifrəti idi.

Göründüyü kimi, rusların tək məqsədi Azərbaycanı xristianlasdirmaq, regionu şəxsi maraqları daxilində yönəltməkdən ibarət idi. Ermenilər Alban tarixinin və Xanlıq dövrünün tarixini saxtalaşdırmağa başladılar. Bu gün ermənilərin Stepanakert adlandıraraq özlərinin tarixi yaşayış məskəni kimi təqdim etdikləri Xankəndi hələ 1756-1757-ci ildə Qarabağ xanı Pənahəli xan sıldırım qayanın üzərində Şuşa qalasını tikdirərək burada saldırdığı Pənahabad şəhəridir. Qış aylarında buranın iqlimi sərt olduğundan Pənahəli xan Şuşa şəhərinin ətəyində yeni bir yaşayış məskəni salır. Bu yaşayış məskəninə Xanın kəndi demeyə başlayırlar. Bu isə indiki Xankəndi şəhəridir.

Bütün bunlar göstərir ki, Çar Rusiyasının köçürmə siyasətinin əsas prinsipləri regionda Bufer zona yaratmaqla, Azərbaycan türklərini xristianlaşdırmaq və ruslaşdırmaqdan ibarət idi. Ermenilər ruslardan aldıqları dəstəklə regionda özləri üçün tarixi bir səhnə açmağa başladılar. İrandan Qarabağa gələn ermenilər zamanla özlərini bu yerlərin əbədi sakinləri hesab etdilər. Ancaq 1978-ci ildə İrandan gələn ermənilər öz gəlişlərinin 150 illiyi münasibətilə Ağdərə rayonunda gəlişlərinin 150 iliyini əks etdirən abidə qoydular.

Xatırladım ki, Ağdərə rayonu 1830-cu il 8 avqustda, yerli əhalini digər ərazilərə köçürdərək Azerbaycan torpağında gəlmə ermənilər üçün salınmışdı. Ancaq müəyyən zaman sonra Ermenilər Qarabağın işğal planını hazırlamağa başladılar və ata-babalarının Qarabağda 500 il yaşadıqlarını, Qarabağın tarixi erməni vilayəti olduğunu irəli sürdülər. Ancaq bir şeyi unutdular ki, əger bunların burada 500 illik bir tarixləri olmuşdursa, məhz niyə Ağdərədə bu yerlərə gəlişlərinin 150 illiyi münasibəti ilə 1978-ci ildə abide qoymuşdular?

Bu çətin sual Ermeniləri bir daha düşünməyə vadar etdi. Çıxış yolu olaraq həmişəki kimi tarixi abidələri məhv etmək, tarixi materialları saxtalaşdırmağa başladılar. 1988-ci ildə Ağdərə rayonundakı həmin abidəni sökdülər.

Bütün bunlar göstərir ki, Ermenilərin Azərbaycan torpaqlarında məskunlaşdırılması Pyotrun böyük siyasətinin kiçik bir parçası idi. Pyotrun böyük siyasətini isə çar 1-ci Nikolay davam etdirdi. 1828-ci il martın 21-de İrəvan ve Naxçıvan xanlıqları ərazisində "Erməni vilayəti" yaradılması haqqında fərman verdi. Bu "Ermeni vilayəti "iki qəza və bir mahaldan ibarət olmalı idi. "Erməni vilayəti" Ermənistan dövləti olmasa da gələcəkdə Azərbaycan ərazisində yaradılacaq Ermənistanın təməl daşı oldu.

Rusiyan Cənubi Qafqazdakı maraqlarını təmin etmək üçün regionda, erməni-xristian blokundan istifadə etdi və Azerbaycan xalqının fəlakətinə səbəb oldu. Tekce 1-ci ve 2-ci Qarabağ müharibəsində ümumilikdə 14442 şəhid, 5000-dən artıq yaralı, 4260 itkin ilə on milyon insanın qəlbində yaraya çevrildi.

## ƏDƏBİYYAT

1. Abbasbəyli A.N., Yusifzadə S.Z. Beynəlxalq münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik. Bakı: 2009

2.Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı:1998

**ZİYA ƏHMƏDOV**
*İqtisadiyyatın tənzimlənməsi*
*Naxçıvan Dövlət Universiteti*

## VERGİ POTENSİALININ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

Vergi potensialı büdcə gəlirlərində reallaşır. Əhəmiyyətli bir məqam onun həyata keçirilməsinə nəyin təsir etdiyi sualıdır. Qeyd edək ki, vergi potensialı bir çox amillərdən asılıdır. Hər hansı bir ölkənin, regionun vergi potensialının formalaşması çoxfaktorlu prosesdir. Belə ki, təkcə regionun vergi potensialını formalaşdırmaq kifayət deyil, onun ərazinin vergi daxilolmalarında maksimum səmərəliliklə reallaşdırılması vacibdir.

Hər hansı bir ölkənin, regionun vergi potensialına təsir edən amilləri əsas və ikinci dərəcəli, xarici və daxili, sabit və dəyişən amillərə bölmək olar. Lakin bu zaman yadda saxlamaq lazımdır ki, vergi potensialının tam reallaşdırılması yalnız bütün amillərin cəlb olunması halında mümkündür.

Fikrimizcə, vergi potensialına təsir edən amilləri şərti olaraq xarici və daxili amillərə bölmək daha məqsədəuyğun olardı. Xarici amillərə dövlət təsir mexanizmləri vasitəsilə regionun vergi potensialına təsir edən və ya regionun inkişafı üçün ilkin şərtləri əhatə edən amillər daxildir. Vergi potensialına təsir edən amillərə regional və bələdiyyə orqanlarının təsir etdiyi amillər aiddir.

Xarici amillərə daxildir:

1. inflyasiya;
2. hökumət sistemi;
3. təbii-iqlim amili;
4. coğrafi amil;
5. qanunvericilik amili;
6. siyasi amil;
7. makroiqtisadi amil.

Vergi potensialına təsir edən amilləri nəzərdən keçirək.

- İnflyasiya amilləri. İnflyasiyanın təzahürü qiymət səviyyəsinin artmasıdır. İnflyasiyanın təsiri altında bütün regionların vergi bazası və müvafiq olaraq ölkənin regionlarının vergi potensialı artır, lakin bu artım xəyali xarakter daşıyır. Məhz bu baxımdan inflyasiyanın vergitutma bazasının ölçüsünə təsirini tənzimləmək məqsədilə inflyasiya əmsalında düzəliş edilməlidir.

- Vergi potensialının formalaşması və həyata keçirilməsi amili kimi hökumətin idarəetmə sistemi də böyük əhəmiyyət kəsb edir. Regionun gəlirlərinin büdcə sistemində formalaşması birbaşa olaraq dövlət idarəetmə sisteminin necə qurulduğundan asılıdır.

- Təbii və iqlim amilləri. Bu amillər Azərbaycan Respublikası subyektlərinin ilkin şərtlərini və xüsusiyyətlərini müəyyənləşdirir və buna görə də regionun vergi potensialının artmasına təsir göstərə bilməz. Bu amillərə iqlim şəraiti, təbii resursların mövcudluğu və tərkibi və s. kimi amillər aiddir.

- Coğrafi amillər. Bu amil regionun iqtisadi inkişaf perspektivlərini müəyyən edir ki, bu da öz növbəsində ərazinin resurs təminatının azalmasına və ya artmasına təsir göstərir. Həmçinin coğrafi amil regionun iqtisadi xüsusiyyətlərini və onun istehsal ixtisaslaşmasını təsvir edir ki, bu da regionun vergi potensialını müəyyən etmək üçün resurslar yaradır. Bu amili bazar mövqeyindən götürsək, o zaman müəyyən fəaliyyət növlərində regionun rəqabət üstünlüklərindən danışmaq olar. Ümumiyyətlə, qeyd edək ki, bu amil regionun vergitutma bazasının təşkili üçün ilkin şərtlər yaradır. Əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan Respublikası subyektləri vergi potensialını artırmaq üçün güclü mənbəyə malikdirlər.

- Qanunvericilik amilləri. Vergi potensialının formalaşması məsələsini tədqiq etmiş bir çox müəlliflərin fikrincə, bu amillər əsas kimi daima önə çıxır (5). Qanunverici amillərin təsiri altında regionun vergi potensialı azalıb və ya arta bilər. Qanunverici amillərin təsiri isə həm birbaşa, həm də dolayı ola bilər.

Qeyd etmək lazımdır ki, vergi qanunvericiliyi həm də vergitutmanın məcburi və əlavə elementlərini müəyyən edir. Vergi bazası və vergitutma obyekti vergi potensialının həcminə təsir göstərir. Vergi bazası və vergitutma obyekti vergi dərəcəsinə və vergi dövrünə təsir göstərərək vergi potensialının inkişafına təsir göstərmiş olur. Vergi dərəcələri və vergi güzəştləri regionun vergi potensialının formalaşmasında mühüm rol oynayır. Vergi dərəcələri iqtisadiyyatı stimullaşdırır, vergi güzəştləri isə dolayı xarakter daşıyır, yəni rayonun vergi potensialının artmasına və reallaşmasına birbaşa təsir göstərmir.

- Siyasi amillər dövlətin siyasi vəziyyətini xarakterizə edir. Siyasi amillərə hakimiyyət institutları, siyasi sistemin xarakteri, siyasi partiyaların sayı və s. aid etmək olar. Vergi siyasətinin effektivliyi hökumətin idarəetmə səviyyələri arasındakı aydın və konstruktiv qarşılıqlı əlaqədən, onlar arasında funksiya və maraqların nə dərəcədə düzgün müəyyənləşdirilməsindən asılıdır. Bu amil müxtəlif səviyyəli büdcələr arasında münasibətlərin qurulması, dövlət hakimiyyət orqanları və iqtisadi subyektlərin maraqlarını təmsil edən orqanlarla yaxşı əlaqələndirilmiş işin təşkili, büdcələrarası münasibətlərdəki uyğunsuzluqların aradan qaldırılması yolu ilə həyata keçirilir.

- Makroiqtisadi amillər. Bu amillərə qlobal iqtisadiyyatın vəziyyəti, ölkənin xarici iqtisadi fəaliyyəti daxildir.

Qloballaşma xarici ticarət, birbaşa xarici investisiyalar, qısamüddətli kapital axını, əmək resurslarının və ümumilikdə əhalinin hərəkəti, habelə beynəlxalq texnologiya mübadiləsi vasitəsilə milli iqtisadiyyatların qlobal sistemə inteqrasiyasını əks etdirir (6, s. 44).

Vergi potensialının formalaşması və həyata keçirilməsində daxili amillər, bir qayda olaraq, regionun təsirinə məruz qalır. Onlara təsir etməklə vergi potensialının azalmasına və ya artmasına nail olmaq olar. Bu amillərin xüsusiyyəti ondan ibarətdir ki, hakimiyyət orqanları regionun iqtisadiyyatına təsirini tənzimləyə bilir.

Daxili amillərə aid edilir:

1. regional qanunvericilik;
2. sosial-demoqrafik amillər;
3. resurs-xammal amilləri;
4. infrastruktur amilləri;
5. kölgə iqtisadiyyatı;
6. innovasiya amilləri;
7. ekoloji amillər;
8. investisiya amilləri;
9. mədəni amillər;
10. idarəetmə sistemi.

Bu amillərin hər birini ətraflı nəzərdən keçirək:

- regional qanunvericilik amilləri. Bu amillər Azərbaycan Respublikasının qanunvericilik orqanlarının aşağıdakı fəaliyyətlərin (və ya tədbirlərin) köməyi ilə regionun vergi potensialına təsirini əks etdirir (5):

1. Vergilərin tətbiqi. Bu metodun əsas üstünlüyü sabit və proqnozlaşdırıla bilən vəsait axınıdır.
2. Vergi dərəcələrinin dəyişdirilməsi (artırılması). Sürətli təsir bu metodun üstünlüyü, vergi yükünün artması isə mənfi cəhətdir.
3. Vergi güzəştlərinin tətbiqi. İstehsalı stimullaşdırmaq və dəstəkləmək üçün regional hökumətlər vergi dərəcələrini aşağı salmaqla stimul verə bilərlər ki, bu da öz növbəsində vergi potensialına təsir göstərir.
4. Vergi qanunvericiliyinin pozulmasına görə maliyyə sanksiyaları. Qeyd edək ki, bu günə qədər Azərbaycan Respublikasının qanunvericiliyi vergi qanunlarının pozulmasına və vergi cinayətlərinə görə kiçik sanksiyalar nəzərdə tutur.

Beləliklə, yuxarıda göstərilən hərəkətlərin köməyi ilə respublika subyektinin səlahiyyətləri təkcə büdcəyə vergi daxilolmalarına deyil, həm də bütövlükdə regionun iqtisadi iqliminə təsir göstərə bilər.

- Sosial-demoqrafik amil əhalinin təkrar istehsalı, onların sayının artması və ya azalması, əhalinin təbii və mexaniki hərəkəti, habelə sosial sferanın infrastrukturudur. Bu amil bilavasitə cəmiyyətin inkişafından asılıdır. Sosial-demoqrafik amillərə daxildir:
  a) tibb, səhiyyə, əhalinin sosial müdafiəsi, ölüm hallarının azaldılmasını təmin edən əmək şəraitinin yaradılması sahəsində tədbirlər;
  b) miqrasiya proseslərinin optimallaşdırılmasına yönəlmiş tədbirlər və s.

Sosial-demoqrafik proseslər sosial inkişafdan asılıdır və ona müəyyən təsir göstərir. Məhz bu baxımdan region əhalisi vergi potensialının məqsədlərini, tempini və istiqamətini müəyyən etməlidir.

Regionun sosial-demoqrafik amillərindən istifadənin vəziyyəti və səmərəliliyi onun iqtisadi artım imkanlarını əvvəlcədən müəyyənləşdirir. Çünki regionun iqtisadi inkişafının effektivliyi mövcud resurslardan istifadənin xarakterindən asılıdır. Sosial-demoqrafik amillərin tərkibinə, eyni zamanda, əmək amilini də aid etmək olar. Regionun əmək potensialı iqtisadi artım prosesində maddi amillərin mövcudluğunu, habelə iqtisadiyyatın real vəziyyətini və onun inkişaf perspektivlərini müəyyən edir. Əmək amili vergi potensialına malların, xidmətlərin istehlakı və vətəndaşların gəlirləri vasitəsilə təsir göstərir.

- Resurs-xammal amili regionun fiziki-coğrafi mövqeyi ilə xarakterizə olunur. Əgər region təbii sərvətlərlə zəngindirsə, bu, regionun rəqabət qabiliyyətini artıran amildir və region üçün real iqtisadi artım mənbəyidir. Buradan belə bir qənaətə gələ bilərik ki, resurs və xammal potensialı iqtisadiyyatın inkişaf imkanlarını müəyyən edir. Bundan əlavə, bu amil həm də xammalın istehsalının maya dəyərinə təsir edir, həm də məhsulların daşınması və emalı xərclərinin həcmini müəyyən edir. Parantez açaraq qeyd edək ki, istənilən regionun iqtisadiyyatı üçün öz təbii sərvətləri böyük rol oynayır.

- İnfrastruktur amili regionun nəqliyyat-coğrafi mövqeyi və onun infrastruktur təminatıdır (4, s. 113). Regionun rəqabət qabiliyyətinə inkişaf etmiş nəqliyyat infrastrukturu böyük təsir göstərir. Məhz bu baxımdan maddi-texniki nəqliyyat bazasının inkişafı üçün dəmir yolu və magistral kommunikasiya xətlərinin və hava yollarının inkişafına böyük əhəmiyyət verilməlidir (1, s. 85).

- “Kölgə iqtisadiyyatı” amili. Bölgənin vergi potensialının formalaşmasına böyük təsir göstərir. İqtisadiyyatın kölgə sektoru vergitutma potensialını azaldır. Kölgə sektorunun miqyası vergi potensialının həyata keçirilməsinə təsir göstərir və onun proqnozlaşdırılmasını və qiymətləndirilməsini çətinləşdirir, çünki kölgə iqtisadiyyatının səviyyəsi nəzərə alınmaqla əlavə düzəlişlər tələb olunur. Kölgə iqtisadiyyatına qarşı mübarizənin ən yaxşı yol və üsullarının tapılması regionların və bütövlükdə ölkənin vergi potensialını artırmağa imkan verir. Qeyd etmək lazımdır ki, regiondan asılı olaraq kölgə iqtisadiyyatının ölçüsü və vergi daxilolmalarının həcmi fərqlənir.

- İnnovasiya amili. Bu amil regionun vergi potensialının formalaşmasında mühüm rol oynayan elmi-tədqiqat və innovasiyaların inkişaf səviyyəsini və onların maliyyələşdirilməsini əhatə edir. Elmi-texniki tərəqqinin nailiyyətlərinin regionda tətbiqi investisiya mühitinin yaxşılaşdırılmasına yönəlmiş davamlı islahatların təsirini artırmağa imkan verir. Fikrimizcə, innovativ fəaliyyət respublikanın iqtisadi yüksəlişini xarakterizə edir və onun milli sərvətidir.

İnnovativ fəaliyyət iqtisadiyyatın inkişafına töhfə verir. İnnovasiyaların tətbiqi yolu ilə bazara yeni mal növlərinin daxil olmasını təmin edən, əlavə iş yerləri meydana gəlməsinə səbəb olan və son nəticədə region büdcəsinə vergi daxilolmalarına səbəb olan yeni müəssisələr yaradılır.

- Ekoloji amillər. Bu amil regionda ətraf mühitin mövcud vəziyyətini xarakterizə edir. Vergi potensialının müəyyən edilməsi zamanı vergi bazası təbiətə dəymiş zərərin məbləği ilə müəyyən olunur. Yeni landşaft sahələrinin inkişafı, daha çox torpaq sahələrinin təsərrüfat dövriyyəsinə daxil edilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması vergitutma bazasının artması hesabına aqrar sahənin vergi potensialının yüksəlməsinə səbəb olacaqdır.

- İnvestisiya amili regionun istehsal potensialı, daxili və xarici investisiyaların səviyyəsi ilə bağlıdır. Əlverişli investisiya mühiti regionun maliyyə sektoruna müxtəlif növ (daxili, xarici) investisiyaların axınına şərait yaradır və bununla da bölgənin vergitutma bazasını artırır. Bu müasir texnologiyaların tətbiqi, yeni sənaye sahələrinin yaradılması hesabına formalaşır və nəticə etibarilə

istehsal həcmlərində və əhalinin pul gəlirlərində artım müşahidə olunur.

- Vergi inzibatçılığının qurulmuş sistemini də vergi potensialının reallaşdırılmasına təsir edən amillərə aid etmək olar. Vergi inzibatçılığı – bazar iqtisadiyyatı şəraitində vergi münasibətlərinin idarə edilməsi, vergi orqanlarının fəaliyyətinin əlaqələndirilməsi üçün dinamik inkişaf edən bir sistemdir (3, s. 114).

- Vergi mədəniyyəti insan şüurunun təlm və tərbiyə prosesində işlənilmiş mürəkkəb ümumiləşdirici xüsusiyyətidir. Belə ki, vergi mədəniyyəti vergi ödəmək ehtiyacına inanma dərəcəsini və s. əks etdirir (2, s. 14). Vergi mədəniyyətinin səviyyəsini müəyyən edən əsas komponentlər vergi qanunvericiliyi və vergi inzibatçılığıdır.

Vergi ödəyicilərinin vergi mədəniyyətinin aşağı səviyyəsi onların ümumi mədəniyyətinin aşağı olması səbəbindən qanunla müəyyən edilmiş vergiləri ödəmək istəməməsi, hakimiyyət orqanlarında böyük korrupsiya hallarının olması və vergi ödəyiciləri qarşısında qoyulmuş norma və öhdəliklərə əməl edilməməsi səbəbindən dövlətə etimadsızlıq nəticəsində formalaşır. Azərbaycan vətəndaşlarının könüllü və mütəmadi şəkildə vergilərini ödəməsi üçün, fikrimizcə, maarifləndirici tədbirlər həyata keçirmək, mövcud vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində uzunmüddətli iş aparmaq lazımdır. Beləliklə, ölkəmizdə vergi ödəyicilərinin vicdanla vergi ödəmələri üçün ilk növbədə güclü dövlət formalaşdırılmalıdır. Dövlət tərəfindən ödəyicilərə yeni iş yerlərinin yaradılması, əmək şəraitinin yaxşılaşdırılması, təhsil, sosial təminat və sosial müdafiə, səhiyyə ilə bağlı ictimai mal və xidmətlərin göstərilməsi daha çox vergi potensialının miqyasından, vergi sisteminin davamlılığı və səmərəliliyindən asılıdır. Ona görə də büdcəyə vergi daxilolmalarını artırmaq üçün ilk növbədə vergi mədəniyyətinin səviyyəsini yüksəltmək lazımdır. Çünki yüksək vergi mədəniyyətinə malik hər bir vergi ödəyicisi ilkin olaraq cəmiyyətin inkişafı və əhalinin rifahı haqqında düşünəcəkdir. Son nəticədə ödəyicilərin vergidən yayınması yox, büdcənin gəlir hissəsinin doldurulması baş verəcəkdir.

Yekun olaraq belə bir qənaətə gəlmişik ki, vergi potensialının formalaşdırılması və həyata keçirilməsi üçün ilkin şərt onun həcminə təsir edən bütün amillərin ümumi formada nəzərə alınmasıdır. Vergi potensialının miqyasına və onun inkişaf qanunauyğunluqlarına bilavasitə təsir edən amillərin sıralanması regionun iqtisadi vəziyyətindən və oradakı sosial münasibətlərin inkişafından asılıdır. Bu təsnifat onları törədən mənbələrin, səbəblərin və amillərin daha dolğun uçotu əsasında vergi proqnozlaşdırılmasını həyata keçirməyə imkan verir.

## ƏDƏBİYYAT

1. Mahmudov C.İ. Naxçıvan Muxtar Respublikasında tarazlaşdırılmış və dayanıqlı iqtisadi inkişafın infrastruktur problemləri. NDU-nun Elmi əsərləri, İctimai elmlər seriyası, № 6 (107), Qeyrət, 2020, səh. 84-90.
2. Верещагин С.Г. О содержании понятия «политика налогов» // Материалы региональной научно-практической конференции «Развитие российского права и права стран АТР в условиях конституционного реформирования». Владивосток, ВГУЭС, 2004, стр. 14-18.
3. Миронова О.А., Ханафеев Ф.Ф. Налоговое администрирование. Учебное пособие, М., Омега-Л, 2008, 288 стр.
4. Петров А.В., Толкушкин А.В. Налоги и налогообложение. М., Юрайт, 2008, 816 стр.
5. http://www.dissercat.com/ content/nalogovyi-potentsial-regiona-i-ego-razvitie.
6. Чибриков Г.Г. Глобализация и ее формы. Вестник Московского Университета. Серия 6, №4, Экономика, 2006, стр. 44-58.

**AYSEL EDİLXANOVA**
*Tarix fənninin tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*aysel.edilxan@gmail.com*

# TARİX TƏLİMİNDƏ ANLAYIŞLARIN TƏŞƏKKÜLÜ

Tarixi təsəvvürlər tarixi anlayışların təşəkkül tapmasının əsasıdır. Şagirdlərin hafizəsində möhkəmlənmiş geniş obraz və mənzərələrin məzmunu zəngin olduqca onların əsasında formalaşmış anlayışlar sistemi də məzmunlu olur. Tarixi təsəvvürlərin əhəmiyyəti bununla bitmir. Keçmiş hadisələrin konkret canlandırılması, onların xüsusiyyətlərinin açılıb göstərilməsi, onların xarakteristikası və izah edilməsi, tarixi anlayışın mühüm əlamətinin seçilib ayrılması mənimsəmək üzərindəki iş kimi xüsusilə zəruridir.

Tarixi hadisələr müəyyən məkan və zaman daxilində baş verir. Tarixi faktın xüsusiyyəti onun malik olduğu zaman daxilində müəyyən edilməsidir. Yalnız hadisələrin baş verdiyi vaxtı müəyyən etdikdən sonra onların əvvəlki və sonrakı hadisələrlə əlaqəsini, səbəb və nəticələrini müəyyən etmək olar. Ümumtəhsil məktəblərində tarixin öyrənilməsi tələb edir ki, şagirdlər tarixi hadisələri zaman daxilində təsəvvür etməyi bacarsınlar, bu və ya digər hadisənin nə vaxt baş verdiyini təyin edə bilsinlər. (1, s. 57).

Vaxt haqqında təsəvvürlər tədricən V sinifdə tarix təlimi gedişində inkişaf etdirilir ki, bu zaman " boş " əsrlər hadisələrlə dolmağa başlayır, hadisələr isə xronoloji cəhətdən ardıcıl sıralara düzülürlər. Beləliklə, ibtidai sinifdə "Vətən tarixi" materialı üzərində tarixi vaxt haqqında, hadisələrin ardıcıllığı haqqında məktəblinin təsəvvürü inkişaf etdirilir.

Xronologiyanı mənimsəmək və uzaq keçmiş haqqında təsəvvürləri inkişaf etdirmək üçün vaxt lenti dərsdə tətbiq edilən mühüm vasitədir. Vaxt lentini müəllim və ya şagird asanlıqla düzəldə bilər. Lentin ağ tərəfində əsrlərin bölgüsü aparılır, sonra isə müəllimin rəhbərliyi ilə məktəblilər vaxt lentinin üzərində müxtəlif əsrlərin ən mühüm hadisələrinin tarixləri olan kiçik plakatları bərkidirlər və hər dəfə adı çəkilmiş hadisənin neçə il və ya əsr qabaq baş verdiyini hesablayırlar. Bu qayda ilə əsrlərin hesabını eramızın və ya eramızdan əvvəlki tarixin canlandırılması ilə öyrənə bilərlər.Tarixin bu bölgüsü haqqında məktəblini məlumatlandırmaq vacib və məqsədə müvafiqdir (2).

Əsrlərin alimlər tərəfindən qəbul edilmiş şərti hesablanmasını izah edərək zaman məfhumunu ifadə edən amilləri aydınlaşdırmaq zəruridir. Bu məqsəd ilə tarix dərsliklərində eramıza, həmçinin eramızdan əvvəlki tarix hesabına dair suallar, məsələlər və tapşırıqlar verilməsi mühüm metodiki işdir.

VI sinifdə "Qədim dünya tarixi" kursu keçirildiyi bütün müddətdə şagirdləri "əks" hesablamaya alışdırmaq lazımdır. Bunun üçün müxtəlif tarixi hesablamaları əks etdirən sualların verilməsi şərtdir. Məsələn, Hammurapinin (e.ə. 1792-1750) 42 il davam edən padşahlığı nə vaxt qurtarmışdır? və s.

Müəllimin müntəzəm olaraq iş aparmasına baxmayaraq, məktəblilər hələ uzun müddət xronoloji səhvə yol verə bilərlər. Çünki bu onlar üçün həqiqətən də çətindir. Əvvəllər tarix dərsliklərində bütün xronoloji materialı əhatə edən əsas və mühüm prinsip vaxt xətti hesab olunurdusa, yalnız xronologiya ilə işləmək çıxış cəhəti kimi qiymətləndirilirdisə, sonradan şagirdləri xronoloji yaddaşlar vasitəsilə sinxron cədvəlin ən sadə formasından bütün kurs üzrə yekun xronoloji cədvəlin öyrənilməsinə və sinxron cədvəllərin müqayisəsinə doğru istiqamətləndirmək əsas meyar hesab olunur. Bunların hamısı xronologiyanı dərk etmək, mənimsəmək vasitəsi hesab olmaq etibarilə adi və mürəkkəb sinxron və xronoloji cədvəllərə keçməyə imkan verir (3,s. 73).

Xronoloji tarixləri şüurlu sürətdə möhkəmləndirməyin praktikada başqa üsulları da tətbiq edilir. Bu tarixi hadisələrin uzunluq müddətinin müəyyən edilməsi ilə də ola bilər. Məsələn, Ağqoyunlu dövləti ilə Osmanlı dövləti arasında və yaxud Səfəvilər dövləti ilə Osmanlı dövləti arasında müharibələr fasilələrlə neçə il davam etmişdir? Həmçinin müasir dövrdən başlayaraq illəri hesablamaq üsulu da mövcuddur. Məsələn, Qaraqoyunlu dövləti neçə il bundan əvvəl süqut etmişdir?

Metodika xronologiyanın dərk olunaraq möhkəmləndirilməsinin müxtəlif üsullarını tövsiyə edir. Xronologiyanı mənimsəmək nəinki tarixləri yadda saxlamaq, həm də tarixi hadisələrin ardıcıllığını yaxşı təsəvvür etmək və onların arasındakı əlaqəni başa düşmək imkanı verir. Buna görə də xronoloji materialın təkrarını tarixi əlaqələr üzrə aparmaq daha yaxşıdır. Məsələn, XX əsrin sonlarında ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı öyrənərkən, XX əsrin I yarısında ermənilər tərəfindən xalqımıza qarşı törətdikləri qırğınlardan, həmçinin çar Rusiyası tərəfindən ermənilərin köçürülərək torpaqlarımızda yerləşdirilmələrindən də bəhs etmək vacibdir.

Hadisələrin təqvimləri və sadə xronoloji cədvəllər nəinki tarixləri yaddaşda möhkəmləndirməyə, həm də öyrənilən hadisənin inkişafında əsas mərhələləri aşkara çıxarmağa kömək edir.

Sinxron cədvəl ayrı-ayrı ölkələrin tarixində olan hadisələrin və ya ictimai həyatın müxtəlif cəhətlərinə aid təzahürlərin baş verməsinin eyni vaxta təsadüf etməsini əks etdirir. Sinxron cədvəllər müxtəlif ölkələrin tarixində olan hadisələr arasında əlaqələrin yaranmasını anlamağa, şagirdlərin tarixi prosesin ümumi qanunauyğunluqlarını və ayrı-ayrı ölkələrin inkişaf xüsusiyyətlərini dərk etmələrinə kömək edir (4, s. 289).

Metodistlərin fikirlərinə görə tarixi təsəvvürlər tarixi anlayışların təşəkkül tapmasının əsasını təşkil edir. Məktəblinin hafizəsində həkk olunmuş keçmişin obraz və mənzərələrinin dairəsi genişləndikcə, məzmunu zənginləşdikcə onlar əsasında formalaşmış anlayışlar sistemi də daha məzmunli və çevik olur (5, s. 132).

Tarixi təsəvvürlərin təşəkkülü ilə yanaşı tarixi təsəvvürləri yaratmaq sahəsindəki işin öz müstəqil idrak tə təhlil əhəmiyyəti vardır. K.D.Uşinski göstərirdi ki, "Daha çox bilik əldə etdikcə və bu xam materialı daha yaxşı işlədikcə idrak daha çox inkişaf edir və daha da güclü olur. Tarixi keçmişin hadisələri bilavasitə hissi qavrayış hissi kimi şagirdlərə təqdim oluna bilməz: onlar təkrar olunmur və təzələnmirlər" (6, s. 246). "Tarix materialı şagirdlərə başlıca olaraq vasitəli formada hadisələr haqqında nağıl kimi, müəllimin şifahi şərhində və dərsin mətnində verilir" (7, s. 28).

Şagirdlərdə konkret tarixi təsəvvürlər, hər şeydən əvvəl müəllimin canlı nitqinin köməyi ilə, tarix materialının müəllim tərəfindən izah edilməsi yolu ilə yaradılır. Hər bir tarix müəllimi bilir ki, tarixi hadisələr haqqında təkcə bir şifahi təsvirin köməyi ilə dəqiq və mükəmməl tarixi təsəvvürlər yaratmaq çox çətindir. Ona görə də aşağı və yuxarı siniflərdə tarix dərslərində müəllim o qədər natiq olmalıdır ki, onun tarixi hadisələr haqqında verdiyi məlumatlar şagirdlərdə olan konkret təsəvvürlərin əsası üzərində qurulmuş olsun. Bu isə müəllimin şərhi zamanı konkretləşdirmənin müxtəlif üsul və vasitələrinin köməyi ilə mümkündür.

Müəllimin canlı nitqi, onun təsirli nəqletməsi, konkretləşdirmənin müxtəlif vasitə və üsulları ilə əsaslandırılmış şəkilli təsvir, aydın xarakteristika, təsviri və maddi əyani vasitələrin tətbiqi vasitəsi, bədii ədəbiyyatdan istifadə edilməsi kimi metodlarla şagirdlərdə tarixi keçmiş haqqında canlı təsəvvür yaratmaq mümkündür (8, s. 49). Şagirdlərdə keçmiş haqqında təsəvvür yaratmaq işi təkcə tarix dərsi ilə məhdudlaşmır. Sinifdənkənar iş vasitəsi ilə də bu iş həyata keçirilməlidir.

Şagirdlərdə tarixi təsəvvürlər çox müxtəlif olur. Lakin tarixi anlayışlar hamı üçün dəqiq, aydın, birmənalı olmalıdır. Müəllim şagirdlərin anlayışlarındakı yanlışlıqları düzəltməli, anlayışlar şagirdlər tərəfindən passiv deyil, şüurlu surətdə mənimsənilməlidir. Təcrübə göstərir ki, tarixi anlayışlar o zman şüura möhkəm surətdə daxil olur ki, onlar şagirdlər tərəfindən zehni işin gedişində mənimsənilmiş olsun (9, s. 21).

Məktəb tarix kursunda tarixi anlayışların bir nüçə qrupunu göstərmək olar: tarixi hadisələri əks etdirən və ümumiləşdirən, müəyyən bir ölkənin tarixində müəyyən bir dövr üçün səciyyəvi olan xüsusi tarixi anlayışlar. Məsələn, əmirlər, sərkərdələr, iri torpaq sahibləri, onluq, minlik, yüzlük, branqar, cuvanqar və s. anlayışları türk xalqlarının tarixini əks etdirir. Xüsusi tarixi anlayışlar nisbətən sadədir və şagirdlər onları qısa zamanda başa düşürlər. Lakin bununla belə, kursu həddindən artıq xüsusi anlayışlarla yükləmək olmaz. Eyni zamanda, bu anlayışların son dərəcə məhdudlaşdırılması da tədrisi lazımi konkretlikdən məhrum edər.

Ümumi tarixi anlayışlar müəyyən ictimai-iqtisadi formasiyaya məxsus olan hadisələri əks etdirir və ümumiləşdirir. Məsələn, qullar, quldarlar. Təhkimli kəndlilər, feodallar, mülkədarlar,

proletariat, burjuaziya, kapitalistlər və s. kimi terminlər müxtəlif siniflərə aiddir. Ümumi tarixi anlayışlar ümumiləşdirmənin daha yüksək pilləsidir. Onlar şagirdlər üçün daha çətindir və dərsdən-dərsə mövzunun daxilində müntəzəm olaraq metodiki iş aparmaq yolu ilə aydınlaşdırılır. Məktəb tarix kursunda əsas və mühüm anlayışlar kimi səciyyələnən ümumi tarixi anlayışların şagirdlər tərəfindən mənimsənilməsi məcburidir (10, s.236).

Psixoloji anlayışlar tarixi prosesin ümumi əlaqələrini və qanunauyğunluqlarını əks etdirirlər. Məsələn, məhsuldar qüvvələr, istehsal münasibətləri, sinfi mübarizə, mədəniyyət və s kimi anlayışlar daha çox mürəkkəb və ümumi anlayışlardır.

Sosioloji anlayışlar yalnız tarixi anlayışlar bazasında mənimsənilə bilər. Məsələn, "siniflər" anlayışı "qullar" və "quldarlar", "təhkimli kəndlilər" və "feodallar" anlayışları əsasında mənimsənilir və insanla-şəxslə bağlı olan anlayışlardır (11, s.38).

Tarixi anlayışların təşəkkülü tarixi təsəvvürlərin əmələ gəlməsi ilə qırılmaz surətdə əlaqədardır və onların əsasında baş verir, eyni zamanda tarixi anlayışların təşəkkülü tarixi təsəvvürlər yaratmaqla qırılmaz vəhdət təşkil edir. Təlimin gedişində şagirdlərdə yaranan tarixi təsəvvürün özündə ümumiləşdirmə üçün, təşəkkül tapan anlayış üçün lazımi ünsürlər formalaşır (12, s.61). Tarixi təsəvvürlərin yaradılmasında əsas cəhət tam təsvirdir. Təsvir canlı seyretmənin o cəhətini təmin edir ki, həmin cəhət təsəvvürün canlılığı və konkretliyi üçün lazımdır. Məsələn, orta əsr sarayının tam təsvirində tipik, səciyyəvi hissələr və xüsusiyyətlər, yəni mənzərə təsviri və təhlili təsvir əsas cəhətdir.

Tarixi anlayışların təşəkkülü aşağıdakı cəhətlərin köməyi ilə yarana bilər. Tarixi hadisənin bütöv mənzərəsinin yaradılması zamanı (ifadəli nəqletmə və ya təsvir); hadisənin mühüm əlamətlərinin seçilib ayrılması yolu ilə; həmin anlayışı möhkəmləndirən termin haqqında məlumat verilməsi əsasında; anlayışın müəyyən edilməsi yolu ilə; yeni dərsin izahında və sonrakı dərsdə yeni anlayışdan istifadə etməklə, yeni termin işlətməklə; yeni anlayış üzərində əməliyyat aparmaqla, məsələn, tapşırığın verilməsi, fərdi işin tapşırılması, metodiki təcrübənin tətbiq edilməsi yolu ilə və s. (13, s. 20).

Yeni tarixi anlayışlar şagirdlər üçün yeni tarixi hadisələrin şərh edilməsi ilə eyni zamanda daxil edilə, sonra onların təhlili ümumiləşdirilməsi gedişində dəqiqləşdirilə və terminlə möhkəmləndirilə bilər. Tarixi anlayışın inkişaf etdirilməsi və zənginləşdirilməsi onun daha da konkretləşdirilməsi yolu ilə, yeni cəhətlərin digər anlayışlarla əlaqələrinin, münasibətlərinin, yeni mühüm əlamətlərinin göstərilməsi yolu ilə mümkündür (14, III).

Müəllim ictimai-tarixi hadisəni əks etdirən anlayışları tədricən açıb göstərərək və dərinləşdirərək çalışır ki, şagirdlər tərəfindən mənimsənilən bu anlayışlarda tarixi hadisələrin inkişafı, onların birindən digərinə keçməsi dialektikası öz əksini tapmış olsun.

## ƏDƏBİYYAT


1. İnteraktiv kurikulum: mahiyyəti və nümunələr. Bakı: 2005, 211 səh.
2. Ağayev S.Ə. Orta təhsilin vəzifəsi. Bakı Dövlət Universitetinin xəbərləri (Humanitar elmlər seriyası), № 2, 2008, s. 227-231
3. Korovkin F.P. V-VI siniflərdə qədim və orta əsrlər tarixi tədrisinin metodikası. Bakı: 1977, 93 səh.
4. Müəllim hazırlığının və orta təhsilin perspektivləri. Bakı: 2005. 474 səh.
5. Paşayev N. Tarixin tədrisi metodikası. Bakı: 1972, 175 səh.
6. Uşinskiy K.D. Sobranie soç., tom 7, M., 1949, 332 səh.
7. Uşinskiy K.D. Sobranie soç., tom 10, M., -L.1959, 422 səh.
8. Veysova Z. Fəal təlim metodlarına giriş kursu. Bakı: 2004, 109 səh.
9. Vagin A.A. Metodika obuçeniya istorii v şkole. M.: 1972, 472 səh.
10. Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: 2005, 395 səh.
11. Məktəb pedaqogikası (Q.İ.Şukinanın redaksiyası ilə). Bakı: "Maarif" nəşriyyatı, 1982 (Tərcümə)
12. Əsgərov Ş. Təhsilimiz dünən, bu gün və sabah. Bakı: 2000, 286 səh.
13. Təhsilin humanistləşdirilməsi yolu ilə yeni təfəkkürün inkişafı. Bakı: 1999, 60 səh.
14. Qasımov C. Yaddaşın bərpası. Bakı, 1999, 159 səh.

**NURANƏ HÜSEYNOVA**
*Tarix fənninin tədrisi metodikası və metodologiyası*
*Naxçıvan Dövlət Universiteti*
*hnurka8@gmail.com*

# TARİX DƏRSLƏRİNİN TƏDRİSİNDƏ KOMPÜTER TEXNOLOGİYASINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Bildiyimiz kimi, XXI əsr Azərbaycanın inkişafı üçün böyük imkanlar açdı. Azərbaycanda hər bir sahədə böyük tərəqqi, irəliləyiş baş verdi. Belə ki, Azərbaycan Respublikası öz siyasi və iqtisadi problemlərini həll etməklə yanaşı, təhsil problemlərinin həllini də məqsəd kimi qarşıya qoydu. Çünki hər bir cəmiyyətin inkişafı onun təhsili ilə ölçülür.

Bu gün cəmiyyətin qarşısında duran əsas vəzifə hərtərəfli inkişaf etmiş, elmi dünyagörüşə malik şəxsiyyətlər yetişdirməkdir. Eyni zamanda, hər bir demokratik cəmiyyət şəxsiyyətin müstəqil düşünmə qabiliyyətini, söz və fikir azadlığını, məsuliyyətli və tənqidi düşünmə, öz hüquq və vəzifələrini dərk etmə bacarığını formalaşdırır. Cəmiyyətin inkişafının istiqamətverici qüvvəsinə çevriləcək gənclərdə belə bir düşüncə tərzinin folmalaşdırılması üçün isə milli maraqlara cavab verə biləcək təhsil sisteminin yaranması da günün aktual problemi kimi qarşıda durur.

Demokratizmin hökm sürdüyü müstəqil Azərbaycan hökumətinin özünəməxsus təhsili və təhsil konsepsiyası vardır. Məktəblərin yenidən qurulması ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Qanunu və Təhsil Haqqında İslahat proqramları qəbul edildi. İstər Təhsil Qanunu, istərsə də təhsil haqqında İslahat proqramlarının tələblərinə uyğun olaraq Respublika Pedaqoji ictimaiyyətinin qarşısına aşağıdakı vəzifələr qoyulmuşdur:

1. Yeni insan şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafını təmin etmək
2. Şəxsiyyətin formalaşması qanunauyğunluqlarını aşkara çıxarmaq (2, s.6)

Bu səbəbdən də təlim, müasir şagirdi dövrünün həyatına hazırlamalıdır. Hər bir cəmiyyətin tam halda mövcudluğunu və inkişafını onun təlim sistemi təmin edir. Bu günkü təhsilimiz də məhz bu məqsədə xidmət edir.

Qeyd etmək yerinə düşər ki, bəzən dərsin məzmunu, adətən daha çox nəzəri öyrənilir və həyatın tələbatlarına uyğunlaşdırılmır. Bunu bütün fənlərin tədrisində görmək mümkündür. Çünki dərsin gedişində şagirdin şəxsi təcrübəsi, onun tələbatları, maraqları, qabiliyyətləri və fərdi xüsusiyyətləri nəzərə alınmır. Bu cür prosesin nəticəsində heç bir müəllim əmin ola bilməz ki, bütün şagirdlər bu bilikləri lazımi səviyyədə dərk edəcək. Şagirdin hazır bilikləri mənimsəməsi nəyinki onun təfəkkürünün inkişafı üçün stimul yaratmır, eyni zamanda idrak prosesini kütləşdirir, uşağı yaradıcılıqdan, sərbəstlik, müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlərdən məhrum edir. Nəticədə təlimin səmərəliliyi azalır, çünki onun keyfiyyəti şagirdin əqli qabiliyyətlərinin və hafizəsinin inkişaf səviyyəsi, idrak motivasiyasının olub-olmaması kimi psixoloji amillərdən birbaşa asılı olur.

Tarix fənninin tədrisində müasir dərsin imkanları çox genişdir. Bu imkanlardan mükəmməl yararlanıb tətbiq etmək üçün müəllim lazımı qədər fənnin tədris metodikasına, dərsin quruluşuna, mərhələlərinin tam və doğru əks olunmasına diqqət yetirməlidir. Təbii ki, eyni zamanda bu vacib məsələlər müəllimin hazırladığı dərs resursunda da öz əksini tapmalıdır.

Onu da qeyd edək ki, müasir təhsil şəxsiyyətyönümlü təhsildir. Müasir tədris prosesində şagirdlər fikirlərini sərbəst şəkildə ifadə edir, düşündüklərini söyləyirlər. Nəticədə şagirdlərin təfəkkürü inkişaf edir. Bu təfəkkür prosesində şagirdin özü də bir şəxsiyyət kimi formalaşır. Ona görə də bu günkü təlim şagirdlərin fəallığının tələb edilməsini bir məqsəd kimi qarşıya qoyur.

Eyni zamanda, hər bir dərsin səmərəli və maraqlı keçməsini təmin edən vasitələrdən biri də təlimdə yeni texnologiyalardan istifadə edilməsidir. Bu gün biz informasiya məkanında yaşayırıq. Bəs belə olan bir şəraitdə nəyə görə bu texnologiyalardan istifadə etməyək?

Hal-hazırda informasiyalaşdırma prosesi insan fəaliyyətinin bütün sahələrində özünü göstərir.

Belə ki, müasir informasiya texnologiyalarından istifadə edilməsi təlimə səmərəli yanaşmaların və təlim prosesinin təkmilləşdirilməsinin daha da inkişaf etməsinin vacib şərtlərindən sayılır.

İnformasiya texnologiyaları fənnin öyrənilməsinə marağı artırmağa, informasiya sahəsini genişləndirməyə, informasiyanın alınması və istifadə edilməsini sürətləndirməyə, şagirdlərin idrak qabiliyyətlərini inkişaf etdirməyə imkan yaradır. Abstrakt düşüncəyə keçid mühitdən, tərbiyə və təlimdən asılıdır, əgər düşünmək üçün obyektlər yoxdursa, onda "...intellektin inkişafı dayanır. Kompüter məhz belə obyektlərin daşıyıcısıdır"(1, s. 486).

Deməli, informasiya texnologiyalarından istifadə günün tələbidir və hər bir müəllim bu texnologiyalardan istifadə etməklə dərsin keyfiyyətini daha da artıra bilər.

Təbii ki, qloballaşan dünyamızda güclü informasiya axını, istehsal sahələrinin və texnologiyalarının dinamik yeniləşməsi, fəaliyyət sahələrinin xarakterinin sürətli və çevik növbələşməsi ictimai həyatın bütün sahələrində olduğu kimi, təlim-tərbiyə, təhsil və idarəetmə metodlarına da ciddi təsir edib. Dünya təcrübəsi göstərir ki, müasir təlimin səmərəliliyinin yüksəldilməsində yeni pedaqoji texnologiyalar və onların imkanlarından düzgün istifadə böyük əhəmiyyət kəsb edir.

Bu gün dünyada insanların əksəriyyəti müxtəlif məqsədlər üçün kompüterdən geniş istifadə edir. Xüsusən gənc nəsil üçün kompüterdən istifadə onun gündəlik fəaliyyətinin adi həyat tərzinə çevrilib. Kompüterlərin təhsil sahəsinə inteqrasiyası da bu tendensiyaları əks etdirir. Kompüterlərin təhsil sahəsində uğurlu tətbiqi yalnız onların əldə edilməsindən deyil, eyni zamanda istifadəçilərin onlarla nə dərəcədə tanış olmalarından asılıdır (4).

Kompüter texnologiyalarından istifadə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, hər hansı tarixi mövzunun tədrisində internetin imkanlarından istifadə etməklə biz uşaqlara yetərli bilik verə bilirik. Kompüter dərsləri dərsi daha məhsuldar edir, şagirdlərdə komplektləşdirmə vərdişləri tərbiyə edir. Bəzən dərslərin aparılmasında cədvəl və sxemlərdən istifadə etmək lazım gəlir. **Belə** anlarda yenə kompüter xüsusi əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi, hazır kompüter proqramları var ki, bunlar da hər zaman bizim köməyimizə çatır. Şagirdlər yeniliyi xoşlayır. Onlar müəllimlə hər görüşlərində bizdən yeni nə isə gözləyirlər. Məhz buna görə müasir dərs müəllim yaradıcılığı olmaqla onun düşüncə və fantaziyasını özündə birləşdirir. Bütün fənlərdə olduğu kimi tarixdə də interaktiv təlim metodlarını geniş tətbiq etmək mümkündür. İKT-dən istifadə bu üsulları daha maraqlı edir. Çünki internetdə dərsi maraqlı edə biləcəyimiz çoxlu sayda resurslar var.

Təlim texnologiyalardan istifadə bu günün tələbidir. Bu yolla keçirilən dərslərdə müəllim tez-tez şagirdlərlə birlikdə təlim prosesinin iştirakçısına çevrilir.

Təlim texnologiyalari təlimin gedişində olduqca zəruridir, çünki bəzi mövzular şagirdlərə tək mühazirə vasitəsi ilə tədris olunsa, bu məlumat onların hafizəsində ya qalar, ya qalmaz. Amma təlim texnologiyaları vasitəsilə öyrənilən mövzular praktik xarakter daşıyır: şagirdlərdə nəinki biliklər, eyni zamanda bacarıqlar formalaşdırır. Bu isə onları ictimai həyatda fəal vətəndaş olmağa hazırlayır.

Təhsildə İKT-nin bir faydalı cəhəti də var ki, istedadlı pedaqoqlar kompüter vasitəsilə öz tədris işlərini və yaradıcılıq fəaliyyətlərinin nəticələrini individuallaşdıra bilirlər. Müəllim standart dərsliklərdə olmayan, özü tərəfindən düşünülmüş maraqlı məsələ və tapşırıqları kompüterdə prezentasiya şəklində hazırlaya bilər. Pedaqoji praktikada toplanmış təcrübələr əsasında hazırlanmış belə materiallar digər müəllimlər üçün də çox faydalıdır. Yeri gəlmişkən, bu yaxınlarda Təhsil Nazirliyinin həyata keçirdiyi "Elektron təhsil" respublika müsabiqəsi də göstərdi ki, istedadlı müəllimlərin hazırladıqları elektron layihələr, dərsliklər, internet resursları olduqca maraqlı və dəyərlidirlər. http://musabiqe.edu.az/ saytında yerləşdirilmiş bu layihələrin çoxundan tədris zamanı əlavə elektron dərslik kimi istifadə etmək olar (3, s.8).

Təhsil sisteminin informasiyalaşdırılmasında əsas vəzifələrdən biri də ölkə miqyasında müəllimlərin, şagirdlərin, valideynlərin və təhsillə maraqlanan hər bir kəsin mənafeyinə xidmət edən, özündə təhsil-tərbiyə proseslərinin müxtəlif aspektləri barədə məlumatları cəmləşdirən vahid təhsil şəbəkəsinin yaradılması və təhsil müəssisələri arasında operativ informasiya mübadiləsinin təmin

edilməsidir.

Göründüyü kimi, İKT-nin təhsil sisteminə səmərəli tətbiq etməklə tədris prosesinə tamamilə yeni ruh, yeni nəfəs vermək, uşaqlar üçün çox cəlbedici, onların maraqlarına hesablanmış sadə və keyfiyyətli yeni təhsil modelini qurmaq olar. Lakin, bütün bunlara nail olmaq göründüyü qədər də asan məsələ deyildir.

Bu texnologiyalardan istifadənin zəruriliyini müəllimlər anlamalı və dərs prosesində bu texnologiyalardan istifadə etməlidirlər. Əlbəttə ki, müəllimlərin bir çoxu yeni təlim texnologiyalarından yüksək səviyyədə istifadə etməyə qadir deyildir. Ancaq bu texnologiyalardan istifadə müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəlməsi, onların özlərinin dəyişməsi üçün zəmin yaradır.

Bir faktla fikrimizi təsdiqləyə bilərik. Belə ki, Azərbaycan tarixinin tədrisində mövzuların tədrisi üçün müəllim bu və ya digər metoddan istifadə etməklə bütün sinfin fəallığını təmin edər, məntiqi təfəkkürün inkişafına təsir edə bilər. Həm də sərbəst düşünmə nəticəsində şagird öz fikrini çəkinmədən ifadə edə bilər. Yalnız bu yolla şagird şəxsiyyətinə təsir edər, gələcəyin təfəkkürlü gənclərini hazırlaya bilərik.

Onu da qeyd etmək yerinə düşər ki, informasiya cəmiyyəti adlandırılan və informasiyalaşdırılma prosesi ilə səciyyələndirilən müasir cəmiyyət informasiya texnologiyalarının və kompüter texnikasının mənimsənilməsi ilə müvəffəqiyyətlə inkişaf edən təhsilin nəticələri ilə əlaqəlidir. Bu da öz növbəsində təhsilin keyfiyyətini artırır, yeni informasiya mədəniyyətinin formalaşdırılmasına təkan vermiş olur.

## ƏDƏBİYYAT

1. Əmirov Mübariz Mirəziz oğlu. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). Bakı: 2011
2. Nəzərov A.M.. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı: 2012. 103 s.
3. Haqverdiyev Vüqar. Orta məktəblərdə İKT-nin rolu Rabitə dünyası.- 2010.- 30 dekabr.- s.8.
4. http://reyting.az/layihe

**ALİYƏ MƏMMƏDOVA**
*Turizm və sosial-mədəni servis xidməti*
*Naxçıvan Dövlət Universiteti*

# MƏDƏNİ İRSDƏ TURİZM AMİLLƏRİNİN ƏSASLANDIRILMASI VƏ ÖYRƏNİLMƏSİ

İstənilən turistin fəaliyyətinə aktivlik gətirən mədəni irs turizminin mənbələri arasında mühafizə olunan sahələri (arxeoloji qoruqlar, tarixi qoruqlar, şəhər qoruqları), memarlıq binaları (xatirə kimi binalar, tarixi evlər, qalalar, dini binalar, çağdaş memarlıq), tarixi yollar, müharibə meydanları, müqəddəs ərazilər, tarixi muzeylər, parklar, ərazi ilə əlaqəli mədəni cazibələr olaraq ifadə olunmaqla, fistivallar, sərgilər, qaleriyalar, vizual sənədlər (kino, teatr, musiqi, mənzərə, konsert), musiqi və dans (klassik və çağdaş) mədəni hadisələr olmaqla təşəkkül tapır. Əraziyə bağlı olan mədəni cəlbedicilər turisti olduqları məkana cəlb etməklə, mədəni hadisələrin yeri adətən dəyişilməsi ilə xarakterik olmaqdadır. Bu, turistlərin getdikləri yerə turist gətirməsi ilə izah oluna bilər.

Beynəlxalq birlik ümumdünya mədəni irsinin mühafizəsi, qorunması probleminin vacibliyini artıq çoxdan dərk etməkdədir. Ötən əsrin ortalarından başlayaraq dünya ictimaiyyəti mədəni irsin mühafizəsi məsələlərinə xüsusi qayğıkeşliklə yanaşmağa başladı ki, bu da öz əməli təzahürünü qəbul olunmuş beynəlxalq əhəmiyyətli sənədlərdə tapır. Xüsusilə qəbul edilmiş konvensiyalarda mədəni irs və dəyərlərin beynəlxalq-hüquqi prinsip və normaları müəyyənləşmiş, bəşəriyyətin mədəni-tarixi nailiyyətlərinin qorunmasında hər bir dövlətin milli tələbləri, maraqları normal şəkildə öz yerini tutmuşdur (2).

İstənilən halda, maraq sahəsi çox böyük olan mədəni irs turizmi əsasən tematik xüsusiyyətərə malik olarak alt qruplar üzrə sistemləşir. Eyni zamanda, tarixilik mahiyyətinə görə təşəkkül tapma ve qədimi binalar baxımından xronoloji mənada olmaqla, qədim dövrlərə xas olan turizm, neolitik dövrü üzrə turizm, arxeoloji mahiyyətə malik olan turizm, tarixi xüsusiyyətlərə görə turizm öz özlüyündə mədəni turizmin təşkilində baza rolunu oynayırlar. Mədəniyyətin xüsusi bir elementi olan inanc, müqəddəs ərazilərə və dinlə bağlı binalar, ayinlər inanc turizmi adı ilə mədəni irs turizminin daxilində öncüldürlər. Bunlara həmçinin ənənəvi biliklər olaraq da baxılır (3).

Ənənəvi biliklər - ənənəyə əsaslanan əqli yaradıcılıq fəaliyyətinin nəticəsi olan və nəsildən-nəslə ötürülərək qorunub saxlanılan sənaye, elm, ədəbiyyat və incəsənət sahəsindəki yeniliklər və yaradıcılıq nəticələri (5).

Mahiyyətinə görə siyaset mədəni turizmin daxilində hərbi turizm olaraq mövcud olur. Hazırkı prioritetlər müstəvisində olmaqla özünü sübut edə bilməyən cəmiyyətlər etnik turizm daxilində var olur. Tematik xüsusiyyətlərinə görə mədəni irs turizmi daxilində mətbəxt turizmi, üzümçülük turizmi və ya içki turizmi olaraq da ifadə oluna bilər. Yaradıcı və ya başqa bir adı ilə kreativ turizm isə turistlərin mədəni aktivliklərində iştirak etməsini göstərir. Bir sözlə, turistlər müxtəlif mədəniyyətlərin həqiqətən daxilində araşdırılırlar. Hər hansı bir əl işini, məsələn, sümükdən bir saçyığan, palçıqdan bir meyvə qabı, ağacdan bir hədiyəlik əşya, gəbə toxuma, süfrə hazırlamaq, pendir, içki, duru yağ və başqa məhsullar düzəltmək kimi.

Mədəniyyət elmi və nəzəri mahiyyətinə görə iki formada təzahür etməklə, turizmin maraq sahəsinə daxil olmaqdadır:

- birinci, mədəniyyətin müddət olaraq turizmə təsir etməsidir. Mədəniyyət, müddət olaraq araşdırılmağa maraqlı insanları fəallaşdırır. Mədəniyyətin din, sosial, tarix, araşdırma, sənət tarixi, coğrafi, arxeoloji, ənənələr və başqa xüsusiyyətləri turistə stimul verər və onu çevikləşdirər;
- ikincisi, mədəniyyətin turistə məhsul olaraq təqdim olunmasıdır. Həmin mədəni ərazilərin turizm prizmasından tənzimlənməsi, əsasən hədiyəlik əşya istehsalı və başqa yollarla təmin olunmuş olur (32, s. 25).

Hadisələrin gedişi göstərir ki, mədəni irs turizmi, mədəniyyətlər arasındakı müxtəlifliklərdən yaranmışdır. Mədəni irs turizmi bir qayda olaraq, insanların müxtəlif mədəniyyətlərə olan maraq, tərəfdaşlıq, cəlbedicilik hisslərini məmnun etmək, müxtəlif mədəniyyətlərin şahidi olmaq,

mənimsəmək, mövcud olmaqla, elmini artırmaq məqsədilə etdiyi gəzintilərdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2004.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı.
3. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanı.
4. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: 2005, 251 səh.
5. Abbasov N. Ə. Mədəniyyət siyasəti və mədəni irs. Kulturoloji təhlil. Bakı: 2011, 220 s.
6. Abbasov N. Ə. Mədəniyyət siyasəti və mədəni dəyərlər. Kulturoloji təhlil. Bakı: Təknur, 2009, 444 s.
7. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. II c. XIX əsrin əvvəllərindən 1917-ci ilə qədər. Bakı: Azərb. SSR EA nəşr., 1960, 902 s.

**FAİQ ABDULLAYEV**
*Dövlət qulluğunun təşkili və idarə edilməsi*
*Naxçıvan Dövlət Universiteti*

# DÖVLƏT QULLUQÇULARININ PEŞƏKAR İNKİŞAFINDA TƏLİM VƏ FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

Hər bir dövlət orqanının ehtiyacların qiymətləndirilməsinin aparılması üçün öz meyarları var. Bundan əlavə, Komissiya sorğular keçirir, dövlət qulluğu ilə bağlı ən aktual məsələləri nəzərə alır, dövlət orqanlarının konkret müraciətlərini təmin etmək üçün kurslar təşkil edir. Gözlənilir ki, fəaliyyətin qiymətləndirilməsi (2014-cü ildə başlayıb) təlim ehtiyaclarını qiymətləndirməyə kömək edəcək. Komissiya Aİ, GIZ (Gesellschaft für Internationale Zusammenarbeit – Alman Əməkdaşlıq Agentliyi) və BMTİP (Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı) əməkdaşlığı ilə onun nəzarəti altında ixtisaslaşmış təlim mərkəzinin yaradılması üzərində işləyir. Mərkəzin məqsədləri dövlət qulluqçuları üçün daha sistemli, planlı və peşəkar kursların təşkili, təlim strategiyasının hazırlanması, əlavə təhsil haqqında qanunvericiliyin daha da təkmilləşdirilməsidir. SİGMA-nın (2013a) hesabatına görə, Azərbaycanda dövlət qulluqçularının fikrincə, təlim və peşəkar inkişaf yüksək bal almır. Hesabat üçün aparılan işdən məmnunluq sorğusunda respondentlərin üçdə birindən çoxu qeyd edib ki, rəhbər işçiləri onların peşəkar inkişafı ilə maraqlanmır və ya qismən maraqlanır. Bu rəqəm dövlət qulluqçularının təlimlərdə iştirak səviyyəsinin aşağı olmasını qismən izah edə bilər. İşçilərin yalnız 16,8%-i müntəzəm olaraq təlimlərdə iştirak edir; 31,7%-i həmkarları ilə növbələşir, 51,5%-i isə məhdud şəkildə təlimlərə cəlb olunub. Xülasə, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya təlim ehtiyaclarını müəyyən edir və dövlət qulluqçularının hazırlanması strategiyasını hazırlayır. Qanunvericilik mövcuddur və təlim kursları təmin edilir, lakin ehtiyacların qiymətləndirilməsi, fəaliyyətin qiymətləndirilməsi ilə təlim arasında əlaqə və daha əhatəli təlim strategiyası sahəsində təkmilləşdirmə üçün imkanlar var. Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın nəzarəti altında tədris mərkəzinin yaradılması hökumətin hazırda atdığı yaxşı addımdır. [3]

*Fəaliyyətin qiymətləndirilməsi*

Dövlət Qulluğu haqqında Qanun (maddə 30) və Komissiyanın 12/2014 saylı Qərarı fəaliyyətin qiymətləndirilməsini tənzimləyir. Bu reqlamentə əsasən, dövlət qulluqçularının fəaliyyəti altı aydan artıq vəzifədə qulluq etmiş şəxslər üçün hər təqvim ilinin sonunda qiymətləndirilməlidir. Dövlət qulluqçusunun fəaliyyətinin qiymətləndirilməsini birbaşa rəhbər həyata keçirir. Nəzarətçi dövlət qulluqçusunun fəaliyyəti haqqında hesabat tərtib edir və təsdiq üçün müvafiq bölmə rəhbərinə təqdim edir. Dövlət qulluqçusu qiymətləndirildikdən sonra nəzarətçi qiymətləndirilən şəxslə onun fəaliyyəti, təlim ehtiyacları və peşəkar inkişaf üçün fərdi planlar barədə müzakirələr aparır. Müsahibə zamanı dövlət qulluqçusu öz fikrini bildirərkən ona heç bir təsir və ya təzyiq göstərilməməlidir. Dövlət qulluqçusu fəaliyyətin qiymətləndirilməsi ilə bağlı öz fikrini bildirməyə borcludur və bu rəy fəaliyyətin qiymətləndirilməsi formasına daxil edilməlidir. Birbaşa rəhbər dövlət qulluqçusu tərəfindən bir il ərzində yerinə yetirilməli olan fəaliyyətlərdən ibarət (hədəflərlə bağlı) tapşırıqlar qoyur. Dövlət qulluqçularının fəaliyyəti peşəkar biliklərə əsasən qiymətləndirilir; rəsmi vəzifələrə münasibət; təhlil etmək, problemləri həll etmək və qərar qəbul etmək bacarığı; yaradıcılıq və təşəbbüs; iş intizamı; iş təcrübəsi və iş təcrübəsinin mübadiləsi; komandada işləmək bacarığı; və digər meyarlar. Bu formal meyarlar fəaliyyəti qiymətləndirir, qiymətləndirmə tapşırığı isə faktiki fəaliyyətə deyil, bilik, bacarıq və səriştələrə istinad edir. Bu baxımdan qiymətləndirmə bir növ attestasiyaya daha yaxın hesab edilə bilər. Fəaliyyətin qiymətləndirilməsi nəticələrinin vəzifədə yüksəlmə, yüksək vəzifə tutmaq üçün ehtiyat kadrlar siyahısına yazılmaq, mükafatlandırma, təlim ehtiyaclarının müəyyən edilməsi, digər oxşar vəzifəyə təyinat və aşağı vəzifəyə təyin edilməsi üçün istifadə edilməsi nəzərdə tutulur. Məsələn, dövlət qulluqçusu iki il ardıcıl olaraq əla qiymət qiyməti alırsa və müvafiq vakant vəzifə açıqdırsa, dövlət qulluqçusunun vəzifəsi bölmə rəhbəri tərəfindən irəli sürülə bilər. Ardıcıl dörd il ərzində yaxşı nəticə əldə etdikdə yüksəlmə üçün və ya qiymət qənaətbəxş olarsa,

sonrakı inkişaf üçün müfəssəl qaydalar mövcuddur. Ardıcıl iki il ərzində qeyri-qənaətbəxş fəaliyyət səviyyəsi aşağı düşməyə səbəb ola bilər. [5]

Nəzəri olaraq, qiymətləndirmə dövründə birbaşa rəhbər dövlət qulluqçusunun fəaliyyətinə gündəlik olaraq nəzarət edir, oriyentasiya və tövsiyələr verir. Rəhbər rüblük olaraq tabeliyində olan işçilərin fəaliyyətini təhlil etməli, həmin təhlil əsasında qeydlər aparmalı, rübün nəticələrini yoxlamaq üçün dövlət qulluqçuları ilə görüşlər keçirməli, güclü və zəif tərəfləri müzakirə etməli, qarşıdakı rüblərdə qarşıya qoyulan problemlərin aradan qaldırılması üçün atılacaq addımları müəyyən etməlidir. hər hansı zəifliklər. Sistemin praktikada həyata keçirilməsi bir qədər zəhmətlidir. 2014-cü ilin sonunda bütün dövlət qulluqçularının yarısından dörddə üçününə qədərinin fəaliyyətinin qiymətləndiriləcəyi gözlənilir. Fəaliyyətin qiymətləndirilməsi haqqında əsasnamə 3-7-ci təsnifatlar üzrə inzibati vəzifələri tutan dövlət qulluqçularına şamil edilir. Xülasə, Azərbaycanda qiymətləndirmə sistemi hələ başlanğıc mərhələsindədir. "Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi Qaydaları" 2014-cü ilin fevralında təsdiq olunduğundan və 2014-cü ilin mayında qüvvəyə mindiyindən sistemin necə işləməsi ilə bağlı praktiki təcrübə hələlik mövcud deyil. Sistem nəzarətçi və qiymətləndirici arasında müsbət dialoq elementləri təklif edir ki, bu da onlara fəaliyyətin yaxşılaşdırılmasına diqqət yetirmək imkanı verir. Sistemin iki dezavantajı qiymətləndirmədə fəaliyyətin kifayət qədər aşağı uyğunluğu və rüblük qiymətləndirmələrin aparılması ilə əlaqədar iş yüküdür.

## ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı: Azərnəşr, Hüquq ədəbiyyatı, 2009, 296 s.
2.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 48 s.
3.Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2000-ci il tarixli "Dövlət qulluğu haqqından Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Fərmanı, s.33-37 //
4.Dövlət qulluğu haqqında sənədlər toplusu. Bakı: Qanun, 2008, 316 s.
5. Azərbaycan Respublikası Prezidentinin 3 sentyabr 2001-ci il tarixli "Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsilə qəbul qaydalarının təsdiq edilməsi barədə" Fərmanı. s.115-119 // Dövlət qulluğu haqqında sənədlər toplusu. Bakı: Qanun, 2008, 316 s.

**HƏBİB MEHDİYEV**
*Turizm və sosial-mədəni servis xidməti*
*Naxçıvan Dövlət Universiteti*
*hebib.mehdiyev@mail.ru*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA PERSPEKTİVLİ TURİZM NÖVLƏRİ

Naxçıvan Muxtar Respublikası geniş turizm imkanlarına malikdir. Turizm potensialının beynəlxalq aləmdə tanıdılması, muxtar respublikada turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar açır. Çoxçeşidli turizm potensialına əsasən deyə bilərik ki, muxtar respublikada tarixi-mədəni, dini, müalicə, kənd-yaşıl, ekoloji turizm növləri inkişaf edib.

İstənilən ölkənin turizm potensialından danışarkən, ilk növbədə, tarixi-mədəni irs ön plana çıxır. Bu baxımdan Naxçıvanın minilliklər tarixinin və qədimliyinin ölçülməsi, dünya memarlığının incisi sayıla biləcək ərazidə tarixi memarlıq abidələrinin, zəngin mədəni irsin olması əcnəbi turistlərin böyük marağına səbəb olur. Nuh peyğəmbərin türbəsi, Möminə Xatın və Yusif Küseyr oğlunun məqbərələri, Naxçıvanqala abidəsi, Qarabağ Memarlıq Kompleksi, "Xanəgah" Abidə Kompleksi, Nuhun gəmisinin adını daşıyan Gəmiqaya ərazisində qayaüstü rəsmlər, əfsanəvi "Əshabi-Kəhf" Ziyarətgahı Qurani-Kərimdə adı keçən Abidə Kompleksi, 5000 ildən artıq yaşı olan Naxçıvan şəhər mədəniyyəti, qədim tikililər, qalalar, yaşayış məskənləri və nekropollar, qorunub saxlanılan xalq sənətkarlarının sənət əsərləri və s. turistlər üçün cəlbedicidir. Buraya Naxçıvan bölgəsinin zəngin folkloru, musiqi və təsviri incəsənəti, ədəbiyyatı və s. Bundan əlavə, onun tarixi-mədəni turizmin inkişafı üçün böyük potensiala malik olduğu aydındır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən, ümumilikdə 1202 daşınmaz tarix və mədəniyyət abidəsi, o cümlədən 700-ə yaxın dünya və ölkə əhəmiyyətli abidə dövlət qeydiyyatına alınıb. Səyyar tarix və mədəniyyət abidələrinin qorunduğu muzeylər turistlərin böyük marağına səbəb olur. Naxçıvan Muxtar Respublikasında 28 muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir. Bəşəriyyət tərəfindən tamamilə qəbul edilən Naxçıvan ərazisində Nuh peyğəmbərin məqbərəsinin olması, "Əshabi-Kəhf" ziyarətgahının yerləşməsi turistləri cəlb edən əsas amillərdəndir. Naxçıvanın 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi də onun zəngin tarixi və mədəniyyəti ilə bağlıdır [1].

Zəngin təbii sərvətlərə malik Naxçıvan Muxtar Respublikası həm də təbii müalicəvi obyektləri ilə məşhurdur. Bu müalicə müəssisələrində dünyanın hər yerindən insanlar sağalır. Muxtar respublikamızda müalicə turizminin inkişafı üçün böyük potensial var. Azərbaycanın mineral su ehtiyatının 60 faizi muxtar respublikanın payına düşür. Bəzi mineral sular müalicə üçün vacibdir (Sirab, Darıdağ, Badamlı və s.). Təbii müalicə obyekti Duzdağın bir sıra xəstəliklərin müalicəsində əvəzsiz rolu var. Bundan başqa, Culfa rayonunda yerləşən Darıdağ Arsenli su klinikasında bir çox xəstəliklər müalicə olunur. Dünyanın bir çox yerindən xəstələr buraya gəlirlər. Bu təbii müalicə vasitələrinin bir neçəsindən çoxu muxtar respublikada (Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Xəstəxanası) uğurla istifadə olunur. Bu baxımdan müalicə turizminin inkişafı üçün böyük potensial var.

Naxçıvanda böyrək daşlarının müalicəsində istifadə olunan mineral su mənbələri arasında Şahbuz rayonu ərazisindəki "Böyrək suyu" adlanan bulaq böyük əhəmiyyət kəsb edir. Bulaq suyunun qablaşdırılması və kütləvi istifadəsi üçün zavod var. Bu suyun dörd növ böyrək daşının əmələ gəlməsinə səbəb olması elmi olaraq təsdiqlənib. Qeyd edək ki, xarici ölkələrin heç birində belə mineral su yoxdur. Naxçıvandakı radon və kükürdlü suların analoqlarına xarici ölkələrdə də rast gəlmək olar. Daxili orqanların müalicəsində möcüzəvi rolu olan dəmir suyu haqqında da eyni sözləri demək olar. Dəmir suyu qaraciyər üçün dərmandır. Qazlı su mədə-bağırsaq xəstəliklərinin müalicəsində, iltihabi faktorların aradan qaldırılmasında istifadə edilə bilər. Bu sulardan təkcə müalicə zamanı deyil, həm də bərpa zamanı istifadə etmək olar. Naxçıvanda 250-dən çox mineral su mənbəyi var. Sirab və Badamlı kimi mineral sulardan da süfrə suyu kimi istifadə olunur [4, s. 43].

Duzdağ Fizioterapiya Mərkəzi 1979-cu ildən Naxçıvan Duz Mədəniyyət Bazasında 50 çarpayılıq xəstəxana kimi fəaliyyət göstərir. Tələbat nəzərə alınaraq 1983-cü ildə çarpayıların sayı 100-ə çatdırılmışdır. Fizioterapiya mərkəzində qeyri-spesifik tənəffüs yollarının xəstəlikləri müalicə olunur. Əsasən bronxial astma, yoluxucu allergik formalar, xroniki bronxitin müxtəlif formaları müalicə olunur. Müalicə çox sadədir. Yeraltı mədənlərdə köhnə duz mədənlərində yataqda gecələyən xəstələr burada şəfa tapırlar.

Ekoturizm və ya ekoturizm təbiət turizminin bir forması kimi ətraf mühitə qayğı ilə bağlı turizm növüdür. Ekoturizm ətraf mühitin vəziyyəti və yerli təbiətlə tanış olmaq, bütün bunları daha dərindən öyrənmək və anlamaq üçün təbiət ərazilərinə məqsədyönlü səyahətdir. Ekoturizm turizm fəaliyyətinin yerli əhali ilə qarşılıqlı əlaqəsidir. Təbii bulaqları və gölləri olan muxtar respublikamızda ekoturizmin inkişafı üçün əlverişli imkanlar vardır. Naxçıvanın bənzərsiz mənzərələri, füsunkar yerləri haqqında çox yazılıb. Ekologiyaya göstərilən diqqətin nəticəsidir ki, yaz-yay aylarında muxtar respublikanın bütün yaşıllıq və meşə zolaqları, çay sahilləri ekoloji turizm həvəskarları ilə dolur. Batabat yaylası bu diyarın dillər əzbəri olduğu cənnət məkanlarından biridir. Şahbuz rayonu ərazisində, Naxçıvan şəhərindən 65 km aralıda, dəniz səviyyəsindən 2445 m yüksəklikdə yerləşən Batabat yaylası da ekoloji turizm üçün əlverişli hesab olunur. İsti yay günlərində bu əraziyə çoxlu insan axını olur. Ərazinin dərman bitkiləri ilə zənginliyi, təmiz havası burada kurort kompleksinin yaradılması üçün böyük perspektivlər yaradır. Füsunkar təbiəti ilə məşhur olan Batabat yaylası gül çəmənlikləri, təbii gölü, sadə və təmiz dağ havası, meşələri, Zorbulaq, Südlübulaq kimi bulaqları ilə məşhurdur. Ərazidəki Batabat gölü dünyada üzən adası olan yeganə göl kimi diqqət çəkir [2].

Azərbaycan Respublikasının və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təbii sərvətlərinin öyrənilməsi və aşkarlanması və insanların istifadəsinə verilməsi son dərəcə vacibdir. Naxçıvanın təbii bulaqları və gölləri ekoturizmin inkişafı üçün çox əlverişlidir.

Həyata keçirilən tədbirlər çərçivəsində kənd turizminin yaradılması da diqqət mərkəzində saxlanılır. İnsanlar artıq şəhərin sıxlığından və iqlimindən əziyyət çəkərək ucqar rayonlara köçürlər. Muxtar respublika ərazisinin bu baxımdan böyük potensialı var. Ucqar dağ qəsəbələrindən biri olan Şahbuz rayonunda dağların qoynunda yerləşən "Batabat" restoranının ərazisində hər bir şəraiti olan kotteclər bura gələnlərin sərfəli qiymətlərlə dincəlməsinə, mənəvi rahatlıq tapmasına şərait yaradır.

Muxtar respublikanın kənd-yaşıl turizm potensialını artıran mühüm obyektlərdən biri də Şahbuz rayonunun eyniadlı kəndində fəaliyyət göstərən Ağbulaq İstirahət Mərkəzidir. Kənd dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşir. Buna baxmayaraq, kənddə meyvəçilik, tərəvəzçilik, arıçılıq və heyvandarlıq inkişaf etdirilir. Bu, turistləri ekoloji cəhətdən təmiz qida ilə təmin etməyə imkan verir. Burada təklif olunan münasib qiymətlər və xidmətlər qonaqları razı salır. Yaradılan hərtərəfli şərait fonunda Ağbulaq İstirahət Mərkəzinin xidmət səviyyəsi doğrudan da nümunəvi turizm obyekti təsiri bağışlayır.

Turizmin ən qədim növlərindən olan dini turizm insanların dini inancları ilə əlaqələndirilir. Muxtar respublikada bütün dini ocaqlar müxtəlif dini ayinlər və bayramlar üçün ziyarətgah kimi dindarlar tərəfindən ziyarət edilir. Bu ibadət ocaqlarını Azərbaycanın bölgələrindən və müxtəlif müsəlman ölkələrindən çoxlu zəvvarlar ziyarət edirlər. Əshabi-Kəhf Naxçıvan Muxtar Respublikasının ziyarət mərkəzi hesab olunur. Hər gün yüzlərlə zəvvar bu dini kompleksi ziyarət edir və Allah yolunda qurbanlar kəsirlər. Ocaqlar, ziyarətgahlar möminlərin təsəlli yeri hesab olunur [3].

Məlumata görə, Naxçıvan Muxtar Respublikasında dini ocaqları ziyarət edən turistlərin sayı ildən-ilə sürətlə artır. Eyni zamanda, dövlətin bu obyektlərə xüsusi diqqət yetirməsi həmin obyektlərin turizm məqsədilə istifadəsinə geniş imkanlar yaradır. Son vaxtlar muxtar respublikada aparılan quruculuq işləri, infrastruktur və kommunikasiya sistemlərinin yenidən qurulması bu imkanları daha da artırıb.

Həmçinin respublika rəhbərliyinin təşəbbüsü ilə Naxçıvan şəhərində Nuh peyğəmbərin məzarının açılışı və məqbərəsinin tikilməsi çox mühüm hadisə sayıla bilər. Bütün bunlar muxtar respublikada dini turizmin inkişaf perspektivlərindən xəbər verir.

Bütün bunları nəzərə alaraq, qeyd edə bilərik ki, Naxçıvan Muxtar Respublikası sahib olduğu

zəngin turizm potensialı və bu sahəyə göstərilən diqqət və qayğının nəticəsində yaxın gələcəkdə məşhur turizm məkanlarından birinə çevriləcək.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V., Quliyeva F. Naxçıvanın tarixi abidələri. Bakı: Nurlan, 2017, 212 s.
2. Q.Ş.Məmmədov. Azərbaycan: ekoturizm potensialı: II cild. Bakı: 2012
3. Dini turizm obyektləri. "Əshabi-Kəhf ziyarətgahi" dini-mədəni abidə kompleksi. http://turizm.nakhchivan.az/index.php/template/
4. Azərbaycanda sağlamlıq turizmi- cari vəziyyət və inkişaf perspektivləri hesabatı. 2021.

**ÜLVİYYƏ MEHDİYEVA**
*Turizm və sosial-mədəni servis xidməti*
*Naxçıvan Dövlət Universiteti*
*ulviyya14@gmail.com*

# TURİZMDƏ QİYMƏT MEXANİZMİNİN FORMALAŞMASI VƏ DƏYİŞMƏSİ XÜSUSİYYƏTLƏRİ

Turizmdə qiymət mexanizminin formalaşması - Təbii olaraq, bazar münasibətləri mühitində istənilən bir şirkətin ticarət müvəffəqiyyəti xüsusilə onun əmtəə və xidmətlərin doğru müəyyən olunmuş mexanimzlərindən və reallaşmasından ibarət olur. Burada, qiymətləndirmənin qarışıqlığı, qiymətin vəziyyətindən asılı olmaqdadır. Həmçinin qiymətin miqyasına ictimai-siyasi, sosial-iqtisadi, mədəni-psixoloji və hüquqi məsələlər sistemi zəruri miqyasda təsir göstərmiş olur. İndiki zamanda qiymət, turizm tədbirləri məhsulun yaradıcısı ilə alıcısı arasında bağlılıq təşkil edən, eyni zamanda həm tələb, həm də təklif üzrə nizamlılığına təminat yaradan bir struktur olaraq özünü göstərir.

Nəzəri baxımdan, qiymətqoyma, istehlak bazarında məhsulun keyfiyyətindən, əhalinin sosial müdafiəsi, dövlətin iqtisadi mənafeyindən irəli gələn, istehsalçılar və istehlakçılar üçün əlverişli prinsiplər əsasında qiymətlərin formalaşmasını ifadə etməkdədir.

Bununla da, turizmdə qiymət, istənilən bir turizm əmtəəsi və ya xidməti üzrə qiymət müəyyən etmə fəaliyyətini ifad edir. Həmin proseslərdə qiymət turizm fəaliyyətinin həcminin pul ifadəsi olaraq çıxış edir. Yəni, qiymət miqyası müəssisənin gəlirlərini, sağlam rəqabət keyfiyyətlərini və maliyyə dayanıqlılığını ifadə edir.

Etibarlı turizm bölməsində qiymət bir sıra amillərə sahib olur. Həmin amillər bunlardır:

1. davamlı turist proseslərinə ehtiyac alıcının fərdi keyfiyyətlərindən asılıdır. Beləliklə də, göstərilmiş olan xidmətlərin dəyirini müəyyən edərkən bir sıra social-psixoloji amilləri diqqətdə saxlamaq zəruridir: dəyər potensial istehlakçılar üzrə neqativ təsirlər etməməlidir;
2. bir qayda olaraq, rurizm bölməsində müddətli qiymət müxtəlifliyi xidmətlərin yaradılması, reallaşması və əldə olunması işləri zamanla uyğun olduğuna görə icra olunur. Burada, tələb və ona əsasən də xidmətlərin dəyərləri sərbəst müddətli cəhətlər üçün səciyyəvi olur;
3. yenilikçi turist prosesləri istər daxili, istərsə də xarici bazarlarda reallaşdığına görə məhsuldarlıq və normallaşdırma dəyərləndirilərkən qlobal tələblər diqqətdə saxlanılmalıdır;
4. hansısa bir əmtəənin dəyərinə birbaşa məhsul növü olmayan, həmçinin, fəaliyyətin nəticəsi olmayan, ancaq təbiət vasitəsilə təşkil olunan istehlak mexanizmləri daxil olunmalıdır.

Bir qayda turist əmtəəsinin dəyəri şəxsi turist proseslərinin qiyməti və onlara olan alıcı ehtiyacı ilə təyin olunur.

Qeyd olunanlar, öz özlüyündə bəzi mexanizmlərdən ibarət olmaqdadır: proseslərin təsnifləşdirilməsi, müvafiq nəqliyyat forması, təyin olunmuş xidmət növü, proseslər üzrə bazar amilləri, müddətlilik, reklam proseslərinin əmərəliliyi və s.

Bununla da, nəticə etibarı ilə, əldə olunan ticarət məsələləri turizm müəssisəsinin qiymət mexanizmindən asılı olur və doğru müəyyən olunmuş qiymət idarəetməsi istər turizm əmtəələrinin rəqabət keyfiyyətində, istərsə də ümumilikdə müəssisənin işlərində uzun dövrlərə xas olmaqla, həlledici təsirə sahib olur.

Müvafiq qiymət mexanizmi tərtib olunarkən diqqətdə saxlanılmalı olan olduqca zəruri məsələlərə bunlar aid olunur:

1. əlaqəli təklif və tələb müqayisəsinin reallaşması;
2. sağlam rəqabətə əsaslanan qiymət siyasətinin miqyası və dinamikası;
3. etibarlı dovlət nizamlanmasının həyata keçirilməsi;
4. çoxsaylı alıcı kütləsinin nəzərə alınması.

Uyğun bir qiymət mexanizmi təşkil etmək məqsədilə şirkət ilk olaraq qiymət məqsədlərini

təyin etmək zəruridir. Mənafelər şirkətin bazardakı yerini və bazardakı məcmu hədəflərinin əsaslandırılmasından yaranmış olur. Elə bu, səbəbdən də, qiymət mənafeləri fərqli hesab olunmamalıdır. Belə ki, onlar şirkətin marketinq idarəetməsinin müvəffəqiyyətli reallaşmasına dəstək olmaq məqsədilə tamamlanmışdır .

İstənilən bir qiymət mexanizmi fərqli hədəflərə çata bilər:

1. Birmənalı olaraq, həyat şəraitini qurmaq – mövcud bazarda müəssisənin strateji məqsədi yaşamağa davam etməyin təmin olunmasından ibarət olur. Şirkətin fəaliyyət göstərməsi və əmtəələrin marketinq xidmətini yaratmaq məqsədilə müəssisələr alıcıların pozitiv münasibətini nəzərə almaqla ucuz qiymətləri müəyyən etmək zorunda qalır. Məsrəflərin tərkibinin hər tərəfli izahı qiymətlərin təkcə bazar yanaşmasının mühafizə olunması məqsədilə yox, minimum gəlir qazanmaq məqsədilə məqsədlərin müəyyən olunmasını reallaşdırmış olur.

2. Hazırkı gəlirlərin artmasına nail olmaq – Əksər müəssisə hazırkı gəlirlərini artırmağa səy göstərir. Fərqli qiymət miqyasları məqsədilə tələb və məsrəflərin dəyərləndirilməsini reallaşdırırlar. Hazırkı gəlirlər, pul ehtiyatlarının hərəkətini yüksəltmiş olan və məsrəflərin təmin olunmasını yüksəyə catdıracaq bir qiymət müəyyən edirlər. Ümumi bu kimi vəziyyətlərdə müəssisə üzrə hazırkı maliyyə amilləri uzun dövrlü olmaqdan çox zəruridir.

3. müvafiq bazar üzrə liderliyin əldə olunması – bir sıra şirkətlər lider olmağa can atır. Çox iri bazar həcmi olan müəssisənin çox aşağı məsrəflərə və çox uzun zamanlı gəlirlərə malik olacağına ümid edirlər. Bu mənada, bazar həcmi prizmasından liderliyə nail olaraq, nail olunan ən yüksək qiymət azalmasına razı olurlar. Bununla da, turizm bölməsində yeni idarəetmənin hədəfləri yeni əmtəələrin yaşam tsiklinin ən tez hissəsində reallaşmış olur. Mövcud qiymət strukturunun dəqiq təyin olunmasına etibar edərək uzun zaman gəlir qazanmağa yol açmış olan, eləcə də alıcılar üçün asan olan və iştirakçıların bazarda lider gücə malik olmaqda mübarizə aparmalarına yol açan qiymətlər nəzərə alınır.

4. Məhsulun keyfiyyəti baxımından liderlik - keyfiyyətli olmasını qarşısına məqsəd qoya bilər. Bu adətən daha yuksək keyfiyyətə catmağa görə xərcləri ödəmək uçun yüksək bir qiymət təyin olunmasını tələb edir. Turizm sektorunda şirkətlər fəaliyyətlərinin keyfiyyət xüsusiyyətlərini maksimuma çatdıraraq rəqiblərindən üstün olmağa çalışırlar .

Dayanıqlı turizm sektorunda qiymətlər əmtəə fərqliliyi, böyük sənaye yarışı və ola biləcək ehtiyacın dəqiq dəyərləndirilməsinin çətinliyinə görə sistemli bir göstəricidir. Təhlilçilərin qənaətinə görə, marketinq mexanizmi üsullarının toplusundakı bu amil başqalarına görə çox qarışıqdır.

Buna görə də, marketinqin nəzəri əsaslarında əksər qiymət mexanizmi var. Gerçək mənada olmaqla, təcrübədə əksər hallarda istifadə olunan anlayışlar belə təsvir olunur.

Bazardan Skimming Strategiyası. Müəssisə yeni məhsulunu bazara təqdim edərkən, yüksək qiymət tətbiq etməklə tələbin qeyri-elastik olduğu bazar seqmentini ələ keçirir. Tez qazanc əldə edir və sonra qiymətini aşağı salır və digər bazar seqmentlərinə daxil olur. Qiyməti giriş dövründə yüksək təyin etməyin başqa bir faydası, bazarda rəqabət mühitinə girdikdən sonra, qiyməti qaldırmaq çox çətindir, halbuki qiyməti aşağı salmaq daha asandır. Beləliklə, işin rəqabətlə qarşılaşmadığı ilk dövrdə digər dövrlərə nisbətən daha sürətli və daha çox qazanc əldə etmək imkanı tapa bilər .

Bu yanaşma, məhsulun yüksək dərəcədə fərqləndirilməsi sayəsində turizmə tətbiq oluna bilər. Məsələn; yeni bir nəqliyyat növü, yeni bir yer kimi. Burada təklif olunan turistik məhsula çox yüksək qiymətlər tətbiq oluna bilər. Ancaq bu qiymət yalnız tələbat güclü olduqda mümkündür. Fərqli və bənzərsiz xüsusiyyətlərə malik bir mövqedə olan müəssisələr yüksək qiymət strategiyası tətbiq edə bilərlər.

Bütün müəssisələrin çoxsaylı qiymət hədəfləri var. Bu məqsədlərə çatmaq üçün müəssisələr qiymət strategiyalarına müraciət edirlər. Qiymət strategiyaları birbaşa qiymət hədəflərindən yaradılan geniş, açıq planlar kimi müəyyən edilə bilər. Bundan əlavə, qiymət strategiyaları bəzi qiymət taktikalarının və siyasətlərinin ortaya çıxmasına səbəb olur.

Qiymət strategiyaları məhsulun yeni olub-olmamasından, rəqabət şəraitindən və məhsulun keyfiyyətindən asılı olaraq fərqlənir. Biznes, istər yeni, istərsə də satışda olan məhsula qiymət

qoyarkən məhsulun keyfiyyəti ilə məhsulun qiymət səviyyəsi arasındakı uyğunluğu nəzərə almalıdır.

Turizmdə qiymət mexanizminin dəyişməsi xüsusiyyətləri - Bir qayda olaraq, turist əmtəəsinin qiyməti marketinq sisteminin strateji amili olaraq çıxış etməkdədir. Ancaq yenə də, marketinq proseslərində qiymət olduqca zəruri rola malik olmaqla, istehlakçılarla satıcıların mənafelərini uyğunlaşdırır. Xüsusilə, qiymət davamlı turizm marketinqinin müşayiətində olmaqdadır. Bu mənada da, qiymət mexanizminin tərtib olunması turist müəssisəsinin strateji məsələlərindən hesab olunur. Nəzəri əsasalrına görə, qiymət idarəetməsi şirkətlərin məcmu idarəetməsi ilə çox əlaqəlidir. Bu mənada, qiymət idarəetməsinin tərtib olunması bir sıra davamlı proseslərdən ibarət olmaqdadır:

1. xüsusilə, xarici amillərin qiymətin təşəkkülünə təsiri mexanizmlərinin əsaslandırılması;
2. dayanıqlı qiymət yaranmasının müxtəlif mexanizmlərinin müəyyən olunması;
3. şirkətlərin qiymət mexanizminin müəyyən olunması.

Onu qeyd etmək lazımdır ki, turist proseslərinə qiymət hazırlananda şirkət tələblə təklif üzrə mövcud olan uyğunluğu, davamlı rəqabətdə olan qiymətlərin miqyasını də çevrilmə ardıcıllığını, yekdil dövlət nizamlanmasını və istehlakçıların potensiallarını diqqətdə saxlamalıdır. Cari qiymətlərin əsaslı şəkildə təyin olunmasında turist şirkətlərinin forması də diqqətdə olmalıdır. Bu mənada, turist proseslərinə fərqli alıcıların şəxsi sorğusu və ehtiyacı mövcud olur.

Bir qayda olaraq, qiymət bəzi strateji iqtisadai vəzifələrin reallaşmaısna təsir etməkdədir. Paylaşım vəzifəsi qiymətlərin vasitəsi ilə təsis olunan ÜDM və təsərrüfat mexanizmlərinin mənfəəti milli iqtisadi sistemin firmaları və bölmələri daxilində parçalanmasından ibarət olunur. Buna görə də qiymətlərin motivasiya olunan vəzifəsi bir sıra əmtəələrin yaradılması və yararlılıq göstəricilərinin yüksəldilməsi, digərlərinin yaradılması və alınmasının azaldılması, əmtəələrin tərkibinin gücləndirilməsi, təzə növ əmtəələrin və xidmətlərin tərəqqisinə yardım etməkdir. Eyni zamanda, qiymətin yönverici vəzifəsi qiymət miqyasının istehlakçı və satıcının yaradılmış olan əmtəələrin keyfiyyəti barəsində informasiyanın mövcud olmasıdır. Beləliklə, qiymət nizamlanması fasiləsiz müəssisənin ticarət miqyasına, gəlirinə, qazancınaq və iqtisadi dayanıqlılığına təsir göstərmiş olur. Buna görə də, turizm proseslərinin qiymətlərini müəyyən edən məsələlər xüsusilə 2 nəhəng bölmədə toplanmış olur:

1. əsasən daxili məsələlər
2. xüsusilə, xarici məsələlər

Öz növbəsində, daxili məsələlər isə bir sıra bölmədə təsnifləşdirilmiş olur:

1. gəzinti müəssisələrinin hədəfi;
2. etibarlı qiymət mexanizmi;
3. güvənilir tərəfdaş müəssisələrin müəyyən olunması və onlarla faydalı münasibətlər yaratmaq;
4. dayanıqlı turizm əmtəələrinin səmrəliliyi;
5. əsas turistik əmtəələrin təşəkkülü və stimullaşması məsrəfləri;
6. fasiləsiz turist əmtəəsinin həyat dövrünün standartları.

Ardıcıllıqda yer alan daxili məsələlərin bir neçəsinə diqqət etmək olar.

1. gəzinti müəssisəsinin hədəfi gəlirin ən yüksək səviyyəyə çatması, kapitala sərf olunan məsrəflərin geri qaytarılmasının geniş səviyyəyə yetməsi, bazar həcminin böyüməsi və turist əmtəələrinin faydalılığında birincilik qəbul oluna bilər.

2. şəffaf qiymətləndirmə idarəetməsi çevik gəzinti müəssisəsinin hədəfləri ilə əlaqəlidir. Mexanizm firmaya yüksək gəlir gətirmək və az məsrəflərlə rəqibləri bazardan sıxışdırmağa, bazarda kök salmağa və beləliklə də bazarı kəşf etməyə zəmin açmış olur.

3. tərəfdaşların müəyyən olunması və onlarla münasibətlər da qiymətlərə təsir etmiş olur. Xüsusilə, lisenziyalı müəssisələr vasitəsilə təqdim olunan xidmət papkaları lisenziyasız müəssisələrin papkalarından olduqca böyük ola bilər, lakin münasibətlərin iqtisadi yekunları qiymət yüksəlişindən böyük olması mümkündür.

Beləliklə də, qiymətləndirmənin kənar mexanizmlərinə bunlar aid olunur:

- dayanıqlı iqtisadi mühit;
- qarşılıqlı tərəfdaşların qiymətlərinin müəyyən olunması;
- bazar qanunlarından təklif və tələbin bir-birinə nisbəti, ehtiyac olunan fəsli formasiyalar;
- alıcı qiyməti ilə turist əmtəəsinin dəyəri arasındakı bağlılığa xüsusilə dəyərləndirmə;
- müddətlilik;
- dayanıqlı turizm müəssisələrinin əhatəsi;
- əlaqələndiricilərin ola biləcək münasibəti;
- ticarət forması. Etibarlı qiymət iqtisadi bir vasitədir .

Bir qayda olaraq, qiyməti çevirməklə, müəssisə bazarda mövcud olan ehtiyacın dəyişməsinə təsir edə bilər. Dəyərin alt bazası xidmətin məsrəfidir, üst xətti xidməti qarşıya qoymuş olur. Maksimum alıcılar əmtəənin xidmətinin çevrilməsindən daha sürətli, əmtəənin qiymətinin çevrilməsinə təsir etmiş olur. Etibarlı rəqabətli bir ticarətdə qiymət, şirkətdən asılı olmayaraq, ticarətdə perspektivli olan mexanizmlərin təsiri müstəvisində təşəkkül tapmış olur və bir çox vəziyyətlərdə turist şirkətləri üzrə müəyyən olunur. Buna görə də bazar qiymətləri üzrə strateji amillər bunlardır:

1. dayanıqlı iqtisadi sərbəstlik və şirkətlərin sahibkarlıq fəaliyyətlərini müəyyən etmək sərbəstliyi;
2. ikitərəfli səmərəli anlaşmalar və reallaşma anlaşmaları vasitəsilə ilə reallaşmış təsərrüfat mexanizmlərinin münasibətləri;
3. anlaşılmış razılaşmaların və başqa iqtisadi münaqişələrin aradan qaldırılmasına dəstək olunması və ola biləcək zərərlər üzrə konpensasiya reallaşması;
4. mütərəqqi təsərrüfat mexanizmlərinə və bazar subyektlərinə öz bazardaxili fəaliyyətlərini müəyyənləşdirmək perspektivləri formalaşdırmış olan rəqabətli şəraitin olması və inhisara son qoyulması;
5. eyni zamanda, turizm ticarətində tələb və təklifin müqayisəli təsiri.

Qlobal turizm fəaliyyətində turxidmətin qiyməti müəyyən olunarkən zəruri olaraq bir sıra qaydadan istifadə olunur. Həmin qaydalar bunlardır:

1. Əmtəəyə sərf olunan məsrəflərə əsasən qiymətin müəyyən olunması: Bu zaman, turoperatorun məsrəfləri aşağıdakı vasitələri ifadə etmiş olur: əməkdaşların maliyyə təminatı, obyektin istifadəsi, materialların aşınması, obyektlərin qorunması kommunal məsrəflər, avadanlıqlar üzrə məsrəflər, firma materiallarının istehlak olunmasına sərf olunan məsrəflər, məqsədyönlü reklam məsrəfləri, davamlı marketinq məsrəfləri, əməkdaşlılıqlar üzrə gəzintilərə sərf olunan məsrəflər, istirahət və bəzi inzibati məsrəflər. Eyni zamanda, əmtəə ticarətindən əldə olunan mənfəətdən dövlət büdcəsinə daxilolmalar da qarşılanmalıdır.

2. bazar tələbinə etibar edən qiymətqoyma: Belə olduqda qiymətlər zaman, ərazi, əmtəə forması və ticarət formasından asılı olaraq çevrilmiş olur. Buna görə də bazar mövqelidir və həmin qiymətə imkan və arzularına əlqaəli olaraq fərqli bölmələr üçün fərqli qiymətlər əsaslı şəkildə olmaqla təklif olunur. Beləliklə, qiymət standart alıcı ilə yanaşı, eyni zamanda, tipik turist bölmələrinə istiqamətlənmişdir. Mahiyyət etibarı ilə, qiymət turist əmtəələrinə olan ehtiyacın elastikliyini diqqətdə saxlayaraq təyin olunur. Bu mənada, turizm sferasında mövcud tələbin qiymət dəyişkənliyinəhəng homogen hesab olunmur. Həmçinin qiymət miqyası gəzintinin həvəslənməsindən və hədəfindən asılı olur: gündəlik gəzintiyə ehtiyac qiymət çevrilməsinə məhəl qoymur, daha doğrusu, şəxsi hədəflərə gəzinti ehtiyac, təbii olaraq, dəyərdən asılı olur.

3. Tərəflərin qiymətlərinə xas qiymətlərin müəyyən olunması: Mexanizmin digər bir ismi "tərs qiymət" amilidir. Orada qiymət tərəflərin qiymətinə etibar edir və birinci iki mexanizmin dayaqları olan məsrəflər və ehtiyac aparıcı amillərlə yanaşı, fasiləsiz olaraq əmtəənin qiymətinə təsir göstərməyi bacarmırlar.

4. Gəlirlilik miqyasına görə qiymətin müəyyən olunması: Bir qayda olaraq, qiymət, yatırım vasitəsilə ilə təşkil olunan planlaşdırılmış gəlir miqyasına görə müəyyən olunur. Mexanizm, əmtəə yaradılmasına olan yatırımın səmərəli ödənilməsi məqsədilə müəssisənin işlərinin məhsuldarlığının

yüksəldilməsinə istiqamətlənmişdir.

5. Bazara təsir göstərməyə istiqamətlənmiş qiymətqoyma strategiyası. Həmin modeldə qiymət məcmu bazarda bərabər əmtəəyə olan qiymətdən olduqca aşağı qiymətə tətbiq olunur. Əsas hədəf isə bazara olduqca səmərəli formada girişin olmasıdır.

## ƏDƏBİYYAT

1. Əhmədov N.H. Azərbaycanda turizmin inkişafı və onun regional problemləri. Monoqrafiya. Naxçıvan: Əcəmi, 240 s.
2. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2011, 494 s.
3. Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf istiqamətləri. Bakı: Elm, 2001, 452.
4. Rüstəmova S., Zeynalova R., Azadəliyeva G., Nuriyeva N. Turizmin Marketinqi Və Menecmenti. Baki: Elm və təhsil, 2020, 224 s.
5. Vəliyev T. S., Qafarov Ş. S. ümumi redaktəsi ilə. İqtisadi nəzəriyyə. Bakı: Azpoliqraf LTD MMC, 2004, 504 s.
6. Vəliyev T. S., Babayev Ə, P., Meybullayev M. X. redaktəsi ilə. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlu, 1999, 684 s
7. E.Q.Məmmədov. Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri. Bakı: 2013
8. M.K.Abadov. Azərbaycan turizmi və onun inkişaf problemləri. Bakı: 2014
9. R.M.Kasumov. Beynəlxalq turizm bazarı. Bakı: 2012
10. S.T.Yeganlı, E.M.Hacıyev. Bakı: “Turizm” 2006

**NƏRMİN ŞİRƏLİYEVA**
*Dövlət hüququ*
*Naxçıvan Dövlət Universiteti*

## VƏTƏNDAŞLIQLA BAĞLI MƏSƏLƏLƏR VƏ ONLARIN İZAHI

Vətəndaşlıq anlayışı qədim Afina və Romada mövcud olaraq azad insanlara aid edilmişdir. Orta əsrlərdə isə vətəndaşlıq anlayışı təbəəliklə əvəz olunmuşdur. Lakin sonrakı dövrlərdə burjua inqilabları ərəfəsində bu anlayış yenidən istifadə olunmağa başladı. Adətən respublika tipli dövlətlərdə "Vətəndaş" monarxiya dövlətlərində isə "Təbəə" termini istifadə edilmişdir.

Şəxsin hüquqi vəziyyətinin ən vacib ünsürlərindən biri vətəndaşlıqdır. O dövlətlə şəxs arasındakı qarşılıqlı münasibətlərin əsasını təşkil edir. Vəzifələri, hüququ və azadlıqları əldə etmək üçün hər hansı bir dövlətin vətəndaşı olmaq vacib şərtdir. Vətəndaşlıq şəxsin müəyyən dövlətə məxsus olduğunu onun öz dövləti ilə sabit hüquqi əlaqəsini xarakterizə edir. Bu əlaqə bir tərəfdən şəxsin dövlətə münasibətdə müəyyən hüquq vəzifələrini, digər tərəfdən isə dövlətin vətəndaşa münasibətdə hüquq və vəzifələrini müəyyən edir. Vətəndaşlıq fiziki şəxslə dövlət arasında olan, onların qarşılıqlı hüquq və vəzifələrində ifadə olunan möhkəm hüquqi əlaqədir. Bu anlayışa uyğun olaraq da Azərbaycan Respublikasının Konstitusiyasında qeyd edilir ki, Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikası dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs hesab olunur. Qarşılıqlı hüquq və vəzifələr şəxs və dövlət arasında mövcud olan siyasi və hüquqi əlaqələrdən əmələ gəlir. Siyasi əlaqə siyasi hakimiyyətin təşkilində vətəndaşın iştirak etməsində və onun siyasi hüquq və azadlıqlarında təzahür edir. Dövlətlə vətəndaş arasındakı hüquqi əlaqə isə vətəndaşla dövlət arasında daimi mövcud olaraq hüquq normalarında öz əksini tapır Vətəndaşlıq şəxslər üçün zəruri olsa da vərdiş halını aldığından hiss olunmur. Halbuki şəxs vətəndaşlıqdan məhrum edildikdə bu dərhal özünü büruzə verir. Bu vaxt fərdin dövlətin vətəndaşı kimi siyasi hüquq və azadlıqlardan istifadə etməsi mümkün olmur və fərdin vətəndaş kimi başqa dövlətlər qarşısında müdafiəsi aradan qalxır. Artıq əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə qarşı tətbiq olunan normalar istifadə edilir.

Hər bir şəxs doğulan andan vətəndaşlıq əldə edir. Əgər şəxs öz arzusu ilə onu dəyişmək istəməzsə ölənə qədər onu saxlayır. Vətəndaş hətta öldükdən sonra da onunla bağlı bütün hüquqi sənədlər arxivləşdirilərək dövlətin vətəndaşı kimi xatırlanır. Həmçinin onunla bağlı bir sıra hüquq münasibətləri də (vərəsəlik hüququ ilə bağlı münasibətlər, onun adının müvafiq hallarda əbədiləşdirilməsi və.s) yaranır. Bütün qeyd edilən bu münasibətlərin yaranması üçün əvvəlcə fərd tərəfindən hər hansı bir dövlətin vətəndaşlığı əldə edilməlidir. Vətəndaşlığın əldə edilməsi isə hər bir dövlətin özü tərəfindən müəyyən edilir. Vətəndaşlığı əldə edilməsinin bir neçə üsulu vardır:

1. Filiasiya
2. Naturalizasiya
3. Reinteqrasiya
4. Beynəlxalq müqavilə əsasında

Filiasiya vətəndaşlığın anadangəlmə əldə edilməsidir. Vətəndaşlığın anadangəlmə əldə edilməsi iki prinsipə "Qan hüququ" və "Torpaq hüququ" prinsiplərinə əsaslanır. «Qan hüququ» prinsipinə görə, doğulmuş uşağın vətəndaşlığı onun valideynlərinin (və ya onlardan birinin) vətəndaşlığı ilə müəyyən olunur. Avropa və Asiyanın əksər ölkələrində bu prinsip tətbiq olunur. «Torpaq hüququ» prinsipinə görə isə müəyyən dövlətin ərazisində doğulmuş uşaq valideynlərinin hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq doğulduğu dövlətin vətəndaşlığını əldə edir. Bir çox ölkələrdə isə "Qan hüququ" və "Torpaq hüququ" prinsiplərinin hər ikisi də tətbiq edilir. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd edilir ki, Azərbaycan Respublikası ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Eyni zamanda valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs də Azərbaycan Respublikasının vətəndaşı hesab olunur. Bu anlayışa əsasən demək olar ki, Azərbaycan

Respublikasında da “Qan hüququ” və “Torpaq hüququ” prinsiplərinin hər ikisi tətbiq edilir.

Naturalizasiya fərdin könüllü olaraq bir dövlətin vətəndaşlığını qəbul etməsidir. Fərd vətəndaşı olmaq istədiyi dövlətin qanunvericiliyində nəzərdə tutulmuş şərtləri nəzərə almaqla həmin dövlətin vətəndaşlığını qəbul edə bilər. Yəni müəyyən şərtlər daxilində və hüquqi proseduradan keçməklə vətəndaşlıq əldə olunur. Naturalizasiyanın realizə qaydası və şərtləri ölkədən - ölkəyə dəyişir. “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Qanunda qeyd edilir ki, Azərbaycan Respublikasının ərazisində son beş il ərzində fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşayan, qanuni gəlir mənbəyi olan, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürən, habelə Azərbaycan Respublikasının dövlət dilini bilməsi haqqında sənəd təqdim edən əcnəbi və vətəndaşlığı olmayan şəxs öz vəsatəti ilə Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilə bilər.

Reinteqrasiya ilkin vətəndaşlığın sadələşdirilmiş qaydada bərpa edilməsidir. Şəxs müəyyən səbəbdən öz vətəndaşlığını itirib, sonra bərpa etmək istəyirsə vətəndaşlıq bərpa olunur. Reinteqrasiya naturalizasiya ilə oxşar olmasına baxmayaraq irəli sürülən tələblərin sadəliyi ilə ondan fərqlənir. Başqa bir fərqli cəhəti ondan ibarətdir ki, naturalizasiya yeni vətəndaşlığı əldə olunması, reinteqrasiya isə itirilmiş vətəndaşlığın bərpasıdır.

Beynəlxalq müqavilə əsasında iki və ya daha artıq dövlətin bir dövlətdə birləşməsi, dövlətin parçalanması, sülh müqavilələrinin, repatriasiya haqqında sazişlərin və ərazi dəyişiklikləri haqqında xüsusi sazişlərin bağlanması zamanı vətəndaşlıq əldə edilir. Ərazi dəyişiklikləri zamanı optasiya və transfert baş verə bilər. Optasiya yaşadığı ərazinin başqa dövlətə verildiyi zaman şəxsin yaşayacağı dövlətin vətəndaşlığını könüllü seçməsidir. Bu halda şəxs öz əvvəlki vətəndaşlığını da saxlaya bilər. Transfert isə bir ərazinin başqa dövlətə keçdiyi zaman həmin ərazidə yaşamış əhalinin bütövlükdə yeni dövlətin vətəndaşlığını əldə etməsinə deyilir. Optasiya və transfert əsasən beynəlxalq hüquqda tətbiq olunan və çox az hallarda rast gəlinən üsullardır.

Vətəndaşlıq anlayışı ilə yanaşı vətəndaşsızlıq anlayışı da mövcuddur. Fərd vətəndaşı olduğu dövlətin vətəndaşlığından çıxarsa və başqa dövlətin vətəndaşlığını qəbul etməzsə, bu zaman vətəndaşsızlıq (apatrizm) əmələ gəlir. Fərdin vətəndaşlığı olmaya bilər. Lakin heç bir dövlətin vətəndaşlığını qəbul etməyən şəxs onu nəzərə almalıdır ki, vətəndaşlığı olmayan şəxslər heç bir dövlətlə sıx əlaqələrə malik olmur və onun dövlət müdafiəsi hər hansı bir dövlət tərəfindən həyata keçirilmir.

Vətəndaşlıq hüququnda əsas məsələlərdən biri də ikili vətəndaşlığı olan şəxslərlə bağlıdır. İkili vətəndaşlıq dedikdə, şəxsin iki dövlətin vətəndaşlığına mənsub olması başa düşülür. Ümumiyyətlə, ikili vətəndaşlıq bir sıra hallarda yaranır. Məsələn: yeni doğulmuş uşağın valideynlərinin iki müxtəlif dövlətin vətəndaşları olması, uşağın gələcəkdə ikili vətəndaşlığa mənsub olması imkanı əldə etməsinə gətirib çıxarması və ya daha çox rast gəlinən hallardan biri də naturalizasiya yolu ilə başqa dövlətin vətəndaşlığını əldə etməsi və.s. Bu zaman ikili vətəndaşlığı olan şəxslər hər iki ölkədə hüquq və azadlıqlara malik olduğu kimi, hər iki dövlət qarşısında öhdəliklər götürürlər. İkili vətəndaşlıq ikili vətəndaşlığı olan fərdlər üçün problemlər yaratmaqla yanaşı dövlətlər arasında da hüquqi müstəvidə müəyyən problemlər yaradır. Buna misal olaraq, ikili vətəndaşlığı olan şəxsin cinayət törətdiyi halda onun ekstradisiya məsələsində yaranan problemi də qeyd etmək olar. Bundan başqa hərbi xidmət, vergilərin ödənilməsi, dövlət orqanlarında xidmət, nikah, ikili vətəndaşlığı olan şəxsin diplomatik müdafiəsinin hansı dövlət tərəfindən həyata keçirilməsi və s. kimi məsələlərdə bu problemlər özünü büruzə verir. Bəzi dövlətlər ikili vətəndaşlığı qəbul etdiyi halda, bəzi dövlətlər isə ikili vətəndaşlığı qəbul etmir. İkili vətəndaşlığı qəbul edən dövlətlərin vətəndaşları eyni zamanda başqa dövlətin də vətəndaşı ola bilərlər. İkili vətəndaşlığı qəbul etməyən dövlətlərin vətəndaşları eyni zamanda başqa bir dövlətin vətəndaşı ola bilsə də yalnız ikili vətəndaşlığı qəbul etməyən dövlətin qarşısında həmin dövlətin vətəndaşlığından irəli gələn öhdəliklər daşıyır. Bu sahədə yaranan problemlər ikili vətəndaşlığı tanıyan dövlətlər arasında bağlanmış müqavilələr əsasında və ikili vətəndaşlıqla bağlı bağlanmış beynəlxalq müqavilələr əsasında həll edilir.

Əvvəllər "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunda ikili vətəndaşlıqla bağlı məsələyə konkret yanaşma əks olunmamışdır. Sonradan "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunun yeni redaksiyasında bu məsələ ilə bağlı konkret yanaşma əks olunmuşdur. Bu yanaşmaya görə isə müəyyən hallar istisna olmaqla Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti tanınmır. Hətta Azərbaycan Respublikasının bir sıra qanunlarında ikili vətəndaşlığı olan şəxslərin müəyyən vəzifə tutmasına qoyulan qadağalar mövcuddur. Məsələn: AR Konstitusiyasının 100-cü maddəsinə görə ikili vətəndaşlığı olan şəxs Prezident seçilə bilməz, bundan başqa Seçki Məcəlləsinin 13.3.3-cü maddəsinə görə ikili vətəndaşlığı olan Azərbaycan Respublikası vətəndaşları passiv seçki hüququna malik deyillər, nəhayət, "Məhkəmələr və hakimlər haqqında" qanunun 93-cü maddəsinin 2-ci hissəsində "ikili vətəndaşlığı olanlar hakim ola bilməzlər" kimi normalar təsbit edilmişdir.

Vətəndaşlıq dövlətin daxili qanunvericiliyi ilə tənzimlənir. Bu halda müxtəlif dövlətlərin vətəndaşlıq haqqında qanunlarında ziddiyyətlər ortaya çıxarsa. bu zidiyyətlərin qarşısını almaq və ya onları aradan qaldırmaq üçün dövlətlər beynəlxalq-hüquqi tənzimləməyə müraciət edirlər. Hər bir dövlətin daxili qanunvericiliyi vətəndaşlığın əldə edilməsini, itirilməsini, vətəndaşsızlığı və ikili vətəndaşlığı tənzimləyən müxtəlif normalara malikdir. Bu normalar fərdlə dövlət arasında yaranan münasibətlərin nizama salınmasına xidmət edərək həm dövlətə, həm də fərdə münasibətdə öhdəliklər müəyyənləşdirir. Fərdin hər hansı dövlətin vətəndaşı olması onun üçün müsbət bir hal kimi qiymətləndirilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanun
2. Lətif Hüseynov – Beynəlxalq hüquq (dərslik)
3. Ziyafət Əsgərov - Konstitusiya hüququ (dərslik) Bakı-2011

**ELXAN QULİYEV**
*Dövlət qulluğunun təşkili və idarə edilməsi*
*Naxçıvan Dövlət Universiteti*
*quliyevelxan1@gmail.com*

## PEŞƏKAR DÖVLƏT QULLUĞU İNSTİTUNUN YARANMASI

Azərbaycan Respublikası Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun Dövlət qulluqçuları ictimai məqsədləri və funksiyaları yerinə yetirən dövlət qulluqçularıdır. Ona görə də bu qanun məhz icra və qanunvericilik, eləcə də məhkəmə orqanlarının dövlət qulluqçularına şamil olunur. Qanun Azərbaycan Respublikasının vətəndaşlarının prokurorluq, dövlət təhlükəsizliyi, məhkəmə, daxili işlər, sərhəd xidməti və gömrük orqanlarının dövlət qulluqçusu olmaq üçün müsabiqə və şəffaf əsaslarla dövlət qulluğuna daxil olmaq hüququna sahibdir.

Azərbaycan Respublikasının yaşı 16-ya çatmış, milliyyətindən, irqindən cinsindən, dilindən, sosial mənşəyindən, yaşayış məntəqəsindən, əmlak vəziyyətindən, dinə münasibətdən, əqidəsindən, ictimai birliklərə və digər mənsubiyyətindən asılılıq funksiyasının tələblərinə uyğun olaraq peşə hazırlığına xas olan ölkə vətəndaşların dövlət qulluğu sahəsinə daxil olmaq hüququ mövcuddur. Şəxs dövlət qulluğuna aşağıda qeyd olunmuş hallarda qəbul oluna bilməz:

1. Məhkəmənin hökmü ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdudlaşdırılan şəxslər;
2. Məhkəmə onu müəyyən vaxt ərzində dövlət vəzifəsini tutmaq hüququndan məhrum edirsə;
3. Dövlət qulluqçularını bilavasitə və ya onların nəzarəti altında işləyən yaxın qohumları (ər-arvad, valideynlər, qardaşlar, bacılar, uşaqlar) olması.

Son illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Sovetin Sədri olan cənab Vasif Talıbovun rəhbərliyi altında muxtar respublikamızdada məhz dövlət qulluğu sahəsində bir sıra uğurlu islahatlar aparılıb, müasir idarə etmə sistemi yaradılıb. Gerçəkləşdirilən islahatları iki qrupa bölmək mümkündür. İlk istiqamət dövlət qulluğuna dair islahatlarının həyata keçirilməsilə bağlıdır. Məhz bu məqsədlə qanunvericilikdə müəyyən edilmiş milli siyasət və qaydaları həyata keçirmək, onların düzgün reallaşdırılmasının təmin etmək üçün milli qurumlar yaradılmışdır.

Dövlət idarəçiliyində innovativ tətbiqlər, "Elektron hökumət" portalı, vətəndaş müraciətlərinin elektron qeydiyyatı, idarələr arası elektron sənədin dövriyyəsi sisteminin tətbiqi, bəzi dövlət qurumları üçün səyyar xidmətlər yaradılmışdır. Bunlar eyni zamanda Naxçıvan Muxtar Respublikasında insan elementi olan vətəndaş hüquqları və azadlıqlarının reallaşdırılmasına verilən önəmi göstərir.

Ən müasir standartlara uyğun yeni inzibati binaların tikintisi, dövlət orqanlarının maddi və texniki bazasının möhkəmləndirilməsi, eləcə də dövlət qulluqçularnın fəaliyyətinin təkmilləşdirilməsi, onlar üçün zəruri iş şəraitinin yaradılması, xüsusi xidmətlərinə görə dövlət qulluqçularının mükafatlandırılması, dövlət qulluqçularına göstərilən qayğı və diqqətin nümunəsidir. Məhz bu sahədə həyata keçirilən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədrinin 2018-ci il 6 dekabr tarixli sərəncamı ilə Muxtar Respublikada dövlət qulluğuna normativ yanaşmanı təmin edən, metodik göstərişlərin, normativ-hüquq aktlarının layihələrini hazır edən, dövlət orqanlarnın işini əlaqələndirmək üçün Naxçıvan Muxtar Respublikanın Dövlət Qulluğu idarə etmə şurası qurulmuşdur.

Hal-hazırda Muxtar Respublikada inzibati vəzifələrdə fəaliyyət göstərən dövlət qulluqçularının məhz 40 faizi Komissiyanın təşkil etdiyi müsabiqələrdə uğur qazanan, müasir dünyagörüşünə malik, peşəkar səriştəli, yüksək təhsilli, qanunvericilik, həmçinin informasiya texnologiyaları sahəsində biliklərə malik olan, dövlət qulluğunda çalışan vətəndaşların 40%-i dövlət qulluğuna qəbulda iştirak edir. Komitənin keçirdiyi müsabiqə nəticəsində məşvərətçi vəzifələrə təyin olunmuş şəxslərin bir qismi uğurla dövlət qulluqçusu, 1 nazir, 1 nazir müavini, 2 icra hakimiyyəti nazirinin müavini, 1 nazir müavini, 3 yerli baş nazir, 1 baş nazir vəzifəsinə yüksəliblər. Məhz bunlar savadlı, gələcək üçün nəzərdə tutulmuş kadr siyasətinin qaçılmaz, məntiq olan nəticəsidir.

Komitə dövlət orqanlarında xüsusi növ dövlət qulluğu vəzifələrinə xas vakant yerlərin tutulması məqsədilə müsabiqə testi təşkil etmişdir. Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Respublika prokurorluğu, Fövqəladə Hallar Nazirliyi, Vergilər Nazirliyi, Milli Gömrük Komissiyası, Milli İmmiqrasiya Xidməti və Vəkillər Kollegiyasında vakant vəzifələr üçün keçirilən 39 müsabiqədə 1905 nəfər namizəddən 593- ü test imtahanında uğurlu nəticə göstərmişdir.

Həmçinin dövlət orqanlarına metodiki köməklik göstərir, dövlət qulluqçularının dövlət qulluqçuları sahəsində qəbul olunmuş normativ hüquqi aktlarn öyrənilməsi üçün maarifləndirmə işləri aparılır. Hər il yüzlərlə dövlət qulluqçusu ədliyyə, mərkəzi və yerli inzibati heyət üçün etika qaydalarına əməl edilməsi, kargüzarlıq, dövlət qulluqçularının siyahıları və şəxsi işlərin aparılması kimi mövzularda seminarlarda iştirak etməkdədir.

Dövlət Qulluğu Reyestrinə əsasən, muxtar respublikada 2545 dövlət qulluqçusu var ki, onlardan 61-i siyasi vəzifədə, 1976-sı inzibati vəzifədə, 508-i isə yardımçı vəzifələrdə, 27 faizi gənclər, 24 faizi qadınlardır.

Yuxarıda deyilənlər və abituriyentlərin sayının artması göstərir ki, dövlətin bu istiqamətdə apardığı siyasət öz bəhrəsini verir, vətəndaşlar, xüsusən də gənclər dövlət qulluqçularına, o cümlədən xüsusi xidmət orqanlarına böyük maraq göstərirlər. Bütün rayonlar kimi, muxtar respublikada da dövlət qulluğu intibah dövrünü keçirir. Bütün uğurların əsasında ümummilli liderimiz Heydər Əliyevin yoluna bağlılıq və bu yolun uğurlu formada davam etdirilməsi dayanmışdır.

Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının dövrün tələbinə uyğun olaraq fəaliyyət göstərməsi, dövlət qulluqçularına diqqət və qayğı göstərməsi üçün geniş şərait yaradılmışdır. Hər bir dövlət qulluğunda çalışan işçi göstərilən qayğının qarşılığında üzərinə düşən vəzifəni vicdanla yerinə yetirməlidir. Dövlət qulluqçuları unutmamalıdırlar ki, xidməti vəzifələrini yerinə yetirərkən ilk növbədə ölkənin mənafeyni nəzərə almalı, hər bir işi çox böyük məsuliyyət, ləyaqətlə başa vurmalıdırlar. İnanırıq ki, hər bir dövlət qulluğunda çalışan vətəndaş ona həvalə olunmuş hüquq və vəzifələri qanuni şəkildə və ölkənin mənafeyi uğrunda gerçəkləşdirəcək, Heydər Əliyevin dövlət və dövlətçilik fəlsəfəsinə sədaqətlə xidmət göstərəcəkdir.

Ümumilikdə, dövlət idarəçiliyi islahatları konsepsiyası layihəsində peşəkar dövlət qulluğunun formalaşdırılması ən mühüm məsələlərdən biri kimi müəyyən edilib.

## PEDAQOGİKA VƏ METODİKA

**AYTƏN MUSTAFAYEV**
*Naxçıvan Dövlət Universiteti*

# TEXNOLOGİYA DƏRSLƏRİNDƏ FƏNLƏRARASI ƏLAQƏNİN HƏYATA KEÇİRİLMƏSİ

Artıq bir neçə ildir ki, orta məktəblərdə bütün fənlər üzrə dərslər yeni proqram üzrə keçilir. Bu proqramlarda məktəb kursunun əsas məzmunu xeyli dəyişdirilmiş, nisbətən müasirləşdirilmiş və təkmilləşdirilmişdir. Xalq təsərrüfatının bütün sahələrində yaranmış elmi-texniki inqilabda texnologiyanın rolu ilə şagirdləri yaxından tanış etmək məsuliyyəti fənn müəlliminin üzərinə düşür. Texnikanın inkişafı, onu idarə edən adamların da biliklərinin zənginləşməsinə, yeni cihaz və qurğuları idarə etməyi bacarmasını tələb edir.

İstehsal prosesləri avtomatlaşdırıldıqca zehni və fiziki əmək arasındakı fərq də ortadan götürülür. Müasir dövrdə təhsil əməyin məhsuldar qüvvələrini artıran əsas bir əlamət kimi özünü göstərir. Bu, elmi-texniki inqilabın təbii nəticəsidir. Məhz buna görə də gənclərin ümumi orta təhsilinin səviyyəsini artırmağa xüsusi diqqət verir. Son illər ərzində texnologiya, fizika, kimya, biologiya, həyat bilgisi və başqa elmlərinin məzmunu yeni biliklərlə zənginləşmiş, bu elmlər arasındakı əlaqə daha da inkişaf etmiş və dərinləşmişdir.

Yeni məktəb proqramlarında nəzəri bilikləri praktika ilə daha sıx bağlamağa, politexnik biliklərin artırılmasına, şagirdlərin- yaradıcı fəallığının yüksəldilməsinə xüsusi fikir verilmişdir. Təhsilin səviyyəsini elmi-texniki inqilaba uyğun vəziyyətə çatdırmaq üçün bu tədbirlərin hamısı zəruridir, lakin hələ kafi deyil. İndiki dövrdə necə öyrətmək problemidə olduqca vacibdir. Çünki, adətən, təqdim metodikası elmin inkişaf səviyyəsindən geri qalır. Mövcud metodikalar zamanın tələbini ödəmir. Bunların bir qismi köhnəlmiş, digər qismi isə müasir tələblər səviyyəsində deyil.

Prinsipcə yeni təlim metodlarına ehtiyac gündən-günə artır. Təcrübə göstərir ki, şagirdləri böyük zehni gərginlik tələb edən, onları tədqiqat aparmağa sövq edən, yaradıcı fəallığa alışdıran təlim metodları daha çox cəlb edir. Belə təlim, biliklərin dərindən dərk edilməsinə, şagirdlərin müstəqil olaraq elmi-texniki nailiyyətləri öyrənməyə alışmasına səbəb olur. Bu nöqteyi-nəzərdən orta məktəbdə “Texnologiya” fənninin tədrisində fənlərarası əlaqəni həyata keçirmək və inkişaf etdirmək problemi xüsusi əhəmiyyət kəsb edir. Elmlərin vəhdəti təlim prosesində özünü biiruzə verməlidir. Hər bir texnologiya müəlliminin vəzifəsi keyfiyyətli işi, yüksək bilik səviyyəsinə malik dərin mühakimə aparmağı, biliklərini istehsalatın müxtəlif sahələrində müvəffəqiyyətlə tətbiq etməyi bacaran gənclər yetişdirməkdir. Bu məsul vəzifənin yerinə yetirilməsində texnologiya fənninin digər fənlərlə əlaqəli şəkildə öyrədilməsi probleminin həlli xüsusi rol oynayır.

. Fikrimcə, texnologiya dərsi o zaman daha çox səmərəli olar ki, həmin dərsdə öyrədilən material ətraf mühitdəki hadisələrlə əlaqələndirilsin, və ya digər fənlərdən öyrədilən biliklərə istinad olunsun. Şagirdlər öyrəndikləri biliklərə əsasən müxtəlif fiziki hadisələri dinamik şəkildə təsvir edən əməliyyatlar apardıqda daha çox fərəhlənirlər. Bütün bu cəhətləri nəzərə alaraq, müəllim təlimin keyfiyyətini artırmaq məqsədilə bəzən yeni dərsin əvvəlində və ya müəyyən bir hadisəni izah edərkən təlim prosesinin ortasında onun tətbiqlərini imkan daxilində nəzərdən keçirməli, yaxud da dərsi bununla tamamlamalıdır. Müəllim elmdə olan yeniliklərdən xəbərdar olmalı, onun əsas inkişaf ənənələri haqqında geniş təsəvvürə malik olmalıdır. Müəllimin ən böyük xidməti tədris etdiyi fənn vasitəsilə şagirdləri özünə cəlb etməyi bacarması və Uşinskinin göstərdiyi kimi, bilikləri təkcə onların şüuruna doğru deyil, həm də hisslərinə doğru yönəltməsidir.

Məktəb fənləri arasında qarşılıqlı əlaqə problemi daim didaktikanın aktual məsələlərindən biri olmuşdur. İndi də bu belədir. Bəzi pedaqoqların fikrincə, fənlərarası əlaqə təlimin müstəqil prinsipidir, bəziləri isə, fənlərarası əlaqəni təlimin sistematiklik və ardıcıllıq prinsipinin həyata keçirilməsinə kömək göstərən bir vasitə hesab edirlər. V.N.Fedorova və D.M.Kiryuşkinaya görə,

fənlərarası əlaqə anlayışını N.M.Çərkəzzadənin göstərdiyi kimi nəzərdən keçirmək daha doğru olar. Ona görə də həmin müəlliflər fənlərarası əlaqəni didaktik tələb kimi qəbul edirlər.

Texnologiya dərslərində fənlərarası əlaqənin nəzərə alınması həmin fənnin vahid strukturunun gözlənilməsi şərti ilə təlimin ümumi məsələlərinin həyata keçirilməsi üçün tətbiq olunan bir işdir, prinsipdən irəli gələn didaktik tələblərdən biridir. Başqa fənlərdə olduğu kimi, texnologiya dərslərində də şagirdlərin fizikaya, riyaziyyata və s. fənlərə aid biliklərindən əlverişli istifadə texnoloji biliklərin mənimsənilmə keyfiyyətini yüksəltmək üçün mühüm şərt kimi qəbul oluna bilər. Bu zaman şagirdlər materialı daha dərindən başa düşür, onun öyrənilməsinə daha şüurlu yanaşır.

Texnologiya dərslərində ümumtəhsil fənləri üzrə biliklərdən istifadə zamanı şagirdlərə həm də yaradıcı düşünməyi, məntiqi mühakimələr yürütməyi öyrətmək lazımdır. Bu proses şagirdlərin təsəvvürlərinin, diqqətinin, yaddaşının, təfəkkürünün inkişaf etdirilməsi ilə yanaşı, onlarda fəallıq və təşəbbüskarlıq kimi keyfiyyətlərinin formalaşmasına şərait yaradır. Təlim prosesində müəllim fənlərarası əlaqənin göstərilən tələblərini yüksək səviyyədə yerinə yetirdikdə müsbət nəticələr əldə edir və məktəblilər hərbi biliklərə möhkəm yiyələnirlər. Texnoloji anlayışlarla fiziki, riyazi, və s. anlayışlar arasında daxili bağlılığı aşkara çıxarıb onları əlaqəli şəkildə şagirdlərə çatdırmaq texnologiya müəlliminin məharətindən də çox asılıdır.

Başqa fənlərdə olduğu kimi, texnologiya dərslərində də problemli yanaşmadan istifadənin mahiyyəti ondan ibarət olur ki, məktəblilər bir növ “tədqiqatçı”, “ilk ixtiraçı” vəziyyətinə salınır, yeni biliklər onlara hazır şəkildə verilmir. Öyrənilməsi nəzərdə tutulan yeni materialın şərhi zamanı uyğun ümumtəhsil fənni üzrə (məsələn, fizika və riyaziyyat üzrə) biliklərindən istifadə şagirdlərin qarşısında problem (sual) şəklində qoyulur. Texnologiya məşğələlərində şagirdlərin uyğun fizika, riyazi, kimyavi, rəsmxət və s. biliklərindən problemli şəkildə istifadə edərkən problemin məntiqi formasının sual olduğunu nəzərə almaq lazımdır. İstifadə olunacaq əsas fizika, riyazi və s. anlayışlar sualda öz əksini tapmalıdır.

**ELMİRA MƏMMƏDOVA**
*Naxçıvan Dövlət Universiteti*

# MÜASİR DÖVRDƏ TEXNOLOGİYA FƏNNİNİN TƏDRİSİ

Başqa fənlərlə inteqrativ şəkildə tədris olunan "Texnologiya" fənnində hər bir müəllim mövzunun xarakterinə, şagirdlərin yaş və bilik səviyyələrinə uyğun gələn müasir təlim üsullarından istifadə etməlidir.

Bu məqsədlə təlim prosesində müəllim tərəfindən şagirdlərin aktivliyini, maraqlarını təmin edən, fiziki hazırlıqlarını artıran və birgə fəaliyyət bacarıqlarını inkişaf etdirən interaktiv (inter-qarşılıqlı, act-fəaliyyət) metod və üsullara üstünlük verilməlidir.

İnteraktiv təlim metodlarının ənənəvi təlim metodlarından üstünlüyü belə fərqləndirilir: ənənəvi metodda nəzəri məlumatı şagirdə ancaq müəllim verirdisə, müasir metodda məlumat mübadiləsi isə qarşılıqlı baş verir.Ənənəvi metod passiv, müasir metod isə aktiv metod hesab edilir.

Müasir dövrdə pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün müəllimlərin təşkiledici, əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdlərin isə tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı əməkdaşlıq fəaliyyətləri əsasında aşağıdakı prinsiplər nəzərə alınmaqla qurulur:
- Pedaqoji prosesin tamlığı
- Təlimdə bərabər imkanların yaradılması
- Şagirdyönümlülük
- İnkişafyönümlülük
- Fəaliyyətin stimullaşdırılması
- Dəstəkləyici mühitin yaradılması

**Pedaqoji prosesin tamlığı** – pedaqoji prosesdə təlim məqsədləri kompleks şəkildə (öyrədici, inikşafetdirici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir. "Texnologiya" fənni üzrə təlim məqsədlərinin öyrədici xarakter daşıması o deməkdir ki, təlim prosesində şagirdlər materialların əl ilə emalı texnologiyaları və məmulatların quruluşu haqqında biliklərlə tanış edilir, alətlərdən istifadə olunarkən təhlükəsizlik qaydalarına riayət etməyi, nümunə, təlimat xəritəsi, sxem, çertyoj üzrə işləməyi, informasiyaları əldə etməyi və onlardan istifadə etməyi, möhkəmləndirməyi, təkmilləşdirməyi, genişləndirməyi öyrənirlər.

"Texnologiya" dərsləri şagirdlərdə əzələlər və barmaqların motorikasını, təqribi ölçməni, fəza təsəvvürlərini, hazırlanacaq məmulatı əyani təsəvvür etməyi, diqqəti və estetik zövqü, texnoloji yaradıcılıq təfəkkürünü (texnologiya və məmulatın quruluşuna dəyişiklik etmək bacarıqlarını, tapşırığın yerinə yetirilməsinin əlverişli yollarını axtarmağı) inkişaf etdirir.

Bunlarla yanaşı, bu dərslər şagirdlərdə müşahidə, müqayisə və təhlil etmək, nəticə çıxarmaq, ümumiləşdirmə aparmaq və planlaşdırmaq, özünənəzarət və qiymətləndirmə kimi ümumtəlim bacarıqlarının, əmək və ekoloji mədəniyyət elementlərinin formalaşdırılmasında əhəmiyyətli rol oynayır.

**Təlimdə bərabər imkanların yaradılması** – bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir.

**Şagirdyönümlülük** – şagird pedoqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdin maraq və tələbatlarının öyrənilməsi və təmin edilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir. Təlim prosesi şəxsiyyətin formalaşdırılmasına istiqamətləndirilir, şagirdlərin müstəqil həyata hazırlanmasına və peşəseçiminə köməklik göstərir.

**İnkişafyönümlülük** – şagirdlərin idrak fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir. Nəzərdə tutulan bacarıqların mənimsənilməsi şəxsiyyətin inkişafını təmin edir, şagirdlərin müstəqil həyatda səmərəli fəaliyyət göstərmələri üçün zəmin yaradır.

**Fəaliyyətin stimullaşdırılması** – pedaqoji prosesin səmərəli və effektiv qurulması,

şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarı ilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur. Zəif nəticə göstərən şagirdlər həvəsləndirilir, onların hər bir uğurlu addımı rəğbətləndirilir.Eləcə də şagirdlərinbacarıqlarının dəyərləndirilməsi və rəğbətləndirilməsi üçün yarış və müsabiqə xarakterli tədbirlər həyata keçirilir.

**Dəstəkləyici mühitin yaradılması** - pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi- psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

“Texnologiya” üzrə təlimin təşkilinə verilən əsas tələblər aşağıdakılardan ibarətdir:

**1. Dərsin məqsədinin dəqiqliyi**. Hər bir dərsdə bir və ya bir neçə didaktik məsələ həll olunur və onlardan biri üstünlük təşkil edir. Belə ki, şagirdlər bilik əldə edir, onlarda bacarıq və vərdişlər formalaşır, texniki yaradıcılıq qabiliyyətləri inkişaf edir və s. Lakin bu sadalananlara istənilən dərsdə eyni dərəcədə nail olunmur. Bu və ya digər təlim məsələsinin həlli dərsin məqsədindən asılı olaraq reallaşdırılır.

**2. Təlim və tərbiyənin vahidliyi**. Təlimin tərbiyəedici xarakter daşıması bütün fənlərə aid olduğu kimi, “Texnologiya” fənninə də aiddir. Bu dərslərdə şagirdlərə bir çox keyfiyyətlər (böyüklərə hörmət,düzlük, qənaətçillik, vətənpərvərlik və s.) aşılanır. Eləcə də şagirdlərin əmək tərbiyəsi üçün xüsusi əlverişli şərait yaranır. Buna görə də şagirdlərə əmək tərbiyəsinin aşılanması fənn qarşısında qoyulan əsas tələblərdən biridir.

**3. Tədris materialının düzgün seçilməsi**. Tədris materialı seçildikdə bir çox faktorlar nəzərə alınmalıdır. Bu faktorlara dərsin məqsədi, şagirdlərin keçmiş dəsrdə əldə etdikləri bilik və bacarıqlar, onların elmin əsasları üzrə bilikləri və fiziki inkişafları aiddir.

**4. Təlim metodlarının düzgün seçilməsi**. Müəllim tərəfindən təlim metodları və üsulları düzgün seçilmədikdə istənilən dərsin məqsədinə nail olmaq qeyri- mümkündür. “Texnologiya” fənni üzrə dərslərin əsas mərhələsi şagirdlərin sərbəst praktiki işidir. Bu işdə müvəffəqiyyətin əldə edilməsi müəllim tərəfindən təlim metodları və üsullarının düzgün seçilməsindən asılıdır.

**5. Dərsin təşkilinin dəqiqliyi**. Hər bir dərs onun təşkili və keçirilməsi nöqteyi-nəzərindən dəqiq olmalıdır. Dərsin hər bir mərhələsinə müəllim tərəfindən vaxtın düzgün ayrılması təlimin təşkilinə verilən əsas tələblərdəndir.

**6. İş zamanı şagirdlərin təhlükəsizliyinin təmin olunması**. “Texnologiya” dərslərində şagirdlər müxtəlif kəsici alətlərdən istifadə edir, materialları emal edir, elektrik dövrələrini montaj edirlər. Bu zaman görülən iş üzrə təhlükəsizlik qaydalarına riayət edilmədikdə şagirdlər müxtəlif xəsarətlər ala bilərlər. Odur ki, şagirdlərin təhlükəsizliyinin təmin edilməsi təlimin təşkilinə verilən tələblərin ən mühümüdür.

Kollektivdə işləmək, kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur, şagirdlərdə ünsiyyətyaratma bacarığının təşəkkülü və inkişafı təmin edilir. “Texnologiya” fənninin tədrisində aşağıdakı dərs formalarından istifadə edilməsi tövsiyə olunur:

-Kombinəedilmiş dərs.

-Nəzəri dərs.

-Praktik dərs.

-Laboratoriya işi dərsi.

-Yoxlayıcı dərs.

**XURAMAN ƏLİYEVA**
*Sosial pedoqogika*
*Naxçıvan Dövlət Universiteti*
*xuramaneliyeva93@gmail.com*

## TƏHSİLİN HUMANANİSTLƏŞDİRİLMƏSİNİN PSİXOPEDAQOJİ TƏHLİLİ

Dünyanın humanist dərki insan şəxsiyyəti ilə bağlıdır. Şəxsiyyətin inkişafı isə mürəkkəb prosesdir. Bu prosesdə həm kəmiyyət, həm də keyfiyyət dəyişikliyi baş verir. İnkişaf prosesi ziddiyyətlərlə şərtlənir. Elə bu səbəbdən də insanla, onun mənəvi ehtiyacı ilə bağlı olan, dialoji mədəniyyət prosesində üzə çıxan humanizm anlayışı da mürəkkəb olmaqla yanaşı, həm də çoxparametrli hadisədir. O ümumsosial səviyyədə bəşəriyyətin mənəvi tərəqqisinin, ruhi inkişafının məqsədi və kriteriyası kimi çıxış edir. Əgər problemə birinci aspektdən yanaşsaq, aydın olar ki, humanizm, insanın (həm də insanlıq tarixinin) öz inkişafında can atdığı ən yüksək mənəvi idealdır. İdeal kimi isə əxlaqi borcun və insani dəyərlərin vəhdəti kimi dərk edilir. "Humanistləşdirmə" anlayışı "humanizm" və "humanistlik" anlayışlarından törəmədir. O problemin konstruktiv aspektini, dəyərlərin sisteminin yüksək mərhələsini ifadə edir. Humanistlik Azərbaycan dövlətinin təməl prinsiplərindəndir, dövlət siyasətində öz əksini tapır, qanunlarda təsbit olunur. Humanistlik "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda təhsil siyasətinin əsas prinsiplərindən biri kimi verilir. Təhsil Qanununda "humanistlik - milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması kimi şərh edilir. Dövlət siyasətinin humanist mahiyyəti, hər şeydən əvvəl, cəmiyyət üzvlərinin bir-birinə humanist münasibətində və dövlətin cəmiyyətin humanistləşdirilməsinə yönəldilmiş layihələrin icrasına dəstək verməsində öz əksini tapır. Pedaqoji-psixoloji ədəbiyyatda ümumtəhsil məktəbində təlim-tərbiyə prosesinin humanistləşdirilməsi ilə bağlı müxtəlif nöqteyi-nəzərlər vardır. Tədqiqatçıların bəziləri hesab edir ki, təlim və tərbiyə prosesinin humanistləşdirilməsi müəllim tərəfindən şagird şəxsiyyətinin "unikallığının" qəbul edilməsi, qayğı göstərilməsi, hər kəsdə "şəxsi inkişafın açarının" olmasına inamla bağlıdır. Bu ideyanın tərəfdarları daha çox K.Rocersin şəxsiyyətyönümlü təhsil konsepsiyasına istinad edirlər. Bu konsepsiyaya görə, "məktəb şagirdi dünyaya uyğunlaşmağı və dünyaya uyğun dəyişməyi öyrətməlidir''. Bu da fərdin şəxsi axtarışları nəticəsində əldə olunan həyatı bacaraqlara əsaslanan davamlı biliklərin olmasını tələb edir. Onun təhsil konsepsiyasında insana inam, insanın özünütəsdiqi, özünüreallaşdırması, özünüdərk prosesi və azadlığı mühüm yer tutur. Onun fikrincə, pedaqoji prosesdə diskussiya yolu ilə kompromis variantlar tapmaqla, qarşılıqlı güzəşt yolu ilə münaqişələri asanlıqla aradan qaldırmaq olar. Digər bir qrup tədqiqatçı alim isə təhsil-tərbiyə prosesinin humanistləşdirilməsinin əsas yolunu təhsilin humanitarlaşdırılmasında görürdülər. Onların fikrincə, humanitarlaşdırma yolu ilə şagirdin təfəkkürünü, mənəvi aləminini inkişaf etdirmək, həyata münasibətini dəyişmək, mədəni (emosional, mənəvi və estetik) zənginliyə qovuşdurmaq mümkündür. Bu da uşağın insanlara, özünə və işə münasibətinin formalaşmasını təmin edir. Humanitarlaşdırma təhsilin məzmununda ciddi dəyişikliyi tələb edir. Təlim prosesində şagirdlərin əqli, əxlaqi və ruhi inkişafına istiqamətlənmiş humanitar məzmun humanist hisslərin yaranmasını təmin edir. Araşdırma zamanı belə qənatə gəldim ki, keçən əsrin 70-80-ci illərində və müasir dövrdə Azərbaycanda və Rusiyada təhsilin humanistləşdirilməsi ilə bağlı aparılan diskussiyaların məğzində akademik Ş.Amonaşvilinin ideyaları dayanır. Onun rəhbərliyi altında keçən əsrin 60-70-ci illərdə Gürcüstan məktəblərində yeni məzmunlu eksperimentlər aparılmağa başlandı. 1986-cı ildə "Əməkdaşlıq pedaqogikası" manifesti qəbul edildi.Ş.A.Amonaşvili hesab edir ki, pedaqoji prosesin humanistləşdirilməsi şagirdlərə "məyusluqdan daha çox uğur, kədərdən daha çox sevinc, konfliktlərdən daha çox birlik, ədəbsizlikdən daha çox tərbiyəlilik, yerində saymaqdan daha çox yaradıcılıq" gətirir. Pedaqoji prosesin humanistləşdirilməsinin açarını o şagirdlə müəllimin mənəvi birliyində görürdü. Bu o deməkdir ki, təlim-tərbiyə prosesində şagirdlərin emosional sferasını inkişaf

etdirmək məqsədilə müxtəlif stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, həvəsləndirici situasiyaların yaradılması vacibdir. Motivasiya proqram-məqsədli yanaşmaların arsenalında çoxsaylı stimullaşdırıcı situasiyalar var ki, onlar da məktəblilərdə emosionallığa və mənəvi inkişafa təkan verir. Təlim-tərbiyə prosesinin iştirakçılarının əməkdaşlığı pedaqoji prosesin humanistləşdirilməsinin vacib şərtidir. Humanizm mənəvi dəyər kimi cəmiyyətdə əxlaqi münasibətlərin təzahürünün bir forması kimi çıxış edir. Deməli, humanizm həm mənəvi dəyərdir, həm əxlaq normasıdır.Təhsilin humanistləşdirilməsi pedaqoji prosesin mənəvi əsasıdır. Bu, yaradıcı təlim fəaliyyətinin, dərketmənin və ünsiyyətin fəal subyekti kimi şagirdin şəxsiyyətinin inkişafına yönəlmiş prosesin pedaqoji-psixoloji xarakteristikasıdır.

Müasir dövrdə böyüyən nəslin tərbiyəsində özünü göstən qüsurların çoxu onlarda humanitar mədəniyyətin olmaması ilə bağlıdır. Təhsilin məzmununda kulturoloji yanaşmanın nəzərə alınması insanlarda humanitar mədəniyyətin yüksəlməsini şərtləndirir. İnsandakı mövcud mədəniyyət və dəyərlər ümumbəşəri mədəniyyətlə harmoniyada daha intensiv inkişaf edir. Mədəniyyət insanı fəaliyyətə həvəsləndirir. İnsanın fəaliyyəti nə qədər rəngarəng və məhsuldar olarsa peşə mədəniyyətinin mənimsənilməsi də bir o qədər səmərəli olur.Azərbaycan Respublikasında təhsilin bütün pillə və səviyyələri insan kapitalının inkişafı çağırışlarına cavab verməyə istiqamətlənib. Ümumtəhsil məktəbləri ilə bağlı Milli Kurikulum təsdiq olunub. Yeni Milli Kurikulum Çərçivəsi hazırlanır. Dünyanın mütərəqqi təhsil ənənələri Azərbaycan Respublikası Təhsil Nazirliyi əsasında millətin övladlarının intellektual, mənəvi və ruhi inkişafını təmin edə biləcək məzmun formalaşdırılıb. Ümumtəhsil məktəblərində verilən məzmun şagirdlərdə dünyanın inteqrativ mənzərəsini yaratmaqla yanaşı, onlarda yüksək dəyərlər formalaşdırmalıdır. Bu, ali bir məqsəddir, millətin ümumi inkişafına hədəflənib.Ənənəvi təhsil sistemində bu komponentlərə və onların qarşılıqlı əlaqəsinə ciddi əhəmiyyət verilmirdi, bəzi hallarda passiv qavrama üstünlük təşkil edirdi. Şagirdlər diqqəti daha çox müəllimin monoloq şəklində söylədiklərini əzbərləməyə yönəldilirdi. Şagirdlər çox hallarda öyrənmə, tapma, kəşf etmə sevincini yaşamırdılar. Məktəb həyatının humanistləşdirilməsində bu, çox vacib məsələdir. Şagird öyrənmənin emosiyasını, həyacanını yaşayanda, prosesin tamhüquqlu üzvü olanda mənimsəmə prosesi asanlaşır.Təhsil sisteminin formalaşmasında ictimai-tarixi şərait mühüm rol oynayır. Təhsildəki tendensiyalar dövlətin sosial-iqtisadi və siyasi həyatının təzahürü, ictimai sistemin tələbləri ilə bağlıdır. Bu yanaşmanı metodoloji əsas kimi götürsək, təhsilin humanistləşdirilməsinin obyektiv (insanların təhsil səviyyəsi, texnokratlaşma və humanist insan, siyasi azadlıq və humanist münasibət) və subyektiv (prosesin subyektləri, mənəvi istehsal məhsulları, məktəbin inkişaf proqramı, təhsilin məzmunu, təhsil texnologiyaları, müasir dərsin struktu amillərini) müəyyənləşdirə bilərik.

Hələ 90-cı illərin əvvəllərində dövlətimiz müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının qurucusu Ulu öndər H.Ə.Əliyev öncə təhsil sahəsində islahatların aparılması ilə bağlı sərəncam verdi. 1999 – cu il 15 iyunda “Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı” qəbul olunmuşdu. İslahatın məqsədləri qarşısında demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, differensiallaşdırma, fərdiləşdirmə, humanitarlaşdırma prinsiplərinə əsaslanaraq təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim – tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsil alanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması durur. Bütün təhsil müəssisələri, tədris prosesi uşağın, şagirdin, yəni təhsil alanın arzu və istəklərinə uyğun olmalı, onun meyl və maraqları, fərdi psixoloji xüsusiyyətləri, potensial imkanları nəzərə alınmaqla qurulmalıdır. Şagirdə həm mənəvi, həm fiziki cəhətdən gücü çatan, götürə bildiyi qədər bilik, məlumat verilməlidir. Tədris prosesi şagirdi yormamalı, eyni zamanda onlar üçün sevinc, fərəh mənbəyinə çevrilməlidir. İstedad və qabiliyyətləri müxtəlif olan şagirdlərə fərqli yanaşılmalı, zəiflərin güclülərin yanında buxara çevrilməsinə imkan verilməməlidir. Şagirdlər istəklərinə uyğun öyrənməyi öyrənməlidirlər. Bunun üçün təhsil müəssisəsi elə təşkil olunmalıdır ki, şagirdlərin özlərində öyrənməyə maraq, ehtiyac, tələbat yaransın. Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi, öncə, müəllim-şagird münasibətindən, müəllim

rəftarı və nümunəsindən başlayır. Münasibətdə qarşılıqlı hörmət və ehtiram, sevgi və əməkdaşlıq, sağlam rəqabət əsas yer tutur.

Təhsilin humanistləşdirilməsi, ilk növbədə, uşağa münasibətin dəyişməsi, yəni təlimdə subyekt-subyekt münasibətlərinin bərqərar olması, müəllim və şagirdin əməkdaşlıq şəraitində fəaliyyət göstərməsi deməkdir.Bu gün humanist müəllimin sosial - psixoloji portretini təsəvvür edərkən ilk növbədə, onun şagirdin qabiliyyət və istedadına optimist yanaşması, yaşından asılı olmayaraq hər bir uşağa gələcəyin böyük adamı kimi baxa bilməsi, tolerantlığı, ünsiyyət mədəniyyəti nəzərdə tutulur. Təsadüfü deyil ki, təhsillə bağlı qəbul edilmiş bütün normativ - hüquqi sənədlərdə, o cümlədən "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu" nda humanistlik əsas prinsip kimi ön planda dayanır. Humanistlik – milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunmasını ifadə edir

**NƏRMİN ƏLİYEVA**
*Sosial pedaqogika*
*Naxçıvan Dövlət Universiteti*
*nermin23.aliyeva@gmail.com*

# İNTERAKTİV TƏLİMƏ ƏNƏNƏVİ VƏ FƏAL TƏLİMDƏN KEÇİD

Pedaqoji tədqiqatlardan məlum olmuşdur ki, təlim prosesinə metodik yanaşmanın əsas üç növü vardır:

- Passiv ənənəvi təim
- Müasir fəal təlim
- Yeni interaktiv təlim

Passiv ənənəvi təlim metodunda müəllim əsas sima olub yalnız şagirdlərə diqtə edir, öyrədir. Buna ənənəvi təlim prosesi deyilir ki, uzun illər belə təlim prosesi mövcud olmuş və bu gün də yeniliyə can ataraq yaşamaqdadır. Ənənəvi təlim prosesində müəllim fəaldır, şagirdlər isə passiv dinləyicidirlər. Müəllim deyir, şagirdlər isə eşidir. Belə dərs prosesində qarşılıqlı əlaqə, əks əlaqə yoxdur. Şagird bu prosesdə yalnız bir obyektdir. Müəllimin şagirdlərlə əlaqəsi yalnız suallara verilən cavablar, yazı işləri vasitəsilə həyata keçirilir. Şagirdlərə çatdırılan biliyin mənimsənilməsi baxımından bu metod səmərəsizdir.

Bu prosesdə yalnız biliklər, məlumatlar genişləndirilir, inkişaf etdirilir. Buna inkişafetdirici təlim yox, təlim inkişaf etdirir deyə bilərik. Şagirdin belə fəaliyyəti produktiv deyil, reproduktiv təlim adlanır. Bu fəaliyyətin növləri bir-biri ilə sıx əlaqədə olsa da onlar şagirdin inkişafına müxtəlif dərəcədə kömək edirlər.

Ənənəvi dərsin ən geniş yayılmış növlərindən biri məktəb mühazirəsidir. Bu növ dərs tipi 10-11ci siniflərdə həyata keçirilir. Belə ki, yuxarı sinif şagirdləri artıq formalaşmış insanlardır ki, onların qarşılarında aydın məqsəd durmuş və məktəb mühazirəsini qəbul edə bilirlər.

Ənənəvi təlimin müəyyən imkanları da vardır. Belə ki, ənənəvi pedaqoji prosesi təsvir edəndə biz ilk növbədə lövhənin qarşısında duran, izah edən fəal müəllimi və onun sakit dinləyiciləri olan eşidən, yazan passiv şagirdləri görürük. Bu zaman müəllim çalışır ki, bilikləri çatdırsın, şərh etsin və misallar gətirsin. Şagirdlər isə bu məlumatları passiv şəkildə qavrayır, anlayır, mənimsəyir sonra bilikləri möhkəmləndirmək üçün bunları təkrarlayır və ya məsələlərin həlli prosesində tətbiq edirlər. Yəni ənənəvi dərsdə şagirdlər məlumatları yadda saxlamağa çalışırlar, müəllim isə nəticələri özü çıxararaq bilikləri hazır şəkildə şagirdlərə çatdırır. Öyrədici fəaliyyət ilk növbədə müəllimin fəallığı əsasında həyata keçirilir. Ənənəvi təlimin bu xüsusiyyətlərinə görə onu izahedici-illustrativ və ya reproduktiv təlim adlandırırlar.

Fəal təlim metodu elə metodudur ki, dərs prosesində müəllimlə şagird arasında qarşılıqlı əlaqə, münasibət, ünsiyyət. müəllim-şagird əməkdaşlığı vardır. Şagirdlər passiv dinləyici deyillər. Onlar dərsin fəal iştirakçılarıdır, müəllimin yaxın köməkçisidirlər. Əgər passiv təlim metodunda müəllim əsas fiqura, əsas sima idisə, indi müəllim və şagird birlikdə dərsin əsas qurucusu, təşkilatçılarıdır.

Fəal təlimdə müəllim və şagird eyni səviyyədə, eyni dərəcədədirlər. Əgər passiv dərs avtoritar, avtokratik üslubda qurulursa, fəal dərs tipində əməkdaşlıq, işgüzarlıq, demokratik prinsiplər öz əksini tapır.

Fəal təlimdə müəllim şagirdə təsir göstərdiyi kimi, müəllim özü də şagirddən öyrənir.

Fəal təlimdə qarşılıqlı dialoq, əməkdaşlıq hökm sürür.

Fəal təlim demək olar ki, təlim prosesinin elə təşkili formasıdır ki, burada müəllim bilikləri ötürən rolundan imtina etməklə yeni bir vəzifəni-bələdçi başqa sözlə fasiltator vəzifəsini öz üzərinə götürmüş olur.

İnteraktiv təlim metodları özü də fəal təlim prosesinə daxil olan metodlardandır. Burada biliyin əsas qrup və cütlərlə iş formalarından müntəzəm şəkildə istifadə etməklə axtarılıb tapılması

ön pana çəkilir.

Fəal təlim prosesində sinif, auditoriya passiv, seyirçi, sadəcə dinləyici deyildir. Bu təlim prosesində sinif şagirdləri qrup və cütlər formasında problemin həlli yollarına dair birgə axtarışa çıxır, qruplar əldə olunmuş nəticələri işçi vərəqlərində qeyd edir, sonra onun təqdimatını həyata keçirirlər. Təqdimatlar bitdikdən sonra bu tədqiqat nəticələri arasında rabitə yaradılır, məlumatlar sistemləşdirilir və ümumi bir şəkildə təsnif olunur.

Beləliklə, deyə bilərik ki, fəal təlim təfəkkür əməliyyatlarına əsaslanır; Bütün dərslərdə dialoq və əməkdaşlıqdan istifadə olunur; Bütün dərs boyu şagirdlərin fəaallıq və təşəbbüskarlığı təmin olunur; Dərsdə əks əlaqə, fənlərin inteqrasiyası, şagirdlərin fəallığı, yaradıcılığı, müstəqilliyi təmin olunur; Dərs tədqiqat, araşdırıcılıq istiqamətində keçirilir; Müxtəlif bilik mənbələrindən texniki təlim vasitələrindən istifadə edilir.

İnteraktiv təlim prosesində isə əsas diqqət şagirdlərin hərtərəfli inkişafına, şəxsiyyətin həyatda fəal mövqe tutmasına, tənqidi təfəkkürün formalaşmasına, yaradıcı və müstəqil düşünən insanın yetişməsinə yönəldilir.

İnteraktiv təlim metodu ilə qurulan dərslər ənənəvi dərslərdən köklü şəkildə fərqlənir. Belə dərslər tam sərbəstlik şəraitində keçirilir. Şagirdlər özlərinin bütün billik, bacarıq və istedadlarını nümayiş etdirir, zəif oxuyan yoldaşlarını öyrətməyə çalışır, özləri də biliklərini artırırlar.

Fəal və interaktiv təlim anlayışlarının bir çox cəhətləri bir-birilə çox yaxın və ümumidir. Belə ki, hər iki metodla keçirilən dərs şagirdləri fəallaşdırmağa yönəldilmiş, hər ikisində şagirdlərə hazır biliklər verilmir, onlar axtarıcılığa, tədqiqatçılığa sövq edilir, hər ikisində müəllim-şagird münasibətləri, ünsiyyət və dialoq hökm sürür.

İnteraktiv və fəal təlim metodlarının tətbiqi zamanı bir çox çətinliklərlə də qarşılaşmaq olar. Belə ki, fəal təlim metodları ilə iş prosesində bəzi hallarda şagirdlərə fərdi yanaşma prinsipi pozulur, bu metodlardan heç də bütün dərslərdə, bütün mövzuların tədrisində istifadə etmək mümkün olmur. Bu metodlarla işləmək üçün müəllimin təcrübəsi və yaradıcı qabiliyyəti olmalıdır.

## ƏDƏBİYYAT

1. R.Abbasova. Yeni pedaqoji təfəkkürə əsaslanan interaktiv metodların tətbiqi təcrübəsindən. "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 2002, №1

2. Ə.Ə.Ağayev. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. Bakı: ARTPİ-nin "Elmi əsərləri", 2006

3. Ş.O.Ağayev. İbtidai siniflərdə fəal təlimin nəzəri və praktik məsələləri. Bakı:2007

4. M.M.Həsənov, C.Bəhmənova. İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri-praktik məsələləri. (Metodik vəsait). Bakı: 2009

5. F.İbrahimov, R.Hüseynzadə. Pedaqogika. II cild, Bakı: 2012

**FATMA NƏSİRLİ**
*Sosial pedaqogika*
*Naxçıvan Dövlət Universiteti*
*fatimanesir@gmail.com*

# UŞAQLARDA ƏXLAQİ KEYFİYYƏTLƏRİN TƏRBİYYƏSİNDƏ İSTİFADƏ OLUNAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI NÜMUNƏLƏRİNİN TƏLİM-TƏRBİYƏ İMKANLARI

Xalq pedaqogikasının ilk və etibarlı mənbəyi şifahi xalq yaradıcılığıdır. Şifahi xalq yaradıcılığı milyonların tükənməz tərbiyyə və təlim məktəbi hesab olunur. Xalq düşüncəsinin, xalq zəkasının məhsulu olan şifahı xalq ədəbiyyatı və bu ədəbiyyatın müxtəlif janrları bəşər nəslinin yaratdığı mənəvi sərvətlərdəndir. İnsan yarandığı gündən əxlaqi keyfiyyətlər sahəsində də çox qiymətli fikirlər söyləmiş, gənc nəslin tərbiyyələnməsi üçün faydalı, bəlkə də əvəzsiz nümunələr yaratmışdır.

Tarix buyu xalqımızın əxlaqi keyfiyyətlər haqqınnda irəli irali sürdüyü fikirlərin, idealların böyük bir qismi ilk ifadəsini şiahi xalq ədəbiyyatında tapmışdır. Nəsildən-nəslə keçən şifahi xalq ədəbiyyatı nümunələrinin müəllifləri olmasa da, onlar ilk dəfə ayrı-ayrı fərdlər tərəfindən yaradılmışdır. İrəli sürülən qiymətli ideallar ağızdan-ağıza, dildən-dilə keççmiş və bu materialları xalq öz düşüncə tərzində qoruyub saxlamış, geniş xalq kütləsinin zəngin xəzinəsinə çevrilmişdir.

Şifahi xalq ədəbiyyatı nümunələrində elmə həvəs, əməyə məhəbbət, eləcə də bir çox müsbət insani keyfiyyətlərə aid bu gün də öz əhəmiyyətini itirməyən qiymətli tövsüyyələr həmin xəzinənin əvəzsiz incilərindəndir.

Xalq ədəbiyyatı özünün inkişaf mərhələlərində xalqın əxlaqi tərbiyəsinə xidmət etmiş, mənəvi silaha çevrilmiş, əsl tərbiyə məktəbi olmuşdur.Onun yaradıcıları xalqın müdrik adamları - ağsaçlı atalar va analar, onu mənimsəyənlər, hafizədə qoruyub yaşadanlar isə xalqın övladları- uşaqlar və gənclərdir.

Şifahi xalq yaradıcılığının böyük idrak və tərbiyə əhəmiyyətini dərindən duyan görkəmli pedaqoqlar. maarif xadimləri, müəllimlər əsrlər boyu yetişməkdə olan gənc nəslin təlim və tərbiyəsi prosesində ondan geniş istifadə etmişlər. İndi də bu məsələ öz aktuallığını qoruyub saxlamışdır. Təhsilin milliləşdirilməsində, milli özünü dərkdə şifahi xalq yaradıcılığının rolu və əhəmiyyəti daha da artmışdır.

Şifahi xalq ədəbiyyatı nümunələri məktəbə qədər yaş dövründən başlayaraq ömrü boyu insan şəxsiyyətinin formalaşmasında, maddi aləmı dərk etməsində, mənəvi cəhətdən paklanmasında həyata və əməyə bağlanmasında müstəsna didaktik əhəmiyyət kəsb edir.

Elə bir xalq olmaz ki, onun zəngin şifahi ədəbiyyatı, nağılları, hikmətli sözləri və.s olmasın. Əsrlər boyu xalqın həyat təcrübəsini, azadlıq uğrunda mübarizəsini, arzu və istəklərini əks etdirən şifahi xalq ədəbiyyatı nümunələrində böyük söz ustaları, pedaqoqlar, sənətkalar bir mənbə kimi istifadə etmiş, ondan bəhrələnmişlər.

Azərbaycan folklorunun epık növünə aid olan janrlar içərisində nağıllar xüsusi yer tutur. Nağılların xüsusiyyətləri haqqında bir çox folklorşünaslar fikir söyləmişlər. Y.V Çamənzəminliyə görə nağıllarda əsas cəhət haqqın nahaq üzərinda qələbəsindən ibarətdir. F.Köçəli isə göstərmişdir ki, bütün nağılların sonunda nağılçı dinləyicilərə üzünü tutub deyir. "Onlar yedilir içdilər, yerə keçdilər, sizdə yeyin-için, dövrə keçin ".

**Nağıllarda xeyirlə şər həmişə bir-irinə qarşı mübarizə aparmış və maraqlıdır ki,ən gözəl, ən nəcib əməllərin keyfiyətlərin carçısı olan xeyir həmişə qalib gəlir. Baxmayaraq ki, xeyir bəzən uğursuzluğa və məğlubiyyətə uğrayır, lakin ən son nəticədə qələbə onun olur. Xalq nağıllarında zülmkarlığın, bədxahlığın şərin həmişə uğursuzluğa, məğlubiyyətə düçar olması qeyd olunur** Insanlara bu çətin əməllərdən uzaqlaşmaq tövsüyyə edilir. Hər bir adam xeyir işlər görmək , mərd hərəkətlər etmək tövsiyə edilir (1).

Xalqın düşüncəsinə görə insan xeyirxah, qayğıkeş, diqqətli olmulıdır. İnsanlara kömək etməli

yaxınlarına dayaq olmalıdır. İnsanlara diqqətli, qayğıkeş münasibət nağıllarda qəhrəman vasitəsilə əks etdirilir. Nağıllarda təsvir olunan qəhrəmanlar olduqca zərif, həssas və mehriban qəlbə malik olurlar. bu qəhrəmanlar bütün insani keyfiyyətləri, xüsusiyyətləri özlərində ümumiləşdirirlər. Bu qəhrəmanlar xalq naminə başqasını əzabdan, işgəncədən, müsubətli həyatdan xilas etmək xatirinə heç bir çətinlikdən qorxmur, bəzən öz həyatlarını təhlükə qarşısına da qoyurlar.

Xalqımıza görə gözəl əxlaqi keyfiyyətlərdən biri də torpağa, vətənə məhəhbət hissidir. Azərbaycan xalq nagıllarında bu hiss vətənə məhəbbət, vətəni göz bəbəyi kimi qorumaqdan daha qabarıq şəkildə öz əksini tapır (2).

Nağıllarımızın əsas ideyalarından biri uşaqlarımızı, gənc nəsli bu ruhda- vətəni sevmək. ona hörmət etmək, onun qorunması və xilası üçün ölümə belə getmək ruhunda tərbiyə olunmaq təşkil edir. Azərbaycan xalq nağıllarında xeyirxahlığın, mərdliyin hörmət və nəzakətin əksini təşkil edən namərdlik, qorxaqlıq, yaltaqlıq, ikiüzlülük, hiyləgərlik və bu kimi keyfıyyətlər də özünün ifadəsini tapmışdır və gənc nəslə bu mənfi keyfıyyətlərdən uzaqlaşmaq tövsiyə edilmişdir.

Nağıllarımızda dostluq va yoldaşlıq hissi də yüksək qiymətləndirilmiş, dostluqda etibarsızlıq pislənmiş, ikiüzlü, pis əxlaqlı yoldaş və dostdan kənar qaçmaq tövsiyə edilmişdir. Xalqımız, düzlüyü, doğruçuluğu ən gözəl keyfiyyətlər hesab etmiş və uşaqlarımızı bu ruhda tərbiyə etməyi tövsiyə etmişlər. Nağıllarda ifadə olunan fikirlərə görə düzlük va doğruçuluq nəzakətliliyin və xeyirxahlığın formalarındandır. Düzlük əxlaqı keyfiyyətlərin an alilərindəndir. Bu hiss insan şəxsiyyətini cilalayan, ona gözəllik bəxş edan hisslərdəndir. Yəni bu hiss insan şəxsiyyətinə xoşbəxtlik çatırır. Düz adamlara xalq inanır, onun arxasınca g.edir Bu mənada düz adamlara zaval yoxdur. Nağılların əsas ideyasını təşkil edən əxlaqi keyfiyyətlərdən biri də təvazökarlıqdır. Təvazökarlıq hissi düzgün təşkil edilmiş tarbiyəvi təsir nəticəsində tədricən şəxsıyyətin əxlaqi keyfiyyətinə çevrilir (3).

Göründüyü kimi nağıllar uşaqlarda bir sıra əxlaqi keyfiyyətlərin formalaşması üçün elə qiymətli mənbədir ki, bundan düzgün və səmərəli istifadə nəinki yeniyetmə və böyük yaşlı uşaqların, eyni zamanda məktəbəqədər yaşlı uşaqların da əxlaq tərbiyəsində mühüm rol oynayır.

Şifahi xalq ədəbiyyatı nümunələrindən olan təmsil va lətifələrin də didaktik və tərbiyəvi imkanları böyükdür. Təmsil əxlaqi. nəsihətamiz səciyyə daşıyır. Başqa sözlə desək, yazıçı insanların hər-birinə münasibətində müşahidə etdiyi nöqsanları tənqid etməklə yanaşı, bir qayda olaraq özünün nəsihətamiz fikirlərini də irəli sürür. Təmsil uşaqları ətraf aləmlə tanış edir, ətraf aləmdəki əşya və hədisələr arasındakı əlaqə va münasibətlərlə asanlıqla tanış edir, onlann mənəvi tərbiyəsinə güclü təsir göstərir (4).

Lətifələrdə xalq satirasının yumoru çox güclüdür. Bu cəhətdən Molla Nəsirəddinin lətifələri böyük əhəmiyyət kəsb edir. Lətifələrin məzmunu yığcam, tərbiyəvi əhəmiyyəti isə çox böyükdür. Atalar sözləri ilə tanışlıq uşaqların nitqini zənginləşdirməklə, təfəkkürünü, zehnini və zövqünü inkişaf etdirməklə hərabər əxlaqi keyfiyyətlərini də cilalayır. Alalar sözləri uşaqları pis, nalayiq işlərdən çəkinməyə, yaxşı hərəkətlərə, xeyirxahlığa, düzlüyə, təmizliyə, igidliyə, qocalara hörmət etməyə çağırır.

Şifahi xalq ədəbiyyatı nümunələrində ifadəsini tapmış tarixi təcrübədə, fikir və ideyalarda yaxşı, faydalı nə varsa onları tədris prosesində müəllimlər şagirdlərə dərindən mənimsətməlidir.

Deyilənləri yekunlaşdıraraq belə bir qənaətə gəlmək olar ki, şifahi xalq ədəbiyyatı nümunələrində ailədə, uşaq bağçalarında və məktəblərdə əlaqəli və ardıcıl fomada istifadə etməklə uşaqlarda müsbət əxlaqi keyfiyyətləri formalaşdırmaq olar. Bu işin yerinə yetirilməsində isə valideynlərin, tərbiyəçilərin və müəllimlərin qarçısında mühüm vəzifələr durur (5).

## ƏDƏBİYYAT

1) Məktəb pedaqogikası Bakı: Maarif, 1982
2) N.Kazımov, Ə.Həşimov. Pedaqogika. Bakı: 1996
3) İbrahimov F. N. Ümuni pedaqogikadan mühazirələr. Bakı: 2010
4) Qasımova L., Mahmudova R. Pedaqogika. Bakı: 2003
5) Ə.Paşayev, F Rüstəmov. Pedaqogika. Bakı: 2007

**XEYRƏNSƏ FƏRZƏLİYEVA**
*Təhsildə qiymətləndirmə və monitorinq*
*Naxçıvan Dövlət Universiteti*
*xeyrense19991999@gmail.com*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA MİLLİ OYANIŞ VƏ PEDAQOJİ FİKRİN İNKİŞAFI

XX əsrin ilk iki onilliyi Azərbaycan xalqının tarixinə milli özünüdərketmə və oyanış dövrü kimi daxil olmuşdur. XX əsrin 20 –ci illərinə kimi Azərbacanda pedoqoji fikrin araşdırılmasında dair bir sira çətinliklər törədilmişdir. Bu dövrdə məktəb və pedoqoji sahələri araşdıran müəssisələr və mütəxəssislər demək olarki yox idi. Çox təəssüf ki, qədim dövr abidələrini, ədədbiyyatlarını araşdıran tədqiqat işləri də çox deyildi. Əsrlər keçdikcə, mədəniyyət formalaşdıqca ideyalar və müəyyən sahələrdə işlər artdıqca "Məktəb və pedaqoji fikir tarixi" adlanan sahə yarandı. 1920-1991 –ci illərdə Azərbayacanda pedaqogika elminin inkişafı və problemlerini tədqiq edən ilk gənc Fərrux Rüstəmov olmuşdur. "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" nin ali məktəblərimizdə öyrənilməsi isə akademik Hüseyn Əhmədovun adı ilə bağlıdır. (Azərbaycan tərbiyə, təhsil və pedaqoji fikir tarixi Rüfət Lətif oğlu Hüseynzadə Bakı ADPU, 2020, 538 s) Bu fənn aparıcı mövqeyini hələdə qorumaqdadır. Sonalar 1984,1992,1996- cı illərdə bu dərslik yenidən təkmiləşdirilməyə başlamış və nəşr edilmişdir. Burada əsas məqsəd mütəxəssis kadr heyəti hazırlamala yanaşı, həmçinin ixtisaslaşmış müəllim heyəti ,müəllim-pedaqoq və tədqiqaçılar yetişdirməkdir. Azərbaycanda pedoqoji fikrin çox qədim tarixi var. Təhsilimizi, tərbiyə və pedoqoji irsimizi qədim zamanlardan başlayaraq öyrənmək ən əsas şərtlərdən biri olmuşdur. Buna dair bədii ədəbiyyatlarda ,dini fəlsəfi və başqa tədqiqat işlərində kifayət qədər məlumat vardır. Müdriklərin də dediyi kimi: "Keçmişi unutmaq olmaz ,çünki keçmiş gələcəyin müəllimidir".

Azərbaycanda pedoqogika elmi qədim zamanlardan başlayaraq tərbiyə, təlim, təhsil problemlərini həmçinin təhsil məsələlərini, mariflədiricilik mövqeyini alim və filosofların pedaqoji xidmətlərini tədqiq edərək öyrənir. İlk dövrlərdə məktəb və pedoqoji fikir haqqında yazılan məqalə, jurnal və qəzetlərdə çıxan məlumatlar heç kim tərəfindən müsbət qarşılanmır və tədqiq edilmirdi. Azərbaycanda təlim və tərbiyənin yeni konsepsiyasının inkişaf tendensiyasını müəyyənləşdirməyə çalışan bir neçə illik araşdırmadan sonra idea, fikir və təcrübələrin ayrı-ayrı şəxsərin təlim tərbiyə bağlı fikirlərinin tədqiqinə başladılar. Daha sonra tarixində baş verən siyasi, ictimai dəyişikliklər Azərbaycan xalqının mədəni həyatında xeyriyyəçilik və maarifçilik hərəkatının yayılmasına gətirib çıxarmışdır. Çox keçmədən milli maarifçilik tariximizdə özünəməxsus silinməz iz buraxmış mədəni-maarif cəmiyyətləri fəaliyyətə başlamış və təkrar olunmaz xidmətlər göstərmişdir. Bununla belə Azərbaycanda qadın təhsilinin təşəkkülü və inkişafı, qadınların savadlanması bilik bacarıqlara yiyələnməsində də böyük təşəbbüslər irəli sürülmüşdür. Və beləliklə, 1901-ci ildə H.Z.Tağıyevin açdığı Qız məktəbi tariximizdə müstəsna rol oynamışdır.

Bildiyimiz kimi, baş verən hərəkatların təşəkkül tarixinin və yayılma prosesinin obyektiv şəkildə tədqiq və təbliğinin günümüz üçün də inkarolunmaz əhəmiyyəti vardır. XIX əsrin ikinci yarısında dörd istiqamətdə siyasi qüvvə və hərəkatlar baş vermişdi. Onlardan biri də "maarifçi demokratlar" hərəkatı idi. Bu hərəkatın görkəmli nümayəndələri M.F.Axundov, H.B.Zərdabi, M.Ələkbər Sabir ,S.R.Əlizadə S.Ə.Şirvani, M.T.Sidqi, H.Mahmudbəyov, R.Əfəndiyev, S.M. Qənizadə və b. idi. Bununla yanaşı XX əsrin əvvəllərində Azərbaycanda, xüsusən də Bakıda geniş yayılan ictimai-siyasi hərəkatlardan biri də sosialist-demokratiya hərəkatı idi. O, fəhlə ideologiyasını təmsil edirdi. Bu hərəkatın başında əsasən qeyri-azərbaycanlılar dururdular. Onlardan P.Toçiyskini, A.Yenukidzeni, S.Avetisyanı, İ.Krasini, A.Begzadyanı, B.Knunyantsi, İ.Sturuanı, V.Ketsxovelini və b. göstərmək olar. Bu hərəkata azərbaycanlılardan da qoşulanlar var idi. Əvvəllər M.H.Hacınski, M.Ə.Rəsulzadə də bu hərəkatda iştirak etmişdilər. Azərbaycan tarixinin XX əsrin əvvəlləri dövrü siyasi partiya və təşkilatların meydana gəlməsi ilə də səciyyələnmişdir.

Sonda onu qeyd etmək lazımdırki, pedoqogika insan həyatının müxtəlif sahələrində və təşəkkül prosesində hər zaman əsaslı rol oynamış, öz quvvəsini saxlamağı bacarmışdır. Həmçinin, Azərbaycan məktəb və pedaqoji fikir tarixi kursu gələcək müəllimlərin pedaqoji ixtisaslara yiyələnməsində dünyagörüş və pedaqoji görüşlərinin inkişafında, Azərbaycan pedaqoji irsinin ,tərbiyənin, təlimin, təsəvvürlərin formalaşması və genişlənməsində əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Sovet Ensiklopediyası.c.1-10, Bakı: 1976-19845.
2. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu XX yüzilliyin əvvəlləri). Bakı:1999
3. Ağayev Ə. Pedaqoji fikrimiz: dünənimiz, bugünümüz. Bakı: 2000
4. Rüfət Lətif oğlu Hüseynzadə. Pedaqogika tarixi.

**GÜLTƏKİN RÜSTƏMLİ**
*Naxçıvan Müəllimlər İnstitutu*

# ŞAGİRDLƏRİN TƏHSİLƏ MARAĞININ ARTIRILMASINDA MƏKTƏB PSİXOLOQUNUN ROLU

Bütün dövrlərdə insanın hərtərəfli formalaşmasını təmin edən təhsil amili istər təhsilverənlərin, istərsə də təhsilalanların ona münasibətindən çox asılıdır. Öyrədənin nəyi və necə öyrətməsi ilə yanaşı öyrənənin nəyi, niyə və necə öyrənməsinə marağı onun inkişafının hərəkətverici qüvvəsi kimi xüsusi təsir imkanına malikdir. Bu baxımdan şagirdlərin təhsilə marağının artırılması kortəbii proses olmayıb ona elmi və sistemli yanaşmanı tələb edir. Bu işin həyata keçirilməsi müəllim və valideynlə yanaşı, uşaq şəxsiyyətinin psixoloji inkişafının şərtlərini və xüsusiyyətlərini yaxşı bilən, ona kompleks yanaşma tədbirləri həyata keçirmək biliklərinə sahib olan məktəb psixoloqlarının üzərinə xüsusi vəzifələr qoyur. Məqalədə şagirdlərin təhsilə marağının artırılmasında məktəb psixoloqlarının gördüyü işlər, müasir dövrdə bu istiqamətdə tələblər və yeni yanaşmalar tədqiq olunmuşdur.

Təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarının inkişaf etdirilməsi və həyata hazırlanması məqsədi ilə sistemləşdirilmiş bilik, bacarıq, təcrübə və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsidir.

Təhsilin bünövrəsi məktəbdə qoyulur. Uşaqlar ilk elmi biliklərini məktəbdə alır. Ancaq heç də uşaqların hamısında təhsilə maraq olmur. Uşaqlarda təhsilə marağın artırılmasından söhbət gedirsə, əvvəla, “maraq” məfhumunu aydınlaşdırmalıyıq.

Maraq nədir?

**Maraq** – fərdin xüsusi cəhd göstərmədən öz istəyi ilə, zövq alaraq bir işə yönəlməsidir. Marağı bir insanın özü və çevrəsi tərəfindən təsdiq olunan davranışları kimi də qəbul etmək olar. K.İzard marağın anadangəlmə emosiya olmasını qeyd etməklə yanaşı onun inkişafında sosializasiyanın rolundan, insan şəxsiyyətinin formalaşmasında marağın kəsb etdiyi əhəmiyyətdən danışır.

Müşahidələr göstərir ki, bu və ya digər əmək yaxud təlim fəaliyyətinə marağın əmələ gəlməsi həmin fəaliyyətə olan qabiliyyətin oyanması ilə sıx surətdə bağlıdır və bu maraq qabiliyyətin inkişafına təkan verir. Hötenin təbirincə desək, *“Bizim arzularımız gizli qabiliyyətlərimizin, qabaqcadan hiss edilməsi, görə biləcəyimiz işlərin carçısıdır”.* Uşaqların davamlı maraqları onların qabiliyyətinin “lakmus kağızıdır”, böyükləri uşaqda qabiliyyətin olması barədə düşünməyə vadar edən siqnaldır.

Hər bir şagirdin maraq dövrü var. Bəzi şagirdlər mexaniki olaraq tapşırıqları icra edir, əksəriyyəti isə qiymət xatirinə oxuyurlar. Şagirdin maraqları üzərində qurulmayan dərsin effekti çox aşağı olacaqdır. Bu gün təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün dərslər şagirdin meyl və maraqları üzərində qurulmalıdır, şagirdlərin öz məsuliyyət və vəzifələrinin dərk olunması istiqamətində isə intellektual baxımdan səviyyələri qaldırılmalıdır. Bu, təhsil sistemində müasir yanaşmaların təşəkkülü çərçivəsində həyata keçirilməlidir. Dərsə qarşı şagirdin meyl və maraqlarının yaradılması və intellektin inkişafının psixoloji texnologiyalarını işlətmək üçün şagirdin ümumi psixi sferası öyrənilməli və inkişaf etdirilməlidir.

Bu gün şagirdin dərsi mənimsəmə səviyyəsini ölçərkən adi qaydada qiymətləndirmənin artırılması jeton üsullardan heç də fərqlənmir. Çox maraqlıdır ki, şagirdlərin əksəriyyəti yaxşı qiymət almaq xatirinə oxuyur, dərsə marağına görə qiymət almır. Çox nadir hallarda şagird “nə üçün oxuyuram?” sualına cavab olaraq gələcəyi düşündüyünü deyir, dərsə qarşı səmimi sevgisini ifadə edir. Bəs necə etməli praktik istiqamətdə əksər şagirdlər öz gələcəyini düşünsünlər, fənləri sevib oxusunlar?

Bu çətin işdir. Çünki illərlə gözləmələr, köhnə pedaqoji stereotiplər müasir təhsilə dönüşü çətinləşdirir. Köhnə jeton və aversiv psixoloji metodların effekti azalıb.

Məktəb təcrübəsində, təlim fəaliyyətini həyata keçirərkən çox vaxt belə bir sual diqqəti cəlb edir: şagirdi yaxşı oxumağa və ümumiyyətlə, oxumağa yönəldən, təhrik edən nədir?

Şagirdlərdən birinin yüksək səy göstərməsi, o birisində isə təlim fəaliyyətinə qarşı bu cür səyin olmaması nə ilə əlaqədardır? Başqa sözlə, şagirdlərin təlim fəaliyyəti necə motivləşir? Onlar hansı motivlərin təhriki altında hərəkət edirlər? Şübhəsiz, bu suallara düzgün cavab tapılması psixoloqun həmin sahədə şagirdlərlə iş aparmasını, təlim fəaliyyətini idarə etməsini asanlaşdıra bilər. Birinci növbədə ümumiyyətlə motivin və motivləşmənin nədən ibarət olduğunu nəzərdən keçirək. **Motiv insanı hər hansı bir məqsədəyönəlmiş işə, fəaliyyətə təhrik edən səbəbdir.** İnsan beynində əks olunaraq onu fəaliyyətə təhrik edən və həmin fəaliyyəti müvafiq tələbatların ödənilməsinə yönəldən şeyləri A.N.Leontyev həmin fəaliyyətin motivi adlandırmışdır. Psixoloji tədqiqatlar ayrı-ayrı yaş dövrlərində təlim motivlərinin sistemini müəyyənləşdirməyə imkan vermişdir.

Motivlərin məzmun baxımından xarakteristikasına aşağıdakılar daxildir:

1. Təlimin şagird üçün şəxsi məna kəsb etməsi.
2. Motivin fəallığı – təlim şagird üçün şəxsi məna kəsb etdikdə, motiv fəal xarakter daşıyır; o, səy ilə oxumağa başlayır. Əks halda motiv təlimin gedişinə real təsir göstərmir.
3. Motivlərin ümumi strukturunda motivin yeri: əsas, aparıcı motiv özünün istiqamətindən (kollektivçi və eqoist xarakter daşımasından) asılı olaraq fəaliyyət prosesində müxtəlif rol oynayır.
4. Motivin müstəqil surətdə əmələ gəlməsi və təzahür etməsi. Motivlərin formalaşması və inkişafı prosesinə motivasiya deyilir. Ən ümumi şəkildə burada iki cəhəti fərqləndirmək olar. a) bu və ya digər motiv şagirdin özünün fəaliyyətində daxili proses kimi əmələ gəlir, başqa sözlə, şagird, obrazlı şəkildə desək, öz qəlbinin hökmü ilə fəaliyyətə başlayır; b) motiv yalnız yaşlıların köməyi şəraitində, xarici (zahiri) proses kimi əmələ gəlir, başqa sözlə, şagird başqa adamların – müəllimlərin və valideynlərin təhriki ilə işə başlayır. Bu iki cəhətin fərqləndirilməsi psixoloji cəhətdən xüsusilə zəruridir. Əgər yaşlıların nəzarəti olmadan müvafiq motiv aktuallaşmırsa, bu o deməkdir ki, həmin motiv şagird üçün hələ zahiri xarakter daşıyır. Belə hallarda şagird özünün təlim fəaliyyətinə formal münasibət göstərir.
5. Motivlərin dərkolunma səviyyəsi. Motivlərin dərk olunmasının özünəməxsus çətinlikləri vardır. Bu, hər şeydən əvvəl, onda ifadə olunur ki, məktəb yaşı dövründə dərk olunmayan təhriklər çox vaxt sosial cəhətdən əhəmiyyətli olan motivlərin aydın dərk olunmasına mənfi təsir göstərir. Bir çox hallarda isə, şagirdlər özlərinin motivlərini pərdələyirlər, təlim işinə laqeydliklərini gizlətmək üçün cürbəcür bəhanələr uydururlar. Bir sıra hallarda isə sadəcə olaraq bu, psixoloji müdafiə xarakteri daşıyır: şagird müxtəlif bəhanələr göstərməklə hərəkətlərinə haqq qazandırır, öz səhvlərini şəraitlə əlaqələndirir (işıq sönməsəydi tapşırıqları edəcəkdim, qonaq gəldi yazı işini yaza bilmədim və s.).
6. Eyni bir motivin müxtəlif fəaliyyət tiplərinə, tədris fənlərinə və tədris tapşırıqlarına şamil edilməsi: bir halda şagird bütün fənlərlə eyni dərəcədə maraqlanır, başqa bir halda isə bir və ya iki fənlə xüsusi maraqlanır, başqa bir halda isə bir və ya iki fənlə xüsusi maraqlanır, digər fənlər ilə kifayət qədər maraqlanmır.

Motivasiya daxili və xarici amillərlə şərtlənir. Daxili motivasiya sizə fərqli gələn şeyləri eləmək istəyidir. Xarici motivasiya isə ən faydalı olandır. Bir məqsədə çatmaq və ya bir cəzadan qaçmaq üçün etdiyimiz şeylərdir. Məsələn, bir uşağın dostları ilə futbol oynaya bilməsi üçün İngilis dilindən verilən tapşırığı bitirməsi xarici motivasiya ilə bağlıdır.

Yəni, şagirdin bir şeyi özü öyrənmək istədiyi üçün oxumasına nail olmuşuqsa və özü şəxsən bu vəziyyətdən razı qalırsa, onda daxilən motivasiya yarada bilmişik deməkdir.

Əgər şagirdin ailəsi onun motivasiyasını artırmağa əhəmiyyət vermirsə burada böyük bir problem var deməkdir. Heç kim öyrətməyibsə bir uşağın daxili motivasiyaya sahib olmağını necə gözləyə bilərik? Burada məktəb psixoloqunun rolundan danışacağıq.

Uşaqların təhsilə marağının artırılmasında məktəb psixoloqları xüsusi imkanlara malikdirlər. Birincisi, məktəb psixoloqları valideyn və müəllimlərdən fərqli olaraq dərin və əsaslı psixoloji biliklərə sahibdirlər. İkincisi, bu psixoloji biliklər məktəb psixoloqlarına uşaqların inkişafının

psixoloji şərtləri və mexnizmlərinə daha dərindən bələd olmaq imkanı verir. Üçüncüsü, uşaqları yaxşı tanımaq, onların inkişafının yaş və fizioloji imkanlarına bələd olmaq bu işin təşkilinə elmi və sistemili yanaşmanı təmin edir. Dördüncüsü, elmi və sistemli dəstək mexanizmləri hazırlayan psixoloq təhsilə marağın artırılması istiqamətində fərdi və qrup işinin təşkilində müəllimlərə yeni metodlar təqdim edir. Beşincisi, valideynlərlə bu istiqamətdə övladları ilə bağlı fərdi konsepsiyaların hazırlanması və tətbiq edilməsinə professional dəstək işini həyata keçirir. Altıncısı, bu işin təşkilinə kompleks yanaşmanı təmin edir.

Məktəb psixoloqu şagirdlərin öyrənmə qabiliyyətini və müəllimlərin dərs vermək qabiliyyətini dəstəkləyən yüksək ixtisaslı məktəb komandalarının üzvləridir. Uşaqlara və gənclərə akademik, sosial, davranış və duyğu müvəffəqiyyətlərində müvəffəq olmaq üçün ağıl sağlamlığı, öyrənmə və davranış bacarıqlarını istifadə edirlər.

Əslində məktəbə başladığı gündən etibarən uşaqlar zəif və güclü tərəflərini öyrənməlidirlər. Məktəb psixoloqu bu işdə onlara kömək etməlidir. Şagirdlərlə mütəmadi danışıqlar aparıb onları tanımalı, problemlərin həllində köməklik göstərib motivasiyalarını artırmalıdır. Psixoloqun şagirdləri tanıması və onların qabiliyyətlərinə bələd olması üçün də onlarla testlər aparmalı, müşahidə etməlidir. “Temparament testi”, “Reallaşmamış enerji potensialının qiymətləndirilməsi testi”, “İntellektual labillik” testi, “Rəssam - mütəfəkkir” testi və s. kimi testlər buna nümunə ola bilər.

Əvvəla, psixoloq uşaqların daxili motivasiyanı anladıqlarından əmin olmalıdır. Onlara hədəflərini gözlərinin önünə gətirib sanki reallaşmış kimi düşünmələrini öyrətməlidir. Beləliklə, şagird xəyalını qısa müddətdə olsa reallaşmış kimi görsə onda çalışmağa həvəs yaranacaq. Nə istəyirəm? nə üçün istəyirəm? suallarına səmimi cavab almaq lazımdır. Psixoloqun şagirdlərlə apardığı belə söhbətlərin nə qədər uğurlu olduğunu isə “Niyə oxumalıyam?” sualına şagirdin özü müstəqil şəkildə cavab tapa bildikdə görürük. Əgər bir şagird nə üçün oxuduğunu bilmirsə təbii ki, onda dəslərə qarşı həvəs olmaz. Ancaq oxumağının səbəbini dərk etsə, o özünün gələcək planlarını da müstəqil şəkildə qura bilər.

Bəzən şagird məqsədini bilsə də onda özünə qarşı inamsızlıq olur. Potensialını bilmədiyi üçün özünü reallaşdıra bilmir. Özünü hər işdə geri çəkir, sinif yoldaşlarının bir addım arxasında olur. Belə bir məqamda professional dəstəyə ehtiyac yaranır. İşinin peşəkarı olan məktəb psixoloqu belə bir şey müşahidə etdikdə dərhal bu vəziyyətə müdaxilə etməlidir. O, əvvəlcə bu güvənsizliyin mənbəyini araşdırmalı, sonra da vəziyyətə bağlı olaraq şagirdə köməklik göstərməlidir. Əgər şagird öz bilik, bacarıq, vərdişlərinə, təfəkkür imkanlarına inanarsa, o zaman qarşıya çıxan çətinlikdən qorxmur, müvəffəqiyyət üçün səy göstərir. Tapşırığı tələsmədən inamla icra edir.

Şagirdlərin təhsilə marağının artırılması istiqamətində məktəb psixoloqlarının konkret yerinə yetirmələri üçün bir neçə tövsiyyə:

1. Məktəb psixoloqu şagirdlərin qarşısına qoyduğu öyrənmə və gələcək kariyera məqsədlərinin aydın dərk olunmasına yardımcı olmalı.
2. İşin sonunda əldə olunacaq nəticənin mahiyyəti və əhəmiyyətini anlamaları üçün müxtəlif problem situasiyalar yaratmalı.
3. Təhsilin sadəcə ail təhsil alamaq üçün deyil müxtəlif peşələrə yiyələnmə istiqamətində olduqca əhəmiyyətli olmasını dərk etmələrinə çalışmalı.
4. Məqsədə çatmaq üçün təhsilin ən perspektivli yol olmasını izah etməli.
5. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün qərar qəbul etmək və iradi səy göstərməyin vacibliyini hiss etmələrinə yardımcı olmalı.

Yuxarıda göstərilən konkret müdəalar üzrə işin təşkili məktəb psixoloqlarına yardımcı olmaqla şagirdlərdə təhsil və özünütəhsil motivlərinin formalaşdırılmasını təmin edəcəkdir.

**Məqalənin elmi yeniliyi:** Məqalədə ilk dəfə olaraq şagirdlərin təhsilə marağının artırılmasında məktəb psixoloqunun fəaliyyətinə sistemli şəkildə yanaşılmış, bu işin təşkilinin konkret mexanizmləri təqdim edilmişdir.

**Məqalənin nəzəri və praktik əhəmiyyəti:** Məqalə ilə tanış olan məktəb psixoloqları nəzəri biliklərini artırmaqla öz praktik fəaliyyətlərində bu biliklərdən istifadə edərək şagirdlərdə təhsilə

marağın artırılması istiqamətində daha məqsədəyönəlmiş sistemli işin həyata keçirilməsinə müvəffəq olacaqlar.

Uşaqların təhsilə marağının artırılmasında məktəb psixoloqları xüsusi imkanlara malikdirlər:

- Birincisi, məktəb psixoloqları valideyn və müəllimlərdən fərqli olaraq dərin və əsaslı psixoloji biliklərə sahibdirlər.
- İkincisi, bu psixoloji biliklər məktəb psixoloqlarına uşaqların inkişafının psixoloji şərtləri və mexanizmlərinə daha dərindən bələd olmaq imkanı verir.
- Üçüncüsü, uşaqları yaxşı tanımaq, onların inkişafının yaş və fizioloji imkanlarına bələd olmaq bu işin təşkilinə elmi və sistemli yanaşmanı təmin edir.
- Dördüncüsü, elmi və sistemli dəstək mexanizmləri hazırlayan psixoloq təhsilə marağın artırılması istiqamətində fərdi və qrup işinin təşkilində müəllimlərə yeni metodlar təqdim edir.
- Beşincisi, valideynlərlə bu istiqamətdə övladları ilə bağlı fərdi konsepsiyaların hazırlanması və tətbiq edilməsinə professional dəstək işini həyata keçirir.
- Altıncısı, bu işin təşkilinə konpleks yanaşmanı təmin edir.

**XATİRƏ HƏSƏNLİ**
*Sosial pedoqogika*
*Naxçıvan Dövlət Universiteti*
*hesenlixatire303@gmail.com*

## MƏNƏVİYYAT: ONUN FƏLSƏFİ VƏ PEDAQOJİ MAHİYYƏTİ

Biz öz fikrimizi Heydər Əliyevin sözləri ilə başlamaq istərdik: "Bizim hamımızın bir vətəni var-bu Azərbaycan dövlətidir.Azərbaycanlı hər yerdə yaşaya bilər,ancaq azərbaycanlılığını,öz dilini,dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır" (2).

"Mənəviyyat" ərəbcə "Məna" sözündən yaranmışdır.İnsanın mənası,dəyəri deməkdir.Mənəviyyat insanın qəlbinin,ürəyinin gücü,paklığı, təmizliyi,düzgünlüyü deməkdir. Ona görə də mənəvi tərbiyə qəlb tərbiyəsi ilə bağlıdır. Mənəviyyat insanın daxili aləmini, xarakterini, insanlara, ətraf aləmə, hadisələrə münasibətini əks etdirən fərdi kateqoriyadır. Mənəviyyat insanın intellektual və təbii mahiyyətidir ki, bu, onun ruhi tərbiyəsini, daxili aləmini xarakterizə edir və özünü ifadə edir. Bura ilk növbədə insanın şərəfi, namusu, vicdanı, milli-mənlik şüuru, vətəndaşlıq qeyrəti, fədakarlığı, milli-mənəvi dəyərlərə hörməti, keçmişimizi, tariximizi, dilimizi, mədəniyyətimizi, adət və ənənələrimizi dərindən öyrənməsi, habelə xeyirxahlığı, mərhəmət və qayğıkeşliyi,həssaslığı və humanizmi,tolerantlığı,müasirliyi, insanlara hörmət və sevgisi, vətənə məhəbbəti kimi mənəvi keyfiyyətlər daxildir (5 ).

Dialektik sosial fəlsəfə cəmiyyətin mənəvi həyatına və sosial gerçəkliyə hansı ictimai şüur formasının güclü təsir etməsinin aparıcı mövqeyə keçməsinin səbəbini onun iqtisadi bazisə daha yaxın olması,iqtisadi mənafe və münasibətləri bilavasitə və daha dolğun əks etdirməsi ilə izah edir.

Mənəviyyat sistemində şəxsiyyət nüfuzu (avtoritet) heç də müəyyən siyasi imtiyaz,rəsmi vəzifə ilə deyil,mənəvi-əxlaqi nümunə əsasında,davranış və rəftar mədəniyyəti sayəsində əldə edilir.

Hazırda respublikamızda,xüsusilə əmək kollektivləri,ictimai qruplar,siyasi partiya və təşkilatlar, ailə məişət,mədəni münasibətlər, tibb və s. sahələrdə insanlar arasındakı qarşılıqlı əlaqə və münasibətlər çox hallarda, rəsmi, hüquqi normalarla deyil (onların rolu tam inkar edilməmək şərtilə), əsasən, əxlaq normaları ilə,davranış qaydaları ilə tənzim olunur.İctimai rəy,yəni daha təsirli vasitəyə çevrilir. Ona görə də hazırda şəxsi mənəvi nümunə, nüfuz, şəxsi fəallıq, təşəbbüskarlıq, təmizlik, ləyaqət hissi, işgüzarlıq və s. kimi yüksək mənəvi keyfiyyətlə cəmiyyətdə mühüm tərbiyəvi və tənzimedici vasitə kimi çıxış edir,sözlə işin uyğun gəlməməsi və mənəvi laqeydlik kimi əsas, "əxlaqi bəlaya"çevrilmiş halların aradan qaldırılmasına fəal müsbət təsir göstərir.

Cəmiyyətin mənəvi münasibətləri sistemində inzibati amirlik şəraitində formalaşmış və müəyyən cəhətlərdən indi də davam edən rəsmi dairələr,yuxarılar qarşısına mütilik və yaltaqlıq,aşağılara isə laqeyd,kobud,bürokratik münasibət bəslənilməsi halları adamlarda mənəvi passivlik,sosial-siyasi məqsədələrə inamsızlıq,bədbinlik əhval–ruhiyyəsi və s.yaradır,mənəvi həyat ziddiyyətlərinə "çıxılmaz"xarakter verir.

1995-ci ilin noyabrında qəbul edilmiş müstəqil Azərbaycanın yeni Konstitusiyası vicdan azadlığına tam təminat yaratdı.Müasir dövrdə yüksək qiymətləndirilməsi,bağlanmış məscidlərin açılması və yenilərinin tikilməsi,müsəlmanların Həcc ziyarətinin təmin olunması və s. ölkəmizdə vicdan azadlığının həyata keçirilməsi,ona tam təminat verilməsi nümunəsidir ( 1 ).

Hazırda dindarların əksəriyyəti qarşıya çıxan sosial-iqtisadi,mənəvi,siyasi,milli, müdafiə problemlərinin həll edilməsi uğrunda mübarizədə və mənəvi tərəqqi vəzifələrinin həyata keçirilməsində əhalinin bütün sosial təbəqələri ilə birlikdə işləyir,ölkəmizin sosial-iqtisadi və mədəni inkişafına öz töhvələrini verirlər. İqtisadi şüur-bəşəriyyət yaranandan bu günədək insanlara maddi istehsal,təsərrüfat fəaliyyəti, əmək prosesi, mülkiyyət, əmtəə mübadiləsi, maddi nemətlərin bölgüsü, istehsalın idarə olunması və s. haqqında müəyyən biliklər əldə etmiş,onları təkmilləşdirilmiş və

inkişaf etdirmişdir.

Mədəniyyət–insanın mənəvi dünyasıdır,onun özünü müəyyən etməsi və şəxsiyyətin mövcudluğu üsuludur. Mədəniyyətin mənbəyi insan əməyidir, yaradıcılığıdır. Mədəniyyət-insan zəkasının təcəssümüdür. Bunlara əsasən mədəniyyətin iki əsas növünü qeyd etmək olar: maddi mədəniyyət və mənəvi mədəniyyət. Maddi mədəniyyət–insan əməyi və zəkası ilə yaradılmış maddi sərvətlərin məcmusudur:istehsal vasitələri, əmək cismi ictimai varlığın maddi əsaslarıdır. Maddi mədəniyyət insanın təbii gerçəkliyi mənimsəməsinin göstəricisidir: yaşayış vasitələri, binalar, paltar, memarlıq nümunələri, körpülər, kanallar, meşə zolaqları,bitki və heyvan növləri və s. Mənəvi mədəniyyətə isə hər şeydən əvvəl, elm və onun nailiyyətlərinin istehsal prosesinə tətbiqi səviyyəsi, təhsillik və maarif, tərbiyə, incəsənət, tibbi xidmət, cəmiyyət üzvlərinin mənəviyyatı və davranış normaları, adətlər, ənənələr, adamların tələbat və mənafelərinin inkişaf səviyyəsi və s. daxildir.

Mədəniyyətin mənşəyi bəşəriyyətin meydana çıxması,ibtidai cəmiyyətin yaşayış tərzi ilə bağlı olmuşdur. İlk insanların özlərinə məxsus “mədəniyyəti”olmuşdur: yaşayış üsulu, odu və xörəyi hifz etmək, davranmaq və ünsiyyət qaydaları, ovçuluq, cadugərlik, heyvandarlıq, əkinçlik və nəhayət, sənətkarlıq nümunələri və s. “Əkinçilik mədəniyyəti”, “davranış mədəniyyəti”, “nitq mədəniyyəti”, “ünsiyyət mədəniyyəti”, “məişət mədəniyyəti”, “yemək mədəniyyəti”və s.mənəvi mədəniyyətin məna çalarlarıdır. Mədəniyyət qədim qəbilə-tayfa münasibətlərindən mürəkkəb kosmik raket qurğularına qədər uzun bir yol keçmiş, tarixi mərhələlərə uyğun dövrləşmiş, nəsildən-nəslə verilərək varislik əsasında yaradılmış, zənginləşdirilmişdir. Mədəniyyətin əsas göstəricilərindən biri intellektual səviyyədir, necə deyərlər, ziyalılıqdır.

Yüksək elmi, mənəvi, mədəni səviyyəsi olan, ictimai həyatda humanist, ədalətli, fəal, təşəbbüskar mövqe tutan şəxs ziyalıdır. “Mədəniyyət” və “sivilizasiya”anlayışlarını da fərqləndirmək lazımdır. Son dövrlərin fəlsəfi ədəbiyyatında bu anlayışların qarşılıqlı münasibətinə dair müxtəlif hətta bir-birinə zidd mövqelər vardır. Bəzən bu iki anlayış tam eyni mənalı,bir-birinin sinonimi kimi, bəzən isə bir-birindən tam fərqli anlayış kimi təbliğ olunur. “Mədəniyyət” və “sivilizasiya”yaxın mənalı anlayışlardır, lakin onlar bir-biri ilə nə eyni,nə də əks mənaya malik deyillər.

“Sivilizasiya” latınca “siviliz” sözündəndir, “vətəndaşlıq”, “dövləti” mənalarını verir, cəmiyyətdə əldə edilmiş maddi və mənəvi nailiyyətləri, cəmiyyət inkişafı ilə bağlı müvəffəqiyyətləri bildirir.

Həqiqi mütərəqqi mədəniyyətin ən mühüm xüsusiyyətlərindən birini milliliklə beynəlmiləlçiliyin,milli-mənəvi dəyərlərlə bəşəri sərvətlərin vəhdət halında özünü göstərməsi təşkil edir. Həqiqi milli mahiyyət daşıyan mədəniyyət əsəri həm də beynəlmiləldir,bəşəri məzmun daşıyır.

Bəşəri-mənəvi dəyərlərdən kənarda heç bir mütərəqqi milli mədəniyyət nümunəsi ola və yaşaya bilməz. O milli mədəniyyət nümunələri beynəlmiləşir, bütün millətlər tərəfindən qəbul edilir, sevilir ki, onlarda bəşəri ideallar,bəşəri mənəvi dəyərlər əks edilmiş olsun.

Ulu öndərimiz Heydər Əliyev gənclərin mənəvi tərbiyəsi haqqında,mənəviyyat haqqında Azərbaycan Gənclərinin Birinci Ümumrespublika Forumundakı nitqində belə demişdir: “Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə,keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır,yüksək amallarıdır... Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir...mənəvi tərbiyəni daim aparmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz... (2)

Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir.Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir,keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz”. Budur mənəvi tərbiyənin məzmunu! (3)

Məktəbdə mənəvi tərbiyə sahəsində işlər aşağıdakı istiqamətlərdə aparılmalıdır:

1. Məktəblilərdə mənəvi şüur formalaşdırmaq (yaxşılığı və pisliyi,xeyirxahlığı və bədxahlığı,

gözəli və çirkini, həqiqini və saxtanı ayırd etməyi bacarmaq, mill-mənəvi şüur,milli mənlik, vətən, millət təəssübkeşliyi, fədakarlıq, soykökünə bağlılıq və s.)

2. Məktəblilərdə mənəvi hisslər yaratmaq (vicdan, şərəf, ləyaqət, namus, borc, inam, məsuliyyət, vətənpərvərlik, vətəndaşlıq və s.)
3. Məktəblilərdə mənəvi mövqe formalaşdırmaq (Həyatın çətin məqamlarında fədakarlıq göstərmək,xeyirxah münasibətdə olmaq, insanlara hörmət, qayğı və həssaslıqla yanaşmaq, kömək və yardım etmək və s.)
4. Məktəblilərdə mənəvi sima formalaşdırmaq (səbr və təmkinli olmaq, tolerantlıq, mütəşəkkillik, dəqiqlik, sədaqətlilik, mərdlik, cəsurluq, mədəniyyət və nəzakətlilik, sadəlik və təvazökarlıq, düzgünlük və doğruçuluq, dostluq və yoldaşlıq, mərhəmət və qayğıkeşlik və s.)
5. Məktəblilərdə mənəvi davranış,adət və vərdişlər formalaşdırmaq (Vətənə, xalqa xidmət etməyə hazır olmaq,xalqın adət və ənənələrinə hörmət, mənəvi davranış nümayiş etdirmək, düzgün müstəqil qərar çıxarmaq, ədəbli,nəzakətli ünsiyyət və rəftar etmək, insanlara xeyirxah münasibətdə olmaq) (4, s.116).

Mənəvi tərbiyə iki tərəfli prosesdir.Tərbiyə edən tərbiyə olunana tərbiyəvi təsir göstərir və tərbiyə olunanda mənəvi keyfiyyətlər davranışında, hərəkətlərində özünü göstərir. Bu o zaman davranışda,əməldə özünü göstərir ki, mənəvi keyfiyyətlər sadəcə olaraq əzbərlədilmir, bu keyfiyyətlər hərəkət və davranışda formalaşdırılır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 1995
2. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. http://anl.az/down/mmdtkr.pdf
3. Gənclər siyasəti - Heydar Əliyev lib.aliyevheritage.org
4. Qasımova L.N. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004, 220 s..
5. Mənəvi tərbiyə. http://www.azkurs.org/azerbaycan-respublikasi-tehsil-nazirliyi-azerbaycan-muellimler-v3.html
6. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: "Lider nəşriyyat", 2004, 392 səh.

**HEYRAN HƏSƏNOVA**
*Təhsildə qiymətləndirmə və monitorinq*
*Naxçıvan Dövlət Universiteti*

# TƏHSİLİN HƏYATIMIZDA ROLU

*Tədris sinifdə bitər, lakin təhsil həyatla birlikdə başa çatar.*

**F.W.Robertson**

Günümüzdə təhsilin insan həyatında böyük dərəcədə əhəmiyyəti danılmaz bir faktdır. Uşaq yaşlarından insanların tədrisi, maarifləndirilməsi, əxlaq-davranış normalarının öyrədilməsi qədim fəaliyyətlərdən olmuşdur. Bəzi ölkələrdə təhsilə kifayət qədər vəsait ayrılmasa da, yetərincə resurslardan istifadə edilməsə də, hər kəs təhsilin həyatımızda əsas rol oynadığını qəbul edir.

Təhsil insanlara bilik, bacarıq, məlumat verən, cəmiyyəti, milləti ailəsi qarışısında hüquq və vəzifələrini bilməsini təmin edən bir vasitədir. Təhsil bizdə həyata baxış perspektivimizi, cəmiyyətimizdəki haqsızlıqlara, şiddətə, korrupsiya hallarına, cinayətlərə və s. digər pis ünsürlərə qarşı mübarizə fəaliyyətimizi inkişaf etdirir.

YUNESKO-nun müəyyən etdiyi tərifdə isə deyilir: "Təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi inkişafa nail olur ". Təhsil həyatın müxtəlif məqamlarına hazırlıq üçün uzunmüddətli və çoxşaxəli öyrənmə prosesidir. Başqa sözlə, təhsil fərdlərə qazandırdığı əsaslı bilik və bacarıqlarla onların öz arzu və məqsədlərini necə ifadə etməsini və gerçəkləşdirməsini, həm də onları öz toplumlarının həyatında aktiv iştirak edən düşüncəli fərd kimi yetişdirir.

Təhsilin səviyyəsi insanların həyat fəaliyyətinin müxtəlif cəhətlərinə, məsələn, sağlamlığına, siyasi fəaliyyətinə, sosial bağlılıqlarına, intizamlılığına və s. təsir göstərir. Təhsil ev təsərrüfatlarının idarə olunmasında, uşaqların tərbiyəsində, onların qidalanmasının təşkilində, sağlamlığının və keyfiyyətli təhsilinin təmin edilməsində yeni bilik və texnologiyaların istifadə edilməsinə şərait yaradır. Evdə ananın təhsili nə qədər yüksək olarsa, uşağın inkişafında, sağlamlığında, təlim və tərbiyəsində keyfiyyətli şəkildə özünü büruzə verir. Hətta uşaq ölümlərinin də qarşısı yetərincə alına bilər.

1916-cı ildə nəşr edilmiş "Demokratiya və Təhsil" əsərində amerikalı ictimai xadim və filosof Con Dyui yazırdı: "Ən geniş anlamda təhsil həyatın sosial davamı üçün bir vasitədir".

Təhsilin sosial mahiyyətini isə orda görə bilərik ki, cəmiyyət hər hansısa bir böhranla qarşılaşdıqda bunun ən böyük təsiri təhsil sahəsində özünü büruzə verir. Buna ən bariz nümunələrdən biri kimi günümüzün problemi olan pandemiya şəraitinin ilk növbədə təhsil sisteminə necə mənfi təsir etdiyini gördük.

Artıq getdikcə təhsil sistemində də bəzi suallar ortaya çıxır. Əvvəllər həyatını təhsilə həsr edən müəllimlər, təlimçilər gənc nəsli sadəcə maarifləndirirdilərsə, indi ki zamanda öyrənməyin, düşünməyin, bilməyin nə demək olduğunu, gələcəyə hazır olmaq üçün nəyi necə öyrətməli olduqlarını, elm və texnologiyanın bu qədər inkişaf etdiyi dövrdə məsafədən öyrətmə ilə ənənəvi öyrətmə üsulları arasında nə kimi fərqlərin olması, tələbələrin hansı mövzuları necə üsullarla öyrənməli kimi suallar ortaya çıxır.

Təhsil müəssisələrinin – xüsusilə, universitet və institutların – yerinə yetirməli olduğu başlıca vəzifələrdən biri də yeni biliklərin yaradılması və sosial-iqtisadi həyatın bütün sahələrində tətbiq edilməsidir. Elmi-texniki kəşflərin sürətli artımı və texnika və səhiyyə xidmətləri sahəsində geniş istifadəsi elmi biliklərin rolunun əhəmiyyətli dərəcədə artdığını göstərir. İxtiralar və innovasiyalar müasir cəmiyyətlərdə fəaliyyətin mühüm bir sahəsinə çevrilmişdir.

İnsan inkişafının ən mühüm səciyyəvi aspektləri, məsələn, səlahiyyətlənmə, demokratik idarəçilik təsisatlarının inkişafı, insanlar arasındakı əməkdaşlıq, ədalətlilik (hər bir insana qarşı), dayanıqlıq (gələcək nəsillərin rifahını qurban vermədən indiki nəslin ehtiyaclarının təmin edilməsi)

və insan təhlükəsizliyi kimi aspektlər təhsil ilə birbaşa bağlıdır. Bütün sosial sistemin davamlı inkişafı da öz növbəsində bu məfhumların həyata keçməsindən asılıdır.

Təhsilin uzunmüddətli inkişafa təsirinə aid məsələlər təhsil siyasətinin formalaşdırılması, idarə olunması və dəyişən şəraitə uyğunlaşma zamanı daim nəzarətdə saxlanılmalıdır. Belə məsələlər, yəni təhsilin müxtəlif növ və səviyyələrinin mühüm sosial-iqtisadi sahələrə müvafiq təsirləri aşağıdakı istiqamətləri əhatə edir:

• Təhsilin şəxsiyyət və iqtisadiyyat üçün xalis dəyəri (gözlənilən nəticələr minus xərclər);

• İbtidai, orta, ali və qeyri-formal təhsilə (insan kapitalına) edilən yatırımların gəlir normaları; • Təhsilin əmək qüvvəsinin məhsuldarlığına, xüsusilə də, qadınların məşğulluğuna təsiri;

• Təhsilin iqtisadi artımla əlaqəsi, o cümlədən, iqtisadi inkişafın, bilavasitə fiziki kapital və ya əmək amillərilə bağlı olmayan aspektlərinin təhsil ilə bağlılığı;

• Təhsil və siyasi davranışlar (məs: yalnız intellektual bacarıqların deyil, həm də şəxsiyyətin formalaşdırılması ilə məşğul olan təhsil vətəndaş mədəniyyəti, ictimai təşəbbüskarlıq, mədəniyyətlərarası dözümlülük, siyasi bilik və baxışlar, insan hüquqları və azadlıqları və digər müasir ictimai-siyasi dəyərlərin inkişafı üçün münbit şərait yaradırmı?);

• Təhsil və sosial inkişaf: Təhsilin özəl və sosial dividendləri nəsildaxili və nəsillərarası qeyri-iqtisadi faydalardır. Belə faydalar gözlənilən ömür uzunluğu, ailə planlaşdırması, qidalanma statusu, nəsilvermə əmsalı, ana və uşaqların sağlamlığı, ətraf mühitə olan münasibət (ekoloji savadlılıq) kimi göstəricilərlə ölçülür;

• Təhsil və bərabərlik (qızlar, etnik azlıqlar, kənd yerlərindəki yoxsullar, əlillər və digər həssas təbəqələrin təhsilə qeyri-bərabər, məhdud çıxışının törətdiyi və uzunmüddətli inkişafa mane olacaq fəsadlar).

Təhsil hər bir ölkənin insan inkişafı və dövlətin gələcəyi üçün vacibdir. Biz artıq elə bir sürətlə dəyişən dövrdə yaşayırıq ki, təhsil sahəsində atılan addımlar müasir tələblərə deyil, gələcəyin perspektivlərinə əsaslanmalı, kəmiyyətə deyil, keyfiyyətə üstünlük verilməlidir. Təhsil millətin təkamülünün ən vacib elementidir. Belə nəticə çıxara bilərik ki, təhsil olmadan insan yeni fikirlər araşdırmayacaq və bu da insan dünyanı inkişaf etdirə bilməyəcək deməkdir. İdeyalar olmadan yaradıcılıq, bunun nəticəsində də millətin inkişafı olmaz.

## ƏDƏBİYYAT


1. Levinger B. Critical Transitions: Human Capacity Development Across the Lifespan. Education Development Center, 1996
2. John Dewey. Democracy and Education. Introduction to the Philosophy of Education. Free Press: NY, 1997
3. Телешова И.Г. Образование и человеческое развитие. В кн. «Человеческое развитие: новое измерение социальноэкономического прогресса». Под общ. ред. проф. В.П. Колесова. М: Права человека, 2008

**SARA HƏSƏNOVA**
*Təhsildə qiymətləndirmə və monitorinq*
*Naxçıvan Dövlət Universiteti*
*turquta743@gmail.com*

## MƏKTƏBLƏRDƏ PSİXOLOJİ XİDMƏTİN ZƏRURİLİYİ

İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, orada psixoloji biliklərin zəruriliyi duyulmasın. Hazırkı dövrdə bütün dünyada hər cür fəaliyyətin və insan münasibətlərinin səmərəliliyini psixoloji biliklərin tətbiqində görürlər. Müasir məktəbin qarşısında duran vəzifələri yerinə yetirə bilməsi üçün psixoloji köməyə ehtiyacı böyükdür. Müasir məktəblərimiz əvvəllər olduğu kimi indi də psixoloji problemlərlə üzləşir. Biz tez-tez şagirdlərin təlimə münasibətlərinin zəifləməsi, tərbiyəlilik səviyyəsinin aşağı düşməsi, müəllim-şagird münasibətlərində, eləcə də müəllim- müəllim, müəllim-valideyn münasibətlərində çətinliklərin olması barədə mülahizələrin şahidi oluruq.

Hər bir müəllim üçün sinif psixoloji laboratoriyadır. Sinifdə nə qədər şagird varsa, bir o qədər psixoloji "mən" var. Şagirdlərin intellektual səviyyəsinin müxtəlifliyi, çətin tərbiyə olunan uşaqların xsusiyyətləri müəllimdən onları hərtərəfli öyrənməyi və düzgün yanaşmağı tələb edir. Müəllim sinifdə sadəcə bilik öyrədən bir şəxs deyil, həm də tərbiyəçi, təşkilatçı, şagirdlərlə fəal ünsiyyət və münasibətdə olan, uşaqların daxili aləminə, ruhuna təsir göstərən psixoloqdur. Məhz bu səbəbdən də Azərbaycanın məktəb tarixində fərəhli bir hadisə baş vermiş, bəzi məktəblərimizdə ilk dəfə olaraq psixoloji xidmət təşkil olunmağa başlanmışdır. Uşaq psixologiyası və pedaqoji psixologiyanın nailiyyətlərinin məktəb təcrübəsinə tətbiqinin ən perspektiv yollarından biri xalq təhsili sisteminin bütün sahələrində psixoloji xidmətin təşkilindən ibarətdir. Bu cür xidməti həyata keçirmədən gənc nəslin təlim və tərbiyəsində istədiyimiz müvəffəqiyyətə nail ola bilmərik. Bəli, məktəbdə psixoloji xidmət bu gün dünənkindən daha vacib və əhəmiyyətlidir. Bu baxımdan məktəb praktik psixoloqunun fəaliyyətini əsasən üç istiqamətdə müəyyənləşdirmək olar.

Birinci istiqamət məktəb psixoloqunun elmi iş aparmasıdır. Yəni, məktəb psixoloqu şagirdlər üzərində müşahidələr aparır, onlarla dialoqa girir, ünsiyyət və münasibətdə olan bəzi konfliktlərlə rastlaşır və s.

İkinci istiqamət məktəb psixoloqu tərəfindən nəzəriyyənin təcrübədə tətbiqidir. Müasir məktəb tarixində psixoloji bilikləri peşəkarcasına tətbiq etmək imkanı verən vasitə, üsul və tərzlərin işlənməsi üçün şagirdlərin psixi inkişafının qanunauyğunluqlarını, onun bir şəxsiyyət kimi formalaşması xüsusiyyətlərini öyrənmək tətbiqi aspektin əsas vəzifəsini təşkil edir.

Üçüncü istiqamət isə praktik psixoloq olaraq məktəbdə psixoloji mühiti formalaşdırır. Yəni məktəbdə münbit psixoloji iqlimi yaradır, münasibətləri söndürür və beləliklə, məktəbdə təhsil, tərbiyə sahəsində rahatlıq, sərbəstlik hökm sürür.

Qeyd edək ki, hər bir şagirdin özünəməxsus dünyagörüşü, bənzərsiz fərdi psixoloji xüsusiyyətləri vardır. Onları nəinki məktəb psixoloqu, müəllim və tərbiyəçilər nəzərə almalı və həm də özləri psixoloji biliklərə malik olmalıdırlar.

Uşağa hazır bilik vermək əvəzinə öyrənməyi öyrətmək psixologiyası aşılanmalı, qiymət stimullaşdırma rolunu itirməməlidir (3,7).

Psixoloq uşaqların valideynləri ilə mütləq işləyir. O, fərdi olaraq onlarla valideyn iclaslarında görüşür, uşaqlar haqqında psixoloji biliklərə aid məsləhətlər verir, onlara psixi inkişaf qanunauyğunluqları və ona səbəb olan şərait haqqında danışır (1, 133).

Məktəbdə psixoloji xidmətlə əlaqədar olaraq psixoloq bir sıra diaqnostik işləri həyata keçirməlidir:

- ayrı-ayrı fənlər üzrə şagirdlərin mənimsəyə bilməmələrinin psixoloji səbəblərini aşkara çıxarmaq;
- şagirdlərin intizamsızlığının psixoloji səbəblərinin diaqnostikası;
- şagird-müəllim, sinif- müəllim münasibətlərinin pozulmasının səbələrinin psixoloji

diaqnostikası və s. (2, 251)

Məktəb psixoloqunun işinin əsas qayəsi fərdi yanaşma əsasında problemin həllinə nail olmaq üçün yaxşı tədqiqatçı olmaq, psixoloji üsul və vasitələri sərbəst həyata keçirməyi bacarmalıdır. Psixoloq öz peşəsinə həm peşəkar – müşahidəçi, həm də ixtiraçı – tədqiqatçı kimi yanaşmalıdır.

## ƏDƏBİYYAT

1. Məmmədov İ. Məktəbdə psixoloji xidmət. Bakı: 2002
2. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: 1991
3. Ağamirzəyeva C. Məktəblərdə xidmət işi necə həyata keçirilməlidir? "Psixoloq" qəzeti, №3 (07), mart 2009-cu il

**AYTAC HƏSƏNZADƏ**
*Naxçıvan Dövlət Universiteti*

# ƏMƏK TƏLİMİNDƏ İSTİFADƏ OLUNAN ÜSULLAR VƏ ONLARIN TƏTBİQİ

Şagirdlərin biliyə və praktik vərdişlərə yiyələnmə bacarıqlarının inkişaf etdirilməsində və formalaşmasında müəllimlərin və şagirdlərin istifadə etdikləri iş üsullarına təlim metodları deyilir. Hazırda təlimin müxtəlif metodları mövcuddur. Bunlardan əmək təliminin tədrisində əsasən aşağıdakı izahatım, praktik və əyani metodlardan daha çox istifadə edilir:

a) İzahetmə metodu- nəqletmə, şagirdlərdə ayrı-ayrı anlayış və proseslərin formalaşması, onlar arasında əlaqə yaradılması və müəyyən qanunauyğunluqların aşkara çıxarılması məqsədilə tətbiq edilir. Bu metoda nəqletmə, söhbət aparma və müxtəlif təlimatlar daxildir;

b) Əyani metod şagirdlərdə öyrəndiyi obyekt, hadisə və proseslər barədə konkret təsəvvürlər yaratmaq məqsədini daşıyır. Məsəslən, şagirdlərə müxtəlif iş obyektləri: texniki şəkillər, eskizlər, çertyojlar və qrafiklər göstərilməsi, habelə əmək əməliyyatının nümayişi bu metodlardandır;

c) Praktik metod şagirdlərin müstəqil işləmləri ilə əlaqədardır. Bu metodun əsas məqsədi şagirdlərin əmək fəaliyyətini təşkil etməkdən və onlara praktiki vərdişlər aşılamaqdan ibarətdir.

Əmək əməliyyatının öyrədilməsi üçün məşq, əmək tapşırıqlarının icrası, texniki-texnoloji məzmunlu məsələlərin həlli bu metoda aiddir. Müxtəlif metodların tətbiqi tədris vəsaitlərindən, cihazlardan, alətlərdən, materiallardan, tərtibatlardan istifadə edilməsi ilə əlaqədardır. Bu və ya digər metodun tətbiqi tədrisi materialların məzmunundan və dərsin qarşısında duran konkret məqsəddən asılıdır. İstifadə ediləcək metodtarın düzgün seçilməsi şagirdlərdə biliyə yiyələnmək qabiliyyətinin inkişafında başlıca vasitələrdən biridir. Bəzən təlimin prosesində müxtəlif metodlardan eyni vaxtda istifadə etmək lazım gəlir. Məsələn şagirdlər praktik işi yerinə yetirməyə başlamazdan əvvəl onunla əlaqədar müəllim izahat verməli olur. Praktik işlərin gedişi zamanı isə əşyanın hazırlanması ardıcıllığını əks etdirən çertyojlar göstərilir, əmək əməliyyatının icrasının ardıcıllllğı göstərilir. Təlim prosesi əvvəllər öyrədilmiş bilik və bacarığa əsaslanmalıdır. Buna görə də təlim metodunun seçilməsi şagirdin hazırlıq səviyyəsindən aslıdır. Dərs metodlarının təkrar edilməsi metodlarının tətbiqini və təkmilləşdirilməsini də unutmaq olmaz. Təkrar bilavasitə yeni materialın öyrənilməsi ilə əlaqədar olaraq ayrı-ayrı çətin məsələlər və ya keçilmiş tam mövzu materialı üzrə aparıla bilər. Təkrar tapşırıq bütün sinfə və ya ayrı-ayrı şagirdə verilə bilər. Metodlar seçilərkən, şagirdlərdə həm zehni, həm də praktik fəaliyyəti canlandırmaq məqsədi əsas götürülməlidir. Şagirdlərin aldıqları tapşırıqların həllində psixoloji hazırlıq dərəcəsinin böyük əhəmiyyəti vardır. Belə hazırlıq elementlərindən aşağıdakıları göstərmək olar:

a) Şagirdlərə müəyyən maraq yarada biləcək sual və tapşırıqların verilməsi (nümayiş etdirilməsi);

b) tapşırıqların həlli ilə əlaqədar olaraq keçirilmiş materialın şagirdlərə xatırladılması (zehində bərpa edilməsi);

c) Həll olunması tələb edilən faktların və məlum faktların aşkara çıxarılması (məsələdəki məlum və naməlumların müəyyənləşdirilməsi);

d) Məsələnin həlli yollarının müəyyənləşdirilməsi.

Belə hazırlığın müvəfəqiyyətlə başa çatdırılması üçün bir sıra vasitələrdən istifadə etmək lazımdır. Məsələn, təcrübələr göstərmək, maketlər, plakatlar, şəkillər, çertyojlar nümayiş etdirmək. Təfəkkürün inkişafına materialın söhbət şəklində izahı da kömək edir. Bu işlə şagirdlərin biliyindən, həyat təcrübəsindən də istifadə olunur.

**KƏMİNƏ CƏFƏROVA**
*Pedaqogika nəzəriyyəsi və tarixi*
*Naxçıvan Dövlət Universiteti*
*ceferlikemine@gmail.com*

## MÜASİR DÖVRDƏ PEDAQOGİKA ELMİNİN İNKİŞAFI

90-cı illərin əvvəllərindən Azərbaycanda pedaqogika elmi yeni inkişaf yolu seçdi. Azərbaycanda milli dövlət quruculuğu prosesinin başlanması ilə pedaqoji nəzəriyyədə əvvəllər bərqərar olmuş stereotiplərin köhnəldiyi dərk edildi, yeni pedaqoji konsepsiyalar, nəzəriyyələr irəli sürüldü. Yeni pedaqoji təfəkkür, milli qaynaqlar və ümumbəşəri dəyərlər zəminində yaranan, məktəbin inkişafına təsir edə biləcək tədqiqatlar meydana gəldi. Şagirdin bir şəxsiyyət kimi formalaşdırılması təhsil sisteminin başlıca vəzifəsi hesab olundu.

Pedaqogikanın metodoloji problemlərinə, strukturuna dair yeni fikirlər formalaşdı. Bu dövrdə tərbiyə nəzəriyyəsində ciddi dəyişikliklər baş verdi. İdeallar dəyişdi. Dövlətin təhsil sistemi qarşısında qoyduğu sosial tələblər zəminində tədqiqatlara başlandı. Bu sahədə tədqiqatçı alimlərimizdən N.M.Kazımovun, H.M.Əhmədovun, Ə.Ə.Ağayevin, Z.İ.Qaralovun, F.A.Rüstəmovun, R.İ.Əliyevin, F.B.Sadıqovun, Ə.Əlizadənin, H.Əlizadənin, F.İbrahimovun, R.Hüseynzadənin, A.N.Abbasovun, dosentlərdən M.İsmixanovun. A.İ.Eminovun, V.Bəşirovun, T.Dadaşovanın, E.Mollayevanın, Ə.Bədəlovanın müasir pedaqogikaya gətirdiyi elmi yeniliklərdəki mütərəqqi nəzəri-konseptual ideyalar indi pedaqoji fəaliyyətdə əməli şəkildə həyata keçirilməkdədir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: “Biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək birincisi, mənəviyyatda saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər” (1, s. 56). Göründüyü kimi, dahi rəhbərimiz ali və ümumtəhsil məktəblərində tərbiyə işinə, mənəvi, əxlaq tərbiyəsi məsələlərinə nə qədər böyük önəm vermiş və bu sahədə qarşıya mühüm vəzifələr qoymuşdur.

Elə birmənalı olaraq demək olar ki, pedaqoji prosesdəki köhnə və müasir stereotipləri islah etməklə, pedaqoji gerçəkliyin həqiqətlərinə yol açmaq baxımından dəyərli ideyalar müəllifi olan professor Nurəddin Kazımovun milli pedaqogikaya gətirdiyi ideyalar Azərbaycanın müstəqilliyi şəraitində çox dəyərlidir. Pedaqogika elminin korifeylərindən olan Nurəddin Kazımov mənalı ömrünün altmış beş ilini elmə, xalqının maariflənməsinə həsr etmişdir (3, s. 47). Öz dəyərli əsərləri ilə ölkəmizdə və xaricdə yüksək nüfuz qazanan, milli və bəşəri ideyaları ilə pedaqogika nəzəriyyəsi elmini zənginləşdirən, ictimai-siyasi, sosial-mədəni və ideya-əxlaqi mühitimizin aparıcı ziyalılarından olan, xalqını, vətənini dərin məhəbbətlə sevən, neçə-neçə nəsillərə maarifləndirici çıraq tutan, nümunəvi övladlar ərsəyə gətirən uzun illər Azərbaycan Dillər Universitetinin pedaqogika kafedrasına rəhbərlik etmiş, Prezident təqaüdçüsü, Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor Nurəddin Mustafa oğlu Kazımov şərəfli bir ömür sürmüş, xalqımızın dərin rəğbətini qazanmışdır.

Professor Nurəddin Kazımovun elmi-pedaqoji fəaliyyət yolu ilə tanış olanlar yaxşı bilirlər ki, o, apardığı tədqiqatlar sahəsində nüfuzlu alimə çevrilmiş, pedaqoji problemlər üzrə xeyli sayda yeni fikir və nəzəriyyələr formalaşdırmışdır. O, xüsusən son illərdə qələmə aldığı monoqrafik nəşrlərində dinamik və təşəbbüskar əməl nümayiş etdirərək pedaqoji elm və təcrübəyə milli pedaqogika prizmasından yanaşmış, ən böyük uğurlarını tarixi-müqayisəli şərhlərlə sübut edərək, ənənəvi pedaqogikanın uğursuzluqlarının səbəblərini tənqidi təhlil əsasında tam ortaya çıxararaq, ideyalarındakı elmi yeniliklərə mənəvi dəstək vermişdir.

Onun yaradıcılıq fəaliyyətinin parlaq təzahürləri olan “Nurlu yol” (1983), “Tərbiyənin elmi-pedaqoji əsasları” (1983), “Pedaqogika” (müştərək) (1996), “Ali məktəb pedaqogikası” (1999), “Milli pedaqogika yollarında” (2001), “Məktəb pedaqogikası” (2002), “Məktəb pedaqogikası

sxemlərdə" (2003), "Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğət" (müştərək) (2005), "Müqayisənin nəzəri və əməli problemləri" (ağlın sönməz məşəli) (2005), "Pedaqogika kafedrası üzrə təhsil proqramı (kurikulum)" (müştərək) (2005), "Mərhələli tərbiyə nəzəriyyəsi" (2007), "Pedaqoji ustalığın problemləri" (2009), "Tətbiqi pedaqogika" (2010), on altı cilddən ibarət "Seçilmiş əsərlər" (2011) və bir çox digər kitabları respublika və dünya ictimaiyyətinə təqdim edilmişdir. Onun dərslik və dərs vəsaitləri hazırda da ali təhsil müəssisələrində tədris olunur.

Qeyd edək ki, N.Kazımovun orta ümumtəhsil məktəblərinin III, IV sinifləri üçün "Ana dili" (1970-2003) və "Oxu" (1970-2005) dərslikləri və 500-dən artıq müxtəlif səpgili əsəri təlim-tərbiyə nəzəriyyəsi və təcrübəsini xeyli zənginləşdirmişdir (5, s. 98).

Azərbaycanda pedaqoji elmin inkişafında böyük xidmətləri olan görkəmli alim, pedaqogika üzrə elmlər doktoru, professor, Beynəlxalq Pedaqoji Akademiyanın akademiki, Əməkdar elm xadimi Fərrux Rüstəmov respublikamızda və onun hüdudlarından kənarda yaxşı tanınır. O, bir sıra xarici ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda ölkəmizi layiqincə təmsil etmiş, pedaqogika elminin nəzəri və praktiki problemləri ilə bağlı 30-dan artıq kitab, 500-dən çox elmi-pedaqoji və publisistik məqalə nəşr etdirməklə Azərbaycan pedaqogikaşünaslığının salnaməsini yaratmışdır.

Pedaqogikaşünaslığın bir elm sahəsi kimi müəyyənləşdirilməsi, bu sahədə sistemli tədqiqatların aparılması, fəlsəfə və elmlər doktoru dissertasiyalarının müdafiəsi Fərrux Rüstəmova məxsus elmi fədakarlıq, yaradıcı xidmətdir. F.Rüstəmov ADPU-nun ibtidai təhsil fakültəsinin dekanı, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor, Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki, "Qızıl qələm", "Akademik Mehdi Mehdizadə" və "Gənc alimlər" mükafatı laureatıdır. (4, s.63). F.Rüstəmov zəngin, məhsuldar, çoxşaxəli elmi yaradıcılıq üslubuna və kredosuna malik alimdir. İndiyə kimi 30 monoqrafiya, kitab və kitabçası, 31 tədris proqramı, 200-dən çox elmi məqaləsi, 40 tezisi, 250-dən artıq elmi-pedaqoji və publisistik qəzet yazısı işıq üzü görmüşdür, 10 kitabın tərtibçisi, 100-ə yaxın kitabın elmi redaktoru və rəyçisi olumuşdur. Prof. Əjdər Ağayev onun yaradıcılığından bəhs edərkən yazır ki, Fərrux Rüstəmov mükəmməl pedaqogika tarixçisidir. O, Əhməd Seyidov, Mehdi Mehdizadə, Mərdan Muradxanov məktəbinin ənənələrini davam etdirərək, onları müasirlik düşüncəsi ilə inkişaf etdirmiş, elmi əhatə dairəsini genişləndirmiş, sanballı bir elmi mövqeyə yüksəlmişdir. Təhsil və pedaqoji fikir tarixinə onun maraqlı yanaşması var. Onun fikrincə, pedaqogika tarixi köhnəlmiş, həyatın rədd etdiyi müddəalar, prinsiplər, qaydalar sistemi deyil, təlim-tərbiyə məsələlərinin müasir problemlərinin həlli üçün mühüm mənbələrdən biridir. Bununla yanaşı, diqqət verilməyib kənara atılmış, köhnə, indiyə kimi yanlış hesab olunan ideyaların özü də bir çox hallarda müasir mütərəqqi ideyalar üçün təkanverici bünövrə rolunu oynaya bilər. Pedaqogika tarixi ümumi tarixin, mədəniyyət tarixinin çox mühüm və dəyərli səhifəsidir Bu yaxınlarda çapdan çıxmış "Azərbaycan pedaqogikaşünaslığı" (Bakı. 2016) dərsliyi onun yaradıcılığının zirvəsi sayıla bilər.

Respublikada dərin elmi pedaqoji fikir qaynaqlarının üzə çıxarılmasında müstəsna əməyi olan pedaqoji elmlər doktoru, professor Ə.Ə.Ağayevin pedaqoji proses təcrübəsinə gətirdiyi müasir təhsil, təlim, tərbiyə problemlərinin, pedaqoji fikir tarixində yer tutan fəaliyyəti və ideyaları da böyük maraq doğurur.

Onun ötən əsrin 80-90-cı illərində "Yeniləşən cəmiyyətdə təhsil, təlim, tərbiyə məsələləri" problematikasına həsr olunmuş "Fasiləsiz təhsil: problemlər, vəzifələr, yaxud ömür boyu öyrənməli" adlı fundamental səciyyə daşıyan nəzəri-pedaqoji ideyalarında sırf təhsil paradiqmaları dayansa da, bu konsepsiyadakı prioritet istiqamətlərin çoxu məhz elə pedaqoji elmin prinsipləri kimi dərk olunur.

Professor Ə.Ə.Ağayevin elmi araşdırmaları məhz hərtərəfli, ahəngdar inkişafa malik şəxsiyyət hazırlığı olduğu üçün o, pedaqogikanın bütün sahələrindəki təşəkkül istiqamətlərini özünün əsaslı və isbatlı dəlilləri ilə sübut edərək pedaqogikanı həm bir elm kimi, həm də tədris fənni kimi mahiyyətinə yenilik ruhu gətirən tədqiqatlar müəllifi kimi tanınmasına səbəb olmuşdur (2, s.72). Belə ki, o ilk dəfə Azərbaycan müstəqilliyi şəraitində pedaqogikanın milli intibaha xidmətini, təhsilin informasiyalaşdırılmasında müəllim kadrları hazırlığını, pedaqoji elmlər sistemini təkmilləşdirmədə dünya təcrübəsindəki mütərəqqi texnologiyaların təsirini və s. açıb göstərmişdir. Məsələn, o yazır:

"Təhsilin müasir dövrə uyğunlaşdırılması, təlim-tərbiyə prosesinin həyatın tələbləri səviyyəsində qurulması ümumiyyətlə, təhsil sistemində dəyişikliklər edilməsi sahəsində dünyanın bütün qabaqcıl ölkələrində axtarışlar aparılır. Çünki hazırda dünyanın hər yerində məktəb, təlim və tərbiyə sahəsində vahid hökmranlığını itirib, hətta, bəzi tədqiqatçıların, məsələn, polyak alimi Ç.Kupiseniçin fikrincə, məktəb islahatı belə, əgər məktəb həyatda baş verən dəyişikliklərin quyruğunda gedəcəksə, müvəffəqiyyəti ola bilməz. Məktəb dəyişiklikləri, yeniləşməni qabaqlamalıdır, ən azı onunla ayaqlaşmalıdır.

Professor Məcid İsmixanov müasir Azərbaycanın peşəkar pedaqogikaşünaslarından olmaqla, təhsil ictimaiyyətinin ciddi alim-ziyalı-müəllim kimi qəbul etdiyi müqtədir simalardandır.

Səksən illik ömür yolunun təxminən 60 illik bir dövrünü pedaqoji fəaliyyətə həsr etmiş görkəmli ziyalının elmi-pedaqoji fəaliyyətinə nəzər saldıqda çox məhsuldar və nəcib bir alimin həyat salnaməsi ilə qarşılaşırıq.

Məcid İsmixanov öncə müəllimdir. Bu sahə onun elmi-pedaqoji fəaliyyətinin əsas prioritetidir, əgər belə demək mümkünsə, ona son dərəcə doğma olduğu kimi, həm də təbiətinə uyğun gələn bir sahədir. Artıq 60 ilə yaxındır ki, bakalavrlar üçün “Pedaqogika”, magistrlər üçün isə “Ali məktəb pedaqogikası”, “Ali məktəb didaktikası”, “Məktəbin idarəedilməsi” fənləri üzrə oxuduğu mühazirələrlə, kurs, diplom və magistr işlərinə rəhbərliyi ilə yuzlərlə tələbənin formalaşmasında önəmli rol oynamışdır. Professor Məcid İsmixanovun elmi yaradıcılığı həm yetərincə zəngin, həm də çoxcəhətli və çoxşaxəlidir (4, s.41-42). Xüsusilə demək olar ki, kafedrada magistratura üzrə tədris edilən fənlərin bir çoxunun proqram və dərs vəsaitləri onun qələmindən çıxıb. Yazılarındakı bütövlük, orijinallıq, məntiqi ardıcıllıq məhz onunla bağlıdır ki, alim elmin bir-birilə bağlı olan ayrı-ayrı sahələrinə aid biliklərini bacarıqla sintezləşdirir ki, bu da aparılan axtarışların və söylənən fikirlərin dəyərini qat-qat artırır. Buraya onun “Ali məktəb pedaqogikası”, “Ali məktəb didaktikası”, “Pedaqoji terminlərin izahlı lüğəti”, “Təhsilin əsasları” əsərlərini, eləcə də 300-dən çox elmi məqalələrini də əlavə etsək onun çox məhsuldar ziyalı olduğunu görərik.

Ümumiyyətlə, müasir pedaqogikanın azərbaycançılıq təfəkkürü ilə bağlı elmi nəticələrini və onun pedaqoji proses təcrübəsində ehtiva olunan elmi yeniliklərini belə qruplaşdırmaq olar:

1. Pedaqogikanın elmi yeniliklərindən biri:
2. Azərbaycan dövlət müstəqilliyinin tanınmasında;
3. Milli təhsil ideyalarının yaranmasında;
4. Əxlaqi keyfiyyətlərin möhkəmlənməsində;
5. Milli özünüdərk prosesinin güclənməsində;
6. Azərbaycançılıq, türkçülük və islamçılıq mütərəqqi məfkurəsinin formalaşmasında;
7. Gələcəyin sağlam nəslinin "fəal vətəndaş" konsepsiyasına qoşulmasında;
8. Nəhayət, milli sərvətimizə çevrilən ümummilli liderimiz Heydər Əliyevin zəngin ideya-mənəvi irsinin üzə çıxarılmasında təzahür etmişdir.

Sonda onu qeyd edək ki, müasir pedaqoji fikrin pedaqoji elmə gətirdiyi elmi yeniliklərin nəticələrindən indi milli özünüdərk prosesinin getdikcə dərinləşdiyi bir dövrdə pedaqoji proses təcrübəsi qarşısında dayanan əsas vəzifələrdən biri kimi müasir həyat hadisələri ilə vəhdətlə götürülərək, gənc nəslin bu irsdən faydalanmaq imkanlarını xeyli təkmilləşdirir. Gəldiyimiz elmi nəticə budur ki, müasir pedaqoji elmlər sisteminin daha sıx əlaqəliliyi təmin olunmalıdır. Bu məqsədlə bütün pedaqoji tədqiqatların mayasında müasirliyin tarixiliklə vəhdətdə nəzərdən keçirilməsi nizamlanmalıdır.

## ƏDƏBİYYAT


1. Həsənov A. M., Ağayev Ə. Ə. Pedaqogika. Bakı: Nasir, 2007
2. İbrahimov F., Hüseynzadə R. Pedaqogika: 2 cilddə. I cild. Bakı: Mütərcim, 2012
3. İsmixanov M. A. Pedaqogikanın əsasları. Bakı: BDU nəşriyyatı, 2008
4. Məmmədov F. M., Ələsgərova F.M. Pedaqogi-кadan məsələ və suallar. Bakı: Maarif, 1993
5. Paşayev Ə. X., Rüstəmov F. A. Pedaqogika. Yeni kurs. Bakı: Elm və təhsil, 2010
6. Qasımova L. N., Mahmudova R. M. Pedaqogika. Bakı: BDU nəşriyyatı, 2003

**KÖNÜL QULİYEVA**
*Bədən tərbiyəsi və idmanda tibbi-bioloji təminat*
*Naxçıvan Dövlət Universiteti*

# YENİYETMƏ VƏ GƏNCLƏRİN VƏTƏNİN MÜDAFİƏSİNƏ HAZIRLIĞINDA FİZİKİ TƏRBİYƏNİN ƏHƏMİYYƏTİ

Hər bir dövlətdə olduğu kimi, Azərbaycanda da dövlətin ictimai quruluşuna və mənafeyinə uyğun fiziki tərbiyə sistemi mövcuddur. Azərbaycanda bu sistem müstəqillik qazandığı gündən etibarən yaranıb. Bu sahədə yeni nazirliklər – Azərbaycan Gənclər və İdman Nazirliyi, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi yaradılmış, Respublika Təhsil Nazirliyi və Səhiyyə Nazirliyi nəzdindəki təhsil ocaqlarında bədən tərbiyəsi və idman inkişaf etdirilmişdir. Bu nazirliklər, idman təşkilatı və cəmiyyətləri, klub və federasiyalar vahid mərkəzdən idarə olunur. Bütün bunlar isə bütövlükdə Azərbaycanın vahid fiziki tərbiyə sistemini təşkil edir. Bu sistem fiziki tərbiyənin prinsiplərini, "Vətənin müdafiəsinə hazıram" fiziki tərbiyə kompleksinin nəzəri və praktik normativlərini əsas götürərək müəyyən edilmiş istiqamətlərə yönəldilmişdir. Bura əhalinin hərtərəfli fiziki tərbiyəsi, xəlqilik və elmiliyin təmin olunması daxildir.

Azərbaycan dövləti müstəqillik qazandığı ilk günlərdən bir sıra problemlərlə qarşılaşmışdır. Bu problemlərə iqtisadiyyat, mədəniyyət, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə yanaşı, həmdə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal altında olan torpaqlarımızın düşmənlərdən təmizlənməsi də daxil idi. Bununla əlaqədar ölkəmizdə ciddi tədbirlərin həyata keçirilməsinə başlanıldı. Tədbirlərin keçirilməsində digər təşkilatlarla bərabər, orta və ali təhsil müəssisələrinin də qarşısında vacib vəzifələr qoyuldu. Həmin məqsəd və vəzifələrə böyüməkdə olan nəslə hərtərəfli bilik verməklə yanaşı, təhsil alan yeniyetmə və gənclərin fiziki tərbiyəsinə, sağlam inkişafına diqqət yetirilməsi də daxil idi. Bunun üçün isə təhsil müəssisələrində, idman cəmiyyətlərində yeniyetmə və gənclərin bədən tərbiyəsi və idmanını inkişaf etdirmək lazım idi. Fiziki tərbiyə orta ümumtəhsil məktəblərində ibtidai sinifdən başlayaraq tədris edilir. Sağlam gənc nəsl tərbiyə etmək üçün dövlət tərəfindən hərtərəfli qayğı göstərilir. Orta məktəblərdə tədris ilində həftədə iki dəfə 45 dəqiqə olmaqla fiziki tərbiyə dərsləri keçirilir. Həmçinin şagirdlər sinifdən və məktəbdən kənar kütləvi bədən tərbiyəsi və idman tədbirlərinə, yarışlara cəlb olunur. Bütün bunlar şagirdlərin bədəncə və iradəcə möhkəm olmasına zəmin yaradır. Onlara "Vətənin müdafiəsinə hazıram" bədən kompleksinin normativlərini yerinə yetirmələrinə kömək edir.

Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu dövrlərdə əhalinin, ümumiyyətlə, bütün yaş kateqoriyasından olan insanların, xüsusilə uşaqların, yeniyetmə və gənclərin bədən tərbiyəsi və kütləvi idmanın, həmçinin turizmin, ekskursiyaların, yürüşlərin inkişafını təhsil müəssisələrindən ciddi surətdə tələb etmiş, bədən tərbiyəsi və idmanı gündəlik həyatımıza daxil etməyi məsləhət görmüşdür. Çünki bu yolla onlara həyatda dözümlülük, möhkəm iradə, mərdlik və mətanətlilik kimi vacib keyfiyyətlər aşılanır. Bu zaman vətəndaşların sağlamlığna, əməyə hazırlığına, gəncləri isə hərbi xidmətə hazırlamağa müvəffəq olmaq mümkündür. Vətənin müdafiəsində fiziki hazırlığın çox böyük əhəmiyyəti var. İstər Böyük Vətən Müharibəsində, istərsə də Qarabağ uğrunda gedən döyüşlərdə bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olan gənclər döyüşlərdə daha böyük qələbələr qazanmışdır. Onlar quruda, suda, dağlıq ərazilərdə, havada olan döyüşlərdə cəldlik, çeviklik və möhkəm iradə göstərərək düşmənə ağır zərbələr endirmişdir. Torpaqlarımızın erməni faşizmindən təmizlənməsi üçün məktəblərimizdə idman məşğələlərində şagirdlərə müxtəlif yeriş və qaçışlar, krosslar, manelərin dəf edilməsi ilə uzununa, hündürlüyə tullanmalar, sərbəst və hədəfi düzgün nişan almaq, güləşmək, əlbəyaxa döyüş, yüksəkliklərə dırmanmaq öyrədilir. Fiziki cəhəhətdən hazırlıqlı gənclər vətənin müdafiəsində yaxşı bir döyüşçü kimi nümunə göstərdilər.

Ulu öndərin siyasətinin layiqli davamçısı İlham Əliyev 1997-ci ildən Azərbaycan Olimpiya hərəkatına rəhbərlik edir. Onun səmərəli fəaliyyəti nəticəsində dövlətin idman siyasətində yeni mərhələ başlandı. 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti seçilmiş Milli Olimpiya

Komitəsinin lideri ölkədə bədən tərbiyəsi və idmanın daha geniş və sürətli inkişafı, idman vasitəsi ilə Azərbaycanın dünya və Avropaya inteqrasiyası, beynəlxalq idman aləmində Azərbaycan idmanının nüfüzunun daha da artırılması məsələlərini dövlət siyasətinin önəmli istiqamətlərindən biri kimi dəyərləndirdi. Məhz bunun nəticəsidir ki, bu gün bədən tərbiyəsi və idman ölkə vətəndaşlarının fiziki (əqli), eləcə də, mənəvi cəhətdən inkişaf etməsinə, sosial və maddi rifahlı olmalarına, vətənin müdafiəsində yüksək səviyyədə iştirak etmələrinə və beynəlxalq yarışlarda qələbə uğrunda əzm və qətiyyətlə mübarizə apara bilmələrinə xidmət edir. Azərbaycan Respublikasının Prezidenti çıxışlarının birində demişdir ki, "Mən hakimiyyətə gəldiyim zaman uşaq yaşda olan oğlanlar indi döyüş meydanında düşmənə meydan oxuyur, dəmir yumruqla onun belini qırır." Doğrudan da 2020-ci il 27 sentyabrda başlayan və 44 gün ərzində Zəfərlə başa çatan Vətən müharibəsində Azərbaycan gəncləri düşmənə öz qəhrəmanlıqları, şücaətləri ilə gözdağı verdi, torpaqları düşmən tapdağından azad etdi. Bu isə həm siyasətdə, həm də döyüşdə Azərbaycan Ordusuna rəhbərlik edən Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi sayəsində, qüdrətli ordumuz, mərd oğullarımız, bir sözlə Azərbaycan xalqının bir yumruq altında birləşməsi sayəsində baş verdi. Düzgün siyasət, uzunmüddətli hərbi və fiziki hazırlıq nəticəsində yetişmiş nəsl Vətən müharibəsində canlarından keçmiş, mərdlik və cəsurluq göstərərək torpaqlarımızın müdafiəsinə qalxmış, Vətən, torpaq, haqq-ədalət, qeyrət və ismət naminə şəhid olmuş, Vətənə, xalqa, ata-anaya məhəbbət hissinin ecazkar mənasını daha da zənginləşdirmiş və bundan qürur duymuşlar. Azərbaycan xalqı və onun milli iftixarı olan Silahlı Qüvvələrin bütün heyəti ərazi bütövlüyümüzün bərpası, milli himnimizin mahiyyəti və ruhu ilə böyük şərəf və şücaətlə zəfər qazanmışdır. Bu zəfər fiziki hazırlıq, vətənpərvərlik, çeviklik, dözümlülük, möhkəm iradə, yüksək psixoloji əhval-ruhiyyə hesabına əldə olunmuşdur. Qəhrəman, cəsur döyüşçü, çevik və möhkəm iradəli insan kimi yetişdirilən gənc nəsl həmişə vətənimizin mənfur düşmənlərdən müdafiəsində hazır olmalıdır. Bunun üçün də təhsilinə diqqət yetirməli, bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olmalı və sağlamlığının qayğısına qalmalıdır. Bu hər bir azərbaycanlının ictimai və vətəndaşlıq borcudur.

## ƏDƏBİYYAT

1. Nəsurullayev M.Ə . Məktəblilərin fiziki tərbiyəsi. Dərs vəsaiti. Bakı: 2003-cü il.
2. B.Quliyev. Fiziki tərbiyənin nəzəri-metodik və praktik işlərinin əsasları. Dərs vəsaiti. Bakı: 2009-cu il.
3. İ.Əliyev. Azərbaycanda Olimpiya hərəkatı. Bakı: 2002-ci il.
4. R.Qurbanov. Fiziki tərbiyə müəlliminin stolüstü kitabı. Metodik vəsait.

**KUBRA QURBANOVA**
*Pedaqogika tarixi və nəzəriyyəsi*
*Naxçıvan Dövlət Universiteti*
*qurbanovakubra6gmail.com*

# DÜZGÜN PSİXOLOJİ XİDMƏT TƏHSİLİMİZİN SABAHIDIR

Bugünkü mövzumuza ulu öndərimizin bir sözü ilə başlamaq istəyirəm: "Məktəbdə gənclərimizi nə qədər yaxşı, hərtərəfli hazırlasalar, müstəqil Azərbaycan gəncləri bir o qədər uğurlu, parlaq olar."

Doğurdan da gələcək nəslin fiziki, zehni, psixi inkişafı, sğlamlığı haqqında düşünmək hər bir vətəndaşın, valideynin, tərbiyəçinin, pedaqoqun, həkimin, psixoloqun və xüsusən məktəb kollektivinin əsas vəzifəsi olmalıdır. Ona görə də bu ali məqsədə nail olmaq üçün şagirdlərdə, xüsusilə yeniyetmə və gənclərdə özünüdərk və özünütərbiyə haqqında geniş, ətraflı və aydın təsəvvür yaratmalıyıq. Hər şeydən əvvəl ona görə ki, gələcək valideyinlər, dövlət qoruyucuları olan bugünkü yeniyetmələr məhz indidən bu vərdişləri özlərinə aşılamalı və bu vərdişlərin nə qədər böyük, məsuliyyətli bir iş olduğunun mahiyyətinə varmalıdırlar. Çünki hər birimiz sağlam, gözəl insan, dost, yoldaş, vətəndaş, nəhayət aiıə sahibi olmaq üçün özümüzü tərbiyə etməli və düzgün tərbiyələndirməliyik.

Ulu öndərimizin də qey etdiyi kimi, əgər dövlət müstəqilliyimizin əbədi olmasına təminat istəyiriksə, güclü, milli iqtisadiyyatımızı qorumaq istəyiriksə, ilk növbədə gələcək nəsli Azərbaycan xalqının milli adət-ənənələri nəzərə alınmaqla fiziki və əxlaqi cəhətdən sağlam yetişdirməliyik. Bunun üçün dövlətimizin sabahı olacaq indiki yeniyetmə və gəncləri düzgün istiqamətləndirməliyik. Bu işdə isə əsas məsuliyyət cəmiyyətimizin və onun ayrılmaz bir parçası olan məktəbin üzərinə düşür.

Azərbaycan müstəqillik əldə etdikdən sonra cəmiyyətimizin demokratikləşməsi istiqamətində görülən tədbirlər təhsil sahəsində də müasir ideyaların meydana çıxmasına, təhsilin forma və məzmununun yeniləşməsinə geniş imkanlar açmışdır. Azərbaycam Respublikası Təhsil Qanununda, təhsil sahəsində islahat proqramında təhsilin humanizm prinsipləri əsasında idarə olunması müasir məktəbin fəaliyyətinin əsas istiqaməti kimi qeyd olunmuşdur. Cəmiyyətin inkişaf səviyyəsini, böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsini, ölkədə baş verən siyasi, sosial-iqtisadi proseslərin mahiyyətini özündə əks etdirən sahələrdən biri və ən mühümü təhsildir. Təhsilimizin inkişaf və tərəqqisi, onun qarşısında qoyulan qlobal vəzifələrin öhdəsindən gələ bilməsi isə bu gün milli təhsilimizi necə qurmağımızdan, milli və ümumbəşəri dəyərlərdən, dünya təhsilindən necə bəhrələnəcəyindən, təhsilimizi inkişafa aparan yolları necə müəyyənləşdirəcəyimizdən, təhsil sistemini hansı prinsiplər əsasında idarə edəcəyimizdən asılıdır. Bütün bunlar milli təhsil sistemimizin yeni məzmun və mahiyyətdə qurulmasını zəruri etmişdir.

Respublika Təhsil Nazirliyinin hələ 2001-2002-ci tədris ilinin "Təhsildə Keyfiyyət ili" elan edilməsi haqqında 21 avqust 2001-ci il tarixli 912 saylı əmrində təhsilin humanistləşdirilməsi, yeni pedaqoji təfəkkürün inkişaf ideyalarının həyata keçirilməsi zərurəti əsaslandırılmış, bu sahədə əldə etdikləri müsbət təcrübə əks etdirilmiş, bir sıra əhəmiyyətli mülahizə, təklif və tövsiyyələr irəli sürülmüşdür. Bütün bunları yerinə yetirmək isə məktəbin üzərinə düşür. Təhsildə keyfiyyət ili dedikdə təhsilin keyfiyyətinin məzmununu, keyfiyyətin planlaşdılırması, idarə olunması başa düşülməlidir.

Təhsilin keyfiyyət anlayışı: Valideyinlər üçün- öz uşaqlarının fərdi xüsisiyyətlərinin inkişafı, təlim-tərbiyəsi ilə əlaqədardır. Müəllimlər üçün- təhsilin keyfiyyəti onların özlərini təmin edə biləcək tədris planı və proqramlarının, dərsliklərin, zəngin təlim materiallarının olması ilə səciyyələnir. Şagirdlər üçün- təhsilin keyfiyyəti məktəbdaxili iqlimin, müəllim-şagird münasibətlərinin, dərs deyən müəllimlərin onları qane etməsi ilə bağlıdır. Ümumilikdə, məktəb üçün isə təhsilin keyfiyyəti anlayışı yuxarıda qeyd etdiklərimizin hamısını əhatə edir.

Hələ 20-ci yüzillikdə elmi-texniki inqilab şəraitində yeni pedaqoji təfəkkür formalaşmış və

müasit təhsil konsepsiyası bərqərar olmuşdur. Bu konsepsiya artıq şagirdlərə sadəcə olaraq bilik, bacarıq və vərdişlərin aşılanmasını, şəxsiyyətin formalaşmasını thsilin strateji vəzifəsi kimi saymır. Məktəbli şəxsiyyətinin formalaşması özünəməxsus psixoloji konsepsiyaya əsaslanan köklü elmi-nəzəri və metodik bir problemdir. Bu problemi isə məktəb təcrübəsində ancaq və ancaq psixoloji xidmətlə həll etmək mümkündür. Təhsil müəssisələrində psixologi xidmətin təşkili bilavasitə bu problemin həlli ilə bağlıdır və məktəbdə psixoloji fikrin təntənəsi kimi qəbul edilmişdir. Təhsil müəssisələrində psixoloji xidmət işini isə bildiyimiz kimi məktıb psixoloqları yerinə yetirir. Ona görə də məktəb psixoloqlarının üzərinə böyük vəzifələr düşür.

Psixoloqun məktəbə gəlişi elə böyük ictimai ümidlərlə bağlıdır ki, o, bunları bircə dəqiqə də olsa yaddan çəzarmamalıdır. Məktəb həyatının gündəlik tələbatı kimi psixoloqdan qabaq məktəbə psixologiya gəlmişdir. Rəsmiyyətçilik, ifrat təşkilatçılıq, fərdiyyətlərin yox edilməsi, şagirdlərin fəaliyyət və davramışlarının xaricdən stimullaşdırılması məktəbin simasını onun sakinləri üçün az cəlbedici edən uşaqsız pedaqogika və funksional psixologiyanın yalnız bəzi eybəcərlikləridir. Məktəbin daha humanist, hər uşağın, müəllimin və rəhbərin şəxsi inkişafına kömək edən bir orqan olması üçün “şəxsiyyət”, “fərdiyyət” anlayışlarıməktəb psixoloqununproqram stratefiyasının əsas xətti olmalı, hər praktik addımı isə onun maraqları ilə təyin olunmalıdır. Qeyd etdiyimiz bu və bunun kimi məsələləri həll etmək üçün yuxarıda da dediyimiz kimi məktıb psixoloqunun üzərinə böyük vəzifələr düşür. Və elə burda belə bir sual ortaya çıxır: Məktəbə necə psixoloq lazımdır?

1. Psixoloq yüksək əqli qabiliyyətlərə malik olmalı, düşüncəli, sərbəst düşüncəyə malik, uzaqgörən, dəqiq, analitik, eksperimentator olmalıdır.
2. Psixoloq insanlarla işləməyə üstünlük verməli, ictimai razılığı sevinc hissi ilə qarşılamalı, ünsiyyətli olmalı, hadisələrlə ayaqlaşmağı bacarmalıdır.
3. Psixoloq birgə fəaliyyəti sevməli, şəxsi maraqlarını qrup maraqlarına tabe etməli, vicdanlı, insaflı, məsuliyyət hissinə malik, güclü, enürjili olmalıdır. O, cəld olmalı, pratik məsələləri tez həll etməyi bacarmalıdır.
4. Psixoloq özünü ələ ala bilən, sakit, vəziyyətə real qiymət verə bilən, emosional cəhətdən müvazinətli və stresə qarşı dözümlü olmalıdır.

Əks təqdirdə psixoloji xüsusiyyətləri 11 illik tədris müddətində dəfələrlə dəyişən məktəblini tədqiq etmək bir psixoloq üçün çox çətin olar.

Psixoloji tədqiqatlarla sübut olunmuşdur ki, şagirdin psixoloji inkişafında baş verən bu və ya digər qüsuru aradan qaldırmaq, onun qarşısını almaq çox çətin prosesdir. Bu prosesi yerinə yetirmək üçün psixoprofilaktik işlərin əhəmiyyəti xüsusi olaraq diqqəti cəlb edir. Müəllimlərlə birlikdə şagirdlərin əqli inkişafında və şəxsiyyətinin inkişafında müəyyən qüsurların yaranma hallarının baş verməsinə səbəb ola biləcık xüsusiyyətləri məktəb psixoloqları aşkara çıxarmağa çalışmalı və bunun üçün müvafiq tədbirlər həyata keçirməlidirlər. Bu məqsədlə məktəb psixoloqları uşaqların 1-ci sinfə qəbulunda iştirak etməli, onların zəif, normalara uyğun gəlməyən cəhətlərini aşkara çıxarmalı, nail olduqları səviyyə ilə yanaşı, müvəffəqiyyətlə oxumalarına müsbət və ya mənfi təsir edə biləcək idrak fəallığının, məktəbə motivləşmə, emosional iradi cəhətdən hazırlığın inkişaf xüsusiyyətlərinə xüsusi diqqət yetirməlidirlər. Məktəbə hazırlıqla əlaqədar qüsurları aradan qaldırmaq üçün valideyinlərə məsləhətlər verilməlidir. Müəllimlərlə birgə uşaqların məktəb təliminə uyğunlaşmaları üçün fərdi iş proqramı hazırlanmalı və həyata keçirilməsinə çalışılmalıdır.

Psixoloqlarımız yetkinlik yaşına çatmayan uşaqlarda özünəməxsus xüsusiyyətlərin müxtəlif şəkildə təzahür etdiyini bilirlər. Bu cəhətləri nəzərə alaraq fərdi və qrup halında məsləhətlərdən geniş istifadə edilməlidir. Bu prosesdə şagirdlər zəruri bilik, təlim, əməli bacarıq və vərdişlərinə yiyələnmənin qanunauyğumluqları ilə tanış edilməlidirlər.

Məktəb psixoloqunun fəaliyyətinin ən perspektiv formalarından biri də psixoloji-pedaqoji konsiliumun keçirilməsindən ibarətdir. Bu zaman sinifdə dərs deyən müəllimlərlə birlikdə bu və ya digər şagird yaxud sinif haqqında fikirləri kollektiv şəkildə müzakirə olunur, çətinliyin və geridə qalmanın səbəbləri aşkara çıxarılır, onların aradan qaldırılması üçün səmərəli yollar axtarılıb tapılır. Qeyd etdiyimiz məsələlərin həllində valideyinlər və müəllimlərlə məktəb psixoloqları arasında

qarşılıqlı əməkdaşlığa xüsusi diqqət yetirilir. Əgər psixoloq təkbaşına işlərsə, onun məktəbdəki kabineti susuz səhrada yaşıl bağı xatırlatsa belə, pedaqoji prosesdə dəyişikliklərə ümid etmək çox çətindir.

Psixoloji xidmət haqqındakı əsasnamədə də qey edildiyi kimi psixoloqun əsas istiqaməti şagirdlərlə işə əsaslanır. Müdriyyət, müəllimlər və valideyinlərlə iş isə köməkçi, yardımçı xarakter daşıyır. Təcrübə göstərir ki, əgər psixoloq müəllim və valideyinlərlə işdə dəyişiklik edə bilmirsə, kollektivə uyğunlaşa bilmirsə, onda o, şagirdə köməklik göstərməkdə gücsüzdür. Yalnız pedaqoji kollektivlə sıx əlaqə onun işinin müvəffəqiyyətini təmin edəcəkdir. Beləliklə "psixoloq" statusunun özü artıq məktəb kollektivi ilə bu və ya digər növ əlaqənin və fəaliyyətin əsas istiqamətini təmin edir.

Pedaqoji kollektiv cəmiyyətimizin bir parçasıdır. Onun məqsədi və vəzifələri cəmiyyətin qarşısında duran məqsəd və vəzifələrdən irəli gəlir. Cəmiyyət pedaqoji kollektivlərə ahəngdar inkişaf edən gənc şəxsiyyətlər tərbiyə etməyi tapşırmışdır. Bu səmərəli işin müvəffəqiyyətlə yerinə yetirilməsində pedaqoji kollektiv öz üzvlərinə-hər bir müəllim və tərbiyəçiyə səmərəli təsir göstərir. Pedaqoji kollektivin səmərəli fəaliyyət göstərməsi üçün isə onun özünün bir sıra müsbət keyfiyyərlərə malik olması zəruridir. Belə keyfiyyətlərdən biri və bəlkə də birincisi pedqoji kollektivin yekdilliyi, bir amal uğrunda kollektivin bütün üzvlərinin həmrəy fəaliyyət göstərməsidir. Əgər kollektivdə sağlam abu-hava, sağlam paixoloji mühit varsa, onda mütləq və mütləq nailiyyət də olacaq. Bütün bu istiqamətin reallaşmasında psixoloqun öz işinə yaradıcı münasibəti başlıca fakt olaraq qalır.

## ƏDƏBİYYAT


1. Nurəddin Kazımov. Məktəb pedaqogikası (altıncı nəşri). Bakı:2011
2. Əmrulla Paşayev, Fərrux Rüstəmov. Pedaqogika yeni kurs. Bakı: "Elm və təhsil", 2010
3. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Bakı:"Çinar-Çap", 2006

**NURANƏ NİFTƏLİYEVA**
*Bədən tərbiyəsi və idmanda tibbi-bioloji təminat*
*Naxçıvan Dövlət Universiteti*
*Nuranenifteliyeva9898@gmail.com*

# FİZİKİ TƏRBİYƏ PROSESİNDƏ GƏNCLƏR VƏ YENİYETMƏLƏRƏ VERİLƏN FİZİKİ YÜK

Gənclər və yeniyetmələrə verilən fiziki yük onların yaş xüsüyətləri və inkişaf suturukdurları nəzərə alınaraq verilir. Bu onların dərs saatlarının düzgün planlaşdırılması onların fiziki,anatomik,fizioloji ,əqli inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Hər bir dərs mühüm əhəmiyyət kəsb edir.

Yeniyetmələrdə və gənclərdə yaş xüsusiyyətləri .

Hər yaşın özünə məxsus fiziki inkişaf strukturu var.Hər yaşa uyğun olaraq boyun, çəkinin başın ölçüləri, döş qəfəsinin ölçüləri dəyişilir və bu fiziki inkişafın ilk göstəriciləri olaraq nəzərə çarpır . Yeni doğulmuş körpənin boyu təqribən 50 sm olur.Birinci ildə uşağın boyu 25sm artır .İkinci və üçüncü ildə boy ilə 8-10sm 4-7,yaşlarda isə 5-7sm artır.Cinsi yetişkənlik dövründə boyun illik artımı 8-10 sm -ə çatır

Uşaq doğularkən onun başının dairəvi ölçüsü döş qəfəsinin ölçüsündən böyük olur .

Bu ölçülər müvafiq olaraq 34 və 33 sm təşkil edir.Birinci ildə başın dairəvi ölçüsü 12sm, ikinci ildə isə yalnız 2 sm böyüyür . Sonrakı 4ildə böyümə cəmi 3sm olmaqla başın dairəsi 51 smə çatır . 10 yaşda bu ölçü 52sm,15-16 yaşlarda isə 53 sm olur. Döş qəfəsinin dairəvi ölçüsü isə aşağıdakı ardıcıllıqla artır:

1 yaşda 48 sm

5 yaşda 56sm

15 yaşda 73sm




Yeni doğulmuşun başının uzunluğu ümumi boyun ¼-ni 2 yaşlılarda 1/5-ni,6 yaşlılarda 1/6-ni, böyüklərdə isə 1/8 -ni təşkil edir Yeni doğulmuşda yuxarı və aşağı ətrafların uzunluqları təqribən bərabər olur. Bu bedenin uzunluğunun 1/3-i qədərdir. 7yaşda ayaqların uzunluğu 3 dəfə artaraq 18 sm -57 sm-ə çatır . Əllərin uzunluğu isə 2 dəfə artaraq 40 sm olur. Ümumi inkişaf ərzində ayaqların uzunluğu 5 dəfə ,əllərini 4 dəfə ,bədənini isə 3 dəfə artır.

Qızlarda boy ən çox 10-13, oğlanlarda isə 12-15 yaşlarda artır .Boyun uzanması qızlarda 17-18 oğlanlarda 19-20 yaşa qədər davam edir.Ən çox çəkinin artdığı dövr qızlarda 11-14 oğlanlarda 13-15 yaşlarda .Döş qəfəsi dairəsinin ən çox böyüdüyü dövr qızlarda 11-15 oğlanlarda 13-15 yaşlara təsadüf ed,çeviklik ir. 11 yaşa qədər oğlanların bütün fiziki inkişaf göstəriciləri qızlardan fərqlənmir. Uşaqların yaş və yaş dövrləri üzrə hərəki fəallıq səviyyəsinin nizamlanması müvafiq gigiyenik

tələblər əsasında aparılır.Yanlız yuxarı məktəb yaşı dövründə hərəki fəallığın səviyyəsi oğlanlarda və qızlarda fərqlənir,çünki müəyyən edilmişdir ki, erkən gənclik dövründə də oğlanların hərəki fəallığa olan ehtiyacı eyni yaşlı qızlara nisbətən 20-25% çoxluq təşkil edir .

Fizioloji inkişaf göstəricilərinə görə öz yaşıdlarını qabaqlayan uşaqlar akselerant uşaqlar,yaşıdlarından geri qalanlar isə ratardant uşaqlar adlandırılır.

Dərs saatlarının düzgün planlaşdırılması

Yeniyetmələrdə məqsədə uyğun olaraq dərs saatlarının planlaşdırılması düzgün qaydada aparılmalıdır iştirak edən hər bir yeniyetmənin boy, çəki indeksi döş qəfəsinin eni nəbz vurğusu ,ağciyərlərin həyat tutumu nəzərə alınmalı oyunların quruluşu,qiymətləndirmə buna uyğun olaraq aparılmalıdır.

Fiziki inkişafın xüsüsiyətləri .Fiziki keyfiyyətlər -güc,sürət,dözümlülük,çeviklik və.s kimi keyfiyyətləri insanın hərəki imkanları adlandırmaq olar .Bu təbbi imkan insana doğulduğu gündən verilmişdir fiziki inkişaf bütün yaş mərhələsinə uyğun olaraq müxtəlif istiqamətlərdə gedir hər yaşın özünə məxsus formalaşan fiziki inkişaf suturukturu var.

Ontogenezdə hərəki keyfiyyətlərin formalaşmasi və inkişafı eyni vaxtda olmur.Bu da orqanizmin sistemlərin inkişafından asılıdır.Məsələn, dözümlülük keyfiyyətinin təkmilləşməsi ürək-damar, tənəffüs sistemlərinin birgə fəaliyyət göstərməsi ilə əlaqədardır.Hər bir yaş dövrünə hərəki keyfiyyətlərin inkişafının müəyyən səviyyəsi məxsusdur.Qüvvənin,sürətin və dözümlülüyün ən yüksək göstəriciləri müxtəlif dövrlərdə olur. Müntəzəm məşq hərəki keyfiyyətlərin inkişafını sürətləndirir.

Qüvvə.Maksimal iradı qüvvə. MİQ 8 yaşdan 10 yaşadək bütün əzələrdə nisbətən eyni artır 11yaşda qüvvə artımı yüksək olur MİQ -nin ən yüksək artımı 13-14 yaşdan 16-17yaşadək qeyd olunur.

Hazırda akselerasiya ilə əlaqədar ayrı-ayrı əzələlərin qüvvəsinin artması yaş etibarı ilə daha tez baş verir

Sürət. İdman hərəkətlərinin icrası zamanı sürət keyfiyyəti kompleks şəkildə özünü göstərir .Məsələn ,sprint qaçışda nəticə hərəkət reaksiyasının müddətindən bir aktlı hərəkətlərin tezliyi dən və sıxlığından,tenpindən aslıdır.

Dözümlülük . Müxtəlif yaş dövrlərində dözümlülük qeyri bərabər şəkildə artır. Belə ki,aerob şiddətli hərəkətlərdən yüksək artım 15-16yaşdan17-18 yaşadək olur.Anaerob şiddətli hərəkətlərdən isə işin müddətininartması 10-12yaşdan 13-14 yaşadək olur.

Çəldlik.Hərəkətlərin qüvvə,sahə və vaxt parametrlər ilə idarəetmə bacarığına çəkdik deyilir. Cəldliyintəzahüründən biri sahə etibarı ilə dəqiq istiqamət qabiliyyətidir. Sahə etibarı ilə hərəkətləri fərqləndirmə qabiliyyəti 5-6 yaşda güclənir.Bu qabiliyyətin ən yüksək dərəcədə olması 7-10yaşadək qeyd olunur. 14-15 yaşlarda pisləşir, lakin 16-17 yaşlarda isə hərəkətin istiqamətlənən qabiliyyəti böyüklərin göstəricilərinə çatır.Məşqin təsiri altında hərəkətlərin idarə olunması yaxşılaşır,hərəkətlərin koordinasiyasının inkişafının yüksək dərəcəsi hərəkət keyfiyyətlərini təkmilləşdirir.

Fiziki inkişafdan aslı olaraq gənclərin və yeniyetmələrin üzərinə düşən fiziki yük normaları fərqlənir.

Yeniyetmələrdə orqanizmin həm aerob, həm Anaerob iş qabiliyyəti az olur.Anaerob iş qabiliyyətinin göstəricilərindən biri maksimal oksigen borcudu. 12-14 yaşlı yeniyetmələr 2000-2500ml oksigen borcunda 12-27kqm/s işi icra edirlər.Böyüklər üçün hüdud fiziki yük 20-45kqm/s qabiliyyəti olanda,oksigen borcu 6000ml olur.

Yaşla əlaqədar orqanizmin Abşeron imkanları qanda süd turşusunun konsentrasiyasının dəyişməsi ilə təyin olunur.Maksimal şiddətli hərəkətlər zamanı 7-8 yaşlı uşaqların qanında süd turşusunun miqdarı 80mq% çatır. 14-15yaşlılarda 100mq% , böyüklərdə isə 112mq% olur.Buradan məlum olur ki , böyüklərə nisbətən ,uşaqların və yeniyetmələrin Anaerob imkanları azdır.

Fizioloji cəhətdən inkişaf gənclərdə və yeniyetmələrdə zehni və fiziki fəaliyyətinin harmonik inkişafının vəhdətini təmin edir .

Ölkəmizdə orta təhsil və peşə məktəblərində uşaqların və yeniyetmələrin əsas fiziki tərbiyə formasını

fiziki tərbiyə dərsləri təşkil edir. Bu dərslərin keçilməsi də məqsəd sağlamlığın qorunmasından, hərəki vərdişlərin formalaşmasından və təkmilləşməsidən, fiziki hərəkətlərin sürətinin, qüvvəsinin, dözümlülüyün və çevikliyini inkişaf etdirilməsində, iradi keyfiyyətlərinin və intizamın möhkəmləndirilməsində, kollektivçilik xüsusiyyətlərinin tərbiyələndirilməsindən ibarətdir.

## ƏDƏBİYYAT

1. H.H.Əsədov, i.U.Rəhimov, F.H.Əsədov. Uşaq orqanizmini anatomiyası və fiziologiyası mın yaş xüsusiyyətləri.Dərslik.Bakı-2008
2. İsmayılov Xəqani Fiziki Tərbiyənin nəzəriyyə və metodikası fənnindən mühazirə konspektləri.Naxcıvan 2015.
3. F.Hacıyev Yaş fiziologiyası və məktəb gigiyeniyası Dərs vəsaiti. Bakı:1992
4. Portman OW, Alexander M.Changes in arterial subfractions with aging and atherosclerosis.Biochim Biophys Acta.1972

**MƏRYƏM RZABƏYLİ**
*Pedaqogikanın tarixi və nəzəriyyəsi*
*Naxçıvan Dövlət Universiteti*
*maryam.rzabayli.99@mail.com*

## AZƏRBAYCAN PEDAQOJİ FİKİR TARİXİNDƏ ƏHMƏD SEYİDOVUN XİDMƏTLƏRİ

Məqalə Azərbaycan pedaqogika tarixinin ilk tədqiqatçılarından biri olan Əhməd Seyidovun Azərbaycanda pedaqoji fikrin inkişafında xidmətinə həsr olunmuşdur. Professor Əhməd Seyidovun əsas elmi kadrların yetişdirilməsində, uşaqların məktəbə daha çox cəlb olunmasında əvəzsiz və bu sahədə misilsiz xidmətləri araşdırılmışdır. Məqalədə Ə.Seyidov Azərbaycanda pedaqoji fikir tarixinin məktəbini yaradan, onu inkişaf etdirən alim kimi qeyd olunmuşdur.

**Giriş**

Məşhur rus pedaqoqu A.S.Makarenko demişdir:"…Tərbiyələndirməyi bacarmaq, necə olsa, sənətdir komanda yaxud royalda yaxşı çalmaq,yaxşı şəkil çəkmək, yaxşı frezerçi olmaq kimi bir sənətdir..."

İşıqlı gələcəyimizin mühim şərti mükəmməl təhsil və tərbiyə sisteminə malik olmaqdır. Hələ ötən əsrlərdə Azərbaycanda yetişən görkəmli pedaqoq və maarifpərvərlərin- A.Bakıxanov, H.Zərdabi, S.Ə.Şirvaninin zəngin irsi və pedaqoji nailiyyətləri pedaqoji elminin inkişafından xəbər verir. Orta əsrlərə nəzər saldıqda isə Bəhmənyar, Qətran Təbrizi, Xaqani Şirvani kimi dühaların mövcudluğu Azərbaycanın elm təhsil tərbiyə sahəsində nə qədər qabaqcıl təcrübə sahibi olmasının sübütudur.

Azərbaycan pedaqogika tarixinin ilk tədqiqatçılarından biri görkəmli alim Əhməd Seyidovdur. Əhməd Seyidov 1982-ci ildə Qazax qəzasının Aslanbəyli kəndində dünyaya göz açmışdır.Atasını erkən yaşda itirən Əhməd anasının himayəsində böyümüş və təhsil almışdır. 1917-ci ildə Qori Müəllimlər Seminariyasını bitirən Əhməd kənddə evlərinin ikinci mərtəbəsində qızlar və oğlanlar üçün məktəb açmışdır. Və ilk "Əlifba" dərsliyini də gözəl maarifçi şair Hacı Kərim Sanılı ilə birgə yazmışdır. Yazıçı M.Hüseynin atasının təklifi ilə Bakıya gəlmiş, az sonra onu Lənkaran qəzasına maarif müdiri göndərmişlər. Bu bölgədə müdir kimi təhsilin təşkiklində xüsusilə yetim uşaqların məktəbə cəlb olunmasında əməyini əsirgəməmişdir.Yenidən Bakıya qayıtmış Azərbaycan pedaqoji İnistitunda "Pedqogika" kafedrasına 40il rəhbərlik etmişdir. Professor Əhməd Seyidov elmi kadrların yetişdirilməsi məsələsini ön plana çəkmiş və bu sahədə misilsiz iş görmüşdür. O ,100-dən çox elmlər namizədi və elmlər doktorunun rəhbəri olmuşdur. Görkəmli pedaqoqlarımızdan akademik Hüseyn Əhmədov və professor əməkdar elm xadimi Nurəddin Kazımov məhz Əhməd Seyidovun yetişdirmələridir.

Əhməd Seyidov Azərbaycanda pedaqoji fikrin inkişafında bilavasitə xidmət göstərmişdir. Eyni zamanda vaxtilə SSRİ məkanında , xüsusilə Moskvanın pedaqoq elitasında milli irsimizi yüksək səviyyədə tanıtmışdır. Y.Medinski, N.Qonçarov, D.Konstantinov kimi akademiklər onun pedaqoji yaradıcıllığını yüksək qiymətləndirmişlər.

Zaqafqaziyada ilk pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi olan Əhməd Seyidovun mühitində Mirzə İbrahimov,Yusif Qasımov, Mir Cəlal Paşayev , Mehdixan Vəkilov kimi sayılı simalar olmuş və onlar böyük pedaqoqun nüfuzunu gözləmişlər.

Profesor Ə.Seyidov eyni zamanda tarixi şəxsiyyətlər sırasında daha çox yeri görünənlərdən biridir. Uzun ömür sürmüş alim dövlət ihtizamından çəkinən, vəzifəsindən və nüfuzundan sui-istifad ni rədd edən məsuliyyətli xeyirxah fenomenal şəxsiyyət idi. Daha doğrusu pedaqoji fikir tarixinin məktəbini yaradan, onu inkişaf etdirən bir alim idi..

Sovet rejimində klassiklərimizə hörmət qoyulmayanda, hər şeyi rus şovinizminə bağlayan vaxtda Nizami və Fizulini orjinaldan araşdırmış, S.Ə.Şirvani və M.Ə.Sabiri ,M.Cəlili pedaqogika dərliklırinə gətirmişdir. Firudin bəy Köçərlinin pedaqoji görüşlərini tədqiq etməklə öz müəllimlərinə borcunun sanki bir qismini qaytarmışdır.

Professor Ə.Seyidovun pedaqoji yaradıcılığında idealı o idi ki, milli pedaqoji fikir tariximizi araşdırsın, qeyri-xalqlar yəqinləşdirsinlər ki,zəngin keçmişimizi və təhsil-tərbiyə ənənələrimizi gizlətməyə ehtiyac qalmır. Otuzuncu illərdə belə bir missiyanı üzərinə aldı və klassiklərimizdən A.Bakıxanov ,M.Ş.Vazeh ,H.Zərdabi, M.F.Axundov irsinə də müraciət etmişdir.

Ümumiyyətlə, böyük pedaqoqun əsərləri pedaqoji fikirimizin keçmişi ilə indiki arasında irsiliyin, varisliyin, fasiləsizliyin məqsədinə əməli xidmət göstərmişdir. Professor Ə.Seyidovun yaşadığı 85 illik şərəfli ömür Azərbaycan pedaqoji elm tariximizdə təravətini qoruyan əvəzsiz bir irs qoymuşdur.

## ƏDƏBİYYAT

1."Azərbaycan pedaqoji fikir tarixinin ilk tədqiqatçısı". Fərrux Rüstəmov. Pedaqoji oçerklər: Sələflərim və müasirlərim. Bakı: Elm və təhsil, 2010. - səh. 8.
2.Hüseyn Əhmədov. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.- səh.409.
3.Əhməd Yusif oğlu Seyidov (1892-1977)
4.” Psixologiya” (Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün Prof.S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin redaktorluğu ilə hazırlanmış dərslik). Bakı: 2007.

**SEVİNC MƏMMƏDOVA**
*Təhsildə qiymətləndirmə və monitorinq*
*Naxçıvan Dövlət Universiteti*
*mamedovas778@mail.com*

## I-IV SİNİF ŞAGİRDLƏRİNDƏ EKOLOJİ MƏDƏNİYYƏT TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI

Bildiyimiz kimi, şəxsiyyətin formalaşmasına təsir göstərən amillərdən biridə tərbiyədir. Tərbiyəyə verilən tərifə gəldikdə isə qeyd olunubdur ki, tərbiyə şəxsiyyətin məqsədyönlü formalaşma prosesidir.

Şəxsiyyətin formalaşmasında müəllimlərin rolu danılmazdır. Proses zamanı müəllim hüquq, ekoloji, əmək, estetik və digər tərbiyəvi əlamətləridə şəxsiyyətdə formalaşdırır. Bu istiqamətdə düzgün formalaşan şəxsiyyət isə sağlam gələcəyin təməli deməkdir.

Qlobal problemlər sırasında ekoloji problemlərə də rast gəlmək mümkündür. Bu cür problemləri azaltmaq, bəşəriyyəti qorumaq üçün bu sahədə tədbirlər həyata keçirilməlidir. Ekoloji tərbiyədə əsas məqsəd ətraf mühitin necə qorunmasının aşılanmasıdır.
Şagirdlərə ətraf muhiti necə sevməli, mühafizə etməyi öyrətmək başlıca məsələlərdən olmalıdır. Təsadüfi deyil ki, təhsil sahəsinə ekoloji problemlərin gətirilməsində dövlət qurumlarıda maraqlıdır. Məhz ekoloji vəziyyətlə bağlı Milli Məclis 2003-cü ildə "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi " haqqında qanun qəbul edibdir . Qanunun əsas məqsədi əhalinin ekoloji maarifləndirilməsi ilə bağlı idi. Həmçinin bu qanun dövlət siyasətinin hüquq, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Burada əsas yeri ekoloji təhsil və maarifləndirmə tuturdu. Məktəbəqədər təlim-tərbiyə ocaqlarında , məktəblərdə və digər təhsil müəssələrində dünyadakı ekoloji bəlalar, ekoloji şüur, ekoloji tərbiyə ilə bağlı məlumatlar verilir , ekoloji təffəkkür aşılanır.

Ekoloji tərbiyənin formalaşdırılması zamanı sistemli iş prosesindən istifadə olunur. Bu zaman ekoloji tərbiyənin komonentləri köməyə çatır. Bura ekoloji şüür, ekoloji təffəkkür, ekoloji bilik, ekoloji dünyagörüş və s aiddir.

Təbiətin mühafizəsi bəşəri problemdir. Bu problemin aradan qaldırılmasında insan və ətraf muhit qarşılıqlı əlaqədə olmalıdır. Təbiətin mühafizəsi nəyinki bu gün üçün gələcək üçündə önəmlidir. Bu aspektdən yanaşaraq təhsil müəssələrində uşaqları təbiət ruhlu böyütmək vacibdir.

Həmçinin təbiətdə baş verən ekoloji problemlər insan səhhəti üçündə zianlıdır. Ç.Darvin təbiətdə ekoloji təlim adlı prosesin olduğunu vurğulamışdır . Ekoloji təlim prosesi zamanı bütün canlılar yaşam uğrunda mübarizə aparır. Ekoloji təlim isə ekoloji muhiti yaradır. Ekoloji muhit anlayışının tərkibinə-sosial muhit, ekoloji muhit, texnika, texnologiya və s anlayışlar daxildir. Bu anlayışlar bir - biri ilə qarşılıqlı əlaqə qurur həmçinin insanın bu əlaqəyə təsiri mövcuddur. Insan fəailiyyətinin bu proseslərdən kənarda qalması mümkünsüzdür. Bu vəhdət pozulduqda ekoloji böhran qaçınılmazdır.

Müasir zamanda zavod, fabriklərin tikintisi, ağacların qırılması, nəsli kəsilməkdə olan heyvanların ovlanması ekologiyada aktual problemlərdəndir. Bu mövzular barədə şagirdlərə məlumat verilərsə, vəziyyətin əleyhinə yollar araşdırmaq tapşırılarsa gələcəkdə bu tip ekoloji problemlərin qarşısı alına bilər.

İlkin mərhələdə təbiəti araşdırmaq idisə bu gün həmdə şagirdlərə onu qorumaq yollarıda öyrədilməlidir. Təbiətlə rəftar isə bir növ insan xarakterindən irəli gəlir. Mərhəmətli, səxavətli xarakterə sahib olan şəxs ətraf mühitə zian verməyi düşünməz. Ekoloji tərbiyə şəxsi formalaşdırmaqla bərabər tərbiyə işinin özəyinidə təşkil edir. Ekoloji tərbiyə zamanı şəxsə təbiətlə davranış , həssaslıq, qayğıkeşlik kimi əxlaqi keyfiyyətlər aşılanır.

Ekoloji tərbiyə praktiki işlər zamanı daha çox formalaşır. Buna təbiətdə çiçəklər və ya heyvanlar üzərində müşahidə aparan şagirdləri nümunə göstərə bilərik . Tərbiyəçi şagirdə təbiətin insanda yaratdığı mənəvi-əxlaqi keyfiyyətlərdən bəhs etməklə bərabər ən kiçik detala belə diqqət

etməlidir.

Azərbaycan ədəbiyyatı üçün önəmli sayılan bir çox əsərlərdə də ekoloji tərbiyə ilə əlaqədar fikirlər öz əksini tapmışdır. Nümunə olaraqdan "Kitab-i Dədə Qorqud" dastanını , Əssar Təbrizin "Mehr və müştəri" əsərini , N.Gəncəvinin "Xəmsə"sinə daxil olan **"Yeddi gözəl" poeması nümunə göstərə bilərik.**

**"Bəhramın ova çıxması və gurları dağlaması" bəhsində ("Yeddi gözəl") şair hələ o dövrdə mövcud olmuş və təbiətin xilasına yönəlmiş ovçuluq qaydalarına işarə edərək bu fikirləri qələmə almışdır:**

**Yıxsaydı yüz guru əgər yan-yana,**
**Qıymazdı dörd yaşı qurtarmayana.**
**Onun bir beləcə adəti vardı:**
**Gənc gurun qanını haram sayardı.**

Şifahi xalq ədəbiyyatımızın incilərindən hesab olunan "Kitabi -Dədə Qorqud"da torpağları,namusu qorumaqla bərabər yurd, ana,vətən ,təbiət sevgisidə öz əksini tapmışdır. Dastanın uyğur versiyasında Oğuz xanın dua etdikdən sonra ağacdan işıq düşərək 3 oğlan uşağının yaranması prosesi əks olunubdur (1,s 390) . Bu isə təbiətin insan yaradılışında rolunu ön plana çıxarır. Həmçinin dastanda insanın təbiətdən ilham alması fərqli numünələrlə göstərilibdir.

Dastanda ağac adlarının çəkilməsi heçdə təsadufi deyildir. Boyların birində Təpəgöz Basatdan haralı olduğunu soruşanda onun "Anam adı soruşsan Qaba ağac"deyə vurğulaması təbiətin oğuzların həyatına təsirsiz ötüşməməsinin əyani göstəricisidir.

Nəinki bir boyunda "Basatın Təpəgözü öldürdüyü boy", "Salur Qazanın evinin yağmalandığı boy" , "Baybərənin oğlu Bamsı Beyrək boyu"ndada təbiətlə bağlı motivlərə, fikirlərə rast gəlmək mümkündür.

Sonda onu qeyd edək ki, ekoloji tərbiyə elə bir tərbiyə prosesidirki ətraf mühitin dərk olunması və təbiətə qayğı ilə yanaşma aşılanır. Ekoloji cəhətdən savadlı şəxs dərk etməlidir ki, təbiət də onun özü kimi canlıdır və zərər vurmaq olmaz. Təhsil ocaqlarında ekoloji təhsilin verilməsi uşağa kiçik yaşlarından təbiətə qayğı ilə yanaşmanı aşılamaqla onun şəxsiyyətinin formalaşmasına təkan vermiş oluruq. Yeni nəsildə vətəndaş şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri də məhz ekoloji təhsil və tərbiyə olmalıdır.

**İLAHƏ ŞİRVANSKYA**
*Sosial pedaqogika*
*Naxçıvan Dövlət Universiteti*
*ilahe99@gmail.com*

# TƏDRİS PROSESİNDƏ YARADICILIQ QABİLİYYƏTLƏRİNİN İNKİŞAFI

Hazırda cəmiyyətimizin bütün sahələrində baş verən dinamik proseslər insan fəaliyyəti və onun yaradıcılığının inkişafı problemini ön plana çıxarır. Ölkənin inkişafının aktual problemlərini isə qeyri-ordinar və yaradıcı düşünən insanlar həll edə bilər.

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)"nda şagirdlərin fəaliyyətinin formalaşdırılması və təmin olunması, onun bir subyekt kimi inkişafı üçün lazımi şəraitin yaradılması vacib faktor kimi gözdən keçirilir. O cümlədən "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)"nda təhsilin forma və metodları demokratik və humanist prinsiplərə əsaslanır. Bu, böyüməkdə olan nəslin yaradıcılıq qabiliyyətinin inkişafı üçün böyük imkanlar yaradır (2).

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev çıxışlarının birində demişdir: "Bu gün bizim təhsilimizin məqsədi uşaqlara və gənc nəslə bilik vermək, onları gələcəyə hazırlamaqdır. Lakin bununla bərabər ən başlıca məqsəd Azərbaycan cəmiyyətinin layiqli üzvünü, Azərbaycan vətəndaşını formalaşdırmaqdır" (3). Bu sətirləri oxuyarkən müəllimlərin üzərinə necə vacib və məsuliyyətli vəzifənin düşdüyünü başa düşürük.

İntellektin əsasları və onun bütün mənəvi aləmi başlıca olaraq məktəbəqədər və aşağı məktəb yaşlarında yaranır və formalaşır, baxmayaraq ki, onun nəticələri sonralar üzə çıxır. Deməli, müəllimlərin qarşısında uşaqların, onların yaradıcılıq imkanlarının inkişaf etdirilməsi vəzifəsi durur.

Yaradıcılıq - bu, psixi fəallığın ən ali forması, nəsə orijinal bir şeyi yaratmaq qabiliyyətidir.Müəllimin işinin səmərəliliyi təlim-tərbiyə prosesinin hər bir şagirdin yaradıcılıq qabiliyyətinin inkişafını nə dərəcədə təmin etməsi, yaradıcı şəxsiyyəti formalaşdırması ilə müəyyən olunur.

Uşaqlar məktəbə müxtəlif inkişaf səviyyələri ilə gəlirlər. Uşaqların çoxunun qabiliyyəti onların daxilində gizlənib. Onların aşkara çıxarılması və inkişaf etdirilməsi istiqamətində əsas iş müəllimlərin üzərinə düşür. Məşhur ixtiraçı Edison deyib: "Dahi-bu bir faiz ilham,doxsan doqquz faiz isə tər tökməkdir".

Yaradıcılıq qabiliyyətlərinin inkişafı şəxsiyyətin inkişaf mərhələlərindən keçir, təşəbbüskarlıq, qərarların qəbulunda müstəqillik, özünü azad ifadəetmə vərdişləri, özünəinam oyadır. Əlbəttə, bütün bunlar o halda baş verir ki, şagird özünü tədris prosesinin tamhüquqlu üzvü kimi hiss etsin. Azərbaycan Respublikasının Milli Kurikulumunda buna xüsusi diqqət yetirilir. Maraqlı oyunlar şəraitində qruplarla iş zamanı rəngarəng biliklər, bacarıq və vərdişlər daha müvəffəqiyyətlə inkişaf edir, uşaqların əqli, estetik, mənəvi tərbiyəsi həyata keçirilir. Qruplarla iş gedişində uşaqların kommunikativ bacarıqlarının inkişafı baş verir və xoş əhvali-ruhiyyə yaranır.

Yaradıcılıq fəallığını formalaşdırmaq üçün şagirdləri yaradıcı fəaliyyətə cəlb etmək və onların yaradıcılıq fəallığını inkişaf etdirmək, tədris prosesində problemli məsələlər qaldırmaq və yaradıcı təfəkkürün inkişafına nail olmaq lazımdır.

Şagirdlərin yaradıcılıq qabiliyyətini aşağıdakı prinsiplərin köməyi ilə həyata keçirmək mümkündür:

- yaradıcı fəaliyyətə motivasiyanın inkişaf etdirilməsi prinsipi;
- özünütəhsil və özünütərbiyə bacarıqlarının inkişaf etdirilməsi prinsipi;
- pedaqoji prosesin şagirdlərin fərdi xüsusiyyətləri ilə uyğunlaşdırılması prinsipi;
- şagirdlərin yaradıcılığını və müstəqilliyini təmin edən tədris formalarının seçilməsi prinsipi.

Şagirdlərin hər bir yaradıcı fantaziyasını həvəsləndirmək lazımdır. Bu baxımdan uşaqların istənilən mövzu üzrə nümunəvi sərgilərinin təşkili çox vacibdir. Unutmaq olmaz ki, hər bir uşaqda

müəyyən qabiliyyət və istedad vardır. Uşaqlar təbiətən hər şeylə maraqlanır və oxumağa can atırlar. Onların öz istedadlarını nümayiş etdirmələri üçün düzgün rəhbərlik lazımdır. Beləliklə də kiçik məktəb yaşlarında uşaqların yaradıcı təsəvvürlərinin inkişafı onların təcrübəsinin mütəmadi olaraq zənginləşməsi, bu təcrübənin gerçəkliyin müxtəlif sahələrinə aid yeni biliklərlə dolğunlaşması ilə getməlidir.

Qeyd etmək lazımdır ki, davamlı maraqların yaranması üçün uşaqların yeni fəaliyyət sahəsi ilə tanışlığı kifayət deyil. Onlarda yeniliyə qarşı müsbət emosional münasibət baş qaldırmalıdır. Əmək fəaliyyəti dövründə bütün fərdi xüsusiyyətlər inkişaf edir. Hər hansı əşyanı öz əlləri ilə düzəldən zaman uşaqlar diqqət və yaddaşlarını inkişaf etdirir, səliqəliliyə və səbirli olmağa vərdiş edir, ən əsası müstəqil surətdə qərar qəbul edirlər.

Yaradıcılıq qabiliyyətinin formalaşdırılması şəxsiyyətin hərtərəfli və harmonik inkişafının vacib tərkib hissəsidir. Bizim vəzifəmiz vətənimiz Azərbaycan naminə bu cür şəxsiyyət tərbiyə etməkdir.

Tədris prosesində proqram materiallarının şagirdlərin qabiliyyətlərinə uyğun şəkildə tərtibi onlarda vətənpərvərlik hissi ilə yanaşı, öz vətənlərinin maddi və mənəvi sərvətləri haqda geniş məlumat almaq imkanı yaradır. Tədris prosesində əldə etdikləri bilikləri dərinləşdirmək üçün məktəblə yanaşı məktəbdənkənar müəssisələrin işi də çox önəmlidir. Məktəbdənkənar müəssisələrdə təşkil edilmiş iş şagirdlərin bilik və bacarıqlarını tətbiq etməyə, təcrübə aparmağa şərait yaradır.

Respublikamızda fəaliyyət göstərən uşaq və gənclərin yaradıcılıq sarayı çox profilli məktəbdənkənar müəssisədir. Burada fəaliyyət göstərən texniki yaradıcılıq, bədii yardıcılıq, təbiətçilik və turizm, idman şöbələri məktəblilərin həm fiziki, həm də mənəvi inkişafı üçün əlverişli şərait yaradır. Eyni zamanda bu şöbələrdə təşkil edilmiş dərnəklərdə şagirdlərin iştirakı onların yaradıcılıq qabiliyyətlərinin inkişafına hərtərəfli kömək edir.

Məktəbdənkənar müəssisələr tərbiyə işlərini təşkil edərkən uşaqların qabiliyyətlərinə uyğun dərnəklərin təşkilinə üstünlük verilir ki, bu da istedadlı məktəblilərin müntəzəm olaraq bilik və vərdişlərini tətbiq etmək imkanı əldə etməsinə şərait yaradır. Digər tərəfdən dərnəyə rəhbərlik edən şəxs tərəfindən onun bu sahədə edəcəyi səhvlərin vaxtında islah olunmasına kömək edir. Məktəbli belə dərnəklərdə iştirak etməklə onda olan istedad daha tez meydana çıxır. Bu isə onun gələcək inkişafı üçün zəmin yaratmış olur. Dərnəklərdə iştirak edən bir neçə məktəblinin eyni məsələyə baxışı müxtəlif olur. Bu müxtəliflik isə dərnək üzvləri arasında fikir mübadiləsinə gətirib çıxarır.

Yekun olaraq qeyd edək ki, cəmiyyətimizin müasir inkişafı məktəb və məktəbdənkənar müəssisələr qarşısında müstəqil və tənqidi düşünən, yaradıcı qabiliyyətlərə malik, geniş dünyagörüşlü, cəmiyyətə və dövlətə xeyirli şəxsiyyətin tərbiyə edilməsi vəzifəsini qoyur. Məhz buna görə də məktəb və məktəbdənkənar müəssisələrdə şagirdlərin bilikləri mənimsəməsilə yanaşı, həm də onlarda bacarıq və vərdişlərin aşılanmasına, məktəblilərin yaradıcılıq qabiliyyətlərinin inkişafına təkan verməlidir. Bu tələblər baxımından yaradıcılıq qabiliyyətlərinin inkişafı təhsilin prioritet xətlərindən birini təşkil edir. Belə ki, hazırda şagirdlərin şəxsiyyət kimi formalaşmasında yaradıcılıq qabiliyyətlərinin rolu ön plana çəkilir. Bu fikir özlüyündə əsassız hesab edilə bilməz. Çünki dövlətə yararlı bir şəxsiyyət cəmiyyətdə öz qabiliyyətləri ilə tanınır və yaradıcılıq qabiliyyətlərinin inkişafında məktəb və məktəbdənkənar tərbiyə müəssisələrinin rolu inkaredilməzdir.

## ƏDƏBİYYAT

1. Abbasov A., Əlizadə H. Pedaqogika. Bakı: 2000
2. Əhmədov.H. M..Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: "Elm" nəşriyyatı, 2010
3. Hüseynova İ..Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004.

**TURAC MAXSUDOVA**
*Pedaqogika tarix və nəzəriyyəsi*
*Naxçıvan Dövlət Universiteti*
*maxsudovaturac@gmail.com*

## KURİKULUMUN XÜSUSİYYƏTLƏRİ

Azərbaycan təhsil sistemində “kurikulum”yeni anlayışdır,lakin beynəlxalq səviyyədə təhsil termini olaraq geniş istifadə olunur. Əvvəlki təhsil sistemində müəllim və şagird arasında qarşılıqlı əməkdaslıqa onəm verilmirdi ,lakin yeni təhsil sistemində isə müəllim və şagird arasında qarşılıqlı əməkdaşlığa daha çox önəm verilir. 1918-ci ildə ABŞ- da ilk fənn kurikulumu yaranmışdır. Bəzi alimlər qeyd ediblər ki, kurikulumdan bir termin kimi ilk dəfə 1876 – cı ildən sonra istifadə olunmağa başlanmışdır və kurikulumun mahiyyəti haqqında yanaşmalar müxtəlif olmuşdur. Hər kəs öz ölkəsinin ehtiyacları baxımından ona yanaşmış, hazırladığı nümunələrdə zəruri tələbatları nəzərə almışdır. Azərbaycan pedaqoji fikrində isə bu belə qəbul olunmuşdur: "Kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir" (2). Azərbaycan Respublikasının Təhsil Qanununda bu anlyış bir daha konkretləşdirilmişdir: “Təhsil proqramı (kurikulum) – təhsilin hər bir pilləsi üzrə təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədidir” (3).

Təhsil sistemində "kurikulum" yeni bir anlayış olmaqla o, təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin təşkilini və həyata keçirilməsini əks etdirən konseptual sənəd kimi başa düşülür. İslahat çərçivəsində elə bir konseptual sənəd hazırlanır ki, özündə təhsilalanlar üçün zəruri kompetensiyaları, məzmun və qiymətləndirmə standartlarını, hazırkı tədris planı və proqramlarını, şagirdə və onun hazırlıq səviyyəsinə verilən tələbləri, hər bir dərsin konkret inkişafetdirici məqsədlərini, metodik təminatı, dəyərləndirmə modelini, texniki təchizatını və s. təsvir etsin, müəllim və məktəb qarşısında duran vəzifələri və onların konkret həlli yollarını göstərsin.

Kurikulum 7 səciyyəvi xususiyyəti var . Bunlar asağıdakılardır :

1. Şəxsiyyətə yönəlmiş təlim prinsipi Nə üçün uşaqlar erkən yaş dövründə daha fəal olurlar? Bir qədər inandırıcı olmasa da elmi araşdırmalar göstərir ki, insan bütün ömrü boyu qazandığı məlumatın təxminən 70% -ni 6 yaşa qədər əldə edir. Paradoks ondan ibarətdir ki, məktəbə daxil olduqdan sonra uşağın idrak fəallığı müəyyən dərəcədə ləngiməyə başlayır. Bu nəyə görə baş verir?

İş ondadır ki, məktəbəqədər dövrdə uşaq dünyanı bir tədqiqatçı kimi dərk edir: o, suallar verir, bu suallara cavab tapmaq üçün öz imkanı dairəsində müxtəlif məlumat mənbələrindən istifadə edir və ilk növbədə öz təcrübəsinə əsaslanır. Onu əhatə edən dünyanı müstəqil dərk edərək uşaq öz maraqlarına görə fəaliyyət göstərir.

Birinci sinfə qəbul olarkən uşaq elə bir təlim mühitinə düşür ki, burada ondan adət etdiyi, təbii olan öyrənmə metodundan əl çəkmək tələb olunur. Müəllim tələb edir ki, uşaq ona diqqətlə qulaq asıb dediklərini yadda saxlasın, təlimatlarını dəqiq yerinə yetirsin və bu təlimata aid olmayan sualları az versin. Bununla şagirdə, demək olar ki, passiv mövqe tutmaq, tətqiqatçı rolundan imtina etmək və müəllim tərəfindən verilən məlumatla kifayətlənmək təklif olunur. Bu cür təlim prosesinin mərkəzində şagird yox, müəllim dayanır. Məhz müəllim təlim prosesinin fəal iştirakçısı olur və şagirdə nəyi və necə dərk edilməsini diktə edir. Bunun nəticəsində şagirdin dərketmə imkanları məhdudlaşır, onun ehtiyacları, maraq və qabiliyyətləri nəzərə alınmır.

Deməli, şagirdin fəallaşması üçün ilk növbədəi, onun, bir şəxsiyyət kimi təlim prosesinin mərkəzi obyekti kimi çıxış etməsi vacibdir. Təlim uşağın maraq və tələbatlarına, onun bilik səviyyəsinə, imkan və qabiliyyətlərinə yönəlməlidir. Müəllim tərəfindən şagirdə şəxsiyyət kimi yanaşılmalı, onun fərdi cəhətləri nəzərə alınmalı və ona hörmət əsasında münasibət göstərilməlidir.

2. Fəal idrak prinsipi Tədris prosesi elə təşkil olunmalıdır ki, o, idrak fəallığı, təbii öyrənmə

fəaliyyəti doğursun, şagirdə «ilk kəşf» sevinci keçirməyə imkan versin, onda yeni biliklərə yiyələnmək həvəsi yaratsın. İdrak fəallığı ilk növbədə təfəkkürün fəallaşdırılması əsasında yaranır. Buna nail olmaq üçün birinci növbədə təlim prosesində idrak fəallığını stimullaşdıran problemli situasiyalar yaradılmalıdır. Uşaqda bu problemin həlli tələbatının yaranması nəticəsində bütün idrak prosesləri də fəallaşır, o, yeni bilikləri kəşf etməyə yönəlir.

3. İnkişafedici təlim prinsipi Görkəmli rus psixoloqu, müasir pedaqoji psixologiyanın banilərindən biri olan L.S.Vıqotskinin nəzəriyyəsinə görə təlim inkişafı qabaqlamalı, uşağın «qarşıdakı (yaxın) inkişaf zonasına» yönəlməlidir. Bu inkişaf zonasında uşağın potensial imkanları mərkəzləşib, onları aktuallaşdırmaq üçün xüsusi təlim şəraiti yaradılmalıdır. Buna nail olmaq üçün şagirdlərə imkanlarına uyğun, lakin bir qədər mürəkkəb tapşırıqları müstəqil həll etmək təklif edilməlidir. Eyni zamanda, müəllim və digər böyüklər suallar verməklə onları problemin həllinə istiqamətləndirməlidirlər. Yəni təlim uşağın özünün müstəqil fəaliyyəti və ya böyüklərin köməyi sayəsində bilik və bacarıqları əldə etmək üzrə aşkarlanan potensial imkanlarının gerçəkləşdirilməsinə yönəlməlidir. İnkişafedici təlim ilk növbədə təfəkkürü və yaradıcılığı formalaşdırmalıdır.

4. “Qabaqlayıcı təlim” prinsipi Müasir dövrdə baş verən sürətli dəyişikliklər təlimin qarşısında şagirdlərin həyata hazırlanması məsələsini daha kəskin qoyur. Bunun üçün ilk növbədə təlim cəmiyyətin inkişaf meyillərini əks etdirməli və yeni nəsli yaxın gələcəkdə həyat şəraitinə hazırlamalıdır. Məktəb şagirdə baza bilik, bacarıq və vərdişləri verməklə kifayətlənməməlidir. O, eyni zamanda onda idraki fəallığı, hər şeyi öyrənmək həvəsi və digər zəruri keyfiyyətləri formalaşdırmalıdır. Təlim şagirdə zəruri olan informasiyanı müstəqil əldə etməyi, onu yenidən işləməyi, düzğün istifadə və tətbiq etməyi öyrətməlidir.

5. Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi Təlim-tərbiyə sisteminin çevikliyi ilk növbədə onun real şəraitə uyğunlaşmaq qabiliyyətidir. İctimai mühitin və şagirdlərin dəyişən tələbləri nəzərə alınmaqla, tədris planları və proqramlarının məzmunu, təlim-tərbiyə prosesinin təşkili, pedaqoji texnologiyaların seçilməsi sistematik olaraq təzələnməlidir. Çevik təlim-tərbiyə sistemində, daha çox təlimin diferensiallaşmasına, şagirdlər tərəfindən müxtəlif məlumatların işlənilməsi və mənimsənilməsinə üstünlük verilir. Buna nail olmaq üçün müəllim hər bir şagirdə fərdi yanaşmağa, təlimdə müxtəlif bilik mənbələrindən və məlumatı təqdimetmə formalarından (görmə, eşitmə, hiss etmə və s. duyğulara əsaslanan) istifadə etməyə çalışmalıdır. Təlim-tərbiyə sisteminin çevikliyi bir nəticə olaraq biliklərin daha çox yaradıcı və tətbiqi olmasında öz əksini tapır, şagirdlər təlim məqsədlərini qoymağa özləri cəhd edirlər.

6. Əməkdaşlıq prinsipi «Müəllim-şagird» qarşılıqlı münasibətləri sistemində bu subyektlərin hər biri təlim prosesində tərəf müqabili kimi iştirak etməlidirlər. Əməkdaşlıq ilk növbədə təlim prosesinin kollegial və dinamik keçməsində öz əksini tapır. Əgər şagird təlim prosesində müəllimlə bərabərhüquqlu şəxs kimi çıxış edirsə, bu onun fəaliyyətində yeni bir keyfiyyət yaradır: şagirdin özünə inamı artır, o öz fikrini çatdırmağa qorxmur, öz potensial imkanlarını gerçəkləşdirir. Əməkdaşlıq prinsipi müəllimdən tələb edir ki, o, şagirdin qiymətləndirilməsində daha çox dəstəkləyici qiymətlərdən istifadə etsin. Əməkdaşlıq təlim mühitini şagird üçün daha əlverişli, fəallaşdırıcı və ruhlandırıcı edir.

7. Dialoji təlim prinsipi Məsələlərin birgə həlli gedişində özünün və qrup üzvlərinin fikirlərini, imkanlarını və təcrübələrini bölüşə bilmək və bundan qarşılıqlı faydalanmaq məqsədi ilə hər bir şagirdin müzakirələrdə və qrupun işində iştirakı təmin edilməlidir. Təlim prosesində bütün şagirdlərin müxtəlif nöqteyi-nəzərlərini və fikirlərini nəzərə almaqla, dialoji təlim fikir müxtəlifliyinə, tədrisin məzmununu daha da zənginləşdirməyə imkan yaradır, nəticəçıxarma prosesinə müsbət təsir edir.

Bu prinsiplərin həyata keçirilməsi sagirddə səmərəli həyat fəaliyyətinin formalaşması və onun aramsız dəyişən şəraitə uyğunlaşması üçün təsiredici zəruri bacarıqların əldə olunmasına şərait yaradır. Bütün bu prinsiplərin təlim prosesində ən dolğun şəkildə tətbiqi fəal(interaktiv) təlim metodları vasitəsilə mümkündür.

## ƏDƏBİYYAT

1. Abbasov Ə.M.Yeni kurikulumların səciyyəvi xüssusiyyətləri // "Kurikulum" jurnalı, 2008, N$^0$1, səh.31-37
2. Azərbaycanın təhsil siyasəti 1998-2005, II kitab. Bakı: Təhsil, 2005.
3. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 2009.
4. Təhsil haqqında "Azərbaycan Respublikasının Qanunu". Bakı: "Hüquq ədəbiyyatı", 2009.

**MƏHSƏTİ SÜLEYMANOVA**
*Məktəbəqədər təlim və tərbiyənin metod və metodologiyası*
*Lənkəran Dövlət Universiteti*
*suleymanova.mehseti@mail.ru*

## UŞAQ FOLKLORUNUN ÖYRƏNİLMƏSİNDƏ RƏŞİD BƏY ƏFƏNDİYEVİN ROLU

Uşaq folklorunun toplanmasına XIX əsrin sonu XX əsrin əvvəllərindən başlanmışdır. Eləcə də araşdırılmasına təxminən bu dövrdən başlanılmışdır. Adları Azərbaycan ədəbiyyatına qızıl hərflərlə yazılmış mütəfəkkirlərimiz vardır ki, onların uşaq folklorunun toplanmasında və araşdırılmasında da xüsusi xidmətləri olmuşdur. Belə ziyalılarımızdan biri də Rəşid bəy Əfəndiyev olmuşdur. Rəşid bəy ömrünü millətin təsilinə, məktəbə, maarifə, tərbiyə işinə, uşaqların marağını oxşayan pyeslər, şeirlər, hekayələr, təmsillər, yazmağa sərf etmişdir.

O, yaradıcılığının bir hissəsini Azərbaycan folklorunun öyrənilməsinə həsr etmişdir. İstər Azərbaycan folklorunun toplanılmasında, istərsə də araşdırılmasında Rəşid bəy Əfəndiyevin də müəyyən qədər rolu olmuşdur. O, bununla yanaşı, müəllimlik fəaliyyəti ilə də məşğul olmuşdur. Həmin dövrdə məktəblərdə Azərbaycan dilində materialın az olması səbəbindən Rəşid bəy Əfəndiyev özü kitablar yazmağa, dərsliklər hazırlamağa məcbur olmuşdur. Rəşid bəyin "Uşaq bağçası" adlı əlifba kitabı, "Bəsirətül-ətfal" qiraət kitabı Azərbaycanda ilk dərsliklər hesab olunur. O, elmi, məktəbi təbliğ edən bir sıra mənzumələr də yazmışdır. Rus klassik ədəbiyyatından Puşkinin, Kırlovun dərs kitablarından müəyyən parçalar tərcümə edərək uşaqlara təqdim etmişdir. Maarifçı, pedaqoq olan Rəşid bəy iki hissədən ibarət "Müxtəsər şəriət" dəsliyinin də müəllifidir.

R.Əfəndiyevin yazdığı kitablardan biri də "Uşaq bağçası" adlanır. Kitabın titul səhifəsində belə yazılıb: "Müəllifi: Zaqafqas Darül-müəlliminin müsəlman şöbəsinin elmi-ilahi və lisan (dil) müəllimi Rəşid bəy Əfəndizadə". Bu kitab 1912-ci ildə rus dilində çap olunmuş və 112 səhifədən ibarətdir. Kitabın dərc edən mətbəənin adı isə Tiflisdir. Kitabın arxasında rus dilində "Ушагь Бахчаси. (Татарская азбучная книга.) Одобрена Кавкаскимиь Учебными Округами для употребления во всьхь правительственных и частных учебныхь заведениях, вь которых преподается татарский языкь. (Решид беку Эфендиеву-Вероучитель Закавказской учительской Семинарии)" sözləri yazılmışdır. Ardınca isə "Məktəblərdə oxumalı türk-qiraət kitabıdır" yazılmışdır. Kitab bismilləhir-rəhmanir-rəhim kəlməsi ilə başlayır. Müəllif bu kitabda savad təlimi, oxu texnikasını inkişaf etdirmək məsələləri ilə yanaşı, həm də uşaqların tərbiyə edilməsinə, əxlaqına təsir etməyə xüsusi fikir vermişdir. O, bu fikrini "Müsəlman millətinin tərbiyeyi-əxlaqına və məlumati-nafiəsinə xidmətedici tazə bir kitabdır" cümləsi ilə vermişdir.

R. Əfəndiyevin bu sahəyə həsr etdiyi məşhur kitablarından biri də "Vətən dili" adını verdiyi əlifba dərsliyidir. O, "Vətən dili"nin I hissəsini hazırlayarkən tələbəsinin dəstəyindən də istifadə edir. Bu kitab uşaqlara bir hədiyyə idi. Pedaqoq bu dərsliyi 1881-ci ildə Tiflisdə Ünsizadə mətbəəsində litoqrafiya üsulu ilə çap etdirir.

R.Əfəndiyev uşaq folklorunu toplamaqla, araşdırmaqla qalmır, eyni zamanda xalq yaradıcılığından bəhrələnərək özü də müəyyən əsərlər yazmağa cəhd etmişdir. Onu da qeyd etmək yerinə düşər ki, bu cəhdlər də çox uğurlu alınmışdır. Onun bu sahəyə həsr olunmuş xeyli şeir, hekayə, pyesi və s. vardır. Görkəmli ədibin belə əsərlərindən bir "Uşaq və qarışqa" adlanır. Həmin hekayə qarşıqanın uşağa tərbiyəvi söhbətindən bəhs edir.

Rəşid bəy Əfəndiyev bütün əsərlərində tərbiyə məsələsini ön palana çəkir, uşaq tərbiyəsini mühümlüyünü qeyd edir.

## BİBLİOQRAFİYA VƏ MUZEYŞÜNASLIQ

**ZÜMRÜD ƏHMƏDOVA**
*Muzeyşünaslıq*
*Naxçıvan Dövlət Universiteti*
*zumrudaxmedova45@gmail.com*

# XALQIMIZIN MADDİ-MƏNƏVİ SƏRVƏTİ OLAN MUZEYLƏR VƏ ONLARIN EKSPOZİSİYA DİZAYNI

Hər bir xalqı dünyada tanidan onun özünəməxsus xüsusiyyətləri,mədəniyyəti, tarixi və elmi-milli dəyərləridir. Məhz Azərbaycan xalqıda özünü dünyaya mədəniyyəti, incəsənəti,yetişdirdiyi görkəmli şəxsiyyətləri,ziyalıları, maddi-mənəvi xəzinəsi və çoxəsirlik tarixi ilə tanıtmışdır.Hal-hazırda Azərbaycanda digər sahələrlə yanaşı incəsənət və mədəniyyət sahəsi xeyli inkişaf etmiş və bu sahədə bir çox nailiyyətlər əldə edilmişdir. Mədəniyyət sahəsinə isə nəzər yetirdikdə burada muzeylərin nə qədər böyük əhəmiyyət kəsb etdiyininin şahidi oluruq. Buna görə də muzeylərlə yaxından tanış olmaq, onları hərtərəfli öyrənmək, onun prinsiplərini, qanunauyğunluqlarını və metodlarını dərindən bilmək lazımdır. Təbii ki, muzeylərə istər xaricdə, istərsə də Azərbaycanda müxtəlif təriflər verilmişdir.

Muzey-bəşəriyyətin,xalqın qədim tarixinin və ətraf mühitin ilkin maddi sübutlarını toplayan,qoruyan və şərh edən, mənfəət əldə etməyən, ictimaiyyətə açıq olan və cəmiyyətin inkişafında xidmətləri olan daimi bir qurumdur. Ona yanlız qiymətli əşyaların, maddi dəyərlərin saxlandığı bir qurum və ya müəssisə kimi baxmaq düzgün deyildir. Çünki burada saxlanılan hər bir eksponat xalqın çoxəsrlik tarixini, qədimliyini, milliliyini əks etdirir həmçinin bununla yanaşı bu eksponatlar misilsizdir və tədqiqat üçün xammal əhəmiyyətlidirlər.

Muzeylər bir çox məqsədlərə xidmət edir.Bu məqsədlərə əsasən muzeylərdən istirahət məkanı kimi istifadə etmək və ya elm və təhsil yerləri kimi, yerləşdiyi bölgəyə daha çox turist cəlb etmək və öz tarixini gələn turistlərə sövq etmək, xalqında vətənpərvərlik və millilik ruhunu oyatmaq və s daxildir. Bütün bunlara baxmayaraq, muzeylərin bir ortaq cəhəti var. Bu ortaq cəhət xalqın tarixini, adət-ənənələrini , maddi dəyərlərini qorumaqdan ibarətdir.Muzeylər hər zaman xalqının, dövlətinin keçmişinə dair eksponatları araşdırır, təbliğ edir və cavan nəslin öz keçmiş tarixi ilə tanışlığında vasitəçi rol oynayır. Mahiyyətinə görə müxtəlif təmayüllü olurlar. Məsələn, dövlət, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi və s. Hətta bəzi muzeylər isə universitetin bir hissəsi kimi fəaliyyət göstərir bu muzeylərə həm də universitet muzeyi deyilir. Ümumiyyətlə, orada müvafiq universitetin tarixi təqdim olunur və müvafiq eksponatlar göstərilir. Azərbaycanda isə muzey işi qədim dövrlərdən başlayaraq,öz inkişaf yolunu keçib.Mədəniyyət sahəsində həmçinin muzeylərin inkişafında müdrik şəxsiyyət Heydər Əliyevin xidmətlərini xatırlamamaq mümkün deyil.Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın tarixi-mədəni irsinə, incəsənətinə böyük diqqət və qayğı göstərmişdir.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın hər bir vətəndaşına öz tarix və mədəniyyətini dərindən bilməsini vacib saymış, bununla da muzeylərin rolunu yüksək qiymətləndirmişdir.(2.s.136)

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyi zamanı digər sahələrlə yanaşı mədəniyyət və incəsənətdə də çiçəklənmə dövrü başladı Bu dövrdə mədəniyyətin ayrılmaz hissəsi olan muzeylərimiz işıq üzü görmüş,onların şəbəkəsi genişlənmiş,və maddi-texniki bazası möhkəmləndirilmişdir.

Azərbaycanda muzey quruculuğu və muzeyşünaslığın inkişafı üçün bir çox addımlar atılmışdır. Bu addımlar içərisində Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev tərəfindən 24 mart 2000-ci il tarixində imzalanan “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu əsas əhəmiyyət kəsb edir. Muzey fəaliyyəti məhz bu Qanunla tənzimlənir.

Heydər Əliyev Azərbaycan xalqının milli mədəniyyətinə, onun tarixi qaynaqlarına həmişə

böyük diqqətlə yanaşmış, millətin qan yaddaşına hopmuş tarixi şəxsiyyətlərimizin zaman-zaman yaşaması üçün qayğısını əsirgəməmişdir.(2.s.250)

Muzeylərin əsas tərkib hissələrindən biridə muzeyin ekspozisiyasıdır.Eskpozisiyanın elmi layihəsinin vacibliyi kimi, onun bədii memarlıq həllidə vacibdir.Bədii memarlıq həlli dedikdə isə, ekspozisiyanın məzmununun gələn tamaşaçılar üçün ən uyğun şəkildə qavranılması məqsədilə, ekspozisiya zalının yüksək şəkildə bədii layihələndirilməsi və həyata keçirilməsi nəzərdə tutulur.

Ekspozisiyanın bədii estetik cəhətdən gözəlliyi üçün rəssam, dizaynçı, bədii memarlıq tərtibatçısı, işıqçı- rəssam, bələdçi və digərlərin kompleks yaradıcılığından istifadə edilir.

Muzey ekspozisiyası maraqlı, aydın və bəddi cəhətdən gözəl olmalı və tamaşaçıları daim özünə cəlb etməlidir. Həmçinin ekspozisiyaların emosional gücü onun yerləşdiyi məkandanda asılıdır. Sərgi zamanı hər bir obyekt tamaşaçıya gözəl formada çatdırılmalı və onların maraq dairəsinə uyğun olmalıdır. Sərgidə müxtəlif isiqlandirma qurğularından,istilik cihazlarından istifadə edilir ancaq bunların heç biri eksponata zərər verməməlidir. Döşəmə və divar sahələrindən, həm də rənglərdən düzgün istifadə edilməlidir.Təbii ki bütün bunlar tamaşaçılarda muzey və ekspozisiyaya aid gözəl təəssürat yaradır.Hətta buradakı mətnlər belə səliqəli və gözəl şriftlərlə yazılmalıdır. Həmçinin sərginin məzmununa uyğun dekorlar, quruluş, bədii tərtibat işləri, yaradılır və bütün bunlar ziyarətçilərin qavramasını, bədii təsirini dahada artırır. Geniş aydın zallar daha əlverişlidir. Ekspozisiyada döşəmə və tavanlar da əsas ünsürlərdən hesab olunur.Günümüzdə demək olarki muzeylərin tavanı hamar və açıq rənglərdən əsasən ağ boya ilə rəngləndirilmişdir.Bu təbii ki ilk olaraq istifadə olunan işıqların bütün zala paylanmasında böyük əhəmiyyət kəsb edir.Bəzən muzeylərin tavanlarındanda ekspozisiya kimi istifadə olunur yəni tavanda zərifliklə işlənmiş naxışlar,rəsmlər və s buna aiddir. Həmçinin gözəl rənglənmiş döşəmələrdə sərgi salonunun estetik cəhətdən əhəmiyyətini dahada artırır.Ancaq döşəmələrdə və ya stendlərdə parlaq rənglərin istifadəsi daş-qaşdan istifadə düzgün deyil çunki, gələn tamaşaçıların hər an diqqətini yayındıra bilər. Hətta qapıların yerləşdikləri hissə də diqqətlə seçilməlidir ki, gələn tamaşaçılara maneə yaratmasın və ya ekspozisiya zalını zədələməsin.

Muzeylərə giriş elə təyin olunmalıdır ki, buraya gələn tamaşaçı onu tapmaqda çətinlik çəkməsin.(1.s131)

Muzeylərin binasıda estetik cəhətdən göz oxşamalı və bununla yanaşı muzeyin həyətində ekspozisiyanın məzmununu əks etdirən heykəllər də qurularaq tamaşaçıların həm diqqətini çəkir, həm də onlarda muzeyin ekspozisiyası haqqında ilkin anlayış yaradır.

Sonda qeyd etmliyik ki,bu gün Heydər Əliyevin layiqli dəvamçısı Azərbaycan Respublikanın Prezidenti İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin mədəniyyət və incəsənət sahəsində gördüyü işləri dəvam etdirərək muzeylərimizə qayğı və diqqətini əsirgəmir.

Ümummilli lider Heydər Əliyev muzeylər haqqında demişdir "Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr arasında tərbiyə etmək üçün muzeylər lazımdır və bu muzeyləri qoruyub saxlamaq vətəndaşlıq borcumuzdur" (3.s3)

## ƏDƏBİYYAT

1. Y.Eyvazova. Muzey ekspozisiyası. Bakı: 2018
2. S.A.Əmirxanov. Azərbaycanda Muzeyşunaslığın aktual problemləri. Bakı: 2011.
3. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Azərbaycan Respublikası muzey sərvətlərinin və muzey kolleksiyasının uçotu və mühafizəsinə dair" təlimat. Bakı: 2008.

# MÜNDƏRİCAT

## FİZİKA-RİYAZİYYAT

1. **Aygül Rzayeva.** Fizikadan məsələ həlli təlimin keyfiyyətinin yüksəldilməsində vasitə kimi.....3
2. **Günay Xəlilzadə.** Ağırlıq qüvvəsinin təsiri altında hərəkətin öyrənilməsində yeni təlim texnologiyalarından istifadə.....6
3. **Şirzad Babayev.** Günəş enerjisinin termoemissiya üsulu ilə elektrik enerjisinə çevrilməsi.....9
4. **Xanım Abdullayeva.** Yüksək dərəcəli tənliklərin həllində yaradıcı təfəkkürün formalaşdırılması haqqında.....11
5. **Gülnar Orucova.** Məktəbdə riyaziyyatdan sinifdənxaric məşğələlərdə şagirdlərin nəzəri biliklərinin genişləndirilməsinə dair.....13
6. **Səma Həsənli.** Elektronların hallara görə paylanma funksiyası.....15

## YENİ İNFORMASİYA TEXNOLOGİYALARI

7. **Ayişə Əhmədova.** Müəllim hazırlığının başlanğıc kurslarında fənlərarası əlaqələr problemi....19
8. **Aytən Məhərrəmova.** Kompüter şəbəkələrinin tətbiq sahələri.....21
9. **Könül Camalbəyli.** Əməliyyat sistemlərinin təyinatı, əsas funksiyaları, tipləri və platformaları.....23
10. **Cəmalə Bağırova.** Elekrton poçt (e-mail) xidməti.....27
11. **Elmar Vəliyev.** İnformasiya cəmiyyətində informasiya mədəniyyətinin formalaşdırılması məsələləri.....29
12. **Əfifə Əliyeva.** Mətn məsələlərinin modelinin qurulması.....32
13. **Məhtəban Əliyeva.** Neyron şəbəkələr nəzəriyyəsi.....35
14. **Güllü Rzayeva.** Proqram və proqram təminatı.....37
15. **Gülnar Əliyev.** İnternetin yaranma tarixi.....40
16. **Günay Əliyeva.** İnformasiya kommunikasiya texnologiyalarının müxtəlif elm sahələrində tətbiqi.....42
17. **Asiman İsmayılov.** Süni intellektə qeyri-səlis məntiqin rolu.....44
18. **Könül Rüstəmli.** Texnologiyanın həyatımızda rolu.....46
19. **Türkan Qasımova.** Sosial şəbəkələrdə istifadəçiləri gözləyən təhlükələr.....48
20. **Lalə Həsənova.** İnformasiya cəmiyyətində informasiya müharibəsi texnologiyaları.....50
21. **Leyla İbrahimova.** Biometrik identifikasiya və onun mənfi tərəfləri.....48
22. **Nurlan Səfərov.** Proqram mühəndisliyində süni intellekt problemləri.....54
23. **Ramilə Əliyeva.** İnformasiya sistemləri və onların təsnifatı.....56
24. **Günay Tahirova.** İP- ünvan sinifləri.....58
25. **Günel Tahirova.** Respublikamizda "hökumət buludu".....60

## TƏBİƏT VƏ KƏND TƏSƏRRÜFATI

26. **Xanım Qurbanova.** Naxçıvan Muxtar Respublikasında istismar olunan suvarma kanalları, onlarda su itkiləri və itkilərə qarşı mübarizə tədbirləri.....62
27. **Günel Qasımova.** Coğrafıya təlimi prosesində qiymətləndirmənin növləri, üsul və vasitələri...65
28. **Tuqay Abdullayeva.** Torpaqların kimyəvi tərkibi və radioaktivliyinin öyrənilməsi metodikası.....68
29. **Leyla İsalı.** Naxçıvan Muxtar Respublikası torpaqlarının mühafizəsinə dair.....71
30. **Aysun Süleymanova.** Ağız boşluğunda həzm və onun sinir-humoral tənzimi.....74
31. **Züleyxa Quliyeva.** İnteroreseptorların tədqiqinə dair.....77
32. **Lamiyə Seyidova.** Şərur rayonu florasının etnobotaniki tədqiqinə dair.....80

33. **Zülfiyyə Seyidzadə.** Dərinin anatomik quruluşu, fiziologiyası və problemləri..........................83
34. **Sima Bayramova.** Sarkosporidilərin (*Sarcocystis*) həyat dövriyyəsi və taksonomiyası.............86
35. **Günay Tarverdiyeva.** Fotosintezin təbiəti.......................................................................89
36. **Yaqut Məmmədzadə.** Ürək-damar sisteminə stress və ekoloji amillərin təsiri........................93
37. **Gülsüm Nuriyeva.** Kimya tədrisinin keyfiyyətinin yüksəldilməsi yolları...............................96
38. **Məhəbbət Qarayeva.** Kimyəvi reaksiyaların istiliyi alternativ enerji mənbəyi kimi…………..99
39. **Türkan Hüseynova.** Damazlıq heyvandarlığın inkişafında süni mayalanmanın rolu.............101
40. **Əsgər Lətifov.** Ev quşların askaridiozunda ümumi profilaktika............................................103
41. **Nuridə Paşayeva.** Brusellyoz aşkar edilmiş qaramalin kəsim məhsullarinin qiymətləndirilməsi..........................................................................................................105
42. **Sitarə Verdiyeva.** Ev quşlarında parazitlik edən təkhüceyrəli (*Protozoa*) parazitlərin biomorfoloji xüsusiyyətləri.................................................................................................107
43. **Leyla Talıbova.** Bənövşəkimilər - *Violaceae* batsch fəsiləsinin Naxçıvan MR ərazisində tədqiqi vəziyyəti..........................................................................................................................109

## İNCƏSƏNƏT

44. **Anar Sadiqov.** Ordubad şəhərinin orta əsrlər memarlıq planlaşma həlli.................................112
45. **Rüstəm İbrahimov.** Azərbaycanda professional milli vokal sənətinin banisi..........................114
46. **Aynur Fərzəliyeva.** Müasir Naxçıvan memarlığının dayanıqlı inkişafi – tarixi-milli prinsiplərdən inkişaf strategiyasına qədər......................................................................................116
47. **Dürrü Bağırova**. Azərbaycanda fortepiano musiqisinin yaranma tarixindən...........................120
48. **İnci Əliyeva**. Üzeyir Hacibəyovun publisistik fəaliyyəti........................................................122
49. **Fərhad Allahverdiyev**. Təsviri sənətdə impressionizm..........................................................124
50. **Fəridə Baxşızadə.** Əfsanəvi Muxtarov sarayı........................................................................126
51. **Fəridə Rüstəmxanlı.** Süleyman Ələsgərovun yaradıcılığında vətənpərvərlik motivləri……..128
52. **Göyçək Hacıyeva.** Xəyyam Mirzəzadənin fortepiano yaradıcılığı..........................................130
53. **Hakim Məmmədov.** Azərbaycan xalq çalğı aləti tarın keçdiyi yol.........................................132
54. **İnci Novruzlu.** N. Rimski-Korsakovun “Şəhrizad “ simfonik süitası......................................134
55. **Leylaxanım Məmmədova.** Cabbar Qaryağdıoğlunun xanəndəlik sənəti...............................136
56. **Mələk Həsənova.** Ramiz Mirişlinin mahnı yaradıcılığı..........................................................139
57. **Çilər Məmmədova.** Azərbaycan kino musiqisində Arif Məlikovun rolu...............................140
58. **Nuray Dünyamalıyeva.** Şagirdin musiqi-estetik zövqünün formalaşmasında musiqi dinləmənin rolu.................................................................................................................................142
59. **Ruzalə Əliyeva.** Heydər Əliyev və musiqi türkologiyası.........................................................144
60. **Radik Şıxkərimov.** Təsviri incəsənət fənninin orta məktəblərdə tədrisi metodikası...............146
61. **Türkanə Rzayeva.** Azərbaycanda fleyta alətinin inkişafında ifaçıların rolu............................149
62. **Vəfa Qurbanova.** Azərbaycanın xalq artisti Nəsibə Zeynalova filmdə və teatrda...................151
63. **Merve Akkuş.** Ahlat mimarisi..................................................................................................154
64. **Səməd Əsgərov.** Naxçıvanlı bəstəkarların yaradıcılığında balet janrı....................................157

## AZƏRBAYCAN DİLİ

65. **Ülviyyə Hacıyeva.** Leksik omomorfemlərin tədrisi məsələləri................................................159
66. **Xatın Qurbanova.** Salik Ordubadinin həyatinin ali məktəbdə tədrisi üsulları.........................162
67. **Fatma Seyidli.** XX əsrin birinci yarısında Azərbaycanda bədii dilin inkişafı...........................165
68. **Səfurə Piriyeva.** Şəhriyar yaradıcılığında Güney Azərbaycan dialektlərinə məxsus fonetik xüsusiyyətlərin izləri.......................................................................................................167
69. **Ülviyyə Aslanova.** İbtidai siniflərdə savad təlimi dövründə şagirdlərin nitqinin inkişaf etdirilməsi ilə bağlı aparılan işlər...........................................................................................170

70. **Alina Babayeva.** Müasir təhsilin inkişafında təlim metodlarından istifadə............................172
71. **Ülviyyə Məhərrəmova.** Osmanlı qaynaqlarında adı keçən Əfşar etnonimi bəzi tədqiqatlarda..............................................................................................................174

## DİLÇİLİK

72. **Aysel Əsədova.** The mental process in learning languages: benefits of bilingualism…………176
73. **Aysun Novruzova.** About the representatives of British poets and writers of renaissance period..............................................................................................................180
74. **Ayşən Mədədli.** Modern theoretical approaches to teaching foreign languages......................183
75. **Şahnaz Əhmədova.** Xarici dillərin tədrisində innovativ metodlar.........................................185
76. **Bənövşə Hüseynova.** New pedagogical technologies in teaching foreign languages..............187
77. **Qızxanım Cəfərova.** Effective communication and some of its barriers...............................189
78. **Lalə Rzayeva.** The semantic features of quantitative vocabulary of english language……...192
79. **Nuray Mirzəliyeva.** Ethnography of communication............................................................195
80. **Nurşən Qurbanova.** Personality-oriented approach in teaching a foreign language…………197
81. **Emma Seyidova.** Socio-cultural factors in foreign language learning. .................................199
82. **Ceyran Əsədova.** Azərbaycan və alman dillərində cümlənin ikinci dərəcəli üzvlərinin sintaktik təhlilinə dair...........................................................................................................202
83. **Şaiq Quliyev**. Xarici dilin öyrənmə metodları və insan həyatında rolu.................................205

## İCTİMAİ-SİYASİ ELMLƏR

84. **Tural Cəfərov.** Azərbaycan Respublikasında insan hüquqları.............................................207
85. **Təbrizə Bağırova.** Xəzərin dənizinin hüquqi statusu: Xəzərin enerji resursları və nəqli problemləri.............................................................................................................209
86. **Ləman Cəfərli.** Çinin xarici siyasətində Yaxın Şərqin yeri: maraqlar və risklər...................211
87. **Lətif Abbasov.** Azərbaycanda dünyəvi və müsəlman qanunvericiliyinin qarşılıqlı əlaqəsi....213
88. **Səməd Şahtaxtinski.** Azərbaycan demokratik respublikasında hüquqi dövlət quruculuğu.............................................................................................................216
89. **Ziniyət Məmmədova.** Kültəpə yaşayış yerində aparılan qazıntılar.......................................219
90. **Şərəbanı Abbasova.** Gənclər hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu kontekstində.............................................................................................................222
91. **Bəhrəm Əliyev.** Borc problemlərinin beynəlxalq səviyyədə tənzimlənməsi..........................224
92. **Firudin Fərmanlı.** Müəssisə maliyyəsinin menecmenti.........................................................226
93. **Hüseyn Hacıyev.** Azərbaycanda gənclər siyasəti...................................................................229
94. **Nigar Məhərrəmova.** Vergi proqnozlaşdırılmasının hüquqi əsasları...................................232
95. **Mərhəmət Bayramov.** Sənaye sahələrinin inkişaf dinamikası..............................................234
96. **Məsud Fərəcov.** Aqrar sığorta bazarının öyrənilməsi mərhələləri........................................238
97. **Püstə Cəfərova.** Qloballaşma və Azərbaycan.........................................................................241
98. **Şənay İsmayılova.** Azərbaycanda sosial könüllülük..............................................................245
99. **Sevinc Hüseynli.** Parlament idarəçiliyi.................................................................................248
100. **Misirxan Kazımlı.** Soyuq müharibədən sonra terrorizmə qarşı mübarizədə beynəlxalq təşkilatlar.............................................................................................................252
101. **Elşən Nəcəfov.** Yol hərəkəti iştirakçılarının qarşılıqlı davranış münasibətləri.......................255
102. **Zeynəb Qasımova.** Azərbaycan nəqliyyatının inkişafı..........................................................258
103. **Nihad Kərimov.** Avtomobil yollarında hərəkətin nizamlanması............................................260
104. **Cavidan Cəfərli.** Cənubi Qafqazda Rusiya amili...................................................................262
105. **Ziya Əhmədov.** Vergi potensialının formalaşmasına təsir edən amillər................................264
106. **Aysel Edilxanova.** Tarix təlimində anlayışların təşəkkülü......................................................268

107. **Nuranə Hüseynova.** Tarix dərslərinin tədrisində kompüter texnologiyasından istifadənin əhəmiyyəti........................................................ ..........................................................271
108. **Aliyə Məmmədova.** Mədəni irsdə turizm amillərinin əsaslandırılması və öyrənilməsi...........274
109. **Faiq Abdullayev.** Dövlət qulluqçularının peşəkar inkişafında təlim və fəaliyyətin qiymətləndirilməsi....................................................................................................276
110. **Həbib Mehdiyev.** Naxçıvan Muxtar Respublikasında perspektivli turizm növləri.................278
111. **Ülviyyə Mehdiyeva.** Turizmdə qiymət mexanizminin formalaşması və dəyişməsi xüsusiyyətləri.......................................................................................................281
112. **Nərmin Şirəliyeva.** Vətəndaşlıqla bağlı məsələlər və onların izahı.......................................286
113. **Elxan Quliyev**. Peşəkar dövlət qulluğu institunun yaranması...............................................289

## PEDAQOGİKA VƏ METODİKA

114. **Aytən Mustafayev.** Texnologiya dərslərində fənlərarası əlaqənin həyata keçirilməsi............291
115. **Elmira Məmmədova.** Müasir dövrdə texnologiya fənninin tədrisi.......................................293
116. **Xuraman Əliyeva.** Təhsilin humananistləşdirilməsinin psixopedaqoji təhlili........................295
117. **Nərmin Əliyeva.** İnteraktiv təlimə ənənəvi və fəal təlimdən keçid.......................................298
118. **Fatma Nəsirli.** Uşaqlarda əxlaqi keyfiyyətlərin tərbiyyəsində istifadə olunan şifahi xalq ədəbiyyatı nümunələrinin təlim-tərbiyə imkanları..................................................................300
119. **Xeyrənsə Fərzəliyeva.** XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış və pedaqoji fikrin inkişafı........................................................... ..................................................................302
120. **Gültəkin Rüstəmli.** Şagirdlərin təhsilə marağının artırılmasında məktəb psixoloqunun rolu..................................................................................................................304
121. **Xatirə Həsənli.** Mənəviyyat: onun fəlsəfi və pedaqoji mahiyyəti..........................................308
122. **Heyran Həsənova.** Təhsilin həyatımızda rolu.......................................................................311
123. **Sara Həsənova.** Məktəblərdə psixoloji xidmətin zəruriliyi.....................................................313
124. **Aytac Həsənzadə.** Əmək təlimində istifadə olunan üsullar və onların tətbiqi..........................315
125. **Kəminə Cəfərova.** Müasir dövrdə pedaqogika elminin inkişafı............................................316
126. **Könül Quliyeva.** Yeniyetmə və gənclərin vətənin müdafiəsinə hazırlığında fiziki tərbiyənin əhəmiyyəti...............................................................................................................319
127. **Kubra Qurbanova.** Düzgün psixoloji xidmət təhsilimizin sabahıdır...................................321
128. **Nuranə Niftəliyeva.** Fiziki tərbiyə prosesində gənclər və yeniyetmələrə verilən fiziki yük....324
129. **Məryəm Rzabəyli.** Azərbaycan pedaqoji fikir tarixində Əhməd Seyidovun xidmətləri..........327
130. **Sevinc Məmmədova.** I-IV sinif şagirdlərində ekoloji mədəniyyət tərbiyəsinin formalaşdırılması..........................................................................................................329
131. **İlahə Şirvanskya.** Tədris prosesində yaradıcılıq qabiliyyətlərinin inkişafı............................331
132. **Turac Maxsudova.** Kurikulumun xüsusiyyətləri....................................................................333
133. **Məhsəti Süleymanova.** Uşaq folklorunun öyrənilməsində Rəşid bəy Əfəndiyevin rolu.........336

## BİBLİOQRAFİYA VƏ MUZEYŞÜNASLIQ

134. **Zümrüd Əhmədova.** Xalqımızın maddi-mənəvi sərvəti olan muzeylər və onların ekspozisiya dizaynı................................................ ....................................................................337

Nəşriyyat direktoru: Samir Tarverdiyev
Mətbəə müdiri: Vidadi Kazımov
Baş mühəndis-proqramçı: Səminə Rüstəmova
Aparıcı redaktor: Sahilə Abbasova
Aparıcı redaktor: Günel Məmmədova
Aparıcı korrektor: Sitarə Əlizadə

Yığılmağa verilib: 12.05. 2022
Çapa imzalanıb: 24.05.2022
Formatı: 60/90, 32/1, həcmi 21.43 ç/v
Sifariş № 43, sayı 150 nüsxə

NDU-nun «Qeyrət» nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**REDAKSİYANIN ÜNVANI:** *7000. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə,*
*"Qeyrət" nəşriyyatı*
**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61
**E-mail:** *elmi.hisse@mail.ru*